Nəriman
ƏBDÜLRƏHMANLI

Şəms

(roman-qeybnamə)

QANUN NƏŞRİYYATI

Rəyçi:
Əsgər RƏSULOV,
türkoloq, filologiya elmləri doktoru, professor

Redaktor:
Zakir MƏMMƏD

Əbdülrəhmanlı N. Şəms (roman-qeybnamə).
Bakı, Qanun nəşriyyatı, 2022, 552 səh.

Mövlana Şəms Təbrizi, Mövlana Cəlaləddin Rumi, onların münasibətləri barədə müxtəlir janrlarda, cürbəcür versiyalar irəli sürən onlarla əsər yazılıb.

"Şəms" romanında isə müəllif Şəms Təbrizinin həyatına tamamilə başqa yandan baxır, əsərdən-əsərə təkrarlanan məlum süjetlərdən kənar çıxır, oxucunu dövrün coşqun hadisələri içində itib-batmağa, qəhrəmanın kamilliyə doğru çətin yolunu izləməyə, Eşq, Sirr, Qeyb aləminə cummağa məcbur edir.

Romanda XII əsrin sonu – XIII əsrin birinci yarısının dolğun mənzərəsi, bir-birindən maraqlı tarixi hadisələr əks etdirilib, eyni zamanda, zamanın burulğanlarında taleləri bir-biriylə çulğaşmış şəxsiyyətlərin portretləri yaradılıb.

ISBN 978-9952-38-318-8

© Əbdülrəhmanlı N., 2022
© Qanun nəşriyyatı, 2022



And olsun Günəşə və onun saçdığı şəfəqə!
And olsun ondan sonra zühur eləyən Aya!
And olsun Günəşi üzə çıxaran gündüzə!
And olsun Günəşi bürüyən gecəyə!

Qurani-Kərim, əş-Şəms surəsi, I-IV ayələr



Biz öləndən sonra dünyada axtarma məzarımızı,
Çünki arif insanların könlündədir məzarımız.

Şəms TƏBRİZİ

HEKAYƏTİN MABƏDİ

DÖRD CANIN YEDDİ ÖLÜMÜ

Bir anlığa ayaq saxla,
geri dön, unutduqlarını xatırla,
itirdinsə, axtar,
incitdinsə, əfv dilə,
incidinsə, əfv elə,
çünki həyat çox qısadı...





Dərdinizi hər kəsə bəlli eləməyin, çünki ocağınıza kimin odun atacağını bilməzsiniz. Amma mən *Qeyb yolu*nda qəlbimdəkiləri söyləyib yüngülləşmək, *Eşq*imi bir Allah bəndəsinə tamam-kamal ayan eləmək istədim, çünki *Eşq*i qələm yaza bilməz, onu kitablarda tapmaq müşkül məsələdi. Bir də ki, insan bəzən hardan gəldiyini unutmamaq üçün dönüb geri baxmalıdı, mən də geri baxdım, gördüm hər kəs cismində bir can saxlayır, dünyadan bircə kərə köçür, mənsə özümdən başqa üç kəsin də cismini-canını gəzdirmişəm. Amma bunu özüm istəməmişəm, Allahın məsləhətidi, yəqin, Yaradan belə şeyləri yalnız seçilmişlərə rəva görür. Görünür, *O*-nun seçilmişlərindənəm – dünyaya gələndə mənə əksər bəndələrinin sahib olmadıqlarını verib: ağlagəlməz sınaqlarla üzləşdirib, zəmanənin ən böyük zəka sahibləriylə üz-üzə gətirib, düşmənlərin ən zalımını, dostların ən sadiqini bəxş eləyib, dəfələrlə ölümdən qurtarıb, ömrüm boyu axtardığım Dostuma yetirib, ayrılıqların ən ağırını yaşadıb. Bütün bunlarla yanaşı, axirət evinə köçəndən sonra haqqımda danışılan vaqeələr bir yox, dörd Allah bəndəsinin başına gələnlərdən ibarət olacaq. Elə bil, *O* məni həm də həmin üç nəfəri ölümlərindən sonra yaşatmaq üçün dünyaya gətirib.

Cismimdə dörd can gəzdirməklə yanaşı, yeddi kərə ölmüşəm, daha doğrusu, iki dəfə öldürülmüşəm, dörd dəfə öz əcəlimlə axirətə köçmüşəm, bütün bəndələr kimi, məni gözləyən ölüm – yeddinci ölüm də - artıq yaxındadı, nəfəsini aydın-aşkar

duyuram. Bir ömrümdə Allahın bəxş elədiyini artıqlamasıyla yaşadım: məmləkətləri, şəhərləri, səhraları dolaşdım, ağac kölgəsində, karvansaray hücrəsində, mədrəsə küncündə yaşadım, cürbəcür zəka sahiblərilə döş-döşə gəldim, neçə dəfə ölümün gözlərinin içinə baxdım, amma gəlib bu yaşa çatdım, deməli, qismətimdə vaxtsız ölüm yoxmuş. Hələ ki, altı qəbrim var: ikisi Konyada, biri Niğdədə, biri Qeysəriyyədə, biri Xoyda, biri Kuhistandakı Meymundiz qalasındadı, yeddincisi də, yəqin, Təbrizdə, valideynlərimin uyuduğu Gəcildə, Məqbərət-ül-Ürəfa qəbiristanlığında olacaq. Sonuncusu adi qəbirlərdən fərqlənməyəcək, dəbdəbəsi-filanı gözə dəyməyəcək, bəlkə, məni bu şəhərdə tanıyan axırıncı adam dünyasını dəyişəndən sonra yeri büsbütün unudulucaq, yaddaşlardan silinəcək. O biri qəbirlərim barədəsə bunu deyə bilmərəm, güman ki, üstündə insanlara yarayacağı tərzdə sanduqələr, məqbərələr, türbələr ucaldacaq, cürbəcür adlar verəcəklər – bu, artıq mənim qüvvəm xaricindədi, *Allahın məsləhəti nədisə, o da olacaq...*

Mənə, üstəlik, qeybdən yeddi ad əta olunub. Dünyaya gələndə Məlikdad oğlu Əlinin övladı Muhammməd kimi tanınmışam. Quranı xətm eləyəndən sonra şeyxim Şəms-əd-Din – Dinin Günəşi ləqəbi verib. Qürbət ellərdə Şəmsəddin Təbrizi, elm-irfan adamları arasında Şəms Təbrizi kimi tanınmışam, mərifətimə görə, Kamili-Təbrizi, gəzəri dəvriş olduğum səbəbindən Şəmsəddini-Parəndə adlandırıblar, salnaməçilər qələmə aldıqları salnamələrində adımı Şəmsəddin Muhammməd Təbrizi kimi çəkirlər. Əlbəttə, bu adların daşıdığı yükdə adıma çıxılan üç zatın – Şeyx Övhədüddinin müridi, Nəsirəddin Mahmudun xəlifəsi, Kamili-Təbrizi kimi tanınan Kəmaləddin Muhammməd Təbrizinin, Şamın qazı-ül-qüdatı Şəmsəddin Muhammməd Xoyinin, Əlamut imamı Cəlaləddin Həsənin oğlu Şəmsəddin Muhammədin payı da var, bundan sonra başqalarının da peyda olacağına şübhəm yoxdu. Konyadan çıxandan bəri izafi yükün ağırlığını açıq-aşkar duymuşam, bu səbəbdən, yaşadığım ömrün

hekayətini özümlə axirət dünyasına aparmaq istəmirəm, Can Dostumun ölüm xəbərini alandan sonra da bu fikir heç yaxamdan əl çəkmir. Başıma gələnlər bir ömür üçün az deyil, əlbəttə, Can Dostumun, tələbələrimin mənimlə bağlı nələrisə yazıya köçürəcəklərinə, yaşadacaqlarına şübhəm yoxdu, bununla belə, sonralar dörd Allah bəndəsinin taleyi bir-birinə qarışmasın deyə, hekayətimi özüm danışmaq istədim. Çünki *insanın yaşayanda anlaya bilmədiyi dəyərləri öləndən sonra anlamasının bir kimsəyə faydası yoxdu, gərək sevgisini də, nifrətini də sağ vaxtı ifadə və etiraf eləyə.*

***

...O gecə Məram bağlarınacan birnəfəsə qaçdım. Artıq Peyğəmbər yaşında olsam da, canımda hələ cavanlığımdan – Parəndə çağrıldığım vaxtlardan, uçağanlığımdan – nəsə qalıbmış. Qolumdakı xəncər yarasının zoqqultusunu da elə Can Dostumun üzüm bağına çatanda hiss elədim. Bəxtim gətirib, zərbə sol qoluma tuş gəlmişdi, alt köynəyimin bir tərəfini cırıb yaramı sağ əlimlə bağlaya bilərdim. Ayın ziyası üzümlüklərin artıq çılpaqlaşmış sıralarını aydınladırdı. İki hənd arasındakı azca qəlbi yerdə ayaq saxladım, əvvəlcə dərin-dərin soluğumu aldım, sonra oturub sağ əlimlə can köynəyimin sol yanını parçaladım, sol qolumu bərk-bərk bağladım. Allah üzümə baxmış, zərbədən məqamında yayına bilmişdim; xəncər qolumun biləkdən yuxarısını ancaq sümüyəcən kəsmişdi. Görünür, xəncər vuran adam bu yaşımda belə cəld olacağımı gözləmirmiş, bir də ki, "Allah!" nərəm onu da, yaxınlaşan dostlarını da, az qala, bayıltmışdı, o halətdə niyyətlərini yerinə yetirmək iqtidarında deyildilər; *bu da Allahın mənə lütfüydü...*

Əslində, o zərbəni çoxdan, bu şəhərə gəlib çıxandan, həm də hər yerdə, hər an gözləyirdim, qəsdimə duran kəslərin günlərin birində qarşıma çıxıb qəmələrini, xəncərlərini, qılınclarını siyirəcəklərini, bəlalı başımı bədənimdən ayıracaqlarını, ya da

arxadan gizlincə yaxınlaşıb bircə qılınc zərbəsiylə kəllə çanağımı parçalayacaqlarını, xəncərlərini, yaxud qəmələrini kürəyimin sol tərəfinə, düz ürəyimin olduğu yerə saplayacaqlarını hiss eləyirdim. Pul-para verib qatil tutacaqlarına, ya da yeməyimə zəhər qatacaqlarına inanmırdım, çünki özlərini can çəkşiməyimi görmək, əzablarımdan həzz almaq, meyitimi öz gözləriylə görmək zövqündən məhrum eləyə bilməzdilər. İti gözlərimdəki işığın sönməsinə, kəskin dilimin ağzımdan çıxıb göyərməsinə, sir-sifətimin əyilməsinə, rəngimin dəyişməsinə tamaşa eləmək üçün üç ildən bəriydi ki, hazırlaşırdılar. Neçə dəfə Şam yolunda, Konyanın küçələrində, Can Dostumun məqamının ətrafında onların nəfəsini duymuş, kin-küdurət dolu baxışlarını canımda hiss eləmişdim. Amma hər dəfə də Allahım məni bir təsadüflə qorumuş, öldürülməyimə izin verməmişdi. Elə bu dəfə də pənahında saxladı, yenə düşmənlərimlə canımın arasına girdi, qovğa yerinə düşən üç damcı qansa onların məndən aldıqları intiqamın əlamətidi.

Can Dostumla şirin söhbət əsanasında da onların nəfəsini yaxınlıqda hiss eləmişdim. Həmin məqamda qəfildən gərilməyim, həyəcanlanmağım, təhlükə duymuş qaplan kimi ətrafı qoxulamağım həmsöhbətimi əməlli-başlı qorxutmuşdu: gözəl gözləri alacalanmış, hələ təravətini itirməmiş yanaqlarının rəngi qaçmış, ağzını açıb nəsə demək, bəlkə də müridlərini səsləmək istəmiş, amma mənə görə Allah bunu məsləhət bilməmişdi, çünki taleyim, daha doğrusu, taleyimiz əvvəlcədən bəlirlənmişdi, yolumuz ordaca, elə o məqamdaca ayrılmalıydı. Onun hayqırtısının öz içində boğulduğunu, az qala, taleyiylə barışdığını, ayrılığı qəbul elədiyini görüb bir qədər yüngülləşmişdim: beynimdən keçirmişdim ki, *qədərdən qaça bilməzsən, çünki qaçış da qədərdi, artıq bu şəhərdə görəcəyim bir iş qalmayıb, qazandıqlarımı qazanmış, itirdiklərimi itirmişəm, çıxıb getməliyəm; elə şeylər var, Allahın lütfüylə istəyimizin gerçəkləşməsinə səbəb olur.*

Adımı hücrənin kandarına yetişmiş kəsin dilindən eşidəndə heç təəccüblənməmişdim. Həmin məqamda Can Dostumun titrəyən əli dizimə toxunmuşdu, sanki son ümidlə məni bu gedişdən çəkindirmək istəyirdi. Əlini ehmalca onun pilə kimi yumşaq, hələ qırış düşməyən əlinin üstünə qoymuşdum, bir anlığa nəzərlərimiz toqquşmuşdu, üç il ərzində yaşadığımız ömrü bir-birimizə sözsüz-sovsuz nağıl eləmişdik. İstəmişdim deyəm, Can Dostum, əndişəyə düşmə, *Eşq* bəzən "CAN", bəzən "QAM", bəzən də böyük bir "HEÇ" olur, amma dilimdən "Əlvida, məni öldürməyə çağırırlar" kəlmələri qopmuşdu, sonra qalxmış, xirqəmi geyinmədən qapıya sarı getmişdim. Can Dostumun səsi çıxmasa da, sinəsindən necə fəryad qopduğunu, son ümidinin necə əriyib yoxa çıxdığını hiss eləmişdim. Deyəsən, artıq ikimiz də qədərimizlə barışmışdıq – nə o, yerindən tərpənə bilmiş, nə də mən geri çevrilməyə özümdə güc tapmışdım. Oturduğumuz yerlə hücrənin qapısının arası cəmi-cümlətanı üç-dörd addımlıq olsa da, mənə bir ömür qədər uzun *(güman ki, Can Dostuma da ondan qısa görünməzdi)* gəlmişdi: o qapının kandarında məni ölüm gözləyirdi, Allah məsləhət bilmişdisə, Əzrayıl dərhal yaxalayacaq, öz işini kəmali-ədəblə görəcək, sərgərdan həyatıma son qoyacaqdı. Mənə elə gəlmişdi, hücrənin qapısı bu dəfə başqa cür cırıldayır. Can Dostumu bilmirəm, mən o cırıltıda bir qədər tənə duymuşdum, axı, əslində, Şama gedəndən sonra buralara qayıtmamalıydım, çünki Can Dostuma verəcəyimi vermiş, Allahdan taleyimə yazılan xatunumu itirmiş, üstəlik, bu şəhərdə dostdan çox düşmən qazanmışdım. Qayıtmağa nəyə görə razılıq verdiyimi öz-özümdən dəfələrlə soruşmuş, axırda belə bir qənaətə gəlmişdim: *Can Dostumun çəkdiyi əzabları bir qədər toxtatmaq, ürəyinə təpər gətirmək istəyirdim, onsuz da yenə günlərin birində qeybə çəkiləcəkdim.*

Sonra əlimi qapının dəstəyindən çəkmədən onun içindən qopan iniltini eşitmiş, o iniltidə taleylə barışıqlığı sezib xeyli toxtamışdım. Bayırda Ay nuru, yeddi kölgə, qış ayazı sezmiş-

dim, adımı kimin çəkdiyini, nədən ötrü səslədiklərini *(əslində, bunu çox gözəl bilirdim)* soruşmağa macal tapmadan birinin əlindəki xəncərin Ay nurunda bərq vuran soyuq ziyası gözlərimə sancılmışdı. O məqamda sol əlimi xəncərin ağzına verməklə neyləmək istədiyimi indi xatırlamıram. Amma onda məni axirət dünyasına göndərməyin hələ Allahın hesabında olmadağına əminəm, çünki həmin anda ilahidən gələn qüdrətlə çəkdiyim nərə təkcə zərbə vuranın yox, üstümə tökülüşməyə hazır dayananların da hesabını qarışdırmış, o zalımları əməlli-başlı çaşdırmışdı. Elə gözləmədiyim də həmin məqamda baş vermişdi: qaranlıqdan bir əl uzanıb məni kolların arxasına itələmiş, sonra da o əlin sahibi eynilə mənim görkəmimdəcə *(əynində köynəyin üstündən geydiyi canlıq vardı)* qəsdimə duranların qarşısına çıxmışdı. Kolların arxasına itələdiyi vaxt *oxşarım* qulağıma elə hökmlə "Qeyb ol!" pıçıldamışdı ki, əmrinə qarşı çıxmaq üçün özümdə güc tapa bilməmişdim. Son gördüyüm o Allah bəndəsinin – başqalarının nəzərində özümün – yeddi nəfərlə çarpışması, çarpışa-çarpışa da bağın dərinliyinə doğru uzaqlaşmaları, sonra Can Dostumun, fəryad eləyə-eləyə vurnuxması, eşitdiyim də *oxşarımın* hər zərbə alanda da nərə çəkməsi olmuşdu.

Qolumdan çəkib məni qaranlığa itələyən, elə öz görkəmimdə də basqınçıların qarşısına çıxıb dör-dör döyüşən *oxşarım*ı tanıyırdım, daha doğrusu, nə adını bilirdim, nə də üzünü düz-əməlli görmüşdüm, yalnız əlinin və nəfəsinin təması yadımdaydı. Vaqeədən üç gün qabaq, şər qarışan vaxt tələbələrimdən birinin hücrəsindəki uzun çəkən söhbətdən sonra Can Dostumun məqamına qayıdanda qəfildən mədrəsəyə yaxın tində bir əl biləyimdən yapışıb məni qaranlığa çəkmişdi. Özümə gəlməmiş qarşımda yaşı bilinməyən, eynilə mənim qılığımda olan adam görmüşdüm. Bir özümə, bir ona baxdığımı sezib gülmüş, demişdi, nə çaşqın-çaşqın döyükürsən, biz hər yerdə, hər kəs ola bilirik, özünə gəl, dediklərimi yaxşı dinlə, - sonra əlavə eləmişdi, - mənə səni qorumaq, arxanca kölgə kimi gəzmək, hər

bir təhlükə məqamında mütləq yaxınlığında olmaq, lazım gəlsə, canımı yolunda fəda eləmək, amma sənə bir xətər dəyməsinə izin verməmək tapşırılıb, - demişdi, - xəbər tutmuşam, səni aradan götürmək üçün yeddi nəfər dil tapıb, münasib bir vaxtda məramlarına çatmaqdan ötrü fürsət gözləyirlər, - demişdi, - artıq Konyada qalmağın təhlükəlidi, üstəlik, bu şəhərlə bir bağın da yoxdu, verdiyini vermisən, itirdiyini itirmisən, aldığın, yəni qazandığın ancaq canındadı, ona görə də mümkün qədər tez, həm də nəzərə çarpmadan Konyadan getmək, daha doğrusu, qeyb olmaq məsləhətdi, – demişdi, – *qeybə çəkilmək* də səndən ötrü çətin iş deyil, əksinə, Allahın bəxş elədiyi bacarıqdı, – axırda demişdi, yadında saxla: *tez, həm də nəzərə çarpmadan qeyb ol, bəlkə, sənə bir də xəbərdarlıq eləməyə fürsət tapmadım...*

Əslində, həmin məqamda Surətimdən yetişən əmrlə Konyadan çıxmaq mənə ağır gəlirdi, bunu ağzıgöyçəklər qorxub meydandan çıxmaq kimi qəbul eləyə bilərdilər. Amma artıq axır vaxtlar dər-üs-səltənədə qalmaq məndən ötrü məşəqqətə çevrilmişdi: Xatunumu qəsdən öldürdüyüm barədə yayılan dedi-qoduların abırsız şəkil alması, Can Dostumla aramızda get-gedə böyüyən ixtilafın baş verməsi, üstəlik, qulağı daim mənə qarşı sözlərlə doldurulan Əlaəddin Çələbinin açıq-aşkar təhdidi həyatımı dözülməz eləmişdi. Ola bilsin, basqına gələnlər arasında o da vardı, lap elə sol qolumdakı yaranı da Can Dostumun ipə-sapa yatmayan oğlu vurmuşdu, amma başlıqları olduğuna görə, heç birinin üzünü düz-əməlli görə bilməmişdim. Bu səbəbdən, *oxşarım* qolumu buraxıb bir göz qırpımında yox olandan az sonra özümə gələndə beynimdə bircə fikir vardı: *Konyadan getmək, qeyb olmaq gərəkdi.* Bundan ötrü mənə üç gün lazımıydı, o üç gündə tələbələrimlə vidalaşmalı, xatunumun qəbrinə baş çəkməli, Can Dostumla aramızdakı ixtilafı bir tərəfə çıxarmalı, sonra neçə illər əvvəlki kimi, Parəndə Şəmsə çevrilməliydim.

Tələbələrimlə vidalaşmaq iki günümü almışdı: hər biriylə söhbət eləmək, suallarına cavab vermək, gələcəklərilə bağlı

qayğılarımı bölüşmək lazım gəlirdi. İllah da elə ilk günlərdən aramızda könül bağı yaranmış hələbli Nəsiməddin hələm-hələm əl çəkənə oxşamırdı. Şərbətə qonaq eləmiş, uzun-uzadı söhbətə tutub vaxtımın xeyli qismini almışdı. Əvvəla, mənəvi həyatımın necə başladığını soruşmuşdu, cavab vermişdim, validəm deyərdi, oğlum, nə dəlixanaya salınacaq qədər dəli, nə də təkkəyə göndəriləcək qədər müqəddəssən; mən də ikisinin arasındakı yolu seçdim, Allaha öz yolumla yetişmək qərarına gəldim. Mənən də məsum olan tələbəm gözlərində sonsuz maraq bunu validəmə necə izah elədiyimi soruşmuşdu, demişdim, validəmi çox sadə yolla başa saldım, ördək balasıyla pişiyin əhvalatını danışdım: bir ördək balasını pişiyə əmanət eləyiblərmiş, pişik hara gedirmişsə, bala ördək də arxasınca qaçırmış; bir gün də gəlib gölün qırağına çatırlar, bala ördək tərəddüdsüz-filansız özünü suya atır, pişik arxasınca qışqırır ki, tez ordan çıx, boğulacaqsan, bala ördək də deyir, yox, anacan, mənim üçün nəyin yaxşı olduğunu öyrəndim, burda qalmalı olduğumu dərk elədim, çünki bəlkə də sən gölün nə demək olduğunu bilmirsən, məndən ötrüsə göl həyatın mənasıdı, – demişdim – validəm söylədiklərimə qulaq asıb ancaq köksünü ötürdü, görünür, İlahinin təqdirinə qarşı getməyi faydasız hesab elədi, o vaxtdan da həyatımın axarını döndərməyə çalışmadı.

O axşam, yəni qeybə çəkildiyim gecə Can Dostumla xeyli üz-üzə oturub susmuşduq; susanda daha aydın danışırdıq, çünki sükutda həm səssizliyin işığı, həm də danışmamağın faydası var. Amma xeyli sükutdan sonra sözə ehtiyac duymuşduq, çünki ətrafımızda baş verən hadisələrlə bağlı fikir birliyinə vara bilmirdik. Can Dostum əxilərə yağı kəsilmişdi, məmləkətin bütün bəlalarına onların səbəb olduqlarını iddia eləyirdi; onun fikrincə, tatarlar iqtidarlarını tamam qurandan sonra bu torpaqlarda əmin-amanlıq hökm sürəcək, camaat rifah içində yaşayacaqdı. Mənsə bunun tamam əksini söyləyirdim: əxilərlə əlbir olub məmləkəti tatarlardan təmizləmək, güclü, həm də ağıllı

bir sultanın taxta çıxmasına yardım göstərmək lazımdı. Görünür, Əlaəddin Çələbinin əxilərə qoşulması barədə söylənənlər Can Dostumun yaralı yeriydi, bu səbəbdən, dediyindən dönməmişdi ki, dönməmişdi. Mənsə Əlaəddinin əxilərə qoşulduğuna inanmırdım, çünki onların arasında hələ onun kimi pis qəlbli Allah bəndəsinə rast gəlməmişdim, üstəlik, vaxtım daralır, hər gün boynumun ardında basqınçıların nəfəsini daha aydın duyurdum, arxamca kölgə kimi gəzən *oxşarım* olmasaydı, yəqin, çoxdan xəlvət yerlərin birində xəncərlə doğranmışdım.

Səhəri gün qəbirstanlığa, xatunumun məzarı üstünə getmişdim. Düzdü, Can Dostumun məni Konyaya bağlamaq üçün taleyimizi zor-xoş birləşdirdiyi o günahsız qızlığının ölümündə özümü günahkar sayırdım, amma günahım dedi-qodularda ayaq tutub yeriyən iftira kimi, onu öldürmək deyildi – heç vaxt zənən xeylağına əl qaldıra bilməzdim. Məni istəməyənlərin düzüb-qoşduqları böhtana düşünüb-daşınmadan inanan Əlaəddin Çələbinin Kimyanı sevdiyinə inanmasam da, qanıma yeriklədiyindən xəbərim vardı, qeybə çəkilməyim onun da könlüncə olacaq, bəlkə, taleylə barışıb izdivacımızın səbəbkarı olan validini bağışlayacaqdı. Qəbrin üstündəki quru payız çiçəklərinə toxunmamışdım, yalnız otları təmizləmiş, "Fatihə" oxumuş, o məqamda fikirləşmişdim, Kimya Xatunun yeri cənnətdi, çünki dünyadan kimsəyə pislik eləmədən köçdü, mən də bəxtimə çıxan o Allah bəndəsinə alovlu sevgi sözləri söyləməmiş, sevgimi hiss etdirməyə çalışmışdım, amma sevgim Eşq məqamına yetişmədi, çünki *Eşqim yalnız O-na məxsus idi.* Sonra salavat çevirib geri baxmadan uzaqlaşmış, otuz-qırx addımlığımda qoruyucu mələyimin məni kölgə kimi izlədiyini duymuşdum. Günorta yeməyimi çarşı başındakı şorbaçıda yemiş, sonra yerli camaatın Şəkərfuruşan adlandırdığı karvansaraya getmişdim.

Karvansaraydakı hücrəmi Şamdan Sultan Vələdlə qayıdandan sonra almışdım. Hərdən xəlvətə salıb gedir, qapını içəridən kilidləyib zikr eləyir, sonra kürəyimi divara söykəyib xatirələrə

dalırdım. Hücrədə neçə illərdi çiynimdə gəzdirdiyim köhnə dağarcığım, o dağarcığın içində dərvişin ehtiyacı olan xırım-xırda şeylər vardı. Allahın var-dövlətindən olub-qalanım yalnız o dağarcıqda, bir də könlümdə saxladıqlarım idi. Bu dəfə də hücrəmə qapanıb uzun-uzadı zikr eləmiş, ardınca kürəyimi divara söykəyib xatirələrə dalmışdım: sabahı gün dan yeri ağarmamış qeyb olacaq, o şəhərlə büsbütün vidalaşacaqdım, bir daha ayağım da, nəfəsim də buralara dəyməyəcəkdi. Həmin məqamda da nədənsə yadıma Nəsirəddin Xocanın bir gülməcəsi düşmüşdü. Günlərin birində dükanın yanından keçirmiş, görür, bir nəfər əlqol hərəkətləri eləyir. Dayanıb səbəbini soruşur, o da deyir, bəs heyvanlar üzərində baş sındırıram, bu günəcən onlardan insan həyatını qurtaracaq qədər ibrət almışam. Xoca deyir, çox yaxşı, bir dəfə mənim həyatımı balıq qurtarıb, bildiklərinin hamısını danışsan, mən də balığın sayəsində necə qurtulduğumu nağıl eləyərəm. Həmin adam da təəccüblənib, fikirləşib, balıq ancaq müqəddəs adamları xilas eləyə bilər, yəqin, bunda bir hikmət var. Beləcə, bildiklərini danışır, sonra Xocadan balığın sayəsində necə qurtulduğunu soruşur. O da cavab verir, çox asanlıqla, çünki balığı tutanda acından, az qala, ölürdüm, yeyib sayəsində üç gün də sağ qaldım. İndi o *oxşarım* sayəsində üç gün sağ qalmışdım, Allahın bu lütfündən ağılla istifadə eləməliydim – *Konyada xəncərlənib bir xəndəyə atılmağımın kimsəyə faydası olmayacaqdı.*

Şər qarışsa da şam yandırmamış, qapıdan qıfılımı açıb dağarcığıma qoymuş, hücrənin haqqını qabaqcadan ödədiyimə, üstəlik, vədənin yetişməsinə xeyli müddət qaldığına görə içəridən kölgə kimi çıxmış, bayırın ayazı üzümə dəyəndə bir qədər ayılmış, həmin məqamda da yaxınlıqdakı ağacın arxasında *kölgəm*in qaraltısını sezmişdim. Şübhəsiz, Can Dostumun məqamınacan izləyəcək, sonra bayırda bir yerə sinib gözləyəcək, mən qeyb olanacan durub-dincəlməyəcəkdi. Get-gedə qatılaşan qaranlıqda çala-çuxura, orda-burda qalmış gölməçələrə düş-

məməyə çalışa-çalışa irəliləmişdim. Üç ildən bəri yaşadığım *(arada Şama getdiyimi nəzərə almasaq)* bu şəhərlə son təmasım idi, səhərə yaxın heç Can Dostuma da xəbər vermədən *qeybə çəkiləcəkdim*. İnsan həyatını adi tərzdə başa vuranda, yəni günlərin birində öz əcəliylə dünyasını dəyişib adətlərə uyğun torpağa tapşırılanda tez unudulur, sirli ölüm, qətlə yetirilmə, qeybolma isə həmişə diqqəti çəkir, söz-söhbətə rəvac verir...

Can Dostumun məqamına çatanda, hər dəfə olduğu kimi, yüzlərlə qoxu içindən xatunumun hələ də havada qalan tanış qoxusunu duymuşdum, amma bu dəfə nədənsə məni həyəcanlandırmamış, əksinə, qəlbimə anlaşılmaz qüssə, bir də səksəkə çökmüşdü. Qüssənin səbəbi məlumuydu; dan yeri ağarmadan bu yerlərə əlvida deyəcək, ömrümün qalan hissəsini tanış qoxuları, səsləri, simaları yalnız yaddaşımda canlandırmaqla keçirəcəkdim. Amma səksəkənin nədən doğduğunu anışdıra bilməmişdim, ola bilsin, gedişimlə burda çox şeyin dəyişəcəyini, bununla belə, hər şeyin dəyişməyəcəyini bilirdim: ən azı, Can Dostum məndən ötrü bir müddət ah-fəğan eləsə də, əl-qolu açılacaq, məmləkətdə yeni düzənin qurulmasında əsas söz sahiblərindən biri olacaqdı. Əslində, bu gün xatunumun qəbrini ziyarət eləyəndən sonra karvansaraydan dağarcığımı götürüb qeyb ola bilərdim, *kölgəm* kimi, yan-yörəmdən əl çəkməyən biçarə *oxşarım* da bunu məsləhət görürdü, amma qarşısıalınmaz bir qüvvə məni Can Dostuma sarı çəkmişdi – *görünür, hələ də onu inadından döndərəcəyimə ümidim tam tükənməmişdi.*

Qapının çaxçaxını vurmamış bir anlığa ayaq saxlayıb ətrafı dinşəmişdim. *Kölgəm* yaxınlıqdakı ağacların arasına sinmişdi, yəqin, mən içəri girəndən sonra daha da yaxın gələcək, mümkün qədər əlçatarda olmağa çalışacaqdı. Amma ətrafın səssizliyində anlaşılmaz, adamın içini daraldan səksəkə vardı, bunu da yalnız mənim kimi, uzun illərin təhlükələrindən keçmiş adam duya bilərdi. Həmin məqamda fikirləşmişdim, dönüb getsəm, o təhlükəni daha da yaxınlaşdırar, olacağı tezləşdirərəm. Hər

halda, Can Dostumun məqamında qaldığım müddətdə yaxınlıqda fırlanacaq, cismimə girəcək qədər yaxın gəlməyəcək, həmin vaxt ərzində də bəzi şeylərin dəyişəcəyinə ümid bəsləməli olacaqdım. Qapını Can Dostumun xəlifəsi Hüsaməddin Çələbi açmış, yuxarı qaldırdığı qəndilin işığında məni tanıyıb hörmətlə salamlamış, kənara çəkilib yol göstərmişdi. Qış axşamının qatılaşmaqda olan qaranlığını bir anlığa qovmuş qəndil işığında irəliləmiş, əlimi Can Dostumun hücrəsinin qapısına atanda işıq bir anlığa titrəmiş, sonra get-gedə öləziməyə başlamışdı – Hüsaməddin, yəqin, Sultan Vələdə gəldiyimi söyləmək üçün aralanmışdı. Qısa müddətə tək-tənha qalmışdım: içəridə Can Dostum, bayırda uzaqlaşan xəlifə, o biri hücrələrdə Can Dostumla Sultan Vələdin külfəti, hasarın o tayında ağacların kölgəsinə sinmiş *kölgəm*, ətrafda səksəkəli sükut, havada qış ayazı, göydə ziyası get-gedə artan Ay, həyətin o başındakı kolluqdan gələn bayquş səsi... tənhalığımı daha da qatılaşdırmışdı. Nagəhan hissin təsirindən, az qala, bağıracaqdım, elə həmin məqamda da qapı açılmış, sanki hənirimi alan Can Dostum kəndarda görünmüşdü...

Onunla son gecəmizin təfərrüatını yerli-yataqlı nağıl eləmək niyyətim yoxdu, onsuz da ayaq tutub yeriyən dedi-qoduların daha da böyüməsini istəmirəm; bircə bunu deyim, hər məsələdə özünü müridim kimi aparan Can Dostum məmləkətdəki nizam-iqtidar məsələsinə gələndə tamam dəyişirdi. Mən Şamda olanda Baycu Noyonla görüşdüyü, tatarların iqtidarını qəbul elədiyi barədə qulağıma gələn sədalardan əməlli-başlı narahat olmuşdum, əslində, elə Konyaya qayıtmağımın başlıca səbəbi də buydu. Onsuz da, sevimli vaizlərini əllərindən aldığımızı düşünən Konya əhlinin hiddətindən, xatunumu qəsdən öldürdüyümü düşünən Əlaəddin Çələbinin hikkəsindən, əxilərlə gizli təmaslarımdan, güman ki, çuğulları vasitəsilə xəbər tutmuş Baycu Noyonun qəzəbindən uzun müddət yaxa qurtara bilməyəcəyimi gözəl başa düşürdüm. Mənə elə gəlirdi, Can Dostum könlüylə

istəyi arasında qalıb, nə məni, nə də Baycu Noyon kimi qüdrətli adamın himayəsini itirmək istəyir. Görünür, aramızdakı bağın qırıldığını o da hiss elədi, bir anlığa çaşqınlıq keçirdi, elə həmin məqamda da bayırdan məni səslədilər...

"Əlvida, ey Mövlana, məni öldürməyə çağırırlar" – bu sözləri elə sakitliklə, elə rahatlıqla söyləmişdim ki, Can Dostumun gözləri böyümüş, sinəsinədən iniltiyə-xırıltıya oxşar səs çıxmış, hələ də cavanlıq təravətini saxlayan yanaqları saralmışdı. Bilirəm, həmin məqamda bayıra çıxmamağım üçün çox şeydən keçərdi: gələnlər nə qədər qorxunc düşmən olsalar da, Molla Cəlaləddin Bəlxinin məqamına basqın eləməyə cəsarət göstərməzdilər, bunun nəylə nəticələnəcəyini, cəmi Konya əhlinin nifrətini qazanacaqlarını, yəqin, yaxşı dərk eləyirdilər. Bayıra, onların qarşısına çıxmamağım da məndən ötrü rüsvayçılıq, arvad tumanı altında gizlənməkdən də betər olardı, ondan sonra gərək nəinki Konyada, ümumiyyətlə, işıqlı dünyada yaşamayaydım. Buna görə də dikəlməzdən əvvəl Can Dostumun gözlərinin içinə uzun-uzadı baxmışdım, bircə anda, az qala, ömrümüzün hekayətini tamam danışıb bitirmişdik, o, canından can ayrılan adam kimi, son ümidlə əlini dizimin üstünə qoymuşdu, amma *artıq gec idi, ikimiz də qismətimizdə yazılanın qarşısını almaq iqtidarında deyildik...*

***

...Tərım soyumuş, canım buza dönmüşdü. Ayın göydəki vəziyyətindən gecəyarının keçdiyini təxmin elədim. İndi, yəqin, hər şey olub-bitib: ya basqınçılar o tənha *oxşarımı (yəni məni)* doğrayıb gözdən uzaq bir yerə atıblar, ya da qorxubilməz savaşçı *(yəni mən)* cəlladlarının əlindən qurtarıb, sonra qeybə çəkilib; üçüncüsü, Can Dostumun ondan *(yəni məndən)* ötrü özünü xəncər qabağına atacağına inanmırdım, çünki o çaşqınlıqdan qutulanacan, yaxud Sultan Vələd, Hüsaməddin Çələbi xəbər tutanacan iş-işdən keçəcəkdi. Can Dostumun, yəqin, indi qətlin

(yəni qeybin) baş verdiyi yerdə ah-fəğan eləyir, fəryadına bütün külfət, müridlər, üstəlik, məhəllə camaatı yığışıb. O fəryadla da qismətimizə yazılmış, dillərdə dastan olan bənzərsiz ülfətə son qoyulur; bəlkə də, əksinə, o qətldən *(yəni qeybdən)* sonra aramızdakı ülfət dillərdə dastan olacaq, uzun müddət unudulmayacaq. Şübhəsiz, hamı bizi tanıdığını, dərk elədiyini söyləyəcək, amma onlardan barmaqla sayılacaq sayda adam həqiqətə yaxın olacaq. Biz insanlara *İlahi Eşq*i və onun sirlərini çatdırmaq istədik. Mən Allahın izni, həm də köməyiylə şəriəti yaxşı bilən mollanı *Mövlana*ya, üstəlik, *İlahi Eşq şairi*nə çevirdim. Bundan sonrası *O*-nun, bir də özünün əlindədi, yaddaşlarda hansı izi qoyacağını ancaq ikisi bilər.

Üşüdüyümü, qolumun zoqqultusunun da get-gedə şiddətləndiyini duyub beynimdən keçirmişdim ki, yerisəm, həm bir az qızışar, həm də hava işıqlaşanacan şəhərdən mümkün qədər uzaqlaşaram. İt-pişiyin, xoruzların belə yuxuda olduğu vaxtda şəhərdən çıxsam, gün qalxanda başına fəlakət gəlmiş dərvişə kömək eləyəcək bir Allah bəndəsiylə rastlaşmaq ehtimalım böyükdü. Canlığım ovaxtacan məni soyuqdan az-çox qoruyardı: altmış üç illik ömrümdə, daha doğrusu, özümü az-çox tanıdığım, elm-irfan arxasınca şəhərbəşəhər gəzdiyim müddətdə dəfələrlə ağır vəziyyətlərə düşmüşdüm, hər dəfə də Gözəgörünməz məni çəkib məşəqqətin pəncəsindən almışdı. Fikirləşmişdim, bir kəs Allahdan başqa kimsəyə ehtiyacı olmadığına inanırsa, Allah da onu başqasına möhtac eləməz, indi də alın yazımda Konyada ölmək yazılmamışdısa *(yəqin, beləydi, yoxsa basqınçıların zərbələrinə o qərib oxşarım yox, mən cavab verər, güman ki, yeddi gözü qızmış yağının əlindən sağ qurtara bilməzdim),* sağ-salamat bu yerlərdən uzaqlaşacaq, bəlkə, elə Təbrizə gedib çıxacağam...

Yönümü günçıxandan bir qədər qüzeyə tutub getmiş, Məram bağları geridə qalanacan nəfəsimi dərmədən irəliləmiş, ancaq təpəliklərə çatanda dayanıb dincimi almışdım. Bir az-

dan, dan yeri ağarmağa başlayan vaxtda Konyanın, ən azı, iki ağaclığında olacaqdım. Ərzurum yolunu yaxşı tanıyır, harda bulaq, karvansaray, müsafirxana olduğunu bilirdim, sonrası da Allah kərimdi. Əvvəlcə xirqə almalıydım, qışın bu çağında təkcə canlıqda yol getmək həm tezliklə axırıma çıxar, həm də gərəksiz diqqətlərə tuş olardım. Elə vaxt idi ki, adam kimdən şübhələnəcəyini, kənar gəzəcəyini, kiminlə ünsiyyətə girəcəyini bilmirdi, hər tərəfdə də Baycu Noyonın çuğulları qaynaşırdı. O məqamda fikirləşmişdim ki, *Eşq* – səfərdi, bu səfərə çıxan yolçu istər-istəməz təpədən-dırnağacan dəyişir, bu yola düşüb dəyişməyən yoxdu, *O* məni bu *Eşq yolu*na çıxarıb çürbəcür sınaqlardan keçirmiş, vüsala çatdırmışdısa, təsadüfün qurbanına çevirə bilməzdi. Bir də əmin olmuşdum ki, həyatda hər şey tərs gedirsə, deməli, özüm əks səmtə getmişəm; elə *O* da həyatımın başlanğıcından mənə həyat nəhrinin axarına qarşı üzməyi təlqin eləmişdi. Təpələri aşıb karvan yoluna çıxanda gün çırtlamışdı, həmin məqamda da beynimdən keçirmişdim ki, *bu dünyaya gələndən sonra, hər şeydən əvvəl, validəmin girdə sifətini, bir də Günəşi görmüşəm...* O məqamda da asta-asta, göl quruyan kimi, *qeybə çəkilməyə* başladım, bu müddətdə də bütün fani ömrüm gəlib gözlərimin qabağından keçdi...

BİRİNCİ MƏQAM

Təbriz

ÖZ GÜNƏŞİMİ AXTARMAĞA GETDİM...

Qədər yolun tamamını yox, ancaq yolayrıclarını müəyyənləşdirir. Güzərgah bəllidi, amma bütün döngələr, sapmalar yolçudan asılıdı. Ona görə də nə həyatına hakim, nə də həyat qarşısında acizsən.





İlk duyğu, ilk təəssürat, ilk təsir çox güclü olur. Dedim, uşaqlıq çağlarından yadımda qalan validəmin girdə sifəti, başgicəlləndirici süd qoxusu, doğma, bihuşdarı kimi bütün hüceyrələrimə işləyən nəfəsi, dünyanın ən gözəl nəğməsi olan səsi, əllərinin, dodaqlarının ağlımı başımdan çıxaran təması, məni həyata bağlayacaq qədər güclü şəfqəti indi də yaddaşımda dipdiri yaşayır. Bir də ilk gördüyüm Günəşi, daha doğrusu, Günəşi ilk dəfə gördüyüm anı unuda bilmirəm. Onda validəm gözlərimin böyüdüyünü, Günəşə heyran-heyran baxdığımı görüb demişdi, bax, Yaradanımızdı, göydən sənə baxır, işığını, istisini, gülüşünü göndərir, sən də gündə bir buğda dənəsi boyda böyüyüb Günəşi axtarmağa gedəcəksən, ona çatmağa çalışacaqsan, mənim balam. Onda heç danışa bilmirdim, eləcə Günəşə baxıb qığıldamışdım, validəm da sevindiyindən hövllənə-hövllənə məni öpüb əlavə eləmişdi ki, deyəsən, Günəşi sevdin, oğlum, ömrün Günəş kimi işıqlı olsun, yollarına həmişə Günəşin işığı aydınlatsın! Amin!

Onda biçarə validəm dediklərinin fərqinə varmamışdı, bütün bunları öz övladının gözəl, nizamlı, abırlı ömür sürməsini arzulayan ana istəyiylə söyləmişdi. Öz ömrümü büsbütün Günəşə sərf eləyəcəyim, *O*-na çatmaq üçün ağlagəlməz çətinliklərdən, cürbəcür bəlalardan keçəcəyim nə validəmin ağlına gələrdi, nə də özüm bu barədə düşünüb-daşınmaq iqtidarındaydım. Amma ola bilsin, hələ dünyanın sirlərindən bixəbər olan

beynimdən keçən ilk fikir ayağım yer tutan kimi, öz Günəşimə doğru gedəcəyim, dilim söz tutan məqamdan *O*-nun vəsfini eləyəcəyim barədə olub. Çünki həmin vaxtdan hər şey mənə *O*-nun mövcudluğunu xatırladırdı. Ayağım yer, dilim söz tutanda da ağzımdan çıxan kəlmələr, elədiyim hərəkətlər valideynlərimi sevindirməyə yox, təəccübləndirməyə, narahat eləməyə başlamışdı. Tavada yumurtanın sarısını görüb Günəşə oxşadanda, bu səbəbdən, yeməkdən boyun qaçıranda, gecələr Günəşin gizləndiyini fikirləşib ağlayanda, səhərlər doğma Günəşimi görmək üçün pəncərənin ağzında oturub gözlərimi üfüqə zilləyimi sezəndə qorxu dolu nəzərlərini bir-birinə dikib susur, yəqin, xəlvətdə neyləyəcəkləri barədə məsləhətləşirdilər.

Artıq ağlım kəsən yaşa çatanda validimin söylədiyinə görə, mən dünyaya göz açandan bir neçə ay sonra cənnətməkan İslam padşahı, qüdrətli hökmdar, böyük atabəy, Əcəmin xaqanı Şəmsəddin Muhammməd İldəniz axirət dünyasına köçmüşdü. Onda padşah Əhləti qorumağa gedibmiş, o məqamda qarnından ağrı tutur, əmr eləyir ki, onu özünün tikdirdiyi, ailəsinin yaşadığı Təbərək qalasına aparsınlar. Qalada İraq təbiblərinin bütün səyləri nəticəsiz qalıb, Atabəyi ölüm yatağından qaldıra bilməyiblər. Onun beş övladı – İnanc Xatundan Qutluq-İnanc Mahmud, Əmir Əmiran Ömər, Qüteybə xatundan Əbu Bəkr, Zahidə xatundan Özbəklə Cəlaliyyə – qalmışdı. Padşah hələ sağlığında Azərbaycan və Arranı Əbu Bəkrə, Reyi, İsfahanı və İraqın qalan hissəsini İnanc Mahmuda və Əmir Əmiran Ömərə, Həmədanı isə Özbəyə vermiş, əmiləri Qızıl Arslana tabe olmağı, Sultan Toğrulun qulluğunda durmağı, ona qarşı çıxmamağı, kin bəsləməməyi, itaətdən boyun qaçırmamağı, mülkünü müdafiə eləməyi, yardımsız qoymamağı, tərəfdarı olmağı, münasibətləri kəsməməyi vəsiyyət eləmişdi. Validim onun Həmədandakı Atabəylər türbəsində yox, Nəqşivandakı Möminə Xatun məqbərəsində dəfn olunmasını Qüteybə Xatunun istəyi olduğunu deyirdi.

Üç-dörd yaşım olardı, valideynlərim nə danışmışdılarsa, bir gün validəm məni qonşu məhəllədəki görücünün yanına apardı. Ömrümdə ilk uzun səfərim idi, uzunluğu heç bir ağac olmasa da, elə bil, Günəşə çatmaq üçün böyük səfərə çıxmışdım. O yolun yarısını validəmin qucağında, yarısını da əlindən tutub yanınca getdim, Günəş də düz başımızın üstündəydi, bizə yol göstərirdi. Hərdənbir başımı qaldırıb *O*-na baxır, hövllənib vəcdlə qışqırırdım, bu halım da yazıq validəmi yaman qorxudurdu. Görücünün evinə çatanacan sarsıntıdan ürəyi ağzına gəldi, az qala, o dünyanı görüb qayıtdı. Orta yaşlı, xırda gözlü, seyrək saqqallı görücünün sifətindəki küt ifadədən sezdim ki, beləsi nəinki mənim başıma, heç öz bədbəxt başına gələnləri də bilməz, yəqin, işi-gücü yalandan-palandan quraşdırıb güzəranpulu çıxarmaqdı. Elə də oldu, validəmin xısın-xısın söylədiklərinə açıq-aşkar laqeydliklə qulaq asıb quru, təmas-filan duymadığım əlini başıma qoydu, dodaqaltı nəsə oxudu, kağız parçasına bir neçə kəlmə yazıb validəmə verdi, dedi, gündə üç dəfə başına dolandırarsan, keçib gedəcək. Onda, yəqin, fikirləşmişdim ki, gərək görücünün o seyrək saqqalından yapışıb xırda gözlərinin içinə deyim: ey, özündən hoqqa çıxarma, keçib getməyəcək, heç keçib getməli bir şey də yoxdu, validəmdən aldığın o pulu da geri qaytar. Amma heç nə demədim, söyləmək istədiklərimi içimdə boğduğuma görə də hövllu-hövllu güldüm, bununla isə validəmi də, görücünü də səksəndirdim.

Validimin əndişəsini anlayırdım, indiyəcən heç vaxt mənim kimi uşaqla rastlaşmamışdı. Özü Xorasan kəndlərindən birində doğulmuş, yadelli basqınlarının qorxusu altında böyümüşdü. O basqınların birində ailəsini itirəndən sonra baş götürüb Təbrizə pənah gətirmiş, Xamuşan məhəlləsində bir qumaş tacirinin buyruqçusu kimi çalışıb özünə güzəran düzəltməyə çalışmışdı. Bəxtindən tacir insaflı adam çıxmışdı, oğlanın çalışqanlığını qiymətləndirmiş, üstəlik, gözünün ağı-qarası bircə qızı Nurcahanın o cür tərbiyə sahibiylə ailə qurmasını məsləhət bilmiş, iki

il sonra dünyadan köçəndən sonra da nəyi vardısa, valideynlərimə qalmıışdı. Rahat ömür sürmələri üçün ciddi bir qayğıları yoxudu, amma Allah onları övlad sarıdan sınağa çəkmişdi. İlk iki övladları validəmin bətnində tələf olmuş, mən sağ-salamat dünyaya gələndəsə, validim sevincindən var-dövlətinin yarısını kasıb-kusuba paylamışdı. Amma ayaq tutub yeriyəndən, dil açıb danışandan sonra məndə baş açа bilmədiyi qəribə halları görüb biçarələr rahatlıqlarını itirmişdilər. Əvvəlcə o halların ötüb-keçəcəyinə ümid eləmiş, keçmədiyini sezəndə görücülərin, cadu-piti yazanların, fala baxanların qapılarını döymüş, amma o halların yox olmadığını görüb rahatlıqlarını daha da itirmişdilər.

Yeddi yaşım olardı, bir yaz günü Günəşi daha yaxından görmək üçün xəlvətcə aradan çıxdım. Gethaget məhəlləni də, şəhəri də geridə qoydum, bir təpənin üstündə ayaq saxlayıb daha da iri görünən Günəşə qışqırdım: *"Mən Sənə çatmaq istəyirəm!"* Bu hayqırtım yaxın dağlarda əks-səda verdi, mənə elə gəldi, Günəş səsimi eşidib razılıqla gülümsədi, işığı daha da artdı. Sevincdən ürəyim köksümə sığmadı, təpənin üstündə oturub uzun-uzadı *öz Günəşim*ə tamaşa elədim. Onun işığı öləziməyə başlayanda uzaqdan validimin hayqırtısını eşitdim. Validəm yoxa çıxdığımı xəbər verəndə dükanı buyruqçusuna tapşırıb məni axtarmağa başlayıb, bir nəfər də getdiyim səmti salıq veribmiş. Yanımda oturdu, çiynimi qucaqladı, başımı sinəsinə sıxdı, dedi, harasa getdiyini eşidəndə təpəmdən tüstü qalxdı, varımdan yox oldum; dedi, bilirəm, dəli deyilsən, amma səndəki bu haldan da baş çıxarmıram, bu yolla getmək üçün nə tərbiyən, nə təcrübən, nə də başqa bir şeyin var. Başımı qaldırdım, validimin gözlərinin içinə baxıb dedim, söylədiklərimi yadında saxla: ikimiz də elə haldayıq, sanki qaz yumurtasını toyuğun altına qoyublar, o yumurtadan da qaz balası çıxıb, həmin qaz balası da bir az böyüyəndə gölün qırağına gəlib özünü suya atır, toyuq da çırpına-çırpına qalır, amma hində böyüdüyünə görə, özünü suya

atmağa cəsarət eləmir; dedim, bax, biz də beləyik, mən üzmək üçün dərya axtarıram, çünki dərya quşuyam, yerim-yurdum o sonsuz sulardı, sən də mənim kimisənsə, gəl, ya da mən sənin kimi deyiləmsə, get, hində böyüyənlərə qarış, bu sözlərimi də ərmağan kimi qəbul elə. Validimin sinəsindən iniltiyə oxşar səs çıxdı, başımı sinəsinə daha da bərk-bərk sıxıb ağlar səslə dedi, Allah özün kömək ol, dostuna-doğmasına qarşı bu cür hərəkət eləyən adam düşməninə neyləyər!

Bəlkə, elə məhəllədəki yaşıdlarıma yovuşa bilməməyimin səbəbi də buydu: onları hində böyüyən, hinin həndəvərində dolaşan, dən səpəndə dərhal özlərini çölə atan cücələr, özümü fürsət tapan kimi suya cuman, sonsuzluqdan zövq ala-ala üzən qaz balası hesab eləyirdim. Heç vaxt o binəvalara yuxarıdan-aşağı baxmaq, ələ salmaq, özümü çəkmək fikrinə də düşməmiş, əksinə, belələrinə qarşı daha mərhəmətli olmuşdum. Bu məsələdə yaşıdlarım da, ümumiyyətlə, kiçiklər də, böyüklər də müəyyən bir günah sahibi deyildilər, İlahinin təqdiriydi, belə məsləhət bilmişdi, o biçarələr öz ömürlərini bu cür yaşayacaqdılar. Onda artıq validimin sayəsində oxuyub-yazmaq öyrənmişdim, fikrincə, mədrəsə bitirib elmə daha dərindən vaqif olmalıydım. Məndən ötrü o darıxdırıcı yerdə – daş divarlar arasında, yarıqaranlıq hücrələrdə, yorğun, bezgin, kəmsavad müddərrislərin təhdidi altında Allahın müqəddəs kəlamlarını höccələmək, mənasını heç özlərinin də düz-əməlli dərk eləmədikləri hədislərə qulaq asmaq həddən artıq cansıxıcıydı. Bu səbəbdən də molla yanına getməmək üçün xeyli dirəndim, inad göstərdim, amma validimin fikri qətiydi: *Məlikdad oğlu Əlinin övladı Muhammət elm-ürfan sahibi olmalıydı!*

Yadımdadı, onda təkcə Təbriz yox, bütün məmləkət çalxalanırdı. Yenicə adına Bağdadda xütbə oxunmuş, saray darvazası qarşısında beş dəfə "Zülqərneyn" çalğısı çalınan, öz adından sikkə kəsdirən, İraq sultanlığının, Azərbaycan, Arran, Həmədan, İsfahan, Reyin bütün ətraf vilayətləriylə birgə yekdil sahibi

olan, Fars və Xuzistan hakimlərini itaətə gətirən Müzəffərəddin Qızıl Arslan öldürülmüşdü. Validimin dediyinə görə, qardaşı oğullarını öz tərəfinə çəkmək məqsədiylə İnanc Xatunla evlənən padşah qoynunda ilan bəslədiyini bilmirmiş. İnanc xatun bir neçə əmiri çağırıb deyibmiş, sultan Toğrulun əleyhinə çıxmaqla ədalətsiz hərəkət eləmişik, indi heç kəs bizə inanmayacaq, Cahan Sultanı Qızıl Arslan bizim axırımıza çıxanadək biz onunla haqq-hesabımızı çürütməliyik. Adəti üzrə keçirdiyi kef məclislərinin birindən sonra mühafizəçilər hökmdarı tək qoyub gedəndə də öz cangüdənlərindən biri onu boğub. Əlbəttə, ehtiyat üçün onun yataq otağının keşiyini çəkən qarovulçunu edam eləyiblər. Padşahın boğulmadığını, İnanc Xatun və adamlarının onu öz çadırında, kefdən sonra yatdığı vaxt xəncərlə öldürdüklərini söyləyənlər də vardı. Hətta Qızıl Arslanı Əlamutdan göndərilən batini fədailərin qətl elədiklərinə inananlar da tapılırdı, sən demə, bir müddət əvvəl dini ədavət ucundan İsfahan bazarında şəfii imamı Mütəllibin məşhur adamlarından bir neçəsini dar ağacından asdırıbmış, ona görə imamın fədailəri padşahın otağına yol tapıb qəməni ürəyinə saplayıblar.

Fəlakətdən Cahan Pəhləvanın dul qalmış zövcəsi Qüteybə Xatun hamıdan əvvəl xəbər tutub, Qızıl Arslanın barmağından sultan ünvanı və nişanı olan üzüyü çıxarıb oğluna verib, deyibmiş, get, Azərbaycan və Arrana hakim ol. Elə o gecə də Əbu Bəkr Azərbaycana yollanıb, özünü Nəqşivana, Şəmsəddin İldənizin vaxtından yığılmış vergilərin toplandığı Əlincə qalasına çatdırıb, qalanı xəzinələrlə birgə analığı Zahidə xatundan alıbmış, sonra bir şəhərdən başqa şəhərə gedib, hamını tabe eləyib, beləliklə, bütün Azərbaycan və Arranı tutubmuş. Qoşunlar Əbu Bəkrin ətrafına toplaşıb, o, validinin və babasının yerində bərqərar olubmuş. Həmədan və ətraf vilayətləri də İnanc Xatunun oğulları Fəxrəddin Qutluq-İnanc Mahmud və Əmir Əmiran Ömər tutublarmış. Cahan Pəhləvanın məmlükü Mahmud Anas oğlu həmin vaxt həbsdə olan Sultan Toğrulu zindandan qurta-

rıbmış. O yaz Sultan Toğrul beş yüz süvariylə Təbrizə basqın elədi, amma camaat onun şəhəri ələ keçirməsinə imkan vermədi, bu tərəfdən də Atabəy Əbu Bəkr mühasirədə qalan əhalinin köməyinə gəldi, düşmən döyüşə girişmədən Zəncana çəkildi, sonra da İraqa getdi.

O qarğaşalı günlərdə molla yanına candərdi gedirdim, yaşıdlarımın hıqqana-hıqqana oxuyub-yazdıqları, mollanın cansız, quru səslə danışdıqları könül simimi tərpətmir, məni usandıran o dərslərdə öz aləmimə qapılıb gerçək dünayadan aralanırdım. Dağarcığıma qoyduğu yeməyin heç əl dəyməmiş geri qayıtdığını, evdə də başqa uşaqlar kimi, dərhal çörək tabağına cummadığımı görən validəmin alnı qırışır, gözləri nəmlənirdi, sonra validimlə xısın-xısın nəsə danışırdılar. Biçarələr mənə bir tikə yemək yedirtmək üçün əldən-ayaqdan düşür, saatlarla dil tökürdülər. Özümü naza qoymurdum, belə bir xasiyyətim də yoxudu, sadəcə yemək-içmək kimi şeylər nəzərimdə bir dəyər-filan daşımırdı. Validim "oğlum, ye" dedikcə, "heç nə yeyə bilmirəm" cavabı verirdim, söylədiyimdə də zərrə qədər saxtalıq eləmirdim. Bir gün pişik validəmin mənə gətirdiyi, əl vurmadığım süd dolu tabağı yerə salıb sındırdı. Həmin məqamda validim yanımdaydı, nə pişiyə, nə də mənə acıqlandı, elə gülə-gülə dedi, yenə neyləmisən, Allah xeyrə calasın, çıxacaq idi, çıxdı, mənim, validənin, ya da sənin başına gələcək bir bəladan qurtulduq, İlahinin bizə yazığı gəldi. Valideynlərim yemək istəməməyimi nazlanmağıma yozurdular, amma məni dünyadan qoparan, ayaqlarımı yerdən üzən, ənginlikdə quş kimi pərvazlandıran *O-nun Eşqi*ydi.

Yeməzlikdən arıqlayıb çöpə dönmüş, az qala, qov kimi yüngül olmuşdum, gücüm-qüvvətimsə tükənməmişdi, məqamı çatanda qanadlanıb pəncərədən uçar, ənginliklərə baş vurardım. Amma hələ o ənginlik məni vahiməyə salır, gedəcəyim yolu tamam dərk eləməmiş səfərə çıxmaq istəmirdim. Tosqun, üz-gözündə qəssab ifadəsi olan *(nədənsə mənə elə gəlirdi)* mol-

lanın həvəssiz-həvəssiz keçdiyi dərslərdə işim-gücüm onun, bir də tay-tuşlarımın içini görmək, diksinəndə xəyalən hücrədən çıxıb yolları əriş-arğac eləmək olurdu. Bağdad ən çox getmək istədiyim yer idi. Niyə Bağdada getmək istədiyimi hələ özüm üçün belə çözə bilməmişdim. Sonra Şama üz tutar, ordakı böyük şeyxlərin hüzuruna çıxardım. Əmindim ki, dünyanın bəni-insan yaşayan dörddə bir qisminin camaatı yığışıb məni sorğu-suala tutsa, onlara cavab verməkdə aciz qalmaram, söz üçün onun-bunun cibinə girmərəm, fikirlərimdə baş-ayaq vurmaram, bircə kəlməm onlardan ötrü on cavaba bərabər olar. Əmindim ki, aləmin dörddə üç qismi Günəşin öz oduyla qovurduğu yerlərdi, orda Allah bəndələri yaşamır. Bir kərə də yoldaşlarıma qoşulub çiling-ağac oynayırdım, qəfildən də oyunun ortasında hardansa bizə ərəb hürüfatını öyrədən Molla Zeynəbi xatırladım: avazla "əlif iki sütun, əlif iki əsrə" söyləyir, yadımızda qalsın deyə, bizə də çəpik çaldırırdı. O hava vücudumu bürüdü, ağacı atıb səma süzməyə başladım. Oyun yoldaşlarım çaşıb qaldılar, bir müddət ağızlarını açıb mənə baxdılar. İçimdəki vəcdi bir qədər səngidib özümə gəldim, dedim, niyə göydə çay, Yerdə Ay görmüş adam kimi baxırsınız, əynimdə bir şey, qışın oğlan çağında xirqə belə yoxdu, amma əlifin üstündə iki nöqtə var; əlbəttə, o binəvalar heç nə başa düşmədilər, kirimişcə dağılışdılar, ordaca tək-tənha qaldım.

Adamlarla aramda yaranan uçurumu da elə o illərdə fərq elədim. Evdən çıxmadan da *O*, dərgahındakı mələklər, yerdə də, göydə də baş verənlər mənə ayan olur, valideynlərimin, qonum-qonşumuzun, tay-tuşlarımın da bütün bunları gördüyündən şübhələnmirdim. Amma elə ilk ünsiyyətimizdəcə o biçarələrin mənə ayan olanların heç birini görmədiklərini, üstəlik, görmədiklərinə təəccüblənəndə də onların nəzərində havalı Allah bəndəsinə çevrildiyimi sezdim. Bu səbəbdən, mollaxanada oxuduğum dörd ilin, az qala, yarısını cürbəcür bəhanələrlə dərsə getmədim. Orda keçilənləri bildiyimə əmin olan validim çox

israr eləmirdi, mən də növbənöv xəstəliklər bəhanəsiylə evdə qalıb pəncərədən dünyaya baxa-baxa yaşayır, Allahın dərgahında da, Yer üzündə də mənə ayan olanlar barədə düşünürdüm. O məqamda evimizin üstündən uçan quşun hansı səmtə üz tutacağını, yaxud küçədən keçən əttarın bir azdan başına nə gələcəyini bilirdim. Bir dəfə yeddi ildən bir, həm də cəmi-cümlətanı yeddi günlüyə çiçəkləyən səbirçiçəyi, ya peyğəmbərçiçəyinin açıldığını duydum, az qala, ürəyim ağzıma gəldi. Bir dəfə də qonşunun oğlunu gördüm, mənə onun az sonra damdan yıxılıb qabırğasını sındıracağı ayan oldu. Amma oğlanı səsləyib qəlbimə damanları söyləyə bilməzdim, fikrimcə, bu, *O*-nun işinə qarışmaq olardı, üstəlik, məni əməlli-başlı dəli sayardılar. Buna görə də susdum, bir azdan qonşunun həyətində fəryad qopanda ixtiyarsız gözlərimdən yaş axdı...

Mollaxananı başa vurandan sonra bir neçə il mənə dəyib toxunmadılar, evdə oxuyub-yazmağıma izin verdilər, mən də guşənişin oldum, evimizdəki hücrəmə çəkilib validimin Təbriz kitabçılarından aldığı kitabları oxudum, öz içimdə gördüklərimi oxuduqlarımla qarşılaşdırıb şəxsi qənaətlərimi tapdım. Bayıra çıxanda da öz hallarına qapılıb məhəllədə, çöldə-düzdə oynaşan yaşıdlarıma baxır, nəyə görə bu qədər qayğısız olduqlarına heyrətlənirdim, Sonra validim məni mədrəsəyə qoymaq üçün əl-ayağa düşdü, mənsə dərdimin əlacını mədrəsə tapmayacağımı bilirdim, bu səbəbdən, mümkün qədər baş qaçırdım, mədrəsədə keçilənləri elə evdə də oxuyub-öyrəndiyimi söylədim, biçarələr də inadım müqabilində əlacsız qaldılar. Yaşım on beşi ötəndə validəm əlimi başıma yığmağın daha doğru olacağını, həyatıma nizam gətirəcəyini fikirləşib validimlə xısınlaşmağa, məsləhət-məşrəvət eləməyə başladı, mənə məhəllədə, tanış-bilişin ailəsində böyüyən qızları tərifləməyə başladı, amma heç maraqlanmadığımı, ancaq gülümsədiyimi görüb yoruldu, validim də üz açmaq istəməyib dərdli-dərdli susdu, bir daha bu barədə dillənib-danışmadılar.

***

İyirmi iki yaşında evdən getdim, *O*-na çatmaq üçün yollara düşdüm, o yolun şeyxlərin təlimindən, dərgahından, çilədən keçdiyini qəbul eləyib Təbrizə ün salmış Şeyx Əbu Bəkr Səllə-bafa üz tutdum, Gəcil qapısına yaxın məhəllədəki dərgahında hüzuruna çıxdım. Məramımı öyrənəndə uzun-uzadı gözlərimin içinə baxdı, həmin məqamda onun da mənə bir faydası toxunmayacağını dərk elədim. Amma *O-na gedən yolu* göstərsəydi, indiki halımda məndən ötrü bu da kafiydi. Əlliyə yaxın yaşı olardı, barələrində eşitdiyim başqa şeyxlər kimi, nəzir-niyazla dolanmırdı, evinin böyründə kiçik emalatxanası vardı, ailəsiylə səbət hörür, o səbətlərin gəliriylə külfətinin güzəranını yola verirdi. Məndən də *O*-na çatmaq üçün maddiyatını da təmin eləməyin vacibliyilə bağlı nə düşündüyümü, öz əməyimlə dolanmağı, yoxsa sədəqə diləməklə keçinməyi nəzərdə tutduğumu soruşdu, dedim, bir tikə çörək üçün kimsəyə ağız açmaram, şübhəsiz, *O*-na tüfeyli kimi qovuşmaq da xoşuna gəlməz; dedi, kamilliyin yolu daşlı-kəsəklidi, şərti bildiyinlə kifayətlənməməkdi, üsulu-hikmət sahiblərilə söhbətə girməkdi, sən də diyarbadiyar gəzməyə hazırsan, ya yox? Dedim, canımdakı *İlahi atəşi*n aparıb çıxaracağı yerlər Çini-Maçində də olsa, yolumdan dönmərəm; dedi, kamilliyə yetdiyini zənn elədiyin məqamda *O*-ndan aralanacağını bilirsən, ya yox? Dedim, bilirəm, *kamillik – O olmaqdı,* mən *O* olmağı ağlıma belə gətirmərəm...

Şeyx Əbu Bəkr, görünür, cavablarımı məqbul saydı, mədrəsə bitirmədiyimin üstünü vurmadan dərgahda qalmağıma razı oldu. Validim onu yaxşı tanıyırdı, mərifətinə bələdiydi, ona görə də təsadüfün belə gətirməsinə, ciyərparəsinin etibarlı adamın yanında olmasına çox sevindi. Ümidvardı ki, bir neçə il Şeyxin yanında qalandan sonra mədrəsədə uşaqlara Quran öyrədər, evlənər, oğul-uşaq yiyəsi olar, beləcə, hamı kimi bu dünyanın adamına çevrilərəm. Amma biçarə validəm daha buna inanmırdı, hərdənbir evimizə baş çəkdiyim məqamlarda gizli-gizli mənə

göz qoyub köks ötürməyindən bilirdim ki, gələcəyimdən çox narahatdı. Bəs, gələcəyimdən elə özümün də narahat olduğumu ona necə başa salaydım? Kitablarda axtardığımı tapmamışdım, Şeyx Əbu Bəkrdən istədiyimi ala bilməsəm, heç Təbrizdə də dinclik tapmayacaqdım, o məqamda da valideynlərimin heç bir istəyi məni yolumdan saxlaya bilməzdi. Bəlkə də, ömrüm gündoğanla günbatan arasındakı məmləkətlərdə məni *O*-na çatdıracaq hikmət sahiblərini axtarmaqla keçəcəkdi...

Mənə ayan olanları başqalarının görə bilməmələri adamlarla aramdakı uçurumu get-gedə dərinləşdirir, üzümə dikilən baxışlarda duyduğum mərhəmətsə lap cızdağımı çıxarırdı. Bir gün necə oldusa, söhbət vaxtı gündoğandan sel kimi axının gələcəyini söylədim, bunu eşidəndə tələbələr güldülər. Pərt olduğumu hiss eləyən Şeyx o məqamda dillənmədi, tələbələri yola salanda məni bir qədər ləngitdi, dedi, oğlum, bundan sonra nəbadə, sənə ayan olanları dilinə gətirəsən, çünki inananlar səndən qorxacaq, inanmayanlar da dəli sayacaqlar. Onun dediyində məni irəlidə gözləyən fəlakəti duydum: belə çıxırdı, insanların arasında rahat yaşamaq üçün onlardan fərqlənməməliyəm, hamının gördüklərini görməli, söylədiklərini söyləməliyəm. Bir neçə il qabaq validəmin yetim ördək balasını cücələrin arasına atdığını, xırda məxluqların da o binəvaya gün vermədiklərini, elə hey dimdiklədiklərini, axırda validəmin ördək balasını ayırıb ağzıbirə saldığını xatırladım. Ola bilsin, məni də bu cür tale gözləyirdi, amma belə şeylər heç vaxt *yolumdan* çəkindirə bilməzdi.

Bir gün Şeyximiz əlində alma içəri girdi, üzünü müridi Zeynəddin Kəlusiyə tutub dedi, mən Allahı gördüm, *O*-ndan alma istədim, *O* da lütf eləyib verdi, bəs sən Allahdan nə istərdin? – dedi, məsələn, Bəyazid Bistami Allahdan elə Allahın özünü, filankəs filan şey istəmişdi. Zeynəddin də cavab verdi ki, mən Allahdan elə Allahın özünü istərdim. Şeyx gülümsədi, tənə dolu nəzərlərini tələbəsinə dikib dedi, onda sən artıq Bəyazidin

mərtəbəsindəsən. Sonra həmin sualı mənə də verdi, cavabında başımla işarə eləyib dedim, Allahdan səni istəyərəm, şeyxim. Başını tərpətdi, daha heç nə demədi, amma hiss elədim ki, cavabımdan razı qalıb. Hələ Allahdan Allahın özünü istəmək mərtəbəsinə çatmamışdım, qarşıda gediləsi uzun, həm də məşəqqətli *yol* dururdu, hələ *o yolun* başlanğıcındaydım, qəlbim də sözlərlə, deyimlərlə, mənalarla ağzınacan doluydu, amma onları dilimə gətirməyə fürsətim yoxudu. Onda Peyğəmbərimizin sevgisi qəlbimə elə girmişdi ki, onun məhəbbətindən qırx gün belə yadıma yemək düşmürdü. Bəzən yeməyi xatırladanda əlimin, ya da başımın işarəsilə rədd eləyər, hey göylərdəki mələklərə, yerdəki qeyb aləminə, qəbirdəkilərin hallarına göz qoyardım.

Dedim ki, Şeyx Əbu Bəkr o məqamda keçirdiyim hissləri faş eləməyə qoymazdı. Görünür, halımı yarənləri Baba Kamal Cəndiyə, Şeyx Fəxrəddin İraqiyə də söyləmişdi, bir gün Baba Kamal Şeyximin yanına gələndə məni də görüb soruşdu ki, oğlum, sənə o sirlər, yetdiyin həqiqətlər təsir eləmirmi, niyə bir söz demirsən. Dedim, çox təsir eləyir, amma mən *O*-nun kimi şeir deyə bilmirəm. Baba Kamal məni zənnlə süzüb dedi, inşallah, Allah-taala sənə elə bir dost bəxş eləyər ki, o, sənin əvəzində hər cür mərifət və həqiqətlərdən söz açar. O vaxtdan səyimi qat-qat artırdım, böyüyüb mənim əvəzimdə hər cür mərifət və həqiqətlərdən söz açacaq o Can Dostumu tapmaq eşqi qəlbimi sipsilə doldurdu. Məndən ötrü örnək Həzrəti-Peyğəmbərimizin gözəl əxlaqıydı, əməllərimi, vərdişlərimi, əxlaqımı ona uydurmağa can atırdım, bir kəsdən xoşum gəlməyəndə belə, dilimə bəddua gətirmirdim, dua eləyirdim ki, ya Rəbb, onun malını və külfətini artır. Kimsə mənə axirətimlə bağlı bir dəfə yaxşılıq eləyib, dünyayla bağlı çoxlu pisliyə yol versə, onun bir dəfə elədiyi yaxşılığa üstünlük verirdim, çünki bu, gözəl əxlaq deməkdi. Məni bir şeyə qonaq eləyəndə, ya da istədiyimi verəndə mütləq əvəzində nəsə bağışlayır, üstəlik, yaxşılığı eləyənə rəğbətimi bildirib duamı əsirgəmirdim. Duamdan onların qəlb

gözləri açılır, xeyirxahlığı görürdülər. Təsadüfən rastıma tabut çıxanda deyirdim, ah, kaş o tabutun içindəki mən olaydım, onun əvəzinə məni dəfn eləyəydilər. Biri duamı eşidib təəccüblə soruşdu ki, niyə belə deyirsən, dedim, aşiq olanlar məşuqlarıyla tez qovuşmaq istəyirlər, onların məqsədlərinə tez yetmələri məqbul deyilmi?

Bir gün Şeyximin hücrəsinə girəndə göy cildli əlyazma oxuduğunu gördüm. Maraq dolu baxışlarımı sezib dedi, Əbu Bəkr ibn Xosrov əl-Ustadın padşahımıza ad elədiyi "Munisnamə"sinin nüsxəsidi, dərgahımıza bağışlayıb. Söylədiyinə görə, Xosrov əl-Ustad müqəddimədə Atabəy Nüsrətəddin Əbu Bəkri mədh eləsə də, kitabın hamısı öz yazdıqlarından ibarət deyil, padşahın şeirin nəsrdən üstün olduğunu çox gözəl bildiyini sübut eləmək üçün Rəşidəddin Vətvatdan da, qəznəli Əbdülməcid Sənaidən də misallar gətirib, özünün cənnətməkan Cahan Pəhləvana ad elədiyi "Dastani-Mənsuri Mərcan" *("Mənsur və Mərcan dastanı"),* Qızıl Arslana şəninə yazdığı "Kitabi-sənəmi-Əcəm" *("Əcəm sevgilisinin kitabı"),* "Nakidayi-kitabi-əlfiyə və şəlfiyə" *("İntimlik kitabı"na zidd),* "Mehrü Müştəri" *(Mehr və Müştəri"),* Nüsrətəddin Əbu Bəkrin şərəfinə yazdığı "Nüzhət əl-məcalis" *("Məclislərin ləzzəti")* əsərlərindən parçalar verib, üstəlik, "Böyük adamların kəlamları və nəsihətamiz həqiqətlər barəsində hekayələr" qisminə Əbül-Üla Kirmani, onun oğlu və onların Nəqşivana səfəri haqqında hekayə salıb. Şeyximin fikrincə, kitabın elə bir dəyəri yoxudu, gəncəli Şeyx Nizaməddinin Qızıl Arslana göndərdiyi "Xosrov və Şirin", Marağa hakimi Əlaəddin Körpə Arslana yolladığı "Yeddi gözəl", Əhər hakimi Nüsrətəddin Piştəkinə ərməğan elədiyi "İsgəndərnamə"ylə müqayisəyə belə gəlməzdi. Sonra Şeyx Nizaməddinin "Yeddi gözəl"i əvvəlcə cənnətməkan Cahan Pəhləvanın adına qələmə aldığını, amma padşah həmin məqamda Haqqa qovuşduğuna görə, mədhnaməni Qızıl Arslanın adına yazdığını, hökmdarın da onu Gəncənin otuz fərsəngliyindəki düşərgə-

sində qəbul elədiyini, üstəlik, Həmdünyan kəndini, bir dəst qiymətli paltar bağışladığını söylədi, dedi, "Yeddi gözəl"i oxumaq qismətim olub, hələ ki, Şeyx Nizaməddinin ucalığına çatan söz əhlinə rast gəlməmişəm.

Şeyx Əbu Bəkrin dərgahında olduğumun üçüncü, ya dördüncü iliydi ki, Təbriz əhlinin də, ətraf mahalların da başına böyük fəlakət gəldi. Əvvəlcə, padşah Müsrətəddin Əbu Bəkr Haqqın rəhmətinə qovuşdu, taxtında qardaşı Müzəffərəddin Özbək oturdu. Deyəsən, padşahın ölümü Tiflisə tez çatmışdı, az sonra gürcü qoşunları məmləkətimizə basqın eləyib Nəqşivana soxuldular, oranı ələ keçirə bilməyib Culfaya üz tutdular, Dərədüz dərəsiylə Mərəndə yaxınlaşdılar. Bunu eşidən Mərənd əhli qaçıb gizləndi, basqınçılar da şəhəri qarət eləyəndən sonra Təbrizi mühasirəyə aldılar. Onda Zahidə Xatun şəhər rəisləriylə məsləhət-məşvərətdən sonra gürcülərə pul, zinət şeyləri, mal verməklə camaatı qarətdən qurtarmaq qərarına gəldi. Neçə dəvə-qatır yükü mal, qızıl-gümüş, neçə sandıq dinar fidyə alan basqınçılar nahiyələri qarət eləyib, deyilənə görə, o qədər əsir, üstəlik, mal-qara apardılar ki, sayını Allahdan başqa heç kəs bilmirdi. Miyananın başına da eyni fəlakət gəlmişdi. Sonra miyanalılar şəhərdə qalan gürcü dəstəsinə hücum çəkib qırdılar. Gələn cəza dəstəsi ağlagəlməz amansızlıq elədi, məliki də, uşaqlarını da öldürdülər, dərilərini soyub minarədən asdılar, şəhəri qarət eləyib yandırdılar. Onda nə padşah, nə də uzun illər ərzində divanın işlərini öz əlində saxlayan vəziri Rəbibəddin Əbülqasım gözə dəydi.

İsmaililər, batinilər, Əlamut qalası barədə əvvəllər eşitmişdim, o hadisələrdən bir qədər sonra daha da geniş bilik sahibi oldum. Padşahımız imam Cəlaləddin Həsəni ölkəsinə dəvət eləmişdi ki, asi Mənğliyə qarşı ondan yardım alsın, il yarım müddətində də ona çox böyük iltifat göstərdi, deyilənə görə, aralarında, az qala, qardaşlıq münasibəti vardı. Padşah, adətən, ona külli miqdarda ərzaq, artıqlamasıyla pul göndərirdi ki,

əyan-əşrəfinə, qoşununa paylasın, üstəlik hədiyyələr, qiymətli geyimlər, gündəlik xərclər üçün min qızıl dinar yollayırdı. Cəlaləddin Həsən hətta bir müddət Beyləqanda dincəlmiş, məmləkətin nemətlərindən feyziyab olmuşdu, eşitdiyimə görə, padşah bütün bunları hacibi Şəmsəddin əl-Quminin vasitəsiylə eləyir, əyan-əşrəfdən başqa bir kimsənin batinilərə yaxın düşmələrinə izin vermirdi. Həmin vaxt Şeyx Əbu Bəkr batinilərin məmələkətimizə ayaq açmalarından hədsiz narahat olduğunu gizlətməmişdi, fikrincə, bundan sonra padşahın canı imamın əlindədi, istədiyi vaxt onu aradan götürə bilər.

Onda Əcəm İraqı taxtında oturmuş, padşahımıza bağlı olan Aydoğmuşla Cahan Pəhləvanın məmlüklərindən Nəsrəddin Məngli arasında çarpışma gedirdi, Məngli İsfahan, Həmədan və digər əyalətlərdə öz adına xütbələr oxudub, sultan adıyla sikkələr zərb etdirmişdi. Amma padşahımız xəlifə ən-Nasir, Cəlaləddin Həsən, bir də Ərbil atabəyi Müzəffərəddin Göybörü Həmədanda Mənglini yenib özünü öldürdülər, torpaqlarını isə bölüşdürdülər. Padşahımız onun yerində Seyfəddin Oğlamışı oturdub Təbrizə qayıtdı. Oğlamış da naibliyə çatandan sonra xütbəni Xarəzmşah Əlaəddin Muhammədin adına oxutdurmağa başladı, amma görünür, batinilərin əliylə həyatından oldu. Sultan Əlaəddin bundan xəbər tutub səfər təbilini çaldırdı, Reyə soxuldu, padşahımız da sultanın qarşısına çıxmağa özündə cürət tapmadı, Təbrizi qorumağa Əhər hakimi Nurəddin Muhammməd Piştəgini göndərdi, özüsə dağlardakı qalalardan birinə qaçdı. Ancaq Sultan Əlaəddin Miyana yaxınlığında Nurəddin Muhammədi darmadağın elədi, özünü, üstəlik, vəzir Rəbibəddin Dəndanı əsir aldı, sonra vəziri Nəsirəddin Dövlətyarı padşahımızın yanına göndərib təslim olmağı, Xarəzmşah adına xütbə oxutdurub, sikkə kəsdirməyi əmr elədi. Padşahımız sultanın bu təkliflərini qəbul eləməkdən başqa bir əlac tapmadı, beləcə, onun Arran və Azərbaycandakı naibi oldu, hökmdarın oğlu Rüknəddinin buyruqlarını yerinə yetirdi. Bundan bir müddət

sonra da gündoğanda Xarəzm sultanı Əlaəddin Muhammədlə tatar xaqanı Timuçin arasında çarpışma başlamışdı. Sultan Əlaəddinin artıq Xorasanın bir hissəsini geri qaytarması, Buxaranı Xarəzmə birləşdirməsi, qaraxitayların varlığına son qoyub Sistanı, Kirmanı, Təbəristanı, Azərbaycanı, Arranı özünə tabe eləməsi, üstəlik, xaqanın elçilərini öldürmək barədə əmri verməsi tatarların Xarəzmə soxulmasını qaçılmaz eləmişdi, bunu dünya işlərindən az-çox baş çıxaranların hamısı deyirdi. O axınının Təbrizə də gəlib çatacağından əndişələnənlər də vardı.

"Şeyxim" dedim, əslində, Şeyx Əbu Bəkr sözün müstəqim mənasında şeyxim olmadı, yəni mənə xirqə geyindirmədi, mən də başqaları kimi onun müridi olmadım, validimin hörməti, öz dərrakəm sayəsində düz on dörd il dərgahında qalıb bundan sonra gedəcəyim yolun başlanğıcını aradım. İnsan hərdən Ulu Tanrının qarşısına çıxardıqlarını xoşbəxtlik sayır, mən də şeyx Əbu Bəkrlə rastlaşmağımı Allahın lütfü hesab eləyirdim. Şeyximin saflığı Allahdanıydı, amma canında belə bir sərxoşluqdan sonra gələn ayıqlıq yoxudu, məndə olan atəşi də onun halında görə bilmirdim. Evimizdə göy elmlərini, kimyanı, riyazəti, ilahiyyatı, nücum biliklərini, məntiqi, xilafiyyəti özbaşıma oxuya-oxuya öyrənmiş, Şeyx Əbu Bəkrin dərgahındasa *O-na gedən yolu* axtarmışdım. Şeyxim mənə bundan artığını vermək iqtidarında deyildi, mən də indiyəcən aldıqlarımla kifayətlənmək fikrindən uzağıydım. Günlərin birində Şeyxin mənə mürşidlik eləyə bilməyəcəyini açıq-aydın başa düşdüm, bunu utanıb-çəkinmədən özünə də dedim. Sifəti kölgələndi, elə bil, gözlərimin qabağındaca xeyli qocaldı, köksünü ötürüb dedi, haqlısan, oğlum, daha sənin dərgahlıq işin yoxdu, mən bacardığımı verdim, sən ağlına batanı qəbul elədin, bununla da könlündəki atəş sönmədi; dedi, səni saxlamaq, yolundan döndərmək çətindi, yolun açıq olsun, get, könlündəki atəşin apardığı məqamlara üz tut. Mən də onu məhzun halda qoyub getdim...

Şeyx Əbu Bəkr məsləhət, xeyir-duayla yanaşı, mənə ad da verdi, validimin layiq bildiyi Muhəmməd adının yanına Şəmsəd-Dini – Dinin Günəşi – yaraşdırdı. Böyük lütf göstərmişdi, amma mən dinin Günəşi olmaq, yəni şəriət üləmaları cərgəsinə qoşulmaq, qazilik eləmək, mədrəsələrdə tifillərə ilahi nizamı və şəriət qaydalarını öyrətmək fikrində deyildim, *Öz Günəşimi* axtaracaq, *O*-nu tapanacan yol gedəcəkdim, buna da bir maneə görmürdüm: artıq binəva valideynlərim əllərini məndən üzmüşdülər, onların istədikləri kimi, ev uşağı olmayacağımı, yanlarında qalmayacağımı, evlənib külfət sahibitək yaşamayacağımı, onları nəvəylə sevindirməyəcəyimi bilirdilər, deyəsən, qismətlərinə qail olmuşdular. Yenə də mənim vəcd halım onu qorxudurdu, bu halımın eşq atəşindən yarandığını anlaya bilmədiklərindən, cəzb olunduğumu görəndə vahimələnirdilər.

Amma nə gizlədim, qəlbimdən *İnsani Eşq* keçmişdi: bir dəfə dilimə *Eşq misraları* da gətirmişdim, dərgahda müridlərin cansıxıcı kəlamlarını, yeknəsəq səslərini eşidəndə öz-özümə pıçıldamışdım: *"Ey yar, səni gözümdə-könlümdə yox, canımda gizlədirəm,//Ta son nəfəsiməcən mənə yar olasan"*. Bir dəfə bu beyti Zeynəddinin yanında söyləmişdim, o da həmin *"yar"*ın biçarə validimin müştərilərindən biri olan, elə məhəlləmizdə də yaşayan sərraf Nəzminin qızı Mehmanə Xatun olduğunu hardansa duymuşdu. Mehmanə Xatunu hər görəndə canımdan anlaşılmaz gizilti keçirdi, şübhəsiz, bir vaxt evlənməli olsaydım, elə onun timsalında bir Allah bəndəsiylə evlənəcəkdim, amma könlümdəki *Eşq* başqaydı, qalan sevdaları sıxışdırıb çıxarmışdı. Bundan sonra da yoluma *Dünyəvi Eşq* çıxa bilərdi, ola bilsin, nəfsimə də yenilərdim, bütün bunlarınsa *İlahi Eşq*in müqabilində zərrə qədər də dəyəri yoxudu. Bəzən gecənin qoynunda üzümü əngin səmaya tutub qışqırırdım: *"Ərzə hacət yoxdu, halım Sənə ayandı, // Dilə gərək yoxdu, sükutum sənə bəyandı. // Sözə lüzum yoxdu, susmağım sənə kəlamdı, // Kəlama ehtiyac yoxdu, Eşq Sənə fəğandı"*. Hayqırtım *O*-nun dərgahına çatırdı-

mı, bilmirəm, amma həmin məqamda çiynimdə açıq-aşkar əl təması duyurdum, cismimdən bihuşedici gizilti keçirdi, dönüb baxır, kimsəni görmürdüm, amma o *İlahi Nəfəsi* duyduğuma əminliklə and içə bilərəm.

Onda ən çox qibtə elədiyim adam məhəlləmizdə yaşayan Dəli Nəzər idi. Deyilənə görə, uşaqlıq, yeniyetməlik çağlarında mənim kimi dünyanın sirlərindən baş çıxarmağa çalışmış, amma müəyyən məqama çatanda beyni tab gətirməmiş, başqalarının anlaya bilmədiyi şeylər danışmağa başlamışdı. Biçarəni molla yanına aparmış, kitab açdırıb, dua yazdırmış, o duanı suya salıb içirmişdilər, amma Nəzərin *"dəliliyi"* ötüb keçməmiş, aləmin sirlərindən daha vəcdlə danışmağa başlamışdı. Nəzəri sınamaq üçün evə salıb qapını bağlayırdılar, amma bir yol tapıb çıxır, məhəllədə dolaşa-dolaşa ona ayan olan sirlərdən söz açırdı. Bir gün validim şeyx Əbu Bəkrin dərgahından uzaqlaşmaq niyyətim barədə qonşumuz sərrac Yusifə şikayətlənirdi, mən də fikrim uzun-uzun yollarda dolaşa-dolaşa yanlarında dayanmışdım. Elə bu məqamda Dəli Nəzər göründü; deyəsən, validimin ağzından çıxan bir-iki kəlməni eşidibmiş, gözləri alacalanmış halda yumruqlarını havaya qaldırıb kişinin üstünə gəldi, məni göstərib qışqırdı: "Yoxsa bu uşağı incidirsən? Səni götürüb o axar suya ataram!" Validim çaşdı, qorxa-qorxa yaxınlıqdan duz gölünə doğru axan çoşqun nəhrə baxdı, nəsə demək istədi. Dəli Nəzər üzünü heç ona sarı da çevirmədi, mənə tutdu, bağır basıb hörmətlə "Salamat qal", – dedi, çıxıb getdi. Validim xeyli təsirlənmişdi, məndən ötrüsə, həmin məqamda Dəli Nəzər dünyanın ən doğma adamıydı, çünki hamının dəli saydığı oğlanın gönlündə *Eşq Atəşi* vardı, o atəş də, şübhəsiz, Nəzəri hamı kimi yaşamağa qoymayacaq, günlərin birində də axırına çıxacaqdı.

Dəli Nəzərin xəbərdarlığından sonra validimin mənə ehtiyatla yanaşdığını, arada məsafə saxladığını hiss eləyirdim. Ona batini halımı, iç dünyamı göstərə, anlada bilməzdim, məni də, ən azı, Dəli Nəzərin tayı sayardı. Əslində, valideyn sarıdan

bəxtim gətirmişdi, ikisi də gözəl xasiyyətli, nəcib, mömin Allah bəndələriydi. Validim iki kəlmə söz söyləyəndə səmimiyyətinin gücündən göz yaşları sel olub saqqalını isladırdı. Amma *Aşiq* deyildi, könlündə *Eşq* yoxudu, bir kərə vəcdə gəldiyini görməmişdim. Mənə görə yaxşı xasiyyətli olmaqla *Aşiq* olmaq, içində *Eşq* gəzdirmək başqa-başqa şeylər idi. Validəmə qarşı bu cür iddialara düşmək fikrində deyiləm, Allah onu itaət göstərmək, ömrünü başqalarının yolunda fəda eləmək üçün yaratmışdı. İllər keçdikcə gözlərindəki kədər artır, məndən ötrü daha da dözülməz olurdu. Bununla belə, validimin səmimiyyəti, validəmin gözlərindəki kədər məni *yolumdan* saxlaya bilməzdi.

Bir gün gördüm, bütün şəhər, şəhərlə də birgə evimiz fırlanır. Deməyə dilim də gəlmir, evin ortasında nur topası peyda olmuş, damı da yoxa çıxmışdı. Həmin məqamda bütün bunları, əlbət ki, görməyən validim halımdakı dəyişikliyi sezdi, kədərlə məni süzdü, dərindən ah çəkib ancaq "Eh, ay oğul!" – dedi, gözləri dolmuş bulud kimi boşaldı, göz yaşları bir cüt nəhrə dönüb saqqalına doğru axdı. Onun necə hiddətləndiyini sezdim, amma bir söz demədi, çıxıb harasa getdi. Yəqin, həmin məqamda məndən əlini tamam üzmüş, tezliklə çıxıb gedəcəyimi anlamışdı. Bu vaxtacan ərəb-farsı mənimsəmişdim, səma elmlərindən, fiqhdən, nücumdan, məntiqdən xəbərdar olmuşdum, bütün bunlar da *O*-na yetişmək yolunda işimə yaramalıydı. Şeyx Əbu Bəkr Səlləbafın dərgahıyla kifayətlənmək niyyətində də deyildim. Belə olsaydı, sözsüz-sovsuz onun müridliyini qəbul eləyər, uzaqbaşı, varisliyə göz dikərdim. O vaxt Şeyxim də qəribə hallar keçirirdi. Xorasandan gəlib dərgahda əyləşmiş, təxminən yaşıdı olan Fəxrəddin ər-Razinin ağlı, biliyi, təcrübəsi ona elə təsir göstərmişdi ki, vəcdindən uçmaq istəyir, gecə-gündüz dizinin dibindən ayrılmırdı. Hərdən tələbələri gedəndən sonra, məni də saxlayır, qonağın hücrəsində saatlarla Quranın təfsirindən, dünyanın, həyatın qanunlarından danışırdılar. Şeyxim vəcdə gəlir, ər-Razinin əlindən yapışıb Təbrizə

köçmək, ona valid mərtəbəsində olmaq, ömrünü burda rahatca keçirməklə bağlı dil tökürdü. Mənə deyirdi, sən də oğlum ol, üçümüz gönül rahatlığı içində ömür sürək. Amma nə ər-Razi Təbrizdə qaldı, nə mən Şeyximin yanında duruş gətirə bilərdim. Ər-Razi günlərin birində halal-hümmət eləyib yola rəvan oldu, mən də ayrılıq vədəsinin çatdığını duyurdum.

Şübhəsiz, Şeyximin məqamı ucaydı, yolumu ona rast gətirdiyinə görə də Allahıma şükür eləyirdim, amma mən sonsuz dəryalarda üzmək üçün xəlq edilmişdim, nəinki dərgaha, heç Təbrizə də sığmazdım. Günlərin birində dərgahdan da, Təbrizdən də gedəcəkdim. Haqq üçünə, şeyx Əbu Bəkr Səlləbaf arif adamıydı, məni irşada çatdırmaq yönündə Allahın bəxş elədiyi bütün yatırını xərcləyəndən sonra yarıac qaldığımı görüb sözarası özümə başqa mürşid axtarmağı məsləhət görmüşdü. Mənimsə məramım mürşid axtarmaq deyildi, ümumiyyətlə, kiməsə mürid olmaq barədə heç vaxt düşünməmişdim. Nəcmüddin Kübranın xəlifəsi Baba Kamal Cəndi, Fəxrəddin İraqiylə Şeyximin dərgahında ünsiyyətdən sonra heç birinə müridlik eləmək fikrinə düşməmişdim, çünki *müridlik kiməsə bağlılıqdı, kiminsə yolunu getməkdi*, amma mən kimsəyə bağlı qalmaq, kiminsə yolunu getmək fikrində deyildim, *O*-nunla aramda adını daşıdığım Peyğəmbərdən *(c)* başqa kimsə ola bilməzdi. Bütün mürşidlər, şeyxlər, vəlilər məndən ötrü ancaq *O*-na çatmaq yolunda imkanları daxilində yardımlarını gördüyüm səxavətli Allah bəndələriydilər. Şeyx Əbu Bəkr də müridi olmadığıma görə məndən inciməmədi, əksinə, özünün verə bilmədiklərini kimlərdən ala biləcəyimlə bağlı tövsiyələrini əsirgəmədi. Dediyinə görə, mənə nəsə verəcək iki zat vardı: Şeyx Övhədəddin Kirmani, bir də Şeyx Şəhabəddin Mahmud. Fikrincə, əvvəl Kirmaninin yanına getməyim məsləhət idi, çünki Şeyx Şəhabəddin başqa bir mərtəbəydi, Kirmaninin verə bilmədiklərini ondan ala bilərdim.

Şeyx Əbu Bəkrin bu comərdliyi müqabilində ona sonsuz şükranlıq duydum. Şeyxin mərhəməti, şəfqəti, alçaqkönüllülü-

yü onda cəmi Təbriz əhlinin dilinin əzbəriydi. Deyilənə görə, bir gecə yatağına girəndə tıqqıltı eşidib pəncərədən boylanır, oğrunun kəmənd atıb dama dırmaşmaq istədiyini görür. Həmin məqamda da qonşular bundan xəbər tuturlar, səs-küy qalxır, o qarğaşada özünü itirən biçarə oğru da gizlənməyə yer tapmayıb qorxu içində aradan çıxmağa çalışır. Bunu görən Şeyx əməlli-başlı təsirlənir, biçarə oğrunun keçirdiyi təlaş hissi ürəyinin başına od salır. Başqa yolla dama çıxıb onun qarşısını kəsir, deyir, dostum, getmə, mən sənə yad deyiləm, igidlikdə heç ayağının tozu da ola bilmərəm. Sonra əynindəki paltarı soyunub oğruya verir, üstəlik, üzrxahlıq eləyir, deyir, indi qonum-qonşu tökülüşüb gəlməmiş aradan çıx, canını qurtar. Belə seçkin, müdrik, müqəddəs zatın müridi olmaq, başqasından ötrü şərəf sayılırdı, canımdakı atəş aman versəydi, bunu mən də Allahın lütfü kimi qəbul eləyərdim. Amma dəryalarda üzmək üçün xəlq olunmuş varlığın hinə qapanıb qalması təkcə haqsızlıq kimi görünməz, üstəlik, heç Allahın da xoşuna getməzdi.

Şübhəsiz, yolumdan dönməyəcəkdim, amma Şeyx Əbu Bəkr ala bilmədiklərimin əvəzində şəriətdən əlavə söz sənətinin qapısını da araladı. Diyari-Rumun ilk şairinin Kəmaləddin Hübeyş Tiflisi olduğunu mənə o söylədi: Böyük Sultan Qılınc Arslan Malatyada iqamət eləyəndə Tiflisdən gedib onun yaxınları arasına yol tapmış, məclislərində iştirak eləmiş, farsca rübailər qələmə almışdı. Birində deyirdi, *Sənin simanda öz simamı görmək mümkündü, // Sümüyünün içində iliyi görmək mümkündü, // Qaranlıqda səni görmək o qədər asandı ki, hətta // Lütfün üzündən cismində canını görmək mümkündü.* Malazgird zəfərindən bir müddət sonra Qeysəriyyə dizdarı olan İbn-ül Kamal İlyasın Danişməndoğulları padşahı Gümüş-Tigin Əhməd Qaziyə ad elədiyi "Kəşf-ül-əqabə"nin nüsxəsini də oxumaq üçün Şeyxim vermişdi, aləmin şəkli, dörd ana ünsürün – torpaq, hava, od, su – varlığının isbatı, cənnət-cəhənnəmin, insan ruhunun təsviri O-nun mövcudluğuna inamımın artmasına səbəb olmuşdu.

Onun dediyinə görə, Əbülfəth Rüknəddin Süleymanşahın katibi, sonra da vəziri olan Muhammməd bin Qaziyi Malatyavi, həm də İspəhbud Mərzban bin Rüstəmin "Mərzbannamə"sini təbəri dilindən çevirmiş, üstəlik, özü də kitablar yazmışdı. Böyük sultanlar İzzəddin və Əlaəddinin katibliyini eləmiş Nizaməddin Əhməd Ərzincaninin, məlik-ül-küttab Şəmsəddin Həmzə Tuğrayinin, əmir Kəmaləddin Kamyarın, Rum pərvanəsi Nizaməddin Xurşidin, Şeyx Övhədüdinin xəlifəsi Şeyx Şəmsəddin Tiflisinin qələmindən çıxanları da onun dilindən eşitmiş, Səlcuqluda məlik-üş-şüəra Əmir Bəhaəddin Tusinin böyük bir salnamə yazdığından xəbər tutmuşdum.

Amma ən çox diqqətimi çəkən Şeyx Övhədəddinlə bağlı söylədikləriydi, onun Bağdadda mədrəsə bitirdiyini, Xangahiyyə mədrəsəsində əvvəlcə müridlik, sonra müdərrislik elədiyini, ardınca Qütbəddin Əhbərinin xəlifəsi Rüknəddin Sücasiyə müridilik elədiyini, sonra Övhədiyyə dərgahını qurub öz fikirlərini yaymaq üçün Azərbaycan, Diyari-Rum, İraq, Şam, Misir, Hicazı dolaşdığını, hər yerdə sultanlardan da, üləmalardan da hörmət-izzət gördüyünü, Konyada Mühyiddin əl-Ərəbiylə görüşdüyünü Şeyx Əbu Bəkr söyləmişdi. Şeyx Övhədəddin bir müddət Malatya və Sivasda məskən salmışdısa, sonralar dər-ülmülk Qeysəriyyədə iqamət eləmiş, elə orda da evlənmişdi. Dediyinə görə, tatarlara qarşı qurulan Fütuvvətin Diyari-Rumdakı şeyxlərinin başçısıydı, "Şex-üs-şüyuh" ünvanı almışdı, indi Ərbildəydi, yönünü bu tərəfə çevirmişdisə, deməli, Xəlifənin bundan xəbəri vardı. Üstəlik, Şeyximin dediyinə görə, Şeyx Övhədəddin Övhəd tapşırmasıyla çoxu fars, bir qismisə ərəb dilində olan rübailər, qəzəllər qələmə almışdı, amma əsasən, vəhdəti-vücud, şahidbazilik, zənən, ilahi eşq, şəriət, təriqət ədəbi, qədər, ibadət, dünya, axirət mövzularında yazdıqlarını Ömər Xəyyamın, Fəxrəddin İraqinin, hətta Məhsəti Gəncəyinin rubailəriylə müqayisə eləmək olmazdı. Məsələn, bir qəzəlində deyirdi, *Meyxana olanda məscid mənə ziddi, // Zünnar olanda*

mənə səccadə gərəkməz. Bu cəsur fikri içimi alt-üst elədi, onun hüzurunda olmağı, yanında bişməyi arzuladım.

Şeyxim haqlıydı, *öz yolumu* getmək üçün də güzəranımı təmin eləyəcək bir sənətim olmalıydı. Qələndəriyyə dərvişləri sayaq məscid qapılarında, yol qırağında çarşı-bazarda sədəqə toplamaqla günümü keçirə bilməzdim. Quru çörəyə bəs eləyəcək pul qazanmağımı, yaxud əlimin əməyini çörəyə dəyişməyə fürsət tapmağımı *yolumun* bundan sonrası üçün vacib şərtlərdən sayırdım. Artıq yaşım o yaş deyildi, evimizə bir faydam dəymədiyindən, ziyanım da toxunmamalıydı. Hələ özümü mədrəsələrdə dərs demək üçün hazır saymırdım, tifillərə yazıb-oxumağı öyrətməksə səbir işidi, o da məndə yoxudu. Bu fikirlə küçələri dolaşdım, dükanlara göz qoydum, bazarlara diqqət yetirdim, gəzərgi adam üçün münasib, həm də güzəranına bəs eləyəcək qədər gəlir gətirən sənət axtardım. Axır ki, evinin qapısı ağzında yerə nimdaş kilim sərib oturmuş, belbağı hörən bir Allah bəndəsinə rast gəldim. Axtardığımı tapmışdım, dağarcığıma bir-iki yumaq ip qoyub qalacağım karvansarayların hücrələrində belbağı hörə, o belbağıları satıb güzəranımı təmin eləyə bilərdim.

Bir müddət o adama göz qoyandan sonra yanaşdım, sənətini öyrənmək istədiyimi deyib halallıq istədim. Kişi könül əhliymiş, boyun qaçırmadı, dedi, nə vaxt istəsəm, gələ bilərəm, həm həmsöhbət olar, həm də belbağı hörməyi öyrənərəm. O gündən düz qırx gün həmin Allah bəndəsinin həmsöhbəti oldum, dünyanın işlərindən danışa-danışa sənətini öyrəndim. Çörəyinə şərik çıxmayacağımı, bu sənəti getdiyim yerlərdə güzəranımı təmin eləmək üçün öyrəndiyimi də söylədim ki, mənimlə bağlı könlündə bulantı-filan qalmasın. O könlü şah olan adamsa, hər gün bir parça çörəyini bölüşüb cömərdliyiylə qəlbimi ovladı. Halal-hümbət eləyəndə də gözləri yaşardı, dedi, hara gedəcəyini bilmirəm, amma həyatın çətin keçəcək, get, Allahın nəzəri həmişə üstündə olsun. Onda valideynlərim məndən əllərini tamam üzmüşdülər, artıq bir söz deməyi faydasız sayır,

gözlərimin qabağındaca qocalırdılar. Şeyx Əbu Bəkr Səlləbafın yanında qaldığım on dörd il ərzində, ən azı, yaxınlıqda olmağımla təskinlik tapırdılar. İndi bir qədər də uzaqlaşacaq, beləcə, aramızdakı bağları qırılmaq həddinə çatdıracaqdım. Düşündüklərimi kağıza köçürmək şakərim olmasa da, o günlərin birində həyatımızdan keçən insanlar barədə yazmış, bəzisinin öz ardınca heç bir iz buraxmadığını, bəzisinin ruhumuzu ehmalca oxşadığını, bəzisinin də arxasınca hüzn qoyduğunu, bəzisinin səssizcə könlümüzə girdiyini, bəzisinin şəraba oxşadığını ifadə eləmişdim; su kimi müqəddəs, duru olan, danışdıqca suya dönüb Qan kimi, Can kimi, Canan kimi qəlbimizə axan, işığı sönmüş ulduzlar sayaq çarəsiz görünən, soyuq divarları andıran, bəzisi zəlzələlərlə, bəzisi fırtınalarla gedən insanlar barədə yazmışdım: *"Mən qalanlardan yanayam, // Getməyənlərin sədaqətini və səbrini sevirəm, // Qucaqlayıb buraxmayanların hənirini..."* Amma getdim, həm də istədim ki, o adamlar məni sədaqətsizlikdə, səbirsizlikdə suçlamasınlar.

***

Mən Şeyx Əbu Bəkr Səlləbafla vidalaşan il məmləkətin başının üstünü qara buludlar bürümüş, gündoğandan başlayıb üzübəri gələn qorxunc sel Xorasandan Anadoluyacan hər yeri təhdid altına almışdı. Müdrik Xarəzmşah Əlaəddin Təkiş ölüm yatağında olanda oğlu Əlaəddin Muhəmmədə vəsiyyət eləyibmiş ki, Qurxana qarşı çıxma, onunla sazişi pozma, çünki o məmləkət qorxunc düşmənlərin qarşısında böyük səddi. Amma Əlaəddin validinin sözlərini tez unutmuş, qaraxitayları tabe eləmək fikrinə düşmüş, nəticədə yenilmiş, tatar xaqanının qılıncından güclə qurtulmuşdu. Vəliəhdliyi bir müddət əvvəl alınıb Azlaqşaha verilmiş şahzadə Cəlaləddin kiçik bir dəstəylə özünü validinə yetirə bilmiş, Xarəzmşah Əlaəddin azsaylı məiyyətiylə özünü Haröndar qalasına çatdırıb ailəsini və xəzinəsini orda qoymuş, amma az sonra Quzgun dənizindəki Abaskun adasına

sığınmışdı. Tatarlar sultanın vəzirini, kiçik oğlunu və validəsi Türkan Xatunu əsir eləyib xanın hüzuruna göndərmişdilər. Onların öldürüldüyündən xəbər tutanda sultan varından yox olmuş, bir vaxt haqsızlıq eləyib geri aıdığı vəliəhdliyi Cəlaləddinə qaytarandan az sonra yıxılıb canını Allaha tapşırmışdı. Biçarə elə səfil gündəymiş, yanındakılar meyitini bükməyə ağ da tapmamış, çavuşunun köynəyindən kəfən düzəltmişdilər. Son nəfəsində demişdi, dünyanın işinə bir baxın, bu torpaqların sahibiyəm, indi məzarımın qazılması üçün iki arşın torpaq tapa bilmirəm. Bir vaxtlar qüdrəti aləmə yayılmış sultandan yaşı iyirmini yenicə ötmüş oğlu Cəlaləddinə qalan miras lap miskin imiş, validinin qərib məzarından göz yaşları içində ayrılan vaxt yanında cəmi yetmiş atlı varmış.

Şahzadə Cəlaləddin qardaşları və yetmiş atlıyla vətəninə üz tutub, dağılan tifaqı yenidən bərpa eləməyə can atıb, öz sultanlığını elan eləyib. Az sonra da şahzadələr Uzlaqşah və Ağşah əmirlərlə dil tapıb Cəlaləddini öldürmək fikrinə düşüblər. Ancaq o, sadiq əmirinin vəziyyəti bildirməsiylə Xorasanın dağlıq ərazisinə üz tutub, şahzadələrsə tatarlarla döyüşdə öldürülüblər. Yeni sultan daha sonra Pərvan yaxınlığında tatarları yenib, Nişapur, Zuzan və Bustdan keçib bir vaxt mələk kimi taxtda oturduğu Qəznəyə çatıb. Qəznə əhli onu böyük sevinclə qarşılayıb, az müddətdə yeddi minlik qoşun toplayıb. Sonra baş verən döyüşdə Cəlaləddinin atlıları əvvəlcə Cucinin qoşununun şiddətli hücumu qarşısında duruş gətirə bilməyib, amma şahzadə qılıncını siyirib düşmənin üstünə elə atılıb ki, tatar qoşunu qaçmağa məcbur olub. Gecə də Cuci ovalığın quru otuna od vurub, tüstü arxasında əsgərlərini çəkib aparıb. Əlbəttə, tatar xaqanı bu yenilgini sinirə bilməyib, iki yüz minlik qoşunla əvvəlcə Buxaranı, sonra da Səmərqəndi ələ keçirib qarət eləyib, şahzadə Cəlaləddinsə bu dəfə yenilib, Sind nəhrinin o tərəfinə keçməli olub. Onda Xaqan onun diri ələ keçirilməsini əmr eləyibmiş Cəlaləddin odla su arasında qalıbmış, qılıncını çəkib təkbaşına

çarpışır, qarşısına çıxanın başını bədənindən ayırırmış, amma düşmən əsgərləri ona ox atmayıblar. Çənbərin get-gedə daraldığını görəndə məcbur olub, əsgərlərinə validəsi Ayçiçək xatunu da, zövcəsi Qutlubikəni də nəhrə atmaq barədə əmr verib ki, tatarlara əsir düşməsinlər, o binəvaların nəhrdə boğulmalarına göz yaşları içində, ürəyi parçalana-parçalana tamaşa eləyib. Sonra özü nəhrin o biri sahilinə keçmək istəyib, başqa bir ata minib, özünü Sind nəhrinin çoşqun sularına atıb, Allahın təqdiriylə məramına çatıb. Xaqan bundan xəbər tutanda oğullarına deyibmiş: "Elə atanın belə də oğlu olmalıdı. Özünü su və atəş kimi iki bəla girdabından xilas eləyib sahilə çatdı".

Gündoğanı fəth eləmiş tatar xaqanının qoşunu müsəlman aləminin səddi sayılan Xərəzmşahları yıxandan sonra dayanmamış, Cəbə Noyon və Subutay Bahadır Reyi ələ keçirib dağıtmış, Həmədana doğru üz tutmuş, şəhər camaatı da Reyin başına gətirilənlərdən ibrət alıb Allaha əl atmamış, aman diləyib pul-para, bahalı hədiyyələrlə canlarını qurtarmışdı. Tatarlar döyüşsüz təslim olmayan Zəncan və Qəzvini darmadağın eləyib dizə gətirmişdilər. Sonrakı hədəfləri məntiqə görə Cibal olmalıydı, amma qış düşdüyündən, dağlıq yerlərə getməmiş, Təbrizə sarı üz tutmuşdular. Onda hamının gözü günbatanda, əlləri göydəydi, bəlanın ötüb keçməsi, camaata rəhm eləməsi üçün dualarını əsirgəmirdilər. Amma məlum oldu ki, padşahımızın tatarlara qarşı çıxmaq, özünü təhlükəyə atmaq fikri yoxdu. Ərzaq, mal-heyvan, qiymətli hədiyyələr göndərib aman dilədi, barışıq təklif elədi, tatarlarsa Təbrizdəki xarəzmli əsgərlərin onlara təslim olunmasını istədilər. Padşah da o biçarələrin bir hissəsini özü öldürtdü, qalanını da ta tutub tatarlara göndərdi, üstəlik, onlara təzminat kimi pul, paltar və mal-qara da verdi. Onsuz da isti güney dənizlərinin sahilinə enməkdən başqa bir fikirləri olmayan tatarlar o qışı Təbriz ətrafında keçirdilər.

On minlik tatar qoşunu gürcülərin ölkəsinə basqın eləyib qoşunlarını yenəndə, görünür, qonşu məmləkətlərin hökmdarla-

rı belə bir taleyin onları da gözlədiyini başa düşüb gizlicə padşahımızın yanına elçi göndərmiş, qüvvələrini birləşdirməyi təklif eləmişdilər. Axır ki, başı eyş-işrətdən ayılmış padşah təkliflə razılaşmış, Əhlət və Cəzirə hakimi Məlik Əşrəfin yanına adam yollayıb ondan yardım da istəmişdi. Onların fikrincə, tatarlar qış ərzində yerlərindən tərpənməyib yazın gəlişini gözləyəcəkdilər. Amma yanıldılar, çünki qış heç yarı olmamış tatarlar Gürcüstana bir də basqın elədilər, üstəlik, Atabəyin qulamlarından Ağquş da Cibal və ətraf yerlərdən yığdığı qoşunuyla onlara qoşuldu. Ağquş başçılığıyla hər tərəfi dağıda-dağıda Tiflisin qapılarınacan gedib çıxdı, gürcü qoşununu yenilgiyə uğradıb çoxlu qənimət ələ keçirdi. Amma görünür, gürcü ölkəsi kimi dağlıq yerdə döyüşmək onlardan ötrü asan olmamışdı, ona görə də qış bitməmiş Təbrizə qayıtdılar. Onda gürcülərin padşahı Georgi Laşa Müzəffərəddin Özbəyin, Məlik Əşrəfin hüzuruna gizlicə elçilər göndərib tatarlara qarşı birgə çıxmaq barədə razılığa gəldilər. Amma tatar çuğulları bunu dərhal Cəbə Noyona və Subutay Bahadıra çatdırmışdılar, tatar qoşunu yenidən gürcülərin ölkəsinə və Arrana soxulub gürcü qoşunlarını darmadağın elədilər.

O yaz düşmənin ilk qurbanı padşahımızın yeganə övladı Məlik Xamuşun zövcəsi Sülafə Xatunun hökmündəki Marağa oldu. Tatarlar şəhəri mühasirəyə aldılar, Ruvindiz qalasını itaətə gətirib müqavimət göstərənləri qılıncdan keçirdilər, başlarını kəsib nizəyə taxdılar, ordan da Ərbilə doğru üz tutdular, amma Göybörünün artıq döyüşə hazırlaşdığını öyrənəndə qəfildən yönlərini Həmədana çevirdilər, şəhərin kənarında düşərgə salıb xərac tələb elədilər. Biçarə camaatın artıq verməyə quru canlarından başqa bir şeyləri qalmayıbmış, şəhərə basqın eləyənlərdən, az qala, yalın əllə qorunurmuş. Axırda müdafiəçilər içəridəki satqınların yardımı sayəsində basılmışdılar. Deyilənə görə, şəhərdə qırğın üç gün-üç gecə davam eləmiş, İslam ümməti tamam qılıncdan keçirilmişdi. Basqınçılar şəhərə od vurub,

hər yeri xarabazara çevirmiş, sonra da Təbrizə sarı üz tutmuş, Ərdəbili ələ keçirib əli silah tutan əhalisini qətlə yetirmiş, şəhərin böyük bir hissəsinisə yandırmışdılar. Bir ilin ərzində Təbriz ikinci kərə ölüm-qalımla üzləşdi.

O yaz Təbriz üçün cəhənnəmdən fərqlənmirdi. Nə cana gələn təbiətin, nə açan çiçəklərin, nə də cəh-cəh vuran quşların səfası qalmışdı. Gürcülərin basılmasından qorxuya düşmüş padşah sarayına çəkilib bundan sonra nə baş verəcəyini gözləyirdi. Amma camaat məsələni taleyin ixtiyarına buraxmaq fikrində deyildi; başbilənlər yığışdılar, kimin evində qiymətli, dişə dəyən nə vardısa, yığdılar, parça, at, ot-ələf tədarük elədilər, validim də iki top parçasını əsirgəmədi. Tatarların yanına gedən dəstədə Şeyx Əbu Bəkr Səlləbaf da vardı, danışırdı ki, çadırlarının sayı, az qala, Təbriz evlərinin sayı qədərdi, o selin qarşısında heç Baqdad Xəlifəsi də duruş gətirə bilməz. Təbriz də başsız qalmışdı, padşah tatarların yaxınlaşdığından xəbər tutanda ailəsini Xoy tərəflərə göndərmiş, özü də Nəqşivana üz tutmuş, camaat şəhər rəisi Şəmsəddin ət-Tuğrayi, bir də onun qardaşı oğlu Nizaməddin ət-Tuğrayinin ümidinə qalmışdı. Şəmsəddin ət-Tuğrayi qeyrət əhlindən dəstələr düzəldib hüdudlarda yerləşdirir, nə qədər güclü olsalar da, tatarlara üstün gəlməyin mümkünlüyünü təkrarlamaqdan yorulmurdu.

Həmin günlər dərgah yoldaşım Zeynəddin Kəlusiylə məhəllə-məhəllə dolaşıb Allahın günahsız bəndələri olan binəvalara ürək-dirək verir, zalımın gec-tez öz cəzasına çatacağını təlqin eləyirdik. İnanan inanırdı, inanmayan möcüzə baş verəcəyinə, bu bəlanın başımızdan sovuşacağına ümid bəsləyirdi. Herat qapısında intizarla gözləyən dəstəyə ürək-dirək verəndə Fəxrəddin ər-Razidən eşitdiyim hekayəti danışdım: keçmiş zamanlarda bir dərviş yoldan keçən atlını saxlayır, deyir, yolunun üstündədisə, Allah xətrinə, məni filan şəhərəcən apar. Atlı da insaflı adammış, boyun qaçırmır, dərvişi tərkinə alıb atını dördnala çapır. Bir qədər gedəndən sonra dərviş deyir, Allah xətrinə,

dayan, bir az dincələk. Hələ yeni yol başladıqlarından atlı təəccüblənir, amma bir söz demir, atın başını çəkir, enib dincəlirlər. Dərviş oturub gözlərini yumur, az sonra qalxıb deyir, indi gedə bilərik. Ata suvar olub yola düşürlər, axır ki, dərvişin dediyi şəhərə çatanda atlı özünü saxlaya bilməyib yolda niyə dayandıqlarını, onun nəyə görə oturub gözlərini yumduğunu soruşur. Dərviş deyir, o qədər sürətlə getdik, ruhlarımız geridə qaldı, onları gözlədim. Dedim, indi ruhlarımızı gözlədiyimiz məqamdı, inşaallah, bizi aydınlığa çıxarar.

Allahın lütfündən gözlənilən möcüzə baş verdi; tatarlar Şəmsəddin ət-Tuğrayinin yanına elçi heyəti göndərib şəhərə girməmələri müqabilində xərac istədilər. O da Təbrizin başbilənləriylə məsləhət-məşvərətdən sonra camaatı qırğına verməmək üçün təklifi qəbul elədi. Üç gün ərzində biçarə təbrizlilər əllərində-ovuclarında nə vardısa, gətirdilər, lazımi miqdarda xərac düzəldəndən sonra düşmənə verib şəhəri də, canlarını da qurtardılar. Payızın ortalarında tatarlar Təbriz ətrafından tərpənib Səraba üz tutdular, şiddətli hücumla şəhəri ələ keçirib itaət eləməyənləri qılıncdan keçirdilər, ordan da Arrana yollanıb Beyləqanı xarabaya çevirdilər, ardınca Gəncəyə sarı yönəldilər. Gedişatdan belə görünürdü ki, Arran və Gürcüstan diz çökdürüləndən sonra yenidən Təbrizin üzərinə gələcəklər. Amma Şeyx Əbu Bəkr gündoğandan gələn bu məşum selin Təbrizlə kifayətlənməyəcəyini, Bağdada, Şama, hətta Diyari-Ruma gedib çatacağını, qarşısına çıxan hər şeyi silib-süpürəcəyini söyləyirdi. Fikrincə, mənim Təbrizdə qalmağımın kimsəyə faydası olmayacaqdı, bu səbəbdən *öz yolumla* getməyim Allahın da təqdirinə səbəb olardı...

İKİNCİ MƏQAM

Bağdad

BAĞDADDA QƏRİB BİR DƏRVİŞ

Tək qalanda tək olmadığını anla;
dərdlisənsə, dərmanın olduğunu anla;
heç bir şeyin olmadığını demə,
əmanətçi olduğunu anla!





Tatarlar Muğana üz tutanda mən artıq yoldaydım, təhlükə Təbrizin başının üstündən sovuşan kimi, getmək qərarına gəlmişdim. Şeyx Əbu Bəkrlə son vaxtlar Əbu Həmid əl-Qəzalinin məşşailik, Şəhabəddin Sührəvərdinin işraqilik təlimləri barədə söhbət eləmişdik. Məndən ötrü rumlu Ərəstu və Əflatundan başlanan məşşailiyin nədən öz yerini asanlıqla işraqiliyə verməsi çox maraqlıydı. Şeyx Əbu Bəkr həm məşşailik, həm də işraqilikdə dərya olan Sührəvərdinin yolunu davam etdirən Şeyx Şəhabəddin əs-Sührəvərdinin Bağdadda, xəlifə Nasir Lidinillahın himayəsində yaşadığını, bununla bağlı sualların cavabını ondan ala biləcəyimi söyləmişdi. Artıq yola çıxacaq haldaydım: valideynlərimiin məndən gözlədikləri bir şey qalmamışdı, səssiz-səmirsiz əllərini üzmüşdülər, qismətlərinə, necə deyərlər, qaz balası çıxmışdı, üzmək üçün sonsuz dəryalar axtarırdı, güman ki, ömrünü də o dəryalarda başa vuracaqdı; kitablardan və şeyxlərdən öyrənə biləcəyimi öyrənmiş, öyrənə bilmədiklərimi aləmdə axtarmışdım. Sinnim otuzu çoxdan ötmüşdü, fikrimcə, qırx yaşınacan öyrənməliydim, sonra öyrətmək barədə düşünə bilərdim.

Şeyx Əbu Bəkrin xeyir-duasını da, valideynlərimin əlacsız göz yaşları içində söylədikləri ürəkparçalayan sözlərini də Eşq atəşindən doğan yarıbayğınlıq içində dinlədim. Zeynəddin Kəlusinin həsəd qarışıq məsləhətlərini eşidəndəsə dərk elədim ki, evlənib itaətkar Allah bəndəsi olmuş bu vaxt ömrünü elə

şeyxinin yanındaca başa vuracaq. Sonra nədənsə könlümdən Dəli Nəzəri görmək keçdi. Amma Dəli Nəzər artıq yox idi, bir neçə ay qabaq qəfildən qeyb olmuşdu: bəziləri deyirdilər, nəhrə düşüb boğulub, amma cəsədi heç yerdə üzə çıxmamışdı; bəziləri də deyirdilər, onu dan yeri ağaranda güneyə gedən görüblər, hara üz tutduğunu soruşanda cavab verib ki, Haqqı axtarmağa gedir. Mən ikinci şaiyəyə daha çox inanırdım, Dəli Nəzər Haqq üçün doğulmuş, amma Haqqın nəzərindən iraq qalmış Allah bəndəsiydi. Yəqin, öz qismətini gözləmiş, artıq səbir eləyə bilməyib axtarmaq üçün yollara düşmüşdü. Axırda mənə belbağı hörməyi öyrətmiş o ucakönüllü Allah bəndəsinə bir daha baş çəkib halal-hümmət elədim: *səfər elə şeydi ki, getməyin qayıtmamağı da var...*

O payız günlərinin birində Dər-üs-Salama doğru yola çıxanda bizim tərəflərdə hamının tanıdığı Qələndəriyyə dərvişlərinə oxşamırdım: onlar kimi dağarcığımda ülgüc gəzdirmir, cismimdəki tükləri tərtəmiz qırxmır, başıma təskülah qoymur, məscid qapılarında, şarşı-bazarda sədəqə istəmir, gecələdiyim yerlərdə məscid və dərgah hücrələri axtarmırdım. Əynimdə keçədən tikilmiş əba, başımda sərpuş vardı, vücud aynamı dünyadakı gözlərdən keçəyə bürüyüb gizləyir, halımı qeyb örtüyü, Allahın mühafizə qübbələri altında saxlayırdım. Dağarcığımda həmişə bir parça çörək, içməyə su, Şeyx Əbu Bəkrin bağışladığı çini piyalə, iki yumaq ip, hücrə qapısını bağlamaq üçün iri qıfıl olurdu, yorulanda oturub bir piyalə suyla Allah verəndən, ən azı, quru çörəyimi yeyir, gecəyə düşəndə karvansaraylara üz tutur, hücrəmin qapısını içəridən qıfıllayıb zikr eləyir, dincimi alandan sonra ipdən belbağı hörür, o belbağıları rastıma çıxan Allah bəndələrinə dəyər-dəyməzinə satıb həm ipliyin, həm də bir parça çörəyimin pulunu çıxarırdım. Hər üz-üzə gəldiyim kəslə ünsiyyət qurmağı sevmirdim, adamların dünya malına düşkünlüyü, gündəlik qayğıların əlində pələsəng olmaları qəlbimi ağrıdırdı. Üstəlik, gündə beş rükət namaz qılmaq, Rama-

zan ayı gələndə oruc tutmaq, söhbət əsanasında Allahın adını anmaq, kəlmeyi-şəhadətlərini söyləmək, Fatihə oxumaqla özlərini mömin sayanlara yazığım gəlirdi, *O*-na yetməyin nə demək olduğunu bilməyənlərlə nə söhbət eləyəcəkdim axı? Həm də bir kəslə dostluq bağı qurmaq barədə düşünmürdüm, fikrimcə, həqiqi dost yarpağı, tikanıyla birgə gülə bənzəyirdi, Allah kimi məhrəm olmalıydı, dostun pis hərəkətlərinə, xoşagəlməz hallarına dözməli, xətasından inciməməliydi.

Təbrizdən Miyandaba doğru yola çıxanda məni ötürən Zeynəddin at, ya qatırla getməməyimdən, ən azı, Kərbəlaya yollanan karvanlardan birinə qoşulmamağımdan xeyli təəccüblənsə, səbəbini izah eləməmişdim. Məramım Baqdada tez çatmaq deyil, *O*-na doğru gerçək həyatımın içindən keçib getmək idi. Getdiyim yolu dərk eləmək, Allahın rastıma çıxardığı təsadüflərdən feyz almaq, həyat təcrübəsinin müdrikləşdirildiyi adamlarla həmsöhbət olmaq istəyirdim. Elə hey başqasının fikirlərini müdrik görkəmlə söyləyən adamlardan tez iyrənirdim. Məndən ötrü, səhv də olsa, öz fikrini dilə gətirən, *öz yolunu* gedən, ağlından keçəni gizləməyən adamlar daha dəyərliydi. Bəlkə, elə Şeyx Əbu Bəkrin əvvəlcə Rüknəddin Sücasiyə üz tutmaq barədə məsləhətinə buna görə bir qədər soyuq yanaşmışdım. Şeyx Sücasi, ola bilsin, müdriklikdə hörmətəlayiq mərtəbəyə ucalmışdı, amma *öz yolu* yoxudu. Şeyx Şəhabəddinsə Maktul nisbəsilə anılan sələfindən çox şeyləri əxz eləmiş, həm də işraqiliyə öz baxışını gizlətməmişdi. Onun yanına öyrənməklə yanaşı, söhbətə, yəni fikir çəkişməsinə gedirdim, bəxtim gətirsə, çox şey qazanacaqdım.

Miyandabadda çarşı yaxınlığındakı kiçik karvansaraya düşdüm. Cəmi-cümlətanı altı kiçik hücrəsi, bir də karvansaray sahibinin yatıb-durduğu, ehtiyacı olana yemək bişirdiyi, qapısız-bacasız küncü vardı. Dağarcığımdan çörəyimi-suyumu çıxardım, səbzə-plovundan da bir kasa gətirdib qarnımı doyurdum, sonra qapını qıfıllayıb kürəyimi divara söykədim, xeyli zikr elədim,

dincələndən sonra da ip çıxarıb belbağı hörməyə başladım. Yatmazdan qabaq subaşına çıxanda karvansaray sahibinin şam işığında məhzun görkəmlə oturduğunu gördüm. Deyəsən, məndən, bir də hücrəmə yerləşəndə rastlaşdığım codar görkəmli Allah bəndəsindən başqa müştərisi yoxudu, codar da gözə dəyməyinə görə, söhbətə girişmək üçün təkcə mənə ümid bəsləyirdi. Rahatlanıb qayıdanda dedi, zənnim aldatmırsa, Təbriz tərəfdən gəlirsən, sonra tatar bəlasının sovuşduğuna sevindiyini söylədi, mükaliməmizin ömrünü uzatmaq üçün də şərbətə qonaq elədi. O Allah bəndəsinin könlünə dəymədim, üzbəüzündəki kətildə əyləşib söhbətə rəvac verdim.

Karavansarayçı dünyanı görüb-götürmüş adammış, cəhalətdən və savaddan söz saldı: iki gün qabaq qardaşının yeniyetmə oğlu boğaz ağrısından ölübmüş; uşağın boğazını basdırmaq üçün çöpçü yanına aparıblar, halbuki, qonşu məhəllədə təbib varmış; nəticədə binəvanın ağrısı azıb, danışa bilməyib, sonra da dünyadan köçüb. Ona əlimdən gələn qədər təskinlik verdim, dedim, cəhalət savad müqabilində həmişə güclü olub, çünki cəhalət qaba, savadsa incədi; dedim, pislik yaxşılıqdan daha güclüdü, çünki pislikdə mütləq güc olur, gücsüz isə mənasız fəsadlıqdan başqa bir şey deyil; dedim, pis adam yaxşı adamdan daha güclüdü, cahil adamın səsi müdrik adamın səsindən daha bərk çıxır, cahilin sözü müdrikin sözündən daha yaxşı eşidilir, cahil adam müdrik adama hökm eləyəndəsə, fəlakət və ədalətsizlik baş verir; dedim, bununla belə, pisliklə yaxşılığın, cahilliklə biliyin, qaranlıqla aydınlığın, ağla qaranın çarpışması bəşər bina olandan var, həyatımızın gedişində yaxşı, yoxsa pis olacağımız, savadın, yoxsa cahilliyin ardınca gedəcəyimiz də bizdən asılıdı. Karvansarayçının görkəmindən bir qədər təskinlik tapdığını duydum, indiki halımda ona bundan artıq bir şey verə bilməzdim.

Miyandabdan Ərbilə on bir günə getdim. Hələ payızın isti çağıydı, otların, çiçəklərin, ağacların rayihəsi, qurdun-quşun

səsi aləmdən çəkilməmişdi. O rayihələri duya-duya, o səsləri eşidə-eşidə arx qırağında, ağac altında, bostançı talvarının küncündə, köçəri çadırında gecələdim. Ağac kölgəsində quru çörəyimi bölüşdüyüm məlamətiyyə dərvişinin danışdığı Allah qorxusuyla bağlı rəvayət yaddaşımda dərin kök saldı. Allahın dostlarından İbrahim bin Ədhəm Həzrətləri danışırmış, bir kərə qapımı qonaqlar döydülər, açan kimi dərviş olduqlarını başa düşdüm, içəri dəvət elədim, xoş-beşdən sonra süfrə açıldı, yemək yedik, şərbət içdik, ardınca söhbətə keçdik; gördüm, qonaqlarım Allaha yaxınlıq məsələsində məndən çox irəli gediblər, onlardan xeyli şey öyrənə bilərəm; söhbət hərlənib-fırlanıb Allah qorxusunun üstünə gələndə soruşdum ki, o qorxunun qəlbimdə dərin kök salması üçün neyləyə bilərəm, dedilər, bunun vacib şərtləri var: çox danışan, gəvəzəlik eləyən kəslərin könlü oyaq deyil, mədəsini təpib dolduranlar sirr və hikmətləri heç vaxt anlamaz, camaatla çox ünsiyyət olanlar ibadətdən həqiqi ləzzət ala bilməzlər, qəlblərində fani, aldadıcı dünya nemətlərinə sevgi bəsləyənlərin aqibəti pis qurtarır; dedilər, cahillərin qəlbi ölü olur, başqalarına zülm və haqsızlıq eləyənlərlə oturub-duranlarda aydın Allah yolunun göstərdiyi düzlük, ədalət hissi yoxdu, onun-bunun rəğbətini qazananlar Allahın sevgisini qazana bilməzlər. Bu irşadı müqabilində dərvişə halallıq kimi bir dinar bağışladım.

***

Ərbilə isti, küləkli gündə girdik. Şeyx Əbu Bəkrin *"məscidlərin, bir də dərgahların yerini dərvişlərdən yaxşı bilən olmaz"* sözləri düz çıxdı, o məlamətiyyə dərvişi Zeynalabdin məni tozlu küçələrdən, əsnaf dükanlarının bir-birinə söykəndiyi bazardan, sısqa ağacların sıralandığı xiyabandan keçirib Cüneynə dərgahına çıxardı. Dərviş Şeyx Övhədəddin barədə çox şey eşidibmiş, dediyinə görə, Övhədəddin Kirmani kimi tanınan o müdrik şəxs Kirman səlcuqlularından Turan Şah Saninin oğlu sayılsa

da, bu, şayiədən başqa bir şey deyil; Xəlifə neçə illər əvvəl onu Xorasana da göndəribmiş, güman ki, Kübrəviyyə mənsublarını Bağdadı təhdid eləyən Xarəzmşahlara qarşı qaldırmaq istəyirmiş, qayıdandan sonra Əyyubilərdən olan, Sultan Səlahəddinin kürəkəni, Ərbil atabəyi Əmir Müzəffərəddin Göybörü onu məmləkətinə dəvət eləmiş, Cüneynə xanəgahını tikdirib bir kəndin vəqf gəliriylə birgə ixtiyarına vermişdi. Atabəy Müzəffərəddin Ərbilin görkəmini dəyişmək üçün varına qızırğalanmırmış, Peyğəmbərin *(c)* mövludunun bayram olunması onun xalq arasında hörmət-izzətini daha da artırıbmış, bu səbəbdən, Xəlifə belə onunla hesablaşırmış. Qalanın dağılmış yerlərinin sahmana salındığını öz gözlərimizlə gördük, Qeysəriyyə bazarının inşası artıq başa çatmaq üzrəydi, növbədə Müzəffəriyyə mədrəsəsinin tikilməsi vardı. Görünür, mədrəsənin idarəsini də çox hörmət bəslədiyi, hər məsələdə məsləhətləşdiyi Şeyx Övhədəddinə tapşıracaqdı – dərvişin eşitdiklərindən belə qənaət hasil olurdu...

Dərviş Zeynalabdin məni dərgahın qapısında şeyxin müridlərindən birinə tapşırdı, bir parç sərin su içdi, aldığı bir parça çörəyi, bir tikə pendiri dağarcığına qoydu, halallaşıb getdi. Dediyinə görə, yolu çox uzağıydı, Dər-üs-Salama, ordan da Şama gedəcəkdi, – şeyxi belə buyurmuşdu. Müridə Təbrizdən gəldiyimi, Şeyx Əbu Bəkr Səlləbafın tələbəsi olduğumu Şeyx Övhədəddinə çatdırmasını söylədim. O, təmənnamı yerinə yetirdiyi müddətdə dərgahın həyətində oturub dincimi aldım. Bu görüşdən nə gözlədiyimi bilirdim: Şeyx Kirmaniylə təmasım ya içimdəki niyyəti atəşləyib məni yollara salacaq, ya da o atəşi söndürüb Təbrizə qayıtmağıma səbəb olacaqdı. İkinci yol məndən ötrü artıq gerçək görünməsə də, hər şey baş verə bilərdi, həqiqətin əlçatmazlığını dərk eləyib sarsıla, çıxdığım yoldan geri dönə, nəticədə, uzaqbaşı, Şeyx Əbu Bəkrin seçilmiş müridi, o dünyasını dəyişəndən sonra da dərgahın şeyxi ola, özüm kimi müridlər yetişdirə-yetişdirə dünyadan köçümü çəkə

bilərdim. Dərviş qayıdıb məni dərgahın sərin hücrəsinə – Şeyx Övhədəddinin yanına aparanacan bu barədə düşündüm.

Şeyx təxmin elədiyimdən də yaşlıydı – sinni yetmişi çoxdan ötmüş olardı, bəlkə də səksənə yaxınıydı. Dikəlmək istəyəndə çətinlik çəkdiyini duydum, addımlarımı yeyinlədib üzbəüzündə bağır basdım, diz çöküb əlindən yapışdım, gərəksiz zəhmət çəkməyə qoymadım. Şeyx Övhədəddin Təbrizə iki dəfə, bir dəfə cavanlığında, bir də altı-yeddi il əvvəl– onda mən Marağadaydım – gəlmişdi. Əvvəlcə Təbrizə, Nəqşivana, Gəncəyə, Şirvana səfərini, Gəncə mədrəsəsində Şeyx Nizaməddinlə söhbətini, Nəqşivanda yeddi il yaşayıb memar Əcəmiylə dostluq elədiyini, İbn Kuseyir və Möminəxatun məqbərələrinin gözəlliklərini dilə gətirdi. Sonra Aydoğmuşu öldürüb Cibal diyarında nüfuz sahibi olmuş, atabəy Özbəyi aldatmış, hətta təhdid eləməyə başlamış Mənglini aradan götürmək niyyəti güdən Xəlifənin məktubunu Təbrizə apardığını danışdı. Onda Xəlifənin niyyəti baş tutmuş, Məngli öldürülmüş, əlindən alınan torpaqlar da aralarında bölüşdürülmüşdü. Şeyx Övhədəddin Təbrizdə qaldığı iki həftəni, atabəyin onu böyük hörmət-izzətlə qarşılamasını, Şeyx Əbu Bəkr Səlləbafla dərgahda diz-dizə oturub könül söhbəti elədiklərini, Təbrizin çarşı-bazarında gördüyü atlaz, kaftan, toxunma Çin zərxarası, əttabi, zərli ipək, xəz parça, örtük, zərli tikmələri, iplikləri, mahir usta əlindən çıxmış möhürləri, xəttatların qələmə alıb, həkkakların naxış vurduqları kitabları, içdiyi buz kimi suyu, yediyi dadlı meyvələri hələ də unuda bilmədiyini söylədi. Nəhayət, yola çıxmaqda məramımı soruşdu, *O*-na yetmək niyyətində olduğundan xəbər tutanda sifəti kölgələndi, dedi, bir zamanlar mən də şeyxim Rüknəddin Sücasiyə bu cür sözlər söyləmiş, bu cür atəşlə yola çıxmışdım, amma dəyanətim çatmadı, yolun yarısında yerə endim, gerçəkliklə barışdım, Əmir Müzəffərəddinin himayəsinə sığındım. Həmin məqamda qarışıq hisslər keçirirdim, həm ona qarşı içimdə mərhəmət hissi baş qaldırmışdı, həm də yarıyoldan geri qayıtdığına görə, hid-

dət duyurdum. Axırda bu qənaətə gəldim ki, *yolu sonacan getmək yalnız seçilmişlərin qismətidi,* deməli, Şeyx Övhədəddin Kirmani seçilmişlərdən deyilmiş.

O gün şam yeməyini Şeyx Kirmaninin evində, dərgahın günbatan səmtindəki bağlı-bağçalı, gen-bol mülkündə yedik. Zövcəsi Haqqa qovuşduğuna görə, mülkü qızı – sadiq müridlərindən biri olan dərviş Nəsirəddin Mahmudla evləndirdiyi Fatma Xatun idarə eləyirdi. Şam yeməyindən sonra şərbət içəndə Şeyx Kirmanidən bir qədər ehtiyatla *(şeyxlərin bir-birinə qarşı çox həssas olduqlarını şeyx Əbu Bəkr söyləmişdi)* Şeyx Sührəvərdi barədə soruşdum, dedi, Bağdadda olanda çox görüşmüşük, Dəclə səmtindəki Məqbər məhəlləsində vəəzlər verirdi, Xəlifənin diqqətini çəkdi, onunla Mərzubaniyyə mədrəsəsində təkbətək uzun-uzadı söhbət eləyəndən sonra Şeyx-üs-şüyuh məqamına çatdı, üstəlik, Nasiriyyə, Bistaniyyə və Məmuniyyə dərgahları da onun ixtiyarına verildi; dedi, Xarəzmşah Əlaəddin Muhammməd bin Təkiş dörd yüz min nəfərlik qoşunla Bağdadın üzərinə gələndə Xəlifə Şama, sultan Məlik Əşrəf Musanın yanına onu göndərmiş, qismətindən Xarəzmşahın qoşunu şiddətli qar-sovğuna tuş gəlmiş, Bağdadı ələ keçirmək muradı hasil olmamışdı; dedi, bir neçə ay qabaq Xəlifə Bəlxdən gələn Bəhaəddin Vələdi qarşılamaq üçün də Şeyx Şəhabəddini göndərib, qonağı Dər-üs-Salamın üç ağaclığında böyük izdihamla qarşılayıb, şəhərə aparıb, xüsusi hörmət-izzət göstəriblər; dedi, indi Xəlifə onu gündoğandan gələn bəlanın qabağını almaqda əlbirlik təklifiylə Konyaya, sultan Əlaəddin Keyqubadın hüzuruna elçi göndərib.

Belə çıxırdı, Dər-üs-Salama, azı, bir ay tələsməyə bilərəm, Şeyx Şəhabəddinin Diyari-Rumdan qayıtmağı bu tezlikdə gözlənmir. Əlbəttə, ev yiyəsinin yola çıxanacan mülkdə yerləşmək təklifindən mümkün qədər nəzakətlə boyun qaçırdım: hələ *yolun* başlanğıcında özümü rahatlığa, bəxşişə, dünya nemətlərinə alışdırmaq fikrində deyildim, yoxsa günlərin birində elə Şeyx

Övhədəddin kimi evlənər, oğul-uşaq yiyəsi olar, sultanlardan, əmirlərdən, atabəylərdən birinin himayəsinə girər, özümə oxşayan müridlər yetişdirər, beləcə də ömrümü başa vurardım. Heç dərgahda qalmaq da könlümcə deyildi: şübhəsiz, gündə üç dəfə yeməyim hazır olacaq, Şeyx müridlərdən birini xidmətimə verəcək, o da yanımdan əl çəkməyəcək, özümlə tək qalmağım üçün macal verməyəcəkdi. Mənsə çərçi qılığında gəzmək, karvansaray hücrələrində gecələmək, məramsız-filansız küçələri, çarşı-bazarı dolaşmaq, Allahın qarşıma çıxardığı adamlarla həmsöhbət olmaq, hər kəsdən bir şey öyrənmək istəyirdim.

Şeyx Əbu Bəkr çox şey verməsə də, içimdəki atəşi söndürmə, məni itaətkar müridə çevirmək qəsdinə durmamış, əksinə, həmişə elm dalınca getməyi təlqin eləmişdi. Onun danışdığı bir rəvayəti heç yadımdan çıxarmırdım: iki qardaş varmış, ataları dünyasını dəyişəndən sonra Allah yoluyla getmək fikrinə düşürlər. Biri deyir, əvvəl gedib savad alacaq, alimliyə çatandan sonra ibadətlə məşğul olacağam, o birisə deyir, kim bilir, alim olmağa ömrümüz çatar, ya yox, ona görə elə indidən ibadətə başlamaq daha yaxşıdı; beləcə, biri elm dalınca gedir, o biri ibadətə girişir, aylar keçir, illər dolanır, elm dalınca gedən qardaş günlərin birində ibadətlə məşğul olan qardaşa baş çəkmək fikrinə düşür, onu görəndə sir-sifətindən və ovqatından fasiləsiz ibadətdə olduğunu anlayır, amma çalmasının qatı arasından siçan quyruğu çıxdığını görüb heyrətlənir, bunun nə olduğunu soruşur; qardaşı deyir, bəs, mən namaz qılanda bu siçan elə hey oyuğundan çıxıb fikrimi yayındırırdı, bir gün özümü saxlaya bilməyib onu öldürdüm, o məqamda da günaha batdığımı dərk elədim, günahımı yumaq üçün də nəşini çalmamın arasına qoydum; gələn qardaş təəssüflə başını bulayıb deyir, bəs, heyvan leşinin nəcasət olduğunu bilmirsənmi, ay Allahın avam bəndəsi, bu nəcasətlə qıldığın namaz qəbul olarmı? Şeyx Əbu Bəkr axırda demişdi, övladım, elmsiz adam düz-əməlli ibadət də eləyə bilməz.

Beynimdən keçən kimi də oldu: Şeyx Övhədəddin məni Nəsirəddinə tapşırdı, o da dərgahın ən rahat hücrəsini seçib müridlərdən birini xidmətimə ayırdı. Müdam hücrənin qapısı ağzında dayanıb əmrlərimi gözləyən o Allah bəndəsinə yazığım gəlirdi, əmr vermək üçün xəlq olunmadığımı, güzəran və könül rahatlığından kənar gəzdiyimi, *O*-na doğru gedən yolu axtardığımı nə Nəsirəddinə, nə də müridə başa sala bilərdim. Müridin gətirdiyi yeməkdən bir tikə alıb qalanını cürbəcür bəhanələrlə geri qaytarır, gəzməyə çıxanda ondan canımı qurtarmaq üçün ağlagəlməz fəndlər işlədir, Şeyxin şam yeməklərində nəfsimi saxlamaq məqsədiylə görünməmiş işgəncə çəkirdim. Canımı müriddən qurtaranda özümü şəhərin bürkülü küçələrinə atır, yorulanacan gəzir, sonra ağac kölgəsində oturub dağarcığımdakı bir parça çörəyimi yeyir, ötüb-keçənlərə belbağı təklif eləyirdim. Axşamlar da Şeyx Övhədəddinin məclis təklifini ötüşdürmək nəsib olanda hücrənin qapısını qıfıllayır, namazımı qılıb zikrimi bitirəndən sonra kürəyimi divara söykəyib belbağı hörürdüm. Həmin məqamda beynimdən keçirirdim ki, uzun müddət bu cür davam eləyə bilməz, canımı bu hörmət-izzət işgəncəsindən mümkün qədər tez qurtarmalıyam.

İki həftə başa çatmamış məramımı Şeyx Övhədəddinə bildirdim. Susdu, nə barədəsə xeyli düşündü, sonra dedi, get, çətin yoldasan, sonacan səbrin, dəyanətin çatacaqmı, bilmirəm. Dedim, şeyxim, bilirəm, Haqq yoluyla getmək ağıl yox, ürək işidi, insan da ya kor ürəkli, ya da kor saxlayacaq qədər ürəkli olmalıdı, mən ürəkli olmaq niyyətindəyəm, qalanı Allahın təqdiirindən asılıdı. Şeyx Övhədəddin də Şah Şuca Kirmanini yada saldı, dedi, o həzrət qırx il yatmadı, yuxusu gələndə də gözlərinə duz sürtür, bəbəklərindən axan qanı eyninə belə almırdı, axırda Xüdavəndə dedi, mən səni oyaq vaxtı arzulayırdım, amma yuxuda tapdım, göydən də səda gəldi ki, ey Şahi Şuca, məni yuxuda görməyin elə yuxusuzluğunun bərəkətindəndi, ondan sonra o həzrət rahatca yuxuya getdi; dedi, rəhmətliyə görə, sidq əlaməti

uçdu: dünya da, dünya malı da sənin nəzərində torpaq dəyərində olmalıdı, xalqın öydüyü və söydüyü kəs nə öyülməyə, nə söyülməyə sevinməlidi, insan şəhvəti qəlbindən çıxarmalı, aclıqdan eynilə başqalarının toxluqdan məmnun və şad olduğu qədər məmnun, şad olmalıdı; axırda dedi, sənin kimi elm-irfan sahibinin dərgahımızda qalmasını çox arzulardım, amma bilirəm, Təbrizdən çıxıbsansa, yaxın yollarda dayanmayacaq, Allahın məsləhət bildiyi yerlərə gedəcəksən, bu səbəbdən, get, yolun açıq olsun...

Şeyx Övhədəddinin qonaqpərvərlik əlaməti kimi təklif elədiyi hər şeydən boyun qaçırıb bir parça çörəyi, bir büküm də xurmanı götürdüm. Səyyah deyildim ki, dincəlmək niyyətiylə dayandığım yerlərdə qarnımı əməlli-başlı doldura, tacir deyildim ki, alıb-satdığımın gəlirindən bir qismini də gödənimə xərcləyə, elm dalınca gedən qafil deyildim ki, irşada yetişmək üçün gödənimin hayına qalaydım. Mən *Eşqi*nin arxasınca düşüb gedən *Aşiq* idim. Artıq Təbrizdəykən anlamışdım ki, bu dünyada gerçək *Dost Eşqi*ni Mövladan başqa bir kimsəyə bəsləmək olmazmış, çünki *O* səni nə unudur, nə də yarıyolda qoyur. Aşiqlərə də ən çox yaraşan şey dünya malından gen durmaq, nəşədən qaçmaq, hüznə könül verməkdi. *Aşiq* nələrə görəsə yanar-yaxılar, amma *Eşqi* üzündən heç vaxt şikayətlənməz. Necə də olsa, məhzun Peyğəmbər *(c)* övladıyıq axı. Hüzn *Eşq yarası*nı sağalmağa qoymaz, daim qövr etdirər, mənsə yaramdan da, Yarımdan da məmnunam. Əlbəttə, bütün bunları dilimə gətirmədim, Şeyx Övhədəddinlə halal-hümmət eləyib *Eşqimin yolu*na çıxdım...

***

Nəsirəddin məni Dər-üs-Səlam yolunacan ötürdü, Kərkükə gedən bir əllafa qoşandan sonra arxayınlaşıb geri döndü. Əslində, heç əllafa da ehtiyacım yoxudu, çünki getdiyim yol mənə əvvəlcədən bəlli olanda adiləşir, heç bir sirri-sehri almır, o yolu

getmək də məşəqqətə çevrilir. Elə Təbrizin küçələrindən keçəndə də yolumu tez-tez dəyişdirirdim ki, tez bezib usanmayım. Amma indi getdiyim yolda saqqalına dən düşmüş, sifəti gündən qaralmış, gözlərində illərin yorğunluğu olan əllaf vardı, qatırının belində Atabəy vüqarıyla oturmuşdu. Arada yerini mənə təklif elədi, fikrincə, ayaqlarımın dincini alardım, amma onun biçarə heyvanın dincliyi barədə heç düşünməməsindən hiddətləndim, dedim, ey Allah bəndəsi, ayaqların yer tutursa, zavallı qatıra niyə əziyyət verirsən, həm yükünü belinə qoymusan, həm də özün minmisən; dedi, Allah-taala bunu əziyyət üçün yaradıb, mənim bir günahım yoxdu; dedim, Allah səni də *Eşq* üçün yaradıb, amma görürəm, qəlbində bir cınqı da *Eşq* yoxdu, bizim yolumuz eyni ola bilməz, çıx get. Əllaf üzümə key-key baxdı, bir şey başa düşməyib qatırını dəhmərlədi, uzaqlaşıb getdi.

Ərbildən çıxdığımın dördüncü günü yetişdiyim Kərkük yadımda payız çiskini, qövmlərinin çoxluğu, hamamları, bir də kədərli manilərilə qaldı. Yağışa düşüb rastıma çıxan daş karvansarayın hücrəsinə sığındım, gün əyilənəcən bayıra çıxmayıb namazımla, zikrimlə, işimlə məşğul oldum. O məqamda əllafı xatırladım, sonra fikirləşdim, sevməyə layiq olmayanı xatırlamaqla dəyərli eləməməli, beləsi qayıtmaq istəsə, daha bir imkan verməməliyəm, çünki sevgi ürəkli olana yaraşır. Gün əyiləndə çıxıb çoxsəsli adamların qələbəliyinə qarışdım. Qaldığım karvansaray Bəylər məhəlləsindəymiş, ordan üz tutub Həmzəlilər, Əhmədağa, Tisin, Bağdad yolu məhəllələrini dolaşdım, Gavur Bağında dincimi alıb bildiyim ərəb-farsdan başqa bir çox dillərdə danışan adamlara göz qoydum. Səhəri gün Xasasu nəhrinin günbatan səmtinə keçib hər birində hamam, çörəkxana, əsnaf dükanları sıralanmış Qala, Müsəlla, Avcı, Bulaq, Qəssabxana məhəllələrini dolaşdım. Çarşı-bazarı gəzəndən sonra Dədəhəmdi hamamında çimib təmizləndim, Kərkük üləmalarından kimsəni tanımadığıma, bu səbəbdən, dərgahlara üz tutmayacağıma görə, səhəri gün Dər-üs-Salam yoluna çıxmağı münasib saydım.

Bağdad yolunda adamlardan nə qədər qaçsam da, bir dərvişlə yoldaşlıq eləməli, kəlmə kəsməli oldum. Günorta rastıma çıxan ağacın kölgəsinə sığınıb yorğunluğumu alırdım, salam verib yanımda oturdu, gözlərini yumub uzun-uzadı fikrə getdi, sonra elə gözlərini açmadan da, ey yolçu, dedi, çox uzaq yola çıxmısan, bu yolu sonacan getməyə səbrin çatacaqmı? Diksindim, təəccüblə üzünə baxdım, soruşdum, ey Allah bəndəsi, bunu nədən bildin? Gözlərini açdı, təskülahını başından götürüb kəşkülünün üstünə qoydu, hüznlə gülümsəyib dedi, dərvişlər aralarından birini qınayıb şeyxə şikayət eləyirlər ki, bəs bunun üç pis xasiyyəti var: ağzını açanda cırcırama kimi susmaq bilmir, elə hey danışır; yeməyə girişəndə, az qala, iyirmi adamdan artıq yeyir, yuxuya gedəndə Əshabi-Kəhf kimi oyanmır; şeyx iradları dinləyir, üzünü o dərvişə tutub deyir, gördüyün hər işdə həddi aşma, onda başın salamat olar; dərviş də cavab verir ki, şeyxim, həddi gözləmək hikmət sayılsa da, nisbi, həm də izafidi: birinin dörd çörəyə ehtiyacı olub, iki-üçünü yesə, bu, həddi gözləməkdi, amma mənim əlli çörəyə ehtiyaclm var, səninsə yeddi, deməli, bərabər deyilik, həddi gözləmək də sondan asılıdı, əvvəli və sonu olan bir şeyə nisbətlə aşkar olur; dedi, görən məni yatmış hesab eləyir, amma gözüm yumulu olsa da, könlüm oyaqdı, səninsə gözlərin açıqdı, amma könlün yatır, ey yolçu, çalış həmişə könlünü oyaq saxla!

Boğazım qurudu, dilim tutuldu, xeyli dinib-danışmadım, sonra dedim, ey Allahın yolçusu, kim olduğunu bilmirəm, amma bəllidi ki, seçilmişlərdənsən, mənim indiki halımı da bundan gözəl ifadə eləmək olmazdı - *bu yola elə könlümün gözünü açmaq məramıyla çıxmışam.* Dərviş gözlərini indi açdı, üzümə uzun-uzadı baxdı, sonra hüznlə gülümsəyib dedi, kim olduğumu neynirsən, dünyanın yolları *könül gözünü açmaq, Eşqini tapmaq, O-na yetmək* istəyənlərlə doludu, onlardan neçəsi muradına çatacaq - bunu Allahdan başqa bilən yoxdu; sonra dedi, *O*-na yetmək seçilmişlərin qismətinə düşən lütfdü,

amma yolun bütün məşəqqətlərini yaşayan kəs də o mərtəbəyə çatmağa layiqdi, axı Allah bu yolda cəfa çəkənləri görür, onların səfalarının əvəzini gec də olsa, mütləq verir. Son kəlmələri qəlbimə təpər gətirdi, dağarcığımdakı çörəyin yarısını, iki xurma verdim, xurmanın birini götürdü, yeməyini başa vuran kimi də vidalaşıb getdi. Uzun müddət yerimdən qımıldanmayıb arxasınca baxdım: həqiqətən, indiki halımı, elə bil, qeybdən görmüşdü – *bu yola könül gözümü açmaq üçün çıxmışdım.*

Dər-üs-Salam yolunun qazancı bununla bitmədi. Şəhərin üç ağaclığındakı karvansarayda hücrəmə yenicə girmişdim ki, qapıda bir adam peyda oldu. Salam-kalamdan sonra dedi, ey Allah bəndəsi, buralar adamına oxşamırsan, yolun hayanadı? Cavab verdim ki, Təbrizdənəm, Ərbildən gəlib Bağdada gedirəm. Dedi, əsl mən axtardığım adamsan, Bağdad bazarında kunduraçıya iki dinar borcum var, təvəqqem budu, onu da çatdırasan. Təəccüblə soruşdum ki, tanımadığın bir kəsə nə səbəbə əmanət etibar eləyirsən? Gülümsədi, dedi, sənin yaşında, sənin görkəmində bir adam iki dinara tamah salıb əmanətə xəyanət eləyərsə, böyük bir ziyana düşmərəm, amma o, öz toxluğunu göstərərsə, könlüm xoş olar, Allah da həmin bəndəsinin ruzisini kəsməz. Cavabı məni qane elədi, razı oldum, iki dinarı, çatdıracağım adamın salığını verdi, israrıma baxmadan da karvansarayçıya halallıq kimi şam yeməyinin xərcini çatdırdı. Əlbəttə, bu, nəfsimi sınağa çəkmək yolunda ciddi ıimtahan olmasa da, hər halda, sınaq idi. Əyri yola bir dəfə qədəm basmaq bəs eləyir, sonrakı qədəmlərini özün bilmədən basır, axırda da adətkərdə olursan. Validim həmişə deyirdi, aldatmağa çalışanlar aldanar, halallığını saxlayanlar həmişə qazanarlar...

***

...Əmanət yiyəsinin dediyinə görə, kunduraçı Münirin başmaq dükanı böyük çarşının günbatan girişinə yaxınıydı, bu səbəbdən, şəhərə girəndə qaş qaralmamış onu tapıb əmanət yü-

kündən azad olmaq istədim. Yarıqaranlıq, dəri qoxusu gələn dükanına girib qarayanız, seyrək saqqallı, orta yaşlı adamla qarşılaşdım. Gəlişimin səbəbini biləndə eyni açıldı, dinarları canlığının iç cibinə qoydu, yer göstərib buyruqçu oğlana sərin şərbət gətirməyi tapşırdı, sonra da şəhərlə bağlı sorğu-suallarıma cavab verdi. Əlbəttə, məni daha çox maraqlandıran Şeyx-üs-şüyuhun Diyari-Rumdan qayıdıb-qayıtmamasıydı. Künduraçı dedi, qayıtmayıb, qayıtsaydı, sorağı dərhal şəhəri başına götürərdi, üstəlik, kiçik oğlu Bistamiyyə mədrəsəsində oxuyurdu, şeyx gəlsəydi, mütləq evdə söhbət salardı. Fikrincə, Şeyx Şəhabəddinin Konyadan dönməsi, azı, bir ay çəkərdi, yəni, ən tezi, payızın axırlarında dönərdi. Qarşıdakı bir ayı Bağdadda neyləyəcəyim barədə fikirləşə-fikirləşə şərbəti içdim, dükan sahibindən yaxınlıqda münasib karvansaray olub-olmadığını soruşdum. Kunduraçı, Şeyxin hüzuruna gəlsəm də, dərgahlardan birində qalmamağımdan təəccüblənə-təəccüblənə Nasiriyyə dərgahına yaxın olan Dabbaqlar karvansarayını məsləhət gördü, dediyinə görə, orda Şeyx-ül-şüyuhun gəlişindən asanlıqla xəbər tuta bilərdim. Sonra xidmətim müqabilində məni karvansarayacan ötürmək üçün buyruqçusunu yanıma qoşmaq istədi, amma razı olmadım, vidalaşıb çıxdım.

Dabbaqlar karvansarayı çarşıdan güneyə sarı qalxan tozlu küçənin qurtaracağında yerləşirdi, alçaq qapılı daş tikiliydi. İçəri girən kimi, adamı gön iyi vurur, lap bihal eləyirdi. Məni boş hücrələrin birində yerləşdirən karvansarayçı gedəndən sonra qıfılımı dağarcığımdan çıxarıb qapının rəzəsinə keçirdim, küncdəki mitili götürüb qırağa qoydum, həsirimi sərib üstündə namazımı qıldım, sonra çörəyimi yedim, kürəyimi divara söykəyib xeyli beləcə oturdum. O məqamda ağlıma gəldi ki, indi *Eşqim*i dilimdən qəlbimə endirmək kimi çətin bir yoldayam. Bir dəfə Zeynəddin Kəlusi Şeyx Əbu Bəkrdən soruşmuşdu ki, şeyxim, *Eşq*dən yalnız söz açanlarla onu yaşayanlar arasında hansı fərq var? O da gülümsəyib bir rəvayət danışmışdı: bu su-

alla üzləşən hikmət sahiblərindən biri cavab vermək üçün *Eşq*i dilindən qəlbinə endirə bilməmiş dərvişləri yığıb süfrə açır, hamı yerini tutandan sonra kasalarda isti şorba, iri dərviş qaşıqları gətirdir, şərt qoyur ki, şorbanı qaşıqların ucundan tutub yeməlisiniz; dərvişlər ha çalışırlar, bir şey çıxmır, şorbanı töküb əl-ayaqlarını yandırır, beləcə süfrədən ac qalxmalı olurlar; hikmət sahibi bu dəfə *Eşq*ə bələd olanları çağırır, üz-gözlərindən işıq yağan dərvişlərlə də eyni şərti kəsir, onlar da yolunu dərhal tapırlar: hər biri uzun qaşıqlarla şorba götürüb üzbəüzdə oturmuş qardaşını yedirir, sonra hamısı tox halda durub gedir; hikmət sahibi deyir, bax, fərq budu: kim həyat süfrəsində təkcə özünü görür, öz qarnını doyurmaq barədə düşünürsə, daim ac qalacaq, kim qardaşını düşünür, onu doyurursa, qardaşı da onu doyuracaq, çünki həyat bazarında həmişə alan yox, verən qazanar.

Təxminim, demək olar, düz çıxdı: Şeyx Şəhabəddinin Konyadan qayıtması üç həftədən artıq çəkdi. Bu müddətdə Bağdadı küçəbəküçə gəzdim, çarşı-bazarını, dükanlarını dolaşdım, dərvişlər, dilənçilər, cürbəcür sənət sahibləriylə həmsöhbət oldum, doğruya-əyriyə, xeyirxaha, qanmaza, müdrikə rast gəldim, xəlifə Nasir Lidinillah haqqında söylənənləri eşitdim, Bəhaəddin Vələdin şəhərə varid olma hekayətini dinlədim. Bu sonuncunu arabir baş çəkib bir piyalə şərbətini içdiyim kunduraçı Munir danışmışdı. Özü də hörmətli qonağı qarşılayan dəstənin içindəymiş. Bəhaəddin Vələd övrəti, on üç-on dörd yaşlı oğlu, az qala, sultanlara layiq dəbdəbəylə qarşılanıb, izdiham onu Xəlifənin sarayınacan aparıb, Xəlifə də pişvazına çıxıb. Kunduraçının dediyinə görə, atadan çox bala yadında qalıb, uşağın üz-gözündən zəka yağırmış, şübhəsiz, validi yaxşı yetişdirsə, gələcəyin adlı-sanlı üləmalarından olacaq. Əlbəttə, onda həmsöhbətimə bir söz demədim, amma beynimdən keçirdim ki, Allah o zavallı uşağa *Eşq* versin, qalan şeyləri həyat yerbəyer eləyər.

Bir də bazarın girəcəyində sədəqə istəyən kor dərviş yadımda qaldı. Daha doğrusu, heç nə diləmirdi, dinməzcə oturur,

qarası yox olmuş gözlərini boşluğa dikib rəvayətlər söyləyirdi. O rəvayətləri kimsənin dinləyib-dinləmədiyini nə görür, nə də buna fikir verirdi, deyəsən, başqalarına nəsə danışmaqdan, ağıl verməkdən çox bildiklərinin yükündən qurtulmaq niyyətiylə danışırdı. Birinci dəfə rastlaşanda qərib haqqında hekayəti eşitdim: günlərin birində məhəllələrdən birinə qərib kəs gəlir, o məhəllədə yaşayan müdrikin yanına gedib deyir, bura köçmək fikrindəyəm, məhəllənizdə qonşuluq məsələsini necə olduğuyla maraqlanıram, hikmət sahibi də deyir, əvvəlcə mənə gəldiyin yerdəki adamlardan danış; qərib ah-fəğan eləyir ki, bəs, onlar yalançı, quldur, soyğunçuydular, ona görə baş götürüb qaçdım; müdrik deyir, bu məhəllədə yaşayanlar da eynilə o cürdülər, qərib kəs də məhəllədən çıxıb gedir, heç geri də baxmır; az sonra məhəlləyə daha bir qərib gəlir, onun kimi hikmət sahibinin yanına gedib eyni məsləhəti istəyir, cavabında eyni sualı eşidir, deyir, bəs gəldiyim yerdə yaşayanlar dünyanın ən nəcib, ən mərhəmətli, ən xeyirxah adamlarıdılar, onlardan ötrü çox darıxacağam, hikmət sahibi də deyir, bu məhəllədə yaşayanlar da eynilə o cürdülər; sonra kör dərviş durğun nəzərlərini boşluqdan çəkmədən əlavə eləmişdi: *insan hər kəsdən əvvəl özünün kimliyini sorğu-suala çəkməlidi.* Onda yenicə satdığım bir cüt belbağının pulunu dərvişin qarşısındakı qaba atıb yanında xeyli əyləşmişdim.

Şeyx Şəhabəddin gələnəcən Dər-üs-Salamda ömür sürmüş həmyerlilərimdən soraq tutmaq istədim. Şeyx Əbu Bəkr Nizamiyyə mədrəsəsində dərs demiş iki üləmanı ağızdolusu tərifləmişdi: Həmədanda, bir çox başqa şəhərlərdə də müdərrislik eləmiş, ömrünü Mərvdə başa vurmuş Əbu Nəfs Ömər əl-Gənzi və mən dünyaya göz açan il həyatdan köçmüş, tariximizlə bağlı əsər qələmə almış Fəxrəddin ibn əl-Müsənna ət-Təbrizinin taleyindən xəbərim vardı. Dediyinə görə, indi Dər-üs-Salamın Nizamiyyə, Nasiriyyə və Kamiliyyə mədrəsələrində müdərrislik eləyən Əbülfəzl Mahmud əl-Ərdəbili, Əminəddin Müzəffər

ət-Təbrizi, Tacəddin Əbülfəzail əl-Urməvi, Qəvaməddin Əbu Nəsr əş-Şirvanini tapıb həmsöhbət ola bilərdim. Əminəddin Müzəffər ət-Təbrizinin Qahirəyə köçdüyünü, Nasiriyyə və Salihiyyə mədrəsələrində dərs dediyini Şeyx Övhədəddindən eşitmişdim. Qəvaməddin Əbu Nəsr əş-Şirvanini tapmağı daha münasib saydım, çünki həm Şeyx Əbu Bəkrin hüzurunda olmuşdu, həm də nisbətən cavanıydı, fikrimcə, söhbətimiz tutardı. Zənnimdə yanılmadım, qırx yaşlarında, xoşsima zat olan Qəvaməddin Təbrizdən gəldiyimi, Şeyx Əbu Bəkrin yanında irşad aldığımı biləndə çox sevindi, qəlbinin qapılarını taybatay açdı, üstəlik, Şeyx Şəhabəddin gələnəcən mənə həyan oldu.

***

Şeyx Şəhabəddinin gəlişi qəfil olmadı, əvvəlcə sədası çıxdı, Dər-üs-Salama yaxınlaşdığı barədə söz-söhbət gəzdi, üç gündən sonra da güney darvazasından şəhərə girdiyini söylədilər. Əlbəttə, ən azı, bir həftə də Şeyx-ül-şüyuhun hüzuruna çıxmağ gözləmək lazım gəlirdi: yaşlı adamıydı, həm də yolun yorğunluğunu canından çıxarmalı, Xəlifəylə görüşüb səfərinin nəticəsini xəbər verməliydi. O günlərin birində baş çəkdiyim kunduraçı Münir də gümanımı təsdiqlədi: oğlunun dediyinə görə, Xəlifə gözlərini gündoğana dikib, ordan gələn təhlükənin gec-tez Bağdadın da başı üstünü alacağına şübhə eləmir, buna görə də sultan Əlaəddin Keykubadı da, Diyari-Rumdakı bəyikləri də, Diyari-Ərəbdəki əmirləri də, Diyari-Əcəmdəki atabəyləri də Xarəzmşaha və tatarlara qarşı qaldırmağa, güclərini birləşdirməyə can atır. Bir dəfə Dər-üs-Salamı Xarəzmşahın qəzəbindən Allah qorumuşdu: dörd yüz min nəfərlik qoşunu şəhərin üstünə gəlsəydi, daşı-daş üstdə qoymazdı. Xəlifə də olsa, daim Allahın lütfünə bel bağlaya bilməzdi, məncə, Sultan Cəlaləddin yox, onu qovan Timuçin də nəzərlərini gec-tez xilafətin iqamətgahına çevirəcək, Xəlifəni ortadan götürməsə belə, öz kölgəsinə çəkməyə çalışacaqdı. Bu barədə Şeyx Övhədəddinlə də

uzun-uzadı söhbətimiz olmuşdu, o da nə qədər fürsət vardı, gücləri birləşdirməyi, fəlakətin qarşısını birgə almağı vacib sayırdı, sonra gec ola bilərdi.

Münirin oğlu vasitəsiylə Şeyx Şəhabəddinə göndərdiyim təvəqqeyə gəlişinin onuncu günü cavab aldım; o, təbrizli Şeyx Əbu Bəkr Səlləbafın tələbəsi Şəmsəddin Muhammədi hüzurunda görməkdən boyun qaçırmamışdı. Həmin gecə də hücrəmdə şamı yandırmadan kürəyimi divara söykəyib uzun-uzadı fikirləşdim: Dər-üs-Salama nədən gəldiyim, Şeyx Şəhabəddindən nə umduğum, onun müridi olub-olmayacağım, bu şəhərdə yurd salıb-salmayacağım barədə götür-qoy elədim. Əlbəttə, hər hansı dərgahda mürid qalmaq fikrində deyildim, belə olsaydı, Təbrizdən münasib yer ağlıma gəlməzdi; üstəlik, müridlik, kiməsə bağlanıb qalmaq, ömrün boyu ona qulluq eləməkdi, mənimsə *O*-na bağlanmaqdan, *O*-na qulluq eləməkdən başqa bir istəyim yoxudu, Şeyx Şəhabəddinə də yalnız baş vurduğum ümmanın hüdudlarını ayırd eləmək üçün üz tutmuşdum. Mən könül dərvişiydim, dərgahım *O*-nun dərgahı, şeyxim *O*-nun özüydü, çıxdığım yol da o dərgaha yetişmək, *O*-na *Eşqim*i bildirməkdi. Əlbəttə, Şeyx Şəhabəddin fürsət versə, bir müddət dərgahında qalıb yarımçıq elmlərimi tamamlayar, sonra yola çıxardım.

Nasiriyyədəki hücrəsində ziyarət elədiyim Şeyx Şəhabəddin də elə Şeyx Övhədəddin kimi yaşlıydı. Qaraşın, qırışlar içində itib-batmış sifəti, nuru azalmış gözləri, ağ saqqalı uzun ömür yolu keçdiyini dərhal biruzə verirdi. Şeyx Əbu Bəkr onun barəsində uzun-uzadı danışmış, Qadiriyyə dərgahını qurmuş Əbdülqadir Gilanidən dərs aldığını, şeyxinin onu *"İraqdakı məşhurların ən axırıncısı"* saydığını, Əbbadan adasında Xızır Əleyhissalamı dinlədiyini söyləmişdi. Onun "Əvarif əl-maarif" risaləsinin ərəbcə olan, Şeyx Əbu Bəkrə bağışladığı nüsxəsini oxumuşdum, ola bilsin, bu səbəbdən, hüzuruna çıxmaq, bir müddət yanında olmaq, hikmətindən yaralanmaq istəyirdim. Şübhəsiz, fürsət düşəndə o əsərində qələndəriliyi, məlamətili-

yi tənqidi, şeyxlik məqamının müəyyən olunması, özünü dərk eləmə, haqqı görmə, hallar, məqamlar, halla məqam arasındakı fərq məsələlərində söhbətlərə ehtiyacım vardı. Risaləsinə ön sözündə yazmışdı ki, *"hökmdarın (Xəlifəni nəzərdə tuturdu) din bazarı rəvac tapsa da, cavanlardan bəziləri dinlə bir araya sığmayan hikmətlə məşğul olur. Odur ki, bu kitabı özüm rəvayət elədiyim hadisələr əsasında yazmışam".*

Diz çökdüm, sultan öpən əli mən də öpdüm, Şeyx Əbu Bəkrin salam-duasını çatdırdım. Şeyx-ül-şüyuh xeyli məmnun oldu, Təbrizə səfərindən, onunla görüşündən, dərin dərrakə sahibi kimi hörmət bəslədiyindən danışdı, şübhəsiz, Bağdada gəlişimin səbəbini soruşdu. Könlümdəki *Eşq*dən söz açmadım, öyrənmək niyyətiylə yola çıxdığımı söylədim. Şair Kəmaləddin İsfahaninin bir qəsidəsində "Zəmanənin yeganəsi" kimi öydüyü Şeyx Şəhabəddinin nursuz gözləri qıyıldı, dodaqlarına xəfif təbəssüm yayıldı, dedi, iki yoldaş varmış, biri şeyxin müridiymiş, o biri də elə hey deyirmiş, şeyxindən soruş, gör mən də dərviş ola bilərəm, ya yox; dedi, cavan bu təvəqqeni şeyxinə çatdıranda o, dinmir, üçüncü kərə soruşanda cavab verir ki, yoldaşına söylə, gəlsin, dərgahımızda qulluq eləsin, dərvişliyə hazır olub-olmadığını görək. Sən də dərgahımızda qulluq elə, dərvişliyə hazır olub-olmadığın aşkara çıxsın, sonrası Allahln lütfüylə yoluna düşəcək. Şeyxin təklifindən boyun qaçırmadım, getdiyim yolda bu da bir sınağıydı. Şübhəsiz, işraqiliyə, Sührəvərdiyyə təriqətinə bağlanıb qalmaq niyyətim yoxudu, istədiklərimi alandan sonra Bağdaddan da çıxıb gedəcəkdim. Hələ irəlidə uzun, daha betər sınaqlarla dolu *yolum* vardı.

Sonra Şeyx Şəhabəddin Diyari-Rum dər-üs-səltənəsi Konyaya səfərindən danışdı. Sultan onu qarşılamaq üzrə qazılar, əmirlər, şeyxlər, imamlar, mütəsəvviflərdən və əxilərdən ibarət böyük heyət göndəribmiş. O heyət elçini Zəncirlidə qarşılamış, görünməmiş hörmət-izzət, təntənə, dəbdəbəylə Əmir Cəlaləddin Karatayın sarayına aparmış, padşahlara layiq hücrələrdə

yerləşdirmişdi. Sultan ertəsi gün Şeyx Şəhabəddini saraya çağırtdırmış, gətirdiyi hədiyyələri qəbul eləmiş, fütuvvət libası geyinmiş, Bağdadda tiklimiş, kənarlarına Xəlifə imaməçilərinin naxış vurduqları imaməni başına qoymuşdu. Üstəlik, şəriət qaydaları üzrə şeyx Xilafət məqamından apardığı qırmancla Sultanın kürəyinə qırx zərbə vurmuş, sonra Diyari-Rum hökmdarı yəhər-yüyəni, üzəngisi qiymətli daş-qaşla bəzədilən, qızıl nalları olan atın dırnağından öpmüş, ardınca da Xəlifənin göndərdiyi ənamlar paylanmışdı. Onda Bəhaəddin Vələd hökmdara Şeyx Şəhabəddinin Dər-üs-Salamda ona göstərdiyi hörmətdən danışıb, deyibmiş sührəvərdilər həm ətiq şeyləri sevəndilər, həm də bizə yaxın qohumdular. Axırda Sultan ətrafında əyan-əşrəfi, sancağı, çalğıçıları gəzintiyə çıxmış, sonda verilən şöləndə Əmir Karatay da, hökmdarın güvəndiyi digər zatlar da fütüvvətə girmişdilər. Sultan Əlaəddin Keyqubad Diyari-Rumdan Xəlifənin elçisini eyni təntənəylə də yola salmışdı...

***

...O qalan dörd il Bağdadda məskən saldım. Şeyx Şəhabəddin *"dərgahda qulluq eləməyi"* birbaşa mənada demir, söhbət yoldaşı olmağımı nəzərdə tuturmuş. Mənə digər dərvişlər kimi dərgah işlərin görməyi həvalə eləmədi; gün ərzində könlüm istəyən işlə məşğul ola, gəzintiyə çıxa, hücrəmə çəkilə bilərdim. Şeyx asudə vaxtlarında məni çağırtdırır, uzun söhbətə baş vurur, yavaş-yavaş öz mərtəbəsinə yaxınlaşdırırdı. Qəvaməddin Əbu Nəsr əş-Şirvanininin sayəsində də Əbülfəzl Mahmud əl-Ərdəbili, Əminəddin Müzəffər ət-Təbrizi və Tacəddin Əbülfəzail əl-Urməvinin hüzuruna çıxdım, bir-birindən hikmətli söhbətlərini eşitdim. Hər biri də Dər-üs-Salamda qalıb mədrəsələrdən birində dərs deməyi tövsiyə elədi, amma məramımın aləmi dolaşıb kamilliyə çatmaq olduğunu söylədim, *O*-na çatmaq üçün yollarda düşdüyümü söyləmədim, çünki hamısı Quranı əzbərləyib, hədisləri yaddaşına yazıb *O*-na çatdığını güman eləyir-

di, söylədiklərimi başa düşməzdilər. Qəvaməddin dərrakəliydi, bəlkə də məramımı anlayardı, amma o Allah bəndəsinin sakit həyatına vəlvələ salmaq niyyətində deyildim.

O dörd il mənə az şey vermədi, Şeyx Şəhabəddinlə söhbətlərimiz sayəsində *yolum*dakı bəzi qaranlıq mətləbləri aydınlaşdırdım, Qəvaməddinlə ünsiyyətim sayəsində də insanın xoş əxlaq yiyəsi olmasının gözəlliyini anladım. Əlbəttə, Şeyxin danışdığı rəvayətlər, hədislər, hikmət sahiblərinin fikirləri məndən ötrü maraqlıydı, amma bütün bunlara qədərindən artıq dəyər vermirdim, özünün və özümün dünya, dünyanın işləri, Eşq, Ölüm, insan fəzilətləri barədə düşündüklərimiz daha maraqlıydı. Dərvişlərinə də münasibətim bu cürüydü, söhbət vaxtı ondan-bundan kəlamlar söylənəndə deyirdim, niyə elə başqalarının dediklərini təkrarlayırsınız, heç özünüzün dilinizə gətirəcəyiniz sözünüz yoxdumu? Hamısı da kəlamçılar kimi, Qurandan və Hədisdən nəsə söyləməyi özlərinə şərəf sayır, amma həm də vəhylə gələn fikri qavramanın yeganə yolunun bilavasitə Allah tərəfindən öyrətməyə layiq tərzdə təmizləmək olduğunu söyləyir, həmişə *"Allaha qarşı təqvalı olun, O sizi öyrədəcək"* ayəsini dilə gətirirdilər. Həmin məqamda da onlara Əbu Yezid Bistaminin kəlamını xatırladırdım: *"Ey bədbəxtlər, siz ölü biliyinizi ölülərdən alırsınız, amma mən ölməz Yaradandan əxz eləyirəm."* Dediklərimdən inciyən də, düşmənə çevrilən də, məni görəndə yolunu dəyişən də olurdu. Amma bu dünya məndən ötrü axirətin bir dayanacağıydı, fani aləmin olub-keçənlərinə o qədər də baş yormaq fikrində deyildim, təcrid, təfrid məqamına çatmaq, *O*-na yetməkdən başqa bir şey düşünmürdüm. Bu aləmdə yaşayanlarla bir haqq-hesabım yoxudu, dünyaya onlar üçün gəlməmişdim, həm də ancaq mənə *Allah yolunu* göstərən adamları seçirdim.

Dər-üs-Salamda keçən günlərimin birində Şeyx Əbu Bəkrin dərgahından tanıdığım Fəqirəddin Kirmaniyə rast gəldim. İndi işraqiliyə meyl salmışdı, Şeyx Şəhabəddinin müridlərindəndi, Şamdan yenicə qayıtmışdı. Soruşdum, nəylə məşğulsan, dedi,

Ayı ləyəndəki suda seyr eləyirəm. Məni dəli gülmək tutdu, dedim, ey zavallı, boynundan çiban çıxmayıbsa, niyə başını qaldırıb göydəki Aya baxmırsan? Məsləhət gördüm ki, loğman yanına gedib xəstəliyini müalicə etdirsin. Fəqirəddin əlimdən yapışdı, göz yaşları axıda-axıda dedi, elə bu məramla da bu gündən sənin qulluğunda olmaq istəyirəm, dedim, sən mənim yoldaşlığıma dözə bilməzsən, yaxşısı budu, öz yolunla get. Amma əl çəkmədi, dirəndi ki, məni qulluğuna, yoldaşlığa qəbul elə, hər cür çətinliyə tab gətirərəm, dedim, onda Bağdad bazarının düz ortasında, hamının gözü qarşısında mənimlə nəbiz, yəni xurma şərabı içmək şərtiylə qəbul eləyərəm. Fəqirəddinin simasına qorxu çökdü, əllərini əllərimdən çəkdi, yazıq-yazıq dedi, bunu eləyə bilmərəm. Dedim, onda mənim üçün bir bardaq nəbiz gətirə bilərsənmi? Biçarə bir addım geri çəkildi, qorxu içində dedi, yox, onu da eləyə bilmərəm. Dedim, yaxşı, içəndə mənə yoldaşlıq eləyə bilərsənmi? Fəqirəddin başını buladı, bunu da bacarmayacağını söylədi. Hiddətimi boğa bilməyib qışqırdım, dedim, ey zavallı, onda ərlərin hüzurundan uzaqlaş, *"Sənə demədim ki, mənimlə yoldaşlıq eləyə bilməzsən?"* ayəsini eşitməmisənmi, yoldaşlığı bacaracaq adam deyilsən, çünki səndə bu qüdrət yoxdu, Allahın sənə bu qüdrəti verməyinə və xasların qüdrətinə malik olmadığına sevin; dedim, buna görə, mənimlə yoldaşlıq eləmək sənlik deyil, çünki bütün tanıdıqlarını, dünyanın bütün namus və şərəfini bir cam şəraba satmalısan, bu Eşq meydanı ərlərin işidi, unutma, mən mürid yox, şeyx, həm də təsadüfi yox, həqiqəti arayan şeyx axtarıram. Bunu eşidən Fəqirəddin arxasına baxmadan çıxıb getdi, bir daha gözümə görünmədi. Sonralar rəvayət kimi, guya, Şeyx Övhədəddini şərab sınağına çəkdiyimi danışmağa başladılar. Amma o vaxt onun sinni səksənə yaxınlaşırdı, kiməsə mürid olacaq halda deyildi.

Bu sınaqda niyyətim hamının saf-çürük eləmədən inandığı şeylərə qarşı çıxmağın, yaxın buraxmadığı şeylərisə qəbul eləməyin vacibliyini təsdiqləmək idi. İşdə də, əməldə də insan-

ların nə söylədiyini yox, Allahın buyurduqlarını eşitmək gərəkdi. İxlas və kamal məsələlərində ikiüzlülüyə heç dözümüm yoxudu. Fəqirəddinin sınağı, üstəlik, adıma sərxoş yarlığı yapışdırılmasına səbəb oldu. Bəli, sərxoşdum, amma meyxanalar sərxoşu yox, *Eşq sərxoşu* idim. Mənimkimilərin sərxoşluğu üzüm şərabı yaradılandan əvvəl də vardı, bundan sonra da olacaqdı. *Eşq şərabı* içməklə üzüm şərabı içməyin yanlış başa düşülməsi, bir-birinə qarışdırılması məndə ancaq acı gülüş doğururdu. Bir çox dərvişlərin sərxoşluq doğuran ot yarpaqlarından çəkib cana gəldiklərini bilir, bunu şeytan əməli sayırdım, çünki məsum mələklər belə şeyə yaxın durmazlar. O binəvalar niyə bu aləmin təbiətdən gələn zövqləriylə məst olmurlar? Çəkdiklərinin ağılları yox elədiyini, insanı dəli elədiyini görmürlərmi? Birinə bunu başa salmağa çalışdım, dedi, Quranda şərab haramdı, bəng barədəsə heç nə yazılmayıb, dedim, ey zavallı, Peyğəmbər zamanında həşiş olmadığından əsabələri çəkməyiblər, çəksəydilər, Peyğəmbərimiz onların öldürülməsini əmr eləyərdi; dedim, Quranda hər ayənin nazil olmasının bir səbəbi var, məsələn, Quranı Peyğəmbərin yanında uca oxuyanda: *"Ey iman gətirənlər, Peyğəmbərin yanında səsinizi qaldırmayın!"* ayəsi nazil olub. Belələrinə dedim, mənim yanımda şərab içməsinlər, dedilər, biz fəqihik, camiələrimiz, mədrəsələrimiz var, yenə də qorxmuruq, amma sən kimsəyə bağlı deyilsən, açıqca şərab içsən də qorxun yoxdu. Dedim, bilin, agah olun, mən girib şərab küpünün içində otursam belə, əynimdəki paltar yenə də namaz üçün yarayar, amma uşaqlıq çağlarımdan meyil salmadım, alışmadım, uzaqdan da olsa, sərxoş görəndə qaçar, belələrinə nifrət bəsləyərdim, elə bilirdim, indicə üstümə yıxılacaqlar.

Məni qələndəri sayanlar da vardı, amma qələndəriləri hələ Təbrizdən tanıyırdım. Şeyx Əbu Bəkrin dediyinə görə, Sultan Toğrulun vaxtında Həmədanda yaşayan Baba Tahir, Baba Cəfər, bir də Seyyid Həmşa şəhərin kənarındakı dağda zahidsayaq hayat sürüb, günlərini Allaha ibadətlə keçiriblər. Deyilənə

görə, Baba Tahirə "Üryan" ləqəbini də yarıçılpaq gəzib-dolaşdığına, tez-tez cəzb olunduğuna görə veriblərmiş. Baba Tahir Üryanın "Əl-Fütuḥatür-rəbbaniyyə" adlı əsəri, dərin mənalı rubailəri olduğunu da ondan eşitmişdim. Şeyxim söhbətində Baba Tahiri ilik qələndəri dərviş alandırıb bir beytini də söləmişdi: *"Mən o pirəm ki, adım qələndər, // Nə evim var, nə barxanam, nə monastırım var, nə təkkəm. // Gündüz oldumu, elə hey sənin ətrafında dolaşıram, // Gecə olunca da başımı kərpic üstünə qoyub yatıram."* Sonra dərgahda Xacə Abdullah Hərəvinin bir qələndəri dərvişin dilindən yazılmış "Qələndərnamə" risaləsini, Hakim Sənainin şeirlərini tapıb oxudum, qələndərilərin ruhuna vaqif olmağa çalışdım. Sənaiyə görə, *"qələndərilik atını hər kəs minib çapa bilməz, bu yoxluq nərdini hər kəs oynaya bilməz; ər gərək candan keçsin, sənin eşqini də özünə can eləsin; qələndərilik yolunda ziyan faydadı, zahidlik təqva, səccadə dumandı; qələndərilik yolundan və xərabatdan başqa bir yolla getmə, badə, səma və yardan başqa da bir şey axtarma".* Sonra Fəridəddin Əttarın "Məntiqil-təyr"ində, üstəlik, divanının bir çox yerində də qələndəriliyin tərifinə, hətta özünün qələndər olduğu barədə işarələrə rast gəldim. Deyirdi, *"çapovulcular arasında mən qələndər olduğumu faş eləmişim".* Bir yerdə də *"Bizdə nə varsa, hamısının bələdçimizdən almışıq, buna görə də pirimizlə birgə qələndərilik yolunu tutmuşuq, qələndərilik guşəsində hüma quşu kimi ol, amma nişanın olmasın"* söyləyirdi.

Amma o vaxt qələndərilik zahidlik idi, məzhəbə çevrilməmiş, təkkələr, müridlər ortaya çıxmamışdı. Şeyx Övhəddəddinin dediyinə görə, saç-saqqalını, bığını, qaşlarını qırxdırması, geyim-keçimi, şəriətin əmr-qadağalarına fikir verməyən Cəlaləddin Savinin dərviş Cəlal Dərgəziniylə yanaşı, xəlifələri Muhammməd Bəlxi, Əbu Bəkr İsfahani qələndəriliyi qonşu məmləkətlərə də yayıblar. Saviyə görə, *qələndər kəlməsindəki qaf hərfi qənaəti, lam - lutfu, nun – nədaməti, dal – dəyanəti, ra – riyazəti bildirir, ancaq bu sifətləri özündə cəmləşdirən adam*

qələndər ola bilər. Cəlaləddin Savi xəlifələrini öz əliylə çardərb eləmiş, saç-saqqallarını, bığ və qaşlarını qırxmış, çiyinlərinə cəvlak – qaba yundan toxunmuş canlıq - salmışdı. Deyilənə görə, öz canlığını Saviyə Xızır peyğəmbər geyindiribmiş, o da ölüm ayağında mirasını xəlifəsi Cəlal Dərgəziniyə bağışlayıb. Cəvlakilərin məhz qələndərilər olduğunu Şeyx Övhəddəddin elə inamla söyləyirdi, şübhə eləməyimə yer qalmırdı. Dediyinə görə, cəvlakilər hər cür haramı halal və mübah sayır, namaz qılmır, oruclarını aşkarda da olmasa, gizlində pozur, şərab içir, söyüş söyür, işdən yayınır, dilənir, sərgərdan həyat sürürlər. Beləcə, qələndəri dərvişlər elm öyrənmir, üləmalarla həmsöhbət olmur, əsrara, xaşxaşa oxşayan səbzək, yaxud şəhdanə adlanan otla qayğısız, sərgərdan adamları tora salıb həm imanlarından, həm də canlarından eləyirlər. Üstəlik, saylarının get-gedə artması, hər cür xoşagəlməz əməl sahibi olmalarına baxmayaraq, camaatın nəzərində özlərini fəqir dərviş kimi qələmə vermələri Şeyxə ağır gəlirdi.

Şeyxin şahidbaziliyinisə, əlbət ki, təqdir eləyə bilmərəm. Səma ondan ötrü təkcə *O*-na yetişmək vasitəsi yox, həm də zövq və nəşə duya-duya yetişmək yoluydu. Nə vaxtdı ki, onun Allahın camalındakı gözəlliklərin, qadın olsun, kişi olsun, ömrünün bahar çağlarını yaşayan insan övladının gözəlliyində təcəlla eləməsinə cani-könüldən inanması, onları səma məclislərinə dəvət eləyib birgə səmaya durması ağızlarda dürlü-dürlü şaiyələrə çevrilmişdi. Allahın o gözəl bəndələrinin hərəsi bir yanan çıraq götürüb hücrənin qaranlığında səmaya düzüləndə, Şeyx də sinəsini mürid və müridələrinin sinəsinə söykəyib cəzb olanda, şeir söyləyə-spyləyə özündən gedib yerə yıxılanda *O*-na yetişdiyini, *O*-nun dərgahında olduğunu iddia eləyirdi. Zənənlərlə bir məclisdə olmağın, səmaya durmağın, naməhrəmə baxmağın ona zərər verəcəyini söyləmişdilər, amma şeyx *"Mən Haqqdan başqa kimsəyə baxmaram"* demişdi. Xəlifənin oğlu müridlik iltimasıyla gələndə hamı nəfəsini udubmuş, qulaqla-

rını şəkləyib şeyxin oğlana bir fənalıq eləyəcəyini, hökmdarın da onu öldürtdürəcəyini gözləyirmiş, amma oğlan mürşidinin kəramətlərini görüb razı qalanda çaşıblar, söylənənlərin iftira olduğu barədə düşünənlər də tapılıb.

Qəlbimi də, nəfsimi də tamam təmizləmək üçün bir daha xəlvətə girmək, çilə çıxarmaq şərt olmuşdu. Şeyx Şəhabəddin də bunu duymuş kimi, xəlvətə hazır olub-olmadığımı soruşdu, qətiyyətimi görüb dərgahın hücrələrindən birini mənə ayırdı, qapısına iki müridini qoydu; qırx gün, qırrx gecə ibadət elədim, nəfsimi Həzrəti-Musanın, Həzrəti-İsanın, Həzrəti-Muhammədin nəfsi kimi mübarək məqama çatdırmağı arzuladım, kimya elmində, ulduzlardan baş açmaqda, ilahiyyatda, hikmət elmində, nücumda, məntiqdə... çatdığım məqama riyazətdə də çatmağı, Tanrı ərlərinin söhbətinə yeytişəndən sonra hamısını dəftərimdən silməyi, təcrid, təfrid, tövhid aləminə vaqif olmağı arzuladım. Şeyx Əbu Bəkr danışmışdı, Şah Şücai Kirmaninin bir oğlu varmış, dünyaya sinəsində yaşıl rəngli "Allah" yazısıyla gəlibmiş. O oğlan böyüyüb, dünyadan zövq almaqla məşğul olub, şərab içib, rübab çalıb, gözəl səsilə nəğmələr oxuyub; bir gün xərabətdən çıxıb kefikök halda rübab çalmağa başlayır, həmin məqamda bir nəfər ondan tövbə vaxtının çatıb-çatmadığını soruşur, oğlan da qəfildən, elə bil, ayılır, ona Allahın inayəti yetişir, məscidə gedib tövbə eləyir, rübabını sındırır, qüsldən sonra evinə qapanıb, çilə çıxarır, qırx gün ibadətə durur, yemir, içmir, yatmır, çiləsi başa çatandan sonra da validi deyir, mən qırx il ərzində dünyadan nə qazandımsa, sən onu qırx gün ərzində qazandın. Mənim də bu qırx gündə qazandığımı, gələcək göstərəcəkdi.

Hücrəmə çəkilən vaxtlarımda da namazım, zikrim, belbağı hörməyimlə yanaşı, fikrimi ən çox məşğul eləyən gündoğandan və qüzeydən gələn xəbərləriydi. Cəbə Noyonla Subutay Bahadır gürcülərin məmləkətindan sonra Şirvanşahlar ölkəsinə göz dikmişdilər. Bu tərəfdən də onların didərgin saldığı qıpçaqlar

Dərbənd qalasınacan gəlib çıxmış, Qəbələ qalasını mühasirəyə almış, Arrana girmişdilər. Gəncə hakimi Quştəsb Atabəy Özbəyin xidmətində olacaqları təqdirdə onların Arranda yerləşmələrinə izin verəcəyini bildirmişdi, Atabəyin razılığıyla da qıpçaqlar Gürcüstan hüdudundakı Qalakün dağı ətəklərində yerləşdirilmiş, bəylərinə hökmdarın xələti göndərilmişdi. Bündan bərk narahat olan gürcülər qıpçalara basqın eləmişdilər, amma Quştəsbin işə qarışması sayəsində ciddi toqquşmanın qarşısı alınmışdı, bununla belə, qıpçaqlar duruş gətirə bilməyəcəklərini anlayıb Şirvanşahlar ölkəsinə çəkilmişdilər. Bu tərəfdən də gündoğandan axın-axın gələn tatarlar Reyi, Savəni, Kaşanı, Qumu dağıdıb Həmədanı ikinci dəfə yandırmış, Sind nəhrini bu üzə keçən, Reydə əllərindən qaçıb Azərbaycana sığınan Sultan Cəlaləddin Xarəzmşahın arxasınca Təbrizəcən gəlmiş, padşahımızın qoşunu üç min nəfərlik tatarlardaən qat-qat artıq olsa da, döyüşə girməyə cəsarət eləməmiş, altı min nəfərlik Xarəzmşah qoşununa basqın eləyib qırmağı, sərkərdələrinin başını çoxlu hədiyyələrlə tatarlara göndərməyi üstün tutmuşdu, nəticədə sakitləşən tatarlar Təbrizə soxulmaqdan əl çəkib Xorasana qayıtmışdılar.

O dörd ildə iki dəfə Şeyx Şəhabəddinlə birgə Xəlifə Nasir Lidinillahın hüzurunda oldum. Daha doğrusu, Şeyxi bir dəfə Xarəzmşah Cəlaləddinin peyda olması, üzünü Dər-üs-Salama sarı çevirəcəyiylə bağlı əndişələrini bölüşmək üçün çağırmışdı, bir kərə də Əlamütdan gələn dainin təklifləri barədə fikirlərini öyrənmək məqsədiylə özü dərgaha təşrif buyurmuşdu. Validəsi türk qızı olan Abbasi xəlifəsini ilk dəfə görəndə vaxtilə Xarəzmşah Əlaəddin Muhammədlə əlbir olub səlçuqluların torpaqlarına necə basqın elədiyini, ələ keçirdiklərini xatırladım. Sonra Xarəzmşah ondan hökmdarlığının tanınmasını, adının xütbələrdə çəkilməsini istəmiş, Bağdad üzərinə gələcəyiylə təhdid eləmiş, hətta xəlifəliyə layiq olmadığını bildirib uzaqdan-uzağa məqamından salmış, yerinə Həzrət Əli soyundan olan Əla-ül-

Mülk Tirmizini oturtmuşdu. Onda Bağdad yürüşünün qabağını sərt qış kəssə də, Xarəzmşah Xorasandakı bir cümə xütbəsində Xəlifənin artıq öldüyünü bildirmişdi. Hətta Nasir Lidinillahın Xarəzmşaha qarşı nəsturi şeyxini göndərib tatar xaqanını Bağdada dəvət elədiyini də söyləyir, aralarındakı toqquşmanı da bununla bağlayırdılar.

Onda Xarəzmşah qoşununun yenilməsi Bağdadı ikinci bəladan qurtarmışdı. İndisə Xəlifə üçüncü bəlayla üzbəüz idi: Usakun hakimi Qabacın qızıyla izdivaca girib üç il ərzində yaralarını sağaltmağa çalışan, sonra Fars İraqına keçib salqurlarla da qohumluq əlaqəsi yaradan, atabəy Səd bin Zənginin qızıyla evlənib, arxasını möhkəmlədib, qoşununu gücləndirən Sultan Cəlaləddin artıq yoldaydı, Bağdadın üzərinə gəlirdi. Ərbil və Mosul əmirlərini yola gətirmiş Xəlifə indi Şeyx Şəhabəddini Şama, Məlik Əşrəfin yanına göndərmək fikrinə düşmüşdü. Əlbəttə, söhbətin məxfi qismini təklikdə elədilər, Şeyxin sabahdan səfər hazırlığına başlayacağından geri qayıdanda xəbər tutdum. Xəlifə Nasir təxminən yetmiş yaşlarında, iri cüssəli, çox heybətli adam idi. Boyu uzun deyildi, amma sezdim ki, sifətinin quruluşu düzgün, dərisi ağdı, saqqalı da simasına çox yaraşır. Əynində qara əba, başında türk börkü vardı, xilafət sarayına girəndə rast gəldiyim keşikçilərin də hamısının türk geyimlərində olması nəzərimdən qaçmamışdı. Bir qədər qıyıq gözləri *(deyəsən, zəif görürdü, sonra Şeyx Şəhabəddin onun, az qala, kor olmağa başladığını söylədi)* vardı, amma hərəkətləri hələ qıvrağıydı. Dər-üs-Salama gəldiyim gündən Xəlifə barədə rəvayətəoxşar şeylər eşitmişdim. Deyilənə görə, bu çox ağıllı, həm də həddən artıq qəddar adam gecə-gündüz yatmır, tez-tez təğyiri-libas olub çarşı-bazara çıxır ki, camaatın nə yeyib-içdiyindən, nə danışdığından xəbərdar olsun. Onun hətta divarlara dırmaşdığını, damlara çıxdığını iddia eləyənlər də vardı. Xülasə, qorxu camaatın canına elə yerimişdi, övrətlərinin yanında belə, sözü ağızlarından bişirə-bişirə çıxarırdılar ki, naqolay bir

kəlmə söyləməsinlər. Deyilənə görə, onun təkcə xilafətdə yox, qonşu məmləkətlərdə də saysız-hesabsız *"gözləri", "qulaqları"* vardı, bunun sayəsində istədiyi adamları özlərinin də xəbəri olmadan bir-birinə dost, yaxud düşmən eləməyi bacarırdı, həm də o qədər ehtiyyatlıidı ki, içdiyi suyu belə, yeddi fərsax uzaqdan gətirdir, yeddi kərə qaynatdırandan, yeddi gün saxladandan sonra içirdi.

Xəlifənin Nasiriyyə dərgahına gəlişisə, cəmi bir həftə sonra, həm də qəfil oldu. Həmişəki kimi, gün əyilən vaxtı Şeyx Şəhabəddinlə diz-dizə əyləşib söhbətə girişmişdik, bu dəfə Bəyazid Bistaminin hikmətləri üzərində çəkişirdik. Dərvişlərdən biri tənginəfəs içəri girib Xəlifənin artıq dərgaha varid olduğunu söylədi, mən heç ayağa qalxmağa macal tapmadan da içəri girdi. Əlbəttə, hörmət-izzətimi bildirəndən sonra belə nagəhan gəlişin çox ciddi səbəblə bağlı olduğunu düşünüb onları tək buraxdım. Görüşün təfərrüatını Şeyx səhəri gün məsləhət bildiyi qədər danışdı: tatar xaqanı beş yüz nəfərlik ticarət kərvanının qisasını Xarəzmşahdan almış, indisə fitnə-fəsad yuvası saydığı Bağdadın da dağıdılmasına qərar vermişdi, bundan ötrü də əvvəlcə batininlərin əlçatmaz yuvası Əlamutu darmadağın eləməliydi. Bir-birinə ehtiyacları Xəlifə və Həsən Cəlaləddinin qarşılıqlı addımlar atmasını tezləşdirmişdi – Xəlifə şiəliyi tanımış, Cəlaləddin Həsən də qalasında cami tikdirmiş, qiyamətəcən ismaili-şiə qalmaqdan əl çəkib sünniliyə keçmiş, beləcə, Sultan Əlaəddin Keykubadın da qoşulması sayəsində Əlamut-Bağdad-Konya üçlüyü yaranmışdı, bu üçlük də gündoğandan gələn bəlanın qarşısını almalıydı. Dediyinə görə, artıq qoşunlarla yanaşı, çox vacib və məxfi vəzifələri yerinə yetirəcək dəstələrin – bir vaxtlar Şeyx Cəlaləddin Cəvlakinin batinilərə qarşı yetişdirdiyi, dərviş qılığında dolaşan cavlaki döyüşçülərinin təliminə başlanmışdı. Elə bu məqmda da müəmmalı şəkildə ortadan götürülən Cəlaləddin Həsənin yerini yeni imam, azyaşlı Əlaəddin Muhammməd tutmuş, o da dərhal arxasındakıların məsləhətiylə

qardaşı Şəmsəddin Muhammədi Xəlifənin hüzuruna göndərib validinin bağladığı razılaşmanı bir daha təsdiqləmişdi. İndi Məlik Əşrəfin də onlara qoşulması hava-su kimi vacibiydi, buna görə də Şeyx Şamdan əliboş dönməməliydi...

***

...Şeyx Şəhabəddin səfər zamanı onun heyətində olmaq istəyib-istəmədiyimi soruşanda heç təəccüblənmədim. Əlbəttə, o heyətdə heç bir vəzifəm olmayacaqdı, Şeyxin həmsöhbəti kimi yola çıxacaq, ehtiyac duyduğum məqamda çıxıb gedəcəkdim. Şeyx Şəhabəddin bunu dərk eləyirdi, amma görünür, nəyəsə bel bağlayır, bəlkə də böyük ümidlə çıxmadığı bu səfərdə mənəvi təqatəni itirməmək üçün vasitə sayırdı. Məlik Əşrəf artıq Xəlifənin elçilərini bir dəfə əliboş qaytarmışdı, ola bilsin, Şeyxin indiki həvəssizliyi də bununla bağlıydı. Səfərimizin nəylə başa çatacağınısa, Allahdan başqa kimsə bilməzdi. İbrahim Ədhəm Həzrətləri deyirmiş, Məkkədə bir daş gördüm, üzərində *"Məni çevir, məndən ibrət al"* yazılmışdı; daşı çevirdim, gördüm arxasında *"Bildiyinə əməl eləmədiyin halda, bilmədiyini necə istəyə bilərsən?"* yazılıb. Hələ kimsə zamanın çarxını geri döndərə bilməyib, kimin alnına nə yazılıbsa, o da olacaq. Mən bu məqamacan Bağdaddan Ərzuruma getmək barədə düşünürdüm, amma Şama getməli oldum. Onu da deyim, Ərzuruma getmək eşqini könlümə Qəvaməddin əş-Şirvani salmışdı, dediyinə görə, orda böyük mədrəsə tikilirdi, həmin mədrəsədə dərs deyə, qalan vaxtımızı da riyazətlə keçirə bilərdik.

Yarı canım, əlbəttə, Təbrizdə qalmışdı. Həftədə, ən azı, iki dəfə Qəvaməddinlə çarşı-bazara çıxır, Təbrizdən, Marağadan, Kirmandan, Həmədandan, Sərabdan, Nəqşivandan, Şirvandan gələn tacirlərdən məmləkətimizdə baş verənlərdən xəbər tuturduq. Eşitdiklərimiz heç də ürəkaçan deyildi. Sultan Cəlaləddin Səltənəti-Hinddə olduğu müddətdə qardaşı Qütbəddin Pir-

şah Zəncanı da, Qəzvini də keçmiş, Təbriz qapısınacan gedib çıxmış, qorxaq Müzəffərəddin Özbək də sələflərinin şöhrətini tapdayıb onunla şərəfsiz razılıq əldə eləmiş, üstəlik, Qütbəddin onun Nəqşivan sahibəsi olan bacısı Calaliyyə Xatunla nikah kəsdirib yerini bir qədər də möhkəmlətmişdi. Xarəzmşahın vəziri Burak Hicab da Cibal, İraqi-Əcəm və Kirmanı ələ keçirmişdi, Cəlaləddinin uzaqda, başının qalda olduğunu fürsət bilib, o yerlərdə öz hökmdarlığını qurmaq istəyirdi. Qütbəddin Təbrizə döyüşsüz girdiyinə görə, qırğın baş vermədiyinə, valideynlərimin, Şeyx Əbu Bəkrin, Zeynəddinin sağ-salamat olduqlarına sevinib fikirləşdim, əslində, Şam səfərinə çıxmaq məndən ötrü göydəndüşmə fürsətdi. Şübhəsiz, daim tatar noyonlarının qovduğu Cəlaləddin günlərin birində Təbrizə sarı üz tutacaq, sonra xarəzmlilərin beş-altı il əvvəlki uğursuzluğunun əvəzini Xəlifə Nasirdən çıxmaq fikrinə düşəcəkdi. Belə vaxtda mənim kimi diliacı, düşündüyünü gizlətməyən, Allahdan başqa kimsənin itaətinə girmək istəməyən bir kəsin mümkün qədər uzaqda olması daha yaxşıydı. Doğmalarımın başınasa, qədərlərində nə vardısa, o da gələcəkdi, mən yanlarında olsam belə, baş verəcək hadisələrin qarşısını ala bilməzdim.

Əslində, Bağdadda yaşadığım dörd il ərzində o qədər adamla ünsiyyət bağlamamışdım ki, vidalaşmağa çox vaxt sərf eləyim. Kunduraçı Münir bu müddətdə yırtılmış başmaqlarımı bir neçə kərə yamaylb-dəyişmiş, mən də belbağılardan əldə elədiyim gəlirdən artırıb zor-xoş borcundan çıxmışdım. Hərdən dükanına gedəndə oğlunu da orda görür, ya da dərgahda rastlaşırdım. Dərrakəli oğlana oxşayırdı, amma əmindim ki, müridlikdən uzağa gedə bilməyəcək, uzaqbaşı, Şeyx Şəhabəddin dərgahlarından birinin idarəsini ona tapşıracaq. Əbülfəzl Mahmud əl-Ərdəbili bir ay əvvəl haqqa qovuşmuşdu, Qəvaməddinlə yasına da getmişdik, Əminəddin Müzəffər ət-Təbrizi xəstəlikdən göz açmırdı, Tacəddin Əbülfəzail əl-Urməvi Qahirə səfərinə çıxmışdı, üləmalar arasında başqa diqqətimi çəkən, həmsöhbəti

olmaq istədiyim elə bir kəs yoxudu. Biçarə Fəqirəddin şərab məsələsindən sonra mənə yaxın gəlmir, hətta uzaqdan görəndə belə, yolunu dəyişirdi. Həmişə Dəclə nəhrinin qırağında rastlaşdığım, gözlərinin işığını itirsə də, könül işığını itirməmiş Məlamətiyyə dərvişi Nüsrəddinisə, yəqin, tez-tez xatırlayacaqdım. Hər dəfə mənə yeni bir rəvayət danışırdı. Axırıncı dəfə bir Əcəm padşahının din qardaşlarına yardım niyyətiylə ən yaxşı təbibini Peyğəmbərimizin (c) yanına göndərməsini nağıl eləmişdi: bir neçə il ərəb ölkəsində qalan biçarə təbib görür, kimsə dava-dərman üçün qapısını döymür, Peyğəmbərin hüzuruna gedib şikayətlənir ki, bəs nə vaxtdı, burda boş-bekar oturmuşam, kimsəyə faydam dəymir, Peyğəmbər də cavabında deyir, mənim əshabələrim belədilər, iştahları olmayanda yemir, iştahları ola-ola da yeməkdən əl çəkirlər; təbib də demişdi, haqlısan, ey Allahın Rəsulu, sağlamlığın təməli də elə budu, sonra da əlavə eləmişdi ki, müdrik kəs sözü ancaq söylənməsindən zərər çəkəndə söyləyər, yeməyi sağlamlığına zərər gətirməmək üçün yeyir, ona görə də sözü – hikmət, yeməyi – sağlamlıq olur...

ÜÇÜNCÜ MƏQAM



“EY MƏNA ALƏMİNİN SAHİBİ, MƏNİ AXTARIB TAP!”

Söyləməyə nə hacət, halım sənə ayandı,
Dilə ehtiyac yox, sükutum sənə bəyandı,
Sözə lüzum yox, susmağım sənə kəlamdı,
Kəlama ehtiyac yox, eşq sənə fiğandı.





Səfər hazırlığımız iyirmi gündən artıq sürdü. Qarşıda uzun, həm də səhradan keçən çətin yol vardı, ömrü səfərlərdə keçmiş Şeyx Şəhabəddin hər şeyi nəzərə alırdı ki, çöl-biyabanda Allahın ümidinə qalmayaq, üstəlik də, qayğıları azaltmaq üçün heyətə mümkün qədər az adam götürmək istəyirdi. Bununla belə, otuz nəfər oldu, onların da çoxu, əlbəttə, mühafizlər idi, Xəlifə belə bir qarışıq vaxtda ən yaxşı əsgərlərindən iyirmi nəfəri Şeyxin xidmətinə göndərmişdi. Qalan on nəfərin də ikisi yemək işlərinə, ikisi atlara baxır, ikisi Şeyxin qulluğunda dururdu, bir də yazı-pozu işlərinə baxan katib, Məlik Əşrəfə göndərilən ənamların mühafizi, Xəlifənin iki adamıydı. Əslində, məni heyətin üzvü də saymaq olmazdı, Şeyx Şəhabəddinlə də bu cür razılaşmışdıq: gərək duyduğum məqamacan onun yanında olacaq, məsləhət bildiyim vaxt çıxıb gedəcəkdim, çünki *yolum* başqaydı, o yolda ancaq könül səfərləri vardı. Mən məliklərin, sultanların, şeyxlərin qapısı ağzında gözləmək, hüzurunda baş əymək, hər an qəzəblərinə tuş gəlmə qorxusuyla yaşamaq kimi işlər üçün yaradılmamışdım. Mənim işim könülləri fəth eləmək, ordakı məzlumluğu, miskinliyi, acizliyi silmək, *O*-nun dərgahına fateh kimi çatmaq idi. Bunu Şeyx Şəhabəddin də dərk eləmiş, amma niyyətimi bilə-bilə məni heyətində görmək istəmişdi.

Dər-üs-Salamdan payızın əvvəllərində, cümə günü çıxdıq. Şeyx bu dəfə Əl-Fəllucə, Ər-Ramadi, Ər-Rumba yolunu seçmişdi, dediyinə görə, çətin də olsa, vaxta mümkün qədər qənaət

eləmək vacibiydi - gündoğandan gələn təhlükə bunu zərurətə çevirirdi. Üstəlik, Sultan Səlahəddinin varisləri arasında baş verənlər də Xəlifəni tələsmək məcburiyyətində qoymuşdu. Əvvəllər Məlik Əşrəfə Cəzirə, Məlik Müəzzəm İsaya Şam, Məlik Zahir Qaziyə Hələb vilayətləri miras qalmışdı, Əşrəfin bacısı Dayfa xatun Zahirin övrətiydi, o, öləndə yerinə üç yaşlı oğlu Məlik Əzizi oturmuşdu. Xaçlılar Damyatdan qovulandan sonra Məlik Kamil iki qardaşıyla birgə Ərbil hakimi Müzəffərəddin Göybörü, bir də Mosul hakimi Bədrəddin Lulunu da dilə tutub Məlik Müəzzəmə qarşı çıxmışdılar. O da Göybörünü öz tərəfinə çəkib, Əhlət hakimi Məlik Müzəffəri onlara qarşı qaldıra bilmişdi. Əşrəf qiyamı yatırtmaq üçün Əhlətə üz tutanda Göyborü Mosulu mahasirəyə alıb Cəzirəyə hücuma hazırlaşmağa başlamışdı. Amma o, qardaşı Məlik Müzəffəri yola gətirə, Əhlət torpağını öz məlikliyinə qata bilmiş, sonra Cəziräni qorumaq üçün Şama doğru yola çıxmışdı. Xəlifənin çuğullarının gətirdiyi xəbərə görə, Məlik Əşrəf payızın ortalarında Şama yetişəcək, Şeyx Şəhabəddin də Şamda onun hüzuruna çıxıb Xəlifənin qardaş çəkişmələrinə son qoymaq, hələlik Xarəzmşaha qarşı birləşmək təklifini çatdıracaqdı. Şeyxi də qayğılandıran parça-parça olmuş məmləkətlərin Xarəzmşah Cəlaləddinin qarşısında duruş gətirə bilməyəcəyiydi.

Ömrümdə ilk dəfə canlının – dəvənin - belinə mindim. Heyətimizdə Şeyx Şəhabəddinin kəcavəsi, katibin, xəlifənin iki adamının, mənim ixtiyarıma verilmiş, həm də yük çatılmış doqquz dəvə, xidmətçilərin, aşbazların, mehtərlərin mindiyi, yükləri daşıyan on bir qatır, mühafizlərin iiyirmi atı vardı. Gündüzlər çox isti olduğundan, gün bir boy qalxanda dayanır, Şeyxin və heyət üzvlərinin dincəlmələri üçün iki çadır qurulurdu, qalanlarsa, atların, qatırların, dəvələrin kölgəsində gün əyilənəcən vaxtlarını öldürür, isti şiddətini bir qədər azaldanda yolumuza davam eləyirdik. Gecənin sərinliyində, zınqırovların cingiltisi altında irəliləmək xoşuma gəlirdi. Arabir mühafizlər-

dən bir qismi qiyyə çəkib irəli cumur, yolun təhlükəsiz olduğunu yəqin eləyəndən sonra qiyyə çəkə-çəkə də geri dönür, bir müddət zınqırov səslərindən, heyvan dırnaqlarınn tappıltısından başqa bir səs eşidilmirdi. Belə vaxtlarda ürəyimdən mani oxumaq, çöllərin əbədi sükutunu dağıtmaq keçirdi, amma Şeyx Şəhabəddinin mürgü döydüyünü yada salıb fikrimdən daşınırdım.

Şeyxin katibi Nurəddin Məsudla bir neçə il fərqlə həmyaş idik. Qəzvində doğulmuş, mədrəsəni bitirəndən sonra özünə şeyx araya-araya Dər-üs-Salama gəlib çıxmış, Şeyx Şəhabəddinin xidmətinə girmişdi. Xasiyyəti qədər gözəl xətti, səliqə-sahmanı vardı, bu səbəbdən, Şeyx onu özüylə bütün səfərlərə aparırdı. Şirin söhbət eləmək qabiliyyəti vardı, Konya səfəri, Sultan Əlaəddinlə görüşləri barədə çox danışmışdı, onun söylədikləri sayəsində Səlcuqlu dər-üs-səltənəsini gözüyumulu gəzə bilərdim, amma Konyaya yönüm düşüb-düşməyəcəyini hələ bilmirdim, bu, qismətdən asılıydı. Bir çox adamları, elə Xəlifəni də onun danışdıqları sayəsində daha yaxşı tanımışdım. Bir kərə Bağdad üləmalarından biri barədə söhbət düşəndə dedi, *"o, Xəlifədən göyərçin almış adamdı"*. Əvvəl elə bildim, səhv eşitmişəm, özündən soruşdum, dedi, səhv eşitməmisən, Xəlifə neçə illər qabaq bütün göyərçinlərin öldürülməsini, təkcə öz himayəsində saxlananların sağ qalmasını əmr eləyib ki, xilafətdə də, qonşu məmləkətlərdə də olan *"göz-qulaqları"*ndan daha asan xəbər ala bilsin; dedi, üstəlik, etibar elədiyi adamlara göyərçin bağışlayır, beləcə, xəbər gətirən göyərçinlər ancaq xəlifənin, bir də yaxın adamlarının əlinə keçir; dedi, bundan xəbər tutan xorasanlı bir tacir də Bağdada gələndə xəlifəyə göyərçin gətirib ənam almaq fikrinə düşür, bədbəxtlikdən yarıyolda göyərçin ölür, tacir binəva bundan çox məyus olur, qəziyyəni eşidən Xəlifə xoş niyyəti müqabilində o tacirə bir kisə dinar göndərir. Nurəddin Məsudun bu cür söhbətlərini eşitmək məni

əyləndirirdi, amma bilirdim ki, o da kunduraçı Münirin oğlu kimi, Şeyx yanından, dərgah hücrəsindən qurtula bilməyəcək.

Bəhaəddin Vələdin Dər-üs-Salama gəlişinin, bir müddət sonra Məkkəyə yola salınmasının təfərrüatını da Nurəddin Məsud danışmışdı, daha doğrusu, o boyda adlı-sanlı adamın yerindən-yurdundan nəyə görə didərgin düşdüyünü soruşanda yerli-yataqlı nağıl eləmişdi. Bəlx hakiminin oğlu, Xarəzmşah xanədanının vəziri Şəmsəddin Muhammədin kürəkəni olan, Xorasanın adlı-sanlı üləmalarından dərs alıb Sultan-ül-Uləma ünvanı qazanan, müddərrislikdə ad çıxaran bir adamın qəfildən hökmdarın gözündən düşməsi məni həmişə maraqlandırmışdı. Şeyx Şəhabəddindən bu barədə düz-əməlli bir şey öyrənə bilməmişdim, ya bilmirdi, ya da hansı səbəbdənsə, söyləmək istəmirdi. Amma Nurəddin Məsud öz zəkasından zövq ala-ala danışdı ki, Sultan-ül-Uləma gözəl xasiyyəti, dərin biliyi, hamıya çatan vəəzləriylə Bəlx əhlinin elə sevgisini qazanıbmış ki, Fəxrəddin ər-Razi bundan əndişə duymağa başlayır, onunla hökmdar Əlaəddin Muhammədin arasını vurmaq qərarına gəlir. Bir gün Muhammməd Bəhaəddin Vələd Vəxşdəki mədrəsəsində bəzi üləmaların Peyğəmbər dinində rast gəlinməyən bidətlə məşğul olduqlarını söyləyib dinə zərər verdiyini bildirir. Bundan xəbər tutan ər-Razi dərhal onun söylədiklərini hökmdara çatdırır, nəticədə həddən artıq etibar eləyən, məsləhətlərini dinləyən hökmdar Sultan-ül-Uləmadan bərk inciyir, Bəlxin açarını ona göndərir. Açarı gətirən şəxs sultanın sözlərini də çatdırır: "Şeyximiz Bəlx ölkəsini qəbul eləsin, bu gündən padşahlıq, torpaqlar, qoşun onun olsun, mənə də başqa ölkəyə getməyə izin versin, çünki bir ölkədə iki padşahın olması düzgün deyil. Allaha həmd olsun ki, ona iki cür səltənət verib, birincisi dünya, ikincisi axirət səltənətidi. Bu dünya səltənətindən əl çəkib bizə versə, böyük yardım, sonsuz lütf olar".

Şübhəsiz, Sultan-ül-Uləma sultanın bu ismarışının nə demək olduğunu, yaranı hardan aldığını başa düşür, o şəxsə de-

yir, "İslam sultanına salam söylə, de ki, bu dünyanın fani ölkələri, qoşunları, xəzinələri, taxt-tacları padşahlara yaraşır, biz dərvişik, ölkə və səltənətlə işimiz olmaz", o gündən də Bəlxdən getmək qərarına gəlir. Deyilənə görə, hökmdar öz hərəkətindən çox peşiman olubmuş, araçılar göndərib, nə qədər dilə tutursa, Bahaəddin Vələdi fikrindən daşındıra bilmir. Beləcə, Sultan-ül-Üləma övrətini, altı yaşlı oğlu Muhammməd Cəlaləddini də götürüb Nişabura doğru yola çıxır. Sədaqətli müridi Seyyid Burhanəddin Mühəqqiq onu göz yaşları içində yola salır, bir çox dərvişləri də şeyxlərini tək buraxmırlar. Bir müddət Nişaburda qalan, Xorasanın hər tərəfindən gələn uləmalarla söhbətlərə girən Sultan-ül-Uləmanın hüzuruna Fəridəddin Əttar da gəlir. Deyilənə görə, söhbətlərində balaca Cəlaləddin də varmış, Əttarın sorğularına elə dərin cavablar verir ki, uləmaların piri heyran qalır, "Əsrarnamə"sinin bir nüsxəsini oğlana bağışlayır, ayrılanda da onu *"irmağın arxasınca düşmüş ümman"* adlandırır, Bəhaəddin Vələdə deyir, oğlunuzun yaxın gələcəkdə hamının qəlbinə od salacağına, yandırıb-yaxacağına əminəm".

Sultan-ül-Uləmanın qəfiləsi tatarların gündoğandan günbatana üz tutduqlarını eşidəndə Həcc niyyətiylə Nişaburdan çıxır, axır ki, gəlib Dər-üs-Salama yetişir. Xəlifə Bəhaəddin Vələdin qarşılanmasını, hüzuruna gətirilməsini Şeyx-ül-şüyüh Şəhabəddinə tapşırıbmış. Nurəddin Məsud, əlbəttə, Bağdadın iki ağaclığında Sultan-ül-Uləmanın qəfiləsini qarşılayanda onun yanındaymış. İnsan seli Sultan-ül-Uləmanı böyük coşqunluqla qarşılayır, az qala, əl üstündə xilafət sarayınacan gətirir, Xəlifə Nasir Lidinillah da qonağını sarayın qapısı ağzında qarşılayır, böyük hörmət-izzət göstərir. Dər-üs-Salamda üç gün qalan Bəhaəddin Vələd üləmalarla görüşür, söhbətlər eləyir, əlbəttə, Şeyx-ül-şüyuhla da hər gün ünsiyyətdə olur, Nurəddin Məsud da onların söhbətlərindən feyz alır. Dediyinə görə, o vaxt artıq on üç-on dörd yaşlarında olan Muhammməd Cəlaləddin də daim validinin böyründə otururmuş. Nurəddinin fikrincə, Fə-

ridəddin Əttarın kəlamında hikmət var, o yeniyetmə yaxın gələcəkdə böyük uləmalardan biri olacaq. Üç gündən sonra da Sultan-ül-Uləmanın qəfiləsini elə eyni təntənəylə də Məkkəyə yola salırlar. Onda Bəhaəddin Vələd Həcc ziyarətindən sonra harda yerləşəcəklərini bilmirmiş. Nurəddin Məsudun fikrincə, ola bilsin, Şamda yaşayırlar, çünki Sultan-ül-Uləma Məkkədən dönəndə bir müddət Şamda qalıb oranın uləmalarıyla görüşmək fikrində olduğunu söyləyibmiş...

Yolumuz düşündüyümdən ağır keçirdi. Dər-üs-Salamdan Fəllucəyə, Fəllucədən Ər-Ramadiyə, adətən, karvanların getdiyi iki günlük yolu biz dörd günə getmişdik, bunun da başlıca səbəbi, əlbəttə, artıq qocalmış Şeyx-ül-şüyuhu incitməmək idi. Dincəlmək üçün dayananda xidmətçiləri dərhal əl-ayağa düşür, Şeyx üçün rahat yer hazırlayır, namaz qılması, zikr eləməsi, yeyəndən sonra bir qədər yatıb dincəlməsi üçün mümkün olanı eləyiridilər. Belə vaxtlarda Nurəddin Məsudun xəbərdarlığına da, arxamca göz qoyan xəlifə adamlarının əndişəsinə *(əmindim ki, xəlifənin "gözü-qulağı" olan adamlardı)* də fikir verməyib karvandan aralanır, ucsuz-bucaqsız səhrada *O-na gedən yolun* hardan keçdiyini unamağa çalışırdım. Sinnim qırxa çatmışdı, hələ şeir yazmamışdım, ümumiyyətlə, yazmaq şakərim yoxudu. Amma o məqamlarda beynimdən keçən kəlmələr şeirə oxşayırdı, axırı da beləydi: *"Haralarda ki, yerə damcılamış qan görsən, // Bil ki, mənim gözlərimdən damıb..."*

Üç həftəyə çatdığımız Ər-Rutbada Şeyx-ül-şüyuhun xəstələnməsi bizi iki həftə də gecikdirdi. Əlbəttə, belə bir yerdə təbib axtarmaq barədə düşünməyə dəyməzdi, ona görə də Nurəddin Məsudla bütün təbabət biliklərimizi köməyə çağırıb xəstəni əlimizin altında olan dava-dərmanla sağaltmaq qərarına gəldik. Məni tanıyanlar əlimdə kəramət olduğunu söyləyirdilər, bu iddianın doğruluğunda israr eləmirəm, amma öz ağrılarımı da təbibsiz-filansız, əllərimin təmasıyla dindirirdim. Şeyx Şəhabəddinin azarı qocalıqdandı, artıq səksənə yaxınlaşan sinniy-

lə belə uzaq səfərə çıxmaq asan deyildi. Kəcavəsi, çadırındakı yatağı nə qədər rahat olsa da, dəvənin belində silkələnməsi onu haldan salırdı. Bu səbəbdən, olan-qalan gücünə güc qatmaq üçün əlimizdən gələni elədik. Üstəlik, Xəlifənin adamları başımızın üstünü kəsdirib, az qala, boynumuzdan yapışıb Şeyx-ül-şüyuhu sağaltmağa məcbur eləyirdilər, bu da məni haldan çıxarırdı. Nurəddin Məsud onları dilə tutub uzaqlaşdırmasaydı, yəqin, arada xoşagəlməz vaqeə də baş verəcəkdi. Bununla belə, söhbətlərimiz bəhrəsini verdi, ikinci həftənin əvvəlində Şeyx Şəhabəddin özünü yaxşı hiss elədi, axırında isə ayağa qalxdı, yolumuza davam eləyə bildik.

Şeyx-ül-şüyuh onun səhhəti üçün bu qədər çalışmağımın əvəzini barmağındakı zümrüd qaşlı üzüklə, ən azı, bir dəst paltarla vermək istədi, amma dünya malında gözüm olmadığını bildiyindən, çox israr eləmədi, dedi, bir hikmət sahibi söhbət əsnasında dilinə gətirir ki, bəs, Hind torpağında bir ağac var, kim o ağacın meyvəsindən yesə, nə qocalar, nə də ölər, məmləkətin padşahı bunu eşidib uzaqdan-uzağa həmin ağaca da, meyvəsinə də aşiq olur, sadiq adamlarından birini möcüzəli ağacı tapıb meyvəsindən gətirmək üçün Hind ölkəsinə göndərir; o biçarə də gedir, Hind torpağını illərlə qarış-qarış gəzir, şəhərləri, obaları, dağları, adaları dolaşır, amma həyat ağacını tapa bilmir. Şeyx Şəhabəddin işığı artıq öləziyən gözlərini çadırın girəcəyindəki boşluğa dikib sözünü tamamladı, dedi, övladım, mən həyat ağacı axtarmaq fikrində deyiləm, günlərin birində ömür möhlətimin yetişəcəyini bilirəm, amma Allaha ağır getsə də, indi ölmək istəmirəm, çünki O-nun bu dünyadakı vasitəçisi olan Xəlifənin buyuruğunu yerinə yetirməliyəm. Dedim, kimsə möhlətinin nə vaxt yetişəcəyini bilməz, qismətimizdə varsa, könlümüzdən keçirdiyimiz istəklər yerinə yetəcək. Şeyx-ül-şüyuh mənim könlümdən hansı arzu keçdiyini soruşmadı, bunu onsuz da bilirdi...

***

...Şama iki aya yetişdik, dərhal da xəbər tutduq ki, Məlik Əşrəf hələ Əhlət səfərindən qayıtmayıb, o vaxtacan gözləmək lazım gələcək. Əşrəfin bacısı Dayfa Xatunla, onun azyaşlı oğlu Məlik Əzizlə görüşməyin bir faydası yoxudu, obuna görə də Şeyx-ül-şüyuhun fikrincə, karvansarayda yerləşib dincəlmək, yolun yorğunluğunu canımızdan çıxarmaq, yad şəhərə alışmaq lazım gəlirdi. Şəhərin ən yaxşı müsafirxanası sayılan Sərraclar karvansarayı Əməvi məscidinin üzbəüz səmtindəydi, geniş hücrələri, yaşıl ağacların kölgə saldığı həyəti vardı. Hücrələr bəs eləmədiyindən, Şeyx Şəhabəddin mühafizləri də, mehtərləri də karvansaray girişinə yaxın yerdə qurulan çadırlara yerləşdirilməsini məsləhət görmüşdü; xidmətçilər, aşpazlar, xəlifənin adamları hücrələrdə iki-iki yerləşdilər, ayrıca hücrə Nurəddin Məsudun, bir də mənim qismətimə düşdü, buna görə də şükür-səna elədim, çünki özümü tanıyandan bəri valideynlərimdən başqa bir kəslə eyni hücrədə yatmamışdım.

Biz yetişəndə Şamda vəziyyət o qədər dolaşığıydı ki, heç şeytan da baş açmazdı. Sultan Səlahəddin cəmi otuz iliydi, dünyasını dəyişmişdi, amma qurduğu ölkənin yerində yel vurub yengələr oynayırdı, neçə-neçə əmirlik, məliklik, atabəylik qurulmuşdu, o atabəylər, əmirlər, məliklər də, az qala, bir-birinin qanına yerikləyirdilər. Şam Məlik Əşrəfin bacısı Dayfa Xatuna düşmüşdü, o da əri öldüyünə görə, hələ azyaşlı oğlunu taxtda oturtmuşdu, amma bu Məlik Əşrəfdən başqa o biri qardaşalarının heç ürəyincə deyildi. Əşrəf Əhlətə gedəndə əmisi Məlik Adilin oğlu Məlik Müəzzəm İsa Şama doğru üz tutmuş, onun Əhləti ram eləyib geri qayıtdığını eşidəndəsə şəhərə girməyə cəsarəti çatmamışdı. İndi də fürsət gözləyirdi, Əşrəfin bir uğursuzluğa dücar olması Şamın qapılarını üzünə açacaqdı. Qardaşların arasında Məlik Əşrəf daha güclü, daha etibarlıydı, neçə illəriydi, Sultan Səlahəddindən qalan torpaqların bir hissəsini birləşdirməyə, itaət altına almağa, Əlaəddin Keyqubaddan qo-

rumağa çalışırdı. Xəlifə bu səbəbdən onunla dil tapmağa, gündoğandan gələn bəlaya qarşı birgə dirənməyə ümid bəsləyirdi. Əlbəttə, Əşrəf o təhlükənin miqyasını dərk eləsəydi, təklifdən boyun qaçırmayacaq, əl-ayağa düşəcəkdi. Şeyx Şəhabəddin də buna ümid bəsləyirdi: o selin qarşısında başqa cür tab gətirmək olmazdı.

Beləcə, Xangah-ül-Xatuniyyədə ümid, həm də müəmma içində iki ay gözlədik. O iki ayda Şeyx Şəhabəddin şəhərə çıxmaqdan ehtiyat elədi, ya da, görünür, xəlifənin adamları belə məsləhət bilmişdilər: Dər-üs-Salamdan elçi gəlməsi Məlik Müəzzəm İsanın qulağına çatsaydı, Nasirin Əşrəflə birləşmək istəyini anlayar, şəhərə soxulmasa da, adamlarını əlaltından göndərib fəsad törədə bilərdi. Amma Nurəddin Məsudla məni o şəhərdə tanımırdılar, böyük məqamımız-filan da yoxudu, bu səbəbdən, şəhəri dolaşmaq, məscidlərə, mədrəsələrə, dərgahlara, çarşı-bazara baş çəkməkdə heç bir maneəylə qarşılaşmazdıq. Hər gün ikindi namazından sonra Şeyxi xəbərdar eləyib çıxır, şəhərin tikililərinə baş çəkir, mədrəsə tələbəsi qılığında adamlarla söhbətə girişirdik. Sultan Səlahəddinin vaxtında Şam qalasının və Ələviyyə məscidinin təmir olunmasını Xangah-ül-Xatuniyyənin sonralar Mədrəsət-üş-Şatiyyənin, Müəzzəmiyyə mədrəsəsinin, Həmbəli məscidinin tikilməsini, Sültan-ül-Uləma Bəhaəddin Vələdin Məkkədən qayıdanda bir müddət bu şəhərdə qalıb, elə Xangah-ül-Xatuniyyədə iqamət elədiyini, deyilənə görə, Mühyiddin əl-Ərəbinin bu yaxınlarda təşrif gətirəcəyini o gəzintilərimiz sayəsində öyrəndim. Hər dəfə Şam küçələrindəki kitabfürüş dükanlarına böyük həvəslə girən Nurəddin Məsuda ürəyim yanırdı: fikrimcə, insan başqalarının fikriylə, nə yazıb söylədiyiylə, uzaqbaşı, qırx yaşınacan məşğul ola bilər, qırx yaşından sonra adamlara söyləməyə öz sözü yoxdusa, deməli, uzağa gedə bilməz.

Axşamlar yatmazdan əvvəl, adətən, Şeyx Şəhabəddinin hücrəsinə gedir, bir qədər söhbət eləyir, bu səfərlə bağlı ən-

dişələrini aradan qaldırmağa çalışırdıq, daha doğrusu, Nurəddin Məsud canfəşanlıq göstərir, mənsə susurdum, fikrimcə, alın yazısını dəyişməyin əbəsliyini Şeyx başa düşürdü: qismətimizdə Məlik Əşrəflə görüşüb, onu yola gətirmək vardısa, bu, Allahın köməyiylə olacaqdı, yoxdusa, ağlagəlməz səbəblər üzündən ümid bəslənən birlik baş tutmayacaqdı. Xəlifənin adamları o günlərdə lap ayıq-sayıq olmuşdular, Şeyxin hücrəsini bir an belə gözdən qoymur, dörd mühafiz daim qapısı ağzında keşik çəkir, özü də bayıra ancaq şər qarışanda çıxır, xanəgahın həyətində gəzişir, uzaqlaşmağa cürət eləmirdi. Bu tədbirlər sayəsində Şeyx Şahabəddinin şəhərə gəlişi Məlik Əşrəf qayıdanacan faş olmadı. Nurəddin Məsudu deyə bilmərəm, arada mən qazandım, iki ay ərzində Şamı yetərincə olmasa da, xeyli tanıdım, cürbəcür qövmlərin, dillərin, dinlərin hakim olduğu bu şəhərdə bir müddət yaşamağı xoşbəxtlik sayırdım.

Axır ki, Məlik Əşrəfin Şama yaxınlaşdığını, sonra şəhərə varid olub sarayda yerləşdiyini eşitdik. Səhəri gün Nurəddin Məsud Bağdaddan elçi heyəti gəldiyini xəbər vermək üçün Xəlifənin adamlarından biriylə saraya getdi. Şeyx Şəhabəddin Əşrəfin çox sevinəcəyini, onu dərhal hüzuruna dəvət eləyəcəyini düşünürdü, amma gözlədiyi kimi olmadı, saraydan dəvət gəlməsi iki həftə çəkdi, görünür, Məlik Əşrəfin başı həddən artıq qarışığıydı, hətta Xəlifə elçisinə sevinəcək vəziyyətdə də deyildi. Hüzura çağrılanda da Şeyx Şəhabəddin gətirdiyi hədiyyələri götürüb Nurəddin Məsudla getdi. Sonra Nurəddinin söylədiyinə görə, sarayın qapısından girən kimi, qəlbinə bədbinlik çöküb, Məlik Əşrəfin hüzurunda da o hissdən yaxa qurtara bilməyib. Əlbəttə, məlik adı-sanı məğribdən məşriqəcən yayılmış Şeyx Şəhabəddin Sührəvərdi kimi bir elçinin gəlişindən şad olduğunu bildirib, hədiyyələrin əvəzini qaytarıb, amma Xəlifənin gündoğandan gələn Xarəzmşah bəlasına qarşı birləşmək təklifi müqabilində öz bəlalarını sadalayıb: qardaşlarını, əmioğullarını bir yerə yığa bilmir; Məlik Müəzzəm İsa Şama girmək üçün

fürsət gözləyir; sultan Səlahəddinin vəfatından sonra yenidən baş qaldıran xaçlılar hər an şəhərin qapılarını kəsdirə bilərlər; Əhlət səfərində qoşunun nizamı pozulub, əsgərləri yorğundu, hər şeyi yoluna qoymaq, ən azı, altı ay çəkəcək. Sonra, əlbəttə, Xəlifənin qəzəbinə tuş gəlməmək üçün qapını tamam örtməyib, deyib, ümidvardı, yaxın müddətdə bunları yoluna qoyub Bağdada elçisini göndərəcək. Söylədiklərini də cavab məktubunda Xəlifəyə çatdıracağını vəd eləmiş, onların şərəfinə ziyafət vermişdi.

Saraydan qayıdan Şeyx Şəhabəddini çox bədbin halətdə gördüm, sanki Xarəzmşahın qoşunları gəlib Bağdadın qapılarına yetişmişdi, Məlik Əşrəfin bu sözlərini gözləyirdi ki, şəhərə girsin. Əlbəttə, əliboş dönməsi Xəlifənin xoşuna gəlməyəcəkdi: Atabəy Özbəyin aqibəti bəlliydi, onu Xarəzmşahın tapdağından kimsə qurtara bilməzdi; Əlaəddin Keykubad ətrafındakı bəyliklərlə, xaçlı təhlükəsiylə üz-üzəydi, həm də, yəqin, Xarəzmşahın yolu üstündə güclü Bağdad xilafətinin olduğunu düşünürdü. Amma tatar xaqanından yenilgi almış Cəlaləddin Muhammədin hiddəti qarşısında Xəlifə Nasirin təkbaşına duruş gətirə bilməyəcəyini də dərk eləməliydi: Səltənəti-Hinddə yaralarını sarıyıb özünə gəlmiş, xeyli güclənmiş Xarəzmşah yönünü bu tərəfə çevirsəydi, qabağını nə xilafətin qoşunu nə də cavlakilər saxlaya bilərdi. Xəlifənin cavab məktubunu gözlədiyimiz günlər ərzində Şeyx Şəhabəddin elə hey bu barədə danışdı, fikrincə, belə bir xəbərlə dönməyi Xəlifənin onsuz da son vaxtlar pis olan səhhətinə ağır zərbə vuracaqdı. Onun dərd-ələmlə dolu söhbətlərinə qulaq asa-asa beynimdə niyyətim formalaşdı: belə bir vaxtda mənim Bağdada, lap elə Təbrizə qayıtmağım kiməsə fayda verməzdi, Bağdadda qalıb Şeyx Şəhabəddinin müridi olmaq, gözümü onun yerinə dikmək, Xəlifənin qulluğunda durmaq fikrində deyildim; Təbrizə qayıtsam, ya dərgahda mürid, ya da mədrəsədə müdərris ola, bir Allah bəndəsiylə evlənib ailə yiyəsinə çevrilə, ya da dilimin ucbatından Xarəzmşahın qəzə-

binə tuş gələ bilərdim, bu səbəbdən, Şamda qalıb *öz yolumla* getmək, *O*-na çatmaq üçün *Eşq*i seçmək məndən ötrü yeganə məqbul qərar idi.

Niyyətimi əvvəlcə Nurəddin Məsuda söylədim, üstəlik, dönə-dönə tapşırdım ki, ağzından qaçırmasın, Xəlifənin adamları eşitsəydilər, ola bilsin, qalmağıma mane olmaq üşün tədbir görərdilər. Şeyx Şəhabəddinə də yalnız Məlik Əşrəfin cavab məktubu gələndən sonra, lap yoladüşmə ərəfəsində xəbər verəcəkdim ki, dilə tutmağa macal tapmasın. Fikrimcə, Şeyx məni fikrimdən daşındırmağa cəhd göstərməyəcəkdi: müridlik, dərgah şeyxliyi, müdərrislik üçün yaramadığımı, günlərin birində *öz yolumla* çıxıb gedəcəyimi, *O*-na yetmək üçün bütün əzablardan keçəcəyimi bilirdi. Hələ Bağdaddakı söhbətlərinin birində demişdi, övladım, sənin ruhunda parəndəlik var, canındakı bu od-alovla bir yerdə duruş gətirə bilməyəcəksən, *O*-na çatanacan elə hey ordan-ora uçacaqsan. İndi uçuşuma mane olacaq bir səbəb qalmamış, vaxtım-vədəm yetişmişdi: Peyğəmbərimizə necə qırx yaşında peyğəmbərlik verilmişdisə, mənə də *Aşiqlik mərtəbəsi* əta olunmuşdu, *Öz Eşqimin yoluna* düşüb *O*-nun məsləhət bildiyi yerəcən gedəcəkdim.

Az qala, altı ay sürən səfərimizin son günündə bunu Şeyx Şəhabəddinə söyləyəndə zərrə qədər də olsun, təəccüblənmədi, yalnız kədərli-kədərli gülümsədi, nuru azalmış gözlərini üzümdən çəkmədən xeyli susdu, sonra dedi, burda qalacağın ürəyimə dammışdı, həm də səni Bağdaddan elə Şamda pərvazlandırmaq məqsədiylə gətirmişəm, Şamda da qalmayacağını, *İlahinin nuruna* qovuşmaq üçün yollara düşəcəyini bilirəm; dedi, Əbu Muhammməd əl-Cəririyə görə, imanın bizi zənginləşdirən xəzinələri var, ruhani yolla gedən kəs üç zahiri, üç də daxili xəzinəyə çatmaq üçün səy göstərməlidi: daxili xəzinələr dürüst olmaq qabiliyyəti, nəfsinə hakimlik eləyib dünya malından əl çəkmək, alçaqkönüllülük, bir də çəkişmələrdən qaçmaqla etiraz bildirmək arasında tarazlıq qurmaqdı; dedi, səndə bu xəzinənin üçü var,

dördüncü tam deyil, bu səbəbdən, başın çox bəlalar çəkəcək; dedi, zahiri xəzinələrsə *Uca Eşqi* tapmaq, öz çatışmazlıqlarını görəcək qədər ağıllı olmaq, həyatda baş verən hər şeyi sezmək, bir də sənə verilənlər üçün şükür eləməkdi, bu xəzinənin də üçünə sahibsən, dördüncüyə çatmağın üçün zaman lazımdı; dedi, artıq sənin Şeyx axtaran vaxtın deyil, çünki şeyxlərlə fikir çarpışmasında üz-üzə gəlmək məqamındasan, bir müddət sonra da o məqama yetişəcəksən ki, qabındakını kimsələrə çatdırmaq səndən ötrü ölüm-qalım məsələsinə çevriləcək, həmin dosta rast gələndə *O*-na yetdiyini güman eləyəcəksən; dedi, bir vaxt Bağdada qayıtmalı olsan, yenə dərgahımızı öz ocağın bil. Sonra məni bağrına basdı, dedi, di, Allah amanında, dualarım həmişə səninlə olacaq.

Şeyx Şəhabəddin əlini üç dəfə çiynimə vurdu, mən də nə qədər özümü zorladımsa, o əli tutub öpə bilmədim. Axtardığımı onda da tapa bilməmişdim, bu nə mənim günahımıydı, nə də inciməyə haqqım vardı, *O* belə istəmişdi: mən Şamda qalmalı, şübhəsiz, burda da duruş gətirə bilməyib məmləkətlər dolaşmalı, ruhumun bütövlüyünə qovuşmaq üçün durub-dincəlməməliydim. Şeyx Şəhabəddin Xəlifənin adamlarına mədrəsədə oxumaq üçün qaldığımı, dərsimi tamamlayandan sonra qayıdacağımı söyləmişdi, buna görə də ayrılığımıza xüsusi diqqət yetirmədilər. Nurəddin Məsudla vidalaşmağımız da mənim üçün gözlənilməz həqiqəti açdı: zavallı burda qalmağımdan çox məmnun olmuş, hətta bir qədər rahatlanmışdı. Yəqin, artıq qocalmış Şeyxin məni öz məqamı üçün yetişdirdiyini, ondan sonra dərgahın vəlisi, bəlkə də Şeyx-ül-şüyuh olacağımı düşünürmüş, fikrincə, indi yolundakı maneə aradan qalxmışdı, Şeyx Şəhabəddin, şübhəsiz, sədaqətini, canfəşanlığını nəzərə alıb öz məqamına onu məsləhət görəcəkdi. Beynimdən keçirdim ki, nurəddinkimilər sərçəyə oxşayırlar: heç vaxt uzaqlara uçmur, doğulduqları yerlərin soyuğuna, istisinə mətanətlə dözürlər...

***

...Şeyx Şəhabəddin heyətini günçıxan səmtdəki darvazayacan ötürdüm, qəfilə gözdən itənəcən arxasınca baxdım, beləcə, bu böyük, hələ də doğmalaşa, nədənsə qəlbimdə hələ dərk eləyə bilmədiyim şəhərdə tək-tənha qaldım. Burda olduğum aylar ərzində cəmi iki nəfərlə ünsiyyətəoxşar məhrəmliyimiz yaranmışdı: biri Mədrəsət-üş-Şamiyyənin müdərrisi Zübeyr əl-Cibaliydi, Şeyx Şəhabəddinin ad-sanını eşidib ziyarətə gəlmiş, onda da Şeyxin hüzurunda xeyli söhbətimiz olmuş, hətta insanın fəzilətləriylə bağlı bəzi düşüncələri ürəyimə yatmışdı, sonra da iki dəfə mədərəsədəki hücrəsində baş-başa qalmışdıq. Amma Zübeyr də *mən axtaran Dost* deyildi, alışmaq, od tutub yanmaq əvəzinə korun-korun yanmağa üstünlük verir, nizamlı həyatına qasırğa kimi soxulacaq şeylərdən qorxurdu. Digəri də Şam sarayının dəftərdarı Nemətəddin Kəşaniydi, könül adamı olmasa da, bir çox hikmətlərdən xəbərdarıydı, vaxtilə Şeyx Övhədəddin Kirmanidən dərs alımış, Bağdada, sonra Şama dərsini tamamlamağa gəlmiş, amma təsadüf üzündən sarayda məqama çatıb Dayfa Xatunun gözünə girmiş, evlənib arvad-uşaq, malmülk yiyəsi olmuşdu. Mürşidi Şeyx Övhədəddinin dərgahında olduğumu biləndə mənə yaxınlıq göstərməyə başlamış, arabir xangaha da baş çəkmişdi.

Nə Zübeyr əl-Cibalinin mədrəsədə, nə də Nemətəddin Kəşaninin öz mülkündə yerləşmək təklifini qəbul elədim, xangahın bir hücrəsi bəsimiydi. O hücrədə özgələr köhnə həsir, sınıq piyalə, başımın altına qoyduğum kərpicdən başqa bir şey görə bilməzdilər, amma mənim bütün məhrəmliyim vardı. Qapısını iki-üç girvənkəlik qıfılla bağlayıb bir tikə çörəyimi yeyir, bir piyalə suyumu içir, zikr eləyir, kürəyimi divara söykəyib belbağı hörür, əlimin əməyini bazarda satıb güzəranımı təmin eləyirdim. Yeni tanışlarım mədrəsələrdə müdərrislik, saraylarda katiblik eləyib yaxşı yaşaya, yüksək məqam sahibi ola biləcəyim halda, elə hey itiyi olan kimi vurnuxmağımdan, nəyisə,

yaxud kimisə axtardığımdan təəccüblənirdilər. Gün ərzində quştək burdan-ora, ordan-bura uçur, dinclik tapmır, hələ heç *kimi axtardığımı* da unaya bilmirdim, Məlik Adilin ögey qardaşı Fələkəddin Süleymanın hürr köləsi Məngüfərş əl-Fələkinin tikdirdiyi Rükniyyə mədrəsəsinə, Rəbiə Xatunun şəhər kənarında saldırdığı Səlahəddin bağınacan gedib çıxmışdım. Artıq müdərris də, dəftərdar da məni Şəmsi-Parəndə çağırmağa başlamışdılar, şübhəsiz, axtardığımı tapanacan, könül rahatlığına qovuşanacan uçacaqdım. Şamın küçələrini tapdaq eləyə-eləyə *O Dostun* harda olduğunu unamağa can atır, Şamda yaşamadığını, amma *O*-nun istəyiylə gec-tez gəlib bu şəhərə çıxağacağını bilirdim, sanki bunu mənə qeybdən gələn bir səs pıçıldamışdı...

Beləcə vurnuxduğum aylar ərzində təkcə Şamda yox, Bağdadda da, Təbrizdə də elə vaqeələr baş verdi ki, aləmin nizamı əməlli-başlı dəyişdi. Əvvəla, xaçlılar bir daha Şama girmək istədilər, amma Məlik Əşrəf düşmənini geri oturda bildi, özüsə az sonra qəfildən xəstələndi. Fürsəti əldən buraxmayan Məlik Adil qardaşı oğlunun qoşunlarını sıxışdırıb çıxardı, Şam taxtında oturdu. Onun vaxtında da məqamını qoruyan Nemətəddin Kəşani bir neçə ay sonra hökmdarın hüzuruna Təbrizdən gəlmiş elçilərdən eşitdiyi vaqeələri çatdırdı: Sultan Cəlaləddin İraqi-Əcəmdə əmin-amanlıq yaradandan, Xəlifənin qoşununu darmadağın eləyib Bağdad ətrafında on iki gün qalandan sonra ögey qardaşı Qütbəddinin, vəziri Burağın özbaşınalıqlarından xəbər tutub, üstəlik, Marağa əhli də vəzir Şərəf əl-Mülkə namə göndərib, onları zülmdən qurtarmağı təvəqqe eləyiblər, Xarəzmşah da qoşununun yönünü quzeyə çevirib, çətinlik çəkmədən Marağanı ələ keçirib, şəhərdə bir neçə gün qalandan sonra qazı Mücirəddin Ömər əl-Xarəzmini Diyari-Rum və Diyari-Şama göndərib ki, Azərbaycan məmləkətini gürcülərin və tatarların cəngindən alıb fəth elədiyini xəbər versin; Xarəzmşah sonra Uçana gedib, orda olanda, deyilənə görə, Təbriz əhlindən kimsə hüzuruna çıxıb, onu dər-üs-səltənəni ələ keçirməklə bağlı

dilə tutub, təklif Sultanın ağlına batıb, Təbrizin üzərinə gedib, şəhəri hər tərəfdən mühasirəyə alıb; Müzəffərəddin Özbək də həmişə kimi, Təbrizi məlikə zövcəsinin - Sultan Toğrulun qızı Mehrican Xatunun - ümidinə qoyub, üzünü qüzeyə tutub, əvvəlcə Gəncəyə qaçıb, sonra Nəqşivana qayıdıb, Əlincə qalasına sığınıb; Cəlaləddin elçi göndərib, şəhər əhlinə təklif eləyib ki, təslim olsunlar, yoxsa itaətə gəlməyənləri cəzalandıracaq. O vaxt şəhər rəisi olan Nizaməddin ət-Tuğrayi təhdidlərə boyun əyməyib, döyüşə hazırlaşmağa başlayıb.

Deyilənə görə, o vaxt padşah divan mustovfisi Kəmaləddini Sultan Cəlaləddinin yanına göndərib, taxtını qorumaq müqabilində qazının xütbəsində sultanının mübarək adının çəkilməsinə, ismiylə pul zərb edilməsinə, xəzinəsinə tezliklə külli miqdarda dinar verilməsinə razı olduğunu bildiribmiş, amma hökmdar o binəvanın vədlərinə heç diqqət belə göstərməyibmiş; deyirdilər, onda Şərafəddin ət-Tuğrayinin öz puluna tikdirdiyi mədrəsənin müdərrisi İzzəddin əl-Qəzvini də mustovfinin yanındaymış, Cəlaləddinin ölkəni zəbt eləməkdə israrlı olduğunu başa düşüb, Şərəf əl-Mülklə təkbətək söhbətə fürsət tapıb, dər-üs-səltənənin ələ keçiriləcəyi tədqirdə Şərafəddin ət-Tuğrayinin bacısı əri qazı Qəvaməddin əl-Cidarinin məqamını istəyibmiş; deyirdilər, Mehrican Xatun da Cəlaləddinin daş yağdıran mancanaqlar, qala divarlarına dırmaşmaq üçün nərdivanlar tədarük elədiyini, şəhərin ətrafındakı ağacları kəsdirdiyini görüb, yeddi günlük məsləhət-məşvərətdən sonra itaət eləmək qərarına gəlib, çoxlu hədiyyələrlə onun pişvazına çıxıb, Cəlaləddinin yar-yaraşığına, igidliyinə, alicənablığına vurulub, nökər-naibinin, qul-qaravaşının, Xoy şəhərinin salamat qalması, mühafizə altında ora göndərilməsi müqabilində dər-üs-səltənəni təslim eləməyə razı olub, Sultansa təkliflə razılaşıb, Mehrican Xatunu etibarlı adamları Tacəddin Qılıncın və Bədrəddin Hilalın mühafizəsiylə Xoya yola salıb, sonra şəhərin başbilənləriin hüzuruna gəlmələrini buyurub; deyirdilər, Təbriz qazisi, şəhər rəisi, bir neçə

əyan ordugaha gedib, amma Şəmsəddin ət-Tuğrayi onların arasında yoxmuş, halbuki, təvazökarlığı üzündən heç vaxt büruzə verməsə də, əslində, hər şey ondan asılıymış, təbrizlilər ancaq Şəmsəddinin sözünü eşidirlərmiş, Sultan da bunu bildiyindən, onun gəlməməsinin səbəbini soruşub, cavabında ət-Tuğrayinin tərki-dünya olduğunu, taxt-tac, mövqe-nəsəblə maraqlanmadığını bildiriblər, Sultan da onun qardaşı oğlu Nizaməddin ət-Tuğrayini şəhər rəisi təyin eləyib, təbəələrin ehtiyaclarını ödəmək vəzifəsini ona tapşırıb.

Deyirdilər, Cəlaləddin Təbrizdə taxta çıxıb, Azərbaycanın, Arranın, Şirvanın və Gürcüstanın sahibi olub. Görənlərin söylədiklərinə görə, Xarəzmşah bəstəboy və qarayanızdı, həm türk, həm də fars dilini bilir, şirlər şiri, cəsurlar cəsuru, üstəlik, təvazökar, həlim insandı, yaxşı tərbiyə görüb, Şeyx Nəcməddin Kübradan dərs alıb, onun dərgahına bağlı olan mömin Allah bəndəsidi. Şahidlərin şəhadətinə görə, Sultan heç vaxt qızışıb özündən çıxmır, kobud sözlər işlətmir, az danışan, ciddi zatdı, bərkdən gülmür, yalnız gülümsəyir, ədalətlidi, təbəələrinin güzəranını yaxşılaşdırmağı sevir, lakin zəmanənin gərdişi üzündən bəzən zorakılığa da əl atır. Deyilənə görə, möhürünə "Yardım yalnız Allahdandı!" kəlamını həkk etdirmiş hökmdarın Yer üzündə qorxub-çəkindiyi bir kimsənin olmaması Cəlaləddinin şücaətinin əlamətiydi. Deyirdilər, Taynal Noyon onun şücaətinin şahidi olmuş, demişdi, sən harda olursan ol, qurtulacaqsan, cənabi-Haqq səni qalib eləyəcək, çünki əsl kişi, əsl hökmdarsan, o da cavab vermişdi ki, Mən Allahın əmriylə cihad yolunda çarpışmaq vəzifəsi almışam, müzəffər, ya da məğlub eləmək *O*-nun işidi; deyirdilər, Cəlaləddinin qarşısında düşmənlərinin keçirdikləri qorxu və ehtiram hissi o qədər güclüdü ki, tək qalanda belə, heç kəsin onu təqib eləməyə cəsarəti çatmır; deyirdilər, Sultan hakimlərdən birinə yazmışdı ki, Allahın mərhəməti və inayətiylə millətimiz bir, dinimiz birdi, dostluq eləmək üçün

ən münasib adamsa səninlə eyni dildə danışan, eyni dinə etiqad bəsləyən şəxsdi.

Deyilənə görə, Sultan Cəlaləddin Təbrizə girəndən sonra ilk cümə günü məscidə gedib, xətib xütbədə İslam aləminə və Xəlifəyə dua oxuyanda ayağa qalxıb, əllərini göyə açıb, dua bitənəcən də oturmayıb; üzünü xalqa tutub, deyib, yəqin, Marağada gördüyüm işləri eşitmisiniz, sizinlə də ədalətlə davranıb şəhərinizi daha da gözəlləşdirəcəyəm, Təbriz əhli də eyş-işrətdən başı açılmayan Özbəkdən onun daha məqbul olduğu qənaətinə gəlib; deyirdilər, cümə namazının ardınca şəhəri gəzməyə çıxan Sultan qara camaatın səfalət içində olduğunu görəndə çox təsirlənib, vəzirinə əmr verib ki, ərzaq anbarlarında nə varsa, əhaliyə paylasın, bununla da ürəyi soyumayıb, xüsusi fərman yazdırıb, dil, din, irq fərqi qoymadan hamının üç il vergidən azad olunmasını əmr eləyib; deyirdilər, Sultana iqamətgah kimi Müzəffərəddin Özbəyin sandıq-sandıq xərc çəkib inşa etdirdiyi dəbdəbəli sarayı məsləhət görüblər, amma fateh hökmdar sarayı tələm-tələsik gəzib, əməlli-başlı darıxıb, deyib bura tənbəllərin yeridi, sonra da özünü bayıra atıb. Fikirləşdim, şəriət deyir, səninki sənin, mənimki mənim, təriqət deyir, səninki sənin, mənimki də sənin, mərifət deyir, nə mənimki var, nə səninki, həqiqət deyir, nə sən varsan, nə də mən, deməli, Sultan Cəlaləddin artıq mərifət mərtəbəsinə çatıb, maddi şeylərin fani olduğunu dərk eləyib.

Deyirdilər, Şirazdan çıxdığı məqamda əmir İzzəddin Sökməzin türk əsilli köləsi Qılınc İsfahandan qaçıb sultana sığınıbmış, hökmdarla kölə arasında yaranan könül bağı o dərəcədə möhkəmlənibmiş ki, Cəlaləddinin boğazına Qılıncsız bir tikə təam getmirmiş, amma Təbirzə bir neçə mənzil qalmış kölə xəstələnir, təbib, dava-dərman kömək eləmir; deyirdilər, bəxtikəm Cəlaləddin bu itkidən elə dərd-qəm dəryasına qərq olur ki, az qala, ağlını belə itirir, bütün Təbriz əhlini qulun ölü namazına yığışmasını əmr eləyir, həftələrlə yemək yemir, gəti-

rilən nemətlərdən Qılınca da verilməsini buyurur, üstəlik, onun özünə gəlməsini, təskinlik tapmasını istəyən, qulunun axirətə köçdüyünü qəbul eləməli olduğunu söyləyən sədaqətli, həm də qorxmaz təbəəsini qılıncla şaqqalayır; deyirdilər, saray xidmətçilərsə gündə üç dəfə sinilər dolusu yeməklərlə Qılıncın boş otağına girib-çıxır, sevgili quluna yemək apardıqlarını Sultana xəbər verirlərmiş. Deyilənə görə, hökmdar kimi ölən, dəbdəbəylə torpağa verilən Qul Qılınc Cəlaləddinə məğlub ölkəsindən sultan kimi çıxdığını, amma bir daha da geri dönə bilməyəcəyini xatırladırmış. Dərk elədim ki, Sultan bir insan haqqında asanlıqla qənaət sahibi olub tez atan yox, çətinliklə qənaət sahibi olub, o qənaətindən heç vəchlə geri çəkilməyən zatlardandı...

Şübhəsiz, bu vaqeəni eşidəndə əvvəlcə valideynlərim, sonra Şeyx Əbu Bəkr Səlləbaf, Zeynəddin Kəlusi, Dəli Nəzər, bir də, əlbət ku, sərraf qızı Mehmanə Xatun düşdü. Təbrizdə döyüş, qırğın-filan baş verməsəydi, validimin da güzəranına bəs eləyəcək qazancı olduğundan valideynlərimin başına bir qəza gəldiyini ağlıma belə gətirmirdim. Şeyx Əbu Bəkrin də öz əcəliylə Haqqa qovuşduğunu hələ kimsədən eşitməmişdim, deməli, sağ idi, çünki dövlət işlərinə qarışmazdı, həmişə padşahdan uzaq dolanmışdı, Xarəzmşahla da bir işi olmayacaqdı; Zeynəddin Kəlusi, yəqin, indi Şeyxin sağ əli, yeganə dayağı, ümid yeriydi, vaxtı çatanda da xirqə geyinib dərgahın şeyxi olacaqdı; Dəli Nəzər indi haralardaydı, havası alınmışdımı, yoxsa o havanın axarına düşüb hələ gedirdimi – o tale qardaşım sarıdan çox narahat idim; məni də havalı saydılar, amma adımı dəlilər cərgəsinə yazmadılar, görünür, Şeyx Əbu Bəkrin dərgahına gedib-gəlməyim o xatadan qurtarmağıma vəsilə olmuşdu; sərrafın qızı Mehmanə Xatun da, yəqin, nizamlı ömür sürən bir Allah bəndəsinə ərə gedib, uşaq doğub, heç mənim barəmdə düşünüb-eləmədən öz həyatını yaşayır; əslində, məni xatırlaması üçün bir əsas da yoxudu: söz verib, söz almamışdım, əlim əlinə dəyməmişdi, iki-üç dəfə küçədə qarşılaşıb ötəri baxışmışdıq, vəssalam, beynimdəki hava, könülümdəki *Eşq* məni götürüb

başqa səmtə aparmışdı, o da, güman ki, qismətinə qail olub bəxtinə çıxana yox deməmişdi. Uzaqbaşı, ömrümüzün müəyyən çağlarında baxışdığımızı xatırlayacaq, bir qədər kövrələcək, sonrasa unudub alışdığımız həyatı yaşamağa davam eləyəcəkdik.

Bağdaddan gələn xəbərisə Zübeyr əl-Cibali nağıl eləmişdi: axır vaxtlar Xəlifə Nasir Lidinillahın vəziyyəti lap ağırlaşıb, korluq həddinə çatıbmış, üstəlik, Xəlifənin iflic olduğunu, qanlı ishala tutulduğunu, dəfələrlə idrar yolundan əməliyyat edildiyini, amma halının yaxşılığa doğru dəyişmədiyini söyləyirlərmiş; biz yola rəvan olandan sonra kölələri Rəşiq və Bəst xilafət işlərini öz əllərinə almaq istəyib, Xəlifənin adından fətvalar verməyə başlayıblar. Vəzir əl-Qummi də bundan duyuq düşüb, onun halı barədə səhih təsbit almaq ücün gavur təbib Əminəddövlə bin Tomaya gizli tapşırıq verib; Əminəddövlə Xəlifəni müayinə eləyib, axırının yaxınlaşdığını təsdiqləyəndə vəzir məsələnin üstü açılmasın deyə, kölələri aradan götürmək barədə əmr verib, sonra ürəyi soyumayıb, gavur təbibin də öldürülməsini buyurub; amma Əminəddövlə haqlı çıxıb, qırx altı il, on ay, iyirmi səkkiz gün taxtda oturan Xəlifə ramazan ayının son gecəsi canını Allaha tapşırıb; onun matəm namazını oğlu Zahir qılıb, elə o da Biəmrullah nisbəsiylə xilafət taxtında oturub; yeni Xəlifə validi Nasirin nəşini sarayın bağında basdırıb, Rüsafə qəbirstanlığında türbə tikilməsini, başa çatandan sonra nəşin köçürülməsini əmr eləyib. Əlbəttə, bütün bunları eşidəndə əvvəlcə Şeyx Şəhabəddin barədə düşündüm: Xəlifə Zahir Biəmrullah da ona validi kimi hörmət eləyəcək, Şeyx-ül-şüyuh məqamında saxlayacaqdımı? Kiməsə, harasa bağlı olmağın bu yanı var: dayağı laxlayan adam özünü boşluqda sayır, yalnız Allaha güvənən kəslərdə belə bir qorxu yoxdu...

***

Bu sarsıntılara alışmağım bir neçə ay çəkdi, tələşımsa ağlasığmaz həddə çatdı: geri dönən yollarım kəsilmişdi, irəlidə göz-

lədiyimdən hələ səs-soraq, kiçicik işarə belə yoxudu. O günlərin birində bazar başındakı aşxanaya girdim ki, şorba içim. Buyruqçu şorbanı gətirdi, amma qaşığı əlimə götürməyə macal tapmadım, sol yanımda oturan bir pəzəvəng başımın üstünü kəsdirdi, dedi, bura bax, dərviş, sənmi sanballı adamsan, mənmi? Başımı qaldırmadan dedim, elə sualından hər şey gün kimi aydındı. Pəzəvəng partladı, vay səni, dedi, nə qaba adamsanmış, qarşında mülkün sultanı dayanıb, sənsə sualıma düz-əməlli cavab vermək istəmirsən. Dedim, yaxşı, bir halda ki, qaşınırsan, onda cavab verim: bil, agah ol, mənim kimi adi dərviş sənintək yüz minlərlə padşahdan dəyərlidi, çünki, sultanlıq eləyən kəs imanın ləzzətini bilməz; dedim, sən öz təkəbbürünün eşşəyisən, belində ağır yük gəzdirirsən, vəsvəsənin, qorxunun, cəhalətin əsirisən, şeytan sənin noxtanı hara çəkir, ora da gedirsən, dərvişlərsə nəfslərini cilalamağı, lazımi səmtə yönəltməyi bacarırlar; dedim, belə çıxır, mənim eşşəyim sənin belinə minir, iştahan üzündə abır, qəlbində rahatlıq, biləyində qüvvə qoymayıb, gözlərini qan örtüb, qulağın kar olub, beynin pozulub, şeytanın dostuna çevrilibsən, amma fikir eləmə, Allah bir gün sizi ayıracaq, cəhənnəmə vasil olacaqsan. Sonra sakitcə şorbamı içməyə başladım. Pəzəvəng dodaqlarını çeynəyə-çeynəyə bir müddət durdu, amma görünür, sərt cavabımdan qorxub daha dillənmədi, dönüb uzaqlaşdı.

O sıxıntılı günlərdə Zübeyrin yardımıyla başımı qatdım, yolu Təbrizdən keçmiş Şamda yaşamış, hələ də sağ olan üləmlalarla maraqlanmağa başladım. Bağdadda Əbül-Bərəkat əl-Buxari, Əbu Nəsr ət-Tusidən dərs almış, sonra Şamda qazı olmuş, xeyli müddət əvvəl axirət evinə köçmüş Əbülfəzl əl-Cənzəvinin izinə düşdüm, Mosulda və Əhlətdə müdərrislik eləmiş, indi Xangah-ül-Xatuniyyədə məskən salmış Əbdülxahq əl-Arrani, şəriəti tacirliklə uzlaşdıran Əz-Zəki əl-Beyləqanini axtarıb tapdım. Belə tələtümlü günlərimin birində də Zübeyr Mühyiddin əl-Ərəbinin Şama gəldiyini, Kaşiyan dağının ətəyin-

də, Salihiyyə məhəlləsində, Bəni Zəngilərin mülkündə iqamət elədiyini söylədi. Bir vaxt onun söylədiklərindən, bir də Bağdadda oxuduğum risaləsindən Əndəlüsdə doğulduğunu, ilahidən gələn işarəylə inzivaya çəkildiyini, iç aləmindəki xəzinələri üzə çıxarmağa çalışdığını, üzünə mərifət qapıları açılandan sonra İbn Rüşdün sınağından keçdiyini bilirdim. Adlı-sanlı uləmalardan dərs aldığını, hədisçilərdən hədisləri öyrəndiyini, çox ölkələr gəzdiyini, Bağdadda, Mosulda bir neçə il yaşadığını, ibadətlərin sirləri haqqında əsər yazdığını da Şeyx Şəhabəddindən eşitmiş, "Təkəzzülət-ül-Mövsiliyyə"nin sürətini oxumuşdum. Sonra çıxıb Malatyaya, ordan Konyaya getmiş, indi yaxşı münasibətdə də olduğu Məlik Adilin dəvətiylə Şama gəlmişdi. Onun iki dəfə evli olduğunu da Şeyx Şəhabəddin söyləmişdi, Zübeyrsə üçüncü dəfə Malatyada dostu Məcidəddin İshaqın dul zövcəsiylə nigaha girdiyini, indisə Şam qazisi Zəvavinin qızıyla evlənməyə hazırlaşdığı barədə söhbət getdiyini söylədi. Şübhəsiz, Şeyx Mühyiddinlə söhbətləşmək məndən ötrü Allahın lütfü olardı, amma o da *axtardığım kəs* deyildi.

Beləcə, iki ilim yarıyuxu, yarıbayğınlıq, yarıehtizaz içində keçdi, kimi gözlədiyimi, o kəsin hardan peyda olacağını bilmədən qıvrıla-qıvrıla, çırpına-çırpına, vurnuxa-vurnuxa yaşadım. Səhər namazından sonra bir tikə çörəyimi yeyib, suyumu içib özümü hücrədən bayıra atır, parəndə kimi Şamın küçələrində dolaşır, çarşı-bazar qələbəliyinin içində itib-batır, günorta namazımı qarşıma çıxan məscidlərin birində qılır, yolumun üstündəki aşxanalarda bir kasa şorba içir, təsadüfün rastlaşdırdığı adamlarla kəlmə kəsir, ikindi namazından sonrasa gözlərdən iraq bir yerdə oturub uzun-uzadı fikrə dalır, şər qarışanda hücrəmə qayıdıb axşam namazımı qılır, çörək yeyib həsirimin üstündə oturur, kürəyimi divara söykəyib belbağı hörür, yorulanda başımı kərpicin üstünə qoyub yatır, səksəkəli, dolaşıq yuxular görürdüm. Halımdakı dəyişikliyi Zübeyr də, Nemətəddin Kəşani də duymuşdu, elə hey kimi gözlədiyimi soruşurdular. On-

lara içimdə aşıb-daşan ümmanın daha öz qabına sığışmadığını, başqa bir ümmana can atdığını, onu doldurub coşdurmaq istədiyini necə başa sala bilərdim axı? Zübeyir çətinliklə də olsa, dərk eləyərdi, hal əhliydi, amma dünyaya təpədən-dırnağacan bağlı olan Nemətəddinə könül dünyamda baş verənləri izah eləyə bilməzdim. Arada bəzi vaqeələr olmasaydı, intizarın şiddətindən ağlımı, az qala, itirərdim.

Günlərin birində xangahda Bağdad tərəfdən gələn bir karvan əyləndiyindən xəbər tutub Şeyx-ül-şüyuhdan soraq almaq ümidiylə yolçuları görmək istədim və... Şeyx Övhədəddin Kirmanini qarşımda görəndə heyrətimdən donub qaldım, Allahın böyüklüyünə dönə-dönə şükür elədim. Görünür, Şeyx də az təəccüblənməmişdi, nitqi tutulmuş kimi, nuru lap öləzimiş gözlərini üzümə dikib xeyli baxdı, özünə gələndən sonra dedi, Allahın birliyinə şükür, övladım, Şamda qaldığını Şeyx Şəhabəddindən eşitmiş, nə danım, Bağdada qayıtmadığına, burda elm-irfan yolu tutduğuna sevinmişdim; dedi, cənnətməkan Nasirdən sonra orda elə vaqeələr baş verdi ki, gəlmiş olsaydın, bəlkə, sənə də xətər toxunardı. Sonra Zahir Biəmrullahın xilafət taxtında cəmi bir il əyləşdiyini, sirli ölümündən sonra yerinə onun oğlu Mənsur Müstənsirin keçdiyini, Şeyx-ül-şüyuhun uca mövqeyinin zəiflədiyini, üstəlik, tatar xanının Qaraqorumda ölümündən sonra oğlu Ögedeyin xan seçildiyini, tezliklə nəzərlərini xilafət torpaqlarına da, Xarəzmşahın fəth elədiyi diyarlara da çevirəcəyini söylədi. İndi yeni Xəlifə onu Məlik Əşrəfin hüzuruna göndərmişdi ki, günçıxandan gələn qaçılmaz bəlanın qarşısında birgə dayanmaq üçün dilə tutsun. Şeyh Övhədəddin Şamdan da Konyaya – Səlcuqlu sultanının hüzuruna gedəcək, Xəlifə Mənsurun təklifini Sultan Əlaəddin Keyqubada da çatdıracaqdı. Düzü, Şeyx Övhədəddinin bu səfərindən nə nəticə hasil olacağını bilmirdim. Sultan Səlahəddinin ölümündən sonra on altı oğlu, bir qızının *(o da əmisi oğluna ərə getmişdi)* qardaşı Məlik Adil və övladlarıyla başlamış taxt savaşı bitib-tükənmək

bilmirdi, hələ də acı bağırsaq kimi uzanıb gedirdi. İndi də Məlik Müəzzəm Məlik Əşrəfi dilə tutub Şama dəvət eləmiş, sarayında ev dustağına çevirmişdi, neçə aydan bəriydi ki, çıxıb Urfaya qayıtmasına qonaqpərvərlik qılığında izin vermirdi. Yəqin, Xəlifə Müstənsir Məlik Əşrəfin Şamda olduğunu bildiyinə görə, elçisini bura göndərmişdi. Şübhəsiz, Məlik Müəzzəm əsl niyyətini üzə vurmayacaq, onun Xəlifə elçisiylə görüşməsinə mane olmayacaq, amma görüşdən öz mənfəəti üçün yaralanmaq fürsətini də əldən verməyəcəkdi.

Şeyx Övhədəddin və heyətinin Şamda üç ay qalması həyatıma rəng gətirdi, nagəhan intizarla bağlı vəsvəsələrimi ötəri də olsa, sakitləşdirdi. Görmədiyim yeddi il ərzində daha da qocalmış, yerindən iki nəfərin köməyiylə qalxan Şeyx Övhədəddin Şam səfərini ömrünün son dünyəvi işi sayırdı. Gündə iki dəfə – ikindi və axşam namazından sonra – Şeyxin hüzuruna gedir, dizinin dibində oturur, Bağdadda, Ərbildə, Təbrizdə baş verənlərlə bağlı danışdıqlarını dinləyirdim. Əlbəttə, suallarımın çoxu Təbrizlə bağlıydı. Şeyx Övhədəddin dediyinə görə, Xarəzmşah başı eyş-işrətdən, ovdan, şeir məclislərindən ayılmayan Atabəy Özbəyi Əlincə qalasında yox, Gəncə qalasında mühasirəyə almışdı. Atabəyin zövcəsi onun qorxaqlığından hədsiz rəncidə olub, üstəlik, Sultanın qarşısını almağın mümkünsüzlüyünü anlayıb, qazını hüzuruna çağırmış, nikahını geri oxutmuş, sonra da artıq dul olduğunu, onunla evlənmək istədiyini, həm də üzüyünü çatdırmaq üçün elçi göndərmişdi. Onda Sultan Cəlaləddin ətrafdakı şəhərlərdə itaət yaradandan sonra vəziri Şərəf-ül-Mülk ləqəbli Fəxrəddin Əli ibn Əbülqasım Cəndini Təbrizdə qoyub Tiflis səfərinə çıxmış, vəzir də vəd elədiyi qazılıq məqamını ala bilməyən İzzəddin əl-Qəzvinini köməyiylə Şəmsəddin ət-Tüğrayini gözdən salmaq üçün Sultanın yoxluğunu fürsət bilib Təbrizi ələ keçirmək qərarına gəldiyi barədə şayiə yayıbmış.

Cəbə Noyon və Subutay Bahadırın Təbriz qapılarına dirəndikləri vaxtdan tanıdığım Şəmsəddin ət-Tüğrayinin niyyəti,

guya, Sultan Cəlaləddin quzeydə gürcüləri itaət altına aldığı vaxtda qalabəyi və digər başbilənlərlə əlbir olub gizlicə Atabəy Özbəyi Təbrizə çağırmaq, xarəzmliləri sıxışdırıb şəhərdən çıxarmaq imiş, bu xəbəri eşidən Sultan geri dönəndə gürcü qoşunları arxasından zərbə endirəcək, beləcə, yenildiyini görəndə çıxıb gündoğana gedəcəkdi. Xarəzmşahın şəhərdə yetərincə gözü-qulağı olduğundan, bu şayiə dərhal ona çatdırılmışdı, Sultan da məqsədini gizli saxlayıb qoşunun başçılığını Qiyasəddin Pirşaha tapşırmış, özü kiçik dəstəylə Təbrizə dönmüş, vəzirin saxta şahidlərinin sözüylə şaiyədə adı hallananları tutdurub, hamısını, o cümlədən, Nizaməddini camaatın gözləri qarşısında asdırmış, Şərafəddinisə zindana saldırmış, boynuna yüz min dinar cərimə qoymuş, bacısı əri Qəvaməddin əl-Cidarinin qazı məqamını İzzəddin əl-Qəzviniyə vermişdi. Əl-Qəzvini, guya, canıyananlığını çatdırmaq üçün hətta zindanda ət-Tuğrayiyə də baş çəkibmiş. Əvvəlcə adamları onun cəccadəsini dustağın yaxınlığında səriblərmiş ki, qazı üstündə oturub danışsın, amma Şəmsəddin cəccadəni götürüb hücrənin bir küncünə atıb, heç qazının üzünə də baxmayıb. Əl-Qəzvini ona qardaşı oğlunun edamıyla bağlı başsağlığı verib, deyib, rəhmətliyin meyiti küçədə yiyəsiz qalmışdı, mən kəfənləyib torpağa tapşırdım. Ət-Tuğrayi cavab verib ki, mənə onun ölümünü xəbər verdiyinə yanmıram, onsuz da hər bir Allah bəndəsi o yolu gedəcək, amma mərhumu sənin kəfənləməyin nəslimiz üçün böyük rüsvayçılıqdı.

Şərəf əl-Mülk düşmənini qazı İzzəddin əl-Qəzvininin köməyiylə Marağada sultanın divanına çıxarmaq, edamına izin almaq üçün çox çalışıb, amma onun hiyləsini duyan divan naibi duyuq düşüb, məsum ət-Tuğrayini gecəykən ata mindirib, aradan çıxarıb. Şərafəddin özünü Ərbilə, sonra Bağdada çatdırıb, ordan da Məkkəyə üz tutub. Ət-Tuğrayi Kəbədə Xarəzmşah əmir-ül-Həccinin gözləri qabağında Quranı üç dəfə öpüb alnına qoyub, Şərəf ül-Mülkün yaydığı şayiələrdə heç bir günahı olmadığına and içib. Bu xəbər Sultanın qulağına çatıb, üstəlik,

əmir-ül-Həcc qayıdanda təsdiqləyib, hökmdar ət-Tuğrayinin Təbriz camaatı arasında dərin hörmətini qazandığını, müdrik, mömin, saf insan, bənzəri, tayı-bərabəri olmayan şəxs olduğunu, paxıl, iftiraçı adamların şər-böhtanlarına inandığını, onunla çox ədalətsiz davrandığını anlayıb, hərəkətlərinə görə peşman olub, sabiq rəisi məsləhətləşdiyi, hörmətlə yanaşdığı şəxslər cərgəsinə qatmaq qərarına gəlib, Şərafəddinə ismarış göndərib ki, Təbrizə qayıtsın, kimsə ona toxunmayacaq. O günlərdə də Qazı Mücirəddin Şam hökmdarı Məlik Müəzzəmin elçisiylə birgə dər-üs-səltənəyə dönübmüş, Şərəf əl-Mülkün hüzurunda İzzəddin əl-Qəzvininin məqamına yaraşmayan hərəkətlərindən söz salıb, vəzir də hiddətlənib, qazını qovub, üstəlik, məqamına da son qoyub. Bir müddət sonra Şərafəddin ət-Tuğrayi Təbrizə qayıdanda Sultan onun mal-mülkünü geri qaytarıb, həm də şəhər rəisliyini etibar eləyib.

Sultan ramazan bayramını dər-üs-səltənədə keçirib, sarayın həyətində minbər düzəldiribmiş, ölkənin hər tərəfindən adbaad dəvət edilən otuzacan üləmanın hər biri bir gün o minbərə çıxıb vəəz verirmiş, hökmdar da divan otağında əyləşib həqiqəti söyləyənlərə təşəkkür eləyir, onu həddən artıq tərifləyənlərəsə iradını bildirirmiş. Qazı Kəmaləddin ət-Təbrizi və qazı Sədrəddin əl-Marağayi Sultanın təqdirini almış üləmalardan sayılırmış, hökmdar onları ən hörmətli adam kimi qəbul eləyir, taxtda öz yanında oturdurmuş. Ramazan bayramı başa çatan kimi, əmir Urxanı Gəncəyə göndərib ki, Cəlaləddin əl-Qumidən Beyləqan, Şəmkür, Şəmşəddilin idarəsini qəbul eləsin. Şərəf əl-Mülk də öz adamını onun yanına qoşub, bir müddət sonra aralarında nifaq başlayıb, o nifaq da Urxanla vəzir arasındakı ədavətəcən böyüyüb. Şərəf əl-Mülk ancaq yaxın əlaqədə olduğu batinilər sayəsində əmirin qəzəbindən qurtula bilib. Həmin vaxt da Təbrizə Mehrican Xatunun araçıları gəlib, məlikənin ərindən boşandığını, Sultanla izdivaca girmək niyyətində olduğunu çatdırıblar. Cəlaləddin boşanmanın şərən təsdiqlənəcəyi təqdirdə təklifi qə-

bul eləyəcəyini bildirib, qazılıq məqamını itirmiş fəqih İzzəddin əl-Qəzvini də bunu təsdiqləndiyinə şəhadət gətirib. Sonra Cəlaləddin Mehrican Xatunla evlənib *(toyun Xoyda olduğunu sultanın Xoy, Səlmas və Ürmiyəni zövcəsinə iqta elədiyini söyləyənlər də varmış),* Atabəyin vəziri Rəbibəddinin söylədiyinə görə, padşah bunu eşidəndə məlikənin sultanla öz istəyilə, yoxsa zorla evləndiyini soruşub, vəzirin cavabını eşidəndə dərhal yatağa yıxılıb, qızdırması qalxıb, hətta loğman saydığı sevimli həkimi Cəlaləddin Təbib də imdadına çata bilmiəyib, bir neçə gündən sonra da canını Allaha tapşırıb.

Sultan Cəlaləddin Təbrizdə taxta çıxandan sonra fəthini elan eləmək məqsədiylə Diyari-Rum Sultanı Əlaəddin Keyqubada, Cəzirə, Əhlət və Məyyafarikün hakimi Məlik Əşrəf Musaya, Şam, Qüds və Təbəriyyə hakimi Məlik Müəzzəm İsaya, Misir hökmdarı Məlik Kamil Muhammədə məktub göndərmiş, gürcü torpaqlarına hücum eləyəcəyini bildirmişdi. Əlaəddin Keyqubad onun elçisi Mücirəddin Tahiri hörmət-izzətlə qəbul eləmiş, üstəlik, dostluq münasibətlərini möhkəmləndirmək üçün Sultan Cəlaləddinin baldızı, Fars hakimi atabəy Əbu Bəkr ibn Sədin bacısını oğlu Qiyasəddinlə adaxlamaq təklifinə razılıq vermişdi. Məcidəddin Tuğrayinin qələmə aldığı, Diyari-Rum sultanı razı qaldığını ifadə eləyən cavab məktubunu Təbrizə elçisi Səlahəddinlə göndərmişdi. Elə həmin vaxt da Şamdan Məlik Müəzzəm İsanın eyni ruhlu məktubunu qazı-ül-qüdat Nəcməddin Xəlil Təbrizə çatdırmış, az sonra Ərbil hakimi Müzəffərəddin Göybörü də razılaşmaya qoşulduğunu bildirmişdi. Şeyx Övhədəddinin söylədiyinə görə, bu uzaq səfərə çıxmağının bir səbəbi Xəlifənin istəyini yerinə yetirmək olsa da, başqa səbəbi də vardı: ömrünün son çağında həbibi Mühyiddin əl-Ərəbinin Şamda iqamət elədiyindən xəbər tutub onunla görüşmək, zəkasından bəhrələnmək, söhbətlərindən feyz almaq arzusuna üstün gələ bilməyibmiş. Məliklə görüşüb xəlifənin məktubunu çatdırandan sonra ilk işi Şeyx Mühyiddini ziyarət eləmək olacaqdı.

Onun gəlişindən xəbər tutduğumu, hətta Zübeyir əl-Cibalinin israrlarına baxmayaraq, günü günə satıb hüzuruna çıxmadığımı Şeyxə söyləmədim, bunun səbəbisə heç özümə də aydın deyildi. Ola bilsin, Şeyx Əbu Bəkrdə, onun özündə və Şeyx Şəhabəddində tapa bilmədiyimi Şeyx Mühyiddində də görməyib ümidsizliyə qapılacağımdan qorxdum. Çünki biri gəlir, səni sən eləyir, biri də gəlir, səni səndən eləyir. Uləmalar cərgəsində mərtəbələri uca olan bu şeyxlər həyatıma gəlib məni mən eləmişdilər, indi də *məni məndən eləyəcək bir kəsin* intizarındaydım, qismətimdə vardısa, İlahi onu yoluma çıxaracaqdı.

Şeyx Övhədəddin Məlik Əşrəfin hüzurundan xeyli naümid qayıtdı. Dediyinə görə, məlik onu çox böyük hörmət-izzətlə qəbul eləmiş, xələt vermiş, amma Ögedeyə qarşı çiyin-çiyinə döyüşmək məsələsində qəti bir söz söyləməmişdi. Şeyxin dediyinə görə, hər kəs bəladan az itkiylə qurtulacağına, başlıca zərbənin qonşusuna dəyəcəyinə ümid bəsləyirdi, məğlubiyyətlərin başlıca səbəbi də buydu. Vaxtında Xəlifə, Səlcuqlu sultanı, Şam məliyi, Mosul və Ərbil əmirləri dil tapıb Xarəzmşahın qarşısına çıxsaydılar, indi bu vəziyyətlə üzləşməzdilər. Artıq kimsə Sultan Cəlaləddinin yaxın günlərin birində yönünü Bağdada, Mosula, Ərbilə, Şama, Konyaya çevirməyəcəyini əminliklə söyləyə bilməzdi. Üstəlik, tatar xaqanın taxtında əyləşən Ögedey də nə vaxtsa Xarəzmşahın üzərinə gələcək, onu aradan götürəndən sonra da Bağdad xilafətini, Şam məlikliyini, Səlcuqlu sultanlığını öz torpaqlarına qatmaq istəyəcəkdi. Məlik Əşrəf yaxın müddətdə Xəlifəyə yerli-yataqlı cavab məktubu yazdıracağını vəd eləmiş, elçi heyətinin bütün ehtiyaclarını ödəməyi tapşırmış, Şeyx Övhədəddinin əndişəsini xoş münasibətiylə aradan qaldırmağa çalışmışdı. Xəlifə Nasirlə Məlik Əşrəf arasındakı xoş münasibətin bu məsələdə nə qədər ciddi rol oynadığını söyləmək çətiniydi.

Şeyx Övhədəddin həbibi Şeyx Mühyiddinlə iki dəfə – bir dəfə Mosulda, bir dəfə də Konyada – görüşmüşdü. Onda əl-Ərəbi Məkkə ziyarətini başa vurmuş, üstəlik, Hərameyn

əmiri Yunis bin Yusifin qızıyla evlənmiş, sonra Bağdada, ordan da Mosula üz tutmuş, hənəfi uləmalarıyla söhbətlər eləmişdi. Elə ilk dəfə də bin Əli bin Abdullah bin Caminin Mukladakı mülkündə görüşmüşdülər. Şeyx Mühyiddinin dediyinə görə, bin Camiyə xirqəni Həzrəti-Xızır geydiribmiş, o da ilahidən gələn işarəylə həmin xirqəni ona miras verib. Malatyalı Məcidəddin İshaq, hərranlı Əbül-Qənamlıyla birgə Mosulda qaldığı bir il müddətində o hikmət sahibləri çox söhbətlər eləyiblər. Qiyasəddin Keyqubad Konyada ikinci dəfə taxta çıxanda köhnə dostu Məcidəddin İshaqı yanına çağırıb, Şeyx Mühyiddin də onunla Konyaya gedib, sultan oğlunun xocalığını tapşırdığı Məcidəddini Malatyaya göndərəndə də həbibi bir müddət Konyada qalıb. İkinci görüşləri də o vaxt, xəlifə Nasir onu Sultan Qiyasəddinin hüzuruna yola salanda baş tutmuşdu. İndi Şeyx Mühyiddin Şama ömrünü hüzur içində başa vurmaq niyyətiylə gəlmiş, Bəni Zəngilərin zəngin mülkündə yerləşmiş, özündən xeyli cavan qadınla evlənib rahat yaşamağa başlamışdı. Şeyx Övhədəddin də, güman ki, həyatının son uzaq səfərinə çıxmışdı, Ərbilə qayıdandan sonra dünyəvi işləri müridlərinə həvalə eləyib inzivaya çəkiləcək, ömrünü həmd-sənayla, məhrəm xatirələrlə başa vuracaqdı.

Əlbəttə, Şeyx Övhədəddin Bəni Zəngilərin mülkünə, Şeyx Mühyiddinin hüzuruna məni də apardı, az qala, otuz ildən bəri həbib olan iki uləmanın kövrək görüşlərinin, uzun-uzadı söhbətlərinin şahidi oldum, yeri gələndə fikrimi gizlətmədim, sonra Şeyx Övhədəddin Konyaya yola düşənəcən iki dəfə də görüşlərinə qatıldım, mülkün bağında qocafəndi gəzə-gəzə kamil insan, vəhdəti-vücud, ilahi Eşq barədə söylədiklərini eşitdim, üstəlik, Şeyx Övhədəddindən sonra da Şeyx Mühyiddinin ziyarətinə daha iki dəfə getdim, amma özümün də baş açа bilmədiyim bir duyğu, elə bil, aramıza daşdan hasar çəkirdi. Nəfsin toxluğu, əxlaqi fazilətlər, İlahi eşq barədə belə gözəl sözlər söyləyən, üstəlik, məharətlə qələmə alan zatın maddiyyat aləminə bu qə-

dər bağlılığını sinirə bilmirdim. Bəni Zəngilərin axar-baxarlı mülkü, yanında cavan övrəti, qulluğunda buyruqçuları, daim hüzuruna gəlməyə hazır olan uləmalar, qarşısında öz saraylarının qapılarını taybatay açan hökmdarlar – bütün bunlar *İlahi Eşq*lə bağlı düşüncələrimə uyğun gəlmirdi. Bəlkə, elə bu səbəbdən, şübhəsiz, qarşılaşdığım şeyxlərin ən böyüklərindən biri olan Şeyx Muhammməd Mühyiddin əl-Ərəbiyə də dəruni bağlılıq duymadım.

Şeyx Övhədəddin Xarəzmşah Cəlaləddinin gündoğandan gələn bəlanın qarşısını ala biləcəyindən əndişəliydi, bu əndişəsini də vəzirinin özünü hökmü-fərma sayıb Sultanın səltənətini sarsıtmaq niyyətinə düşməsiylə bağlayırdı. Sultan İraqa yollananda Şərəf-ül-Mülk də onunla gedibmiş, Həmədan hüdudlarına çatanda Təbrizdən çapar gəlir ki, bəs, mərhum padşah Özbəyin məmlükləri – Kiçik ayamalı Nəsirəddin Ağquş, davatdar Seyfəddin Sunqurca, Səfiəddin Beklik əs-Sədidi gizlicə görüşüb güclərini birləşdirmək barədə qərara gəlib, sonra da dər-üs-səltənə ətrafında çadır qurublar, niyyətləri də Özbəyin oğlu Məlik Xamuşu Kotur qalasının zindanından qurtarmaq, digər hakimləri də dəstələrinə qatmaq, Sultana qarşı çıxmaqdı, bundan ötrü əlverişli məqam gözləyirlər. Sultan dərhal vəzirə qoşunun bir qismilə geri qayıtmağı əmr eləmiş, Şərəf-ül Mülk də atabəy tərəfdarlarının get-gedə gücləndiklərini, ətraf obalara basqın elədiklərini görüb hacib Nəsirəddin Kuştemirə hücum vaxtının yetişdiyini söyləmiş, o da Allahın köməyiylə Sultanın düşmənlərini qaçmağa məcbur eləmiş, Ağquşu, Sunqurcanı, Bekliyi əsir götürüb Təbrizə, vəzirin hüzuruna gətirmişdi. Şərəf-ül Mülk onda Sultanın tikdirdiyi eyvanda oturubmuş, qiyamçılara göstərdiyi inayətlərə görə ağır tənələr vurub, Bekliyə Gəncə xəzinəsindən qiymətli əlbisələr, dörd min dinar dəyərində kəmər bağışladığını xatırladıb, sonra qazıları, şeyxləri çağırtdırıb, Ağquşla Bekliyi meydandakı dar ağacından asdırıb, ölkəni araqarışdıranlardan qutrarıb, Sunqurcanısa, əksinə, əfv

eləyib, məqamını böyüdüb, görünür, o asiylə bağlı başqa niyyəti varmış. Üstəlik, vəzir onu məmlüklərlə əlaqədə suçlayan sabiq qazi Qəvaməddin əl-Cidarini də həbs etdirib, zindana saldırıbmış.

Sultan o vaxt Xoyla birgə Səlmasa və Urmiyəni Mehrican Xatuna iqta verəndə Şərəf-ül Mülk öz naibi əz-Zeyn əz-Bəhərzini məlikənin vəziri məqamına göndərmiş, hər ay onun mülklərindən alınacaq vergini toplayıb xəzinəyə çatdırmağı əmr eləmişdi. Naib də Mehrican Xatunun əl-qolunu bağlayıbmış, özünü onun mülklərinin ağası sayır, hər işə qarışır, etiraz görəndə də vəzirə çatdırıb aralarında narazılıq yaradırmış, nəticədə də Şərəf-ül Mülk Mehrican Xatuna əməlli-başlı nifrət bəsləməyə başlayıbmış, onu Sultanın nəzərindən salmaq üçün fürsət gözləyirmiş. Hətta məktub göndərib məlikəni təhdid eləyib, bununla da aradakı uçurumu böyüdüb, onu son zərbəni vurmaq üçün əsas verən hərəkətə sövq eləmək istəyibmiş. Vəzir Xoya üz tutanda məlikə üz-üzə gəlməmək üçün Tala qalasına çəkilibmiş, Şərəf-ül Mülk də onun sarayına girib gizlinlərdəki və xəzinədəki dəyərli nə vardısa, ələ keçirib, ayüzlü kənizlərini öz hərəminə qatıb, daha da qorxutmaq üçün Tala qalasını mühasirəyə alıbmış. Məlikə hörmətli seyid Sədrəddin əl-Ələvini onun hüzuruna göndərib bağışlanmasını təvəqqe eləyibmiş, amma vəzir elçiyə yaxşı münasibət göstərsə də, Mehrican Xatunun xahişlərindən əməlli-başlı vəcdə gəlibmiş. Biçarə məlikə ikinci dəfə vəzirin hüzuruna Tacəddin Sahibi göndərib, bu dəfə də vəzirin cəngindən xilas ola bilməyəcəyini görəndəsə, Məlik Əşrəf Musanın Əhlətdəki naibi Hacib Əliyə məktub yollayıb, imdad diləyib, hökmündə olan mülkləri də, qalaları da ona təslim eləyəcəyinə söz veribmiş. Hacib Əli onun çağırışına səs verib, qoşunla yola çıxıb, Şərəf-ül Mülk bundan xəbər tutanda dabanına tüpürüb qaçmalı olub, beləcə, Xoy, Səlmas, Urmiyə düşmən əlinə keçibmiş.

Amma Şərəf-ül Mülk öz əməlindən, görünür, heç də xəcalət çəkmirmiş, çünki Mehrican Xatunun da, onun mülklərinin də

əldən çıxmasını ürəyinə salmayıb, ətraf qalaları fəth eləməyə, əmirləri dizə gətirməyə, az qala, öz səltənətini qurmağa başlayıbmış. Atabəylərin böyük hacibi, xarəzmlilər gələndən sonra dərviş libasına girib Nüsrətəddin Muhammməd ibn Piştəginin mülkində gizlənən Nəsirəddin Muhammədi də, onun xəzinəsini də, Qəhram qalasını da ələ keçirib, beləcə, bir çox yerlərə sahib olandan sonra növbə Məlik Xamuşun zövcəsi Sülafə Xatunun mülkü Ruindiz qalasına çatıbmış. Qalanın mühasirəsi uzananda Sülafə Xatun elçi göndərib, qalanı nikahdan sonra təslim eləmək şərtiylə vəzirin zövcəsi olamağa razılıq verib, Şərəf-ül Mülk də bu şərtə razılaşıb, elçilər gedib-gəlib, amma nikah kəsdirməyə macal tapmayıblarmış, Sultan İraqdan qayıdıb, vaqeədən xəbər tutanda vəzirinə gözdağı vermək üçün Sülafə Xatunla özü evlənəcəyini bildiribmiş. Vəzir, əlbət ki, sultanın istəyinə boyun əymək məcburiyyətində qalıb, amma rüsvayi-cahan olduğundan, ona kini daha da artıbmış. Hökmdar nikahdan sonra qalanın naibliyini öz xacəsi davatdar Sadəddinə tapşırıb İsfahan səfərinə yollanıbmış...

***

...Şeyx Övhədəddinlə niyə Konyaya, ordan da Ərbilə, Bağdada getməyib Şamda qaldım? Bu şəhərdə nə gözləyirdim, kimi gözləyirdim? Sonralar bu sualları özümə dönə-dönə verdim, cavab tapmağa çalışdım, amma cavab əvəzinə elə çəlpəşik duyğular burulğanına düşdüm ki, çıxılmazlıq girdabına yuvarlandığımı anladım. Nə dərsə, nə elmə möhtacdım, nə mürşid, nə mürid axtarırdım, İlahidən mənə agah olan məna elmini verməyə elə İlahinin də məsləhət gördüyü bəndəni arayırdım. Dedim ki, Şeyx Mühyiddin də axtardığım kəs deyildi, İbn Rəşiddən tutmuş Şeyx Övhədəddinəcən neçə-neçə hikmət sahibindən dərs almış, onların söhbətlərində bişmiş, özü də hikmət sahibi olmuşdu, amma dünya malına bu qədər bağlı olan kəs hansı mərtəbəyə çatır-çatsın, *atəş yoldaşım* sayıla bilmədi. Daha doğrusu, mən kamil insan, qüsursuz, tamam-kamal Muhammədi

həyat sürən bir əsabə kimi ləkəsiz, tərtəmiz din adamı axtarır, onu *könül atəşim*lə odlamağa can atırdım. Hamının əlindən yapışdığı, ayağına düşdüyü şeyxlərdə, mürşidlərdə bu cür həyat, bu cür əxlaq əlamətləri tapa bilməyəndə üz çevirib gedir, uzaqlaşırdım. Dünən anasının qarnından çıxanların *"Mən Haqqam"* demələrindən qeyzə gəlirdim. Filan qadının doğduğu adam necə *"Mən Haqqam"* deyə bilərdi? Belə şeyxlər Muhəmməd dininin quldurlarından, yolkəsənlərdən başqa bir kəslər deyillər...

Şeyx Övhədəddinlə dəbdəbəsiz-filansız vidalaşdıq, xeyli susub bir-birimizin gözünün içinə baxdıq, deyiləsi sözləri orda tapdıq. Onun işığı öləzimiş, daha da xırdalaşmış gözlərinin dibində yaşadığı ömürdən məmnunluq əvəzinə təəssüf izləri gördüm: Allahın ayırdığı möhləti yaşamışdı, bəlkə, bundan sonra da hələ neçə illər yaşayacaqdı, ailəsi vardı, övladı, nəvəsi vardı, adlı-sanlı şeyxlərdən dərs alımış, özü də şeyxlik məqamına çatmışdı, dərgahı, müridləri, əl öpənləri, yolunu gözləyənləri istənilən qədərdi, bununla belə, getdiyi yolda ali mərtəbəyə yetişə, *O*-na çata bilməmişdi; mənim iri, hələ işığını itirməmiş, atəşiylə qarşısındakını qovuran gözlərimin dibindəsə, yəqin, özünü hər şeydən, hər kəsdən məhrum eləyib *O*-na can atan Allah bəndəsini görmüşdü, o bəndə indiyəcən axtardığını tapa bilməmişdisə, hələ buna ümid bəsləyirdi, *İlahi Eşq*inin ardınca getmək üçün qarşısını alacaq manea yoxudu, yenə yollar yoracaq, yoxuşlar dırmanacaq, enişlər enəcək, nəhrlər, dəryalar keçəcək, o ümmana yetişmək üçün durub-dincəlməyəcəkdi. Yolun hara gedib çıxacağı barədə fikirləşmirdim, atacağım ilk addım haqqında düşünmüşdüm, ardı onsuz da öz-özünə gələcəkdi; dünya da bomboş deyildi, əlbət ki, axtardığımı hardasa tapacaqdım.

Şeyx Övhədəddinin heyətini Hələb yolunacan ötürüb ayrıldım, uzun-uzadı karvanın arxasınca baxdım, sonra qayıdıb özümü şəhərin küçələrinə atdım. Hara getdiyimi bilmədən, ətrafımdakı aləmə, yanımdan ötüb-keçən Allah bəndələrinə fikir vermədən döngələrdən dönür, enişləri enir, yoxuşları dırmaşır-

dım. Özümə gələndə Məqdisiyyə mədrəsəsinin yanına gedib çıxdığımı fərq elədim. Mədrəsənin üzbəüzündəki ağacın altında oturub könlümdəki tufanı sakitləşdirməyə çalışdım: *"Ya Rəbbim,* – öz-özümə dedim, – *məni öz vəlilərinə rast gətir, onlara yoldaş elə!"* Orda beləcə, zikr eləyə-eləyə axşamacan oturdum, sonra durub xangaha qayıtdım. O gecə də röyamda qeybdən səs eşitdim: *"Ey Şəms,* – dedilər, – *səni bir vəliylə yoldaş eləməyi buyurduq!"* Nəfəsim təngiyə-təngiyə o vəlinin harda olduğunu soruşdum, qeybdən həmin səs dedi: *"Həmin Vəli Diyari-Rum-dadı, vaxtı gələndə tapacaqsan!"* Bu nagəhan lütfdən sonra günlərlə sərxoş kimi gəzdim, yediyimi-içdiyimi bilmədim. Düz bir həftənin tamamında röyanı yenə gördüm, vəlinin kim olduğunu, hansı şəhərdə yaşadığını bir də soruşdum, tanış səs yenə dedi, *hələ vaxtı çatmayıb, hər şeyin öz zamanı var.* Ondan sonra onsuz da yarıbayğınlıq içində keçən həyatımın axarını tamam İlahinin ixtiyarına verdim. Arabir mənə baş çəkən biçarə Zübeyr əl-Cibali də, Nemətəddin Kəşani də halımdan bir şey anlaya bilmədilər, mənsə izah eləməyə cəhd göstərmədim, çünki anlatmaqda çətinlik çəkəcəkdim.

Nemətəddin Kəşani hər söhbətimizdə məmləkətimiz, Təbriz, Xarəzmşahın səltənəti barədə ağızdan-ağıza keçib qulağına çatanları danışırdı. Şərəf-ül Mülkün əməlləri, axır ki, Məlik Əşrəflə qarşıdurmalara rəvac vermişdi, Hacib Əli onun hərəkətlərindən rəncidə olub yeni səfərə çıxanda Hələb naibi Fəxrəddin bir vaxt Sultanın xidmətində olmuş, vəzirin günahı üzündən Şam məliyinin tərəfinə keçmiş Sürməri hakimi Hüsaməddinlə birgə vəzirin orudugahına basqın eləmiş, xəzinəsini ələ keçirmiş, Xoy naibi Nəsirəddin Buğa qaçıb aradan çıxmış, Şərəf-ül Mülk xilas olub özünü Təbrizə güclə çatdırmışdı. Hacib Əli Xoyu, Nəqşivanı, Mərəndi tutandan sonra dər-ül-mülkün üstünə getmişdi. Vəzir Arrana səpələnmiş qoşunlarını toplamaq üçün quzeyə üz tutmaq istəmişdi, amma Təbriz əhli Hacib Əlinin bundan xəbər tutanda şəhəri ələ keçirəcəyindən, Sultan da qa-

yıdanda qəzəblənib acığını camaatdan çıxacağından qorxmuş, atabəyin mömin, guşənişin ömür sürən sabiq vəziri Rəbibəddini onun yanına göndərib fikrindən daşındırmağa çalışmışdı. Hər dəfə də vəzir ərzaq çatışmazlığından şikayətlənəndə əhali olan-qalanından yığıb vemiş, Şərəf-ül Mülkü şəhərdən çıxmağa qoymamışdı. Beləcə, qış keçib, yaz gəlmiş, axır ki, Hacib Əli Təbriz ətrafından geri çəkilməli olmuşdu.

Elə həmin vaxtlarda da atabəy Özbəyin məmlükü Buğday Şamdan qaçıb Xoy tərəflərə getmişdi. O, tatarlar ilk dəfə Təbriz qapılarına dirənəndə şəhərdəki Xarəzm qoşununa divan tutduğuna görə, Sultanın ən çox nifrət bəslədiyi kəslərdəniydi, deyilənə görə, bir gündə dörd yüz nəfər xarəzmli qətlə yetirmiş, Cəlaələddin Təbrizə girəndən sonra qaçıb Məlik Əşrəfə sığınmış, indi məmləkətin parça-parça olduğunu görəndə də atabəylərə sadiq kəsləri birləşdirib əvvəlki düzəni qaytarmaq fikrinə düşmüşdü. Amma Hacib Əli onun Xoya yaxınlaşdığından xəbər tutanda təqib eləməyə başlamış, Buğday özünü Araz nəhrinə yetirib qarşı sahilə keçmiş, sonra hacibə demişdi, mən Məllik Əşrəfin məmlükü, onun mərhəmətinin qulu, xeyirxahlığının övladıyam, harda olsam, məliyin hökmündəyəm, bura da onun zəfərinə yardım eləmək niyyətilə gəlmişəm. Hacib ona inanıb təqibə son qoyandan sonra Buğday ətrafına həmfikirlər toplayıb niyyətini yerinə yetirməyə başlamış, o vilayətdəki hakimləri, qala rəislərini Məlik Xamuşa xidmətə, ona sadiq olacaqlarına and işməyə məcbur eləmiş, zavallını Kotur qalasının zindanından çıxarmaq üçün yollar axtarmış, axırda Nüsrətəddin Muhammədə üz tutmuşdu. Məmlükü yaxşı qəbul eləyən Məlik Nüsrətəddinsə əlaltından Şərəf-ül Mülkün yanına adam göndərib onun niyyətindən hali eləmiş, vəzir də Buğdayı itaətə gəlmək üçün dilə tutmağı tövsiyə eləmişdi.

Məmlük uzun müddət təklifdən boyun qaçırmış, amma Şərəf-ül Mülkün iqta torpaqlar vədindən, Qurana əl basıb and içməsindən sonra inadından dönmüş, Məlik Nüsrətəddinlə vəzi-

rin Araz qırağındakı çadırına gedib ondan qiymətli xələtlər, iqta kimi Urmiyə vilayətini almışdı, üstəlik, Şərəf-ül Mülk heç bir xarəzimlinin qisas fikrinə düşməyəcəyi barədə zəmanət vermiş, birgə Hacib Əliyə qarşı gedib Xoyu onun əlindən qurtarmışdı. Şərəf-ül Mülk Nəsirəddin Buğanı Xoya naib qoyub, Nəqşivanı dizə gətirib, ətraf vilayətləri tabe eləyib Uçana, Sultanın bibisi Şahbikə Xatunu, bir də yülükbaşı - divan başçısı Səncəkən xanı qarşılamağa getmişdi. Orda iki vaqeə baş vermişdi: biçarə yülükbaşı bir neçə gün sonra öz çadırında söhbət eləyə-eləyə canını tapşırmış, sonra da Sultan yeni zövcəsi, Fars məliki Atabəy Sədin qızıyla gəlib çıxmışdı: məliyin o biri qızı Urxan öldürülən gün Gəncədə dünyadan köçdüyünə görə, hökmdar Atabəy Sədlə qohumluq bağını o biri qızının sayəsində saxlamaq istəyibmiş nikah və toy mərasimi də İsfahanda olubmuş. Atabəy Özbəyin məmlükü İzzəddin Balban da elə həmin ərəfədə baş qaldırmışdı. Sultan Firuzabad qalasını mühasirəyə almış, bir neçə gün sonra da İzzəddin elçi göndərib aman diləyəndə bağışlamış, qayınatası Sədin məmlükü Hüsaməddin Təgintaşa Firuzabad valiliyini tapşırıb üzü quzeyə yol başlamışdı.

Onda Sultan xəzinəsini, hərəmini, var-yoxunu Muğandakı iqamətgahında qoymuş, arabalarsız-filansız Əhlət səmtə yollanmışdı: qəlbində Hacib Əliyə qarşı elə böyük nifrət yaranıbmış ki, onu bir göz qırpımında darmadağın eləmək istəyirmiş. Amma düşündüyü kimi olmayıb, Ərcişdə qara-çovğuna düşüb, Tuqtaba yönəlmək, orda on gün dayanmaq məcburiyyətində qalıb, qoşunu da ərzaq, üstəlik, alaf tapmaq üçün ətraf əyalətlərə göndəribmiş. Sultanın dəstələri hətta Ərzurumacan gedib çıxıb, qənimətlə geri dönübmüş. Həmin məqamda da qasid Diyari-Rum sultanı Əlaəddin Keyqubaddan məktub gətiribmiş. Sultan Əlaəddin ona əyyubilərə qarşı çıxmaqla bağlı təklif göndərib, razılıq versə, hər cür yardım göstərəcəyini boynuna götürübmüş. Diyari-Rum hökmdarı məktubuna imam Əlaəddinin naibi Siracəddin Müzəffərin İraqdan göndərdiyi məktubunu da

əlavə eləyibmiş: naib ona İsfahan yaxınlığında köməksiz qalan Cəlaləddinin öldürüldüyünü, qoşununun darmadağın edildiyini, qardaşı Qiyasəddinin qaçıb eynilə məlik Qızıl Arslan, yəni Məlik Xamuş Sultan Cəlaləddindən aman diləyən kimi, imam Əlaəddindən mədəd umduğunu, indi İraq torpaqlarında imam Əlaəddin Muhəmmədlə rəqabətə girəcək bir kəsin qalmadığını, bir çox bu cür şeylər yazıbmış. Əlbət ki, Sultan batini naibin səfsəfələrinə ciddi fikir verməyibmiş, çünki başlıca niyyəti Hacib Əlinin axırına çıxmaq imiş.

Nemətəddinin dediyinə görə, Məlik Əşrəflə Sultan Cəlaləddin arasında sular durulmaq bilmirdi. Xarəzmşah qoşunu Əhlətə basqın eləyib, Hacib Əlini öldürüb, Əhləti talayandan sonra qışın daha da sərtləşəcəyini nəzərə alıb, ağır qənimətlə Muğana dönübmüş, amma Sultan Cəlaləddin Xoyda dayanıb zövcəsinin yanında bir ay qalıb, elə onda da vəzirinin əməllərindən xəbər tutub, Mehrican Xatunun qorxusunun səbəbini öyrənibmiş. Məlikə Şərəf-ül Mülkün onun xəzinəsini, ayüzlü kənizlərini müsadirə elədiyini söyləyibmiş. Sultan qışı keçirmək üçün Təbrizə yollananda vəzirinin daha qəddar hərəkətlərindən hali olub, məmlük Nəsirəddin Buğanın, çaşnigir Seyfəddin Toğrulun bu yerlərdə at oynatdıqlarını öyrənibmiş, ona görə də dər-üssəltənəyə yetişən kimi, hər ikisini tutdurub, var-yoxlarını əllərindən alıb, özlərini də payi-piyada Muğana yola salmağı buyurubmuş. Hökmdar həddən arıq ağr vəziyyətə düşdüyünü görüb Təbrizin üçillik xəracdan azad edildiyi barədə fərman veribmiş. Ardı-arası kəsilməyən şikayətlər, məxfi xəbərlər Sultanın qəlbində vəzirinə qarşı nifrətin artmasına səbəb olubmuş, artıq onun Muğandan göndərdiyi məktublara belə cavab vermirmiş. Təbriz əhlinin atları belə alafla təmin eləyə bilmədiyini, öz anbarlarında taxıl qalmadığını görəndə də Şərəf-ül Mülkün anbarlarını açmağı, taxılı əhaliyə dağıtmağı buyurubmuş. Onda hamı qüdrətli vəzirin, axır ki, kitabının bağlandığını güman eləyirmiş, amma Sultan Muğana qayıdanda, vəzirlə üzbəüz gələndə

öz nifrətini büruzə verməyib, görünür, hələ ondan yaxa qurtarmaq vaxtının gəlib çatmadığını düşünübmüş. O, Şirvanşah Əfridun ibn Fəribürzü hörmət-izzətlə qəbul eləyəndən, gürçülərin ölkəsində əmin-amanlıq yaradandan sonra qoşunu da, arabaları da Əhlət tərəfə göndərib, özüsə artıq asi Qütbəddin Pirşahdan boşanmış Cəlaliyyə Xatunun onunla nikaha girmək arzusuyla bağlı məktubunu alıb Nəqşivana yollanıbmış, nikahdan sonra bir neçə gün onun sarayında qalıb, divanda Xorasan, İraq, Mazandaranla bağlı məsələləri yoluna qoyubmuş.

Həmin məqamda da Sultan Əlaəddin Keyqubadın məktubunu, üstəlik, hədiyyələrini gətirən Şəmsəddin Altunəba Xarəzmşahın ordugahına gedibmiş. Diyari-Rum hökmdarı Cəlaləddinə misilsiz hədiyyələr – iki yüz dəvəyə, yüz qatıra yüklənmiş səfər müxəlləfatı, taxt, mətbəx, çadır, sandıqlar dolusu qiymətli əlbisələr, qızıl qablar, qızıl dinar – göndəribmiş. Şəmsəddin Altunəba məktubu yetirəndən sonra ziyafətə qalmamış, xəstəliyini bəhanə eləyib çadırına gedibmiş. Şərəf-ül Mülk məktuba dərhal cavab verməməyi, Diyari-Rum heyətini bir ay ləngidib ziyafətlər, əyləncələrlə başını qatmağı məsləhət görübmüş. Axırda saraydakılar da, heyətdəkilər də ləngiməylə bağlı narazlılıqlarını büruzə verəndə Sultan Cəlaləddin cavab məktubunu, həm də hədiyyələrini aparmaq üçün Cəlaləddin Fərrux, Cəlaləddin əs-Savəçi, Məcməddin Əbu Bəkr əl-Cami, eyni zamanda, iki əmirdən ibarət heyətin qolnaqlarla birgə yola çıxmasını əmr eləyibmiş. Konyada da xarəzmlilər beş günlük ziyafətdən, əyləncədən sonra Sultan Keyqubadın hüzuruna çıxmış, şahlara layiq təntənəylə qarşılanmış, səkkiz gün sonra da qəti cavab almışdıllar: aradakı anlaşılmazlığa son qoymaq, qüvvələri tatarlara qarşı birləşdirmək lazımdı, Sultan Cəlaləddin tatarlara qarşı çıxıb, ondan yardım istəsə, hər cür kömək göstərməyə hazırdı, yox, satqınların *(deyilənə görə, Şərəf-ül Mülkü nəzərdə tutur-*

muş) sözünə baxıb bundan boyun qaçırsa, öz qüvvələrimizi birləşdirib Allahın köməyiylə məqsədimizə çatacağıq.

Sultan Cəlaləddinin bacısı Xanbikə Sultanı tatarlar Tərkən Xatunla birgə əsir götürüb Qaraqoruma aparıblarmış. Bəxtikəm orda Duşi xanın payına düşüb, ondan bir neçə övlad dünyaya gətiribmiş, Duşi xan öləndən sonra da əli-qolu bir qədər açılıb, gizlicə qardaşına tatarlarla bağlı xəbərlər çatdırmağa başlayıbmış. Sultan Əhlətin mühasirəsində olanda Xanbikə Sultandan üzərində atasının adı həkk olunan firuzə qaşlı üzüyünü gətirən qasid gəlibmiş. Bacısı xəbər göndəribmiş ki, Böyük Xaqan artıq onun övladlarına Quranı öyrətmək barədə əmr verib, üstəlik, Xarəzmşahın qüdrəti, silah-əsləhəsi, fəth elədiyi torpaqlar barədə səhih məlumat alıb, dil tapmağı, Ceyhun çayının hüdud olmasını istəyir, bu təklifi qəbul eləmək, yoxsa döyüşmək də hökmdarın iradəsindən asılıdı. Amma Cəlaləddin bacısının ismarışına cavab verməmiş, bəlkə də taleyin ayağına gətirdiyi fürsəti əldən buraxmışdı. Həmin məqamda da Sultan Əlaəddin Keyqubadın əmisi oğlu məlik Rüknəddin qaçıb Məlik Əşrəfə sığınmış, onun adına xütbə oxutmuş, Hacib Əliylə Xoy səfərinə çıxmış, Şərəf-ül Mülkün qoşununa basqında iştirak eləmişdi. Amma Rüknəddin Cahanşah artıq Cəlaləddinin qüdrətinin artdığını, Əhlətin tezliklə təslim olacağını görüb öz gələcəyindən əndişə duymağa başlamış, əvvəlcə Şəmsəddin əl-Bağdadini elçi göndərmiş, sonra da düşmənindən rəhm diləməyə gəlmişdi. Sultan Şərəf-ül Mülkə qonağı təntənəylə qarşılayıb gətirməyi əmr eləmiş, Rüknəddin gəlib çıxanda da qucaqlamış, talvarın altında, öz yanında oturtmuş, o məqamda da dayaqları yıxılan talvar başlarına uçmuş, bunun nəhs əlamət olduğunu duyan əyan-əşrəfin qorxudan rəngi qaçmışdı.

Sultan Əlaəddin Keyqubad dil tapmağa ümid bəsləyib Əhlətə bir heyət də göndərmişdi. Mərhum Əlaəddin Muhammədin qaynı, İraq naibi Şəhabəddin Süleymanşahla birgə gələn Fələkəddin Sunqur, hacib Səlahəddin ibn-Həsən Xarəzmşah və

əyan-əşrəfi üçün misilsiz hədiyyələrlə Əhlətə getmişdi. Diyari-Rum hökmdarı Sultan üçün iki dəst qiymətli əlbisə, cübbə, çalma, qiymətli daş-qaşlarla bəzədilmiş hind qılıncı, kəmər, qalxan, iki yəhər-yüyənli cins at, otuz ərəb kəhəri, otuza yaxın atlı məmlük, atlas örtüklü on qaplan, qızıl halqalı on şahin, yüz otuz boğça əlbisə, ənbər dolu beş qızıl qab, xanlar üçün on dörd, əmirlər üçün otuz, divan heyəti üçün iyirmi dəst əlbisə, daha nələr göndərmişdi. Amma Sultan Cəlaləddinin taştdar Cəlaləddin Fərrux, əmir-axur Seyfəddin Dördəba, fəqih Rüknəddinlə göndərdiyi cavab Əlaəddin Keyqubadın ürəyincə olmamışdı, üstəlik, heyət hələ Konyaya çatmadan ona Xarəzmşahla dil tapmağın mümkün olmayacağı xəbərini yetirmişdilər, hökmdar da Məlik Əşrəfə meyillənməyi qərara almış, Kəmaləddin Kəyumərsi onun yanına göndərmiş, Cəlaləddini qılıncsız dayandırmağın mümkün olmayacağını, öz məmləkətlərini qorumaq üçün dil tapmaq məcburiyyəti yarandığını çatdırmışdı. Az sonra da Məlik Əşrəfin Konyaya gələn elçisi birgə hərəkət eləmək haqqında vədi Sultan Əlaəddin Keykubada yetirmişdi...

***

...Günlərin birində Şeyx Övhədəddinin söhbətlərində rastlaşdığım qazı-ül-qüdat Şəmsəddin əl-Xoyinin və Şəhabəddin Hərəvinin hüzuruna getdim. Əbül-Abbas Qazı Şəmsəddin Əhməd əl-Xoyiylə təxminən yaşıd olardıq, Xoyda ilk dərsini alandan sonra Xorasana getmiş, təhsilini Heratda almış, Fəxrəddin ər-Razinin mədrəsəsində kəlam və üsulu, Qütbəddin əl-Misri və Əlaəddin ət-Tusi kimi zəka sahiblərindən hədis, fiqh, cədəl elmlərini öyrənmiş, bununla da kifayətlənməyib Nişabura üz tutmuş, Əbül-Həsən Müəyyəd ət-Tusidən hədisləri dinləmişdi. Gündoğandan tatarların gəldiyini eşidəndə də günbatana üz tutmuş, Şamda məskunlaşıb Əbu Abdulla bin əz-Zübeydidən, Əbu Əmr Təkiyəddin bin Salahdan dinlədiyi hədislərlə kamilliyə doğru addım atmışdı. Hökmdar Məlik Müəzzəm İsa hənəfi

olsa da şəfii Şəmsəddin Əhmədin elminə böyük diqqət göstərimiş, sözünə etibar eləmiş, üstəlik, yaşamaq üçün ev, güzəranına yetən maaş vermiş, sonra qazı-ül-qüdat məqamına çatdırmışdı. Qızı-ül-qüdat həm də Nəsirəddin Mahmud Zənginin qurduğu Böyük Adiliyyə mədrəsəsində dərs deyir, gözəl xitabəti, iti ağlı, comərdliyi dillərdə dolaşırdı. Dərslərinə o vəsfləri eşidib getdim, peşman da olmadım. Dərslərdən sonra bəzən qalırdım, şərbət içə-içə elmdən, mərifətdən, şəriətdən danışırdıq. Şəmsəddin Əhməd Şam qazıları barədə kitab yazmaq niyyətindəydi, Şeyx Rüknəddin əs-Səmərqəndinin mübahisə elmiylə bağlı əsərini şərh eləmək istəyirdi. Sonralar Əminiyyə, həm də Qəzzaliyyə mədrəsələrində də dərs dediyini, hikmət elmlərində zəmanənin yeganəsi, şəriət işlərində dövrünün böyük alimi, tibbin əsaslarını çox gözəl bilən şəxs sayıldığını eşitdim. O, həqiqətən, hafizliyiylə yanaşı, fiqhi, fiqh-üsulu, kəlamı, təbabəti, ərəbcəni, şeiriyyəti, cədəli çox gözəl bilirdi, hədis elmində tayı-bərabəri yoxudu, bu səbəbdən, Qazı Şəmsəddini əllamə, fəqih kimi də tanıyırdılar. Oğlu Şəhabəddin Muhammədlə də ünsiyyətimiz vardı, dərrakəsinə, mərifətinə heyrandım.

Hərəvinin düşüncələrindənsə, elə ilk söhbətimizdə xoşlanmamışdım, dedikləri Şeyx Mühyiddinin söylədiklərindən fərqlənmirdi. Başqalarına çox gözəl, bəlağət dolu sözlərlə nəfsi saxlamağın gözəlliyindən, dünya nemətlərinin faniliyindən danışırdı, amma özünün zənginlər məhəlləsindəki mülkü vardı, məlikin sarayına istədiyi vaxt gedib-gəlir, Məlik Əşrəfin süfrəsində əyləşir, neçə-neçə qul-qaravaşa hökm eləyirdi, bütün bunlar da məni ondan uzaqlaşdırmışdı. *O*-na çatmağın ilk şərti nəfsini öldürmək idisə, deməli, mənim tanıdığım kəslər *o yolun yolçusu* deyildilər. Şəhərin küçələrini əriş-ərğac eləyəndə, kürəyimi divara söykəyib belbağı hörəndə, adamların gözündən uzaq bir yerdə oturub zikrə dalanda bu barədə düşünür, bir vaxt öz nəfsimə yenilib-yenilməyəcəyimi götür-qoy eləyirdim. Fikrimcə, *bu yoldan* dönməyim artıq müşkülüydü, Ərbildə, yaxud

Bağdadda hələ ümid vardı, Təbrizə qayıdıb valideynlərimin istədiyi oğul, Şeyx Əbu Bəkrin gözlədiyi mürid ola bilərdim, amma gördüyüm o röyadan sonra geriyə yolum tamam kəsilmişdi: *ya axtardığım məna aləminin sahibini burda tapacaq, ya da tapmaq ümidiylə yolları əriş-ərğac eləyəcəkdim...*

Geriyə yolumu kəsən təkcə bu deyildi: Nemətəddin Kəşaninin söylədiyinə görə, tatar xaqanının taxtında oturan Ögediyin göndərdiyi Çormoğon Noyon artıq Təbrizə üz tutmuş, Xarəzmşah da onun həmlələrindən qorunmaq ümidiylə Diyari-Ruma girib Əhləti mühasirəyə almışdı. Bundan xəbər tutan Əlaəddin Keykubad Sultanın yanına elçi göndərib, qızıl sultanilər, kəhər atlar, bahalı qılınclar yollayıb dil tapmağı, Çormoğonla danışığa getməyi, tatar bəlasını Diyari-Rumdan uzaqlaşdırmağı məsləhət görmüş, bu addımı atsa, ona hər cür kömək göstərəcəyini bir daha vəd eləmişdi. Amma Sultan Cəlaləddin Əhlət ətrafından çəkməyib inadını yeritmiş, qaladakıları aclıqdan it-pişik əti yeməyə belə məcbur eləmişdi. Çormoğon Noyon da Cəlaləddini Əlaəddinə qarşı qaldırmaq üçün əsgərlərini Xarəzmşah döyüşçüsü qılığında ətraf yerlərə basqına göndərmişdi. Cəlaləddin Əhləti diz çökdürəndən sonra, guya, Səlcuqlunu da, Misiri də itaətə gətirəcəyini söyləyibmiş. Əhləti ələ keçirib talamış, mühasirəyə almaq məqsədiylə Malazgirdə üz tutmuş, bu məqamda Ərzurum məliyi Rüknəddin Cahanşah yenə hüzuruna gəlib Şam və Diyari-Rum hökmdarlarının ona qarşı dil tapdıqlarını xəbər vermişdi. Sultan məliyə Ərzuruma qayıtmağı əmr eləmiş, özünün də beş gün sonra ora gəlib döyüşə hazırlaşacağını bildirmiş, dərhal da çavuşları vasitəsiylə bütün əmirlərinə qırmızı ox göndərib ləngimədən Xarputa yollanmışdı. Amma bəxti hökmdardan üz döndərmiş, orda ağır xəstələnib yatağa düşmüş, loğman, dava-dərman dərdinə əlac eləyə bilməmişdi, hamı sağalacağına ümidini itirmiş, hər gün çadırının qabağında yığışan xanlar, əmirlər, əyan-əşrəf nəhs xəbər alan kimi, qaçıb dağılışmağa hazırlıq görməyə başlamışdılar. Bu müddətdə də məlik Rüknəddin

Ərzurumdan dalbadal məktub göndərmiş, düşmən qoşununun hərəkəti barədə məlumat vermiş, yola çıxıb birləşməyi təvəqqe eləmişdi. Amma Sultan o məktubları oxumaq, hökm vermək iqtidarında deyilmiş, qoşun da döyüşə hazırlaşa bilməyibmiş, halı bir qədər yaxşılaşandasa, artıq iş-işdən keçib, düşmən qoşunları birləşibmiş. Üstəlik, Şərəf-ül Mülk İraq qoşunuyla Malazgird, Xoy hakimi Təgin Məlik də Bərkri yaxınlığında qalıbmış, Arran, Azərbaycan, Mazandaran qoşunlarınısa ehtiyatsızlıq eləyib çağırmayıbmış. Sultan Utur xanı iki min atlıyla irəli göndərib, arxasınca da özü yola düşüb, Yastı Çəməndə Ərzincan-Xarput qoşunuyla üz-üzə gəlib, ildırımsürətli zərbəylə düşməni qaçmağa məcbur eləyəndən sonra Sultan Əlaəddin və Məlik Əşrəfin əsas qüvvələriylə qarşılaşıbmış. Amma bu dəfə uğur ondan üz döndəribmiş, xarəzmlilər duruş gətirə bilməyib qaçmağa üz qoymuş, bütün yüklərini atıb özlərini Muğandakı ordugaha çatdırmışdılar. Cəlaləddinin arxalandığı Uluq xan da, Atlas Məlik də əsir düşmüşdülər, Diyari-Rum hökmdarı onların boyunlarının vurulmasını əmr eləmiş, diri-diri ələ keçirilən əmisi oğlunu Rüknəddinisə zəncirləyib qatır belində dər-üs-səltənəyə aparmağı buyurmuş, az sonra da o biçarə çəkdiyi işgəncələrdən ölmüşdü.

Sultan Cəlaləddin Yastı Çəməndən Trapezunda doğru geri çəkilməli olmuşdu, amma Trapezund kralı Xarəzmşahı qəbul eləməmiş, üstəlik, qaçan dəstələrinə basqın olunmasına göz yummuşdu. Çarəsiz qalan Sultan özünü Sükmənabada yetirmiş, yanında xanlarından, əmirlərindən, əyan-əşrəfindən kimsə qalmadığını görəndə Şərəf-ül Mülkü İraq qoşunuyla təqibçilərinin qarşısını almaq üçün qoyub Xoya getmişdi. Vəzirin Sükmənabadda olduğundan xəbər tutan Məlik Əşrəf ona qasidlə məktub göndərmiş, Xarəzmşahın, həqiqətən, islamın və müsəlmanların hökmdarı olduğunu, günbatanla tatarlar arasında maneəyə çevrildiyini, Sultan Əlaəddin Keykubad və öz qardaşı Məlik Kamilin adından barışıq təklif eləmiş, danışıqları aparmaq üçün

də əş-Şəms əs-Tiqritini Təbrizə yollamışdı. Uzun danışıqlardan sonra Sultan Əhlətə də, ətraf torpaqlara da iddiasından əl çəkdiyinə, bir daha hücum eləməyəcəyinə and içmiş, amma Sürmərinin qaytarılması uzun-uzadı çəkişmələrə səbəb olmuşdu. Xarəzmşah inadla Əlaəddin Keyqubada söz verməkdən boyun qaçırır, elçiyə deyirmiş, siz istədiyinizi aldınız, daha mənimlə Diyari-Rum hökmdarı arasında durmayın. Amma elçi, görünür, məqsədinə çatmaq istəyirmiş, bir ay Təbrizdə qalıb, Sultansa tatarların İraqa yetişdikləri barədə xəbər alanacan inadından dönməyib, amma axırda Sürmərini qaytarmağa razılıq verib, əs-Tiqriti də nəticədən razı qalıb, Əhlətə yola düşüb, Sultan da İraq naibi Şəmsəddinin Əlinin oğlu Mühtəsəddini onunla göndərib ki, cavab məktubunu məlikə çatdırsın, sonra tatarların ön dəstələrindən xəbər tutmaq işün bahadırı Yilan Buqunu İraq tərəfə göndərib, onların Zəncanla Əhər arasında olduqlarından xəbər tutanda İraqa ancaq yazda girəcəklərini güman eləyib, bir qədər arxayınlaşıb.

Nemətəddin Kəşani bir müddət sonra Sultan Cəlaləddinin taleyiylə bağlı eşitdikləri yeni təfərrüatları da söylədi. Onda tatar təhlükəsi elə sürətlə yaxınlaşırmış ki, Sultan Cəlaləddinin öz hərəmxanasının, yaxın adamlarının vəziyyətiylə maraqlanmağa, onları əlçatmaz qalalara göndərməyə amanı yoxmuş, Təbrizdən çıxanda doğmalarıyla son görüşü olduğunu güman eləyib, göz yaşları axıdıb, deyəsən, o məqamda artlq səltənətinin əldən getdiyini dərk eləyibmiş. Sultan Şərəf-ül Mülkü Təbrizdə qoyub, yalnız kiçik dəstəylə, ən yaxın həmsöhbəti Mücirəddin Yaqub, bir də salnaməçisi Şəhabəddin Muhammməd ən-Nəsəviylə çıxıb, məmləkətin hər tərəfinə səpələnən ordusunu toplamaq, yaralarını sarımaq, çatışmazlıqlarını aradan qaldırmaq üçün Muğana üz tutubmuş. Yolda tatarların Zəncana çatdıqları barədə Balak hakiminin məktubu gəlibmiş. Muğana çatanda Sultan qoşunların bir qismini ordugahda tapıb, bir qisminin də qışlamaq üçün Şirvana, Şəmkürə yollandıqlarını öyrənib, əmirlərinə

qırmızı ox göndərib, vəziyyət çox təhlükəli olduğundan, Mücirəddini Məlik Əşrəfin yanına göndərmək qərarına gəlibmiş, amma qüvvələrini cəmləməyə macal tapmamış Ərdəbil, Firuzabad, Mazandaran, Xorasan əmirlərinin qorxaqlığı üzündən artıq Muğana çatan tatarların ilk zərbəsini dadıbmış. Onda Sultan Cəlaləddin düşməni aldada bilibmiş: qoşunun üzünü Araz nəhrinə sarı çeviribmiş, tatarlar da onun nəhri o taya keçdiyini güman eləyib təqibdən əl çəkiblərmiş, Sultansa nəhrə çatmadan geri dönüb qışı keçirmək üçün Maxanda ordugah qurubmuş.

Şahi qalasının hakimi İzzəddin vilayətini talan elədiyinə görə Şərəf-ül Mülkdən narazı olsa da, Sultanı yaxşı qarşılayıb, qoşunun ərzağını, atların alafını təmin eləmək üçün əlindən fələni eləyibmiş. Amma qış heç yarı olmadan tatarların Uçandan Maxana doğru gəldikləri barədə xəbər çıxıb, Sultan da Arrana doğru yollanmalı, artıq Təbrizdən çıxıb gələn Şərəf-ül Mülkün məsləhət gördüyü qalalarda daldalanmalı olubmuş. Sultanın hərəmi də, xəzinəsi də Arran əmiri Hüsaməddin Qılınc Arslanın tabeliyindəki, uca qayadakı mağaradan ibarət Sind Savarix qalasında yerləşdirilibmiş. Şərəf-ül Mülk də özü möhkəmləndirdiyi Kayzan qalasında iqamətgah qurub indiyəcən gizli saxladığı niyyətini büruzə veribmiş: axır vaxtlar Sultanın onu israfçılığı üzündən dəfələrlə məhşər ayağına çəkdiyinə görə, məqamı çatanda boynunu vurduracağını, həm də tatarların hücumu sayəsində hökmdarın yenidən Sind çayının o tayına üz tutacağını güman eləyirmiş. Bu səbəbdən, artıq Azərbaycanın və Arranın hökmdarı olduğu, öz adına xütbə oxunması barədə əyalətlərin hakimlərinə əmrlər yollamağa başlayıb, hətta Əlaəddin Keyqubad və Məlik Əşrəfə də məktub göndərib, öz sultanını aciz, pisniyyət adlandırıb onlara itaətini bildirib, üstəlik, Sultanın adamlarının ələ keçirilməsi barədə göstəriş veribmiş. O məktubların bir neçəsi Cəlaləddinin əlinə keçib, vəzirlərin, əmirlərin, əyalət hakimlərinin yanına qasidlər göndərib, Bildirçinin *(bir vaxtlar ayaması beləymiş)* vədlərinə tamah salmamalarını, əmirlərini yerinə yetirməmələrini buyurubmuş.

Sultan Cəlaləddin ardınca heç nədən xəbəri yoxmuş kimi, Şərəf-ül Mülkün sığındığı qalaya yaxınlaşıb, adam göndərib vəziri pişvazına dəvət eləyibmiş: guya, daha vacib işlər olduğundan, baş verənlərə fikir verməyibmiş, heç nədən xəbərdar deyilmiş. Vəzir də kütbeyinliyi ucbatlndan hökmdarın baş verənlərdən bixəbər olduğunu güman eləyib, qaladan çıxıb, beləcə, fürsəti əldən veribmiş: inad göstərib qaladan çıxmasaydı, tatarların yaxınlaşdığı barədə xəbər alan Sultan vəzirinin itaətini gözləmədən getməli olacaqdı. Sultan törəyə görə, vəzirlərin öz hökmdarlarının hüzurunda içmədiklərini bilsə də, Şərəf-ül Mülkü şəraba qonaq eləyib, o da əvvəlki qüdrətini saxladığını düşünüb, sevinib, amma uzun həyat təcrübəsinə görə, daha vəzir məqamında qalmayacağını dərk eləyibmiş. Ordan Arrana üz tutan Sultan bir daha Şərəf-ül Mülkü nə divana, nə də hüzuruna çağırıb, beləcə, onun kitabını birdəfəlik bağlayıbmış. Həmin məqamda Sultanı Təbrizdən camaatın Şəmsəddin Ət-Tuğraiyə qarşı qiyam qaldırması, vəzir Bəhaəddin Yarbəyin də onların tərəfində olması, belə bir vəziyyətin tatarların dəyirmanına su tökməsi barədə gələn xəbərlər daha çox narahat eləyirmiş. Ət-Tuğrayinin öldürüldüyü, camaatın dər-üs-səltənəni tatarlara təslim elədiyi barədə xəbər yetişəndəsə, lap sarsılıbmış, amma hələ də qəlbində hər şeyin btmədiyinə inam varmış.

Çormoğon Noyon həmin vaxt Fəxrəddin Həmzə ən-Nişaburini Beyləqana, Sultan Cəlaləddinin iqamətgahına göndərib itaət göstərməsini təklif eləyibmiş. O məqamda Qarqar nəhri vadisində olan Sultanın yanına Yatmas Noyonun elçisi də gəlibmiş. Cəlaləddin ondan Noyonun iyirmi minlik qoşunla gəldiyini eşidəndə tatarların qoşununun sayı barədə xəbərin yayılıb adamlarını qorxuya salmaması üçün elçini dərhal öldürməyi buyurubmuş. Ordan da Cərbird qalasına üz tutub vəziyyətlə tanış olmuş, qala rəisi Səhlan Saluk bəyə çıxanda Şərəf-ül Mülkü tutdurub zəncirlətmək barədə gizlicə əmr veribmiş, əmri yerinə yetiriləndən sonra onun məmlüklərini Utur xanın hökmü altına

verməyi buyurubmuş. Amma az sonra məmlükbaşı Nəsirəddin Kuştemir Şərəf-ül Mülkün üzüyünü Utur xana çatdırıb valinin sabiq vəzir tərəfə keçdiyini, adamları ona itaət eləməyə səslədiyini xəbər veribmiş, Sultan da bundan xəbər tutanda elə valinin oğlunu da beş sipəhsalarla sabiq vəziri qətlə yetirmək üçün göndəribmiş. Şərəf-ül Mülkün xidmətçisi Əxi Muhammməd sonralar deyirmiş, ağam onları görəndə hər şeyi başa düşdü, dəstəmaz alıb iki rükət namaz qılmaq üçün möhlət istədi, namazdan sonra ondan boğulmağa, yoxsa boynunun vurulmasına üstünlük verdiyini soruşdular, ağam ikincini seçdi, amma valinin oğlu hökm sahiblərinin qılıncla öldürülmədiyini, yay kirişiylə boğulduğunu söyləyib işini bitirməyi əmr elədi, sonra meyitin soyumasını gözləmək üçün bayıra çıxdılar, az sonra qayıdanda ağamın özünə gəlib oturduğunu gördülər, boynunu vurub başını Sultana apardılar.

O məqamda da Gəncədə Bəndər adlı bir ustanın başçılıq elədiyi dəstənin aranı qarışdırıb xarəzmliləri öldürməsi Sultanın müvazinətini daha da sarsıdıbmış. Qiyamçılarla danışıq aparmaq üçün hacib Xanverdini, bir də salnaməçi Şəhabəddini göndəribmiş, amma Bəndərə göndərilən ismarışlar, yazılan məktublar, tatarların tufan kimi yaxınlaşdıqları barədə xəbətdarlıq bir nəticə verməyibmiş, şəhər rəisi Cəlaləddin əl-Qumi öz övladlarıyla birgə çıxıb razılıq əldə edilmədiyini bildirəndə bütün ümidlər tükənibmiş. Belə məqamda Sultan Cəlaləddin qoşunla gedib şəhərin ətrafındakı bağda yerləşib, qiyamçılara yenə ağızdolusu vədlər veribmiş, o vədlərin qarşısında dağ belə əriyərmiş. Amma Bəndər inadından dönməyibmiş, hətta asilər qaladan çıxıb sultan çadırına ox atmağa belə cəsarət eləyiblərmiş, elə həmin məqamda da Sultanın xas dəstəsi qiyamçıların qarşısına çıxıb, hamısını darmadağın eləyib, şəhərə giribmiş. Sultan şəhərin talanmasına izin verməmiş, əsil-nəcabətli adamları hüzuruna çağırıb araqarışdıranların başçılarını tutub gətirməyi əmr eləyib, gətirilən otuz nəfəri qala qapısında asdırıb,

Muhammməd ibn Məlikşahdan miras qalan taxtını parça-parça elədiyinə görə, Bəndərin boynunu vurdurub, meyitini tikə-tikə etdirib, sonra da şəhərdə on yeddi gün qalıb, təxirəsalınmaz məsələlərlə məşğul olubmuş. Onda Utur xan Sultana Məlik Əşrəfdən tatarlara qarşı bir daha yardım istəməyi məsləhət görüb, o da yarıkönül razılıq veribmiş.

Amma Valaşgirdə çatanda Məlik Əşrəfin hüzuruna göndərdiyi elçi Mühtəsəddindən məktub gəlib, Sultanın bütün ümidlərini yerlə yeksan eləyibmiş. Elçi məliyin sultanla xaqan arasındakı qarşıdurmanın nəticəsini gözləməyə üstünlük verdiyini, hansı tərəf zəfər çalsa, münasibətlərini ona uyğun quracağını söyləyibmiş. Sultan son ümid yeri kimi, Məlik Müzəffərin yanına elçi göndərib, Mərdin və Amid hakimlərinin qoşunuyla köməyə gəlməsini təvəqqe eləyib, zəfər qazansa, Əhləti qardaşı Məlik Əşrəfin əlindən alıb ona verəcəyi barədə vədini də çatdırıbmış. Amma Məlik Müzəffər onun Diyari-Rum torpaqlarına altı min atlı göndərib Harput, Malatya, Ərzincanı yağmalatdığını, bu səbəbdən, Əlaəddin Keyqubadla arasını pozmaq istəmədiyini, Mərdin və Amid hakimlərinin onun sözünə qulaq asmayacaqlarını bəhanə gətirib yardımdan boyun qaçırıbmış. Bu vaxt tatarlar artıq Əhlət tərəflərdə Sultanın izinə düşməyə çalışırlarmış. Deyilənə görə, günlərin birində Sultanın elçi kimi Məlik Müzəffərin yanına göndərdiyi Şəhabəddin ən-Nəsəvi yuxusunda görübmüş, öz başı dizlərinin üstündədi, saqqalı da, başının tükləri də yoxdu; üstəlik, elə yuxuda da bunu başın artıq xilas yolu qalmayan sultan olduğu, saqqalın əsir düşəcək sultan hərəmini ifadə elədiyi, saçın əlindən çıxacağı var-dövləti bildirdiyi kimi yozub. Az sonra da son etibarlı adamı – Utur xan canını götürüb aradan çıxandan, ətrafındakılar tatarların qurbanına çevriləndən sonra tək-tənha qalan Sultan Cəlaləddin bu dünyayla vidalaşmalı olub.

Xarəzmşah Cəlaləddinin ölümüylə bağlı bitib-tükənməyən şayiələri eşitdikcə ona həsəd aparırdım: Allah bəndəsi bircə

dəfə ölüb torpağa basdırıldısa, deməli, ömrü bitdi, amma ölən-dən sonra da yaşayanlar, həyatı əfsanəyə çevrilib dilə-ağızda dolaşanlar da var, zənnimcə, əsl ömrü də onlar yaşayırlar. De-yilənə görə, Cəlaləddin tatarlarla növbəti savaşda yaralanıb, təqib eləyən iki düşmənini öldürəndən sonra dağlarda azıb, bir kürd kəndinə gedib çıxıb, orda qəfil hücuma tuş gəlib, girov götürülüb; deyilənə görə, kürdlər onu aradan götürmək fikrin-də olmasalar da, bir nəfər qardaşını xarəzmlilərin öldürdüyünü iddia eləyib, köməksiz vəziyyətdə olan Sultanı nizə zərbəsiylə qətlə yetirib, bir müddət sonra da Əmir Müzəffər adamlarını o dağlara göndərib, Sultanın əşyalarını, atını, yəhərini, məşhur qı-lıncını, saçına taxdığı çubuğunu tapıb gətiriblər, mərhumu yaxın adamları Utur xan və Təlsab o əşyaların Xarəzmşaha məxsus olduğuna şəhadət gətirib, sonra Sultanın cəsədini də tapıb dəfn eləyiblər; bir başqası deyirdi, kürd hakimi Məlik Müzəffər Xarəzmşahın girov götürülməsi xəbərini alan kimi, Cəlaləd-dinin yaxın qohumu Utur xanla həmin kəndə gedib, Utur xan öldürülmüş zatın Sultan olduğunu təsdiqləyəndən sonra əmir bütün kişiləri qətlə yetirib, kəndi yandırmağı əmr eləyib.

Talesiz Sultanın Amidin Harzem, yəni Xarəzm kəndində dəfn edildiyini söyləyənlərlə də rastlaşırdım. O günlərdə eşit-diyim bir rəvayətə görə, Xarəzmşah Amiddə yox, Dərsimdə öldürülübmüş, məzarı da Dojik dağının zirvəsindəymiş, Sultan Baba türbəsi kimi tanınırmış. Deyirdilər, Sultanın kürd dostu Şeyx Həsən onun azyaşlı oğlunu himayəsinə götürüb saxlayıb, bir neçə ildən sonra onu öz qızıyla evləndirib. Digər şayiədə Sultanın Haqqari dağlarında bir ağacın altında yatdığı, ordan keçən bir neçə avaranın onun bahalı paltarına, yəhər-yüyənli atına tamah saldığı, Cəlaləddini yatdığı yerdə öldürüb ələ ke-çirdikləri qənimətlərlə Amidə getdikləri, şəhər başbilənlərinin də yaraq-əsləhəni, paltarı görən kimi tanıdıqları, hakiminsə məsələdən xəbər tutanda quldurları dar ağacından asdırıb, Sul-tanın cənazəsini Amiddə dəfn elədiyi, üzərində də türbə tikdir-

diyi nəql edilirdi. Karvansarayda Malatyadan gəlmiş bir dərviş danışırdı ki, Sultan sonra Məlik Əşrəflə barışıb, onun qızıyla evlənib, bir müddət Bitlisdə yaşayıb, məlik də tez-tez ona deyirmiş, burdan uzaqlaş, tatarlar, Allah eləməsin, şəhərdə olduğunu bilsələr, bütün vilayəti xarabazara çevirəcəklər. Bir gecə də tatar qoşunu Bitlisə yaxınlaşanda Sultanı yuxudan oyadıblar, o, vəziyyətin ciddi olduğunu görüb zövcəsindən onunla getmək istəyib-istəmədiyini soruşub, qadın da düşünüb-daşınmadan ərinə qoşulub, atlanıb, gecənin qaranlığında gözdən itiblər. Sonralar Sultan Cəlaləddinin Uca Allahın xidmətçiləri olan övliyalar dərəcəsinə ucaldığını iddia eləyənlər də tapıldı: deyilənə görə, o, libasını da, silahını da rastlaşdığı adamlara vermiş, əvəzində onların sadə paltarlarını geyinib, sufi dərviş kimi ömür sürməyə başlayıb. Onun müsəlman ölkələrində abid sayaq yaşadığını sonralar da dönə-dönə eşitdim. Hətta elə hey talesiz Sultanı hardasa gördükləri barədə şayiələr yayılırdı. Bəlkə, bundan sonra da Xarəzmşahın əsl məzarı tapılmayacaq, şayiələr get-gedə çoxalacaq, şaxələnəcək, bütün bunlar da onun daim xatırlanmasına səbəb olacaqdı.

Molla Cəlaləddinin pədəri Muhəmməd Bəhaəddin Vələdin Xarəzmşah Cəlaləddinin bibisi oğlu olduğunu söyləyənlər də vardı. Xarəzşahın izsiz-tozsuz yoxa çıxdığı məqamda Bəhaəddinin oğlunun get-gedə tanınması, səs-sorağının aləmə yayılması beyinləri qarışdırmışdı, hətta Molla Cəlaləddinin, əslində, Xarəzmşah Cəlaləddin olduğunu iddia eləyənlər, bunu sübuta yetirmək üçün dəridən-qabıqdan çıxanlar da tapıldı. Görünür, Bəhaəddin Vələdin Bəlxdə doğulması, Sultan Bəhaəddin çağrılması, Sultan-ül-Üləma ünvanı alması, xatunu Gövhərşahın Xarəmzmşahlar xanədanına mənsub olması, oğlunun Molla Cəlaləddin Bəlxi adlandırılması da bu məsələdə təsirsiz ötüşməmişdi. Hər iki Cəlaləddinin adının Muhammməd, sultanın validinin, mollanınsa oğlunun tam adının Əlaəddin Muhammməd olması, hər ikisinin üç oğlunun dünyaya gəlməsi, Sultan Əlaəd-

din Muhammədin də, Bəhaəddin Vələdin də Nəcməddin Kübraya müridlik eləmələri, hər ikisinin də Bəlxdən təxminən eyni vaxtda, eyni səbəb üzündən çıxmaları şayiələrin yayılmasına rəvac verirdi. Bunun üstünə hər ikisinin nəsəblərində *"sultan", "məlikə", "xatun"* ünvanlarının olması, Sultan Cəlaləddinin ata nənəsinin "*Cahan məlikəsi Tərkən Xatun",* Molla Cəlaləddinin ata nənəsinin isə *"Məlike-i-Cahan"* kimi tanınmasını, hər ikisinin də Abbasi xəlifəsinə etimad bəsləməmələrini, Sultan Cəlaləddinin də, Bəhaəddin Vələdin də Bağdadda olub, Xəlifəni tənqid eləmələrini, Sultan Cəlaləddinin də, Molla Cəlaləddinin də həm fars, həm də türk dillərini yaxşı bilmələrini, rəvayətlərə görə, Sultan Cəlaləddinin dərviş kimi inzivaya çəkildiyi vaxtda Molla Cəlaləddinin cənnətməkan pədərinin vəfatından sonra şeyx kimi peyda olmasını gəlsək, sultanın mövlanaya çevrilməsinə, az qala, özüm də haqq qazandıra bilərdim...

***

...Belə qarğaşalı günlərin birində Dabbaqxana küçəsində qarşımı arıq, ucaboy, sarıbəniz dərviş kəsdi, dinib-danışmadan gözlərini üzümə dikdi. Dərvişi ilk dəfə görsəm də, o gözlərdə elə ruhi yaxınlıq duydum ki, İlahidən gələn təlqinlə gülümsədim. Həmin məqamda dərvişin içində qeyb aləmindən gələn nur peyda oldu, qəlbini həyəcan bürüdü, elə küçənin ortasındaca səmaya başladı. Onun cazibəsi mənə də keçdi, özümdən xəbərsiz dərvişə yoldaşlıq elədim. Fırlandıqca fırlandıq, get-gedə sanki ayaqlarımız yerdən üzüldü, quş kimi yüngülləşib Allahın dərgahına ucaldıq. Dərgahda gözqamaşdırıcı nur topasından başqa bir şey görmədim, amma nədənsə yenə qulağıma bir müddət əvvəl röyamda eşitdiyim səs gəldi: *"Ey məna aləminin sərrafı, məni axtar, tap!"* Üstəlik, bir kəlmə də əlavə elədi: *"Və anla!"* O məqamda içimi od bürüdüyünü, o nurda zərrə-zərrə əridiyimi duydum. Məndən qopan zərrələrsə yoxa çıxmırdı, hələ üzünü görə bilmədiyim, bununla belə, halından çox məh-

rəm olan bir vücuda hopurdu. Özüm tamam-kamal qeyb olanda yad səslərə ayıldım, başımıza xeyli adam yığışdığını, gözlərini bərəldib, ağızlarını ayırıb bizə - küçənin ortasında sözsüz-sovsuz səma süzən iki dərvişə - baxdıqlarını gördüm. Amma heç birimiz onlara fikir verəcək halda deyildik, dinməz-söyləməz, bir-birimizə gülümsəyə-gülümsəyə aralandıq.

Tamam-kamal özümə gələndə dərvişi ağacın arxasına çəkdim, dedim, ey dost, söylə görüm kimsən, hardan gəlirsən, məni necə tapdın? Dərviş axır ki, dilə gəldi, dedi, ey Şəms, mən bağdadlı bir Allah bəndəsiyəm, günlərimi ibadət və riyazətlə keçirirəm, başıma gələn bəlalar, çəkdiyim dərdlər məni o həddə çatdırmışdı ki, səccədəmi Dəclə nəhri üstündə salıb təmənna elədim, üzümü göyə tutub, ey Allahım, ey sultanım, dedim, mənə bu halımdan da, heyrətimdən də daha yaxşı hal-heyrət ver, çünki bunların mənə heç bir faydası yoxdu; dedi, həmin məqamda qulağıma qeybdən səs gəldi: *"Bizim Mövlana Şəmsəddinimiz Şamda elə hey izdihamın içində dolaşır, dərhal ora get, o Eşq padşahı səni bu halda görsün, ağlayıb-sızlamağına gülsün, sən də istədiyinə çat, axtardığın hal bir anda qəlbində peyda olsun";* dedi, könlüm yaralı olduğuna görə, dərhal yola düşdüm, gəlib səni tapdım. Bu sözləri eşidəndə huşum başımdan çıxdı, gözlərimi yumdum, kürəyimi ağaca söykəyib xeyli dayandım. Gözlərimi açandasa dərvişdən əsər-əlamət belə yoxudu. Bir qədər əvvəl yağan yağışdan yumşalmış torpağın üstündəki başmaq izlərini gözməsəydim, bütün bunların yuxu olduğunu düşünərdim.

O gündən həmin dərvişi Şam küçələrində, çarşı-bazarda, aşxanalarda, meyxanalarda çox axtardım, amma ötəri izinə belə rast gəlmədim. Dərvişin *mən axtardığım kəs* olmadığını bilirdim, şübhəsiz, Allahın iradəsiylə aramızda vasitəçiydi, günlərin birində də bizi görüşdürəcəkdi. Şam şəhərinin hər dəlmə-deşiyində axtarsam da, onun bu şəhərdə yaşamadığına, günlərin birində Diyari-Rumdan gələcəyinə əmindim, amma kim sevdiyi

kəsi nəfəs aldığı hər an axtarmaz? Özünün də olmasa, məhrəm adamının bu şəhərin havasında nəfəsi, torpağında ayaq izləri qalmışdı, o nəfəsi duymaq, o ayaq izlərini görmək məndən ötrü dünyanın ən böyük təsəllisiydi. Hər gün həmin ağacın altındakı başmaq izlərinə saatlarla baxır, sahibi vasitəsiylə axtardığım adama qovuşmağa can atırdım. Sonrakı yağışda o başmaq izləri silinəndə günlərlə huşsuz kimi gəzdim, şəhərə çıxmağa, çarşı-bazarı dolaşmağa belə həvəsim qalmadı. Günlərlə kürəyimi divara söykəyib oturur, zikr eləyir, Allahın doxsan doqquz adını çağırıb onu arzulayır, hər dəfə də qeybdən gələn eyni sözləri eşidirdim: *"Ey Şəms, səbir elə, vaxtı gələndə onu tapacaqsan!"* Beləcə, bu aləmdəki ariflərin hümmətləri və arzularının hədəfi olan yetkinliyimə çatdığımı duyurdum.

O vaxtdan qeyb aləminə tez-tez ucalmağa başladım. Həmin aləmdə ulu bir padşahı açıq-aydın görürdüm. Padşahın dörd min müridi vardı, hamısı da yetkiniydi, yetkinlər arasından seçilmişdi, məna aləminə vaqifiydi, hamısı da Cənabi-Haqqa üz tutub yalvarır, üç diləyini bildirirdi, *"Yar Rəbb!"* sədaları uca dərgahı doldurmuşdu. Bütün gizli-aşkar varlıqlar bu kəlmədə birləşmişdi. Amma Cənabi-Haqq susur, bir kəlmə belə söyləmirdi. Haqqın nuru insan duyğusunun fövqündəydi, girdə Günəş və Ay kimi işıq saçırdı. O cazibədar, saf işıq hər tərəfdən üzümə düşür, məni də nurlandırır, üzümə vuran nəfəs ağızsız-dodaqsız halda dönə-dönə *"Ləbbeyk"* söyləyirdi. Bir gün də qəlb gözüylə qeyb aləminə tamaşa eləyəndə qırx min tələbəsi olan böyük övliyalardan birini gördüm. Əllərini açıb böyük kədərlə Allaha dua eləyirdi, səsində elə yalvarış vardı, sanki bütün ruhlar onunla birləşib *"Ya Rəbb! Ya Rəbb!"* deyirdilər. O məqamdə mən də Allah-təalaya üz tutub dua elədim, dualarımın cavabında qeybdən səs eşitdim: *"İstə, ey Şəms! Bütün diləklərin yerinə yetiriləcək!"* Dedim, *"Ya Rəbb, sənə bütün ruhlarla birgə "Ya Rəbb! Ya Rəbb!" deyib yalvaran o övliya bəndənə ehsan elə".* O övliya bəndə də dərhal istəyinə çatdı. Həmin aləmdən

aralanıb yerə enəndə, özümə gələndə təpədən dırnağacan od içində olduğumu duyur, odu söndürmək üçün də özümü bayıra atır, küçələrdə uçur, hücrəmə atəşim bir qədər öləziyəndən sonra dönürdüm. Könlümün siqlətindən cismim bu işgəncələrə tab gətirirdi, görünür, axtardığıma çatmayınca da rahatlıq tapmayacaqdım. Elə hey, özümə deyirdim, heç vaxt tənhalıqdan şikayətlənmə, sənə şahdamarından da yaxın bir Dostun var, vaxtı çatanda qovuşacaqsınız.

Şamda sular heç cür durulmaq bilmirdi. Məlik Kamil sülh müqabilində Qüdsü və Fələstini xaçlılara verəndə Məlik Müəzzəm cin atına mindi, onun adını bundan sonra xütbələrdə çəkməmək barədə əmr verdi, deyilənə görə, hiddətdən bağrı çatlayıb öldü, amma şayiələrə inansaq, yatalaq olmuşdu. Mərhum Səbəlisalihiyyədəki Müəzzəmiyyə mədrəsəsində dəfn olundu, taxtında oğlu Ən-Nasir Səlahəddin Davud oturdu. Belə bir vaxtda Məlik Əşrəflə Məlik Kamil Şamı tutub öz aralarında bölüşmək fürsətini əldən verməmək istəmədilər. Məlik Kamil taxtını oğlu Məlik Salihə, əmiri Fəxrəddin Yusifə bir də Şeyx-üs-şüyuha tapşırıb Şama doğru səfərə çıxmışdı, quzey tərəfdən də Məlik Əşrəfin qoşunları yaxınlaşırdı. Amma Şamın mühasirəsi xeyli uzandı, çünki Məlik Kamil oğlunun taxt-tacı ələ keçirmək niyyətindən xəbər tutub geri qayıtmalı, ona həddini göstərməli oldu. Qardaşların qoşunu şəhəri üzük qaşı kimi dövrəyə alandasa, camaat ümidsizliyə qapıldı. Deyilənə görə, Məlik Əşrəf Urfaya qayıdandan sonra Əlaəddin Keykubadla yaxınlaşmış, üstəlik, bacısını ona verib aradakı bağı daha da möhkəmlətmişdi. Ölüm-qalımla üzbəüz gələn Məlik Nasir Davud uzun məsləhət-məşvərətdən sonra Nablus, Salt, Kereki Məlik Əşrəfə verməyə razı oldu, Məlik Əşrəfə də Əl-Cəzirədəki bəzi torpaqları güzəştə getdi, bununla da qardaşlar mühasirədən çəkildilər.

Ardınca da qardaşlarla Sultan Əlaəddin Keykubad arasında narazılıq yarandı; daha doğrusu, Sultanla çiyin-çiyinə beş min nəfərlik qoşunla Yastı Çəməndə Cəlaləddinə qarşı döyüşmüş Məlik Əşrəf, görünür, damad Sultandan öz payını istəyirdi. O,

qardaşı Məlik Kamillə birləşib Amidi Artukların əlindən alanda Əlaəddin Keykubad ancaq narazılığını bildirdi, qardaşların qoşunu Hasankeyfi ələ keçirəndəsə artıq susmadı, Çormoğon Noyonın basqınlarına qarşı qoruya bilmədiyini bəhanə gətirib Əhləti Məlik Əşrəfdən aldı, beləcə, toqquşma qaçılmaz oldu. Qardaşlar on altı Əyyubi məlikinin qoşunuyla Diyari-Ruma, Sultan Əlaəddinin torpaqlarına girdilər, amma uğursuzluğa düçar olub geri çəkilmək məcburiyyətində qaldılar. Nemətəddin Kəşaninin dediyinə görə, görünür, Diyari-Rum tatarların istilasından qurtula bilməyəcəkdi. Nə qədər ki, Sultan Əlaəddin sağ idi, Çormoğon Noyonun onun torpaqlarına açıq-aşkar basqın eləməyə cürəti çatmırdı, əsgərləri qiyafələrini dəyişib ordan-burdan soxulur, talayır, dərhal da geri çəkilirdilər. Sultan Əlaəddin bu cür talanların qarşısını almaq üçün Ögedeyə itaətini bildirməyə məcbur olmuşdu, amma o öləndən sonra gec-tez istilanın baş verəcəyini hamı dərk eləyirdi. Bütün bunları həftədə azı iki dəfə kiçik hücrəmə baş çəkən, ruhumdakı çalxantıları öz söhbətləri, rəvayətləri, hədislərilə ovutmağa çalışan Nemətəddin Kəşanidən, şəhərin halımısa sədaqətini daim hiss elədiyim Zübeyr əl-Cibalidən eşidir, təfərrüatlarıyla maraqlanmır, adamların bir-birini və *O*-nu sevmək əvəzinə, bir-birinin, az qala, boğazını üzmələrinə, müdam *O*-na asi olmalarına qəlbən ağrıyırdım. Ağrı dözülməz həddə çatanda da özümü bayıra atmaqdan, hallı dərviş sayaq küçələri dolaşmaqdan savayı çarə tapmırdım...

***

...Günlərim, həftələrim, aylarım, illərim bu qarğaşaların içində ötüb keçir, Şamın küçələrini əldən salır, nəyə görə çıxıb getmədiyimdən heç cür baş açmırdım. Qeybdən gələn o səs *gözlədiyim kəs*in məni Şamda tapacağını, ancaq hər şeyin öz zamanı olduğunu demişdi. Bəlkə, Bağdada, Hələbə, Konyaya, Qeysəriyyəyə, Ərzuruma... gedib bəxtimi orda sınamalıydım, amma nə sirdisə, Şamdan çıxmaq istəmirdim, elə bil, burdan getsəydim, *O*-nunla aramızdakı bağ qırılacaq, illərlə ax-

tardığımı bir daha tapa bilməyəcəkdim. Elə bil, *onun* ruhunun qoxusunu duyurdum, o qoxunu Şeyx Əbubəkirdə, Şeyx Övhədəddində, Şeyx Şəhabəddində, Şeyx Mühyiddində hiss eləməmişdim, yəqin, bunda da bilmədiyim hikmət vardı. Nemətəddin bu dünaynın adamıydı, halətimi özü başa düşdüyü kimi yozur, evlənməyin faydaları barədə uzun-uzadı danışır, hətta məsləhət gördüyü xatunları da sadalayırdı. Onun fikrincə, rahat həyat, qayğımı çəkən övrət, doğulacaq övlad güzaranımı yoluna qoyardı. Zübeyir Əl-Cibalisə halımı ruhaniyyət sarıdan dəyərləndirir, amma tibbi-mövhumi hüdudlardan çıxa bilmirdi, onun fikrincə, təbiblərdən birindən məsləhət almaq, yaxud sınanmış pirə nəzir-niyaz vermək, hər şeyi yerbəyer eləyərdi. Hər ikisinə səbirlə qulaq asır, xətirlərinə dəymək istəmir, amma bezəndə canımı qurtarmaq üçün bir yol tapırdım...

...Payızın ortalarıydı, bir gün hücrəmdən çıxmaq fikrində olmasam da, elə bil, məni nagəhan səs çağırdı. Həsirin üstündən qalxdım, qara kaftanımı geyindim, sərpuşumu başıma qoydum, qara başmaqlarımı geyinib qapıdan ruh kimi çıxdım, xangahın qapısından keçəndə sanki çox məhrəm Allah bəndəsinə məxsus doğma ruhun qoxusunu duydum. Qoxu o qədər xoş, o qədər bihuşediciydi ki, az qala, huşumu itirib İlahinin iradəsiylə addımlayırdım. Həmin qoxunun səmtini tutub tinləri buruldum, küçələri keçdim, adamların, ocaqların, evlərin yanından *Allahın nəfəsi* kimi keçib şəhər meydanına çıxdım. Meydanın yarısına çatmışdım ki, qarşımda ayüzlü cavan peyda oldu, əlimi öpüb gözlərinin üstünə qoydu, dedi, *ey məna aləminin sərrafı, məni axtarıb tap!* Qeybdən tez-tez eşitdiyim o tanış sözlər şüuruma çatanda huşum başımdan tamam çıxdı, gözlərim qaraldı, tir-tap yerə yıxıldım. Beləcə, nə qədər qaldığımı bilmirəm, huşum yavaş-yavaş geri qayıdandasa, ətrafıma baxdım, o ayüzlü cavandan başmaqlarının izindən başqa bir əlamət qalmamışdı. O cavan kim idi, onu harda axtarmalıydım, arxasınca hara getməliydim - hələ qeyb aləmindən bununla bağlı işarə yoxudu. Canım ağzımdan çıxa-çıxa həndəvərdəki bağ-bağçaları, dön-

gə-dalanları, dükanları, çarşı-bazarı ələk-vələk elədim, amma *o sevgili Allah bəndəsini* tapa bilmədim ki, bilmədim. Günlərlə o bir cüt başmaq izinin keşiyini çəkdim, onun qayıdıb gəlməsini gözlədim, yağış o izləri siləndən, külək ayüzlünün qoxusunu qovandan sonra da bayıra çıxmaq məndən ötrü əzaba çevrildi. Onu xəyalda, yoxsa aşkarda gördüyümü dərk eləyə bilmirdim, bəlkə, elə bu səbəbdən Şamdan getmək qərarına gəldim.

Qərarım Nemətəddin Kəşani üçün gözlənilməz oldu. Hər halda, neçə illər ərzində bir-birimizə isinmişdik, bu şəhərdə halımı düşünən, qeydimə qalan iki nəfərdən biriydi, üstəlik, hələ ruhuyla əlaqəsini tamam üzməmişdi, dünya nemətlərindən əl çəkmək iqtidarında olmasa da, hal əhlinə hörmət-izzət göstərirdi. İndiyəcən pul-para yardımını qəbul eləməmişçdim, amma həmişə yanımda olmuş, ən məhrəm sirlərini belə mənimlə bölüşmüşdü. Bir daha görüşüb-görüşməyəcəyimizi bilmirdim, heç özünün də buna inamı yoxudu. Zübeyir əl-Cibalisə, əksinə, qərarımı sakit qarşıladı, dedi, yaxanı buraxmayan bu halət ki, var, gec-tez səni yollara salacaqdı, axtardığını tapmayınca durub-dincəlməyəcəksən. Zübeyir də mənə iqtidarı çatan qədər dözüm göstərmiş, susqunluğuma, acı sözlərimə, adamayovuşmazlığıma səbirlə tab gətirmişdi. Şübhəsiz, hər ikisini yaşadığım müddətdə şükranlıqla xatırlayacaqdım. Təsadüfən qarşılaşdığım Allah bəndələrinəsə bağlanmamışdım, fikirləşmişdim ki, heç ehtiyac olmadan həyatına girən adamlar qəfildən qarşına çıxır, boş yerə günlərini, həftələrini, aylarını bəlkə də illərini alır, yersizcəsinə beynindən keçən bütün düşüncələrə qarışır, ehtiyac duymadığın halda səni istəmədiyin qədər xoşbəxt eləyir, səndən xəbrsiz həyatını bəlkə də əvvəlki yaşantılarını unutduracaq qədər dəyişdirir, sonra da qəfildən həyatından çıxıb gedirlər...

DÖRDÜNCÜ MƏQAM



ARXAMCA GƏZƏN KÖLGƏ

Sənə dilsiz-dodaqsız sözlər söyləyəcəyəm,
bütün qulaqlar üçün gizli sirlərdən bəhs eləyəcəyəm.
Bu sözləri sənə hamının içində söyləyəcəyəm,
amma səndən başqa heç kəs eşidib, anlamayacaq.





Olan-qalanımı - üstündə oturduğum köhnə həsiri, üzərində namaz qıldığım səccadəni, ağzı sınıq piyaləni, dəri su qabını, arasında çörək olan çit dəstərxanı – dağarcığıma qoyub, Təbrizdən çıxandan yol yoldaşım olan əl ağacımı götürüb qüzeyə doğru üz tutdum. Nə vaxt gedəcəyimi qəsdən nə Nemətəddinə, nə də Zübeyrə demişdim, çünki ömrümün on iki ilini keçirdiyim bu şəhərdən uləma, şeyx, yaxud səyyah kimi yola salınmağımı istəmirdim. Hələ ki, qəlbi sınıq aşiqdim, mənim tamamlamaq istədiyim, üstəlik, məni də tamamlayacaq *Allah məhbubu*nu tapmamış bir məkanda duruş gətirə bilməyəcəkdim. İllərlə mənə bu şəhərdə həyan olmuş kəsləri ehtiyac duymadığım adamlardan saymaqda bəlkə də haqsızlıq eləyirdim, amma hər ikisi bütün fəzilətləriylə yanaşı, *mənim axtardığım adam* deyildilər, olsa-olsa, yanında təsadüf üzündən, həm də müvəqqəti ayaq saxladığım, suyundan bir az içib sərinlədiyim kiçik çeşmələr, irmaqlar idilər, mənsə sonsuz ummandım, dənizə qovuşmaq, onu doldurmaq, kükrətmək atəşiylə alışıb-yanırdım, qovuşmayınca da rahatlığın nə olduğunu bilməyəcəkdim. İndiyəcən üz tutduğum yerlərdə yaxşı dost tapmaq üçün dua eləmişdim, bundan sonra qədəm basdığım diyarlarda ancaq Can Dostumu arayıb-axtaracaqdım, qismətimdə vardısa, günlərin birində onu qarşıma çıxaracaq, qismətimə doğru getməsəm belə, qismətim gəlib məni tapacaqdı.

Hələb yolundakı karvanlardan uzaq gəzir, yorulanacan gedir, rast gəldiyim ağacların altında, kolların dibində, çəpərlərin böyründə, arxların üstündə, çeşmələrin başında nəfəsimi dərib, bir tikə çörəyimi yeyir, dincimi alır, oğrulardan, quldurlardan, soyğunçulardan qorxmadan axşamları-gecələri elə ordaca keçirirdim. Oğrulanmalı, talanmalı, ələ keçirilməli nəyim vardısa kimsənin əlləri çatmayacaq yerdə, açarı da *O*-nun əlindəydi. Onsuz da özümə lazım olandan artıq bir şey götürməməyə öyrəşmişdim. Şeyx Mühyiddin söhbətlərimizin birində Məkkə ziyarətinə gedən vaxt Tunisdə başına gələn əhvalatı danışmışdı. Ona bu tərəflərdə müqəddəs şəxs yaşadığını söyləmişdilər, Şeyx də, əlbəttə, həmin Allah bəndəsindəki müqəddəsliyin nədən ibarət olduğunu soruşmuş, cavabında həqiqəti öyrənmişdi: o müqəddəs adam səhrada, gildən tikilmiş daxmada yaşayan balıqçıymış, neçə illərdi, hər gün dənizə gedər, üç balıq tutar, şikarının gövdələrini aclara, yoxsullara paylayır, başlarını da özü bişirib yeyirmiş. Onda insanın gözəl fəzilətləri barədə danışan şeyx bu əhvalatı misal kimi çəkmiş, amma məndən ötrü nəfsini öldürmüş insanın rəvayətinə çevrilmişdi. Mən də bəzən belbağından qazandığımı ehtiyac sahiblərinə verib, günlərlə ac qalmışdım, deməli, Allahın sınağından hələ ki, çıxa bilirdim.

Şamın üç ağaclığına çatanda bir quyunun başında dayandım, su çəkib dəstamaz aldım, namazımı qıldım, şükür-sənadan sonra çörəyimi yeyəndə yanıma bir qoca çökdü. Görünür, yolu uzağıydı, sifətinin, alnının, əllərinin qırışlarında ağır keçən ömrün hekayəti vardı. Çörəyimin yarısını bölüb ona uzatdım, o da borclu qalmayıb iki xurma verdi. Qoca bir tikə çörəyi yeməmiş neçə dəfə dedi, Allahım, səndən sağlıq istəyirəm. Bu hərəkəti xoşuma gəlsə də, altında hikmət gizləndiyini duyub bu qədər duasının səbəbini soruşdum, dedi, əlim iş tutandan çörəyimi hamballıqla çıxarmışam, günlərin birində də çox ağır yük apardım, arada dincəlmək üçün yükü yerə qoydum, əllərimi qaldırıb

üzümü göyə tutdum ki, ya Rəbb, hər gün mənə ikicə havayı çörək versən, şükür eləyərəm, həmin məqamda da yaxınlıqda iki adam dalaşmağa başladı, aralamaq niyyətiylə onlara doğru getdim, biri əlindəki zopanı düşməninə vuranda mənə dəydi, başım yarıldı; dedi, darğanın adamları özlərini yetirdilər, ikisini də tutdular, mənim də qana bulaşdığımı görüb elə bildilər, davaya qarışmışam, yaxalayıb zindana atdılar, bir müddət zindanda qaldım; dedi, məhbuslara hər gün iki çörək verirdilər, bir gün gecə yuxumda gördüm, tanımadığım bir kimsə mənə deyir, sən hər gün iki havayı çörək istədin, amma Allahdan istəmədin, o da sənə həmin iki havayı çörəyi verdi; dedi, yuxudan oyandım, günahımı başa düşüb o gündən "Ey Rəbbim, mənə sağlıq ver" deyib dua elədim, günlərin birində hücrəmin qapısı açıldı, məni çağırdılar, günahımın bağışlandığını deyib buraxdılar, o vaxtdan da bu dua dilimdən düşmür.

Qocanın hekayəti xoşuma gəldi. Dedim, Rəsulullah *(ə)* buyurur ki, Allahdan sağlıq istəyin, bəndəyə imandan böyük nemət verilməyib. Qoca sözlərimdən xoşhal oldu, dəstərxana tökülmüş çörək qırıntılarını yığıb böyründəki daşın üstünə səpələdi ki, qarışqalar, cücülər, quşlar dənləsin. Yanaşı oturub uzun-uzadı susduq. Əslində, bir-birimizə danışmalı sözümüz də yoxudu: o Allahın fağır və halal bəndəsi təkcə hambal kimi onun-bunun yükünü yox, həm də ağır ömür yükü daşımışdı. Sonra səfərinin məramını özü söylədi: oğlu Hələbdə Sultaniyyə mədrəsəsində oxuyurmuş, dünyanın, həm də başqalarının yükünü daşıya-daşıya əlində-ovcunda nə vardısa, yığıb tifilinə veribmiş ki, savad alıb adam içinə çıxsın, amma oğlandan bir ildi, xəbər yoxmuş, indi gedib övladının başına nə gəldiyini öyrənmək istəyirmiş. O məqamda yadıma validim Məlikdad oğlu Əli düşdü, mənim oxuyub-yazmağımdan nə qədər fərəhləndiyin, hamı kimi evlənib ailə-uşaq yiyəsi olmağımı, mədrəsədə müdərrəslik eləməyimi necə arzuladığını, O-na varmaq istədiyimdən xəbər tutanda

nə hala düşdüyünü xatırladım. Bəlkə də bu səbəbdən, qocanı yarıyolda qoymamağı, Hələbəcən çatdırmağı, mümkün olsa, oğlunu tapıb qovuşdurmağı qərara aldım.

Hambal Nizarın sükutunu daha çox sevdim. Addımladığımız müddətdə vaxtı keçirmək xətrinə ağlına gələni danışmaq şakəri yoxudu, başını aşağı salıb ayaqlarının altına baxa, əl ağacını yerə ehmalca vura-vura addımlayır, şikayətlənib-vaysınmır, ağır keçən ömrünün qisasını kimsədən almaq fikrinə düşmürdü. Məndən də kim olduğumu, hardan gəldiyimi, Hələbə niyə getdiyimi soruşmadı, bircə artıq sual belə vermədi. Yol yoldaşı olduğumuz üç gün ərzində onun sükutundan çox şeylər öyrəndim: daha doğrusu, Allahın o fağır hambalının sükutunu adlı-sanlı şeyxlərin bəlağətli söhbətləriylə müqayisə elədim, hansından daha çox öyrəndiyimi fikirləşdim, belə qəraraa gəldim ki, sükut daha çox öyrədir, çünki o şeyxlərin, demək olar, hamısı Rəsullahın *(ə)* hədislərini, ya da başqa şeyxlərin söyləyib-yazdıqlarını təkrarlayırlar, üstəlik, söylədikləriylə yaşamları arasında dərin uçurum var; hambal Nizarsa susur, aləm, həyat, insanın fəzilətləri barədə düşünüb-daşınmağıma mane olmurdu. Hətta axır-axırda aramızda oxşarlıq da tapmağa başlamışdım: mən də onun kimi, güzəranımı zəhmətim hesabına təmin eləyir, öz ağrılarımın acısını başqalarından çıxarmağa çalışmır, ruhuma *doğma olan kəsi* tapmaq ümidiylə gedirdim. Amma fərqimiz də vardı: ona kimi axtardığı, həmin kəsi harda tapmalı olduğu məlum idi, mənsə *onun* kimliyini, harda yaşadığını bilmirdim...

***

...Hələbə Bab əl-Əhmər qapısından girdik, dərhal əl-Kəbir məscidinin əzəmətli minarələrini gördüm, elə o minarələri də tutub ikindi namazını qılmaq üçün getdik. Sorağını Təbrizdə Şeyx Əbu Bəkrdən eşitdiyim, Ərbildə, Bağdadda, Şamda

haqqında çox eşitdiyim məscidin əvvəlcə tamaşasına dalıb doyunca baxdım, sonra hambal Nizarla dəstəmaz aldıq, qapısından içəri addım atıb namazımızı qıldıq. Nizar, yəqin, duanın kəlmələrini söyləyə-söyləyə Hələbə gəlib çatdığına şükür eləyir, oğlunu sağ-salamat tapıb Şama könül rahatlığıyla dönməyi arzulayırdı. Mənsə *onun* eşqilə yola çıxdığımı, qismətimdə varsa, bəlkə, elə bu şəhərdə rastlaşacağımı düşünürdüm. Məsciddən çıxanda da Hələbdə qalıb-qalmamaq barədə götür-qoy eləyirdim. Əlbəttə, söhbət üç-beş gün ləngiməkdən getmirdi: *onu* bu şəhərdə gözləmək, axtarmaq üçün əlimdə nə qədər əsas olduğunu bilmirdim. Amma sanki qeybdən gələn, dönə-dönə eşitdiyim *səs* bu şəhərdə qalmalı olduğumu söyləyirdi. Şübhəsiz, əvvəlcə hambal Nizarın oğlunu tapmaq üçün Zahiriyyə mədrəsəsinə getməli, ata-oğulu qovuşdurandan sonra özüm barədə fikirləşməliydim. Əslində, heç fikirləşməli bir şey də yoxudu: münasib karvansarayda kiçik, sadə hücrə tutacaq, gündüzlər şəhərin küçələrini, tinlərini, bağlarını, dükan-bazarlarını dolaşacaq, *ondan* bir əlamət axtaracaqdım.

Əz-Zahir Qazinin oğlu Məlik Əzizin tikdirdiyi *(girişindəki kitabədə belə yazılmışdı)* Zahiriyyə mədrəsəsini də, hambal Nizarın oğlunu da tapmaq o qədər çətin olmadı. İyirmi yaşlarındakı, gözlərindən od yağan oğlanı görəndə istər-istəməz gəncliyimi xatırladım. Əlbət ki, özümü saxlaya bilməyib Şamda o qədər mədrəsə ola-ola niyə Hələbə gəldiyini də soruşdum, o cavan da cavab əvəzinə bir rəvayət danışdı, dedi, Misir ölkəsində bir cahil varmış, dərvişlər barədə ağzına gələni danışırmış, o hikmət sahiblərindən biri də cahili tapır, barmağındakı üzüyü çıxarıb ona verir, deyir, apar, bunu bir dirhəmə sat; dedi, cahil üzüyü bazara aparır, bir ağçaya satmaq istəyir, amma bir dirhəm belə verən olmur, qayıdıb hal-qəziyyəni dərvişə söyləyir, dərviş də deyir, indi apar zərgərin yanına, əsl dəyərinin nə qədər oldu-

ğunu soruş; dedi, cahil onun buyruğunu yerinə yetirir, zərgər üzüyün çox bahalı olduğunu, on dinar verə biləcəyini söyləyir, biçarə təəccüb içində geri qayıdıb, olub-keçəni dərvişə danışır, dərviş də deyir, bax, sənin dərvişlər barədə biliyin, adamların bu üzük haqqında bildiyi qədərdi. Hambal Nizarın oğlu axırda dedi, Şam mədrəsələrinə getdim, ola bilsin, ailəmizin vəziyyəti səbəbindən cürbəcür bəhanələrlə götürmədilər, mən də bir tay-tuşuma qoşulub Hələbə gəldim, ən böyük istəyim də mədrəsəni bitirb, validimin əziyyətlərinin əvəzini ödəməkdi. O məqamda düşündüm ki, bu cavan dediyini eləyəcək, mədrəsəni bitirib ya müdərris, ya da dəftərdar, katib, mustovfi olacaq, bəlkə də xeyli rahat yaşayacaq, mənim kimi sərgərdan ömür sürməyəcək. Sonra hambal Nizarla da, oğluyla da halallaşıb özümə gün ağlamağa getdim.

İki xangaha baş çəkəndən sonra Bab əl-Məqam qapısına yaxın İplikçilər karvasarayında münasib hücrə tapdım. Münasib deyəndə, qiymətini nəzərdə tuturam, hücrənin rahat olub-olmamasının məndən ötrü o qədər də dəyəri yoxdu. Həsirimi dağarcığımdan çıxarıb divarın dibinə sərdim, əl boyda kərpici də yanına qoydum, su qabımı, sınıq piyaləmi taxçada rahladım, beləcə, illərlə öyrəşdiyim düzənimi yenidən yaratdım. Sonra axşam namazımı qılıb, bir tikə çörəyimi yeyib, Allahıma şükür elədim. Özümü tanıyandan həyatımı bu cür yaşamağa, yaşadığım müddətcə məmnun olmağa, həm də Allahımı məmnun eləməyə çalışmalıydım; əlbəttə, bu müddətdə bədbəxtliklə də üzləşə bilərdim, amma heç vaxt ümidsiz, inamsız, şükürsüz olmayacaqdım. Zikrimi bitirdim, sonra kürəyimi divara söykədim, dağarcığımdan ip çıxarıb belbağı hörə-hörə Hələbə gəlişimdən nə gözlədiyim barədə düşünməyə başladım. Bəlkə, bu sevdadan əl çəkib, Təbrizə qayıdıb adi bir Allah bəndəsi kimi yaşamaq daha düzgün olardı. Yollara düşüb axtardıqlarım indi mənə əlçatmaz görünməyə başlamışdı: *O*-na yetmək nə

qədər əzab-əziyyətliydisə, *onu* tapmaq da o qədər çətiniydi. Amma dərk elədim ki, *getməli olduğum yolun* artıq yarısındayam, burdan geri dönməyə nə haqqım, nə də qətiyyətim var.

Günlərim bir-birinə oxşayırdı: səhər namazından sonra özümü bayıra atır, Hələbin küçələrini, tinlərini, bağlarını yarıbayğın halda dolaşır, dükan-bazara baş çəkir, belbağılardan satıb güzəran pulu qazanır, günorta qarşıma çıxan aşxanaların birində şorba içir, ikindi namazımı rast gəldiyim məscidlərin birində qılır, sonra qaranlıq düşənəcən dolaşıb hücrəmə qayıdır, axşam namazımı qılıb bir tikə çörəyimi yeyirdim. Dolaşdığım yerlərdə *onun* nəfəsini duymağa, əlamətini tapmağa can atır, hər dəfə də karvansaraya əliboş dönəndə günü sabah şələ-küləmi yığışdırıb bu şəhərdən getmək *(hara getmək barədə hələ qəti bir fikrim yoxudu)* barədə düşünür, amma səhər açılanda düşünüb-daşınmadan yenə oxşar günü yaşayırdım. Beləcə, heç bir ay keçməmişdi ki, şəhərin səkkiz qapısını, əvvəllər Bizans padşahının validəsi Yelenanın adını daşıyan kilsə olmuş, sultan Nəsirəddin Mahmudun külliyyəyə çevirdiyi Hələiyyəni, qaladan bir qədər aşağıdakı, Əmir Məcidəddinin tikdirdiyi əl-Mətbəx əl-Əcəmi sarayını, gavurların kilsə, həm də mətbəxi olan əl-Cibanini, əzəmətli Muqəddəmiyyə, Əz-Zahir Qazinin oğlu Məlik Əzizin tikdirdiyi Sultaniyyə, zövcəsinin artıq himini qoydurduğu Firdovsiyyə, bir az o tərəfdəki Kamiliyyə mədrəsələrini, şiələrin Hüseyn məscidini, məscidin yanındakı türbəni, əl-Nüktə məscidini, bir vaxt Həzrəti-Yəhyanın yoluyla gedənlərə məxsus Ulu İbrahim məbədi olmuş, yanandan sonra Məlik Əz-Zahirin təmir etdirib məscidə çevirdiyi Allah evini dolaşmış, kitabələrini oxumuş, demək olar, hamısında namaz qılmışdım.

Karvansarayçı məndən azca sinnli adam idi, ağası bir vaxt xırda çərçi kimi Qeysəriyyədən gəlmiş, illər sonra əli gətirib bu karvansarayı tikdirmişdi. Elmə-savada, aləmdə baş verənlərə maraq göstərir, fürsət düşən kimi, məni sorğu-suala tutur-

du. Arada şərbət gətirmək bəhanəsiylə hücrəmin qapısını döyür, olub-keçənlərdən danışır, qulaq asdığım müddətdə çıxıb getmək fikrinə düşmürdi. Hər gəlib-gedəndən bir xəbər öyrənir, öyrəndiyini də cinədanında saxlamaq ondan ötrü məşəqqətə çevrilir, danışıb yüngülləşmək üçün bir Allah bəndəsi axtarırdı. Onun sayəsində öyrəndim ki, mərhum Sultan Əlaəddin Keyqubad zindandan qurtulduğu günün gecəsi röyasında Ömər bin Muhəmməd əl-Sührrəvərdini görübmüş. Şeyx onun ayaqlarındakı bağı açmış, əlindən tutub qatıra mindirmiş, demişdi, məqsədinə çatdın, muradına yetdin; Sultan röyasını xeyirliyə yozub, şeyxun hümmətinin daim onunla olacağına inanmışdı; bir dəfə də röyasında başının qızıl, sinəsinin gümüş, göbəyindən aşağısının tunç, budlarının qurğuşun, qıçlarının da qalaydan olduğunu görür, üləmələr əl-Sührəvərdi, Bəhaəddin Vələdin olduğu məclisdə danışıb, onlardan bu müəmmanı yozmalarını təvəqqe eləyib. Bəhaəddin Vələd deyib, sultanım, əfv eləyin, sizdən sonra gələcək sultanlar zamanında qurulmuş nizam pozulacaq, xalqın rifahı qeyb olacaq.

Deyəsən, Bəhaəddin Vələdə ayan olan çin çıxırdı. Böyük Sultan Əlaəddin Keyqubad müəmmalı şəkildə Haqqa qovuşandan sonra taxt-tacın varisi İzzəddin Qılıncarslan ola-ola, Sadəddin Köpək, Şəmsəddin Altunəba, Tacəddin Pərvanə, Lələ Cəlaləddin, bir də Gürcüoğlu Zahirəddövlə dil tapıb taxta Qiyasəddin Keyxosrovu çıxarmış, Kəmaləddin Kamyar, Hüsaməddin Kayməri, Əmir Kayırxan da narazılıqlarını gizlədib dinməmişdilər. Qiyasəddin taxta çıxar-çıxmaz validinin öhdəliklərini təsdiqləmək məqsədiylə Qaraqoruma, Ögedey xanın hüzuruna heyət göndərmişdi. Elə o günlərdə də bir-birini didən qardaşlardan biri – Məlik Əşrəf də dünyadan köçmüş, taxtına Məlik Kamil Muhəmməd sahib olmuşdu. Əlaəddin Keyqubad Haqqa qovuşanda Məlik Əşrəf Şam qazı-ül-qüdatı Şəmsəddin əl-Xoyini, Hama əmiri məlik Müzəffər Şərəfəddin fəqih Mu-

hammәd әl-Ənsarini, Hәlәb әmiri Mәlik Nasir camaatın İbn-ül Adim kimi tanıdığı Kәmalәddin Ömәr ibn Cәradәni başsağlığını yetirmәk üçün Konyaya göndәribmiş. Üstәlik, İbn-ül Adim başsağlığını yetirәndәn sonra yeni sultanın da Mәlik Kamilә qarşı çıxmasını tәvәqqe eləmiş, razılığını almışdı. Sonra Mәlik Nasir daha da irәli gedib, Şәrafәddin İbn Әmir Candarı çox qiymәtli hәdiyyәlәrlә Sultan Qiyasәddinin yanına göndәrib, sultan da Әhlәt qazisi Övhәdәddini mәliyin hüzuruna yollayıb. Beläcә, Misir mәliyinin tezliklә aradan götürüläcәyi söylәnirmiş, deyilәnlәr dә az sonra Mәlik Әşrәfin ölümüylә öz tәsdiqini tapıb. Sultan Qiyasәddin onunla da, Hәlәb hökmdarı Mәlik Nasir Yusiflә dә validinin bağladığı itaәt razılaşmalarını yeniläyib. Belә görünürdü ki, Sәlcuqlu sultanı Diyari-Rumda yeni nizam qurmaq üçün әlläşir.

Amma elә o әrәfәdә dә Şamdan zidd xәbәrlәr gәlmәyә başlamışdı. Әşrәfin ölümünü fürsәt bilәn Kamil qarmaqarışıqlıqdan istifadә eläyib şәhәri әlә keçirmişdi, indi dә Hәlәb üzәrinә gәlmәyә hazırlaşırdı. Deyilәnlәrdәn belә çıxırdı, Sultan Qiyasәddin onun yanına elçi göndәrib, bu niyyәtindәn әl çәkmәyi tövsiyә eläyib, Mәlik Kamilsә qulaq asmayıb, Hәlәb mәlikliyinin torpaqlarına girib, şәhәrә yaxınlaşır. Hamı çaşqın, narahat görünür, bir neçә gündәn sonra güney sәmtindә döyüş başlanacağından danışırdı. Amma gözlәnilmәdәn Mәlik Kamilin öldüyü, qoşunun başsız qalıb Misirә qayıtdığı barәdә xәbәr camaatı әmälli-başlı sevindirdi. Bir müddәt sonra da Sultan Qiyasәddinin Misir taxtında oturmuş Mәlik Adilin yanına elçisini göndәrib başsağlığı verdiyi, bununla da aralarında әmin-amanlıq yarandığı barәdә söz-söhbәt gәzdi. Fitrәdәddin, görünür, karvansarayda başqa münasib Allah bәndәsi tapmadığından, bütün bunları mәnә çatdırmaq üçün şәhәrdәn qayıtmağımı sәbirsizliklә gözläyir, ürәyini yüngülläşdirәndәn sonra gözgörәti rahatlanır, bu müddәtdә candәrdi boşaltdığım piyaläni götürüb

xeyirli gecə arzulayır, çıxıb hücrəmin qapısını könül rahatlığıyla çəkirdi. Mən də o gedəndən sonra eşitdiklərimi götür-qoy eləyir, düşüncələrimin üçünü bir tərəfə çıxara bilmirdim.

Bir axşam da Fitrəddin yeni xəbərlərin yoxluğundanmı, yoxsa söyləməyi vacib saymadığındanmı, üz-gözündə müəmmalı ifadə, bu hücrədə əvvəllər kimin yaşadığını bilib-bilmədiyimi soruşdu. Əlbət ki, bilmirdim, elə belə də dedim, karvansarayçı eyni ifadəylə də Yaqut əl-Həməvini tanıyıb-tanımadığım barədə sual verdi. Şübhəsiz, tanıyırdım, üsbəsurət görməsəm də barəsində Şeyx Şəhabəddindən də, Nurəddin Məsuddan da çox eşitmişdim: bağdadlı tacir Əsgər əl-Həməvinin aldığı rumlu kölə ağlı, qabiliyyətiylə hamının könlünə giribmiş, üstəlik, olduqca gözəl xətti varmış; kitablara böyük maraq göstərən tacir də azad eləyib Yaqub adı verdiyi, amma hamının Yaqut kimi tanıdığı oğlanı Əmmana, Misirə, Hicaza, Şama göndərib, qiymətli kitabların üzünü köçürtdürmüşdü. Xəttat gənc səfər elədiyi məmləkətlər barədə yaza-yaza tarixçi kimi də tanınmışdı, yazdığı saysız-hesabsız kitablarından birini də Bağdadda olanda oxumuşdum. Əlbəttə, faydalı işə girişmişdi, amma görünür, ərəbcəni yaxşı bilmədiyindən, səhvləri də az deyildi. Nurəddin Məsudun dediyinə görə, Şamda olanda ağzından Həzrəti-Əli əleyhinə naqolay söz buraxmış, ətrafındakılar o sözü böyük narazılıqla qarşılamış, Yaqut da ağasının, illah da xəlifənin qəzəbinə tuş gələcəyindən qorxub Mosula, qaçmış, sonra Xorasana, Mərvə səyahət eləmiş, Cəbə Noyonla Subutay Bahadur bu tərəfə üz tutanda səs-soraqsız itmişdi. O vaxtdan Bağdadda xəttat-səyyahın öldüyünü güman eləyirdilər.

İndi karvansarayçının dediklərindən belə çıxırdı, binəva Yaqut əl-Həməvi o vaxt ölməyib, gəlib Hələbə çıxıb, İbn-ül-Kiftinin himayəsinə sığınıbmış. Amma az sonra hamisi rəhmətə getmiş, o qərib də əlində olan-qalan pulunu xərcləyəndən sonra ağır vəziyyətə düşmüşdü. Fitrətəddinin dediyinə

görə, bu hücrəni də o çarəsiz günlərin birində tutmuşdu, qələmə aldığı, üzünü köçürdüyü kitablarından başqa heç nəyi yoxudu, özü də gecə-gündüz yazır, hücrəsindən yalnız ehtiyac olanda çıxırdı. Karvansarayçı dedi, onun yazdıqlarından xəbər tutanda heç haqq almağı da ağlıma gətirmirdim, rəhmim gəldi, əksinə, imkanım çatan qədər kömək elədim, gündəlik yemək-içməyini verdim, yanına da bircə dostu İzzəddin İbn-ül Əsir gəlirdi: dedi, axır vaxtlar *(karvansarayçının söylədiklərindən belə başa düşdüm ki, yeddi-səkkiz il əvvəlin söhbətini eləyir)* elə haldan düşmüşdü, heç hücrəsindən belə çıxa bilmirdi, onda İbn-ül Əsir şəhərin ən yaxşı təbibini gətirdi, ətraflı müayinədən sonra məlum oldu ki, böyrəkləri sıradan çıxıb, son həftələrini yaşayır; dedi, bunu özü də başa düşmüşdü, təbib gedəndən sonra İbn-ül Əsirə dedi, mənim kitablarımı Bağdada aparıb, Zeydi məscidinin kitabxanasına verərsən; dedi, ölümü də çox sakit oldu: bir gün şərbət gətirəndə Əl-Həməvinin bu dünyayla vidalaşdığını gördüm, cəld İbn-ül Əsirin dalınca adam göndərdim, biçarə əl-Həməvini torpağa beş-on nəfərlə tapşırdıq. Bu kədərli əhvalatı eşidəndə gözlərimin önündən öz taleyim keçdi, günlərin birində hansı şəhərin karvansarayındasa, eynilə Yaqut əl-Həməvi kimi, dünyadan köçəcəkdim, olub-qalanımsa ancaq yaddaşlarda yaşayacaqdı...

***

...O payız Hələbdə ab-hava bir qədər narahat, həm də həyəcanlıydı. Narahatlıq türkmanlar sarıdan yaranmışdı: gündoğandan axın-axın gələn Kayı, Eymür, Bayat, Karaevli, İğdir, Yazır, Döğər, Dodurga, Avşar, Kızık, Bəydili, Yürəğir, Yıva, Büğdüz, Kınık boyları Diyari-Rumda yerləşməyə can atır, amma Sultan Qiyasəddinin sarayında söz yiyəsi olan Əcəm və Rum kökənli əyan-əşrəf, əmirlər də bunu özlərinə təhlükə sayırdılar. Türkman Kanqar bəyin dəstələri Hələb məlikliyinin quzeyində məskən

salıb Konyadan, Qeysəriyyədən, Sivasdan, Ərzincandan, Ərzurumdan, Malatyadan, Amiddən... gələn karvanları soymaqla güzəranlarını təmin eləməyə can atırdı. Fitrətəddin, az qala, həftədə bir neçə dəfə hücrəmin qapısını ah-vayla, soyğunçalara lənət yağdıra-yağdıra açır, onların üzündən daimi müsafirlərini itirdiyini söyləyirdi. Bir gəlişində dedi, məlik Nasir Sultan Qiyaseddinin yanına elçi göndərib, türkmanların soyğunçuluğuna son qoymağı təvəqqe eləyib. Həqiqətən, heç iki ay keçmədi ki, soyğunçuluğun arası kəsildi, Fitrətəddinin də üzü güldü. Bir ay sonra da ultan Qiyasəddin Tokat qazisi İzzəddini elçi göndərib Məlik Nəsirin bacısı Qaziyyə Xatunu istədi, üstəlik, öz bacısı Məlikə Xatunu da Məlik Nəsirə təklif elədi. Razılıq əldə olunandan sonra Məlik Nasir Hənəfi məzhəbi ənənəsi üzrə əlli min dinar başlıq müqabilində Qaziyyə Xatunu İbn-ül Adimlə Qeysəriyyəyə göndərdi, sonra əlli min dinar başlıq müqabilində də Kəmaləddin Kamyar Məlikə Xatunu Hələbə gətirdi. Sən demə, Sultan Qiyasəddin bu qohumluqda uzaq məqsəd güdürmüş: nikahlar qıyılandan az sonra sultan qazı İzzəddini göndərib məlikdən Hələbdə öz adına xütbə oxunmasını, həm də pul zərb olunmasını tələb elədi. Karvansarayçının dediyinə görə, Məlik Basir yarıkönül də olsa, razılaşmaqdan başqa çıxış yolu görməyib, validəsisə hələ ki, ipə-sapa yatmır, amma onun da yola gələcəyinə şübhə yoxdu, çünki tatarların qarşısında tək qalmaq istəməz.

Karvansarayçı Fitrətəddin özünəxas həvəslə bəzi gizlin mətləbləri də açıqladı: sən demə, Əlaəddin Keyqubad Alaiyyə hakimi Kir Fərdin qızından doğulmuş İzzəddinlə Rüknəddin, Əyyubi məlikəsinin dünyaya gətirdiyi Qiyasəddin adlı üç oğlu varmış, Haqqa qovuşmamışdan qabaq da böyük oğlu Qiyasəddinin taxtda oturmaq üçün yetərincə qabiliyyət sahibi olmadığı qənaətinə varıb İzzəddini vəliəhd seçibmiş, amma padşah Haqqın dərgahına ucalandan sonra əyan-əşrəfin çoxu daha asan

əldə saxlayacaqlarını, istədiklərini işə keçirə biləcəklərini düşünüb Qiyasəddinin tərəfini seçiblər. Sadəddin Köpək, Cəlaləddin Fərrux, Gürcüoğlu Zahirəddövlə mərhumun hökmünü yox sayıb, Əyyubi məlikəylə oğlunun yanında durublar. Kəmaləddin Kamyarla Xarəzmşah bəylərindən olan Kayırxan İzzəddinin tərəfindəymişlər, amma qarşı tərəfin açıq-aşkar üstünlüyünü görəndə razılaşmaqdan başqa əlacları qalmayıb. Əlbəttə, bir müddət sonra onların nəyə görə Qiyasəddini seçdiklərinin səbəbi məlum olacaqdı, çünki sirri sandıqda uzun müddət saxlamaq mümkün deyil – Fitrətəddin belə hesab eləyir, mülahizələri də get-gedə doğru çıxırdı.

Sultan Qiyasəddin taxta çıxandan sonra Əyyubi validəsiylə Sadəddin Köpəyin sayəsində üzünü bəri çevirdi, Əmir Köpək onun əliylə əvvəlcə özünə düşmən saydığı Xarəzm bəylərini aradan götürməyə başladı. Cəmi iki ay sonra Kəmaləddin Kamyarın ələ keçirilib Zamantı qalasına salındığını, ardınca da müəmmalı şəkildə öldüyünü Fitrətəddindən eşitdim. Qalan Xarəzm bəyləri Şam hüdudlarına çəkilib soyğunçuluq eləməyə, açıq-aşkar təhdidə çevrilməyə başladılar. Məliklər sultana şikayətlənib bu bəladan qurtulmaq üçün imdad istəyəndə Qiyasəddin gürcü prinsesiylə evlənmək hayındaydı, onların harayına ancaq vüsala yetişəndən sonra hay verdi. Amma Sultan Qiyasəddin yenə Sadəddin Köpəyin məsləhətiylə Xarəzm bəylərinə qarşı getmədi, onları ram eləməyə çalışdı, Məcidəddin Tərcümanı bahalı xələtlər, qızıl qəbzəli xəncərlər, gözəl atlarla türkmanların yanına göndərib əmin-amanlıq, itaət istədi, bəylər də məsləhət-məşvərətdən sonra yurd saldıqları torpaqların sultana məxsus olduğunu, izin versə, yenidən onun xidmətinə qayıdacaqlarını, taxt-taca xidmət eləyəcəklərini bildirdilər. Bərkə xanın, Güclü xanın, Saru xanın əmin-amanlıq yolu seçməsi hökmdarı çox sevindirmişdi, artıq məmləkətin gündoğanında da, güneyində də ciddi təhlükə olmadığına əminiydi.

Amma o vaxt Şamda başqa vaqeələrin şahidi olurduq. Fitrətəddinin dediyinə görə, hələ ötən il Misir məliyi Kamil elçilərini Sultan Əlaəddinin yanına göndəribmiş. Heyətlər Konyaya gedib-gələndə Hələbdə dayandıqlarına görə, Fitrətəddin məsələdən xəbərdardı. Elçilər mənzil başına çatanda artıq böyük Sultan Haqqa qovuşmuş, taxt-tacı Qiyasəddinə qismət olmuş, gedənlər də yeniyetmə hökmdarın hüzuruna çıxmaq məcburiyyətində qalmışdılar. Amma Kamilin oğlu məlik Saleh Nəcməddin xarəzmliləri əl-Cəzirədə torpaqlarla şirnikdirib öz tərəfinə çəkmişdi, onlar da açıq-aşkar cəsarətlənib sultanın üzünə ağ olmağa başlamışdılar. Fitrətəddinin fikrincə, bu gec-tez toqquşmayla başa çatacaq, çoxlu qan töküləcəkdi. Onun təkcə şəhərdə yox, məmləkətdə, üstəlik, yaxın-uzaq məmləkətlərdə vaqeələrə belə marağı ağlagəlməz məsələydi. Deyirdi, neynim, mənim də işim budu, hər gəlib-gedənlə kəlmə kəsirəm, çoxlu vaqeələrdən xəbər tuturam, eşitdiklərim də içimdə üst-üstə qalanıb ağırlaşır, dözülməz yükə çevrilir, bu səbəbdən, sənin kimi, dinləməyi sevən, səbirlə qulaq asan bir Allah bəndəsinə rast gələndə o yükdən azad olmaq fürsəti yaranır: deyirdi, dinləmək də Allahın bəxş elədiyi qabiliyyətdi, mən dinləmək sarıdan naqis olduğuma görə, mədrəsədə müdərris, dəftərxanada katib ola bilmədim, qismətimə bu düşdü.

Fitrətəddini anlayır, həm də haqq verirdim, çünki taleyimizdə oxşarlıq vardı. Mən də mədrəsəni bitirəndən sonra müdərrislik eləyə, Atabəy Özbəyin qulluğuna girə, ən azı, kitab üzü köçürməklə dolana bilərdim. Amma içimdə yanan atəş, həm də üst-üstə yığılan, gündən-günə ağırlaşan ilahi fitrət rahat yaşamağıma imkan vermədi. Üstəlik, mənə bəxş olunan mədrəsələrdə dərs deməklə, məscidlərdə vəəz eləməklə, meyxanalarda danışmaqla yüngülləşəcək *yük* deyildi, bu aləmdə o yükü qəbul eləyəcək *bir Allah bəndəsi* də vardı. Düzdü, hələ *onun* kim olduğunu, harda yaşadığını, hansı peşəyə könül verdiyini bilmir-

dim, amma *nəfəsini* duyur, *qoxusunu* alırdım, get-gedə bir-birimizə yaxınlaşırdıq. Günlərin birində, bəlkə, bu qoca Hələbin küçələrində, bəlkə, yolum düşəcək başqa şəhərdə *onunla* üzüzə gələcək, izahsız-filansız əl-ələ tutub xəlvətə girəcək, bir-birimizə doğru gəldiyimiz uzun yolun əzablarını unudub vüsala çatacaqdıq. *O,* xəlvətdən tamam başqa bir Allah bəndəsi, *Allah aşiqi* kimi çıxacaq, öz içinin atəşini sözlərə çevirib çeşmə kimi axıdacaqdı.

Küçələrdə, çarşı-bazarda, meydanda mənə elə gəlirdi, axtardığım *o Allah bəndəsi* kölgə kimi arxamca gəlir, hətta bəzən *nəfəsini* boynumun ardında hiss eləyir, həmin məqamda bədənimi soyuq tər basır, canımda gizilti duyur, qəfil dönüb geri baxmaqdan özümü güclə saxlayır, illərlə gəzdiyim *məşuqu* hürküdəcəyimdən qorxurdum. Bir kərə meydana yaxın aşxanada şorba içirdim. Qəfildən kürəyim, boynumun ardı, başımın arxa tərəfi alışıb-yandı, bir cüt gözün ox kimi cismimə sancıldığını açıq-aşkar duydum. Bir müddət geri çevrilməyə ehtiyat eləyib o sehri qəfil hərəkətlə dağıtmaqdan qorxdum. Axır ki, canımdakı vəsvəsəyə üstün gəlib başımı döndərəndə *onun* ancaq yelini, daha doğrusu, çalmasının qapı arasında yellənən ucunu gördüm. Bəlkə, yerimdən vaxtında sıçrasaydım, bayırda yaxalaya bilərdim, amma tərpənmək əvəzinə donub qaldım, özümü bayıra atanda tini dönən kölgəsini gördüm, tinə yetirəndəsə artıq geciydi, *o,* elə bil, buxarlanıb uçmuşdu. Geri dönüb aşxanaçıdan bayaq içəridən çıxan adamı tanıyıb-tanımadığını soruşdum, o da hər gün onlarla, yüzlərlə adam gördüyünü, hamını yadında saxlaya bilmədiyini söylədi, həmin məhəllədə sorğu-suala çəkdiyim kəslər də adam-filan görmədiklərini dedilər. Beləcə, şər qarışanacan o ətrafda vurğun vurmuş kimi dolaşdım, fikirləşdim, niyyət elədiklərim olmursa, ya haqqım, ya da haqqımda xeyirlisi deyil. Axırda vaxtı ötürüb namaza gecikdim, əndişəli günlərimsə dözülməz həddə çatdı...

***

...Bir gecə də kürəyimi divara söykəyib belbağı hörə-hörə sanki huşa getmişdim, qəfildən kimsə məni çağırdı. Gördüm qapı bağlı, pəncərə açıqdı, elə can köynəyində, ayağı yalın halda pəncərədən çıxdım, amma yerə enmədim, göyə ucaldım, get-gedə yüngülləşib qov kimi oldum, ağaclardan, evlərdən yuxarı qalxdım, çəkisizlikdə uçdum, həmin məqamda da qulağıma səs gəldi: *"Ey Şəms, sənə demişdik, hər şeyin öz zamanı var, şübhəsiz, sən də zamanında ona qovuşacaqsan! Hələ qovuşmamısansa, deməli, bunun bir səbəbi var: ya sən yetkinliyin son həddinə çatmamısan, ya da o hələ sənin yükünü qəbul eləmək iqtidarında deyil. Get, yoluna davam elə, bil ki, ona yeddi qapıdan keçəndən sonra qovuşacaqsan!"* Sonra bir müddət boşluqda hərəkətsiz qaldım, ardınca aşağı endiyimi hiss elədim. Özümə gələndə pəncərənin ağzında elə can köynəyindəcə uzanmışdım, xeyli müddət, həqiqətən, pəncərədən çıxıb göyə ucaldığımı, yoxsa bütün bunların qarabasma olduğunu anışdıra bilmədim, sonra qeybdən gələn səsi xatırlayıb mənasını saf-çürük eləməyə başladım. Birinci qapı, əlbəttə, Şeyx Əbubəkir Səllabafın, ikincisi Şeyx Övhədəddin Kirmaninin, üçüncüsü Şeyx Şəhabəddin Sührəvərdinin dərgahına məxsusuydu. Ömrümün uzun-uzadı illərini keçirdiyim Şamda ilk dəfə *onun* nəfəsini və qoxusunu almağım dördüncü qapı olmalıydı. Bu gerçəyə Hələbdə yetişdiyimə görə, buranı qapı saymağa hacət yoxudu. Belə çıxırdı, qarşımda hələ üç qapı var, amma o qapıların üzümə harda açılacağını hələ bilmirdim.

Hələbdən ayrılmaq vaxtının çatdığını da elə həmin məqamda dərk elədim. Bu şəhərdə qalıb, karvansarayçı Fitrətəddinin vaqeələrini dinləyə-dinləyə qapıların açılmasını gözləyə bilməzdim, özüm o qapılara doğru getməli, tapıb açmalıydım. On dörd ay qaldığım bu şəhər, şübhəsiz, hafizəmdən silinməyəcək, yadımda *həqiqəti dərk elədiyim məkan* kimi qalacaqdı. Bur-

da dünyanın altını da, üstünü də bilən, baş verən vaqeələrdən tez xəbər tutan karvansarayçı Fitrətəddinə rast gəlmiş, bəxtsiz Yaqut əl-Həməvinin kədərli taleyindən xəbər tutmuşdum. Bir ona heyifsilənirdim ki, İzzəddin İbn-ül-Əsiri tapmağa, o kitabların Bağdada çatdırılıb-çatdırılmadığını öyrənməyə həvəs göstərmədim. Yəqin, onun əmanətə xəyanət eləməyəcəyini düşündüyümdən, bəlkə, elə əlyazmaların yandığına, itib-batdığına inanmadığımdan buna cəhd göstərmədim. İndiyəcən dağarcığımda kitab olmamışdı, bir kərə karvansarayçı Fitrətəddin də heyrət içində bunun səbəbini soruşmuşdu, demişdim, Allahın bəxş elədiyi ağlım ola-ola başqasının ağlını özümlə gəzdirməyə ehtiyac duymuram. Fikrimlə razılaşmasa da, dillənməmişdi. Amma məsələnin başqa bir tərəfi də vardı: *mən xəlvətə girəndə nəfsimi bu sarıdan da öldürmüşdüm, artıq saydığım şeyləri beynimə yaxın buraxmaq istəmirdim.*

Yaqut əl-Həməvinin qəbrini ziyarət eləməyisə özümə borc bildim. Əslində, ona xüsusi marağım, bağlılığım yoxudu, sadəcə bir vaxt İsa Məsih hümməti kimi doğulmuş adamın dünyadan Muhammməd hümməti kimi köçməsindəki sehri anlamaq istəyirdim. Ən azı, Şamda Həzrəti-Əli tərəfdarlarının qəzəbinə tuş gələndən sonra niyə günbatana qaçmamış, öz dininə qayıdıb rahat yaşamamış, məşəqqətlərə dözə-dözə, ərəbcəni kamil bilməyə-bilməyə bu qədər kitab yazmış, ömrünü mənim sığındığım hücrədə, həm də yoxsulluq içində başa vurmuş, üstəlik, yazdıqlarının Bağdada çatdırılmasını arzulamışdı? Başdaşının üzərindəki yazı pozulacaq, qəbir torpaqla bərabər olacaq, amma Bağdadın Zeydi məscidinin kitabxanasındakı o kitablar bir vaxt qədirbilənlərin əlinə düşəcək, mədrəsələrdə oxudulacaqdı. Elə Şeyx Şəhabəddinin də, Şeyx Mühyiddinin də kitabları bir vaxt əl-əl gəzəcəkdi. *"Bəs sənin halın necə olacaq, ey Şəms?* – özümdən soruşdum. - *Ömür gəlib yarıdan keçdi, əlin qələmə yatmadı, aradığını hələ tapa bilməmisən, günlərin birində bu*

fani dünyadan beləcə köçsən, aləmdə nişanən qalacaqmı? Qarşında qalan üç qapının barindən keçə, Ona qovuşa bilməsən, yaşamının bir mənası olacaqmı?" Binəva Yaqutun qəbri üstündə fatihə oxuyub üzüaşağı, karvansaraya sarı enəndən *kiminsə nəfəsini* lap açıq-aşkar hiss elədim, amma bu dəfə yıxılıb özümdən getmək əvəzinə anlaşılmaz əndişə duydum, ayaq saxlayıb ha boylandımsa, bir kəsi görə bilmədim...

Yola düşən günəcən hara üz tutacağımı kəsdirməmişdim: əlbət ki, Şama, ordan da Bağdada qayıtmayacaqdım, günbatanda keçilməz ümman vardı, bu səbəbdən, üzü quzeyə yollanmaqdan başqa seçimim qalmırdı. Quzeydə padşahlar şəhəri Qeysəriyyə, Səlcuqlu məmləkətinin iki baş şəhəri Konya və Sivas, Malatya, Ağsaray, Ərzincan, Ərzurum, Urfa, Amid... vardı, o şəhərlərin birində nəfəsimi dərib taleyimin sonrasını götür-qoy eləyə bilərdim. Şeyx Şəhabəddini yola salanda bir vaxt o yerlərə üz tutacağım heç vaxt ağlıma gəlməmişdi. Sonra Nemətəddin Kaşani Konyadan gəlmiş elçilərdən Şeyxin sonrakı hekayətini eşidib mənə danışmışdı. Yolda xəlifə Nasirin çaparı özünü yetirib çox vacib məktubu o vaxt Konyada olan Əlaəddin Keykubada çatdırmağı buyurmuş, Şeyx də yolunu dəyişməli, Sultanın iqamətgahına üz tutmalı olmuşdu. Malatyada Nəcməddin Kübranın müridi Nəcməddin Daye onun görüşünə gəlmiş, hörmət-izzətini bildirmiş, "Mirəc dül-İbad" əsərini hökmdara çatdırmağı təvəqqe eləmiş, Şeyx də boyun qaçırmayıb istəyini yerinə yetirmişdi. Ayrılanda Şeyx ona demişdi, övladım, padşahlarla yaxınlıq nə qədər doğru olmasa da, bu gənc, dindar, elmdən tam nəsibini almış, təsəvvür mənsublarına da bağlı qalan Sultanın xidmətinə gir, Diyari-Rum əhlinə faydalı ol. Nəcməddin Daye – Abdullah ər-Razi də Şeyxin nəsihətini eşidib hökmdarın xidmətində səy göstərmişdi. Fikrimcə, bəd ayaqda Malatyaya üz tutub Nəcməddin Dayenin yanına gedə bilərdim.

Elə Şeyx Övhədəddin də Xorasandan Diyari-Ruma yollananda əvvəlcə Malatyada əyləşmiş, müridlərini yerləşdirmək, xalqa xidmət eləmək üçün dərgah istəmiş, amma istəyinə diqqət göstərilməyəndə gedib Qeysəriyyəyədə məskunlaşmış, Övhədiyyə dərgahını qurub camaatı gündoğandan gələn fəlakətə qarşı hazırlamağa girişmişdi. Əlbət ki, Ərbildə bununla bağlı çox şey danışmamışdı, amma yanına tez-tez dərviş qılığında müsafirlər gəldiyini, hüçrəsində uzun-uzadı danışdıqlarını, sonra onların elə gəldikləri kimi, kölgəsayaq yox olduqlarını sezmişdim, bildiyim də təkcə o dərvişlərin Səlcuqlu məmləkətinə, Diyari-Ruma üz tutmalarıydı. Bir vaxt Qeysəriyyədə ən sayılıb-seçilən zatlardan olan Şeyx Övhədəddinin xətrinə orda da yerləşə bilərdim. Şeyxlə Sultan Əlaəddin arasındakı çox məhrəm bağlar olduğunu da Fitrətəddin söyləmişdi: Qeysəriyyədə əmirlər türkman əhlinə qarşı haqsızlığa yol verəndə Şeyx Övhədəddin tez hökmdara məktub göndərmiş, o da gəlib qardaşı İzzəddinin güvəndiyi əmirləri – çilingir Əmir Seyfəddin Ayəbanı, əmir-axur Zeynəddin Başaranı, əmiri-məclis Mübarizəddin Bəhramşahı elə bir məclisdəcə zəhərlədib aradan götürmüşdü. Fitrədəddinin dediyinə görə, Sultanın sarayında məqam, həm də söz sahibi olan Kəmaləddin Kamyar da, Cəlaləddin Karatay da Övhədiyyə dərgahına bağlı olmuşdular.

O axşam Fitrətəddinə fikrimi söyləyəndə heç təəccüblənmədi, bir xeyli gözlərimin içinə baxdı, sonra iki qardaş barəsində rəvayəti danışdı: bir kənddə biri subay, digəri evli olan iki qardaş yaşayır, işləyir, hər günün sonunda ruzilərini bölüşürlərmiş; subay qardaş fikirləşir, mən subayam, o qədər də ehtiyacım yoxdu, amma qardaşımın böyük külfəti var, qazancımızı yarıbayarı bölmək Haqq işi deyil; o gündən hər gecə öz taxılından bir çuval doldurub gizlicə onun anbarına aparırmış; evli qardaş da fikirləşir, qazancımızı yarıbayarı bölmək Haqq işi deyil, mən külfət yiyəsiyəm, qocalanda qeydimə qalanlar

olacaq, amma qardaşımın özünə koma qurmağa ehtiyacı var, o da hər gecə bir çuval taxılı gizlicə qardaşının anbarına aparırmış; beləcə, illərlə məsələnin əslini, anbarlarındakı taxılın niyə artıb-azalmadığının sirrini anlaya bilməyiblər; amma bir gecə bellərində taxıl çuvalı yarıyolda üz-üzə gəlirlər, hər şey aydın olur, çuvalları atıb bir-birini qucaqlayırlar. O, sözünü bitirib susdu, mən də vaxtiylə Şeyx Övhədəddindən eşitdiyim bu rəvayətdən Fitrətəddinin kim olduğunu anladım: bu əxi işarəsi Allah bəndələrinin həmişə bir-birinə yardım eləməli olduğunu bildirirdi. Fitrətəddin mənə Diyari-Rumun, eləcə də qonşu məmləkətlərin hər birində üz tutmalı, yardım istəməli bir kəs tapılacağını eşitdirirdi.

O söhbətimizdən də Qeysəriyyəyə üz tutacağımı anladım. Ən azı, Məqəsri-üləmada - üləmaların qərar tutduqları şəhərdə - Şeyx Övhədəddinin müridlərindən biri, həmşəhərlim Kamili-Təbrizi – Kəmaləddin Muhammməd Təbrizi yaşayırdı, şeyx Ərbilə üz tutanda o, görünür, sultanla aralarında bağ olmaq məqsədiylə qalmış, hökmdarın əlini öpmək xoşbəxtliyinə nail olmuşdu. O vaxt Səlcuqlu əmirləri türkmanlara qarşı qəsd hazırlayanda Şeyx Övhədəddinin məktubunu Böyük Sultanın hüzuruna Kamili-Təbrizi aparıb, öz ədəbi, zəkası, elmiylə hökmdarı heyran eləyibmiş. Yəqin, indi də gündoğandan gələn fəlakətin daha da böyüdüyü bir vaxtda şeyxinin vəsiyyətlərini gerçəkləşdirməklə məşğuldu. Əlbəttə, Kamili-Təbriziylə çiyin-çiyinə verib xalqı fəlakətdən qorumaq yolunda çalışmaq məndən ötrü çətin olardı, amma ən azı, meydanda, çarşı-bazarda, məsciddə camaata ürək-dirək verə bilərdim. Fitrətəddin, görünür, məni açıq-aşkar bu yönə çəkməkdən yayınıb Dabbaqlar çarşısında Xeyrəddin Yusifi tapmağı, Allahın sadiq bəndəsi Fitrətəddinin haqq-salamını çatdırmağı tapşırmışdı. Əlbət ki, məni Qeysəriyyəyə gedən karavana qoşmağı, dəvə, at, qatırın haqqını ödəməyi, bir neçə ağça verməyi də düşünürdü, amma hamı-

sından boyun qaçırdım: bu dünyada tələsməli yerim yoxudu, payi-piyada getmək, Allahın alnıma yazdıqlarıyla rastlaşmaq, Özüm və *O*-nunla tək qalmaq istəyirdim. Bir tikə çörəyin pulunu çıxarmaq, bir qurtum su tapmaq məndən ötrü olum-qalım məsələsi deyildi, günlərlə ac-susuz qalmağa da, səbir eləməyə də alışmışdım. Amma bu həyatda təkbaşına inzivaya çəkilməklə, yalnız öz səsinin əks-sədasını eşitməklə həqiqəti üzə çıxarmağın mümkün olmadığını başa düşür, *Öz Məqamım*ın yetişməsini gözləyirdim...



BEŞİNCİ MƏQAM



ƏVVƏLCƏ SURƏTİMİ TAPDIM...

Dayaz suları ən asta meh belə coşdura bilir,
dərin dənizlərisə ancaq dərin sevdalar çalxalayır;
anladım ki, dərin və sirli-sehirli olan hər şey susur;
anladım ki, susqun hər şey dərin və heybətlidi.





Karvansarayçı Fitrətəddindən ayrılıb quzeyə sarı üz tutanda Hələbin mənə nə verdiyi barədə fikirləşdim. On dörd ayda ən böyük qazancım, əlbət ki, *O*-na çatmaq üçün keçəcəyim qapıları, o qapıların dördünü artıq keçdiyimi dərk eləməyim, *onun* nəfəsini və qoxusunu daha aydın duymağım, məqamı çatanda Allah qatında qovuşacağımıza inamımın artması olmuşdu. Bir də İplikçilər karvansarayında Fitrətəddinə rast gəlməyimin, biçarə Yaqut əl-Həməvinin ömrünü başa vurduğu hücrədə yaşamağınmı təsadüf, yoxsa Allahın lütfü olduğu barədə düşündüm. Təbrizdən, daha doğrusu, ata ocağımdan çıxandan sonra, elə bil, *İlahinin nəzəri* üstümdəydi, məni cürbəcür bəlalardan qoruyur, yol göstərir, asta-asta *İlahi vüsal*a aparırdı. Üstəlik, yan-yörəmdə soyuq nəfəs, ancaq altıncı hissimlə sezdiyim *kölgə* peyda olmuşdu, qarabaqara məni izləyir, nəzərlərini üzərimdən çəkmirdi. Bab əl-Fərəcdən çıxıb Qeysəriyyyə yoluna düzələndə o kölgəni də, *nəfəs*i də bir daha duyub bunun Fitrətəddinlə bir bağı olub-olmadığı barədə düşündüm, ha çək-çevir elədimsə, ağlabatan qənaətə gələ bilmədim. Amma şübhəsiz, o *kölgə-nəfəs*in sahibi bir vaxt aşkara çıxıb öz niyyətini büruzə verəcəkdi.

Payız idi, gün bir adam boyu qalxanacan gedir, külək bürkülü tozu-torpağı qaldırıb aləmin rəngini dəyişəndə daldalanmaq üçün yer axtarır, tək-tük ağacların altına, arxlara, xəndəklərə sığınır, aranın sakitləşməsini gözləyirdim. Təbrizdən Ərbilə, Ərbildən Bağdada, Şamdan Hələbəcən yolları bu cür keçmişdim,

hər yolun da öz hekayəti, rastıma çıxan adamları, fərqli çətinlikləri varıdı. Bir dəfə qəfildən tökən yağışdan qaçıb kahaya sığınmalı oldum, yalnız özümü içəri salandan sonra çürümüş sümük qoxusu duydum: kahanın bir tərəfində nə vaxtsa ölmüş, ya da öldürülmüş bir Allah bəndəsinin ağarışan sümüklərini gördüm. Bayırda sellər-sular oynadığından, çıxıb başqa yer axtarmaq səfehlik olardı, ona görə də gecəni naməlum adamın sümükləriylə keçirmək əzabına qatlaşdım. Zərrə qədər eymənib eləmədim, insanı insan eləyən onun ruhudusa, sür-sümükdən qorxmağı cahillik sayırdım. Çünki qəlbimizdəki çirkabın bir zərrəsi belə, zahirdəki kirdən yüz min qat daha pis, daha iyrəncdi. Qəlbdəki o kiri dərgahları, hətta həmin məqamda aləmi başına götürmüş leysan da yuya bilməzdi, onu yalnız bir neçə damcı göz yaşıyla təmizləmək olar. Amma buna da hər axıdılan göz yaşının qüdrəti çatmaz, yalnız həqiqəti görən gözün axıtdığı saf, məsum yaşın iqtidarı yetər.

Bir dəfə də yenicə namazımı qılıb dikəlmişdim ki, yanımda bir yolçu gördüm. Namaza o qədər dalmışdım, nə vaxt gəlib yanımda səcdəyə durduğunu hiss eləməmişdim: nəzərlərimiz toqquşanda ədəblə salam verdi, oturub dəstərxananı açdı, bir tikə çörək kəsməyi buyurdu. Yolları payi-piyada gedən adamın süfrəsində yavan çörəkdən başqa nə ola bilərdi? O qoyun pendiri, mən adama iki xurma çıxardım. Antepdən gəlib Hələbə gedirmiş, səfərinin məqsədinisə nə özü dedi, nə də mən soruşdum. Amma dünyanın hər üzünü görmüş bir Allah bəndəsiydi, bu yaşında belə, nəsə öyrənməyə can atırdı. Söhbəti fırladıb comərdliyin üstünə gətirdi, vəsfi barədə nə düşündüyümü soruşdu. Dedim, comərdlik dörd cür olur: malla comərdlik zahidlərə, cismlə comərdlik cihada qalxanlara, qanla comərdlik qazilərə, könüllə comərdlik ariflərə məxsusdu; dedim, zahidlər mallarından verib əvəzində mərifət alırlar, mücahidlər cismlərini əridib hidayətə qovuşurlar, qazilər canlarını fəda eləyib əbədiyyətə çatırlar, ariflərsə könüllərinə qızırğalanmayıb Haqq

sevgisinə yetişirlər. Sonra ərlərin bu aləmdəki vəzifəsi barədə soruşdu, mən də Bəyazid Bistamidən misal çəkdim, dedim, o hikmət əhlinə suyun üzəriylə yeriyə, havada uça bilib-bilmədiyi barədə sual veriblər, cavabında deyib, çöp suyun üzəriylə axır, quşlar havada uçur, sehir sahibləri bir gecədə Qaf dağına yetişir, amma ərlərin vəzifəsi Allah-Taaladan başqa heç kəsə könül bağlamamaqdı. Yolçu bir müddət susdu, sonra qalxıb halallaşdı, güneyə doğru uzaqlaşıb getdi.

Kilisdə rumlu Stefanosun karvansarayında iki gün qaldım, yolun yorğunluğunu canımdan çıxarandan sonra üzü gündoğana, bir qədər də quzeyə tərpəndim. Bir gün Antepdə qaldım, ardınca üzü günbatana-quzeyə meyillənib Bazarcıqdan, Koysundan, Əziziyyədən ötdüm. Kilisdə artıq Diyari-Rumda olduğum açıq-aşkar sezilirdi, tez-tez harasa gedən Səlcuqlu əsgərlərinə, bir də geyim-keçimindən tanıdığım türkmanlara rast gəlirdim. Antepdən sonra yol daha da enişli-yoxuşluydu, illah da bir gün qalıb üst yanındakı Şirvan dağından gələn dumduru havasında dincəldiyim Bazarcıqdan sonra ta Təbrizdən çıxandan bəri gözümün öyrəşdiyi səhralar, düzənliklər, bomboz təpələr, meşəsiz dağlar buralarda yamyaşıl dağlarla əvəz olunmuşdu. Payız ağacların donunu yenicə dəyişməyə, rəngdən-rəngə salmağa başlamışdı, arabir bulaq başında, karvansarayda, ya yolda rast gəldiyim, kəlmə kəsdiyim adamların dediyinə görə, yağış mövsümü bundan sonra başlayacaqdı. Söylədiklərinə də Əziziyyədə inandım: aramsız yağan yağış kəsənəcən gün yarım müsafirxanadan çıxa bilmədim...

***

...Hələbdən yol aldığımın iyirmi altıncı günü Ərciyəzin qarlı zirvələrini, sonra vəsfini həm Dər-ül-Mülk, həm də Dər-ül-Fəth kimi eşitdiyim Qeysəriyyənin əvvəlcə qalasını, sonra evlərini, ağaclarını gördüm, o gün ikindi namazından sonra da Yeniqapı səmtindən şəhərə girdim. Əvvəla, dincimi almağa,

bundan sonra neyləyəcəyimi götür-qoy eləməyə, bir tikə çörək yeməyə ehtiyacım vardı. Dabbaqlar məhəlləsində rastıma çıxan ağacın altında oturdum, öz-özümdən bu şəhərə nədən gəldiyimi, bu qədər əzab-əziyyətlərə niyə dözdüyümü soruşdum, özümə də cavab verdim: dünyanı istəyən kimsə üçün qazanc və ticarətdən, axirəti istəyən üçün qulluq və itaətdən, Mövlanı istəyən üçün bəla və möhnətdən, elm istəyən üçün də qürbət və zəhmətdən başqa çarə yoxdu. Mən elm yolunu tamam keçmiş, qürbəti də, zəhməti də dadmış, indi Mövlaya üz tutmuşdum, hər cür bəla-möhnətlə üzləşməyə hazır olmalıydım. Heç ağlımda olmaya-olmaya gəlib çıxdığım, küçələrində, künc-bucağında məni nə gözlədiyini bilmədiyim Qeysəriyyədə nə qədər qalacağım, sonra hara üz tutacağım, Allahın hansı bəndələrinə rast gələcəyim barədə düşünmürdüm. Amma *Mövlanı axtaran kəs* oturub *O*-nun nə vaxt gələcəyini gözləməməli, özü ayağına dəmir çarıq geyib, əlinə dəmir əsa alıb aylarla-illərlə vüsala sarı yol getməlidi. Beynimdən bu fikirlər keçəndə məni yenə yad *nəfəs* vurdu, naməlum *kölgə* yaxınlıqda dayanmış kəl arabasının arxasından sürüşüb keçdi. Bu dəfə eymənmədim: soyğun üçün yaramırdım, şübhəli işlərə bulaşmamışdım, sirrim ancaq mənimlə *O*-nun arasındaydı, deməli, kimsənin qəsdimə durması üçün əsas yoxudu.

Qala içində, Xan Came və Dönər Günbəz arasındakı Dabbaqlar çarşısına yaxın yerdəki Dabbaqlar karvansarayındaca bir hücrə tutmaq qərarına gəldim. Hələ Fitrətəddin salıq verdiyi Xeyrəddin Yusifi tapıb-tapmayacağımı kəsdirməmişdim, yəqin, zərurət yaranmayınca da ona üz tutmayacaqdım. Dabbaqlar məhəlləsində yerləşməyimin səbəbi, əlbəttə, o deyildi, Şeyx Övhədəddinin öydüyü, xirqə geyindirdiyi müridi, həmşərim Kamili-Təbrizini tapmaq, Şeyxdən bir xəbər tutmaq istəyirdim: neçə illərdi, ayrılmışdıq, indi sağ-salamat olduğunu eşitsəydim, bunu İlahinin çox böyük lütfü hesab eləyərdim. Səmanın gözəlliyini, cəzb olunmağın qüdrətini, daim Haqqa baxmağı ondan

öyrənmişdim. Düzdü, Şeyx Allahın camali-sürətinin təcəllasına varlıqda tamaşa eləməyi sevirdi, bu səbəbdən, onun da, müridlərinin də *"şahidbazi"* kimi tanınması, hətta dərgahıyla bağlı xoşagəlməz söhbətə də rəvac verməsi hələ Ərbildəykən aramıza gözəgörünməz sədd çəkmişdi. Ona zənənlərlə bu cür ünsiyyətin, səmaya durmağın caiz olmadığı, buna görə zərər görəcəyi barədə dönə-dönə xəbərdarlıq eləmişdilər, amma Şeyx hər dəfə eyni sözü söyləmişdi: *"Mən Haqdan başqa kimsəyə baxmaram!"* O söhbətlərin bir cismani səbəbinin olub-olmadığını qəti söyləyə bilmərəm, amma səma gecələrindən sonra Şeyxin yarıbayğın halda eşqlə dolu rübailər söylədiyinin şahidi olmuşdum.

Karvansarayçı hücrə müxəlləfatından bir şey istəmədiyimi, can rahatlığı barədə düşünmədiyimi görəndə bir qədər təəccübləndi, sonra hardan gəldiyimi soruşub cavabımı eşidəndə sirli-sirli gülümsündü. O təbəssümü sezsəm də altında nə gizləndiyi barədə düşünməyib hücrəyə girdim, qıfılımı çıxarıb qapıya vurdum, bağlayıb açarını boynumdan asdım, elə bu məqamda da Xan Camesindən axşam əzanı ucaldı. Namazımı qıldım, həsirimi yerə salıb oturdum, kürəyimi divara söykəyib düşüncələrə daldım. Məni fani dünyada saxlayan, bu diyardan o diyara atan, ağrı-acılara dözməyə vadar eləyən nəydi? Əlbəttə, bir kəsin arif olub-olmamasının əlaməti *Dostu* axtarmaqdan əl çəkməmək, *O*-nun dostluğundan doymamaqdı, amma *o Dostu* harda aramalıydım, onun dostluğuna necə yetişməliydim? Çox vaxt düşüncələrimdə *Dost* və *O* birləşir, bütövləşir, nura çevrilir, *Günəş simasında* təcəlla eləyirdi. Muhammədin *(ə)* yoluyla gedirdimsə, mən də Meraca ucalan sevgili Peyğəmbərimizin nuruna bürünüb Allahın dərgahına üz tutmalıydım. O yol da *Dost*dan keçirdi, *Dostu*sa Təbrizlə Şam arasında keçən ömrümdə ilahi varlıq saymışdım, amma Şam meydanında insan simasında göydən enmiş, *"Ey məna aləminin sərrafı, məni axtar, tap!"* demişdi, mən də Haqqın adını çağırıb yollara düşmüşdüm.

Təbrizdəki o Allah bəndəsinə rəhmət oxuya-oxuya dağarcığımdan ip yumağımı çıxarıb belbağı hörməyə başladım. Sığındığım karvansaraylarda məni çərçi, qazanc yolu arayan, mal gözləyən tüccar saymış, bəzi yetik kəslərsə içəri soxulub maraqlarını öldürməyə çalışmışdılar. Amma hələ heç kəsin həyatıma girməsinə, *O-na gedən yolumu* tozlandırmasına yol verməmişdim, olub-qalanıma qane olmuş, başqasının malına göz dikməmişdim. O məqamda da Təbriz, valideynlərim, Mehmanə Xatun, Dəli Nəzər, Şeyx Əbu Bəkr, Zeynəddin..., Xamuşan məhəlləsinin dar, əyri-üyrü küçələri, məhəllədən o tərəfdəki nəhr, təpələr, düzənlik – hər şey yaddaşımdan elə açıq-aşkar boy verdi ki, göz yaşlarımı saxlaya bilmədim. Validim indi dünyasını dəyişmiş olar, elə o vaxtdan ciyərlərindən şikayətlənirdi; validəm, ola bilsin, hələ sağdı, dözümlü, Allahdan gələn hər bəlanı dinməzcə qəbul eləyən, şikayətlənməyi sevməyən, susqunluğuyla özünə qarşı hörmət oyadan bəndəydi – bu tərəfimlə ona çəkmişdim. Şübhəsiz, Mehmanə Xatun indi nənəydi, bəlkə, aradan keçən illər ərzində məni heç xatırlamamışdı; Dəli Nəzər o boyda ağrıyla indiyəcən sağ qalmazdı, bir yerdə məzarı varsa, bu da Allahın lütfüdü; Şeyx Əbu Bəkrin ölümündən, Məqbərət-ül Ürəfada dəfn edildiyindən Şamda xəbər tutub xeyli kədərlənmişdim, cənnətməkan mənə bir şey verməsə də, qarşımda ilk qapını açmışdı; Zeynəddin Kəlusi, yəqin, dərgahın şeyxi məqamında ömrü boyu arzuladığına çatmışdı, Allah lütf eləsə, kitab-filan da qələmə alar...

...Axşam xatirələrin ağırlığındanmı, yoxsa yolun yorğunluğundanmı, nə vaxt yuxuya getdiyimi də hiss eləməmişdim. Sübh namazına az qalmış nagəhan təlqinlə oyandım, dəstəmaz alıb namazımı qıldım. Dünən karvansarayçıdan səhər-axşam bir parça çörək, bir tikə pendir, üç zeytun, bir piyalə də sərin su verməyi təvəqqe eləmişdim, o da dodaqlarında elə eyni müəmmalı təbəssüm *"baş üstə"* demişdi. İndi də buyruqçu oğlanın gətirdiklərini qapının arasından alıb o müəmmalı təbəssüm,

Hələbdən bəri məni izləyən *nəfəs-kölgə,* yaxud *kölgənin nəfəsi* barədə düşünməyə başladım. Hələbdə arxamca gəzən, üstəlik, Hələbdən Qeysəriyyəyəcən izləyən, güman ki, bundan sonra *nəfəsini* də, *kölgəsini* də tez-tez duyacağım kəs kim ola bilərdi? Ağlıma gələnlərin heç birinin şər işlərlə bağlılığı yoxudu, yəqin, bundan sonra da olmayacaqdı - mən *başqa yolun yolçusu*ydum. Şübhəsiz, bu sirri burda, dər-üs-səltənədə çözməliydim, yoxsa ruhumdakı ağır yükdən qurtula bilməzdim. Bir də ki, *"Ey məna aləminin sərrafı, məni axtar, tap!"* – hayqıran o *Dost*la bu *kölgə* arasında hər hansı bağ vardı, ya yox? Nə qədər götür-qoy elədimsə, düşüncələrimin ucunu bir yana çıxara bilməyib hər şeyi Allahın, bir də zamanın öhdəsinə buraxmaq qərarına gəldim. Hər şeydən əvvəl, bu şəhəri tanımalı, burdakı yerimi dərk eləməli, beşinci qapıdan keçməli, bir də, əlbəttə, Şamda da, Hələbdə də eşitdiyim söhbətlərdə mənə oxşatdıqları, bəlkə, elə mən saydıqları Kamili-Təbrizini axtarıb tapmalıydım.

Sonrakı həftəni şəhəri gəzib səmtlərinə, məhəllələrinə, çarşı-bazarına bələd olmaqla keçirdim. Dabbaqlar, Külahdüzlər, Bədəstan, Münşi Nəcməddin məhəllələrini dolaşdım, əmir Sadəddin Köpəyin tikdirdiyi Keyqubadiyyə sarayına, Böyük Sultan Qiyasəddinin bacısının vəsiyyətiylə inşa etdirib adını verdiyi Gövhər Nəsibə dər-üş-şəfasına, mədrəsəsinə, Gövhər Nəsibə Xatunun türbəsinə, inşası yenicə tamamlanmış Mahpəri Xuand Hatun külliyyəsinin came, türbə, mədrəsə, hamamına tamaşa elədim, Battal Qazi camesində namaz qıldım, Dabbaqlar, Külahdüzlər, Altınqapı tərəfdə Kuyumçular çarşılarını dolaşıb çeşid-çeşid adamlara baxdım, Ayavasil qapısından çıxıb Qəssablar, Misgərlər çarşılarını, Türkman bazarını, Qəriblər bazarını, At bazarını dolaşdım. Qaladan bayırda yay aylarında uzaq məmləkətlərdən gələnlərin qurduğu Yabanlu bazarının yerləşdiyini, o bazarda gözəl erməni, ya da rum cariyyəsinin əlli ağcaya satıldığını Şeyx Övhədəddindən eşitmişdim. Sonra qalanın ətrafına fırlanıb Meydan, Sivas, Boyaçı qapılarından

girib-çıxan atlı, qatırlı, dəvəli adamlara göz qoydum. İndi payızın axırı olduğundan, Sultan Qiyasəddin, güman ki, Konyadaydı, məlikənin qoynunda xumarlanırdı, bu qeysərlər şəhərinə bir də yazın ortalarında qayıdacaq, Ərciyəz dağlarından gələn saf havanı udacaq, Keyqubadiyyə sarayının rahatlığında eyş-işrətə dalacaq, məmləkətin taleyi də Sadəddin Köpək kimilərin umuduna qalacaqdı. Gənc sultanın ölçüsüz-biçisiz həyatı barədə Fitrətəddin danışmış, cənnətməkan Sultan Əlaəddinin qurduğu tifağın dağılmasından qorxduğunu dilinə gətirmişdi. Bir tərəfdən də Çormoğon Noyonın dəstələri qəfil gündoğandan, yaxud quzeydən peyda ola, qalanı mühasirəyə ala bilərdilər, bunu çarşı-bazarı gəzəndə arabir qulağıma dəyən söhbətlərdən bildim. Elə Şeyx Övhədəddinin Haqqa qovuşduğunu, xəlifəsi, həm də kürəkəni Nəsirəddin Mahmudun zindana salındığını da Fitrətəddindən öyrənmişdim...

***

...Şəhərə az-çox bələd olandan sonra karvansarayçıdan Kamili-Təbrizini tanıyıb-tanımadığını soruşdum. Sifətində ani çaşqınlıq peyda oldu, sonra adını eşitdiyini, amma harda yaşadığı barədə bir söz deyə bilməyəcəyini söylədi. Fitrətəddinin salıq verdiyi Xeyrəddin Yusif bu məsələdə kömək eləyə bilərdi, görünür, şəhərdə müəyyən səbəb üzündən yad adamlarla ünsiyyəti caiz saymırdılar. Bu səbəbdən, elə o gün ikindi namazından sonra Dabbaqlar çarşısına girdim, soruşub Xeyrəddinin dükanını tapdım. Ağzımı açıb məramımı bildirməmiş, elə bil, məni tanıdı, özümü nişan verəndə heç təəccüb də eləmədi, bağır basıb dedi, ey Şəms, dostumun dostu mənim də dostumdu, xoş gəlib, səfa gətirmisiniz, sonra dəri qoxusuyla dolu dükanın divarı dibindəki mindərin üstündə yer göstərdi, buyruqçu oğlanı səsləyib şərbət gətirməyi tapşırdı. Bütün bu hərəkətlərində məni çoxdan tanıyan, ən azı, haqqımda eşitmiş, gələcəyimdən xəbər tutmuş adamın tərzi duyulurdu. Ya Allahdan agah olmuşdu, ya

da arada kimsə vardı – artıq buna şübhə ola bilməzdi. Hələbdən bəri yan-yörəmdən əl çəkməyən, şəhəri dolaşanda belə, az qala, hər küçədə, hər tində, hər ağacın arxasında o *kölgə*ni sezmiş, nəfəsini duymuşdum, indi durub dükan sahibini bu barədə sorğu-suala çəkə bilməzdim. Xeyrəddin buyruqçunun bir göz qırpımında gətirdiyi iki piyalə şərbətin birini mənə verdi, üzbəüzdə bardaş qurub oturdu, heç Fitrətəddinin halı, işi, səhhəti, səfərimin necə keçdiyiylə də maraqlanmadı, sanki bütün bunlardan xəbərdarıydı, havadan, sudan, güzərandan danışıb məramımı nə vaxt bildirəcəyimi gözlədi, Kamili-Təbrizini axtardığımı söyləyəndə də, arxayınca dedi, dincinizi alın, inşallah, görüşərsiniz.

Bayırda yağış başlamış, müştərilər dükanlara doluşmuşdular. Fəxrəddin bir qədər tutqunlaşmış içərini işıqlandırmaq üçün buyruqçusuna iki şam yandırmağı tapşırdı, yenə Qeysəriyyənin qışından, yayından, çarşı-bazarından danışmağa başladı, mən də Şeyx Övhədəddin, Nəsirəddin Mahmud, Kamili-Təbrizi, onlarla bu əsnaf tayfasının qəribə, hələ tam anışdıra bilmədiyim əlaqələri barədə düşüncələrə daldım. Xeyrəddin şəhərin əsas sıxıntılarından birinin içməli su müşkülü olduğundan, Qaladan bayırdakı Əmir, İbasiyyə, eləcə də Dabbaqlar məhəllələrindəki çeşmələrin yayda quruduğundan danışır, deyirdi, cənnətməkan Rüknəddin Süleymanşah Qeysərriyəni fəth eləyəndən sonra qalanın içinə su xətti çəkdirmək istəyirmiş, amma xəstəlik aman verməyib, ötən il Keyqubadiyyə sarayında Haqqa qovuşan Sultan Əlaəddinin də şəhər əhlinin bu istəyinə əməl eləyəcəyiylə bağlı vədi varmış, çifayda, ömrü çatmayıb; deyirdi, sultanımız Qiyasəddinin gəlişi gözlənilir, bir də dər-ül-mülkə nə vaxt üz çevirəcəyini bilmədiyimizə görə, hamı yayadək bu məsələyə çözüm tapmaq barədə düşünüb-daşınır. Ona qulaq asa-asa yağışın nə vaxt kəsəcəyi, fikrimcə, son bir ay-qırx gündə içinə düşdüyüm sirr girdabından yalnız Kamili-Təbrizini tapmaq sayəsində qurtulacağım barədə fikirləşirdim.

Axır ki, yağış kəsdi, Xeyrəddin simamdan artıq getməli olduğumu oxuyub yerindən dikəldi, dedi, ey Şəms, daha məni qardaşın, bu dükanı öz mülkün, evimi evin bil, nə vaxt könlün istəsə, nə vaxt ehtiyacın olsa, canla-başla qulluğundayam. Sonra buyruqçu oğlanı kənara çəkib ona, yəqin, məni hara, kimin evinə aparacağını başa saldı. Harda yerləşdiyimi, ac olub-olmadığımı soruşmadı, elə bil, bunlardan xəbəri varıdı, həmişə qapısının üzümə açıq olduğunu söyləyib buyruqçu oğlanın məni axtardığım adama çatdıracağını söylədi, bağır basıb ədəblə yol göstərdi. Onunla çəlpəşik duyğular içində halallaşdım, bir də yolumu burdan salıb-salmayacağım barədə düşünə-düşünə dükandan çıxdım. Yağış havanı bir qədər soyutmuşdu, buyruqçu oğlanın arxasınca Dönər Günbəz səmtinə gedə-gedə, güman ki, qışı bu şəhərdə keçirəcəyimi, yeri də, havası da mənə Təbrizi xatırladan Qeysəriyyənin qarşımda hansı qapını açacağını götür-qoy elədim. Hər halda, bu şəhər *Dosta* yetişmək yolunda son duracağım deyildi, hər şey burda olub-bitməyəcəkdi - nədənsə buna tam əmindim. Əl ağacımı küçənin yağışdan islanmış qənbər daşlarına vura-vura buyruqçu oğlanın ardınca getdim, Dönər Günbəzi keçib bir daha sola burulandan sonra oğlan kiçik həyəti olan birqatlı evin yaşıl alaqapısı ağzında ayaq saxladı, yaxınlaşmağımı gözləyib taqqülbabı üç dəfə dartdı, sonra qapının açılmasını gözləmədən ədəblə baş endirib getdi. Həmin məqamda qəlbimi gözləmədiyim, qarşısında aciz qaldığım həyəcan bürüdü. Bu qədər həyəcanı yalnız *O*-nun, bir də *Dost*un barəsində düşünəndə, *O-nun nurunu* duyanda, *Dostun camalını* görəndə keçirmişdim.

Ev sahibinin yaşlı buyruqçusu alaqapını açıb sorğulu gözlərini üzümə dikdi, Xeyrəddinin adını eşidəndə dinməzcə içəri buraxıb irəli düşdü, bir an sona açdığı qapının ağzında... *Özümü* görüb çaşdım: qarşımdakı elə mən yaşlarında, saç-saqqalına dən düşmüş, gözlərinin dibinə kədər hopmuş, sifətinin ar-

tıq sezilən qırışlarında illərin ağrı-acısı, əzab-əziyyəti oxunan *Surətimiydi*, – elə həmin məqamda da ona bu adı verdim. Başı açıq idi, mən də istər-istəməz sərpuşumu başımdan götürdüm, gülümsəməyə çalışdım, amma ev yiyəsinin simasında təəccübdən, heyrətdən əsər-əlamət görməyib daha da çaşdım. Axır ki, Surətim dilə gəldi, dedi, ey Şəms, Allahın kərəminə şükür, qismətimizə qürbət məmləkətdə görüşmək yazılıbmış, sonra qollarını açıb içəri girməyimi gözlədi, dedi, gəl, ümmana can atanlar çeşmələr, irmaqlar, göllər, dənizlər keçmədən mənzilbaşına yetişə bilməzlər. Məni sinəsinə sıxanda öz-özümü qucaqladığımı zənn elədim, hərarətli nəfəsinin bir anda boynumun ardını qarsalamasından yarıbayğın hala düşdüm. Taxçadakı iki qəndilin işıqlandırdığı otaq neçə illərdi qaldığım karvansaray hücrələrinə oxşamasa da nəfsini çoxdan öldürmüş Allah bəndəsinin yaşamından nişan verirdi - artıq bir şey gözə dəymirdi. Göstərdiyi yerdə, mindərin üstündə oturdum, hələ də çaşqın halda Surətimin üzünə baxa-baxa bütün bunların izahını istədim: Kamili-Təbrizi mənim gələcəyimi, başlıcası da təbrizli Şəms olduğumu hardan bilirdi, ümumiyyətlə, məni Hələbdən bəri bürüyən sirr pərdəsinin anlamı nəydi? Amma görünür, sirr yiyəsi bunlara aydınlıq gətirməyə tələsmirdi, Hələbdən Qeysəriyyəyə necə gəldiyim, onu necə tapdığım barədə sual vermədən yağışlı havanın oynaqlarını sızıldatdığından şikayətləndi, o məqamda mən də oynaqlarımdakı giziltini duyub əməlli-başlı çaşdım. *"Bu, Təbrizin yadigarıdı"* kəlmələri ikimizin də ağzımızdan eyni vaxtda çıxdı, Surətim qüssəylə gülümsəyib başını tərpətdi.

Surətimin qəlbindəki o böyük kədər Şeyx Övhədəddin itkisi, Şeyxin xəlifəsi Nurəddin Mahmudun zindana atılması, mürşidinin o biri qızı Əminə Xatunla bağlı ola bilərdi - bunlar hələ gümanımdan başqa bir şey deyildi, çünki ortada dəlil-sübutum yoxudu. Şeyxinin vəfatından duyduğu kədər bu qədər uzun sürməzdi, çünki xəlq olunanın bir vaxt dünyadan köçəcəyini bilir;

Nəsirəddin Mahmudun zindana atılması ovqatına sirayət eləyə bilərdi, ancaq gözlərindəki kədəri bu qədər qatılaşdırması ağlabatan deyildi; o vaxt Ərbildə müridlərdən gözəlliyi, ağlı-kamalı, mürşidin bir müridinə vurulduğuyla bağlı söz-söhbət eşitsəm də Əminəni Şeyxin evində görməmişdim, harda olduğunu da bilmirdim. Şeyx Övhədəddin tədbirli adamıydı, Fatmanı ən sevimli müridi Nəsirəddin Mahmuda vermişdisə, məntiqlə Əminənin də çox inandığı, ardınca gələn, yolunda ölməyə hazır olan müridlərindən biriylə izdivaca girməsinə çalışmalıydı. O vaxt bunu aydınlaşdırmağa cəhd göstərmədim, Bağdada gedəndən sonra da büsbütün unutdum, indisə Surətimdən soruşmaq istəmirdim – ya marağım yanlış başa düşülər, ya da istəmədən yarasının qaysağını qoparardım, məsləhət idisə, bir vaxt özü bu sirrin üstündəki pərdəni qaldıracaq, bilmədiklərimi söyləyəcəkdi. Fatma Xatunsa, yəqin, hələ yaslıdı, validinin vəfatından duyduğu sarsıntı tamam keçib getməyib, üstəlik, əri zindandadı, qayğıları da çoxdu. Amma hər nəydisə, Surətimin gözlərinin dibindəki kədər yalnız *Eşq*lə bağlı olmalıydı. Eyni sözləri də özü mənə söylədi: dedi, ey Şəms, sənin gözlərinin dibində *Böyük Eşq*dən doğan kədər var, özün də *Eşq yolu*na düşüb gedən adamı andırırsan; dedi, o *Eşq*ə çatıb-çatmayacağını bilmirəm, amma gözlərinin dibindəki o kədərin qatılaşacağına əminəm, çünki *Həqiqət*ə, bir də *Eşq*ə yetən insanın daha hədəfi qalmır, artıq həyatın bitdiyini zənn eləyir. Söylədiklərinin heç birinə yetmədiyimə görə, etiraz-filan bildirmədim, çünki *Həqiqət*ə də, *Eşq*ə də yetmək yalnız *O*-nun əlindədi.

Buyruqçu dəstərxan açdı, meyvə, şərbət gətirdi, Surətim şərbətdən bir qurtum içdi, piyaləni əlləri arasında sıxıb nəzərlərini pəncərəyə dikdi. Ərbildə Şeyx Övhədəddin təbrizli bir müridin olduğunu, ona tam etimad bəslədiyini, Xəlifə Nasir çağıranda dərgahın Diyari-Rumdakı işlərini o müridinə həvalə elədiyini söyləmişdi. Şübhəsiz, o müridi mənim Surətimiydi, Hələbdən bəri çözməyə çalışdığım bütün sirlər də onunla bağlıydı. Mən

də hələ ki, aramızda yeganə bağ olan Şeyx Övhədəddindən söhbət saldım, onun Haqqa qovuşmasından çox kədərləndiyimi deyib, boynumda haqq-sayı olduğunu dilimə gətirdim, ruhuna rəhmət oxudum. Surətim gözlərini pəncərədən çəkmədən dedi, mürşidin Haqqa qovuşması barədə xəbəri Bağdaddan gələn bir dərviş gətirmişdi. Sonra danışdıqlaranda daha bir acı həqiqət də içimi yandırdı: Şeyx-ül-şüyuh Şəhabəddin Sührəvərdi ötən il dünyadan köçəndə Xəlifə Mənsur onun məqamını Şeyx Övhədəddin Kirmaniyə verib, üstəlik, Mərzubaniyyə dərgahını əta eləyibmiş, amma biçarənin ömrünün axır vaxtlarıymış, qocağlığın fəsadları get-gedə özünü daha artıq bildirirmiş. Hər iki hikmət sahibinin ruhuna bir də dua oxuduq, salavat çevirib xeyli susduq, sonra bayaqdan bəri beynimi didib-dağıdan məsələni, Surətimin məni hardan tanıdığını soruşdum. Əlbəttə, günçıxanda Xorasandan, hind diyarından, günbatanda Kordova xilafətindən bəri bütün məmləkətlərin hikmət sahibləri bir-birini tanıyırlar, dərvişləri onlar barəsində nə varsa, bu məmləkətdən o məmləkətə, bu şəhərdə o şəhərə yayırlar, Ərbildən, yaxud Bağdaddan gələn Övhədiyyə, ya da Shrəvərdiyyə dərgahı dərvişləri eşitdiklərini sözarası ona çatdıra bilərdilər, amma bu gümanıma o qədər də inanmırdım, çünki aramızdakı dəruni bağ dərvişlərin çatdıradıqlarından daha məhrəmiydi.

Surətim nəzərlərini pəncərədən çəkmədən bu sirri açdı: sən demə, yeddi il əvvəl Xəlifə Müstənsirbillah Şeyx Övhədəddini Bağdada çağırıb ona Əmir-ül-Həcc məqamını tapşırıbmış. Şeyx də o il Həcc ziyarətindən dönəndə yolunu Qeysəriyyədən salıb, dər-ül-mülkdə altı ay qalıb, elm-irfan sahibləriylə görüşüb, bir para məsələləri yoluna qoyub, sonra Ərbilə, ordan da Bağdada dönübmüş. Elə bu hücrədəki uzun-uzadı söhbətlərində Şeyx məndən də bəhs eləyib, ola bilsin, bir vaxt görüşəcəyimizi söyləyibmiş. Yolu Şamdan keçmişdisə, Şeyx Övhədəddinlə nəyə görə görüşmədiyimizə təəccübləndim, beynimdən keçirdim ki,

bəlkə də Şeyx Şəhabəddinin dərgahına üz tutmağım onu rəncidə eləyibmiş. Əlbəttə, Şeyx Övhədəddinin burda yoluna qoyduğu *"bir para məsələlər"*in nədən ibarət olduğunu soruşmadım, məsləhət bilsə, Surətim məqamı çatanda bunları da söyləyəcəkdi. Amma onunla Fitrətəddin, üstəlik, Hələbdən bəri arxamca gələn *kölgə* arasında möhkəm bağ olduğuna artıq şübhə eləmirdim. O gün axşam namazını qılıb, yeməyimizi yeyəndən sonra bivaxt olduğunu söyləyib karvansaraya qayıdanda qəfildən xatırladım ki, Surətim heç harda yerləşdiyimi də soruşmadı, görünür, hər şeyi, üstəlik, evlərdə qonaq qalmaqdan uzaq durduğumu da yaxşı bilirdi.

O gecənin xeyli qismini də getdikcə qatılaşan sualları çözməklə keçirdim: mənimlə bağlı ötüb-keçənlərdən karvansarayçı, dabbaq Xeyrəddin, Surətim necə xəbər tutmuşdu, mənə qarşı məhrəm münasibətləri nədən qaynaqlanırdı? O adamları bir-birinə oxşadan, üstəlik, adama sevdirən sirri-xuda nəydi? Belə görünürdü, Fitrətəddin bir söz söyləməmişdisə, karvansarayçı Xeyrəddin də deməyəcəkdi, bütün bu sualların cavabını yalnız Surətimdə axtarmalıydım. Amma onu sorğu-sualla dilə gətirmək, çətin ki, mümkün olaydı, ilk görüşümüzdə bir ipucu verməmişdisə, deməli, vaxtı-məqamı deyildi, o vaxtın-məqamın nə zaman yetişəcəyini də Allahdan, bir də Surətimin özündən başqa kimsə bilməzdi. Sürətim, görünür, barəmdə başqa şeylər də bilirdi, Təbrizdən çıxandan sonra sürdüyüm həyatdan xəbərdarıydı, amma mən onun barəsində yalnız Təbrizdə doğulub-böyüdüyünü, bir də şeyx Övhədəddinin ən etibarlı müridlərindən biri, Nəsirəddin Mahmudun yaxın dostu olduğunu bilirdim. Belə çıxırdı, şeyx məndə axtardığını onda tapmış, o da mənə naməlim olan bir məqsəd arxasınca gəlib Qeysəriyyəyə çıxmışdı. Mən də axtardığımı şeyx Övhədəddində tapmayıb yollara düşmüşdüm, bununla belə, onun kölgəsi hələ də üstümdəydi, məni uzaqdan-uzağa da olsa, qoruyurdu...

Səhəri gün günorta namazından sonra hücrədən çıxıb-çıxmamaq barədə düşünürdüm ki, karvansarayın buyruqçusu qapını döyüb məni bir nəfər zatın gözlədiyini söylədi. Bayıra çıxanda Surətimin həyətdə gəzişdiyini gördüm. Xoş-beşdən sonra dedi, hava yaxşıdı, payızın sonlarında Qeysəriyyədə bu cür gözəl günlər nemətdi, ona görə də başmaq seyrinə çıxsaq, yaxşı olar. Onun gəzinti əsnasında bəzi mətləbləri açacağına sevinə-sevinə qapını bağlayıb yanına düşdüm, asta-asta Sivas qapısına sarı getdik. Sürətim dedi, dünən biz söhbət elədiyimiz məqamlarda Sültan Qiyasəddin şəhərə girib, Keyqubadiyyə sarayında yerləşib, Sadəddin Köpək də yanındadı. Səltənət naibinin adını çəkəndə səsinin mis kimi cingildədiyinin fərqinə varıb, əslində, bu gəzintisinin də o zatla bağlı olduğunu duydum. Doğrudan da yolda tez-tez Səlcuqlu qoşunu geyimində olan, cürbəcür dillərdə danışan adamlara rast gəlirdik, Sivas qapısından çıxanda da böyük meydanda, həm də bir qədər aralıdakı ağaclıqda ordugah çadırlarının qurulduğunu gördük. Surətim dedi, o orduda hansı millət desən, taparsan, türkman, rumlu, gürcü, erməni, firəng, rus, qıpçaq, tacik, ərəb, aysorlar... muzdla sultanımızın düşmənlərinə qarşı döyüşürlər; dedi, adətən, Qeysəriyyəyə yaz aylarında gələn hökmdar, indi qəfildən bura üz tutmuşdusa, deməli, ya günçıxandan təhdid var, ya da başqa sanballı səbəb ortaya çıxıb, çünki səltənətin oturuşmuş qaydaları olur, o qaydalar pozulanda gərgin məqamların yetişdiyini hiss eləmək mümkündü.

Misgər bazarını dolaşıb Diyari-Rumun hər tərəfindən, üstəlik, Təbriz, Şirvan, Dərbənd, Bərdə, Ərdəbil, Mosul, Bağdad, Şam, Hələbdən... gətirilmiş çeşid-çeşid mallara baxa-baxa Surətimdən Əlaəddin Keyqubadın başına gələnləri dinlədim. Dedi, Böyük Sultan ölmədi, öldürüldü, həm də elə burda, Qeysəriyyədə aradan götürüldü; dedi, ötən il, Ramazan bayramı qabağı gəlmişdi, qoşununu Məşhəd obasına yığıb yoxlamış, Amid səfərinə çıxmaq, Əyyubilərlə haqq-hesabı çürütmək üçün hazırlamışdı. Sonra Keyqubadiyyə sarayında böyük oğlu Qiyasəd-

dinə Ərzincan məlikliyini tapşırıb yola salmış, əyan-əşrəfi bir daha yığıb oğlu İzzəddini taxt-tacın varisi elan eləmiş, hamısına sədaqət andı içdirmişdi; dedi, bayramın üçüncü günü də yadelli elçilərlə görüşüb onlara ziyafət vermişdi, guya, o ziyafətdə də quş ətindən zəhərlənib ölmüşdü; dedi, dalda-bucaqda danışırlar ki, Sultanı oğlu Qiyasəddin zəhərləyib, taxt-tacı İzzəddinə vermək istəməyib, amma o vaxt Qiyasəddin Ərzincandaydı, bura əli çatmazdı, şübhəsiz, hər şeyi Sadəddin Köpək şahzadənin validəsi Mahpəri Xatunla birgə düzüb-qoşmuşdu; dedi, Əmir Sadəddin də Sultanın iradəsinə qarşı çıxdı, nəşi Konyaya göndərməmiş Qiyasəddinin ardınca çapar yolladı, üstəlik, andını pozub onu taxta çıxardı; dedi, əmirlə məlikə, görünür, bu məsələdə çoxdan, mərhum Böyük Sultan oğlu İzzəddini birinci dəfə varis elan eləyəndə dil tapıblarmış.

Misgər bazarından çıxdıq, Əsir bazarına sarı gedəndə Surətim üzümə baxmadan hekayətinin ardını danışdı, dedi, Sadəddin Köpək əməlinin ortaya çıxmaması üçün çox evlər yıxdı, saysız-hesabsız həyatlar qaraltdı, Atabəy Şəmsəddin Altunəbanı da, Tacəddin Pərvanəni də, səltənət naibi Kəmaləddin Kamyarı da, Cəlaləddin Karatayı da saraydan uzaqlaşdırdı, özü məlikənin köməyi, üstəlik, acıq-gizli təhdid sayəsində səltənət naibi, həm də pərvanəçi məqamlarını əlinə aldı, vəliəhd İzzəddini də, kiçik Rüknəddini də, üstəlik, anaları Adilə Xatunu da zindana saldı, bununla da ürəyi soyumadı, özünün Böyük Sultan Qiyasəddinin saraydan qıraqda doğulmuş oğlu, yəni Böyük Sultan Əlaəddinin atabir qardaşı olduğu barədə rəvayət quraşdırıb yaydı; əmir-ül-üməra kimi səfərə çıxıb bir-iki qala alandan sonra da hətta o qədər qudurdu ki, sultana qarşı baş qaldırdı, səsini çıxaranları zindana saldırdı; dedi, onda da pirimiz Nəsirəddin Xoca, Nəcməddin Daye, Əhməd bin Mahmud Tusi, neçə-neçə dövlət və ürfan adamları zindana atıldı; dedi, indi, ilin-günün bu vaxtında sultanla səltənət naibi Qeysəriyyəyə gəlmişdisə, deməli, mütləq nəsə baş verəcəkdi: ya Sadəddin Köpək sultanı,

nəhayət, taxtdan salmağı qərara almış, onu bir bəhanəylə bura gətirmişdi, ya da Sultan Qiyasəddinin ağlında naiblə bağlı nəsə vardı. Onun bu inamını sorğu-sual eləmədim, əminliyi vardısa, deməli, səbəbləri də yox deyildi.

Əsir bazarı məndə ağır, qatmaqarışıq hisslər doğurdu, çünki bir bəndənin digər bəndənin həyatına sahib çıxmasının əxlaqi səbəblərini dərk eləyə bilmirdim. Meydança boyu düzülmüş cürbəcür yaşda, cürbəcür dərili, cürbəcürü dilli qadın-kişilərin mal bazarındakı kimi satılması Allahın rizasıyla baş verə bilməzdi. Toqquşmalarda ələ keçirilən, borc müqabilində alınan, oğurlanan, ehtiyac üzündən satılan bu binəvaların günahı nəydi? Cariyəliyə yarayanların əksəriyyəti rum, erməni, rus qız-qadınlarıydı, xidmətçilik eləmək üçün daha çox güney məmləkətlərindən gətirilmiş qaradərili oğlan uşaqları təklif olunurdu. Surətim dedi, Şeyximiz övrətini bu bazardan alıbmış, o rum qızına dil öyrədib, tərbiyə verib, dinini qəbul elətdirib, sonra da Allahın izni, Peyğəmbərimizin şəriətiylə nikaha girib, pirimizin zövcəsi Fatma Bacını da, digər qızı Əminəni *(adını çəkəndə səsinin titrədiyini aşıq-aşkar sezdim)* də o qadın dünyaya gətirib. Ürəyimdən özünün niyə, ən azı, Şeyxinin yoluyla getmədiyini, bir əsir qadını azad, həm də xoşbəxt eləmək istəmədiyini soruşdum. Uzun-uzadı susdu, sonra, ey Şəms dedi, elə yaralar var, başqasının varlığı o yaranı sağalda bilmir. Bu sözlərin altındakı mənanı nə özü söylədi, nə mən soruşdum: yəqin, yarası dəriniydi, məsləhət bilsəydi, vaxtı gələndə söyləyəcəkdi. Həm də fikirləşdim, əzab insanı dəyişdirir, birinin dəyişməsini istəmirsənsə, fərək onun könlünə dəyməyəsən. Əsir bazarına gəlişimizin də o yarayla bağlı olduğunu beynimdən keçirdimsə, bu gümanımı hələ açıb-ağartmadım. Diqqətimi çəkən onun indi Konya zindanında yatan Nəsirəddin Xocanı *"pirimiz"* adlandırması oldu, məqamı gələndə bunu aydınlaşdırmağı da yaddaşımın bir küncünə yazdım. Surətimin siması tutulmuşdu, Əsir bazarından çıxıb qalaya doğru gedəndə ikimiz də susub özümüzə qapıldıq,

o məqamda beynimdən keçdi ki, bəzən insanın susduqları da duadı, çünki sükuta Allahdan yaxşı vaqif olan yoxdu.

Xeyrəddin Yusifin dabbaq dükanı Nəsirəddin Xocanınmış – bunu Surətimlə yolumu Dabbaqlar çarşısından salanda, o dükanın tanış küncündə şərbət içəndə başa düşdüm. Dükanın bir qapısı da dabbaqxanaya açılırmış, ilk dəfə gələndə gözümə dəyən məxmər pərdənin arxasında qapı olduğunu heç ağlıma gətirməmişdim. Surətimin də, Xeyrəddinin də, o gizli qapıdan içəri girən dabbaqbaşı Kərəməddinin də bir-birinə sonsuz hörmət-izzəti nəzərimdən qaçmadı: ünsiyyətlərində əxlaq hüdudlarını aşan bağlılıq vardı, həm də o bağlılıq şərdən yox, xeyirdən qaynaqlanırdı – bunu ən diqqətsiz adam belə sezərdi. Sonra şərbət içəndə dükançı da, dabbaqbaşı da Surətimdən ədəb çərçivəsində mürşidlərinin vəziyyətini xəbər aldılar. Surətim dedi, Allaha şükür, Konyadakı qardaşımız ayda bir dəfə xəbər göndərir, hələ səhhəti yerindədi, əndişəsi işlərimiz sarıdan, bir də günçıxandan gözlənən bəlayla bağlıdı. Surətim bu məqamda susdu, görünür, artıq bir söz söyləyib-söyləməmək barədə tərəddüd elədi, axır ki, qərara gəlib başqa mətləbə keçdi. Dediyinə görə, yazacan qala içindəki məhəllələrin su çətinliyi aradan qaldırılmasa, yayda müsibətlə üzləşməli olacaqlar. Sonra bu barədə Seyyid Bürhanəddinə ağız açdığını, onun yaxın müddətdə vəziyyətin ciddiliyini Sahib Şəmsəddin İsfahaniyə ərz eləyəcəyini, Dördquyulardan su xətti çəkmək üçün vəqf qurulmasına izin istəyəcəyini söylədi. Belə başa düşdüm ki, yanaşı oturduğum kəslər təkcə gündəlik qayğılarla əlləşmirlər, gördükləri iş daha böyükdü.

Axşam əzanına az qalmış karvansarayın yanında ayrılan vaxt Surətim onu hücrəmə dəvət eləmədiyimə təəccüblənmədi, mən də ağzından şam yeməyini birgə yemək təklifi çıxmadığına sevindim. Eləcə baş əyib, bağır basdı, mən də asta-asta uzaqlaşan Surətimin ardınca bir müddət baxandan sonra həyətdən keçib hücrəmə girdim. Dəstəmaz alıb namaz qılanda onu yada

salmamağa nail oldumsa, yemək yeyib belbağı hörəndə özümlə – daha doğrusu, Surətimlə bacara bilmədim, sakit inadla, özünə əmin görkəmlə yaddaşıma soxulub düşüncələrimin yönünü dəyişdi. Neçə illər əvvəl Ərbildə, Şeyx Övhədəddinin dərgahında, həm də evində gördüyüm mürid kürəkəninin Nəsriəddin Xoca olduğunu artıq öyrənmişdim, onun adından şəbədələr söylənən, bamәzə olduğu qədər də ağıllı Nəsirəddin Xoca olub-olmadığınısa, kəsdirə bilmədim. Amma bu ehtimalımın üstündə çox dayanmadım, çünki Surətim *"pirim",* dükançıyla dabbaqbaşı *"pirimiz"* adlandırmışdı, deməli, aralarında daha böyük, həm də ruhani bağlılıq vardı. Üstəlik, Surətimin *"Konyadakı qardaşımız"* kəlməsi də bu bağlılığa başqa çalar qatırdı. Şübhəsiz, Surətim Hələbdən bəri kölgəsini üstümdən əskik eləmir, söhbətlərində ara-sıra ipucu verirdisə, deməli, az sonra beşinci qapı üzümə açılacaqdı – buna artıq zərrə qədər də şəkk-şübhəm yoxudu...

***

...Surətim bir həftə gözə dəymədi. O bir həftənin iki günü yağışlı keçdiyindən, hücrəmdən çıxmadım, karvansarayçı Nəzirəddinin göndərdiyi Allah təamlarınıdan yeyib zikrlə, belbağı hörməklə, düşüncələrimi nizama salmaqla məşğul oldum. Hücrəmdən çıxdığım günlərdə də Surətimin evindən də, Dabbaqlar çarşısından da uzaq gəzdim, çünki marağımın qədərindən artıq sayılmasını, şübhə oyatmasını istəmirdim. Küçələrdə, meydanlarda, çarşı-bazarda addımbaşı sultanın əsgərlərinə rast gəlmək olurdu, Keyqubadiyyə sarayına gedən yollar da kəsilmişdi, kimsəni yaxına buraxmırdılar. Qulağıma çatan sözlərə görə, bütün bunlar sultanın toy hazırlıqlarıyla bağlıydı, əvvəlcə rum keşişinin *(deyilənə görə, Sultan Cəlaləddinin qətlindən sonra Şiraz atabəyinin bacısı olan ilk adaxlısı unudulmuşdu)* sonra əmirlərdən birinin qızıyla nikah kəsdirmiş, ardınca da vəsfini eşitdiyi Tamarla, qan qohumu gürcü prinsesilə nişanlanmış sultan intizar içindəydi, nişanlısını gətirən heyət bu günlərdə

şəhərə girməliydi; bir paraları da guya Sultanın yenə türkmanların üstünə getməyə hazırlaşdığını, bu səbəbdən, nə vaxt, hardan yola çıxacağından xəbər tutan olmasın deyə, hazırlığı gizli apardığını iddia eləyirdilər. Günortalar bir qab şorba içmək üçün girdiyim aşxanalarda böyür-başımda oturanların səslərini qısa-qısa bir-birinə verdikləri bu xəbərlərin nə qədər doğru olduğunu deyə bilməzdim, amma Malatya tərəflərdə türkmanların daimi yerləşmək üçün Sultandan torpaq istədiklərini, onları yaxın buraxmağı taxt-taca təhdid sayan əmirlərinsə, hökmdarı dilə tutub bunun qarşısını aldıqlarını eşitmişdim.

Həftənin sonunda günorta namazından sonra Surətim buyruqçusunu göndərib məni evinə çağırtdırdı, durub bəzi mətləblərə yetmək ümidiylə onun hüzuruna getdim. Düşüncəliydi, xoş-beşdən sonra yer göstərib üzbəüz oturdu, bu günlərdə baş çəkə bilmədiyinə görə, üzrxahlıq elədi, dedi, Dördquyulardan qalaya su xətti çəkməklə bağlı bəzi şəxslərlə görüşüb, xəttin keçəcəyi güzərgahı gəzib, görülməli işləri götür-qoy eləyiblər. Dediyinə görə, bütün bunlar da Sahib Şəmsəddin Muhammməd Kirmaninin yardımı olmadan baş tutmayacaqdı: Sahib Şeyx Övhədəddinin təkcə həmşəhərlisi yox, həm də ən etibarlı müridlərindən biriydi, gəncliyində saraydakı məclisdə Böyük Sultan İzzəddin onun ağzından çıxan bircə beyti bəyənib söhbət yoldaşı, divan katibi eləmişdi. Yastı Çəmən vaqeəsindən sonra fəth məktubunu Sultan Cəlaləddinə aparmağı da ona tapşırmış, amma nə səbəbdənsə sonra araları soyumuş, Qeysəriyyəyə şahnə göndərmişdi. Sahib Şəmsəddinin elə Sultan Qiyasəddinin yanında da böyük etibarı vardı, yoxsa Qeysəriyyə kimi bir şəhərin idarəsini, nişanlısının Tiflisdən gətirilməsini ona həvalə eləməzdi. Sahib Şəmsəddin mətləblərini Sultana çatdırıb vəqf qurulmasına izin alsaydı, sonrası çətin olmazdı, imkanlı, xeyirxah şəxslərə üz tutub müəyyən məbləğ toplayar, qardaşlar da bu işdə yardımlarını əsirgəməzdilər. *"Qardaşlar"*ın kim olduğularını soruşmaq istədim, amma özümü saxladım: buracan

gəlib çıxmışdısa, deməli, tezliklə özü bir çox mətləbləri açacaqdı. Başlıcası, Surətimin mətə etibar eləməsiydi, bundan ötrü də sanballı əsas vardı: ikimiz də Şeyx Övhədəddinin qapısından keçmişdik, şər işlərdə əlimiz olmazdı. Qəlbi xeyirxahlıqla dolu kəsinsə yolu həmişə açıqdı.

Sürətim əvvəlcə *"pir məsələsi"*nə aydınlıq gətirdi. *"Pir"* adlandırdıqları mənim Ərbildən mürid Nəsirəddin kimi tanıdığım kəs - Şeyximizin kürəkəniymiş, həm də indi Konya zindanında yatan Nəsirəddin Xocayla Şamdan, Hələbdən bəri haqqında tez-tez eşitdiyim Əxi Evrən eyni şəxslərmiş. Surətim dedi, Mahmud bin Əhməd Əl-Xoyi Xoyda doğulub, künyəsi Əbül-Həqayiq, dərgah adı Nəsirəddindi, Xorasanda, Məvəraünnəhrdə böyük elm-ürfan sahiblərindən dərs alıb, Heratda Fəxrəddin ər-Razidən əqli, həm də nəqli elmləri öyrənib, ordan Məkkəyə gedib Kəbəni ziyarət eləyəndə Allahın lütfüylə Şeyximizə rast gəlib, ona elə bağlanıb ki, müridi olmağı özünə şərəf sayıb; dedi, Şeyx Övhədəddin də müridinin əxlaqını dəyərləndirib, gözünün ağı-qarası bircə qızını Nəsirəddinə etibar eləyib, üstəlik, böyük Sultan Əlaəddin saraya çağırıb övladlarına dərs verməyi tapşıranda dərgahının idarəsini ona tapşırıb; dedi, Sadəddin Köpəyin əməllərinə qarşı çıxan Nəsirəddin Xocanın elə onun əmriylə də zindana atılması ürəklərini dağlayır, sultanın belə öz xocasını azad etmək iqtidarında olmaması saraydakı təhlükənin böyüklüyündən xəbər verir. Beləcə, *"Pir"*in kimliyi aşkar oldu, amma nəyə görə *"Pir"* adlandığı məndən ötrü qaranlıq qalırdı, şübhəsiz, bu da aradakı bağı aşkara çıxarmalıydı.

Sultanın toy hazırlığıyla bağlı qulağıma çatanlardan söz açdım, Surətim də dedi, Qiyasəddinlə gürcü prinsesi yeddi ildi ki, nişanlıdılar. O vaxt Çormoğon Noyon Sivas tərəflərə ard-arda basqın eləyəndə böyük Sultan Əlaəddin səltənət naibi Kəmaləddin Kamyara onun dərsini verməyi buyurur. Əmir Kəmaləddin də qoşunla Sivasa doğru hərəkət eləyir, amma ora çatanda düşməni tapmır, Noyon çoxdan çəkilib Muğana gedibmiş. Sivas

məlikləri, əmirə, deyəsən, onu gürcü padşahı Rusudanın təhrik elədiyini çatdırıblarmış, Əmir Kəmaləddin də sultanın izniylə Gürcüstana girir, bir həftə ərzində rast gəldiyi qalaları zəbt eləyir, Rusudanın qaçıb gizləndiyi Kutaisiyə yaxınlaşır. Pis yerdə axşamladığını görən hökmdar məktub göndərib əyan-əşrəfinin namərdliyinə görə üzr istəyir, üstəlik, Səlcuqlu hökmdarıyla aranı düzəltmək üçün qızını onun oğluna vermək istədiyini bildir. Sultanın izniylə Əmir Kəmaləddin üzrü də, təklifi də qəbul eləyir, nişan mərasimi baş tutur, Səlcuqlu qoşunu geri dönür. Əvvəlcə bu vaqeəyə o qədər də fikir verməyən Qiyasəddin nişanlısı Tamarın gözəlliyiylə bağlı ağlagəlməz rəvayətləri eşidəndən sonra qıza uzaqdan-uzağa bir könüldən min könülə vurulur, onu öz dinindən döndərməyəcəyinə söz verir, taxtda oturandan az sonra da Sahib Şəmsəddini misilsiz cer-cehizlə Tiflisə göndərib nişanlısının gətirilməsini buyurur. Gələn xəbərlərə görə, qəfilə Tiflisdən çıxıb, bir neçə həftəyə, yəqin, gəlib yetişər.

Qiyasəddin Davudla uğursuz izdivacından sonra Rusudanın qızını Böyük Sultan Əlaəddinin oğlu Qiyasəddinə verməkdə məramı nəydi? Surətimin fikrincə, gürcü hökmdarını Qiyasəddinin böyük oğul olması şirnikləndirmişdi: adət üzrə Qiyasəddin tact-tacın varisiydi, validindən sonra səltənətə o sahib olacaq, Rusudan da bu izdivac sayəsində həm taxt-tacını qoruyacaq, həm də ehtiyac duyanda Səlcuqlu qoşununu köməyə çağıracaqdı. Əlbət ki, Sultanın böyük oğluna münasibətindən xəbəri yoxudu, onun nə vaxtdan bəri varisi barədə düşündüyünü, Qiyasəddinin hərəkətlərinə göz qoyduğunu, ağıl-kamalını sınağa çəkdiyini, axırda digər oğlu İzzəddinə üstünlük verdiyini bilmirdi, bundan əyan-əşrəfi yığıb dürlü-dürlü səbəblər üzündən böyük oğlu Qiyasəddini yox, ortancıl oğlu İzzəddini taxt-taca layiq saydığını söyləyənəcən də kimsə xəbər tutmamışdı. Onda, əlbət ki, Sultanın hökmündən ən çox narazı qalanlardan biri əmir Sadəddin Köpək olmuşdu: İzzəddin ağılda, qətiyyətdə, cəsarətdə validinə çəkmişdi, sabah taxta çıxsaydı,

ona söz keçirmək mümkün olmayacaqdı; Qiyasəddinsə öz hisslərinin əsiriydi, dərindən düşünüb-daşınmağa meyli yoxudu, içkini, qadınları, eyş-işrəti sevirdi, beləsini ovuc içində saxlamaq çətin olmazdı. Ona görə, dərhal öz-özlüyündə yolunu bəlli eləmiş, İzzəddini heç vəchlə taxt-taca yaxın buraxmayacağını qərarlaşdırmışdı. Bu məsələdə də, əlbət ki, müttəfiqi Qiyasəddin olacaqdı, onunla hələ hökmdarın canı üstündə, iş-işdən keçmədiyi məqamda dil tapmalıydı.

Böyük Sultan zəhərlənmişdimi, zəhərlənmişdisə, bunda Qiyasəddinin barmağı vardımı – küncdə-bucaqda bu barədə danışırdılar. Surətim hər şeyin irəlicədən düzülüb-qoşulduğuna, böyük oğulun öz validinin qətlinə gizlicə razılıq verdiyinə, hətta qətli qatillərlə birgə götür-qoy elədiyinə əminiydi, yoxsa hökmdar Haqqa qovuşanda hamıdan əvvəl Qiyasəddinə deyil, taxt-tacın varisi İzzəddinə xəbər yetirərdilər. Arada məsləhət-məşvərət, sözləşmə olmasaydı, Sadəddin Köpək hökmdarın iradəsi ziddinə gedib taxtda oğullardan hansının oturmalı olduğunu əmirlərin müzakirəsinə çıxarmağa, Qiyasəddinə üstünlük verməyə cəsarət eləməzdi. Görünür, əmirlərdən hər birini şirin vədlərlə yoldan çıxarmışdı, hər şey olub-bitəndən sonra elə Qiyasəddinin əliylə də o binəvaları aradan götürəcək, binəva varis də öz canında qorxu duymamış hansı fəlakətə doğru getdiyini bilməyəcəkdi. Surətimin qənaətinə görə, daha iş-işdən keçmişdi, Böyük Sultan Əlaəddinin hökmünə əməl eləmək – taxt-tacı İzzəddinə vermək qırğına səbəb olardı, artıq Qiyasəddini ayıltmaq, təhlükənin hansı səmtdən gəldiyini başa salmaq lazımıydı, bunu da Nəsirəddin Mahmud zindanda, Cəlaləddin Karatay uzaqlarda olduğu bir vaxtda ancaq Sahib Şəmsəddin İsfahani bacarardı, o da ağıllı adamıydı, güman ki, həqiqəti həddd-büluğa yenicə çatan sultana çatdırmaq üçün yollar aramışdı. Şübhəsiz, Cahan Padşahının yanında qazandığı hörmət-izzət onun da qara siyahıya salınmasına səbəb olmuşdu, Sadəddin

Köpək çox çəkindiyi o çəxsin də quyusunu qazmaq üçün fürsət axtarırdı, bəlkə, elə Qeysəriyyəyə yetişəndən sonra bu istəyinə çatacaqdı. Surətim deyirdi, onda növbəti qurban bədbəxt Qiyasəddinin özü olacaq…

Sonra danışdı ki, yeddi il əvvəl axirət evinə köçən Bəhaəddin Vələdin müridi Seyyid Bürhanəddin xəstələnibmiş, Sahib Şəmsəddin səfərə çıxanda ona göz olmağı təvəqqe elədiyinə görə, ən yaxşı təbibləri aparıb, üç gün yatağının böyrünü kəsdirib, halının yaxşılaşdığına əmin olmamış evinə dönməyib. Bütün bunları söyləyəndə qəribə, baş açа bilmədiyim həyəcan duydum. Şeyxinin ölümündən sonra Xorasandan gəlib onun oğlunu himayəsinə almaq, tərbiyə vermək Seyyid Bürhanəddinin fəzilət sahibi olduğundan xəbər verirdi. Sürətim dedi, Bəhaəddin Vələd o qış Konyada fani dünyayla vidalaşanda Seyyid Bürhanəddin Tirmizdə dərs keçirmiş, qəfil yerindən qalxır, deyir, heyif, səd heyif, şeyxim torpaq aləmindən axirət aləminə köçdü. Bir gecə də şeyxi yuxusuna girib tənə vurur ki, ey Seyyid Bürhanəddin, sən Cəlaləddinimi tək qoymusan, tifilimi qorumaq məsələsində səhvə yol verirsən. Müridi də bu tənənin müqabilində duruş gətirə bilmir, bir neçə ürək dostunu da götürüb Konyaya doğru yola düşür. Allahın rəhmi gəlir, onların Xorasandan ta Səlcuqlu sınırınacan səpələnmiş tatar dəstələrinin arasından keçib Konyaya çatmalarına yol açır. Seyyid Bürhanəddin o vaxt artıq evlənib iki övlad dünyaya gətirən, Larəndədə yaşayan Cəlaləddinə məktub göndərib Konyaya çağırır, özü də Qeysəriyyəyə gəlib Sahib Şəmsəddin İsfahaninin qonağı olur. Sürətim dedi, həmin günlərdə Nəsirəddin Xocayla ona baş çəkməyə getmişdik, sonra həmişəlik burda yerləşəndə ayda bir-iki kərə yoluxur, söhbətlərini dinləyirdim.

Seyyid Bürhanəddin müridinin oğluna bir il dərs deyib, daha dərin bilik almaq üçün Şama, Hələbə göndərib, Cəlaləddin Şamda Məqsudiyyə, Hələbdə Həməviyyə mədrəsələrin-

də üst-üstə altı il oxuyub, Şeyx Mühyiddininin söhbətlərində olub, İbn-ül Adimdən dərs alıb. Sürətim sözünü bura çatdıranda həyəcanım artıb dözülməz həddə çatdı, yerimdən dikəlib bir də oturdum, nəyisə xatırladan, bəlkə də yaddaşımdan qovan tərzdə alnımı ovuşdurdum. Sürətim halımdan narahat olsa da, üzə vurmadı, dedi, o vaxt Seyyid Bürhanəddin Konyadan dönəndə Sahib Şəmsəddin İsfahani ona sarayında yerləşməsi üçün nə qədər dil tökdüsə, yola gətirə bilmədi, yalnız mədrəsədə müdərrisliyə razı saldı; dedi, Cəlaləddin Konyaya dönəndə Seyyid Bürhanəddin də gedib müridi Səlahəddiin Zərkubun evində onu imtahana çəkib, deyib Allahın lütfüylə sən atandan da irəli getmisən, ledun elmindən incilər saçmaq üçün xəlvətə girməlisən, sonra tələbəsini min bir gündə üç kərə xəlvətə salıb, imtahanını tamamlayanda buyurub k, indi bütün elmlərdə tayı-bərabəri olmayan elm-irfan əhlisən, di get, Allah bəndələrinin ruhuna yeni həyat ver, günlərini sonsuz rəhmətə qərq elə, bu surət aləminin ölülərini özünün həm mənanla, hən də eşqinlə dirilt. Surətim bu məqama çatanda qəlbim yerindən oynadı, həyəcanımdan bağırmaq istədim, amma həmsöhbətim nəzərlərini pəncərəyə dikib sözünə davam eləyirdi; axırda Səlahəddinə deyib, bu gündən halımı sənə, kalımı Cəlaləddinə bağışladım, o vaxtdan Qeysəriyyəyə dönmək istəsə də, böyük Sultan Əlaəddin izin verməyib, ancaq onun axirətə köçməsindən sonra qayıdıb, elə orda – hökmdarın zövcəsi Mahpəri Xatunun tikdirdiyi Xuand camesinə bitişik mədrəsədə dərs deyir, Mükrəmin məhəlləsindəki Hagırdağlı camesində imamlıq eləyir; dedi, axır vaxtlar qocalıq taqətini üzüb, namazı çətinliklə qılır, ona görə də imamlığı buraxıb, inzivaya çəkilib, o vaxtdan da gözümüz üstündədi.

Sonra Surətim nəzərlərini pəncərədən ayırıb üzümə baxdı, sözü yenə Dördquyulardan gətiriləcək suyun, həm də sultanın Qeysəriyyədə bu cür qəfildən, xəbər vermədən peyda olmasının üstünə gətirdi, dedi, su məsələsində Sahib Şəmsəddinə böyük ümidləri var; dedi, əlbət ki, Nəsirəddin Xoca burda olsaydı,

məsələ bu qədər uzanmaz, o Allahın bəxş elədiyi böyük qabiliyyətlə işləri yoluna qoyardı, amma pirimizin darda olması əlimizi işdən soyuda bilməz; ardınca əlavə elədi ki, bir həftədi, sultanın belə gözlənilməz gəlişinin əsl səbəbini çözməyə çalışıram, hamının söyləndiyi kimi, səbəb gürcü prinsesiylə izdivacıydısa, məntiqlə dər-ül-səltənədə, adətən, sultanların qış mövsümünü keçirdiyi Konyada olmalıydı; dedi, ya sultan, ya əmir-ül-üməra çox ciddi tədbirlər görüb, saraya yaxın düşmək mümkün deyil, güman ki, saraydakı qardaşlarımız orda nələr baş verdiyindən az-çox xəbərdardılar, amma mühafizçilərin səfini keçmək, ya da bir işarə vermək iqtidarında deyillər; axırda dedi, nə olacaqsa, xeyirliyə olsun, yəqin, Çormoğon Noyon qışı Muğanda keçirib dincələcək, yayda yenə Ərzuruma, Ərzincana, Sivasa basqın eləyəcək, sultan da təzədən qoşunu ona qarşı göndərəcək. Sonra şam yeməyinə qalmaq barədə fikrimi soruşdu, mən də bu müddət ərzində bəlkə də ilk dəfə səsimi çıxarıb boyun qaçırdım, tələm-tələsik sağollaşıb özümü bayıra atdım...

Küçələrdən yel kimi keçdim, tinləri burulğantək buruldum, karvansarayın qapısından qasırğasayaq girib hücrəmə təpildim. Axşam namazını da qarşısını heç cür ala bilmədiyim həyəcan içində qılıb, bir tikə çörək belə yeməyi unudub həsirin üstündə oturdum, kürəyimi divara söykəyib içimdəki bu tələtümün səbəbini götür-qoy eləməyə başladım. Bəlkə, qarşımda o yeddi qapıdan biri açılmışdı, keçirdim, qarşılacağım imtahanın təsirindən bu cür hala düşmüşdüm? Surətim də mənim kimi mərhəmətsizdi, yeri gəlməmiş, məqamı çatmamış ağzından bir kəlmə çıxarmaq mümkün olmur. Bir xeyli o tələtümün məhz hansı anda yarandığını dəqiq yadıma salmağa çalışdım: Seyyid Bürhanəddinin yuxu görməsiylə başlamış, Konyadan Qeysəriyyəyə dönməsiylə də bir qədər səngimişdi. Bəlkə, Seyyid Bürhanəddinin öz mürşidinin oğluna göstərdiyi o comərdlikdən təsirlənmişdim? Beləydisə, yaxın günlərdə Sürətimlə ona baş çəkməli, həm halından xəbər tutmalı, həm də bu gümanımda

yanılıb-yanılmadığımı ayırd eləməliydim. Sonra da sultanın Qeysəriyyəyə qəfil gəlişiylə bağlı Surətimin duyduğu əndişə hardansa peyda olub beynimə soxuldu, bir qədər götür-qoydan sonra ona haqq verdim: adətən, Səlcuqlu hökmdarlarının yaz aylarında gəldikləri, yayı Sivas da keçirib, payızda Konyaya döndükləri hamıya bəlliydisə, bu gəlişdə, həqiqətən, qəribəlik vardı: Qeysəriyyənin qışı get-gedə özünü göstərir, soyuq yağışlar ara vermirdi, şübhəsiz, yaxın günlərdə qar da yağacaqdı...

***

...Sonrakı iki həftəni də bu cür dolaşıq düşüncələrlə keçirdim. Hər gün günorta namazından sonra Surətim buyruqçusunu göndərib məni bir məhəlləyə çağırtdırır, tanıdığı-tanımadığı adamların qapısını döyür, Dördquyulardan su xətti çəkdirməklə bağlı fikirlərini soruşurdu. O, məhəllə əhlinin yığışdığı yerlərə - meyxanalara, aşxanalara girir, su qıtlığından söhbət salır, onlara yay özünü yetirənəcən qala içindəki məhəllələrə su gətirməyin vacibliyini təlqin eləyir, hər yerdə də məni camaata tanıdır, Təbrizdən gəldiyimi, Şeyx Övhədəddin Kirmani, Şeyx Şəhabəddin Sührəvərdi kimi elm-irfan sahiblərinin yanında kamala çatdığımı, Şeyx Mühyiddin əl-Ərbiylə görüşdüyümü dilə gətirir, söhbətə qarışmağıma ayaq verirdi. Mən də Allahın ən böyük nemətlərindən biri olan suyu ehtiyac duyanlara çatdırmağın nə qədər savab olduğundan danışıb, münasib hədislər də söyləməyi unutmurdum. İki cümə də Xuand Xatun camesində vəəz verdik, Allahın buyurduğu gözəl əməllərdən danışıb, su xəttinin vacibliyini dilə gətirdik. Sürətimin dediyinə görə, söylədiklərim camaata qeydsiz-şərtsiz çatır, hələ də qəlbində şübhə toxumu olanların üzünü bəri döndərirdi. Bunu Bəyəndik və Badəstən məhəllələrini dolaşıb sanballı bir neçə nəfərlə görüşəndən sonra özüm də açıq-aşkar duydum. İndi ancaq Sahib Şəmsəddinin Tiflisdən dönməyini, vəqfə izin almaq üçün sultana ağız açmasını gözləməliydik. Bu məsələdə də, şübhəsiz,

Seyyid Bürhanəddinin hörmət-izzətindən də yararlanmaq lazım gələcəkdi: mürşidi saqqal tərpədəndən sonra Sahib Şəmsəddin hökmdardan yardım belə, ala bilərdi.

O iki həftə ərzində Seyyid Bürhanəddinə üç dəfə baş çəkdik. Xuand Xatun camesinin yaxınlığındakı birqatlı, kiçik bağçalı evin rahat otağında o hikmət sahibini gördüyüm anda da qəlbimi bürüyən tanış həyəcan dalğa-dalğa geri qayıdırdı. Surətim məni tanıtdığı müddətdə artıq yatağından çətinliklə qalxan, zəif səslə danışan Seyyid Bürhanəddin tatarların ucbatından Təbrizi görə bilmədiyini, amma bir vaxtlar Fəxrəddin ər-Razidən o bənzərsiz şəhər barədə çox eşitdiyini söylədi, Şeyx Əbu Bəkr Səlləbaf barədə xoş sözlər dedi. Məni ən çox mürşidinin Diyari-Rumda Haqq evinə köçməsinin Tirmizdə müridə ayan olması heyrətləndirmiş, belə ruhani könül bağının yalnız Allahın lütfü sayəsində qurulduğuna şəkk-şübhəm qalmamışdı. Müridin mürşidə bu qədər sədaqət göstərməsindən də təsirlənmişdim: Bəhaəddin Vələdin istəyini yerinə yetirmək üçün sinninin bu çağında Xorasanın o başından Diyari-Ruma gəlməsi də, şübhəsiz, o bağlılığın əlamətlərindən sayılmalıydı. Beynimdən keçirdim ki, ömrüm yarıdan ötüb, amma hələ bu cür İlahi bağlılıq duyduğum *o Dostu* tapa bilməmişəm, rastıma harda çıxacağı da məlum deyil. Amma bir şeyə tam əmindim: *qismətimdə o vüsal vardısa, yetəcəkdim, yoxdusa, Allaha asi olmayacaqdım.*

Seyyid Bürhanəddin Surətimlə Nəsirəddin Xocanın vəziyyəti barədə mümkün qədər üstüörtülü danışdı, görünür, aramızdakı yaxınlığın dərəcəsini bilmədiyinə görə, ağzından artıq-əskik söz çıxaracağından ehtiyat eləyirdi. Söhbətlərindən belə başa düşdüm ki, Konyada olanda qardaşlar vasitəsiylə əlaqə qurub, əmir-ül-üləmanın onu hələ azad eləmək fikrində olmadığını öyrənib; məsələylə bağlı sultana üz tutmaq da qorxuluymuş, bircə ehtiyatsız hərəkət Sadəddin Köpəyin qəzəbini coşdura, Xocanın ölümünə səbəb ola bilərmiş; hökmdarın Konyaya gəlməsini fürsət bilib hüzuruna getmək, bir yol tapıb təklikdə təvəqqesi-

ni çatdırmaq istəyirmiş, amma deyilənə görə, saray üzük qaşı kimi dövrəyə alınıb, uçan quş da gözlərindən yayınmır. Sürətim bu cür ehtiyatlılığı, qardaşların bir çoxunun çatdırdığı xəbərlərə görə, əmir-ül-üməranın tapşırıq verməsiylə bağlı olduğunu düşünür, arada gizli-gizli dolaşan şayiənin doğru çıxmasından – onun taxt-tac ehtirası məqamının çatmasından – qorxurdu; axır vaxtlar gözü ayağının altını görməyən Köpəkdən nə desən, gözləmək olardı; amma artıq sultan da yeniyetmə deyildi, həddi-buluğa çatmışdı, yəqin, ətrafında baş verənləri görür, duyur, təhlükənin böyüklüyünü dərk eləyirdi. Seyyid Bürhanəddin nədənsə qəlbinin sakit olduğunu, taxt-taca bir sədəmə toxunmayacağına inandığını, Sahib Şəmsəddinin də yaxın vaxtlarda dər-ül-mülkə yetişəcəyini söylədi, amma dediklərində ümid və həqiqət payının nisbətini kimsə dəqiq söyləyə bilməzdi.

Seyyid Bürhanəddinin hüzuruna son dəfə gedəndə Qeysəriyyəyə ilk qar yağmışdı. Təbrizdən çıxandan bəriydi *(az qala, iyirmi il olurdu!)* əsl qış görməmişdim. Ərbilin, Bağdadın, Şamın, Hələbin istisinə, quru soyuğuna öyrəşmiş cismim Qeysəriyyənin qışını hürkə-hürkə, ehtiyatla qəbul eləyirdi. Qar hələ ayağımın üstünə çıxmasa da toxunmaqdan, ovuc-ovuc götürüb sifətimə, soyun-boğazıma sürtməkdən, uşaqlıq çağlarımdakı kimi, yeməkdən həzz alırdım. Onda küçəyə baxan pəncərəmizin qabağında oturub yağan qara tamaşa eləyir, qəfildən də hövlənib özümü bayıra – ağappaq, tərtəmiz aləmə atırdım. Xəstəliyi ucbatından daha övlad sahibi olmayacağını bilən validəm əli üzündə dalımca çıxır, ürəyi çırpına-çırpına hər hərəkətimə göz qoyur, yıxılanda, az qala, fəryad qoparırdı. Onda mənə elə gəlirdi, Allah qarı bəndələrin bütün bəd əməllərinin üstünü örtmək üçün yağdırır; üstəlik, qarla örtülü aləmdə Allaha qovuşmağın daha asan olduğunu düşünürdüm: bəndəylə arasını dünyanın çirkabı kəsmirdi, bütün günahlardan arınmaq, qov kimi yüngülləşmək, Allahın dərgahına ucalmaq olurdu. Bizdən iki küçə o tərəfdə yaşayan Mehmanə Xatunu da ilk dəfə belə qarlı günlə-

rin birində gördüm: validəsinin əlindən tutub gedir, daha doğrusu, süzürdü; az qaldım, gedib validəsindən qoparam, əl-ələ yapışıb göy üzünə qalxaq, ordan ağappaq dünyanın ənginliyinə, təmizliyinə tamaşa eləyək; amma dərhal validəm başımın üstünü kəsdirdi, bəsdi, dedi, soyuqlayarsan, gəl içəri. Hə, deyəsən, Təbrizdən çıxandan sonra bütün xatirələrimin üstünü güneyin qalın tozu basıbmış, qar təmizliyinə ehtiyacım varmış...

O qış günü qəfil baş verənlər dünyanın çalxantısına oxşayırdı. Günorta namazından sonra Surətimin gəlib-gəlməyəcəyi barədə fikirləşirdim ki, hücrəmin qapısı bərk-bərk döyüldü. Təəccüb içində durub açdım, onu qapı arxasında görüb daha da çaşdım: ilk dəfəydi ki, hücrəmə bu qədər yaxın gəlirdi. Ağzımı açmağa qoymadı, heç heyrətdən dəyişmiş görkəmimə də fikir vermədi, əlimdən yapışıb, dedi, gəl, tez gəl. Qapını bağlamağa macal tapmadan yanına düşdüm, bu halətinin səbəbini də küçəyə çıxanda söylədi: sultanın Qeysəriyyəyə belə qəfil gəlişinin səbəbsiz olmadığını deyəndə haqlıymış, amma baş verən vaqeə, şübhəsiz, yaxşılığa doğrudu; dedi, Keyqubadiyyə sarayında yerləşəndən sonra, Sadəddin Köpəyin vəliəhdlik rəvayətindən xəbər tutmuş sultan nişanlısının gəlişi bəhanəsiylə ətrafa ən etibarlı mühafizlərini yerləşdirib, Sivas subaşısı Hüsaməddin Qaracayla gizlincə görüşüb, hər şeyi ölçüb-biçib, əmir-ül-ümərадan birdəfəlik canını qurtarmaq qərarına gəlib; dedi, dünən axşam, guya, izdivacı şərəfinə böyük ziyafət verib, öz aləmində yaxın vaxtlarda onu taxtdan salacağını düşünən əmir-ül-ümərа da dünyadan xəbərsiz halda sultanın sağ tərəfindəki yerini tutub, üstəlik, qarşıdakı izdivacın uğurlu olacağına, böyük fayda gətirəcəyinə dair bəlağətli kəlamlar söyləyib; dedi, məclisin şirin yerində də Hüsaməddin dəstəsiylə içəri girib, Köpək əlqol açmamış işini bitirib, sonra da adamlarını qılıncdan keçirib; dedi, Sultan sarayda da, qoşunda da yaxın adamlarının qalmadığını yəqin eləyəndən sonra əmr verib ki, Köpəyin başını kəsib qalanın Sivas qapısından dəmir qəfəs içində assınlar ki, hamı

xəyanətin nəylə nəticələndiyini görsün. Sürətim bütün bunları həyəcandan nəfəsi tutula-tutula, qırıq-qırıq danışırdı, coşqusu az sonra məni də bürüdü.

Sivas qapısına gedən küçələr də, qapının önündəki meydança da uşaqlı-böyüklü, cürbəcür qiyafəli, cürbəcür dillərdə danışan adamlarla doluydu, küçələrin də, meydanın da ətrafı dəmir geyimli, əli nizəli, beli qılınclı əsgərlərlə dövrəyə alınmışdı. Carçılar ora-bura vurnuxur, dəmir qəfəsdəki başı göstərib səltənət düşmənlərinin hamısının bü cür cəzalandırılacağını, əlahəzrət Sultan Qiyasəddin ibn Əlaəddin Keyqubadın məmləkətdə əmin-amanlığı qorumaq üçün gecə-gündüz çalışdığını, daim təbəələrinin qeydinə qaldığını, bundan sonra da düşmənə qarşı amansız olacağını, əhalinin dərdlərinə çarə arayacağını dil-boğaza qoymadan təkrarlayırdılar. Hələ dünənəcən özünü sultandan da güclü, artıq taxt-tacın sahibi sayan, hiyləgər olduğu qədər də tədbirli hesab edilən, indi dəmir qəfəs içində yalnız bərəlmiş gözləri, hiddətlə çatılmış qaşları, seyrək saçlı kəlləsi, görünür, üzü üstə düşdüyündən, əzilmiş burnu, qaralmış dodaqları, göyərmiş dili, qana batmış bığ-saqqalı görünən o qorxunc əmir-ül-üləma necə olmuşdu ki, hökmdarın qəfildən Qeysəriyyəyə gəlmək qərarından şübhələnməmişdi? Elə bil, Surətim beynimdən keçən fikirləri oxudu, dedi, yəqin, sultan onu nişanlısıyla burda, cənnətməkan validinin axirətə köçdüyü dər-ül-mülkdə izdivaca girmək istədiyinə inandırıb, bəlkə də bunu hələ Sahib Şəmsəddini Tiflisə göndərən vaxt beynində düzüb-qoşubmuş; sonra əlavə elədi ki, bundan sonra Nəsirəddin Xocanın zindanda saxlanmasına heç bir səbəb qalmır, yəqin, sultan zindandakılara toy hədiyyəsi kimi azadlıq bəxş eləyəcək; hər halda, Sahib Şəmsəddin qayıdanda bunu hökmdarın yadına salmağa fürsət tapacaq.

Sonrakı üç günü Surətimlə çarşı-bazarda, dükanda keçirdim. İlk gündə Dabbaqlar çarşısına gedən yolda, demişdi, bütün şəhərlərdə olduğu kimi, Qeysəriyyədə də camaat beş qismə

ayrılır: əhli-elm – alimlər, seyidlərdi ki, Seyyid Bürhanəddin kimi mədrəsələrdə dərs deyir, əsərlər qələmə alırlar; əhli-qələm – bitikçilər, dəftərdarlardı, yalnız başqalarına məxsus olanları dəftərə-kitaba köçürürlər; əhli-seyf – saray qulluğunda olanlar, əmirlər, qoşunbaşılar, hakimlərdi, Sahib Şəmsəddin kimi, həmişə sultanın əmrindədilər; əhli-ziraət – əkin-biçində çalışıb ruzisini çıxaran, becərdiyini, bəslədiyini bazarlarda satan kənd adamlarıdı; əhli-hıref – əlinin zəhmətiylə yaşayan, tikən, toxuyan, düzəldən, aşılayan sənətkarlardı, belələrinə də çarşılarda addımbaşı rast gəlirsən; demişdi, bizim işimiz əhli-hıreflədi, pirimiz Nəsirəddin Xoca neçə illərdi bu yolda can qoyub, onların dərd-sərinə qalıb, yıxılanını qaldırıb, dara düşəninə arxa olub, müflis olanına əl tutub; demişdi, pirimiz həmişə söyləyərdi ki, məmləkətin rifahı əhli-ziraətlə əhli-hırefin diriliyindədi, alimlərin, şeyxlərin, bitikçilərin, dəftərdarların, qoşunbaşıların, əmirlərin, hakimlərin... rahatlığı, rifahı da əkib-biçən, düzəldən, toxuyan, aşılayan... kəslərin zənginliyinə bağlıdı; demişdi, hansı hökmdar bu həqiqəti dərk eləyirsə, onun məmləkətində daim bolluq, firavanlıq olur; demişdi, cənnətməkan Böyük Sultan Əlaəddinin bu sarıdan tayı-bərabəri yoxudu, əhli-ziraət də, əhli-hıref də həmişə onun səxavətindən öz nəsibini alırdı, Sultan Qiyasəddinsə hələ cavandı, ona da bu həqiqəti anladan bir Allah bəndəsinin tapılacağına əminəm.

Dabbaqbaşı Xeyrəddin də bizə qoşulmuşdu, bir-bir dabbaq dükanlarına baş çəkib Dördquyulardan su xətti çəkməyin vacibliyini anlatmışdıq, kimsə də belə xeyir işdən boyun qaçırmamışdı. Səhəri gün Külahdüzlər çarşısına baş çəkdik, Surətimin "Fatma Bacı" çağırdığı, az qala, iyirmi il əvvəl Ərbildə, şeyxin evində gördüyüm Fatma Xatun yaşlanmış, dolub-toxtamışdı, qayğılı simasında illərin yorğunluğu vardı. Məni tanıdı, validinin Haqqa qovuşmasıyla bağlı başsağlığımı dilə gətirdim, Nəsirəddin Xocanın zindanda olmasına görə çox kədərləndiyimi söylədim, dedi, olub-keçənlərdən sonra, yəqin, Sultan Qiyasəd-

din günahsız dustaqları zindanda saxlamaz, Köpəyin qurğusunun qurbanı olduqlarını başa düşər. Fatma Bacı baş verənlərdən xəbər tutduğunu, daha gözləməyə hacət qalmadığını, Sahib Şəmsəddin dər-ül-mülkə dönən kimi, izin alıb işə başlamaq lazım gəldiyini söylədi, sonra Diyari-Rum, Şam, Trapezund, Bizans şəhərlərinə göndərilən bir-birindən əlvan xalılar, xalçalar, kilimlər, həsirlərin toxunduğu yerləri gəzdirdi. Hər yerdə hamının onu görən kimi, hörmət göstərmək istədiyini sezdim. Sonrakı günü Misgərlər bazarında keçirdik, yenə Surətimə də, pirlərinə də sonsuz hörmətin, sədaqətin, bağlılığın şahidi oldum. Şübhəsiz, artıq bəzi mətləbləri başa düşmüşdüm: bu bağlılıq uzun müddət ərzində qurulmuşdu, illərin sınağından keçən qayda-qanunlara söykənirdi.

Bunu da o axşam çağı Misgərlər bazarından qayıdanda Surətim anlatdı. Qəfildən bazar meydanında ayaq saxladı, gözlərimin içinə baxıb dedi, ey Şəms, yəqin, bu şəhərə varid olandan beynini cırmaqlayan suallara cavab axtarırsan; dedi, bizə Şeyximizin yadigarısan, Bağdada qayıdanda səni Nəsirəddin Xocaya tapşırmış, Şamda tapıb himayəsinə almağı tövsiyə eləmişdi, pirimiz də qardaşlarımızdan birini Şama göndərib uzun axtarışdan sonra izinə düşmüş, uzaqdan-uzağa qorumuş, sonra Hələbdə arxanca kölgə kimi gəzib bəlalara tuş gəlməməyin üçün çalışmışdı; dedi, karvansarayçı Fitrətəddin qardaşlarımızdandı, neçə illər əvvəl Hələbdə yerləşdirmişik ki, o şəhərdə dara düşənlərimizə yardım əli uzatsın; dedi, sən Hələbə gələndə o, artıq məsələdən xəbərdarıydı, arxanca gəzən qardaşımız vaxtında xəbər çatdırmışdı; dedi, Dabbaqlar karvansarayını seçməyin Allahın ağlagəlməz lütfüydü, amma qeyri bir müsafirxanaya düşsən belə, Fitrətəddinin əli üstündə olacaqdı; dedi, xoşbəxtlikdən o, sənə Qeysəriyyəyə gəlməyi təlqin eləyə bildi, amma Konyaya da getsəydin, ordakı qardaşlarımız yardım əli

uzadacaqdılar; dedi, mən pirimizin istəyini yerinə yetirdim, o da şeyximizə verdiyi sözə əməl elədi, şeyximizsə sənin ağlına, kamalına, biliyinə heyran idi, sərt, acıdil, adamayovuşmaz olmağına göz yumurdu. Bura çatanda simasında kədərli təbəssüm peyda oldu, əlavə elədi ki, cənnətməkan elə mənim də bu cür xasiyyətlərimə dözürdü, sonra yerindən tərpəndi, addımlarını qarlı torpağa ehtiyatla basa-basa küçə aşağı getdi.

O axşam namazdan sonra Surətimin evində yeməyə qalmağım minnətsiz-filansız oldu: yəqin, ikimiz də məqamın yetişdiyini hiss eləmişdik. Buyruqçu süfrəni yığışdırıb buxarını qurdalayanda, şərbət gətirib çıxanda Surətim fikrində nəyisə götür-qoy eləyirdi, sonra şərbətdən bir qurtum alıb, dedi, ey Şəms, Qeysəriyyəyə gəldiyin məqamdan bütün bunlardan baş çıxarmağa çalışdığın yəqindi, mən də daha şeyximizin yadigarından sirr saxlamağı yersiz sayıram; dedi, o vaxt şeyximizi Bağdada Xəlifə Nasir çağırmışdı, gündoğandan gələn tatar bəlasının qarşısında duruş gətirmək üçün əlbir olmağı, xalqı təşkilatlandırmağı vacib saymışdılar; dedi, onda şeyximiz bu işə təfsir, hədis, fiqh, kəlam, tibb sahələrində yetkin olan kürəkəni, bir də ağıllı, savadlı, dəyanətli qızıyla girişdi, Nəsirəddin Mahmudla, o vaxt Bağdadda olan Mühyiddin əl-Ərəbiylə Diyari-Ruma gəldi, şəhər-şəhər gəzib vəzlər verdi, əsnafa islamiyyəti izah elədı, dünya, axirət işlərini nizama salmağı məsləhət gördü, yaxınlaşan bəlaya qarşı çiyin-çiyinə durmağın vaciblivini bildirdi, sonra da Qeysəriyyədə yerləşdi; dedi, ta əvvəldən şeyximizin yanındayam, bütün bunlar da gözlərimin qabağında olub-keçib, sonra şeyximiz Nəsirəddin Mahmuda da, qızına da tapşırıqlarını verib Bağdada qayıtdı, Nəsirəddin Mahmud indi Xeyrəddin qardaşımızın işlətdiyi dabbaqxananı, Fatma Xatun da Külahdüzlər çarşısındakı xalıxananı qurdu; dedi, daim vəzlərində diriliyin, birliyin vacibliyi barədə danışdı, Böyük Sultan Əlaəddin taxta çıxandan sonra bu cəhdimiz daha da rəvac tapdı,

Nəsirəddin Mahmud dabbaqların piri kimi tanındı, ona Əxi Evrən Vəli ləqəbi yaraşdırdılar, söhrəti Sultana çatanda da hökmdar onu saraya çağırıb oğullarına xocalıq eləməyi tapşırdı; dedi, o vaxtdan pirimiz əxi qardaşlarla bağlı işləri mənə, dabbaqxananı Xeyrəddinə həvalə elədi, biz də onun tövsiyələri əsasında çalışdıq...

***

...Şeyx Övhədəddin məni bütün bunlardan niyə xəbərdar eləməmişdi? O axşam hücrəmə qayıdanda da, kürəyimi divara söykəyib eşitdiklərimi götür-qoy eləyəndə də beynimdə bu sual dolaşırdı. Yəqin, dünya işlərində əlim olmadığını, yetərincə çevik ünsiyyət qura bilmədiyimi düşünmüşdü, amma məni Nəsirəddin Mahmuda tapşırması ürəyimi titrətdi, ölüm ayağında yatağının böyründə ola bilmədiyimə görə, xəcalət hissi duydum. Necə gözəl əxlaq sahibiydi ki, hətta müridi belə dara düşəndə məni etibarlı adamına həvalə eləməyi unutmamışdı. Saraylardan uzaq qaçmaqda haqlı olduğumu Nəsirəddin Mahmudun başına gələnlər təsdiq eləyirdi: Təbrizdə də, Ərbildə də, Bağdadda da, Şamda da, Hələbdə də saraylara yol tapa, bir mənsəb qazana bilərdim, amma ruhum ora sığmazdı, üstəlik, sərtliyim, acıdilliyim, adamayovuşmazlığımla çoxlarını özümə düşmən eləyərdim. Məscidlərdə, camelərdə vəəz vermək də mənim işim deyil: başqalarının sığallı kəlamlarını başqalarına çatdırmaq kədərli şeydi, öz kəlamlarımsa gözəl sözlər eşitməyə alışmış camaatın xoşuna gəlməz, onlar Molla Cəlaləddin kimi, vəəz ustalarının ağzından çıxanı gözləyirlər. Seyyid Bürhanəddinin şəhadətinə görə, tələbəsinin vəəzlərinə, az qala, Konya əhlinin yarısı yığışır, üstəlik, ətraf kəndlərdən, obalardan gələnlər, səyyahlar, tacirlər də hər cümə günü Allahın istəkli bəndəsinin ağzından çıxanlara heyran-heyran qulaq asırlar. Molla Cəlaləddinlə bağlı düşüncələr beynimdən keçdiyi məqamda qəfildən hövlləndim,

qalxıb özümü bayıra atmaq istədim, amma artıq gecədən xeyli keçmişdi, həm də havada Təbrizin qışını xatırladan şaxta vardı.

Səhəri gün günorta namazından sonra şəhərdə bir şadyanalıq başladı ki, gəl görəsən. Səbəbini öyrənmək üçün hücrəmdən çıxanda karvansarayın qarşısında Sürətimlə rastlaşdım. Seyyid Bürhanəddinə baş çəkəcəyimizi axşam ayrılanda söyləmişdi, indisə sifətimdəki təəccüb ifadəsini sezib, dedi, Sahib Şəmsəddin çapar göndərib, Gürcü Xatunu gətirən qəfiləsinin Ərzincana yetişdiyini, bir-iki gün dincələndən sonra yola çıxıb həftə başa çatmamış dər-ül-mülkə yetişəcəyini xəbər verib, sultan da yolunu yolunu gözlədiyi nişanlısına qovuşacağından vəcdə gəlib, qəfiləni qarşılamaq üçün əyan-əşrəfdən ibarət böyük bir dəstə göndərib, üstəlik, dərhal şadyanalıq başlanmasını əmr eləyib. Sonra Seyyid Bürhanəddinin evinə doğru yollananda dedi, çaparın şəhadətinə görə, Ərzincanla dər-ül-mülk arasındakı şəhərlərin hakimləri, kəndlərin kəndxudaları, adlı-sanlı bəylər, üləmalar gəlinin pişvazına çıxmaq üçün qızğın hazırlıq görürlər. Surətim Nəsirəddin Xocanın hələ əfv edilməməsindən əndişəliydi, fikrincə, Sadəddin Köpəyin ölümündən sonra onun qurbanı olmuş şəxs bağışlanmırsa, deməli, ortada başqa mətləblər də var. Amma vaxt gözləmirdi, Çormoğon Noyon Muğanda məskən salıb qalmayacaq, qış başa çatan kimi, üzünü Ərzurum-Ərzincan səmtinə çevirəcəkdi. Tatarların qəfil basqınları qarşısında sultanın cürbəcür millətlərdən ibarət ordusu, çətin ki, duruş gətirə biləydi: muzdla qulluq eləyənlər dara düşəndə canını xilas eləmək barədə düşünür, aradan çıxmağa fürsət gəzirlər; dedi, həm də ordu özünü Konya, yaxud Qeysəriyyə ətrafından Ərzuruma, yaxud Ərzincana çatdıranacan iş-işdən keçə bilərdi, bu səbəbdən, hər bir şəhərin əhli özünü qorumalıydı, bu da ancaq əsnafın birliyi, diriliyi sayəsində mümkündü; sonra əlavə elədi ki, pirimizin zindandan buraxılması əsnafın ruhunu şahə qaldırardı, ona görə, Seyyid Bürhanəddindən çətin də olsa, sultana ağız açmasını təvəqqe eləməkdən başqa çarə yoxdu.

Seyyid Bürhanəddin eyvandakı taxtın üstündə qalın kaftanına bürünüb oturmuşdu, bizi görəndə nursuz gözlərindən bir cınqı işıq keçdi, dedi, ürəyimə dammışdı, bilirdim gələcəksiniz; bağır basıb yanında əyləşəndən sonra buyruqçunun uzaqlaşmağını gözləyib sözünə davam elədi, dedi, olub-keçənləri gəlib-gedənlər başa düşdükləri qədər danışıblar, indi siz mənə yerli-yataqlı söyləyin görüm, nə baş verir. Əlbət ki, hər şeyi Surətim danışdı, sonra susub sorğulu-sorğulu onun üzünə baxdı. Seyyid Bürhanəddin heysiz əlini ağır-ağır qaldırıb seyrək saqqalını tumarladı, dedi, bütün bunlar xeyirliyədi, görürəm, əndişən Nəsirəddin Xocadan sarıdandı, ədalətli padşah pirini də, Nəcməddin Dayeni də, əl-Tusini də zindandan sözsüz-sovsuz buraxmalı, üstəlik, bu müddətdə çəkdikləri işgəncələrin əvəzini ödəməlidi, amma taxt-tac məsələlərində bəzən ədalətin ağzına daş basır, ya da görməzliyə vururlar; dedi, onların zindanda bundan sonra da qalmalarında bir çıxarı olan başqa Allah bəndəsi varsa, hər vəchlə Sultana manea törədəcək. Sürətim məqam yetişdiyini duyub dedi, əhvalının yaxşı olduğu vaxtda zindandakıları sultanın yadına salıb əfv olunmalarını təveqqe eləmək, yəqin, Seyyid Həzrətlərinin də fikrindən keçib. Seyyid Bürhanəddin nursuz gözlərini qarşıdakı dağlara dikib bir qədər susdu, sonra dedi, keçib, amma Sahib Şəmsəddin gəlib yetişməsini gözləmək məsləhətdi, saray əhlindəndi, sultana sözü nə vaxt demək lazım gəldiyini yaxşı bilir, bir də ki, hökmdar nişanlısını sağ-salamat gətirib çıxaran kəsin təveqqesindən boyun qaçırmaz.

Sonra Surətim Hacılardakı Dördquyulardan qala içindəki məhəllələrə su xətti çəkməklə bağlı işlərin gedişindən danışdı, dedi, camaat da, əsnaf da hazırdı, bizim bircə işarəmizi, qardaşlarımız, bacılarımız bu işdə canla-başla çalışmaq üçün iznimizi gözləyirlər. Seyyid Bürhanəddinin simasına dərin məmnuniyyət ifadəsi çökdü, dedi, cənnətməkan Şeyx Övhədəddinin səp-

diyi toxumlar cücərir, inşallah, gələcəkdə daha xeyirli işlərə qol qoyacaqsınız, fikrimcə, Sahib Şəmsəddin də bu savab iş üçün sultandan izin almaqda çətinlik çəkməyəcək. Sonra qəfildən üzünü mənə tutub dedi, ey Şəms, sənin əhvalında köçəri quş haləti duyuram, bilirəm, Qeysəriyyədə də duruş gətirməyəcəksən, bu səbəbdən, get, könlünün apardığı yerəcən get, yarıyolda dayanma, çünki bu dünyada dostsuz yaşamaq qəbir əzabından betərdi; dedi, həmin dost sənə Allah-Taala, zövcə, sevgili, sirdaş cildində də görünə bilər, yalnız ona yetişəndən sonra həyatın mənasını duymağa başlayırsan; dedi, mən mədrəsədə oxuduğum vaxtı mürşidim Bəhaəddin Vələdə könül verdim, *Dostumu* onun simasında tapdım, bu səbəbdən, əmanətini mənə etibar elədi. Söhbət bu məqama çatanda yenə də içimdə anlaşılmaz çırpıntı duydum, qəfil atəş cismimi bürüdü. Həmin məqamda buyruqçu şərbət gətirib ortalıqdakı ab-havanı dəyişməsəydi, yəqin, yöndəmsiz hərəkətə yol verərdim. Şərbətdən bir qurtum alıb Seyyid Bürhanəddinin bundan sonra mürşidi, onun əmanəti barədə daha nə söyləyəcəyini gözlədim.

Amma Seyyid Bürhanəddin söhbətin yönünü dəyişdi, dedi, Allahın mənə ayırdığı ömür möhlətini yaşamışam, yəqin, axirət evinə köçməyimə çox qalmayıb; dedi, Allah yoluna düşməyim Fəridəddin Əttarın başına gələn əhvalatdan başladı: mədrəsədə oxuyanda Bəhaəddin Vələd danışmışdı ki, bir gün dünya işlərinə könül vermiş Fəridəddin dükanında oturubmuş, bir dərviş başını qapıdan içəri uzadır, ora-bura boylanıb ah çəkir, əttar təəccüblənib durur, dərvişdən nəyə görə ah çəkdiyini soruşur, dərviş deyir, mənim yüküm yüngüldü, əynimdəki xirqəmdən başqa bir şeyim yoxdu, bu dünya bazarından asanca keçib gedəcəyəm, amma sən bu qədər ağır yüklə necə gedəcəksən; Fəridəddini maraq bürüyür, deyir, bəs, sən bu dünyadan necə keçib gedəcəksən; dərviş də cavab verir ki, xirqəmi soyunub bükər, yastıq kimi başımın altına qoyar, canımı Allaha təslim

eləyərəm, ardınca da xirqəsini soyunub bükür, yerə qoyub uzanır, başını üstünə qoyub canını Allaha tapşırır; dedi, əttarlıq eləyən Muhammməd bin İbrahim o gündən var-yoxunu Allah yolunda sədəqə verib, elm-irfan yoluna qədəm basıb, zəmanəmizin ən böyük üləmalarından olub, günlərini ibadətlə keçirib.

Seyyid Bürhanəddin susdu, dağlara uzun-uzadı baxdı, sonra, görünür, hər şeyin zaman çalxantıları içində keçib getdiyini düşünüb dərindən ah çəkdi, dedi, Tirmizdən çıxanda iki gün Nişaburda qaldıq, iki il əvvəlki dağıntıların izləri ürək ağrıdırdı; dedi, düşdüyümüz karvansarayın sahibi söhbət əsnasında şeyx Fəridəddinin qətlindən danışdı, söylədiyinə görə, o vaxt yaşı yüzü ötmüş Əttar bir tatar əsgərinin əlinə keçir, onu öldürmək istəyəndə camaat deyir, bu qocanı öldürmək fikrindən əl çəksən, qanına bədəl min ağca verərik; əsgər razılaşır, amma Əttar onu fikrindən daşındırmağa çalışır ki, məni belə ucuz satma, sənə daha çox qanpulu verərlər; bir müddət sonra yanına başqa şəxs gəlib qocanı öldürmək fikrindən əl çəksə, bir kisə saman verəcəyini söyləyir, Əttar da deyir, indi sat, canımın dəyəri bundan artıq eləməz; əsgər qəzəblənib onun boynunu vurur, qurbanısa kəsik başını götürüb çöllərə üz tutur, üç fərsəng qaçandan sonra yıxılıb canını Allaha tapşırır, camaat da şeyxi elə orda da dəfn eləyir; dedi, mən də başımı götürüb düşməndən qaçan Əttar misalı gəlib Diyari-Ruma çıxdım, Allahın mərhəmətinə, bir də Sahib Şəmsəddinin himayəsinə sığındım, Dost itkisindən sonra fani dünyanın nə qədər boşaldığınısa, ancaq Allahın o neməti bəxş elədiyi kəslər bilərlər. Söhbət bu məqama çatanda Surətimin simasına qonan kölgəni sezib lap dərində başqalarından cidd-cəhdlə gizlətdiyi yarası olduğunu başa düşdüm...

***

...Sonrakı günləri gərgin intizar içində keçirdik. Elə bil, şəhərdə başlayan şadyanalığın bizə zərrə qədər də dəxli yoxudu. Saray buyruqçuları əllərində məcməyilər küçəbəküçə gə-

zir, sultanın düyün şirinliyini paylayır, meydanlarda alabəzək geyimli təlxəklər camaatı başlarına yığıb oyun çıxarırdılar, küçələrdə, meydanlarda, qala qapılarında bərkidilmiş məşəllər qaş qaralan kimi yandırılırdı. Dörd gündən sonra yarıyoldan göndərilmiş çapar özünü dər-üs-səltənəyə çatdırıb qəfilənin yaxınlaşdığını xəbər vermiş, söylədiklərisə dərhal ağızdan-ağıza keçib bütün şəhərə yayılmışdı. Deyilənə görə, yol boyu məliklər, subaşılar, qalabəyilər, üləmalar, varlı-hallı adamlar Gürcü Xatunun pişvazına çıxır, əlini öpür, başına ağca səpirlər, o da hamıya sevgisini bol-bol göstərir, hədiyyələr verir, pul paylayır. Çaparın gəlişindən sonra şadyanalıq daha da qızışdı; dan yeri ağaran kimi, çal-çağır başlanır, bütün günü fasiləsiz davam eləyir, yalnız gecədən xeyli keçəndən sonra bir qədər səngiyirdi. Surətimlə günümüzün çoxunu Xeyrəddinin yanında keçirir, başımızı söhbətlə qatır, Sahib Şəmsəddinin gəlib yetişməsini gözləyirdik, axşamlarsa kürəyimi divara söykəyib eşitdiklərimi fikrimdə götür-qoy eləyirdim. Seyyid Bürhanəddinin əhvalımda köçəri quş haləti görməsi, bir vaxt Qeysəriyyədən də gedəcəyimlə bağlı söylədiyi doğruydu, Nəsirəddin Xocanın taleyindən xəbər tutandan sonra Qeysəriyyədən getmək barədə tez-tez düşünürdüm: *önümdə başqa qapılar vardı, o qapıları açıb Dosta yetişməliydim.*

Üç gün sonra da kərənaylar, davullar çalındı, carçıların səsi küçələri, meydanları doldurdu, deyilənlərdən Gürcü Xatunun mübarək qəfiləsinin şəhərə yaxınlaşdığı məlum oldu, sultan da bayramsayağı bəzənmiş əyan-əşrəfiylə nişanlısını qarşılamağa çıxdı. Əlbət ki, marağı güc gəlib tamaşaya qaçanlardan deyildim, heç Surətim də o əyləncələrə maraq göstərmirdi, bununla belə, Xeyrəddinin yanına gələnlərdən hər şeyin necə baş verdiyini öyrənirdik. O gün günorta namazından sonra qəfilə qala qapısından şəhərə girmiş, Gürcü Xatunun kəcavəsi dayanmış, şəhər əhli bir müddət onun gözəlliyinə tamaşa eləmişdi. De-

yilənə görə, sultan onu dinindən döndərməyəcəyinə söz verdiyinə görə, Gürcü Xatun özüylə keşiş, buyruqçu, qaravaş, aşpaz da gətirib, üstəlik, validəsi taxt-tacda gözü olan qardaşı Georgi Laşanın David adlı oğlunu da göndərib ki, düşməni əl-qol ata bilməsin. Surətimin fikrincə, gürcü padşahı Çormoğon Noyonun cəngindən qurtulmaq üçün sultanımızın yardımına ehtiyac duyurdu, yəqin, izdivac dumanı dağılandan sonra kürəkəni onun məmləkətinə böyük qoşun göndərməli olacaqdı; amma nə vaxtdı köç-külfətləriylə yerləşib yaşamaqdan ötrü geniş, bərəkətli torpaq istəyən, Sadəddin Köpəyin sayəsində də bu istəklərinə çatmayan türkman tayfalarının get-gedə artan narazılığı Sultanın yad məmləkətə qoşun göndərəcəyi o qədər də ağlabatan deyildi – bu da Surətimin qənaətiydi.

Səhəri gün başlayan düyün üç gün, üç gecə davam elədi, əlbət ki, bu müddət ərzində Surətim daim sultanın yanında olan Sahib Şəmsəddinə yaxın düşə bilmədi. Yenə Xeyrəddinin dükanında oturub bayırdakı çal-çağırı dinləyir, qardaşların gətirdikləri xəbərləri eşidir, ortalığın səngiməsini gözləyirdik. Sultan səxavət kisəsinin ağzını açıb əyan-əşrəfdən nökər-qaravaşacan hamıya öz məqamına uyğun ənam verib, ovuc-ovuc ağca paylayıb, düyün şadyanalığının Qeysəriyyədən Konyayacan davam eləyəcəyini, Konyada başa çatacağını söyləyibmiş; süfrələrə quş iliyindən can dərmanınacan hər şey düzülübmüş, az qala, Qeysəriyyə bazarlarında yaxşı nə varsa, alıblarmış. Sürətim sultanın Konyaya getmək xəbərini eşidəndə həyəcanlandı, dedi, bu gecə, ya da sabah Sahib Şəmsəddini görməliyəm ki, təvəqqemizi hökmdara çatdırmağa fürsət tapsın. Fikrincə, ara səngiyəndə əyan-əşrəfdən kimsə zindandakılarla bağlı naqolay söz deyə, bununla da onların kitabını bağlaya bilərdi. Əslində, sultanın öz xocasını yada salmamasını naşükürlük sayırdım. Sadəddin Köpək sağ olanda çəkinirdisə, indi ondan qurtulmuşdu, başqalarının sözünü eşidib zərərdidələri əfv eləməyəcəkdisə, bunun

başqa adı yoxudu. İndi sultanın əhvalı yaxşıydı, Sahib Şəmsəddin yadına salsaydı, ola bilsin, düşünüb-daşınmadan zindandan buraxılmalarını əmr eləyərdi.

Sürətim üç gün gözə dəymədi, mən də bunun səbəbsiz olmadığını bildiyimə görə, nə evinə, nə də dabbaqbaşı Xeyrəddinin yanına getdim, heç hücrəmdən bayıra da çıxmadım. Namazımı qıldım, zikrimi elədim, kürəyimi divara söykəyib belbağı hördüm, eni-uzunu dörd addım olan hücrəmdə var-gəl elədim, qarşıda məni gözləyən yol barədə fikirləşdim. Bir yanda Malatya, Bingöl, Ərzurum, bir yanda Ərzincan, Sivas, o yanda Konya vardı. Əlbəttə, Konyaya getməyəcəkdim, adam dər-üssəltənələrdə daim dövlət adamlarının nəzərinə dəyir, hər biri də ondan özünə sərf eləyən kimi faydalanmağa çalışır. Kiçik əyalət şəhərlərindən birində, hüzur içində günlərimi yola verə, qarşımda növbəti qapının açılmasını gözləyə bilərdim. *Dostu* Qeysəriyyədə də tapmamışdımsa, artıq burda qalmağın mənası yoxudu. Şübhəsiz, Qeysəriyyəyə gəlməyim İlahi təlqinlə birgə Surətimin də əməliymiş, ta Hələbə çatandan qardaşlarından birini güdükçü qoyubmuş, kölgəsini, nəfəsini duyduğum da o qardaş imiş. Burda da özüylə, əslində, *özümlə* üz-üzə gəldim, bu şəhərdə mənə təkcə yalqızlığımı unutdurmadı, həm də hələ tamam dərk eləmədiyim bir sirrin, qarşılıqlı yardımlaşmanın qapısını açdı. Çox cəhətdən oxşar olsaq da, bir məsələdə Surətim məndən tamam fərqliydi: daha çox bu dünyanın adamıydı, camaatın qayğılarıyla yaşayır, bacardığına əl tutur, yeri gələndə əyan-əşrəfə də üz çevirməyi da bacarırdı. Şox götür-qoy elədim, amma hara yön çevirəcəyimla bağlı qəti qərara gələ bilmədim, havalar yumşalan kimi çıxıb gedəcəyiməsə, heç bir şübhəm yoxudu.

Sürətim qeybə çəkildiyinin dördüncü günü, günortadan sonra buyruqçusunu göndərib məni Xeyrəddinin dükanına çağırtdırdı. İçəri girəndə görkəmindən məramını anlaya bilmədim, oturduğu mindərin üstündən azca dəbərib bağır basdı, son-

ra yerimi rahatlamağımı gözləyə-gözləyə nəzərlərini pəncərəyə dikdi, dedi, yazın gəlməyinə az qaldı, iki-üç həftəyə bənövşələr açacaq. Bilmirəm, qulağıma o cür çatdı, yoxsa, həqiqətən, *"bənövşələr"* kəlməsi ağzından çıxanda səsi titrəyib qırıldı, həmin məqamda da mənə elə gəldi, bənövşəylə bağlı könül yarası var, neçə illərdi, o yaranın qaysağını qoparmamaq üçün əziyyət çəkir. İndiyəcən bu haqda nə özü söz açmışdı, nə mən sorğu-suala çəkmişdim, yəqin, məsləhət bilsəydi, söyləyəcəkdi. İndiyəcən Mehmanə Xatunla bağlı kimsəyə bir kəlmə söz deməmişdim, hətta Təbrizdə az-çox ürək qızdırdığım Zeynəddin də bu yaramdan xəbər tutmamışdı. Hər halda, ötən aylar ərzində Surətimin xasiyyətinə tamam bələd olmuşdum, bilirdim ki, məqamı çatanda özü sirrini məsləhət bildiyi qədər açacaq. İndisə, görünür, içindəki tələtümü ört-basdır eləmək üçün dedi, əmir-ül-üməranın qətli də, sultanımızın mübarək düyünü də Qeysəriyyə əhlinin bu qışı asan keçirməsinə vəsilə oldu, bir azdan yaz gələcək, hər kəs öz gündəlik dərd-azarının dalınca düşəcək, başları bitib-tükənməyən qayğılarına qarışacaq. Sonra sultanın bir neçə günə Konyaya yola düşəcəyini, düyünün orda davam eləyəcəyini söylədi, ardınca köks ötürüb nəzərlərini pəncərədən çəkdi, Muğanda qışın başa çatmasını gözləyən Çormoğon Noyon, bir də Malatya tərəflərdə yerləşmək üçün torpaq istəyən türkmanlar barədə düşündüyünü sezdim.

Surətim mətləb üstünə gəldi, dedi, bu üç gündə sarayla Sahib Şəmsəddinin imarəti arasında qaldım, axır ki, yaxalayıb təvəqqelərimizi sultana çatdırmağı təmənna elədim, cavab alanacan da Seyyid Bürhanəddinin yanında olub, başımı onun söhbətləriylə qatdım. Ardınca Şeyx Fəridəddinin "Məntiqi-təğyir"indən quş dilində rəvayət söylədi: bir sərxoş təkkəyə gəlir, ağlayıb-sızlayır, özünü döyür, axırda da bayılıb yerə yıxılır; şeyxi yaxınlaşıb deyir, övladım, niyə ağlayırsan, əlini mənə ver, qaldırım səni; sərxoş deyir, ey şeyx, Allah köməyin olsun, sə-

nin işin əldən tutmaq deyil, yıxılmaq mənim qismətimə düşdü, hamı yıxılanların əlindən tuta bilsəydi, qarışqa igidlik məclisinin baş tərəfində oturardı, sən çıx get, mənim umacağım başqasındandı; sonra üzünü göyə tutub deyir, ey özündən başqa bir varı olmayan, ey hamının fəryadına ancaq özü yetişən, mənim imdadıma sən yetiş, yıxıldım, əlimdən sən yapış. Surətimin mətləb üstünə bu qədər uzaqdan gəlməsi səbrimi daşırsa da, dözdüm. Axırda dedi, bu dünyada bəndələrdən yardım istəmək qədər çətin şey yoxdu, çünki istəyinin yerinə yetib-yetməməsi onun ovqatından, bir də niyyətindən asılıdı, sənin ədalət saydığını o, bir göz qırpımında ədalətsizliyə çevirə bilər...

Yerimizdə qurcalandığımızı görüb dedi, təmənnamızın birinə izin verildi, Sultan Həzrətləri Dördquyulardan qala içinə su xətti çəkilməsini bəyənib, vəqfin qurulmasına izin verib, üstəlik, Sahib Şəmsəddinə tapşırıb ki, əlindən gələn yardımı eləsin, xəzinədən də bəlli məbləğ ayırsın, belə görünür, havalar yumşalan kimi, işə başlaya bilərik, yay düşməmiş də şəhər əhli bu qayğıdan qurtular. Sonra sifəti kölgələndi, səsindəki məmnunluq çalarlarının yerini bədbinlik çalarları tutdu, dedi, sultan təvəqqemizi eşitsə də, pirimizin zindandan buraxılmasıyla bağlı dəqiq bir söz söyləməyib, o məsələyə Konyada baxacağını vəd eləyib. Surətim haqlıydı, düşməninin qurbanını dərhal məhbəsdən buraxmırdısa, deməli, ya hökmdarın da özünə görə bir hesabı, ya da o məhbusların əfv olunmasını istəməyənlər var; dedi, Sadəddin Köpəyi aradan götürəndən sonra əli-qolu açılan sultan, fikrimcə, hələ Əxi Evrənə bağlı adamların gerçək niyyətlərindən tam əmin deyil, bir tərəfdə Çormoğon Noyon, o biri tərəfdə Baba İlyasın dərgahına bağlı türkmanlar var, üstəlik, miqyasını aydın görə bilmədiyi bir gücün başçısını zindandan buraxmağı taxt-tacı üçün təhlükə sayır. Sürətimin bu söylədikləriylə tam razıydım, sonra dedi, sultanımız gürcü hökmdarıyla qohum olmaqdan məmnundu, amma Çormoğon Noyon bu qo-

humluğu xeyirliyə yozmayacaq, yaz gələn kimi, mütləq ya gürcü torpaqlarına, ya da Ərzurum, Ərzincan tərəflərə soxulacaq: şübhəsiz, belə vaxtda qardaşlarımız düşmənin qarşısına çıxacaq, amma davada qılınc, vuran əllə yanaşı, söz söyləyən dil də vacibdi, pirimizin bir kəlməsiylə ölümə gedən qardaşlarımızın gözləri nə vaxtdı ki, yoldadı.

Surətimi Nəsirəddin Xocayla bağlı xəbəri Fatma Bacıya çatdırmaq daha çox qayğılandırırdı: bir ildi ki, can sirdaşından ayrılan, amma dərdini üzə vurmayıb onun tövsiyələrinə uyğun yaşayan Fatma Bacı haqlı olaraq Sadəddin Köpəyin ölümüylə çox ümidlənmişdi. Axır vaxtlar Külahdüzlər çarşısındakı işini də böyüdüb genişləndirmişdi, artıq bacıların əlindən çıxan xalı-xalça, kilim-palaz, təkəlduz Şamda, Hələbdə, Trapezundda, İznikdə, Konstantiniyyədə tanınırdı, yüzlərlə qız-gəlin iş-aş yiyəsi olmuşdu. Xeyrəddinin fikrincə, Fatma Bacının ümidini qırmaq olmazdı, əksinə, bir qədər də ümid vermək, güman ki, sultanımız Konyaya çatandan, düyün mərasimini başa vurandan sonra pirimizin azad ediləcəyini söyləmək lazım idi. Amma otuz il yanında olduğu adamla bağlı ona qarşı heç bir üzəyarılıq eləmək olmazdı. Nəsirəddin Xoca şahzadəyə yeddi yaşından elm-irfan öyrətmişdi, Saddədin Köpək zindana atdıranda səsini çıxarmamasını ovaxtkı gücsüzlüyünə bağlamaq mümkünüydüsə, indi əli-qolu açılmışdı, Böyük Sultan Əlaəddin Keyqubadın oğlu gərək zərrə qədər də tərəddüd keçirmədən zindandakıların buraxılmasını əmr eləyə, Qeysəriyyədən Konyaya yelqanadlı çapar göndərəydi, çünki xanədanın daim elm-irfan sahiblərinə, xocalara böyük hörmət-izzət göstərdiyi heç kəsə sirr deyildi. Sahib Şəmsəddinin dediyinə görə, sultan vaxtilə Köpəyin saraydan uzaqlaşdırdığı adamları geri qaytarmaq fikrindədisə, Nəsirəddin Xoca, Nəcməddin Daye, əl-Tusinin hələ də zindanda saxlanmasının sanballı səbəbi olmalıydı.

Sonra vəqfin qurulması, imkan, qeyrət sahiblərinin bu xeyirxah işə cəlb olunması, qar əriyən kimi, hələ torpaq bərkişməmiş işin başlanması barədə danışdılar. Dabbaqbaşı Xeyrəddinin dediyinə görə, qardaşların bir çoxu artıq yardıma gələcəyini, imkanı olmayanlar da onları dabbaqxanada əvəz eləyəcəklərini, bacılarsa işləyənlərin qarnını doyurmaq üçün hazırlıq gördüklərini söyləyiblər. Sürətim Xeyrəddinə dedi, qələm kağız götür, bu gündən yardıma qoşulanların hesabını apar; sonra qurşağının altından kiçik kisə çıxarıb ortalığa qoydu, dedi, siftəsini mən eləyirəm, davamını Allah gətirsin, on ağca məndən. Mən də qurşağımda gizlətdiyim üç ağcanı çıxardım, Surətimin də, Xeyrəddinin də etirazlarına məhəl qoymayıb dedim, suyundan içməsəm də, savabından qəlbimə sərinlik gələr, el işindən geri qalmasq olmaz. Dabbaqbaşı Xeyrəddin vəqf söhbəti başlayandan bəri yığılan səksən ağcanı da kağıza yazıb ilk addımın heç də fəna olmadığını söylədi. Xeyir-dua verib şərbət içəndə Surətim dedi, Sahib Şəmsəddin Ərzurumda dincələndə Məlik Mübarizəddin Cavlı ondan övladları üçün savadından-əxlaqından əmin olduğu xoca istəyib; həm də bu sözləri mənim üzümə baxa-baxa söylədi, yəqin, Qeysəriyyədə qalmayacağımı, yollar açılan kimi, çıxıb gedəcəyimi bilirdi, bəlkə də əmin-amalığım sarıdan əlinin çatacağı şəhərlərin birində yaşamağım ondan ötrü də sərfəliydi. Düşünüb-daşınmadan dedim, Sahib Şəmsəddinlə danış, Məlik Mübarizəddinə məni tövsiyyə eləsin, Ərzurumda yaşamaq könlümcədi, Təbrizə yaxındı, torpaq çəkəndə öz ocağımıza üz tutaram. Sürətim, dedi, danışaram, bununla da altıncı qapıya doğru səfərim qətiləşdi.

Surətim o axşam saray oyunlarından da söz saldı. Böyük Sultan Əlaəddin hörmətlə andığı Səlahəddin Eyyubinin qardaşı Adilin qızı, Şam məliki Əşrəfin bacısı, Adilə adıyla tanınan Qaziyyə Xatunla Malatyada evlənəndə ilk zövcəsi, Əlaiyyədəki rum qalasının hakimi olan Kir Fərdin qızı, Mahpəri adını alan

Xunad Xatundan dünyaya gəlmiş Qiyasəddinin altı yaşı varmış. Məlikə Mahpəri Xatun Sultanın məlik qızıyla mehrindən heç məmnun deyildi, İzzəddin Qılınc Arslanın da, Rüknəddin Süleymanın da doğulmasını özünün, həm də oğlunun gələcəyinə təhlükə saymış, bunu da Sadəddin Köpək iy bilən itlər kimi, göydə tutmuşdu. Ulu hökmdar əyan-əşrəfi yığıb məsləhətləşmələrdən sonra altı yaşlı Qiyasəddini yox, bir yaşlı İzzəddini taxt-tacın varisi elan eləməsi, hamıya özündən sonra ona itaət göstərmələrini buyurması, Surətimin fikrincə, Köpəklə Mahpəri Xatunun daha da yaxınlaşmalarına səbəb olmuşdu. Ulu Sultan yazın son günlərində, Ramazan bayramı vaxtı Qeysəriyyədə bir daha əyan-əşrəfi yığıb Qiyasəddini Ərzincan məliyi, İzzəddinisə vəliəhd elan eləmiş, əyan-əşrəfə varisinin tərəfdarı və xidmətçisi olacaqlarına ağır, pozulması mümkün olmayan and içdirmişdi. Amma az sonra Məşhəd ovasında toplanan qoşununa verdiyi şölən vaxtı başına gələnlər də, güman ki, vəzirlə məlikənin gizli, həm də ölçülüb-biçilmiş əlaqələrinin nəticəsiydi. Çaşnigirin verdiyi quş əti niyə ancaq Sultanın zəhərlənməsinə səbəb olmuş, onu qüdrətinin zirvəsində olduğu bir vaxtda həyatdan qoparmışdı? Bu sualın cavabı əyan-əşrəf mərhum sultanın istəyinə əməl eləyib vəliəhd İzzəddini taxta çıxarmaq istəyəndə, Sadəddin Köpəklə məlikə Mahpəri Xatun kəmağıl Qiyasəddinlə bağlı iddialarını ortaya qoyanda məlum oldu. Böyük Sultana vəd verib, and içənlər gözəgörünməz əlin təsiriylə vədlərini unutmuşdular, sultan naibi Kəmaləddin Kamyar, Sivas valisi Kayır Xan, Hüsaməddin Kamyeri çəkişmədə Atabəy Şəmsəddin Altunəba, Tacəddin Pərvanə, Lələ Cəlaləddin Fərrux, vəzir Sadəddin Köpək, bir də Gürcüoğlu Zahirəddinə yenilib məlikə Adilə Xatundan və vəliəhd İzzəddindən üz döndərmişdilər. Surətim deyirdi, məmləkətin fəlakətli günləri də o vaxtdan başlamışdı.

Taxt-tacı ələ keçirmək, Böyük Sultana sadiq adamları aradan götürmək, görünür, Mahpəri Xatunla Sadəddin Köpəyin iqtidar ehtiraslarını soyutmamışdı, məlikə Adilə Xatunu da, oğullarını da dər-ül-mülkdən belə uzaqlaşdırmaq fikrinə düşmüşdülər. Yeni sultan Beyşəhir gölü kənarındakı Qubadabad sarayına gedib analığını Anqora qalasına, atabir qardaşlarını da İspartaya, Uluborlu qalasına göndərmişdi. Törəyə görə, nə məlikə Mahpəri Xatun, nə Sadəddin Köpək, nə də zorən taxta çıxarılan sultan şahzadələri öldürə bilərdi, çünki hələ Qiyasəddinin oğlu yoxudu, Gürcü Xatun hamilə olsa da, dünyaya oğlan, ya qız gətirəcəyi məlum deyildi, buna görə də, Allah eləməmiş, hökmdarın başına bir hadisə gəlsəydi, taxt-tacın gələcəyi təhlükəylə üzləşərdi. Amma əsil-nəcabətli, iffətli, namuslu məlikə Adilə Xatunu aradan qaldırmaqda bir maneə görmürdülər. Söylənənlərə görə, mərhumə hər şeydən xəbərdarmış, cəlladlar gəlməzdən əvvəl izin alıb abdəstini təzələmiş, dünyayla vidalaşmaq üçün iki rükət namaz qılmış, üzünü göyə tutub, demişdi, Allahım, mən sənin bəndənəm, bəndənin zülm görmüş, ümidsizliyə qapılmış, aciz qızıyam, mənimlə övladlarımın arasına qalın pərdə çəkdilər, ruhumu, vicdanımı kor eləyib, qanımı tökmək niyyətinə düşdülər; demişdi, Allahım, balalarımı sənə əmanət eləyirəm, onları qoru, sən tövbə eləyənləri bağışlayır, bəndələrinə rəhm göstərirsən, zalımlara layiq olduqları cəzanı ver, mənə mərhəmət göstər, günahlarımı bağışla, tövbələrimi qəbul elə. Sonra baş örtüyüylə sifətini bərk-bərk bürümüş, oturub üzünü Qibləyə çevirmiş, qulluqçularla halallaşmış, kəlmeyi-şəhadətini söyləyib Quran oxumağa başlamışdı, az sonra da cəlladlar içəri girib cənnət bağına düşəcək o iffətli qadını yay kirişiylə boğmuşdular.

Həmin axşam da Hələbdən bəri ilk dəfə qeybdən gələn *o səsi* eşitdim. Bilmirəm aşkardaydım, yoxsa yuxudaydım, həsirin üstündən qalxdım, ayaqlarım yerdən üzüldü, asta-asta hücrənin pəncərəsinə doğru süzdüm, pəncərədən çıxıb ağacların üzərinə

qalxdım, göydə soyuq-soyuq parıldayan Aya sarı ucaldım. Aradan bir anmı, bir ilmi, bir ömürmü vaxt keçdi, unaya bilmədim, get-gedə rəngsizləşdim, daha doğrusu, işıq rəngi aldım, həmin məqamda da qeybdən gələn *o səsi* eşitdim: *"Ey Şəms! Geri dön, səbirlə gözlə, hər şeyin öz zamanı var!"* Ardınca rəngim yavaş-yavaş dəyişdi, aşağı enməyə başladım, ağacların başı üzərindən keçib hücrəmin pəncərəsindən içəri düşdüm, ayılanda da özümü həsirimin üstündə gördüm. Qulaqlarımda Şeyx Fəridəddinin gündüz Surətimin dilindən eşitdiyim duası səslənirdi: *"Ey Rəbbim! Könlümüzə sənin həmd bağçanda ucalıq əlamətlərini öyrənmək nəsib oldu. Qiyamət günü ümidim sənədi. Dərd və nədamətdən, peşmanlıqdan başqa heç nə duymuram, amma yenə də sənin kərəmini umuram. Sirat körpüsündə Cəhənnəmə düşməkdən məni kərəminlə ancaq sən qurtara bilərsən. Mizanda ancaq sən lütfünlə günahlarımı bağışlaya bilərsən. Ey Allahım, bu Əttar bəndən (əlbəttə, mən "Şəms" dedim) sənin sevgi atəşinlə yandır. Mənə bir yol göstər ki, sənə qovuşum!"*

***

...Amma qərar almağımla Qeysəriyyədən çıxmağımın arası dörd həftə çəkdi. O dörd həftədə Surətim Ərzurum məliyi övladlarının xocalığına tövsiyə olunmaqdan ötrü Seyyid Bürhanəddinə ağız açdı, Seyyid Bürhanəddin də məsələni bir neçə gün sonra ona baş çəkməyə gələn Sahib Şəmsəddinə çatdırdı, Sahib Şəmsəddinsə məni yanına çağırtdırıb uzun-uzadı nəsihət, bir də yağlı tövsiyə məktubu verdi. Qalan günləri də yolların açılmasını gözləyə-gözləyə Surətimin, dabbaqbaşı Xeyrəddinin vəqflə bağlı işlərinə yardım eləməklə yola verdim, üstəlik, Surətimlə Dördquyulara getdik, xəttin qalayacan keçəcəyi güzərgahı gözəyarı da olsa, bəllədik, saxsı ustalarıyla görüşüb nə qədər boru lazım gələcəyini hesabladıq, külahdüz, xalıçı, sərrac, nalbənd, dəmirçi, misgər, bənnaların ən hörmət-iz-

zətlilərinə üz tutub vəqfə qoşulmağa çağırdıq. Fatma Bacı da yardıma ürəkdən girişmişdi, hər gün axşam namazından qabaq Xeyrəddinin dükanında yığışıb işlərin gedişini götür-qoy eləyirdik. Sahib Şəmsəddin ilkin məbləğ kimi, şəhər xəzinəsindən min ağca göndərmişdi, Surətimin fikrincə, artıq əldəki min beş yüz ağcayla işə başlamaq olardı, Allahın köməyiylə yardımların davamı da gələcək, girişdikləri işi camaatın qeyrətilə başa çatdıracaqlar – niyyət düz olandan sonra Yaradan lütfünü əsirgəməz.

Sahib Şəmsəddinlə görüşüm sultanın əzəmətli düyün qəfiləsi şəhərdən çıxandan, o, Konyada hökmdarın nikah mərasimini yoluna qoyub Qeysəriyyəyə qayıdandan bir gün sonra baş tutdu. Dəbdəbəli imarətinə Surətimlə birgə getmişdik, bizi də gözlədiyimin əksinə, çox sadə döşənmiş hücrəsində qəbul eləmişdi. Görünür, imarətin dəbdəbəsiylə hücrənin sadəliyi arasındakı böyük fərqdən duyduyğum çaşqınlıq üsifətimə vurmuşdu, eləcə də bağır basdım, yer göstərdi, oturanda üzümə baxıb gülümsündü, Allahın böyüklüyünə şükür eləyib, bəlkə də həyatının ən ağır yükündən qurtulduğunu söylədi: Tiflis Ərzincan arşında hər şey baş verə, gürcü padşahının düşmənləri, yaxud Muğanda marığa yatmış Çormoğon Noyonın dəstələrindən biri, ya da Ərzurum civarında hələ də at oynadan quldurlar qəfiləyə basqın eləyib fəsad törədə bilərdilər; hətta bir kərə uzaqda tozu dumana qatıb üstlərinə şığıyan dəstəni görəndə mühafizlər döyüşə hazırlaşmışdılar, amma məlum olmuşdu ki, Rusudana bağlı gürcü məliklərindən biridi, padşahının qızına hörmətini izhar eləmək fürsətindən yararlanmağa çalışır, gəlinə də, bəyə də bahalı hədiyyələr, üstəlik, bir neçə araba gürcü nemətləri gətirib. Bir də Ərzurumda qara düşüb iki gün yolun açılmasını gözlədiklərini, sonra Allahın yardımıyla hər şeyin istədikləri kimi baş verdiyini söylədi.

Ərzuruma, məliyin övladlarına dərs demək üçün getməklə bağlı həvəsimə, bəlkə də öz-özlüyündə təəccüblənə-təəccüblənə

(çox soyuq qışı olan əyalət şəhərində yaşamaqdansa, dər-üs-səltənədə qalıb, mədrəsələrdən birində müdərrislik eləyə bilərdim axı) dedi, Böyük Sultanımız Əlaəddin Keyqubad şəhəri Yastı Çəmən döyüşündə Xarəzmşahın yanında səf tutmuş əmisi oğlu Rüknəddin Cahanşahın əlindən alandan sonra zəfərin xatirəsini came tikdirməklə əbədiləşdirmək istəmiş, Ərzurumu saltuklulardan qoparan Kutalmış oğlu Süleymanşahın vaxtında özülü qoyulmuş camenin inşasına başlamaq əmri vermişdi; dedi, o vaxt məmləkətdə bir xeyir iş görməyi arzulayan qızı Hunad Xatun vəqf qurub camenin inşasına yardım göstərmək istəyini bildirmiş, padşah da övladının bu niyyətindən xoşhal olub, Məlik Mübarizəddin Cavlıya yardımlarını əsirgəməməyi buyurmuşdu, inşası, az qala, on ildən bəri davam eləyən qoşa minarəli Xatuniyyə mədrəsəsini bu il açmaq fikrindəydilər; dedi, məliyin övladlarına da, mədərəsədəki tələbələrə də dərs demək Allah-taalanın da təqdir eləyəcəyi savab işdi, Seyyid Bürhanəddin sənin yaxşı tanıdığım Şeyx Övhədəddindən, Şeyx Şəhabəddindən dərs aldığını, Mühyiddin əl-Ərəbi Həzrətlərinin söhbətlərində olduğunu söyləyib, tövsiyə məktubunda da bütün bunları yazdırmışam; dedi, Məlik Mübarizəddin könül dostumdu, səndən himayəsini əsirgəməyəcək, göstərdiyin səy müqabilində haqqını artıqlamasıyla alacaqsan, Ərzuruma yetişməyin üçünsə sənə at da, mühafizlər də veriləcək, ümidvaram, bu səfərin səndən, həm də Ərzurumda elm-irfan öyrənmək istəyən övladlarımızdan ötrü xeyirli olacaq.

Dər-ül-mülkün hakimi kimi yüksək məqam yiyəsi olan Sahib Şəmsəddinin o məqamla uyuşmayan sadəliyinə təəccüblənə-təəccüblənə minnətdarlıq elədim, zənnində yanılmadığına əmin olmaq üçün qeyrətlə çalışacağımı söylədim, amma atdan da, mühafizlərdən də boyun qaçırdım, dedim, Təbrizdən bəri uzun yolları piyada keçmişəm, mədrəsə payızda açılacağına görə, yetərincə möhlətim də var; dedim, bir də ki, mühafizlə gedən kəs diqqəti daha çox çəkir, böyük məqam sahibi olduğumu

güman eləyib minbir xəyala düşərlər, amma Təbrizdən, Bağdaddan, Şamdan belə, dünyanın yolları dərvişlərlə doludu, kimsə könül ərlərinə ciddi fikir verməz, sağ-salamat gedib Ərzuruma çıxaram. Amma Sahib Şəmsəddinin yol xərci götürməklə bağlı israrının qarşısında dayana bilmədim, içi ağca dolu məxmər kisəni qurşağımın altına qoymalı oldum, həmin məqamda da özümü xoşagəlməz bir şeyə bulaşmış kimi hiss elədim. Sahib Şəmsəddinin xeyir-duasını dinləyib, şərbətimizi içib qarşılıqlı dua-sənadan sonra çıxdıq, imarətdən bir qədər aralananda Surətim gülümsəyə-gülümsəyə dedi, məqam sahiblərinin hüzurunda özünü naqolay hiss eləyirsən, əvvəllər mən də beləydim, amma burda məskən salandan sonra öyrəşdim, daha doğrusu, öyrəşmək məcburiyyətində qaldım; dedi, Sahib Şəmsəddin o məqam sahiblərinin ən sadəsidi, Allaha xeyli yaxın adamdı, Sadəddin Köpək kimisinin hüzurunda bir an belə tab gətirə bilməzdin; dedi, pirimiz zindana atılandan sonra bir dəfə Köpəyin hüzuruna getmək məcburiyyətində qalmışdım, çıxandan sonra, elə bil, nəcis quyusuna düşmüşdüm, birbaşa hamama gedib uzun-uzadı yuyundum.

Yolun açılmasını gözləyə-gözləyə də bir neçə dəfə Surətimlə birgə Seyyid Bürhanəddinə baş çəkdik. Son ziyarətimizdə sözü yenə Əttardan salıb müridlərindən birinin danışdığı rəvayətə oxşar hadisəni nağıl elədi: Nişaburun qazı-ül-qüdatı Yəhya bin Səidin oğlu dünyasını dəyişəndə camaat məsləhət görür ki, mərhumu Şeyx Fəridəddinin məzarının ayaq tərəfində dəfn eləsin. Amma bin Səid razı olmur, deyir, övladımın boş-boş danışan, xurafatçı bir qocanın ayaqları altında dəfn edilməsinə izn vermərəm. Elə o gecə də yuxusunda da görür, Şeyx Fəridəddinin qəbri üstündədi, vəlilər, ərənlər, mürşidlər mərhuma təzim eləyib hörmətlərini bildirirlər. Qazı o tanış adamlardan utandığına görə, cəld uzaqlaşmağa başlayır, ancaq arxasınca oğlunun fəryadını eşidir: “Ey əziz validim, səhvə yol verdin, məni Allah-taalanın vəli bəndələrinin rəğbətindən məh-

rum elədin, tez imdadıma çat!" Qazı səhəri gün oğlunun Şeyx Fəridəddinin məzarının ayaq tərəfində dəfn olunmasına izin verir, adına söylədiklərinə görə də dönə-dönə üzr istəyir, məzarın üstündə türbə, yanında da imarətxana tikdirməyə söz verir. Seyyid Bürhanəddinin nuru lap öləzimiş gözlərindən yaş axdı, dedi, mürşidim Bahaəddin Vələdin məzarının ayaq tərəfində dəfn olunmaq istərdim. Həmin məqamda beynimdən keçirdim ki, bu cür arzuyla yaşayan müridləri varsa, mürşidin ruhu daim şad olar; amma ömrüm qüruba yaxınlaşır, indiyəcən nə mürid olmuş, nə də mürşidlə rastlaşmışam, hələ ki, *Eşq yolu*nun ağına düşüb gedirəm...




ALTINCI MƏQAM



BELƏ DOSTA CANIM FƏDA

Bəzən uzaqlaşmaq lazım gəlir yaxınlaşmaq üçün,
Bəzən xatırlamaq lazım gəlir xatırlanmaq üçün,
Bəzən ağlamaq lazım gəlir açılmaq üçün,
Bəzən anmaq lazım gəlir anılmaq üçün,
Bəzən susmaq lazım gəlir, duymaq üçün.





Yola çıxmaq məqamı yetişəndə həsirimi, köhnə su qabımı, sınıq piyaləmi, üç girvənkəlik qıfılımı, ip yumaqlarımı, hazır belbağılarını dağarcığıma yığıb bu müddət ərzində hörmətini əskik eləməmiş karvansarayçıya minnətdarlıq elədim, dabbaqbaşı Xeyrəddinə baş çəkib vidalaşdım, əlbət ki, Surətimin məni ötürməklə bağlı israrına boyun əyməli oldum. Sivas, yoxsa Xarput yoluyla getmək barədə xeyli düşünmüşdük, daha doğrusu, bu tərəflərə bələd olan Surətim götür-qoy eləmiş, axır ki, ikinci yolu məsləhət görmüşdü. Ərzincan, Sivas tərəflərdən gələnlər hələ yolların qarlı olduğunu, arabir qar yağdığını söyləyir, Xarputdan gələnlərsə, ən azı, Ərzurum anayolunacan yolların işlək olduğunu deyirdilər. Sürətimin hesabına görə, Xarputa ən yaxşı halda, iki həftəyə yetişə bilərdim, ordan da Ərzuruma, uzaqbaşı, bir həftəlik yolum qalırdı, o vaxtacan da yazın qaynar vaxtı özünü çatdırar, yolların qarı-buzu əriyərdi. Dediyinə görə, başlıcası, hava qaralmamış, özümü obalardan birinə, müsafirxanalara, karvansaraylara çatdırmaq, gecə vaxtı bayırda qalmamaqdı. Üstəlik, Xarputdakı qardaşlardan birinin yerini salıq verdi, dönə-dönə tapşırdı ki, o tərəflərdə çətinliyə düşsən, qardaşımıza bir yolla xəbər yetirərsən, özünü Simurq quşu kimi çatdırar...

Gecə yazın ilk yağışı yağmışdı, havadan oyanan torpağın, cücərən otların, erkən açan çiçəklərin qoxusu gəlirdi. Surətim Ayavasil qapısından çıxıb Xarput yoluna dönəndə də geri qa-

yıtmadı, az qala, şəhər gözdən itənəcən yanımca gəldi. Etiraz eləmədim, bu boyda yolu gəlirdisə, deməli, belə məsləhətiydi, içindəki fırtınanı cilovlamaq üçün başqa yolu yoxudu. Qəfildən də yoldan çıxıb kolların birinə doğru getdi, əyilib yerə baxdı, dedi, bənövşələr baş qaldırır, yenə səsi odəfəki kimi titrədi, qırıldı, dizlərini nəm torpağa qoyub zərif çiçəyi ovucları arasına aldı, qoxuladıqca qoxuladı. Mənə elə gəldi, yoxsa, çiyinləri, həqiqətən, titrədi, bunu kəsdirə bilmədim, amma toxtayıb başını qaldıranda gözlərində yaş, alnında əzab dolu qırış gördüm. Elə bil, ani zəifliyinə görə utandı, yaşı silmədən dedi, Təbrizin bənövşələrini xatırladım; yazbaşı ətraf təpələrdəki kolların dibində bənövşə yığıb qom bağlayardıq, Təbrizdən çıxandan sonra Ərbildə də, Bağdadda da, burda da hər yazbaşı şəhərdən çıxıb bənövşələrlə bağlı nisgilimi ovutmağa çalışıram. Bildim ki, o nisgildə də ömrünün axarını dəyişən hekayət gizlənib, amma sorub-soruşdurmadım, məsləhət bilsəydi, özü danışacaqdı.

Duyğum məni aldatmadı, yolqabağı oturub nəfəsimizi dərəndə Surətim gözünü günçıxan səmtdən, Təbrizin yerləşdiyi tərəfdən çəkmədən həyatının hekayətini danışdı: Dəstişah məhəlləsində keçən atalı-analı, qardaş-bacılı, sevdalı günləri bircə ayın ərzində tar-mar olubmuş. O qış Təbrizin üstünə kabus kimi çökən yatalaqdan *(yadımdaydı, onda məni ay yarım bayıra buraxmadılar, validim da dükanı bağlayıb evdə oturdu)* təkcə qurtulmuşdu: valideynləri, qardaşı, iki bacısı bircə ayın ərzində kabusa qurban getmiş, üstəlik, hər yaz bənövşələrin siftəsini gizlicə verdiyi sevdalısı da bəladan qurtula bilməmiş, beləcə, hələ həyat yükü görməyən çiyinləri titrəmişdi. Bəla sovuşandan, minlərlə canı aparıb sakitləşəndən sonra daha Təbrizdə qalmağın ağırlığını dərk eləmiş, dağarcığını çiynindən asıb yollara düşmüşdü. Bir müddət Kirmanda qalıb bazar ağzında diləkcə yazmaqla dolanmışdı, elə orda da on altı yaşlı oğlan Şeyx Övhədəddinin bir müridinə rast gəlib Ərbilə üz tutmuş, dərgahda yerləşmiş, dərrakəsi, əxlaqı, savadıyla şeyxin könlünə yol tap-

mış, Diyari-Ruma gələndə də ondan ayrılmamışdı. Ərbildə olduğum vaxtlar rastlaşmamışdıq, onda artıq Diyari-Rumda mürşidinin tapşırıqlarını yerinə yetirməklə məşğulmuş. Sonra onun məsləhətiylə də Qeysəriyyədə, Nəsirəddin Mahmudun yanında qalıb Övhədiyyə dərgahını qurmağa yardım eləmiş, dərgahın ayaqda qalması, Yasəviyyə, Sührəvərdiyyə, Kübrəviyyə, Əkbəriyyə məzhəbləriylə yanaşı, bu yerlərdə yaşayanların könlündə taxt qurması üçün çalışmış, can qoymuşdu. Dedi, Təbriz məndə təkcə doğma ocaq hissi oyatmır, həm də itkilərimi xatırladır, sonra acı-acı gülümsədi, amma bu dəfə də Əminə Xatundan söz salmadı, bildim ki, hələ məqamı çatmayıb

Ayrılanda uzun-uzadı vida sözləri söyləmədik, bir-birimizə şirin vədlər vermədik, heç bir daha görüşüb-görüşməyəcəyimizi belə dilə gətirmədik, ikimiz də dünyanı yorub yola salmışdıq, ayrılığın, itkinin, tənhalığın nə olduğunu bilir, dəvət olunmadan gəlməyi, vidalaşmadan da getməyi bacarırdıq, ağrılara tuş gəlmiş, amma könül dünyamıza kimsənin soxulmasına izin verməmişdik. O, Şeyx Övhədəddinin yoluyla gedib mürşidinin mirasına sahib çıxmışdı, mənsə könlümü Allaha vermişdim, hələ ki, *Dost* axtarışındaydım. Yollarımızın harda bitəcəyini bilmirdik, amma geri dönmək fikrimiz də yoxudu. Hər ikimiz bu dünyada tək-tənhaydıq, qürurluyduq, dünya malında gözümüz yoxudu, Surətim mənim qədər sərt, acıdil olmasa da, əqidə adamıydı, həqiqət bildiyindən hələm-hələm əl çəkməzdi. Bu gün dünyada bir-birimizə rast gəlməyimiz də Allahın lütfüydü, Hələbdən çıxanda başqa bir səmtə üz tutsaydım, yəqin, Surətimlə rastlaşmayacaq, bu fani dünyada görkəmcə də, talecə də, xasiyyətcə də belə oxşarım olduğunu bilməyəcəkdim. Bəlkə, nə vaxtsa barəmizdə rəvayət danışacaq, bizi bir-birimizlə qarışıq salacaq, Surətimin taleyindən keçənləri mənim, mənim başıma gələnlərisə onun ayağına yazacaqdılar, kimsə də bir rəvayətdə iki ömrün qovuşduğu barədə heç fikirləşməyəcəkdi.

Bir-birimizə bağır basdıq, baş əydik, tərpənib yola düzəldim. Qəsdən dönüb geri baxmadım, amma bilirdim ki, yerindən qımıldanmayıb gözdən itənəcən də arxamca baxacaq, tənha qaldığına əmin olandan sonra göz yaşı axıda-axıda, sevə-sevə kol dibindəki bənövşələrdən dəstə bağlayacaq, ona itkilərini andıran çiçəklərin qoxusunu canına çəkə-çəkə şəhərə qayıdacaq, bəlkə də mövsümü başa çatanacan hər gün hamının gözündən oğurlanıb şəhərdən çıxacaq, təpələrin ətəyində, kolların arxasında vurnuxacaq, itkilərini axtaracaq, itirdiklərini bənövşə qoxusunda tapıb ötəri də olsa, sakitləşəcək, bir qədər xoşbəxtlik duyacaq. Mənsə, hələ də *Dostun* qoxusunu duyur, qulağıma yuxudamı, aşkardamı eşitdiyim səsi gəlirdi: *"Ey məna aləminin sərrafı məni axtar, tap!"* Heç düşünüb-daşınmadan *qoxunun, o səsin* arxasınca Şamdan Hələbə, Hələbdən Qeysəriyyəyə üz tutmuşdum, Qeysəriyyədən də Ərzuruma, altıncı qapını açmağa gedirdim. Qoynumda Sahib Şəmsəddinin Məlik Mübarizəddin Cavlıya yazdığı məktub, qurşağımın altında elə onun verdiyi on ağca, dağarcığımda bu fani dünyada olub-qalanım, könlümdə O-nun sevgisi, qəlbimdə *Dost*a qovuşacağıma inam vardı. Üstəlik, yazbaşıydı, havadan get-gedə oyanan torpağın, erkən çiçəklərin başgicəlləndirən qoxusu gəlirdi...

***

...Surətim dərgahın işləriylə bağlı iki dəfə Xarputa gedib gəldiyindən, yola yaxşı bələdmiş, mənə karvansarayların, müsafirxanaların, aşxanaların harda olduğunu yerli-yataqlı başa salmışdı. Ağməsciddə, Pınarbaşıda, Darəndədə bir gün qalıb dincimi ala, sonra yenə ta Xarputacan üzü günçıxana yoluma davam eləyə bilərdim. Arabir yanımdan Səlcuqlu atlıları, kiçik türkman köçləri, Malazgird zəfərindən sonra gəlib bu yerlərdə yurd-yuva qurmuş, artıq oturuşmuş Səlcuqlu təbəələri, Məğribdən Məşriqə, Məşriqdən Məğribə, güneydən quzeyə, quzeydən güneyə mal aparan tacirlər, yaxın obalara üz tutan çərçilər

rast gəlirdi. Cəbə Noyonla Subutay Bahadırın, sonra da Çormoğon Noyonın günbatana üz tutması Xorasanın, az qala, yarısını Azərbaycana, Əcəmə, Şama, Diyari-Ruma köçürmüşdü. Gələnlər özləriylə təkcə canlarını yox, həm də adət-ənənələrini, məzhəblərini, dərgahlarını, yer-yurd adlarını gətirmişdilər. Hətta Sahib Şəmsəddin İsfahaninin dediyinə görə, Ərzurumun günçıxan səmtində Xorasan obası qurulmuşdu, güman ki, get-gedə böyüyüb şəhərə çevriləcəkdi. Oğuz boylarından olan Kutalmış oğlu Süleymanşahın qurduğu Kayı obası da Ərzurum yaxınlarında məskən salmışdı, yenə Sahib Şəmsəddinin dediyinə görə, Böyük Sultan Əlaəddin Keyqubad rumlulara qarşı kayıların gücündən yararlanmaq barədə düşünürdü. Get-gedə çökən Bizansın gec-tez Söyütdən, Qaracahisardan da o tərəfə çəkiləcəyi gün kimi aşkarıydı, onda bu torpaqların sahibi də elə kayılar olacaq, Kutalmış oğlu Süleymanşahın törəmələri sanballı gücə çevriləcəkdi.

Ağməsciddə, Pınarbaşıda diqqətəşayan bir vaqeə baş vermədi, karvan yollarının bir-birinə oxşayan karvansarayları, müsafirxanaları, aşxanalarıydı, kiçik hücrələrində qapını qıfıllayıb yatır, qalxıb bir qab şorba içir, yoluma davam eləyirdim. Qeysəriyyədən çıxdığımın doqquzuncu günü Darəndəyə çatanda selləmə yağışa düşdüm, daldalanmağa yer tapmadım, karvansaraya da təpədən-dırnağa su içində, həm də qəfil soyuyan havadan dişlərim-dişlərimə dəyə-dəyə girdim. Karvansarayçı, görünür, halətimi anladı, dərhal buyruqçusunu hücrəmə göndərib yardım lazım olub-olmadığını soruşdu. İri tasda isti su, bir də dəsmal gətirməyi təvəqqe elədim, buyruqçu istədiklərimi gətirib bayıra çıxan kimi, qapını qıfılladım, əynimdəki paltarları soyunub sıxdım, qurumaq üçün asdım, sonra tasın içinə girdim, dəsmalı isti suyla isladıb bədənimi qızışanacan sürtdüm, ardınca qurulanıb özümü mitilin altına saldım. Görünür, vaxtında tərpənmişdim, ya da Rəbbim məni yolda qoymaq istəməmişdi, bayaq tir-tir əsən canıma xoş hərarət yayıldı, özüm də hiss eləmədən yuxu-

ya getdim. Bir də qapının taqqıltısına oyandım: buyruqçu isti şorba gətirmişdi, o, yır-yığış eləyənəcən şorbanı içib halımın xeyli yaxşılaşdığını duydum. Axşam namazımın vaxtı ötmüşdü, Allahdan əfv diləyib qəza namazı qılacağıma söz verdim, məni yolda qoymadığına dönə-dönə şükür elədim.

Səhər oyananda ömrümdə ikinci dəfədi ki, xəstələndiyimi xatırladım. Birinci dəfə yeddi, ya səkkiz yaşım olardı, Günəşin ardınca gedəndə nəhrə yıxılıb islanmışdım, o gecə də qızdırmam qalxmış, validəm bədənimi gənəgərçək yağıyla silib üstümü basdırmış, səhərəcən də yatağımın yanından çəkilməmişdi. Onda üç gün yataqdan qalxmamışdım, sonra durub bayıra çıxanda işığın bolluğundanmı, yoxsa zəiflədiyimdənmi, başım fırlanmışdı. İndi halım o həddəcən pisləşmədi, deməli, bunu heç azarlamaq da saymaq olmazdı. Qalxıb səhər namazımı, üstəlik, qəza namazımı qıldım, buyruqçunun gətirdiyi yeməyi yedim, karvansarayçıyla haqq-hesabı kəsib Xarput yoluna çıxdım. Dördüncü gün Bingöl dağları, sonra da Xarput qalası görünəndə yadıma Təbriz düşdü. Yurdum artıq Ögedeyin mülki sayılırdı, Çormoğon Noyon da başı üstündən Əzrayıl qılıncı kimi asılmışdı. O qılınc indi Muğanda pusquya yatmışdı, az sonra qınından çıxıb kiminsə başının üzərində parlayacaqdı. Azərbaycan da, Arran da artıq taleyiylə barışmış, o tərəfdə Şirvan diz çökmüşdü, Kartli padşahı Çormoğon Noyonın qasırğaya oxşar basqınını həmişə gözləyirdi, yəqin, Sultan Qiyasəddin də o qılıncın enməməsi üçün yollar düşünürdü. Amma bildiyim bir həqiqət vardı: Çormoğon Noyan bu yaz harasa basqın eləyəcəkdi, çünki dincəlmiş qoşun qənimət istəyir, Ögedeysə yeni-yeni torpaqların zəbtini gözləyirdi...

Ulu Cameyə yaxın yerdə, dördkünc həyəti, birqatlı hücrələri olan müsafirxanada yerləşdim, maraqla məni süzən, əlbət ki, bu şəhərə gəlişimin məqsədiylə maraqlanan ortayaşlı həmşinliyə sabah səhər yola çıxacağımı deyib canımı qurtardım. Hücrəmin qapısını qıfıllayıb günorta namazınacan bayıra çıxmadım. Gü-

norta namazını da Ulu Camedə qıldım, içini doldurmuş cürbəcür qövmlərə mənsub adamların eyni inama qulluq eləmələrinə bir daha heyrətləndim. Türk, türkman, ərəb, hind, fars, kürd, həmşinli, zaza... eyni Allaha üz tutub dua eləyir, amma öz aralarında çarpışır, bir-birindən mal-mülk, torpaq, qızıl-gümüş qoparmağa çalışırdılar – ha götür-qoy eləyir, bunun səbəbini axtarır, amma axırını bir tərəfə çıxara bilmirdim. Böyrümdə çökmüş adam zazaydı, bunu öz-özünə danışanda qulağıma dəyən bir-iki sözdən bildim. Namaz bitəndən sonra həmşinli saxlancdan xəncərini, qılıncını götürdü, bir göz qırpımındaca fağır Allah bəndəsindən qorxulu quldura çevrildi. Yəqin, namazını qılandan sonra gedib rahat qəlblə öz işini görəcək, yol kəsib, adam soyacaq, yeri gələndə yaxaladığını qılıncla şaqqalayacaqdı. Sonra atını mindi, mən də ətrafa vüqarlı nəzər sala-sala çıxıb gedən o adama baxa-baxa fikirləşdim ki, namaz qılanların bir çoxu dua eləyəndə, bəlkə də görəcəkləri şər işlərin uğurlu olmasını dilәyirlər – şər iş üçün Allahdan izin almaq ağlabatan görünməsə də, başqa bir izah tapa bilmədim.

Namazdan sonra rastıma çıxan ilk aşxanada şorbamı içib şəhəri gəzdim, gözlədiyim kimi də, axşam azanına xeyli qalmış, artıq Xarput haqqında lazım bildiyimi öyrənmişdim. Camaat şəhəri Çapakçur, Zazalar, Çoliq adlandırırdılar, hələ də bir tərəfi dağılmış vəziyyətdə olan Xarput qalası saysız-hesabsız döyüşlərin şahidi olmuşdu. Aşxanaçı həmşinli dedi, Ərzurumacan, rahat getsəm, dörd günlük yoldu, üstəlik, yolumun üstündəki, karvansarayları, müsafirxanaları da salıq verdi, dedi, buralarda yazın oğlan çağı olmağına baxma, Ərzurum dağ yeridi, ola bilsin, hələ yolların qarı-buzu əriməyib, illah da, Palantökənə yaxınlaşanda gərək ehtiyatı əldən verməyəsən; dedi, o tərəflərdə tədbirli ol, soruşub yolun açıq olub-olmadığını öyrən, hava qarışsa, yaxşısı budu, hücrəndən bayıra çıxmayasan. Sonra ötən qış ərzində o tərəflərdə baş vermiş, müsafirlərindən eşitdiyi bir-iki əhvalat danışdı, gördüm, aşxanaçının sözlərini qəribliyə

salmamalı, Ərzuruma sağ-salamat gedib çıxmağımı istəyirəmsə, tədbirli olmalıyam. Orda qarşımda altıncı – axırdan əvvəlki qapı açılmalıydı, *O*-na yetmək, *Dost*uma qovuşmaq yolunda daha bir addım atmalıydım. Aşxanadan çıxıb müsafirxanaya gedə-gedə fikirləşdim ki, əslində, məndən az şey asılıdı, qismətimdə nə varsa, başıma o da gələcək.

Səhər Xarputdan çıxanda müsafirxanaçı Ərzuruma gedən karvanlardan birinə qoşulmadığıma, qatır, ya at kirayələmədiyimə təəccüblənib dedi, Allah yolunu açıq eləsin, amma bu tərəflərdə əmin-amanlıq olduğuna bel bağlama, bir də gördün, gədiklərin birində qabağını kəsdilər, olan-qalanını əlindən aldılar, özünü də lütləyib buraxdılar, hələ bəxtin gətirib öldürməsələr, sevinmək lazımdı. Onun arxamca belə qara tökməsindən xoşum gəlmədi, dedim, iman əhlinin olub-qalanı dağarcığında yox, könlündədi, könlünə də kimsənin nə hökmü, nə əli çatar, dağarcığımdakılarsa, o yolkəsənlərin eyninə də gəlməz. Amma ikinci gün, yolu, az qala, yarılayanda bir də gözümü onda açdım ki, qarşımda heç də xoş niyyət yiyəsi olmayan iki nəfər var. Biri əlini qılıncının dəstəyinə aparıb hardan gəlib-hara getdiyimi soruşdu, dedim, əvvəla, Allahın salamını vermək ədəbdəndi, ikincisi də niyə soruşursan, ismarış-filan göndərməyəcəksən ki? Yanındakının gözləri alacalandı, xəncərini çəkib işimi bitirmək istədi, birincisi ötkəm danışığımdan, deyəsən, xoşlanmışdı, dedi, cəsarətini bəyəndim, amma bu cəsarəti hardan, nədən aldığını izah eləməyincə səni buraxmayacağam. Qoynumdakı kağızı çıxardım, dedim, Qeysəriyyədən gəlir, Ərzurum məliyi Mübarizəddin Cavlının övladlarına dərs deməyə gedirəm.

Məliyin adını eşidəndə ikisinin də gözləri bərəldi, əlləri titrədi, yaman yerdə axşamladıqlarını dərk eləyib əl-ayağa düşdülər. Birincisi gülümsəmək istədi, amma bacarmadı, sir-sifəti əyildi, boğazından hıqqıltıya oxşar səs çıxdı; o biri, deyəsən, özünü birtəhər ələ almışdı, dedi, biz də məliyin xidmətindəyik, onun əmriylə gedib-gələnlərə göz oluruq ki, qaçaq-quldur bir

sədəmə toxundurmasın. Biçarələr heç kağıza da baxmadılar, bəlkə, oxumaq da bilmirdilər. İkincisi rahatsızlığa görə dönə-dönə üzr dilədi, dedi, möhtərəm məliyin müsafirini Ərzuruma aparıb çatdırmaq borcumuzdu, yaxınlıqdakı karvansaraydan at, qatır da kirayələməyə, şəhərə çatmağın üçün əlimizdən gələni eləməyə hazırıq. Onların, həqiqətən, yollara göz olduqlarını, yoxsa məliyin müsafirinə rast gələndə qorxub yalan söylədiklərini anışdıra bilmədim, hafizəmə yalnız Allah bəndəsinin hökm və güc müqabilində keçirdiyi qorxu hissi həkk olundu. Əlbət ki, yardımlarından boyun qaçırdım, piyada getməyin məndən ötrü daha rahat olduğunu söyləyib mümkün qədər tez aralanmağa çalışdım. Üç dəfə bağır basıb təzim elədilər, dönə-dönə yaxşı yol dilədilər, o məqamda da müsafirxanaçının dediklərini xatırladım.

Müsafirxanaçının dediklərini bir də yolçuluğumun son günü, Palantökən yaxınlığında yada saldım. Gədiyi duman bürümüşdü, iki addımlıqdakı qaraltının adam, yaxud heyvan olduğunu ayırd eləmək çətiniydi. Ən qorxulusu da unamadan yoldan çıxmaq, bir göz qırpımında uçuruma yuvarlanmağıydı, ona görə də boşluğa düşməmək üçün əl ağacımı yolun yumşalmış torpağına sanca-sanca gedirdim. Fikirləşirdim, dayanmaq vaxt itkisidi, bəlkə, yeriməklə harasa çıxa bildim. İrəlidə bir topa qaraltı vardı, at fınxırtısı, dəvə nəriltisi, sarvan qışqırtısı eşidilirdi, başa düşdüm ki, Allah üzümə baxıb, karvana rast gəlmişəm, onun qaraltısına da bu dumandan çıxacağam. Belə dumana altı ya yeddi yaşım olanda, bir payız günü validəmin gözündən oğurlanıb nəhrin qırağına gedəndə düşmüşdüm. Qəfildən qatı duman enib hər tərəfi bürümüş, mən də səmtimi itirmişdim. Onda İlahinin təlqiniylə yerimdən tərpənməyib dumanın nə vaxt çəkiləcəyini səbirlə gözləməyə başlamışdım. Bilmirəm, nə qədər keçmişdi, elə dumanın içindən də məni səsləyən validəmin səsini eşitmişdim. Hardasan, deyirdi, oğlum, səsini çıxar, hardasan, hardasan... Elə bil, basaratım bağlanmışdı, bir müd-

dət səsimi çıxara bilməmişdim, amma validəmin harayı ağlartıya çevriləndə qəfildən sinəmdən hayqırtı qopmuşdu: "Burdayam!" Validəm o qatı dumanda səsimin səmtini necə tutmuşdu, indi də məəttələm, bir göz qırpımında ley kimi şığıyıb məni götürmüş, nəfəsi ağzından çıxa-çıxa sinəsinə sıxmış, dönə-dönə öpüb qoxulamışdı. İndi də sarvanın harayı validəmin hayqırtısını xatırlatmışdı, elə o məqamda da dumandan sağ-salamat çıxacağama inandım.

Dumandan qəfil, qılınc qınından sıyrılan kimi çıxdıq, dərhal da uzaqlarda ağızlardan adını Ərz-ən-Rum kimi eşitdiyim Ərzurum qalasını gördüm. İrəlidə iyirmi-otuz nəfərlik dəvəli, atlı, qatırlı karvan vardı, yüklərindən təxmin elədim ki, duz aparırlar. Karvandakılar məni görüb sərgərdan dərviş saydılar, bağır basıb maraqla gözdən keçirdilər, amma yanlarından Şəmsi-Parəndə kimi keçib karvanı xeyli geridə qoydum. Cənnətməkan Şeyx Övhədəddin deyirdi, övladım, yoluna çıxan hər adamla ünsiyyətə girmə, hər kəs ömründən bir zərrə qoparsa, özünə bir şey qalmaz. Sürətim də bir dəfə demişdi, hər rastıma çıxana vaxt xərcləyəcək qədər varlı deyiləm, o vaxt ərzində öz içimlə əlləşsəm, daha artıq fayda götürərəm. Mən də eynilə o fikirdəyəm: gərək kölgəndə dincələn adamlarla yox, könlündə dincəldiyin adamlarla yola çıxasan, könlünə yaxın adamlarla həmhal olmayandan sonra təklik-tənhalıq daha münasibdi, ən azı, qəlbinə toxunan sözlərin, cızdağını çıxaran əməllərin şahidi olmursan. İndiyəcən qəlbimə yaxın buraxdığım bir kimsə vardısa, o da Sürətim idi. Amma Surətim – *mən* idi, *Dost* deyildi, *Dost* hələ uzaqlarda, əlçatmazdaydı, özümü tanıyandan bəri ona yetişməyə can atır, yolları əriş-arğac eləyirdim. Surətim arif, həm də kamil adamıydı, bütün bunları başa düşdü, dərk elədi, bu səbəbdən, Qeysəriyyədə qalmaq, onların davalarına qoşulmaq üçün dil tökmədi – bilir ki, öz yolu-yolağası olan adamam, məqam-filan arxasınca düşsəydim, sultanın da, xəlifənin də sarayında özümə yer tapardım...

***

...Günortadan xeyli keçmiş Ərzuruma girəndə nədənsə heç düşünüb-daşınmadan Təbriz qapısına sarı getdim, qalacağım yeri də orda axtardım. Qismətimə Əcəm Əlinin karvansarayı çıxdı, hücrəmi alıb yerləşdim, qapını qıfıllayıb mənzilbaşına çatmağımdan xoşhallıq duya-duya xeyli səssizlik içində oturdum. Sabahdan özgə bir həyata başlayacaq, qismətimdə vardısa, bu vaxtacan ən çətin iş saydığım müdərrisliklə məşğul olacaqdım. Əlbət ki, Məlik Mübarizəddin övladlarına yaxın olum deyə, sarayda qalmağımı istəyə bilərdi, amma şübhəsiz, boyun qaçıracaqdım, saray güzəranı məndən ötrü zindan həyatından fərqlənməzdi. Mədrəsədə müdərrisliyimə izin versə, elə orda, yəqin, yaşamaq üçün kiçik bir hücrə tapılardı. Hələ bir kəsi belə tanımadığım, Surətimin dediyinə görə, qış ayları həddən artıq soyuq keçən *(bəzən quşların belə, havadaca donub tappıltıyla yerə düşdüklərini söyləmişdi)* bu quzey diyarında nə qədər duruş gətirəcəyimi bilmirdim. Hər halda, qarşımda növbəti qapı açılanacan Ərzurumda qalacaqdım, o qapının nə vaxt açılacağısa, ancaq Allaha ayanıydı. İndiyəcən atlarının ayaq səsləri eşidilməmişdisə, deməli, Çormoğon Noyon bu il Ərzuruma sarı gəlmək fikrində deyildi, bəlkə də sarayındakı xəyanətin köklərini qazıyıb güclənən Sultan Qiyasəddinlə hələlik üz-üzə gəlmək istəmirdi. Məxləs, artıq Ərzurumdaydım, hər şey çox-çox uzaqlarda, sanki Palantökən dumanı arxasında qalmışdı.

Fikrim bir-iki gün dincələndən, yolun ağrı-acısını canımdan çıxarandan sonra Məlik Mübarizəddinin hüzuruna getmək idi. Amma ucbəyiylə görüşümün tezliklə baş tutmayacağını Əcəm Əlinin ikicə kəlməsindən başa düşdüm: məlik köç-külfətiylə Ərzincan yaxınlığındakı yaylaqdaydı, quyruq donan vaxtı dönəcəkdi. Üzə vurmasam da, nədənsə bu xəbərə çox sevindim, yəqin, Ərzuruma əməlli-başlı alışmamış hələ öz bacarığıma belə güvənmədiyim müdərrisliyə başlamaqdan çəkinirdim. Düzdü, mədrəsədə molla azarlayanda bir ay sərasər həmyaşıd-

larıma oxuduqlarımdan nağıl eləmişdim, amma onu müdərrislik saymaq olmazdı. Məliyin övladlarının hansı xasiyyətdə olduqlarını bilmirdim, gərək dil tapa, hər birinin nazıyla oynayaydım, bu da məndən ötrü lap Allah əzabı olacaqdı. Özümdə səbir, dözüm, hövsələ tapa bilsəm, qış düşüb, yollar bağlananacan Ərzurumda qalacaq, sonra yaz gəlib yollar açılancan tab gətirəcəkdim, beləcə, az qala, bir il başa çatacaqdı, sonra da Allah kərimdi. Sahib Şəmsəddin xasiyyətimə o qədər də bələd deyildi, amma bu qərarımdan xəbər tutanda Surətimin qaşlarının arası düyünlənmiş, sorğulu-sorğulu üzümə baxmışdı. Onda beynindən keçənləri oxuyub demişdim, qayğılanmasın, tövsiyə sahibinin gümanını boşa çıxarmaram, ən azı, hörmətsizliyə yol verib üzünü qara eləmərəm, Məlik Mübarizəddin sınağa çəkər, savadımı, mərifətimi yoxlayar, sonra izin verər, ucbəyini qane eləməsəm, özümə bir gün ağlayaram, qismətimə yazılmış diyarlardan birinə gedər, bəlkə, elə Qeysəriyyəyə dönərəm.

Əvvəla, bəxtim gətirdi, Əcəm Əliylə aramızda məhrəm unsiyyət yarandı, daha doğrusu, əslən Xoydan olduğunu, bu səbəbdən, Əcəm Əli adlandığını öyrənəndə ona yaxınlıq duydum, qəlbimin qapısını, az da olsa, araladım. O qəribin də öz hekayəti varmış: Xarəzmşah Cəlaləddin Təbrizə girən vaxt məlikə Mehrican Xatunun xidmətində, üstəlik, sahibəsinin nikah məramının nişanəsi olan üzüyünü Sultanın hüzuruna aparanlardan biriymiş; izdivac baş tutandan sonra Sultan Cəlaləddin hamısını qulluqdan uzaqlaşdırıb, bu səbəbdən, Xoyda yerləşməli olub, amma gündoğandan gözlədiyi bəlalar ucbatından dədə-baba yurdunda dinclik tapa bilməyib, malını-mülkünü satıb bir qədər uzaqlaşmağa qərar verib, çox götür-qoydan sonra Ərzuruma üz tutub, əvvəlcə bu karvansarayda iş tapıb, sonra da karvansarayı artıq qocalmış yiyəsindən alıb, indi övrəti və bir oğluyla müsafirləri yola verir, bir oğlu da məliyin qulluğundadı. Mübarizəddinin biri on altı, digəri on dörd yaşında iki oğlu olduğunu da Əcəm Əlidən öyrəndim. Üstəlik, Toğrulşahın tikdirməyə

başladığı, Böyük Sultan Əlaəddinin bir müddət sonra inşasının davamına qərar verdiyi, Sultan Qiyasəddinin böyük bacısının səxavət göstərib yardım elədiyi qoşaminarəli mədrəsənin məlik yaylaqdan dönəndə açılacağını, o vaxtacan da xırda-para işlərin tamamlanacağını da ondan eşitdim. Deməli, hələlik Ərzurumda müdərrisliyə başlamaq üçün heç bir maneə yoxudu, üstəlik, həmin müddətəcən şəhərin ab-havasına alışmağa cəhd göstərərəcəkdim. Gündəlik ruzimi əlimin zəhmətiylə qazanırdım, Sahib Şəmsəddinin verdiyi yolxərcindən də cəmi iki ağca xərcləmişdim, maddiyyat sarıdan elə bir qayğım yoxudu.

Əcəm Əli də həyat hekayəmdən, əlbət ki, məsləhət bildiyim qədər agah olanda Şeyx Övhədəddinin, Şeyx Şəhabəddinin, Şeyx Mühyiddinin isimləriylə yanaşı, mənim də ismimi məclislərdə eşitdiyini, zəkamla Günəş kimi işıq saçdığım, diyar-diyar dolaşdığıma görə, Parəndə ayaması qazandığım, Qeysəriyyədə də əsnafın yardımına çatıb Kamili-Təbrizi ünvanına layiq görüldüyüm barədə söylənənlərdən xəbər tutduğunu bildirdi. Düzü, ağzından çıxan sözlər izzəti-nəfsimi oxşadı, amma dedim, Qeysəriyyədə əsnafın da, şəhər əhlinin də yardımına qoşan Kamili-Təbrizi mən deyiləm, Təbriz ünvanlı Kəmaləddindi, Şeyx Övhədəddinin müridlərindəndi, kürəkəni Nəsirəddin Mahmudun xəlifəsidi. Əcəm Əli söylədiklərimə diqqətlə qulaq asdı, həmin məqamda simasında inamsızlığa oxşar ifadə sezdim, yəqin, sözlərimə inanmaqda çətinlik çəkirdi, ola bilsin, bunu başqa kimsələrə danışacaq, amma söylədiklərinə bir qədər sirr qatacaqdı, həmsöhbətləri də o sirri hekayətimin bir əlaməti sayıb başqalarına daha da müəmmalı eyhamlarla çatdıracaqdılar. Həmin məqamda Surətimə rəhmim gəldi, hətta özümü onun qarşısında günahkar saydım: şübhəsiz, sağ olduğum müddətdə haqqını özünə qaytarmağa çalışacaqdım, amma ömür möhlətim bitəndən sonra söylənənlər əfsanəyə çevrilib ağızdan ağıza dolaşacaq, bəlkə, təzkirələrə belə yazılacaqdı – *bu, artıq qismətin işiydi.*

Əcəm Əlidən Şam qazı-ül-qüdatı Şəmsəddin əl-Xoyi barədə də soruşdum. Seyyid Bürhanəddin söhbətlərinin birində Məlik Əşrəfin ölümündən sonra onun məqamından əl çəkdiyi, Xoya qayıtmaq istədiyi barədə qulağına çatanları sözarası söyləmişdi. Qazı-ül-qüdatla Əcəm Əli xoylu olduğuna görə maraqlanmışdım, yoxsa, həqiqətən, sonrakı taleyindən xəbər tutmaq istəyirdim – bunu öz-özlüyümdə ayırd eləyə bilmədim. O cür uca məqamdan əl çəkib dədə-baba yurduna dönmək niyyətinə düşmüşdüsə, deməli, axirət evinə köçməsinə çox qalmayıbmış. Amma Əcəm Əli qazı-ül-qüdatın Xoya qayıtması barədə bir xəbər eşitməmişdi. Həmin məqamda Təbrizə nə vaxt dönəcəyim, ümumiyyətlə, dönüb-dönməyəcəyim barədə düşündüm. Əlbəttə, bu, Allahdan başqa kimsəyə ayan deyildi: Əcəm Əlinin dediyinə görə, elə hey Çormoğon Noyonın Muğandan qalxıb Ərzurumun üstünə gələcəyini, burdan da Ərzincana, Sivasa keçəcəyini gözləyirdilər, o qəfil basqında da bir tatar atlısının nizəsi köksümə sancıla, yaxud, qılıncı boynumun ardına enə bilərdi. Bir də ki, doğulduğu ocaqda ölmək hər kəsə nəsib olmur: Sührəvərddə dünyaya gələn Şeyx Şəhabəddin də, Kirmanda doğulan Şeyx Övhədəddin də Bağdadda öldü, Əndəlüsdə aləmə göz açan Şeyx Mühyiddin Şamda, Tirmizdə anadan olan Seyyid Bürhanəddin Qeysəriyyədə Haqqa qovuşacaq; yeri-yurdu bilinməyən Yaqut əl-Həməvi də axirətə Hələbdə köçdü; Ürgəncdə işıqlı dünyanı görən Sultan Cəlaləddin bu yaxınlardakı dağlarda öldürüldü, Xoyda doğulan Nəsirəddin Mahmud Konya zindanındadı, yəqin, vətənindən uzaqlarda da öləcək. Talelərinə vaqif olmadığım saysız-hesabsız Allah bəndələrinin də sonu elə bu cür olacaqdı.

Ərzuruma qədəm qoyduğum ilk gündən hər şeyin belə asan olacağını ancaq arzulaya bilərdim: Əcəm Əli Məlik Mübarizəddinin müsafirindən haqq almaqdan israrla boyun qaçırsa da, ona çıxıb gedəcəyimi, məliyin də bundan xəbər tutanda çox qəzəblənəcəyini söylədim, canının qorxusundan dərhal susdu. Həm

də müsafirxanaçı yaxşı həmsöhbət, övrətinin bişirdiyi yeməklər çox ləzzətliydi, Təbrizdən çıxandan sonra ilk dəfə validəmin əlinin dadını hiss eləyirdim. Əcəm Əli qızını dəftərdarın oğluna vermişdi, ucbəyinin xidmətində olan böyük oğlu indi Ərzincan tərəflərdəydi, sonbeşiyi Vəhidisə elə ilk baxışdan gözüm tutdu: mərifətli, dərrakəli oğlanıydı, buyruqçuluğu da o qədər ləyaqətlə yerinə yetirirdi ki, yaranışına əhsən dedim. Arada bir-iki kəlmə kəsirdim, elm-irfan sahibi olmağa marağı vardı, mədərəsənin açılmasını intizarla gözləyir, oxumaq üçün validini dilə tuturdu. Məqamı yetişəndə bu barədə Əcəm Əliylə danışmağı qərarlaşdırmışdım: Allah bəndəsinin birini buyruqçu kimi işlədib haqqını verərdi, hətta istəyi gündə ikicə kərə dadar-doymaz yemək olan binəsiblər, şübhəsiz, bu şəhərdə də yetərincə vardı, onların birinə çörək vermək Allaha da, bəndəyə də xoş gələrdi. Vəhidin qismətində oxumaq, aləminin sirlərinə vaqif olmaq vardısa, yoluna kötük itələmək günah idi. Şübhəsiz, taleyinə mənim kimi, *Eşq* dalınca düşmək yazılmamışdı, daha çox Yer adamıydı, özünü odlara çırpıb yandırmayacaqdı.

Atabəy məscidinə, Qoşaminarəli mədrəsəyə tamaşa eləməyə də Vəhidlə getdim. Böyük Sultan Əlaəddinin on il qabaq mühasirəyə aldığı, Toğrulşahın var gücüylə qorumağa çalışdığı günlərdə qalanın dağılmış yerləri hələ də şiddətli çarpışma izlərini saxlayırdı, amma haqqı da danmaq olmazdı: saltuklular Ərzurumu kəndistan yerindən türbələr, camelər, mədrəsələr, imarətlər şəhərinə çevirmişdilər. Vəhid fəhmlə öyrəndiyi şeyləri bildiyindən açıq-aşkar fəxr duya-duya danışır, bununla da sanki mədrəsədə oxumağa layiq olduğunu diqqətimə çatdırırdı: o Atabəy məscididi; o günbəz Ərzurumu alıb saltukoğullarının mülkünə çevirən Əmir Saltukun günbəzidi; o Ərzurumdakı ilk Allah evimiz olan Zeynal Camesidi. Saltukoğullarından məlik Nasirəddin Muhammməd bəyin tikdirdiyi, sultan Atabəy Qızıl Arslana ad elədiyi, bu səbəbdən, camaatın "Atabəy məscidi" kimi tanıdığı Allah evinin əzəməti, gözəlliyi müqabilində *O*-nun bö-

yüklüyünə bir daha şükr elədim. Deyilənə görə, altı min adamın eyni vaxtda namaz qılması üçün nəzərdə tutulmuş, böyük qübbəsi, daş oymalı ikinci qübbəsi, göy üzünə açılan nəfəsliyi, qiblə tərəfdəki bir cüt *"fil gözü*" pəncərəsi, Allah nurunun içəri düşməsi qüdrətli ustanın əlindən çıxıb. Vəhid dedi, soldakı pəncərədən düşən işıq nazilib döşəmədə dairə əmələ gətirəndə imam günorta namazı üçün əzan oxumaq vaxtının yetişdiyini bilir; Qiblə tərəfdəki divarda üç mehrab var, ortadakı mehrab imam üçündü, yandakı mehrabiyyələrəsə, imamın təkbirlərini camaata çatdırmaq üçün təkrarlayan müəzzin köməkçiləri, qəyyumlar çıxırlar.

Qoşaminarəli mədrəsə də əzəmətli minarələri, tağlı girişi, geniş iç həyəti, ikiqatlı hücrələrilə könlümdə taxt qurdu. Vəhidin dediyinə görə, özülünü Toğrulşah qoymuşdu, Böyük Sultan Əlaəddin Haqqa qovuşandan sonra inşası dayandırılmış, ancaq üç il qabaq onun qızı Huand Xatunun yardımıyla davam etdirilmişdi. Mədrəsənin sağ tərəfindəki sütunların usta, sol tərəfindəkilərinsə şəyird əlindən çıxdığını fərq elədim, amma Vəhid, elə bil, beynimdən keçəni oxuyubmuş, camaat arasında dolaşan hekayəni danışıb, fikrimi alt-üst elədi: sən demə, tərsinəymiş, şəyirdin işi daha gözəl, daha mükəmməlmiş, usta da, əlbət ki, bunu qısqanırmış; ustasından irəli getdiyinə əmin olub təkəbbürə qapılan şəyird isti günlərin birində o biri minarənin hörən ustanı səsləyir ki, mənə su gətir, bunu eşidəndə ustanın malası əlindən düşür, gözlərinin içi bulanır, könlü inciyir, "Usta idim, oldum çıraq, at özünü, yerə burax" deyib özünü minarədən atır; şəyird də xətasını başa düşürb, peşman olur, "Şəyird idin, oldun ustad, nə durursan, özünü at" deyib onun dalınca gedir, beləliklə, mədrəsənin inşası yarımçıq qalır. Əlbət ki, belə kədərli, amma gözəl hekayəti olan bir mədrəsədə müdərrislik eləmək könlümcəydi, bundan ötrü də Məlik Mübarizəddin izin verməliydi. Əmindim ki, müdərris sıxıntısı duyulduğu *(yoxsa məlik Sahib Şəmsəddinə ağız açmazdı)* bir vaxtda etiraz eləməyəcək,

Vəhid də istəyinə çatacaqdı. İnşa işlərinə baxan memar marağımı görüb yaxınlaşdı, ədəblə salam verib gəzginçi olub-olmadığımı soruşdu, bu şəhərə müdərris kimi gəldiyimi öyrənəndə on beş ildən bəri inşasına başçılıq elədiyi mədrəsənin, inşallah, Məlik Mübarizəddin dönəndə açılacağını söylədi.

Yağışlı, dumanlı-çiskinli günlərdə hücrəmin qapısını bağlayır, zikrə baş vurur, belbağı hörür, xəyalımda dünyanın yollarını ərşi-arğac eləyirdim. Bəzən də, adətən, günorta namazından sonra Əcəm Əli gəlir, qapını döyür, açanda utana-utana gapa həvəsim olub-olmadığını soruşurdu. Əlbət ki, onu geri qaytarmırdım, üzbəüzdəki həsirin üstündə bardaş qurub oturur, beynini qurdalayan suallar verirdi. Mən də Vəhidin istəyinə doğru addım-addım yaxınlaşmaq üçün elmdən, irfandan, hikmət sahiblərindən söz salır, deyirdim, elmsiz bədən susuz şəhərdi, elm də üç şeydən – zikr eləyən dildən, şükür eləyən könüldən, səbir eləyən bədəndən ibarətdi; deyirdim, elmi asanlıqla, rahatlıqla öyrənməyə çalışan sıxıntı içində qalar; deyirdim, söz hikməti alimlərin, ibadət hikməti abidlərin, didar hikməti də ariflərindi. Əcəm Əli ağzını açıb söylədiklərimə heyran-heyran qulaq asır, xoşbəxtlikdən bütün vücudu işıq saçırdı. Fikrincə, bu cür kəlmələri Ulu Camenin minbərindən söyləsəydim, Ərzurum camaatı məni əl üstündə gəzdirərdi. Amma vəəz vermək fikrində deyildim, qarşımda uzun *yol* vardı: *Eşqimə* yetməli, könlümün atəşini söndürməli, *O*-na qovuşmalıydım...

***

...Yayın axır günlərinin birində Əcəm Əlinin dəftərdar oğlu olan kürəkəni xəbər göndərib *(görünür, karvansarayçı mənə qulluq göstərmək üçün oğluna ismarış yollayıbmış)* Məlik Mübarizəddinin yaylaqdan qayıtdığını xəbər verdi. Məliyin belə tez dönməsini gözləmirdim, çünki Əcəm Əlinin fikrincə, hələ azı yarım ay da orda qalmalıydı. Dediyinə görə, məliyin belə bivaxt dönüşü Adıyaman tərəflərdə baş verənlərlə bağlı ola

bilərdi: gəzən şayilərdən belə çıxırdı ki, Vəfaiyyə dərgahının şeyxi xorasanlı Baba İlyasın baş xəlifəsi Baba İshaq müridləriylə Kəfərsüdü tutub, ardınca da bir sıra obaları ələ keçirib, indi Malatyanın üstünə gedir. Tac-ül-Arifin Əbül Vəfanın öz xəlifələri Baba Qarkınla Baba İlyası Diyari-Ruma ona görə göndərdiyini, Baba İlyasın əlaltından qiyama hazırlaşdığını Surətim söyləmişdi: günçıxandan axışıb gələn türkmanlar özlərinə yurd yeri axtara-axtara köç-külfətləriylə birgə çöllərdə olmazın əziyyət çəkirdilər, dönə-dönə sultana üz tutub torpaq istəmişdilər, amma hökmdarın ətrafındakılar onların da Xarəzmşah rəiyyəti kimi başağrısına çevriləcəklərini düşünüb yaxın buraxmaq istəmirdilər. Sürətim yasəvi, heydəri, gələndərilərin də, vəfailərə qoşulacaqlarını söyləmişdi, Övhədiyyə dərvişlərisə hələ zindanda olan Nəsirəddin Mahmudun qərarını gözləyirdilər. Baba İlyasın xəlifələri çoxdan diyarbadiyar dolaşır, xalqı səlcuqluların zülmünə qarşı baş qaldırmağa səsləyirdilər. Görünür, artıq vaxt çatmış, vədə yetişmişdi.

Əcəm Əli kürəkəninə Qeysəriyyədən müsafir gəldiyini, hüzuruna çıxmaq istədiyini məliyə çatdırmağı da tapşırıbmış. Qulağım səsdə saraydan xəbər gözləməyə başladım. Günlərimi çarşıda, qoşaminarəli məscidin dostlaşdığım memarıyla söhbət eləməklə, Təbriz qapısı ağzında gəlib-gedənlərə baxmaqla keçirirdim. Memar Qütbəddin Zəncaniylə Allahın qüdrətindən, *Eşq*in ucalığından söz açır, Təbriz qapısında yurd həsrətimi söndürməyə çalışır, axşamlar hördüyüm belbağıları çarşıda satırdım. Yurdum çox yaxınıydı, az qala, havasını duyurdum, belimi çəksəm, dörd günə məmləkətimə yetişərdim, amma sanki aramızda gözəgörünməz sədd yaranmışdı, getmək barədə düşünə bilmirdim. Yəqin, valideynlərimi, tanıdığım adamları, uşaqlıq xatirələrimi yerində tapmayacağımdan, bəlkə də rastlaşanda tanımayacağımdan qorxurdum. Valideynlərim çoxdan Haqqa qovuşmuş olardılar, doğma ocağımız da, Allah bilir, kimin əlinə düşmüşdü, Təbrizə üz tutmağım, əslində, keçmi-

şimin məzarı üstünə getməyə oxşayardı. Ərbildə olanda Zeynəddin Kəlusidən xəbər alırdım, o, gəlib-gedənlərlə əl boyda kağız göndərirdi, Bağdada gedəndən sonra aramızdakı bağlar qırıldı, sonralarsa daha o bağları yenidən qurmağa cəhd eləmək üçün özümdə təpər tapmadım. Ola bilsin, sınacağımdan, çıxdığım yoldan dönəcəyimdən, elə Zeynəddin kimi şeyxlərdən birinin müridinə çevrilib özgə kəlamları danışa-danışa dünyadan köçəcəyimdən qorxurdum. Təbriz qapısının ağzındakı meydan bəlkə də Təbrizə ən yaxın olduğum yer idi, ordan o tərəfə keçə bilməyəcəkdim.

Məlik Mübarizəddin məni hüzuruna dörd gün sonra çağırdı. İmarətinin bağındakı kiçik köşkdə oturmuşdu, yaxınlaşmağımı gözləyə-gözləyə saqqalını sığallayır, görünür, həm də əndişəsini ört-basdır eləməyə çalışırdı. Mən bağır basanda sağ əlini ötəri tərpədib üzbəüzdəki mindərə işarə elədi. Sahib Şəmsəddindən salam-dua gətirdiyimi deyib, məktubunu qoynumdan çıxardım. Məlik, görünür, oxuyub-yazmaq bilmirdi, üç addım aralıdakı, təhər-töhüründən katibə oxşayan şəxsə işarə elədi, o oxuduqca da başını tərpədib, gözlərini qıyıb, saqqalını tumarlaya-tumarlaya məni süzdü. Sonra bir-iki sual verdi, görünür, bu da sınağıydı. Dünyada ən müqəddəs adam kim olduğunu soruşdu, dedim, dörd Allah bəndəsi ən müqəddəs sayılır: kasıbların yükünə dözən varlı, qənaət eləyib halından şikayət eləməyən kasıb, əməllərinin ayıbından qorxan günahkar, günahlardan uzaq qaçan alim; rahat yaşamağın şərtləri barədə sual verdi, dedim, cənnətə getmək istəyirsənsə, Haqq deyənə əməl elə, ibadətlə şəfaətə çatmaq istəyirsənsə, xeyirxah niyyətli ol, Mövlanı arzulayırsansa, yetmək üçün *O*-na doğru get. Axırda İblisin kimliyini soruşdu, dedim, sənsən. Bu sözləri eşidəndə qaşları qalxdı, gözləri iriləndi, hələ təravətini itirməmiş yanaqlarına qızartı çökdü, ağzını açıb nəsə söyləmək istədi, amma aman vermədim, dedim, çünki indi İdrisə qərq olmuşuq, səndə İdrisdən əsər-əlamət varsa, nə İblislə əlaqən olar, nə də ondan

qorxarsan; dedim, Cəbrailin kimi olduğunu soruşsaydın, yenə deyərdim, sənsən: könlündə xoş niyyət olan adam, elə Cəbrayılın timsalıdı. Son kəlmələrimi eşidəndə simasına rahatlıq çökdü, yanaqlarının qızartısı çəkildi.

Məlik elmə-üləmalara böyük dəyər verdiyini, övladlarını da elmli yetişdirmək istədiyi söylədi, sonra dedi, Böyük Sultanımız Cənnətməkan Əlaəddin Keyqubadın bizə bəxş elədiyi Ərzurumu qorumaq üçün təkcə qol gücünə yox, həm də ağla ehtiyac var, bu səbəbdən, Toğrulşahı yenib bu şəhərə girəndə ilk buyruqlarından biri inşası yarımçıq qalan qoşaminarəli mədrəsəni başa çatdırmaq oldu, məlikə Xunad Xatun səxavətini əsirgəmədi, Sultanımız Həzrətləri də diqqətini kəsmədi, axır ki, mədrəsəni başa çatdıra bildik; dedi, Sivasa, Konyaya, Şama, Hələbə, hətta Bağdada xəbər göndərib üləmaları dəvət eləmişəm ki, övladlarımıza dərs desin, can dostum Sahib Şəmsəddindən də Allah razı olsun ki, təvəqqemə qulaq asıb, səni göndərib; dedi, düzü, cəsarətindən də, fikirlərindən də razı qaldım, övladlarıma dərs deyəcəksən, mədrəsədə müdərrislik eləyəcəksən, elmin təkcə itaətə yox, həm də rəşadətə səbəb olduğunu öyrədəcəksən. Özü söyləməmiş dedim, mədrəsədə yerləşməyimə izin verərsə, məndən ötrü daha sərfəli olar. Üzümə təfərinlə baxdı, fikrində nəyisə götür-qoy elədi, dedi, sənə bu cür rahatdısa, etirazım yoxdu, buyuraram, günü sabahdan yerləşərsən, tələbələri yığmaqla bağlı da dəftərdarla danışarsan, o lazımi köməyi eləyəcək. Deyəsən, söhbət elə burada da bitmişdi. Məliklə gözlədiyimdən asan dil tapdığımdan rahatlanıb qalxdım, bağır basıb aralananda bayaq məktubu oxuyan adam yaxınlaşdı, dedi, dəftərdar İzzədin mənəm, gəlişini Əcəm Əli xəbər vermişdi, qayğılarını yoluna qoymaq da mənə buyrulub.

İşlərin bu cür gedişindən ən çox təsirlənən Əcəm Əli oldu. Müştərisini itirməyinə yanmırdı, onsuz da onu zor-xoş verdiyim hücrə haqqının iki qatı qədər ziyana salırdım, az qala, hər gün pay adıyla göndərdiyi yeməklər, şərbət, ağartı günlərimi yola

verməyə bəs eləyirdi. Əcəm Əlinin dərdi mənim kimi həmsöhbəti itirməyiydi: məliyin övladlarına dərs demək, üstəlik, mədrəsəyə müdərrislik eləmək günlərimi dolduracaq, karvansarayçıya vaxt ayıra bilməyəcəkdim. Amma o biri tərəfdən də tifili Vəhidin yolu açılacaqdı, onu mədrəsəyə düzəltməyi artıq özümə borc sayırdım, dəftərdarla da, yəqin, dil tapacaqdıq. Əlbəttə, Vəhid sevindi, gözlərinin işığı artdı, sinəsi qabardı, əlimi öpüb gözlərinin üstünə qoydu. Məni gözləyən rahat, ölçülü-biçili həyatdan məmnun olduğumusa, söyləyə bilməzdim: özümü tanıyandan sərbəstliyə alışmış ruhumu qəfəsə salmağa cəhd göstərməliydim. Şübhəsiz, bu, çətin, hətta çox çətin olacaqdı, nə qədər tab gətirəcəyimi irəlicədən demək çətiniydi, amma ən azı, altıncı qapının açıldığına əmin olanacan dözməliydim. Təbrizdə tez-tez azarlayan müəllimimizi əvəz eləməyim az-çox dadıma çatacaqdı, qalanı da səbir, bir də könül məsələsiydi. Beynim oxuyub-öyrəndiklərimlə doluydu, onları tələbələrə verməli, könlümdə olanları *Dost*a saxlamalı, dilimin ucundakıları Əcəm Əliyə, memara, dəftərdara söyləməli, beləcə, üçlü həyat sürməliydim – *qismətimdə bu varmış...*

Dəftərdar İzzəddin dərhal məliyin buyruğunu memar Qütbəddinə yetiribmiş, o, ertəsi gün erkəndən dalımca buyruqçu göndərmişdi. Əcəm Əliylə vidalaşmadım, onsuz da könlümə düşəndə yolumu ordan salacaq, söhbətlərimlə könlünü oxşayacaq, şərbətini içəcəkdim. Dağarcığımı da özünü yeni həyatın astanasında sayan Vəhid götürdü, birgə əsrarəngiz həyata doğru addım atdıq. Yolda dedi, axşam güneydən gələn bir tacirin söylədiyinə görə, Malatya ucbəyi Müzəffərəddin Əlişir qiyama qalxmış Baba İshaqla üz-üzə gəlib, dərvişlər ucbəyinin səlcuqlulardan, bir də muzdlu firənglərdən ibarət qoşununu darmadağın eləyib, yenilənlər yaraq-əsləhələrini elə ordaca atıb qaçıblar. Validinin tanışı olan tacir Baba İlyasdan da soraq gətiribmiş: sən demə, sultan onun qiyama hazırlaşdığından çuğulları vasitəsilə duyuq düşüb, qiyamı elə beşiyindəcə boğmaq üçün Çat

kəndinə qoşun göndəribmiş, amma Baba İlyasın da çuğulları yatmayıbmış, qoşunun vaxtında gəldiyindən vaxtında xəbər tutub, boz atını minib, köç-külfətini, yaxın müridlərini də götürüb Amasyaya getmişdi. Övhədilərin Baba İlyasla Baba İshaqa yardım eləyib-eləməyəcəkləri barədə düşündüm. Bir məsələni anışdıra bilmirdim: üz-üzə gələnlərin böyük bir qismi Alparslanın arxasınca gələnlərin törəmələri, Çingiz xan noyonlarının, Cəlaləddin Xarəzmşah əmirlərinin basqınlarından qaçan Xorasan türkləri, eyni qövmün adamlarıydı, bəs, niyə dil tapa, yanaşı yaşaya bilmirdilər?

Memar Qütbəddin Zəncani məliyin qərarından çox razı qalmışdı: hələ xırda-para işləri görmək üçün bir müddət burda olacaq, sonra Müzəffərəddinə yay köşkü tikmək üçün Ərzincan tərəflərə gedəcəkdi. Vaxtiylə memar Əcəminin yanında yetişmiş, Atabəy Şəmsəddinin saray memarı olmuş, Atabəy Özbəyin ölümündən sonra Ərzuruma üz tutmuş ahıl Qütbəddin on beş ildən bəri çəkdiyi əziyyətinin nəticəsindən də məmnunuydu: saltuklulardan qalmış yadigarlarla yanaşı, Qoşaminarəli mədrəsə də Ərzurumun bəzəyinə çevrilmişdi, bir müddət sonra sorağı dildə-ağızda gəzəcəkdi. Mənə lütf göstərib birinci qatın sağ qolundakı hücrəni ayırdı: dediyinə görə, yayda sərin, qışda isti olacaq, illah da, qışı çox sərt keşən bir yerdə bu cür hücrə dadıma yetişəcəkdi. Hər şey yoluna düşənəcən, işlərin qızğın vaxtı nizama saldıqları, indi də iki-üç əmələnin ixtiyarında olan aşxana mənə də xidmət eləyəcəkdi. İbadət yeri hazırıydı, yalnız məliyin təvəqqesiylə Sahib Şəmsəddinin Qeysəriyyədən göndərəcəyi xalı-xalçanı, kilim-həsiri gözləyirdilər. Həmin məqamda özünü yetirən dəftərdar İzzəddin Konyadan gələn daha bir müdərrisin də yola çıxdığı barədə müjdə verdi. Belə görünürdü, payızın ilk ayı başa çatmamış mədrəsədə hər şey yoluna düşəcək...

Ovaxtacan da məliyin övladlarının dərslərinə başlamaq qərarına gəldim. Hər səhər mədrəsədəki hücrəmdən çıxır, artıq

oyanmış şəhərin küçələrindən keçir, böyük, ikiqatlı imarətin qapıçısıyla yüngülcə salamlaşıb birinci qatdakı dərsxana üçün ayrılmış otağa girir, mindərin üstündə oturub tələbələrimi gözləyirdim. Əvvəlcə böyük oğlan gəlir, ədəblə salam verir, üzbəüzdə diz üstə çöküb tapşırığımı gözləyirdi. Onun sakitliyi, itaətkarlığı, dərrakəsi xoşuma gəlir, söylədiklərimi hərfbəhərf təkrar eləməsisə əsəblərimə toxunurdu, istəyirdim, dediklərində öz nəfəsi, öz səsi, öz çaları olsun. Amma kiçik oğlan onun əksiydi, qapıdan yel kimi girir, bəzən salam verməyi belə unudur, qardaşının böyründə diz çöküb bir yerdə qərar tutmayan gözlərini üzümə dikir, tez-tez burnumu çəkirdi. Məlik Mübarizəddin demişdi, ey Şəms, övladlarım əziz, amma tərbiyələri onlardan da əzizdi, vacib, həm də məqbul bildiyin tərbiyə yollarından çəkinmə, lap cəzalandıra da bilərsən, təki elm-mərifət yolunun yolçusu olsunlar. Demişdim, döyməklə tərbiyə eləmək mümkün olsaydı, dünyada eşşəklərdən ağıllı məxluq tapılmazdı, Allah bəndəsinin könlünə yol tapmaq daha düzgün yoldu. Sözün düzü, kiçik oğlanın ipə-sapa yatmamasından daha çox mımnun qalırdım. Nadincliyi həddini aşanda səsimi qaldırır, gözlərimi bərəldir, yumruğumu düyünləyirdim, bir göz qırpımında quzuya dönürdü.

Günorta namazına az qalmış uşaqların tapşırıqlarını verib dərsi bitirirdim, Kiçik oğlan yerindən sıçrayıb ox kimi bayıra atılır, böyük oğlan ehmalca dikəlib ədəblə sağollaşır, qapıdan çıxanda dönüb bir də bağır basırdı. Sonra durub imarətdən çıxır, mədrəsəyə qayıdıb, namazımı qılır, mətbəxdən gətirilən bir tikə yeməklə aclığımı öldürür, dincimi alırdım. Tez-tez memar Qütbəddin qapıçını göndərib çağırtdırırdı, onun cürbəcür rəsm alətləri, boru şəklində bükülmüş kağızlarla dolu hücrəsinin bir küncündə oturub şərbət içə-içə söhbət eləyirdik. Memarın şəriətdən, əxlaqdan, elmdən yox, Marağada, Nəqşivanda, Urmiyədə inşa elədiyi tikililərdən söz açması daha çox xoşuma gəlirdi, çünki bu barədə nə deyirdisə, hamısında öz nəfəsi, öz

qoxusu, öz çaları vardı. Bəzən də Əcəm Əli Vəhidi göndərib müsafirxanaya çağırtdırır, söz-söhbətdən sonra Allah verəndən yeyib üstündən şərbət içirdik. Elə əvvəldən ona mənim üçün xüsusi hazırlıq görməməyi tapşırıb demişdim, nəfsim o qədər itaətkarıydı ki, süfrəyə ən ləzzətli halva, yaxud kabab gətirsələr belə, gerçəkdən istəsəm də, dönüb başqalarının can atdıqları o yeməklərə gözümün ucuyla da baxmaram, çünki vaxtında nəfsimə verdiyim arpa çörəyi, vaxtsız verəcəyim kababdan yaxşıdı. Artıq xasiyyətimə əməlli-başlı bələd olan Əcəm Əli də məni ailəsinin bir üzvü sayır, izafi hörmət-izzətə lüzum görmürdü, bu səbəbdən, onun süfrəsində özümü rahat hiss eləyirdim. Güzəran xərclərim olmadığına görə, hələlik belbağı hörməyimə də ehtiyac qalmamışdı, amma vərdişimdən hələm-hələm əl çəkə bilmir, hördüklərimi çarşı başındakı çərçiyə dəyər-dəyməzə verib bir qədər rahatlıq tapırdım...

***

...Konyadan yola çıxan müdərrisin gəlməsi üç həftə çəkdi. Şərafəddin Urməvi məndən bir qədər yaşlı, beli bükülməyə başlamış, gözlərinin dibində anlaşılmaz kədər sezilən uləmaydı. O da dəftərdar İzzəddinin yardımıyla birinci qatdakı gen-bol, həm də rahat hücrədə yerləşdi, üstəlik, qulluğuna buyruqçu da verildi. Üçüncü müdərrissə həmin gün axşam məlum oldu: Sivasdan Şeyx Əsədəddin Mütəkəllimin göndərdiyi Siracəddin adlı cavanıydı, mədrəsəni bir neçə il qabaq Hələbdə tamamlamışdı. Səhəri gün də dəftərdarın baş müdərris olmaq təklifini bimərrə rədd elədim: mənim xasiyyətimlə çox irəli getmək ağlagəlməz məsələydi, ya özümdən yaşlı olan hörmət-izzətli Şərafəddin Xocanın xətrinə dəyər, ya da xeyli cavan Siracəddinin dərsini verərdim, bu səbəbdən, Şərafəddin Xocanın baş müdərris olması daha münasibiydi, dəftərdar da bu vəzifəni onun boynuna qoymaqda çətinlik çəkmədi. Şərafəddin Xoca Ərbildən, Mosuldan, Hələbdən belə, mədrəsələrdə dərs demişdi, son səkkiz ili də

Konyada müdərrislik eləyirmiş, amma çox yaxın olduğu əl-Tusi zindana salınanda sınmış, Sadəddin Köpək öldürüləndən sonra dostunun azad olunmadığını görüb sultandan da, əyan-əşrəfdən də Konya əhlindən də incimiş, elə o məqamda da Ərzurumdan gələn təklifdən dördəlli yapışmışdı. İlk tanışlığımızdaca adımı eşitdiyini söyləyib məndən çəkindiyini büruzə vermişdi, görünür, Konyadakı məclislərdə məni sərt, acıdil, dərvişxasiyyət adam kimi qələmə vermişdilər. Siracəddin Xoca da adımı Şeyx Əsədəddindən eşitdiyini, heyranım olduğunu söyləmiş, amma heyranlığının səbəbini hələ dilinə gətirməmişdi.

Sonrakı həftəni tələbələri seçməklə keçirdik: Şərafəddin Xocanın hücrəsində gələnləri yüngülcə imtahan eləyir, ədəbini, yazı-pozusunu, qiraət qabiliyyətini yoxlayır, qənaətbəxş saymadıqlarımızı geri qaytarırdıq. Vəhid sınaqdan ilk keçənlər arasındaydı, digər xocaların təqdirini qazanması da məni qəlbən rahatlatmışdı. Əcəm Əli özü oxuyub-yaza bilmirdi, bu səbəbdən, oğlunun mədrəsə bitirib ya İzzəddin sayaq dəftərdar, ya qazı, ya da mənim kimi üləma olacağından qürurlanırdı. Düzdü, Vəhid mədrəsədə olduğu müddətdə karvansarayın buyruqçuluğunu da özü eləyəcək, ya da ayaqdan yüngül bir oğlan işə götürəcəkdi, amma oğlunu qulluqda görmək istəyi o qədər güclüydü ki, bu sarıdan düşdüyü ziyanı hesablamağı ağlına belə gətirmirdi. Şərafəddin Xocanın məsləhətiylə on iki nəfər tələbə seçib dərslərə başlaya, sonra gələnləri də qabiliyyətlərinə görə seçə, sayın artdığı təqdirdə daha bir-iki xoca axtarışında ola bilərdik. Məni qayğılandıran başqa məsələydi: Şərafəddin Xoca özüylə bir sandıq kitab gətirmişdi, Siracəddinin də əlində kitab görmüşdüm, məni – kitabsız müdərrisi necə qarşılayacaqdılar, dalda-bucaqda söz-söhbətə rəvac verməyəcəkdilər ki? Məlik Mübarizəddin də, görünür, kiçik oğlundan *"kitabsız xoca"* olduğumu eşidib təəccüblənibmiş, bir kərə dərsimlə tanışlıq barədə niyyətini bildirib xeyli qulaq asmış, sonra dinib-danışmadan

çıxmış, dəftərdara demişdi, Şəmsəddin Xoca kitabları beyninə yazıb, sinəsinə yığıb, bundan sonra oxumasının faydası olmaz, dərsinə əvvəlki kimi davam eləsin.

Şərafəddin Xoca Konyadan həyəcanlı xəbərlə gəlmişdi. Dediyinə görə, Sadəddin Köpək Mahpəri Xatun və Qiyasəddinlə dil tapıb taxt-tac məsələsini həll eləyəndən sonra öz niyyəti yolunda maneə saydığı Kəmaləddin Kamyarı, Şəmsəddin Altunəbanı, Hüsaməddin Kaymerini, Tacəddin Pərvanəni bir-bir aradan götürməyə başlayıb, Mühəzzəbəddin Əli, Şəmsəddin İsfahani, Vəliyyəddin Tərcüman, Məcidəddin Muhammməd, Cəlaləddin Karatayı cürbəcür bəhanələrlə saraydan uzaqlaşdırıbmış, həmin məqamda da ana-bala əsl təhlükənin hardan gəldiyini başa düşüb Köpəyin ölümünə fərman veriblərmiş; deyirdi, Sultan Qiyasəddin Qeysəriyyədən dönəndən sonra düyün mərasimini orda da davam etdirib, yeddi gün-yeddi gecə eyş-işrət məclisi qurdu, sonra günlərini əyləncələrlə keçirib, məmləkətin halından xəbər tutmadı, artıq Konya əhlinin Gürcü Xatun çağırdığı Tamar da heç üç ay keçməmiş əvvəlki şərtindən boyun qaçırıb dinimizi qəbul elədi, Davidi tutdurub Alanya qalasına göndərdi, keşişləri, kənizləri, xidmətçiləri də Allaha tapşırdı, dedi, istəyən dinini dəyişib xidmətimdə qala, istəməyən geri dönə bilər; deyirdi, üstəlik, ikicanlı olması Gürcü Xatunun yerini lap möhkəmlətdi: ona minbir könüldən aşiq olan sultan, oğlan doğulsa, şübhəsiz, taxt-tacın varisi elan eləyəcək; deyirdi, arzusu çin olandan, ən böyük düşmən zərərsizləşdiriləndən, Adilə Xatun aradan qaldırılandan sonra biçarə şahzadələrin məhbəsdə keçən həyatı çox uzun sürmədi, elə həmin ilin axırında, Gürcü Xatun sultana İzzəddin adı verdikləri oğul bəxş eləyəndə Mahpəri Xatunun israrı yerinə yetirilib o binəvaların da qətlinə fərman verildi, üstəlik, Sultan Qiyasəddin atabəyi Mübarizəddin Ərməğanşahı İspartaya, Uluborlu qalasına göndərdi ki, qətlin gerçəkdən baş verdiyini öz gözlərilə görsün; deyirdi, talesiz şahzadələri yay kirişiylə boğub nəşlərini atabəyə göstərdilər,

amma Mahpəri Xatunun ürəyi bununla da soyumayıb, Adilə Xatunun qızlarını da məmləkətdən didərgin saldı, üçünü də ərə vermək bəhanəsiylə dər-üs-səltənədən uzaqlaşdırıb Şama və Qahirəyə göndərdi.

Şərafəddin Xocanın dediyinə görə, Baba İshaqın qiyamı səltənətdə yerini möhkəmlədəndən sonra başı Gürcü Xatuna, ova, vəhşi heyvanlarla əyləncəyə, eyş-işrətə qarışmış sultanın yuxusunu qaçırıb; yeni zövcəsüinə vurğunluğu o həddə çatıb ki, artıq səlcuqilərin üstündə Günəş və Ay rəsmi həkk etdirir, söylənənlərə görə, Günəş Gürcü Xatun, Ay da özüdü; deyirdi, Qiyasəddin vaxtının çoxunu da Əlaiyyədəki sarayında keçirir, cütbəcür vəhşi heyvanlar saxlayır, ova çıxır, gecə-gündüz məclislər qurur, indi də əmirlərini irəli verib, Diyari-Rumu başına götürməmiş qiyamı yatırmağa çalışır; deyirdi, Müzəfərəddin Əlişir ilk toqquşmada yenilənəndən sonra Malatyaya qaçıb, yeni qoşun yığmağa başlayıbmış, bu dəfə əli kürdlərə, bir də gərmiyanlılara çatıb, bir ətək xərc çəkib onların dəstələrini müridlərin qarşısına çıxarıb, amma dərvişlər "Allah, Allah!" qışqıra-qışqıra elə şiddətli hücuma keçiblər ki, Əlişirin qoşunu gözünü açmamış darmadağın olub, bundan sonra Əlbistan, üstəlik, Maraş türkmanları da müridlərə qoşulublar; deyirdi, ucbəyi Əlişir üçüncü kərə pul-parayla qoşunu yığıb, Əlbistana yeridib, amma bu dəfə də Allah Baba İshaqın tərəfində olub, Əlişirə yenilgi acısı daddırıb. Dediyinə görə, bütün bunları Konya Ərzurum arasındakı karvansaraylarda eşitmişdi, artıq qorxunc qüvvəyə çevrilmiş mürid-türkman qoşununun Amasyanı ələ keçirəndən sonra Qeysəriyyə, ordan da Konya üzərinə gedəcəyi gün kimi aydındı.

Artıq günlərim dopdoluydu: məliyin övladlarının, tələbələrimin, müdərrislərin, Əcəm Əlinin, memar Qütbəddinin, dəftərdar İzzəddinin ünsiyyətləri səhərdən axşam namazınacan davam eləyirdi, axşam namazından sonra da yalnız onlardan biri dəvət eləməyəndə özümlə tək qala bilirdim. Arabir də dərs

almaq üçün uşaqlar gətirirdilər, dəftərdar İzzəddin də, Şərafəddin Xoca da münasib bildiyim uşaqları qəbul eləməyimə izin vermişdilər. Bir dəfə dərsə gedəndə gördüm, qapının ağzında bir qadın, bir kişi, hücrədə də bir yeniyetmə var, oğlanın gözləri qıpqırmızı qızarıb, qan çanağına dönüb. Heç ağzımı açmamış dedi, əzan oxuya bilirəm, səsim də xoşagələndi, köməkçiniz ola bilərəm, sonra təklifsiz-filansız oturdu. Onun bu cəsarətini bəyəndim, qapı ağzında əndişə içində gözləyən valideynlərinə dedim, oğlunuzu tələbəliyə götürürəm, amma günlərin birində evə qolu sınmış halda gəlsə, məni suçlamayın. Şərtimi qəbul eləyib dedilər, onu yazığımız gəldiyinə görə döymürük, amma siz cəza versəniz, qarışmayacağıq, hətta dediklərimizi kağıza yazıb qol da qoyarıq, çünki bu uşaq cızığından çıxıb, durub-dincəlmir. O biri uşaqlar başlarını aşağı salıb dərs oxuyurdular, yeni gələnsə hey ora-bura boylanır, sataşmağa adam axtarırdı. Kimsənin ona fikir vermədiklərini görüb, "Əh, bunlar nə cür adamlardı!" – dedi, gizlicə qarşısındakının saçını çəkdi, böyründəkini çimdiklədi. Biçarə uşaqlar məsələni çox böyütməmək üçün aralandılar, mən də özümü görməzliyə vurdum, soruşdum, uşaqlar, nə baş verib, niyə qurdalanırsınız, tifillər də üzə vurmadılar, dedilər, heç nə yoxdu, xocam, amma biri ona-buna sataşan oğlanı başının işarəsiylə nişan verdi. Elə qışqırdım ki, qorxusundan sarısını uddu, günorta namazına yaxın da dedi, xocam, hələ yeniyəm, evə bir az tez getməyə izin verin, mən də izin verdim, getdi.

Amma onun bu cür əməllərinə çox dözmədim, elə sərt cəza verdim ki, tifil bir ay evdən bayıra çıxmadı. Sonra danışırdılar ki, qalxıb mədrəsəyə gəlmək istəyəndə validəsi soruşub, oğlum, hara gedirsən, cavab verib, Şəmsəddin Xoca mənim böyüyüm, müəllimimdi, Allah bilir, başıma nələr gələcəkdi, bəlkə, həyatımı dar ağacında başa vuracaqdım, müəllimim məni xilas elədi, düz yolu göstərdi. Sonra yanıma gətirdikləri üçün minnətdarlığını bildirib, onlar da artıq övladları böyüyü-kiçiyi sayıb sevdi-

yinə görə mənə dua eləyib, deyiblər, balamız o qədər laübalıydı ki, hətta şəhərin hakimi bir kəlmə deməydi belə, onu söyər, daşlayardı, kimsəni eyninə almazdı, amma indi bütün tay-tuşlarından ağıllı, hörmətkar olub, kim ona sataşmaq istəsə, barmağını dodaqlarına aparıb susmasını rica eləyir. Gəldi, dərslərində çalışqanlıq göstərdi, qısa müddətdə də bütün Quranı ona xətm etdirdim, əzanı çox gözəl, həm də rəvan oxumağa başladı, axırda da qabiliyyətin qiymətləndirib özümə köməkçi götürdüm. Başdan şərt qoymuşdum, valideynləri üç ay müddətində məndən oğulları barədə heç nə soruşmamalıydılar, yoxsa dərsdən əl çəkərdim, o binəvalar da şərtimə sözsüz-sovsuz əməl eləmişdilər. Varlı-hallı ailəydi, bir vaxtlar özü kəniz olan validəsi, indi on qaravaş saxlayırdı. Mənə iki yüz dirhəm əvəzinə beş yüz dirhəm verdilər. Validi əl çəkmədi ki, evimiz gen-boldu, köç, bizdə yaşa. Qəbul eləmədim, dedim, camaat dedi-qodu eləyər, evdə gözəl xanımın, yaraşıqlı oğlun var. Əl çəkmədi, amma mən də sözümdən dönmədim.

Məlik Mübarizəddin də, dəftərdar İzzəddin də, Şərafəddin Xoca da işimdən razıydılar. Məliyin nadinc kiçik oğlu mədrəsədə baş verənləri, uşaqları cəzalandırdığımı, falaqqaya saldığımı eşidib qorxmuş, artıq ədəbdə də, nizamda da qardaşına oxşamağa başlamışdı. Onun mərifət sahibi olması, əlbət ki, məni sevindirirdi, amma başqalarına oxşamağa can atmasından kədərləndim. Dünyada başqalarına oxşamaqdan rəzil bir şey yoxdu, kim olur-olsun, insan *öz yolunu* yaratmalıdı. Surətimlə aramızdakı oxşarlıq da zahirdən o tərəfə keçmirdi: o, əqidə adamıydı, az qala, qırx iliydi, Şeyx Övhədəddinin, onun varisi Nəsirəddin Mahmudun yanındaydı, yolundan bir addım da kənara çıxmamışdı, mənsə qırx ildə üç şeyxin yanında olmuş, amma heç birinə mürid kimi bağlanmamış, sonra da *Eşq yolu*na çıxıb *Öz Dostum*u axtarmağa başlamışdım. Surətim ədəbli, xoşrəftar, hamıyla dil tapmağı bacaranıydı, mənsə kəmhövsələ, acıdil, adamayovuşmaz adamıydım, ağlımdan keçəni dilimə

gətirməyə qızırğalanmırdım. Tələbələrimə belə, sevgimi bildirəndə, öyüd verəndə ağır sözlər söyləyirdim. Tifillər bundan incimirdilər, eşitdiyimə görə, dalda-bucaqda deyirdilər, biz onun övladlarıyıq, ağır sözləri ürəkdən söyləmir, bizi çox istədiyi üçün qəlbimizə toxunmağa çalışır. Belə məqamlarda onlara acığım tutmur, o tifilləri Allahın seçilmiş bəndələri sayırdım, çünki gizli kəramət sahibiydilər. Çox şeyləri yerli-yataqlı söyləyə bilmirəm, buna ömür də bəs eləməz. Bəziləri də elə güman eləyirdilər ki, daim lütf halında olmaq kamal mərtəbəsidi. Amma belə deyil, heç kəs təpədən-dırnağacan lütf deyil, hətta Rəbbimiz haqqında da bunu demək olmaz, çünki bu, *O*-nun Qəhr simasını yox saymaqdı...

Cümə günləri Şərafəddin Xoca Zeynal məscidində vəəz verir, Allahın və şəriətin buyruqlarına boyun əyməyin fəzilətlərindən danışırdı. Minbərə çıxmağı mənə də tövsiyə eləyirdi, amma hər cümə bir bəhanə tapıb təklifindən boyun qaçırırdım. İlk dəfə Bağdadda Şeyx Şəhabəddinin israrıyla minbərə çıxmış, birtəhər vəəzimi başa vurub enmişdim. İkinci kərə Şamda minbərdəkinin vəhdəti-vücudla bağlı köntöy sözlərinə cavab vermək məqsədiylə belə bir addım atmışdım. Hələbdə də *Dost*un xəyal kimi simasını görəndən sonra qəfildən özümü minbərdə görmüş, bayğnlıq içində Eşqin aliliyindən danışmış, demişdim, *Eşq* – hər şeyi sənin üçün mövcud elədiyini bildirən Rəbbə hər şeydən *O*-nun üçün əl çəkdiyini söyləyə bilməkdi; demişdim, sözün qiymətini lal olandan, çörəyin qiymətini ac olandan, *Eşq*in qiymətini heç olandan soruş; demişdim, alimkən arif olmaq müşkül deyil, gərək *Aşiq* olmağı bacarasan. Sonra da camaatın çaşqın baxışları altında enib aradan çıxmışdım. Qeysəriyyədə də bir kərə Surətimin israrıyla çıxıb savab işin Allah dərgahında dəyərindən söz açmışdım, bu, Dördquyulardan su xətti çəkmək ərəfəsində yardımım sayılırdı. Şərafəddin Xoca Konyadan gələndən bəri elə hey Molla Cəlaləddinin cümə vəəzləri barədə danışırdı. Dediyinə görə, Hələb və Şamdakı

müəllimləri də, Seyyid Bürhanəddin də onu yaxşı yetişdiriblər, ağzından dürr tökülür, hətta vəəzinə təkcə Konya əhli yox, uzaq-uzaq şəhərlərdən, obalardan da gələnlər olur, camenin həyəti aşıb-daşır, camaat küçələri belə doldurur. Zənnimcə, hər cümə minbərə çıxıb söyləməyə *öz sözün* olmalıdı, olmayanda başqalarını kəlamlarını təkrarlamalı, rəvayətlər, hədislər, danışmalısan, bu da son məqamda səni özündən aralayır, yad düşəncənin zavallı köləsinə çevirir.

Amma Şərafəddin Xoca çox israr elədi, memar Qütbəddin məsləhət gördü, dəftərdar İzzəddin tapşırıqsayağı fikir söylədi, üstəlik, Əcəm Əli məni minbərdə görmək arzusunu bildirdi, axırda çar-naçar razı oldum. Cümə gününəcən də özümə yer tapa bilmədim, elə hey beynimdə minbərə çıxıb Allah bəndələrinə ağıl verməyin məsuliyyəti barədə düşünürdüm. Çox çətin işiydi, amma daha çarə yoxudu, ox yaydan çıxmış, qarşımda qapı açılmışdı, o qapını örtsəydim, fəryadlar, şikayətlər, təhdidlər baş alıb gedəcəkdi. Kaş, ağzımdan çıxan sözlərin bir faydası olaydı: söylənməli bütün sözlər artıq deyilib, açıq-gizli olanlar dönə-dönə izah edilib, yenə də adamlar elə davranırlar, sanki öyüd-filan eşitməyiblər. Nə sözün aşkar mənasını qavraya bilir, nə də məqsəd və mahiyyətini anlayırlar. Bir halda ki, anlamırlar, bu barədə necə danışmaq olar axı? Özülü bilik olmayan əməlin sonu sapqınlıqdı. Görəsən, o adamlar girdikləri çilələrdən nə fayda götürürlər, o dörd divar arasında neyləyirlər? "Allahdan başqa tanrı yoxdu, yalnız Allah mövcuddu" kimi sözlər dil məsələsi deyil, münasibət məsələsidi. Dərslərdə başım bir az qarışsa da, axşam tək qalanda, illah da, gecələr bu fikirlər yaxamdan əl çəkmir, beynimdən qurd kimi gəmirirdi.

Bəlkə, kimsə inanmayacaq, amma cameyə gedənəcən, minbərə qalxanacan nədən danışacağımı bilmirdim. Payızın axırlarıydı, bayırda küləkqarışıq yağış vardı, içəridəkilər diz üstə çöküb gözlərini mənə dikmişdilər, yıqın, həftəlik güzəran qayğılarından uzaqlaşmaq üçün nağılaoxşar rəvayət, axırı

yaxşı qurtaran hədis, yaxşılıq, doğruluq, xeyirxahlıq haqqında bər-bəzəkli sözlər gözləyirdilər. Bir anlığa özümə də, o zavallılara da yazığım gəldi, aramızdakı uçurumsa gözlərimi böyütdü. Heç düşünüb-daşınmadan dedim, bu dünyaya *Eşqlə* gələnlərə, *Eşq üçün* gələnlərə salam olsun, bu məqamda da o zavallıların gözləri böyüdü, qaşları dartıldı, alınları qırışdı, dönüb bir-birinin üzünə baxdılar; dedim, arif adam bu dünyanın mənasını daim *Dost*u arayıb-axtarmaqda, *O*-nun dostluğundan doymaqda görürlər; dedim, ariflərin əlamətisə üçdü: könlün fikriylə, cismin xidmətiylə, gözün gerçəkləri görməsiylə fərqlənirlər; dedim, ariflərin yolu *Eşq yolu*du, bu səbəbdən, dünyanın xırdalıqlarına, güzəranın çətinliklərinə, bədxahların söylədiklərinə diqqət yetirmirlər; dedim, verilən ömrün bir tərəfindən yapışıb yaşamaq bihudə həyatdı: bir nəfərin həyətində ağac bitir, ev yiyəsi də həmin ağacı tamam qorumalıdı ki, gövdəsi də, budaqları da onun olsun, təkcə budaqlarını qorusa, gövdəsi əldən çıxar, sonra da kökləri quruyar; dedim, budaqlar həyatın qayğıları, çətinlikləri, zövq-səfa, gövdə *Eşq*, köklər *O*-du, *Eşq* də köklərdən su içir, güc alır, həyatı yaşadır. Bu məqama çatanda başa düşdüm ki, söylədiklərim şüurlarına çatmır, onlara yazığım gəldi, halal-haram mövzusuna keçdim, bir-iki hədis danışdım, bununla da könüllərini xoş eləyib minbərdən endim. Amma bu cür saxtalığa görə, öz-özümə acığım tutdu, məsciddən çıxıb arxama baxmadan uzaqlaşdım.

Şərafəddin Xoca, deyəsən, ömrünün bir vədəsində *Eşq yolu* getmək istəmiş, hansı məqamdasa qarşılaşdığı maneələrlə toqquşub sınıq düşmüş, axırda nəfsinə yenilmiş Allah bəndələrindəniydi, məsciddən qayıdandan sonra məni hücrəsinə çağırtdırdı, şərbət, çərəz gətirtdi, bəlkə də ömür hekayətini danışmaq istədi, amma ha özünü zorladısa, bacarmadı, dilinə başqa sözlər gətirdi; dedi, validim rəhmətliyin bir sözü vardı, deyərdi, oğlum, sürüdən ayrılan qoyunu qurd yeyər, ya gərək sərvaxt olub həmtaylarından uzaqlaşmayasan, ya da tək qalıb qorxunla

cəngi-cidala çıxasan. Sonra dərindən ah çəkib, taleyin dönəlgəsindən az-çox anlatdı, dedi, özümü tanıyandan sənin dediyin *Eşq yolu*nu tutmuşdum, on doqquz yaşında da Urmiyədən Bağdada gedib mədrəsədə oxumağa başladım, elə bildim, oxuduqlarım mənə *o yolu* daha aydın göstərəcək. Amma cavandım, beyniqanlıydım, nəfsimə yenildim, Şeyximin qızıyla evləndim, şəhvətə uydum, sonra övladlarım dünyaya gəldi, onların qayğısını çəkmək başımı qatdı, bir də baxdım, qırx yaşındayam, *Eşq yolu*ndan da çox uzaq düşmüş, azan qoyun kimi sürüyə qayıtmışam; dedi, Allah-taala, elə bil, yolumdan döndüyümə görə, məni cəzalandırdı, övrətim sağalmaz mərəzə tutulub cavanca yaşında dünyadan köçdü, qızlarım yad yuvalara isinişib məni unutdular, oğullarım uzaq məmləkətlərə getdilər, tək qaldım, baş götürüb əvvəlcə Şama, sonra Konyaya getməli oldum, amma gördüm ki, daha *Eşq yolu*na qayıtmaq vaxtım ötüb.

Ömrünün qürubunda olan Şərafəddin Xocanı daha da ağrıtmaq istəmədim, çoxdan sönmüş ocağı qurdalasaydım, biçarənin olan-qalan iqtidarını da əlindən alardım, ona görə də söhbəti bu dünya işlərinin üstünə gətirib arabir yanına uzaq yerlərdən gələn müsafirlərin gətirdikləri xəbərlərlə maraqlandım, dedi, uzun ömrümdə aramızdakı bağları qırmadığım adamlardı, Ərzurumda olduğumdan xəbər tutub yolları burdan düşəndə baş çəkirlər; biri Konyadan gəlmişdi, dediyinə görə, Sultan Qiyasəddin Gürcü Xatundan doğulan oğlunu hələ qırxı çıxmamış varis elan eləyib, amma bu izdivacın da, nəvəsinin vəliəhd olmasının da bədbəxt Rusudana heç bir xeyri dəyməyib, Çormoğon Noyon Muğandan qalxıb, gedib ölkəsini tar-mar eləyib, özünə toxunmasa da, adamlarını qoşununa qatıb; dedi, bu tərəfdən də Baba İlyasla Baba İshaq sultanın taxt-tacını təhdid altına alıblar, qiyam üstünə yağ tökülmüş ocaq kimi böyüyür, Baba İlyas xəlifəsinin Amasyaya yönəldiyindən xəbər tutanda adamını göndərib ki, bu tərəflərə gəlməsin, Çanik səmtinə çəkilsin, görünür, onu gözləyən təhlükədən xəbərdarmış; dedi, amma

Baba İshaq ya öz qüvvəsinə əminmiş, ya da xəbər gec çatıbmış, hər nəsə geri dönməyib, Sivas ucbəyinin qoşununu darmadağın eləyib, bir çox sərkərdəsini öldürüb, bundan ürəklənən çepnilər, qaramanlılar, avşarlar da mürid-türkman qoşununa qatılıblar, əməlli-başlı güclənən Baba İshaq Tokatı keçib Amasyaya girib; dedi, Sultan Qiyasəddin qorxusundan Qubadabad qəsrinə sığınıb, əmir Müzəffərəddin Ərməğanşahı qiyamçılara qarşı göndərib, Baba İshaq özünü çatdırmamış mürşidini ələ keçirib öldürməsini əmr eləyib. Şərafəddin Xoca bir qədər susdu, sonra dedi, gürcü torpaqlarından qənimətlə dönən Çormoğon Noyonun bu qış dincini alıb yazbaşı Ərzurumun üstünə gəlməyəcəyinə kimsə əmin ola bilməz.

Şərafəddin Xoca haqlıydı, bu qayğıları Məlik Mübarizəddinin əhvalından da duyurdum. Əvvəlllər həftədə iki kərə hücrəmizə gəlir, bir qıraqda sakitcə əyləşib dərsimizin gedişinə göz qoyur, sonra irad-filan bildirmədən çıxıb gedirdi. Əvəzində onun fikrini dəftərdar İzzədinin dilindən eşidir, məliyin dərslərimdən, xüsusən, kiçik oğlunu ram eləməyimdən razı qaldığını öyrənirdim. Bir ayın tamamında da dəftərdar içində vəd veril beş yüz dirhəm əvəzinə yeddi yüz dirhəm olan kisəni qabağıma qoydu, sayıb haqqımı götürdüm, iki yüz dirhəmi geri qayıdıb dedim, artıq pula ehtiyacım yoxdu, Allaha şükür, mədrəsədəki müdərrisliyimdən də gəlirim var, məlik həzrətləri xeyirxahlıq eləmək istəyirsə, bir imkansız, amma elm öyrənməyə həvəsi olan Allah bəndəsinin xərcini ödəsin, bunun savabı Allah dərgahında daha çoxdu. İki gün keçməmişdi ki, yanıma validi çarşıda hamballıq eləyib yeddi baş külfətini dolandıran bir tifil gətirdilər. Uşağın gözlərinin içinə baxanda canımdan anlaşılmaz üşütmə keçdi: mənə eynən uşaqlığımı andırırdı. Bildim ki, bu binəvanın da alnına *Eşq yolu* getmək yazılıb, söylədiklərimdən aldığını alacaq, amma məni heç vaxt mürşid, özünü mürid saymayacaq, günlərin birində də hər şeyi geridə qoyub yollara düşəcək, özünə *Dost* axtaracaq. Amma bu tifilin axtardığı *Dost*

mən ola bilməzdim, o yetkinləşənəcən mənimki mənə dəyər, bəlkə də axirət dünyasına köçmüş olardım. Bəxtimə yazılan *Dost*sa indi yetkinlik hüduduna çatmışdı, bunu Şamda aşkardamı-xəyaldamı üz-üzə gəldiyimiz məqamda onun nəfəsindən, qoxusundan duymuşdum, hardasa yolumu gözlədiyini bilirdim, vaxtı-vədəsi çatanda qeybdən gələn işarənin bizi qovuşduracağına da zərrə qədər şübhəm yoxudu.

Amma beynimdən keçənləri o tifilə söyləmədim, bunun da iki səbəbi vardı: əvvəla, söylədiklərim o məsum Allah bəndəsini qorxudar, *yolundan* sapdırardı. İndi ömrünü əlhavasına yaşayırdı, alnına yazılanlardan xəbəri yoxudu, bəlkə də bu səbəbdən, canında vahimə duymurdu, amma xəbər tutanda özünü oda-közə vuracaq, qüvvəsini tükədəcək, qismətinə düşən *yolu* axıracan getməyə iqtidarı çatmayacaqdı. İkincisi, o tifillə məhrəmləşməkdən, həyatla, gələcəklə, *Eşq*lə bağlı ümidlərini daşa çırpmaqdan qorxurdum, Əcəm Əlinin tifili Vəhidi də buna görə bəlli bir cizgidən bəri buraxmadım. Bir kəsə bağlanmaq, uzaq yola çıxmış adam üçün məqbul deyil, üstəlik, fəlakətdi. Elə uzağa getməyək, Şərafəddin Xoca da belələrindəniydi, qayığını ümmana salıb uzaq səfərə çıxmış, amma yolüstü gözəl adaya rast gəlib nəfsinə yenilmiş, sahilə yan alıb eyş-işrətə qurşanmış, bir də onda ayılmışdı ki, qayığı qayalara çırpılıb parçalanıb, can atdığı hədəf əl çatmaz olub, beləcə, taleyiylə barışıb, istəklərini öz içinə gömüb, günlərini yola verə-verə həyatla nə vaxt vidalaşacağını gözləyir. Bu yaşa çatmışdım, hələ nəfsimə yenilməmişdim, bundan sonra da yenik düşməmək üçün mümkün olanı eləyəcəyəm, təki *O*-na yetişim. Elə bu məqamda da beynimdən keçdi ki, *O* deyəndə *Dost*u, *Dost*u arzulayanda *O*-nu düşünürəm. Bu kəşfimdən səksəndim, yəqin, *O*-na gedən yolun *Dost*un qəlbindən keçdiyini düşündüm, amma duyduğum üşənti uzun müddət çəkilib getmədi...

***

...Elə o vədələrdə də məndən ötrü Ərzurumun ilk qarı yağdı. Daha doğrusu, cümə günü mən minbərdə vəəz verəndə yağan soyuq yağış, biz Şərafəddin Xocayla söhbət eləyəndə sulu qara, gecəsə qara çevrilmişdi. Səhər subaşına gedəndə qar qoxusu duydum, bayıra çıxanda da aləmi, az qala, dizəcən qar içində görüb çaşdım. Bir müddət mədrəsənin girişində dayanıb bacalardan burum-burum qalxan, şaxtalı havada sanki donub qalan, sonra asta-asta əriyən tüstülərə baxdım, nədənsə həmin məqamda da Surətimi xatırladım. Övhədilərlə birgə Baba İlyasın qiyamına qoşulmayıbsa, indi, yəqin, qayğıları başından aşır: Şeyxinin xilası üçün çabalayır, Fatma Bacıya həyan olur, Seyyid Bürhanəddinə baş çəkir, çarşı-bazardakı əsnafın dərd-sərinin dalınca düşür. Bəlkə də onun xoşbəxtliyi elə bundadı, həyatını dolduran nəsə var, yoxsa bu dünyada var olmağın bir səbəbi tapılmazdı. Fikirləşdim, mənim də işim düşünməkdi, düşündüklərimi söyləməkdi, *öz yolumu* getməkdi, hələ ki, əlimdən başqa bir iş gəlmir, amma qismət olub, *Dost*a qovuşa bilsəm, o ümmanı elə coşduracağam ki, dalğalarından ərş-aləm lərzəyə gəlsin. Bu vaxt yaxında Siracəddin Sivasinin səsini eşidib göy üzündən endim, gündəlik qayğıların üstünə qayıtdım, fikirləşdim ki, ən azı, yazın ortalarınacan Ərzurumun qarı səngiməyəcək, o sıxıntılı günləri yola vermək üçün özümdə səbir, dözüm tapmalıyam.

Əslində, Təbrizin sərt qışında böyümüş kəsin Ərzurum soyuğundan qorxması ağlabatan iş deyil. Təbrizdə bəzən elə şaxtalı günlər olurdu ki, validim dükanını həftələrlə açmır, üçümüz də günlərimizi orta ocağının qırağında yola verirdik. Əlimizə əski-üskü dolayıb həyətin qarını təmizləmək, alaqapını açmaq, damı kürümək gündəlik qayğılarımızıydı. Bəzən günlərlə qohum-qonşuya gedə bilmir, ancaq bacalardan çıxan tüstüdən həyatda olduqlarına əminlik hasil eləyirdik. Belə vaxtlarda validimin öz dükanıyla üzbəüzdəki tanış kitabçıdan müəyyən müddətə aldığı kitabları oxuyur, orta ocağının qırağından ara-

lanıb dünya-aləm səyahətinə çıxır, məqrib-məşriq arasını dolaşır, cürbəcür maneələrlə üzləşir, hamısından da, əlbət ki, zəfərlə çıxırdım. Arada validimin kefinə düşəndə Xorasandan, Təbrizə gəlib çıxmasından, yolüstü gördüyü Əlamut qalasından, Həsən Səbbahdan, Atabəy Şəmsəddin zamanında yaxşı yaşadıqlarından danışırdı. Bir neçə gün, bəzən bir neçə həftə, on gün sürən belə məqamlardan sonra bayıra, az qala, çəkinə-çəkinə, dünyanı yadırğamış kimi çıxırdıq. Mən təpəcikdən sürüşən uşaqlara qoşulur, sonra məhəllədən çıxır, gözlərim qarşısında açılan ağappaq ənginliyə gözdolusu tamaşa eləyirdim. Hardasa, o ənginliyin yeddinci qatında Yerin-göyün yiyəsi qərar tutmuşdu, aləmi mələkləri vasitəsiylə idarə eləyir, Cəbrayıl, Mikayıl, Əzrayıl *O*-nun hökmülə bu aləmin işlərini nizama salırdı. Validim də, validəm də, mollamız da belə deyirdi. Quranın Peyğəmbərimizə *(ə)* necə nazil olunduğunu da danışmışdılar. Peyğəmbərimiz *O*-nun dərgahına yetişmişdisə, deməli, o dərgah Allah bəndəsinin üzünə açıqdı. Başlıcası, əməli-saleh olmaq, *O*-na doğru gedən yoldan dönməməkdi...

Payızın axırlarına yaxın Məlik Mübarizəddin tələm-tələsik qoşununu yığıb günbatana yola düşdü. Dəftərdar İzzəddinin dediyinə görə, Qubadabaddan çapar gəlibmi, sultan buyurub ki, məlik Amasyada Baba İlyası aradan götürməkdə Əmir Hacı Müzəffərəddin Ərməğanşaha yardım göstərsin. Hökmdar Baba İshaq özünü ona yetirməmiş qiyamçıların artıq Baba Rəsulullah kimi vəsf elədikləri Baba İlyası aradan götürmək, sonra baş xəlifənin işini bitirmək niyyətindəydi. Şərafəddin Xoca bu xəbəri eşidəndə göy kimi tutuldu, gözlərindən gildir-gildir yaş axdı, dedi, deyəsən, bəndələr Allahın qəzəbinə düçar olublar, gen dünyada olub-qalanı bölüşə bilmirlər, Alparslandan sonra bu torpaqları özlərinə yurd eləyənlərin indi tatarların əlindən qaçan binəva türkmanları yaxın buraxmamaları şeytan işidi; dedi, Xarəzmşahın qoşunundan qalanlar, gündoğandan – Xorasandan axın-axın gələnlər nə müddətdi, yollarda pələsəng olub-

lar, Diyari-Rumda özlərinə yurd-yuva sala bilmir, köç-külfətləri, mal-qoyunlarıyla diyar-diyar dolaşırlar; dedi, bu vaxtacan hər şeyin baiskarının Sadəddin Köpək olduğunu, türkmanları da, dərgahları da özünə düşmən saydığını, taxt-taca gedən yolunda maneə hesab elədiyini, türkmanların bəyi Hüsaməddin Kayırxanı da bu səbəbdən öldürtdüyünü söyləyirdilər, amma Köpək aradan götürüləndən sonra da sular durulmadı, deməli, sultanın ətrafında Sadəddin kimi düşmənlər az deyil, əl altından hökmdarın beynini doldurublar, o da gürcülər, ermənilər, kürdlər, ərəblər, rumlar, firənglər, ruslardan... qoşun yığıb türkmanların axırına çıxmaq istəyir; dedi, bunu Allah götürməz, mütləq bir cəza göndərəcək, o cəza da, yəqin, Muğanda qışın sona çatmağını gözləyən Çormoğon Noyon olacaq. Xocanın dediklərinə haqq verdim, dünyada sevgiylə yaşamaq vardısa, bir-birini qanına qəltan eləmək şeytan işiydi.

O qış üstümdən bir fəlakət də ötdü. Məni özünə simsar sayan, həmişə qayğıma qalan, az qala, günaşırı övrətinin bişirdiyi yeməklərdən Vəhidlə göndərən, həftədə iki dəfə də gapa çağıran Əcəm Əli bir az da irəli gedib zor-xoş paltarlarımı da yudurdur, üstəlik, hücrəmi də təmizlədirdi. Həyatıma başqasının baş soxmasına dözümüm olmasa da, onunla üz açmadım, hər halda, neyləyirdisə, sidq-ürəklə eləyirdi, əməlində gizli niyyət-filan yoxudu. Sonra söhbətlərində Allah bəndəsi, insan oğlu üçün od-ocağın, yurd-yuvanın zərurətindən söz açdı, dedi, uzun-uzun yollar keçəndən, ömrünü yaxşı-pis yaşayandan sonra gərəkdi ki, bir həyanın, başını dizinin üstünə qoymağa can yoldaşın olsun. O məqamda nə demək istədiyini anladım, heç özü də gizlətmədi, dedi, fikrim evlənməyinə, külfət yiyəsi olmağına çiyin verməkdi, çünki hələ canın suludu, oğul-uşaq sahibi olarsan, dərs aldığın şeyxlərin hamısı külfəti yiyəsi olub, şəriətin buyuruğuna əməl eləyiblər; dedi, dünyanın, az qala, yarısını dolaşandan, hər üzünü görəndən, yaxşı-pisi dərk eləyəndən sonra köçünü hardasa salmalı, axirətə hazırlaşmalısan; dedi, sözün qısası, sənə

layiq bir zənən var, gözəl-göyçək, xanım-xatın Allah bəndəsidi, üstəlik, dəftərdar İzzədinin qohumlarındandı, sən "hə" de, gerisi mənlikdi, dəftərdarı da razı salaram, hələ Məlik Həzrətləri də balalarına dərs deyən kəsin Ərzurumda yuva qurmasına şad olar. Dedim, bu söhbəti bir də salma, hər həyatına girən insan könlünə girə bilməz, mənim könlümdə bircə eşq – *Allah eşqi* var. Dərhal da qalxdım, biçarə Əcəm Əli təəccübündən, həm də peşimanlığından quruyub qaldı, heç məni ötürməyə də çıxmadı.

Əcəm Əlinin evindən aralanandan sonra Ərzurumun qaranlıq, qarlı küçələriylə hara getdiyimi düşünüb-daşınmadan yelli-yelli irəlilədim. İki dəfə mədrəsənin yanından ötdüm, bir dəfə yava it sürüsünə rast gəlib yolumu dəyişdim, yarıuçuq binanın hücrəsində ocaq qalayıb qızınmağa çalışan sərsəriləri uzaqdan görüb yolumu dəyişdim, üç kərə Zeynal məscidinin başına dolandım, axır ki, yorulub gecənin bu vaxtında da açıq olan meyxanalardan birinə girdim. Yarıyuxulu meyxanaçı – tosqun rumlu yağlı müştəri gəldiyini güman eləyib dirçəldi, amma bir piyalə şərbət istədiyimi görüb həvəsdən düşdü, itkisinin əvəzini söhbətə çəkməklə çıxmaq istədi, dedi, məlik həzrətlərinin qoşundakı gavurlar günlərini burda keçirirdilər, qoşun şəhərdən çıxandan bəri müştərini çıraqla axtarıram; dedi, çoxunun borcunu dəftərə yazmışam, getdikləri yerdə başlarına bir iş gəlsə, xeyli ziyana düşəcəyəm. Meyxanaçının dərdi də məni yerimdən oynatdı, şərbətinin dəyərini üçqat ödədim, bununla da söhbətə həvəsim olmadığını andırıb çıxdım. Artıq bir qədər özümə gəlmişdim, fikirləşdim, əslində, Əcəm Əlinin əməlində pis bir şey yoxdu, əməlisaleh adamların hamısı bu cür fikirləşir, özünə simsar saydığı, ömrünün yarıdan çoxunu yaşamış Allah bəndəsinin bundan sonra həyana ehtiyacı olduğunu düşünür. Biçarə Əcəm Əli mənim *Dost* axtardığımı, o *Dost*u nə vaxt, harda, necə tapacağımınsa, təkcə Allaha ayan olduğunu hardan bilsin? Yəqin, bütün gecəni yatmayacaq, başına-gözünə döyəcək, sa-

bah da peşmanlıqdan qurtulmaq üçün yollar arayacaq, bəlkə də hava qaralmamış Vəlidi göndərib evinə çağıracaq.

Mədrəsənin girişində Siracəddinlə rastlaşdım, əynində qalın kaftan, başında tüklü papaq vardı, əlini belinə qoyub səbirsizliklə gəzinirdi. Qaraltımı görəndə divarın dibinə qoyduğu qəndili götürüb yuxarı qaldırdı, məni tanıyıb sevindi, üstümə qaça-qaça dedi, Şərafəddin Xoca gecənin bu vaxtı hücrənizdə olmamağınızdan xəbər tutub, buyruqçunu arxanızca Əcəm Əlinin evinə göndərib, ordan çıxdığınızı öyrənəndən sonra biçarəni bu dəfə şəhərin küçələrinə salıb ki, bir xəbər gətirsin, sonra da məni çağırtdırıb dedi, get, Şəms Həzrətlərini tap, mən də hara gedəcəyimi bilmirdim, Allah üzümə baxdı, elə bu məqamda gəlib çıxdınız. Düzü, Şərafəddin Xocanın mədən ötrü bu cür təlaşa düşməsi izzəti-nəfsimi oxşadı, üzrxahlıq eləmək niyyətiylə hücrəsinə getdim. Məni görəndə uşaq kimi sevindi, qalxıb boynumu qucaqladı, dedi, ey Şəmsəddin, məni qınama, Allah mənə iki oğul verdi, amma yəqin, günah yiyəsiyəmmiş ki, övladlarımı əlimdən diri-diri aldı, öldü-qaldıqlarından belə xəbərim yoxdu; dedi, onların qoxusunu səndən almağa başlamışam, qorxdum ki, başına bir vaqeə gələr, bu qərib şəhərdə soyğunçunun, oğru-quldurun rastına çıxarsan, Allah rəhm elədi, səni sağ-salamat geri gətirdi. Artıq yuxumuz qaçmışdı, oturub söhbətə daldıq, gecəyarıdan xeyli keçənəcən ordan-burdan danışdıq.

Qışın ortalarında Məlik Mübarizəddin qoşunun sağ qalan qismiylə gəlib çıxdı. Dəftərdar İzzəddinin söylədiyinə görə, altı günə özünü Sivasa çatdırıb, həmin müddətdə də Əmir Hacı Müzəffərəddin Ərməğanşah sultanın əmrini yerinə yetirib, Baba İlyası qanına qəltan eləyibmiş. Müridlər sayca az imişlər, amma şir kimi vuruşublar, Baba İlyas ağır yaralanandan sonra da yeniliblər; Əmir onu yaralı halda ələ keçirib, hökmdarın əmri üzrə Baba İshaqı sındırmaq niyyətiylə mürşidinin edam olunması, meyidinin qaladan aşağı atılması barədə əmr verib, amma sağ qalan müridlər elə o gecə ölümü gözlərinin altına alıb, mürşid-

lərinin meyitini tapıb gizlicə dəfn eləyiblər; Əmir Hacı elə o gün Baba İshaqa xəbər göndərib ki, mürşidiniz öldürüldü, təslim olun, bəlkə, sultanımız sizi əfv elədi, amma Baba İshaq deyib, ey qafil, Baba İlyas ölümsüzdü, Allahın dərgahına ucalıb ki, mələkləri yardıma gətirsin, sonra da qoşunu Baba İlyasın ismini qışqıra-qışqıra hücuma atılıb, Əmir Hacı Müzəffərəddinin qoşununu dağıdıb, özünü də öldürüblər. Məlik Mübarizəddinin dediyinə görə, onda sultan sarsılıbmış, hətta Baba İshaqa xəbər göndəribmiş ki, Konya üzərinə gəlmək niyyətindən əl çəksə, Qeysəriyyə və ətrafını türkmanlara güzəştə gedə bilər, amma Baba İshaq ya onun vədinə inamayıb, ya Baba İlyasın qisasını almaq istəyib, ya da artıq taxt-taca lap az qaldığını düşünüb, hər nədisə, hökmdarın təklifini qəbul eləməyib, dər-üs-səltənə üzərinə gedib.

Dediyinə görə, sultanın qoşunu Sivasda hazırlığını tamamlayandan sonra Qeysəriyyə doğru irəliləyib, Ziyarət obasında Baba İshaqın müridlər, türkmanlar, çepnilər, qaramanlılar, avşarlardan ibarət qoşunuyla üz-üzə gəliblər. Az qala, yarıçılpaq olan o adamlar qışın soyuğunda döyüşə elə şiddətlə giriblər ki, hökmdarın çoxu gavur olan ordusu duruş gətirə bilməyib; sonra Baba İshaq nəfəslərini dərmək üçün köç-külfət, mal-qoyunla Malya ovasında düşərgə salıb; iki aydan bəri yolda olduqlarına, neçə döyüşdən çıxdıqlarına görə, əldən düşüblərmiş. Sultan da bundan xəbər tutub, dərhal Əmir Nəcməddini göndərib ki, dinclərini almamış asilərin işini bitirsin; qoşunlar Seyfə gölünün qırağında üz-üzə gəliblər. Yorğun, cır-cındır içində olan, yaraq-əsləhədən belə korluq çəkən qiyamçılar nə qədər rəşadətlə döyüşsələr də, bu dəfə Allah onların tərəfində olmayıb, sultanın qoşunu asiləri yenib, qaçanlara aman vermədən doğrayıblar, Baba İshaq da qanına qəltan olub. Bunu eşidəndə Şərafəddin Xocanın gözləri yenə dolub-boşaldı, dedi, Baba Rəsulullahın qiyamı yatırılsa da, ortada yara olduğunu, eyni qövmdən törəyənlərin bir-birləriylə dil tapa bilmədiklərini bəlli elədi;

dedi, Turan, Xorasan, Azərbaycandakı yurdlarından didərgin salınan adamlar qanbir-canbir qardaşlarının yanına üz tutublar ki, dinclik tapsınlar, yaralarını sarısınlar, özlərinə yurd-yuva qursunlar, amma şeytanın fitnəsiylə o qardaşlar bir-birinə düşmən olurlar; dedi, ölənlər öldü, axirətdədilər, qalanlarsa bundan sonra da əzab-əziyyət içində yaşayacaqlar, yəqin, sultan onları uzaqlaşdırıb, Şam, ya Cəzair səhralarına sürgün eləyəcək, ordan da kim salamat çıxacaq, bir Allah bilir. Bu məqamda yadıma Surətim düşdü, onun indi hansı əzabları çəkdiyini təsəvvürümə gətirdim. Deyirdi, dərgahları da, türkmanları da, bütün qeyri qövmləri də tatar bəlasına qarşı hazırlamaq gərəkdi, üstəlik, bu məsələdə açılışmasa da, gizlin hazırlıqlar olduğunu duyurdum.

Qış ağır keçirdi, yerli camaat günlərin axarına alışsalar da, mənim kimi gəlmələr üstlərinə düşən yükə tablamaqda çətinlik çəkirdilər. Şərafəddin Xoca üçün artıq qışla yazın fərqi yoxudu, onsuz da mədrəsədən bayıra çıxmır, soyuqlar düşəndən dərslərini də öz hücrəsində keçir, bəzən danışa-danışa huşa gedir, qocalıq əl verdiyindən, cümə günləri Allah evinə də üz tuta bilmirdi. Buyruqçusu axır vaxtlar yatağını Xocanın hücrəsinə köçürmüşdü, bir hənir duyanda belə, oyanıb onun sağ olub-olmadığını yoxlayırdı. Bir gecə binəvanın nəfəsinin gəlmədiyini sezmişdi, özünü yetirib məni oyatdı, tələm-tələsik, elə alt paltarındaca özümü yetirdim, qəndil işığında solğun sifətini görəndə fikirləşdim ki, artıq iş-işdən keçib, amma qulağımı yaxınlaşdıranda zəif nəfəs aldığını sezdim. Belə vaxtlarda neyləməli olduğumu bilirdim, cəld əllərini ovuşdurdum, bir-iki kərə sinəsindən basdım, gülab qoxulatdım, xoca handan-hana gözlərini açdı, nəfəsi yavaş-yavaş qaydasına düşdü. Əvvəlcə harda olduğunu, başına kimlərin yığışdığını anışdıra bilmədi, huşu özünə qayıdandasa, kədərli-kədərli gülümsədi, dedi, Allah məni axirətə gedən yoldan qaytardı, görünür, hələ bir az da yaşamağım məsləhətdi. Sonra susdu, göz yaşları yanaqlarını islatdı, dedi, biçarə validim o dünyaya oğullarının çiyinlərində getməyi arzulayırdı, ona qis-

mət olmadı, arzusunu mən yerinə yetirmək istəyir, qəbir evinə övladlarımın çiyinlərində köməyi arzulayırdım, amma mən də dünyadan nakam köçəcəyəm. Ardınca, deyəsən, mənim halımın da heç fərqli olmadığını xatırlayıb xəcalətli-xəcalətli susdu.

Siracəddin bir qədər adamayovuşmaz idi, indiyəcən hansı yuvanın quşu olduğunu çözə bilməmişdim. Biləyi hələ möhkəm olduğuna görə, tələbələrin xətt çatışmazlıqlarını aradan qaldırmaq ona tapşırılmışdı, bir də Şeyx Əsədəddindən öyrəndiklərini, kitablardan oxuduqlarını təkrarlaya-təkrarlaya gününü keçirirdi. Bir neçə kərə hava torlaşanda mədrəsədən çıxıb harasa getdiyini görmüş, əvvəlcə elə bilmişdim, bir para dərvişlər kimi, əsrara qurşanıb, çünki gözümə xumar dəydiyi vaxtlar da olmuşdu. Sonra gördüm, onunku əsrar sərxoşluğuna oxşamır, ortada ayrı məsələ var. Başına vaqeə gələcəyindən qorxduğuma görə, bir gün, az qala, kölgəyə çevrilib arxasınca düşdüm, o getdi, mən getdim, axır ki, məhəllənin evlərini keçib bir xarabalığa çatdı. Fikirləşdim, görən, bu binəva xarabalıqda nə axtarır, yoxsa oğrular-filanlamı əlbirdi. Bu məqamda quş səsi çıxardı, cavabında yaxınlıqdan da quş səsi eşidildi, sonra uçuq divarın arxasından kölgə peyda olub ona yaxınlaşdı, qucaqlaşdılar, bir-birinə nəsə pıçıldamağa başladılar. O birinin səsi incə, qadınsayağıydı, işin ucunun eşqbazlığa çatdığını görəndə həm gülməyim tutdu, həm də ondan şübhələndiyimə görə utandım. İnsan oğluydu, nəfsinə yenik düşmüşdü, bəlkə, vurulmuşdu, evlənəcək, oğul-uşaq yiyəsi olacaqdı, bəlkə də şəhvətini söndürürdü, günlərin birində də Sivasa dönəcək, onu unudub öz həyatını yaşayacaqdı. Nə danım, o məqamda qəlbimin dərinliklərində Siracəddinə həsədəoxşar bir şey də duydum, fikirləşdim, dünyada, heç olmasa, bircə nəfərin qayğısını çəkmək hər bir Allah bəndəsinin borcudu, o borcu yerinə yetirmək də ərdəmlikdi. Mənsə *başqa yol* tutdum, *Dost* axtarışına çıxdım, könlümdə ancaq *O-nun eşqinə* yer tapdım.

O qış başa çathaçatda ömrümdə üçüncü, amma ilk dəfə əməlli-başlı azarlayıb yatağa düşdüm. Halımdan qabaqca buyruqçu xəbər tutdu, Siracəddini çağırdı, biçarə neyləyəcəyini bilməyib dəftərdar İzzəddinin arxasınca adam göndərdi, o gələnəcən də qızdırmamı yoxladı, üstümü basdırmaq üçün bir yorğan da gətirtdi, əsgini isladıb alnıma qoydu, isti şorba içirtməyə çalışdı. Dəftərdar tədbirli tərpənib Məlik Mübarizədinin rumlu təbibini gətirmişdi, təbib nəfəsimə qulaq asdı, gecə köynəyimi yuxarı çəkdirib kürəyimi taqqıldatdı, sonra dedi, tələşə gərək yoxdu, bərk soyuqlayıb, verdiyim məlhəmləri içirin, yaxşı-yaxşı tərlədin, sabaha bir şey qalmaz. Təbibin nəfəsindəki mey qoxusunu duydum, beynim dumanlandı. O məqamda fikirləşdim, zavallı mənim soyuqladığımı güman eləyir, özünün üzüm şərabından sərxoş olduğu kimi, mənim də *Eşq şərabı*ndan məst olduğum ağlına gəlmir. Dəftərdara dedim, zəhmət çəkibsən, haqqını halal elə, əndişəyə-filana da düşməyin, Allahın izniylə səhər ayağa qalxaram. Hamı çəkilib gedəndən, tək qalandan sonra uzun illərin intizarından get-gedə zəiflədiyimi boynuma aldım. Əvvəllər axtardığım o qədər nəhəng, anlaşılmaz varlığıydı ki, *simasını* xəyalımda canlandırmaq iqtidarında da deyildim. Şamda *qoxusunu* duyanda, *səsini* eşidəndə, hətta əmin olmasam belə, *üzünü* görəndə o varlıq bir qədər aydınlaşıb *Dost*un simasına hopdu. İndi yeddinci ildi ki, *o qoxu* burnumda, *o səs* qulağımda, *o sima* xəyalımda yaşayır, *İlahi işarə*nin nə vaxt gələcəyini, *Dost*a nə vaxt qovuşacağımı bilmirdim. Şübhəsiz, bir qədər üşütməm-qızdırmam vardı, təbibin verdiyi məlhəmlə ötüb-keçəcəkdi, amma içimdəki o amansız intizar yaxamdan ancaq *Dost*un vüsalıyla əl çəkəcəkdi – bunusa nə təbib, nə dəftərdar, nə də tənə xidmət göstərdiyinə görə çox məmnun görünən biçarə Siracəddin dərk eləyə bilərdi.

O gecəyarısına yaxın Siracəddin təhlükənin sovuşduğunu zənn eləyib, buyruqçuya sərvaxt olmağı tapşırıb hücrəsinə gedəndə gözlərimi pəncərədən düşən solğun işığa dikib *Dost*

haqqında düşünməyə başladım, az sonra get-gedə çəkisizləşdim, asta-asta qalxıb pəncərəyə doğru süzdüm, bağlı nəfəslikdən çıxıb Göyüzünə ucaldım, mədrəsənin damını, qoşa minarəni, Saltuklu türbələrini, yatmış şəhəri aşağıda qoyub Göyün qatlarını bir-bir keçməyə başladım. O məqamda qəlbimi *O*-nunla qovuşmaq ümidi elə doldurmuşdu ki, bütün cismim ehtizaz içindəydi. Beləcə, beş qatı keçdim, altıncı qatın son hüdudunda mələklər qabağımı kəsib Allah-taalanın lütfünün hələlik buracan olduğunu bildirdilər, üstəlik, Cəbrayılın ismarışını çatdırdılar: *"Ey Şəms, hər şeyin öz vaxtı-zamanı var, geri dön, gözlə, məqamı çatanda hər şey sənə ayan olacaq!"* Kor-peşman geri döndüm, ucaldığım qatları bir-bir enib yatmış şəhərə, qoşa minarələrə, mədrəsənin damına, pəncərəyə çatdım, bağlı nəfəslikdən keçib yatağıma uzandım. Dərhal da bədənimin yaş olduğunu duydum: tər canımı sel kimi ağzına alıb aparırdı. Tamam suya batandan sonra qalxdım, alt paltarımı, gecə köynəyimi dəyişdim, bildim ki, bundan sonra mənə qorxu yoxdu, canımda elə həmin dözülməz intizar *İlahi işarə* gələnəcən beləcə yaşayacağam...

***

...Qış çıxdı, yaz gəldi, yay özünü yetirdi, həyat əməlli-başlı canlandı, üstəlik, təhlükənin hər an gözləndiyi Muğandan səs çıxmaması camaatın həyat eşqini daha da coşdurdu. Məlik Mübarizəddin köç-külfətini yığıb Ərzincan səmtinə getdi, şəhərin ixtiyarını da çox güvəndiyi dəftərdar İzzəddinə tapşırdı. Şərafəddin Xoca daha tələbələri dərsdə tapmağın çətin olacağını deyib iki ay fasilə vermək qərarına gəldi. Bu qərar Siracəddinin ürəyindən olsa da, mənim heç işimə yaramadı: tələbələrlə məşğuliyyət günlərimi doldurur, yorucu intizardan müəyyən müddətə uzaqlaşdırırdı. Bundan sonra ancaq şəhərin küçələrində vurnuxmalı, qalanın xarabalıqları arasında oturub məhrəm düşüncələrə dalmalı, hərdənbir Əcəm Əlinin çağırışına boyun əyib

müsafirxanasına baş çəkməli olacaqdım. Mədrəsədə başım qarışandan bəri unutduğum köhnə peşəmə – belbağı hörməyə də təzədən başladım. Məlik Mübarizəddindən, mədrəsədəki işimə görə dəftərdar İzzəddindən hər ay aldığım dirhəmlərin bir qismini rastıma çıxan dilənçilərə, dərvişlərə, kasıb-kusuba sədəqə verir, bir qismini ağcaya çevirib Əcəm Əlinin tapdığı etibarlı adamla Qeysəriyyəyə – Surətimə göndərirdim ki, Dördquyulardan çəkilən su xəttinə yardımım olsun. Bununla belə, belbağı hörməyə ehtiyacım qalmırdı: yatmağa yerim vardı, mədrəsənin mətbəxində bişən yeməklərlə qarnımı doyurur, geyim-keçimə də ehtiyac duymurdum.

Amma yay heç yarı olmamış Məlik Müzəffərəddin Cavlı yaylaqdan geri döndü, tələm-tələsik qoşununu yığıb güneyə sarı üz tutdu. Dəftərdar İzzəddinin dediyinə görə, Sultan Həzrətlərindən çapar gəlmiş, hökmdar sədaqətli əmirinə Amidin mühasirə eləyənlərə yardıma getməyi buyurmuşdu. Üstəlik, dəftərdar gözgörəti qürrələnə-qürrələnə danışdı ki, Böyük Sultan Qiyasəddin Keyxosrovun ən təcrübəli, sədaqətli, xas kölələrindən olan Mübarüzəddin ağlı, fərasəti, igidliyi sayəsində hökmdarın gözünə girməyi, əmir məqamınacan ucalmağı bacarıb; hətta hökmdar ona o qədər inanırmış ki, süfrəsinin, yeməyinin, canının müqəddəratını Mübarizzədinə həvalə eləyib çaşnigir məqamını veribmiş, taxt-tacın taleyini həll eləmək, varis seçmək vaxtı çatanda da məsləhətləşdikləri adamlardan biri Əmir Mübarüzəddin olmuş, səltənəti İzzəddinə tapşırmağı qərara alanda onu Qeysəriyyəyə çağırmışdı. Onda oğulları İzzəddin Malatyada, Əlaəddin Tokatdaymış. Əlaəddin validinin qərarından narazı qalır, ölüm xəbərini alanda üç gün yas saxlayır, sonra qoşununu yığır, Qeysəriyyənin üstünə gəlib dər-ül-mülkü mühasirəyə alır; yeni sultan da əyan-əşrəfi yığıb, məsləhətləşir, mühasirədən çıxıb Konyaya getməyi, qoşun toplayıb yenidən Qeysəriyyəyə dönməyi təklif eləyir. Onda Mübarizəddin Cavlı əmir-axur Zeynəddin Başara, əmiri-məclis Mübarizəddin Bəh-

ramşah hökmdarın bu niyyətiylə razılaşalar da, Qeysəriyyə hakimi əmir Cəlaləddin Qeysər, bir də Əlaəddinin qoşununda olan, məşvərətə gizlicə gələn erməni Levon şəhərdən çıxmamağı, vəziyyətə bir çarə qılmağı, Əlaəddini dilə tutmağı məsləhət görür. Səhəri gün Levon qoşununu mühasirədən çəkib gedir, Ərzurum məliyi Mücisəddin Toğrulşah da ona qoşulur, bunu görən Əlaəddin təlaşa düşüb mühasirədən çəkilməyə məcbur olur.

Onda Böyük Sultan İzzəddin Əmir Cəlaləddinə pərvanəçilik məqamı vermiş, Əmir Zeynəddini Niğdəyə, Əmir Mübarizəddin Bəhramşahı Əlbistana hakim göndərmişdi. Sultan Ərzincan hakimi Fəxrəddin Bəhramşahın qızı Səlcuq xatunla evlənəndə nikah mərasiminin əsas yükünü Əmir Mübarizəddin Cavlı çəkibmiş, elə o axirət evinə köçəndə də taxt-tacın müqəddaratını həll eləyənlərdən biri Mübarizzəddin Cavlı imiş. Onda çaşnigir məqamında olan Seyfəddin Aybaba, pərvanəçi Şərafəddin Muhammədlə digər əmirləri yığıb məsləhətləşiblər, biri Qılıncarslanın, o biri Kərfərəddinin tərəfini saxlayıb, əmir Seyfəddinlə Əmir Mübarizəddin Cavlısa şahzadə Əlaəddini məsləhət görüb, onu da taxta çıxarıblar; amma Əlaəddin səltənətə sahib olan kimi əmir Seyfəddini, əmir Zeynəddini, əmir Mübarizəddini tutdurub Zamantı qalasına saldırıb, Bəhramşah Qutluğcanı Tokata göndərib, Əmir Mübarizəddin Cavlısa onun da xas adamı kimi qalıb; xanədanlın sədaqətli köləsi Əmir Mübarizəddin Kahta qalasının zəbt olunmasında da şücaət göstərib, sonra hökmdar onu Levonun, oğlu olmadığına görə yerinə keçən, taxt-taca qarşı baş qaldırmaq fikrinə düşmüş qızının üstünə göndərib; Əmir Mübarizəddin də şahinlərin ormanına girmiş kəkliyi bir göz qırpımında ovlayıb, boynuna sultanın hüzuruna hər il min süvari, beş yüz də carçı göndərmək vədi qoyub, məmləkətini Əmir Qəmərəddinə tapşırıb; Böyük Sultan Yastı Çəməndə Xarəzmşah Cəlaləddini yenəndə də, Ərzurumu fəth eləyəndə də ön cərgədəymiş, şücaətimi müqabilində Ərzurum

məlikliyi verilibmiş, əmir Kəmaləddin Kamyar gürcü torpağına səfərə çıxanda da onunla məsləhətləşibmiş, Sultan əyyubilərin üstünə gedəndə də xas əmirinə güvənirmiş; indi tatar təhdidi qarşısında ilk hüdud olan Ərzurumun xas əmirə tapşırılması da təsadüf-filan deyildi; Baba Rəsulullah qiyamçılarını qanına qəltan eləyənlərdən biri olan Mübarizəddin Cavlı yeni sultanın da gözünə girməyi bacarmış, bu səbəbdən, Amidin mühasirəsində başlıca güc olmağı ona etibar eləmişdi. Baba İshaqın can yoldaşlarına tutulan divandan sonra məlik Mübarizəddinlə üzüzə gəlməyi istəməsəm də, dörd sultana sədaqəti məni xeyli mütəəssir elədi.

O yay günlərinin böyük qismini Təbriz qapısı tərəflərdə keçirdim. Təhər-töhürümdə kimisə gözləyən, kiminsə intizarını çəkən, həsrətdən səbrü-qərarı qalmayan adam haləti vardı. Günorta namazından sonra vacib görüşə tələsən adamsayaq mədrəsədən çıxır, özümü Təbriz qapısına yetirir, gedənlərin-gələnlərin arasında dolaşır, *tanış qoxu, tanış nəfəs, tanış səs* arayırdım. O məqamlarda *"Ey məna aləminin sərrafı, məni axtar, tap!"* – deyən Allah bəndəsinin Təbrizdə, Marağada, Xoyda, Urmiyədə, Zəncanda, lap elə Kirmanda olmasını, *qeybdən gələn səs*in mənə o şəhərlərdən birində yaşayan *Dost*u nişan verməsini dünyada hər şeydən çox arzulayırdım. O tanış qoxunu alsa, o doğma səsi eşitsəydim, hər şeyi – mədrəsəni, Şərafəddin Xocanı, Siracəddin Sivasini, Mübarizəddin Cavlını və oğullarını, indi məliyin yay köşkünü inşa eləyən memar Qiyasəddini, dəftərdar İzzəddini, başlıcası da Əcəm Əli və tifil Vəhidi geridə qoyub yola düşərdim. Özümü bir qədər aldadır, o Dostun Diyari-Rumda olduğunu bildiyimə görə Təbriz səfəqinin bir daha qismətimə düşməyəcəyini dərk eləyir, qayıdanda yolumu Əcəm Əlinin karvansarayından salır, sərin şərbət içə-içə ordan-burdan söhbət eləyir, axşam namazına az qalmış mədrəsəyə qayıdırdım. Get-gedə gecələrim əzaba çevrilir, naməlumluq duyğusu beynimi də, içimi də qurd kimi gəmirirdi. Kimdi o *Dost*! Har-

dadı? Niyə *"məni axtar, tap"* dedi? Özü butasını niyə tapmır? *İlahi işarə* nə vaxt veriləcək? *O işarə*ni gözləməyə ömrüm çatacaqmı? Göyün altıncı qatına ucalmağım altıncı qapının artıq açıldığınınmı işarəsiydi? Eləydisə, deməli, Ərzurumdan getmək zamanı yaxınlaşırdı. Amma hara gedəcəkdim, tale məni hansı məmləkətə atacaqdı? Ha götür-qoy eləyirdimsə, ağlıma gerçəyə oxşar bir fikir gəlmirdi. Hövlümdən qalxıb bayıra çıxır, mədrəsənin həyətində ora-bura vurnuxur, üzümü başımın üstümdəki bədirlənmiş Aya tutub bağırmaq istəyirdim: *"Hardasan, Dost?!"*

O yay da, payız da Çormoğon Noyonun bu tərəflərə üz tutmaması Ərzurum əhlinə xeyli təpər vermişdi. Deyilənə görə, Noyonun başı gürcü torpağını, Şirvan məmləkətini tamam diz çökdürməyə qarışıb. Payızın axırlarında Məlik Mübarizəddin Amiddən zəfərlə dönüb, üç gün-üç gecə şadyanalıq elədi. Qışın ilk qarı yağanda da Ögedey xanın ovda zəhərlənib öldüyü, yeni xan seçilənəcən taxtında sevimli zövcəsi Töregene Xatunun oturduğu barədə şayiələr yayıldı. Dəftərdar İzzəddinin dediyinə görə, ən azı, iki-üç il tatar bəlasından qurtulmuşuq, inşallah, Çormoğon Noyon qoşununu Muğandan çəkib gündoğana üz tutar, bir daha buralara qayıtmaz. Amma qışın axırlarında Çormoğon Noyonın ağır xəstəliyə düçar olduğu, iflic vurub yataqdan qalxa bilmədiyi, qoşunun başçılığını özündən də zalım Baycu Noyona həvalə elədiyi barədə xəbər gəlib Ərzuruma çatanda dəftərdarın qaş-qabağı tutuldu, dedi, belə məlum olur, Ögedeyin zövcəsi də günbatan torpaqlarını zəbt eləmək fikrindən daşınmayıb, Muğanda məskən salan, qışı yeyib-yatan, yaz-payızda ətraf məmləkətlərə basqın eləyib qırğınlar törədən tatar qoşunu Ərzuruma da üz tuta bilər; dedi, Baba Rəsulullah qiyamı sultanımızın qoşununu xeyli zəiflədib, gavur dəstələrini saxlamaq da xəzinəyə baha başa gəlir, yoxsa Məlik Mübarizəddin Amidin mühasirəsinə getmək məcburiyyətində qalmaz, Baycu Noyonun qoşunbaşı məqamını tutmasından sonra əsgərlərinin

hazırlığına xüsusi diqqət ayırmazdı. Söylədiklərində həqiqət vardı, çünki məlik axır vaxtlar övladlarının dərsiylə maraqlanmağa da vaxt tapmırdı, Ərzurumun idarəsini belə, dəftərdara həvalə eləmişdi.

Yazbaşı məni bir Övhədi müridi axtarıb tapdı, dedi, Kamili-Təbrizi halınızdan xəbər tutmağı buyurub; dedi, Nəsirəddin Xocanın taleyinlə hələ aydınlıq gəlməyib, Sultana olunan ilticalar bir nəticə vermir, hətta Seyyid Bürhanəddin Konyadakı məhrəm adamlara məktub göndərib, hamısından zindandakıların buraxılması üçün hökmdara üz tutmalarını təvəqqe eləyib, Fatma Bacı iki dəfə Konyaya gedib, amma bir nəticə hasil olmayıb ki, olmayıb; dedi, qurulmuş vəqf Dördquyulardan su xətti çəkilişini başa çatdırıb, göndərdiyim ianə də dəftər-kitaba salınıb, qala camaatı artıq rahat nəfəs alar, hamı oturanda da, duranda da səbəbkarların valideynlərinə rəhmət oxuyar; dedi, Seyyid Bürhanəddin tamam qocalıb, artıq yatağından da qalxa bilmir, mən Ərzuruma yola düşəndən az sonra da Konyadan Bəhaəddin Vələdin üləma oğlu Molla Cəlaləddin gəlibmiş, nə qədər dil tökübsə, onu öz yanına aparmağa razı sala bilməyib, mürşidi deyib, mən artıq özüm-özümə belə yükəm, sənə heç yük olmaq istəmirəm, hər kəsin qisməti bir parça torpaqdı, o torpaq Qeysəriyyədə də tapılar; dedi, Ərzurumdakı qardaşlardan biri daim uzaqdan-uzağa mənə göz olurmuş ki, ehtiyac duyulanda yardım eləsin; sonra dedi, Kamili-Təbriziyə bir sözünüz, ya əmanətiniz olsa, canla-başla çatdırmaq borcumdu. Mən də deməli sözümü söylədim, məvacibimdən artırdığım on dörd ağcanı da verdim ki, Surətim ehtiyac duyduğu işlərə sərf eləsin.

Müridin Ərzurumdakı qardaşlardan birinin uzaqdan-uzağa mənə göz olması barədə söylədikləri beynimi qurcaladı, Hələbdə başıma gələnləri, Qeysəriyyədə duyduqlarımı, bir də Sürətimin danışdıqlarını saf-çürük eləyəndən sonra belə nəticəyə gəldim ki, Övhədi müridləri arasında möhkəm bağlılıq, əmrə itaət, yardımlaşma var. Ola bilsin, qarşımdakı bu mürid

ən xas döyüşçülərdəndi, məqamı gələndə əbasının altından xəncər, çalmasının qatı arasından bıçaq çıxara, özünü də, öhdəsinə düşən adamı da qoruya bilər. Deməli, Nəsirəddin Mahmudun da, Kamili-Təbrizinin də, hələ desən, Fatma Bacının da Diyari-Rumda qurduqları, ən azı qurmağa çalışdıqları qurum var. Bəlkə, elə Nəsirəddin Xocanın, Nəcməddin Dayenin, əl-Tusinin də zindanda saxlanmasının əsas səbəbi buydu. Ola bilsin, çuğullar gizli işlərlə bağlı sultana nələrsə çatdırıblar, o da Övhədi müridlərinin qorxunc qüvvəyə çevriləcəyindən ehtiyat eləyib mürşidlərini zindanda saxlamaq qərarına gəlib. Hələ Ərbildə cənnətməkan Şeyx Övhədəddindən tatar təhdidinə qarşı belə bir qüvvəyə ehtiyac duyulduğunu eşitmişdim, hətta yaddaşım aldatmırsa, Xəlifə Nasirlə bu barədə davamlı söhbətləri olmuşdu, cavlakilərlə yanaşı, əxilərin də gündoğandan gələn bəlaya qarşı dirənəcəkləri güman edilirdi. Mənə qalsa, xeyirxah niyyətiydi, düşmənə qarşı aşkar güclə yanaşı, gizli qüvvə də döyüşməliydi, hətta fikir cəngi-cidalına da ehtiyac vardı, yoxsa zəfər qazanmaq mümkün olmazdı.

Payızın ortalarında Məlik Mübarizəddin yay köşkünün inşasına baxmaq üçün Ərzincan tərəflərə getdi. Elə o vaxt da Siracəddinin məstliyi axır ki, öz bəhrəsini verdi: bir axşam hücrəmin qapısını döyüb çəkinə-çəkinə içəri girdi, bağır basıb ədəblə qarşımda dayandı, həyadan qızara-qızara ürəyini açdı: sən demə, vurulduğu xatunla evlənmək qərarına gəlibmiş. Dedi, indiyəcən söyləməmişəm, validim Yastı Çəmən savaşında şəhid olub, validəmi xəstəlik aparıb, Şeyx Əsədəddinin himayəsində böyümüşəm, məni oxudub, tərbiyə verib, amma o da uzaqlardadı, bu səbəbdən, gümanım Şərafəddin Xocayla sizə gəlir, təvəqqem budu ki, gedəsiniz, valideynlərindən o xatunu Allahın izni, Peyğəmbərimizin şəriətiylə mənə istəyəsiniz. Dedim, Allah xoşbəxt eləsin, gedərik, kəbini də kəsərik, məclisini də keçirərik, inşallah. Durub Şərafəddin Xocanın hüzuruna getdim, vəziyyəti danışdım, elə səhəri günün axşamı da dəftərdar İz-

zəddini çağırtdırıb məramımızı bildirdik. Qız tərəf dəftərdarın uzaq qohumlarındanmış, belə bir təsadüfə özü də sevindi, vaxt itirmədən getdik, iki könlün tutduğunu, bu səbəbdən, izdivacın məqbul olduğunu söylədik, dəftərdar da Siracəddinə zamin durdu, mübarəkabadlıq eləyəndən sonra belə qərara gəldik ki, bir həftə sonra kiçik nikah məclisi quraq, iki Allah bəndəsinin həyatını birləşdirib xoşbəxtlik diləyək.

Nikahı qıyılandan sonra Siracəddin mədrəsə hücrəsində qalmağı münasib bilmədi, dəftərdar İzzəddinin yardımıyla kiçik ev kirayələyib köçdü. Onda yağışlar daha tez-tez yağmağa başlamışdı, artıq dağlara düşən qarın soyuğu özünü bildirirdi. Gündüzləri başım dərslərə qarışdığından, günün necə keçdiyini o qədər də hiss eləmirdim, elə ki, mədrəsəyə sakitlik çökürdü, kürəyimi divara söykəyib oturur, nəzərlərimi kiçik pəncərədən görünən bir parça payız səmasına zilləyirdim, nagəhan intizar üstümə dağ kimi çökürdü. Belə məqamların birində, görünür, Siracəddinin evlənməsinin təsiri altında beynimdən keçirmişdim ki, görəsən, könlümə bu *İlahi Eşq* düşməsəydi, həyatım necə olardı? Yəqin, onun yerini Mehmanə Xatunun eşqi tutardı, günlərin birində mən də validəmə utana-utana deyərdim, gedin, filankəsin qızını Allahın izni, Peyğəmbərimizin şəriətiylə mənə istəyin, onlar da gedib istəyərdilər, nikahımız oxunardı, fələkdən kam alardıq, övladlarımız dünyaya gələrdi, mən indikitək mədrəsədə müdərrislik, ya da İzzəddinsayaq dəftərdarlıq eləyəeləyə qayğılarla əlləşər, övladlarımı böyüdərdim; ya da qızın valideynləri razılıq verməzdi, mən də onun eşqindən dəli-divanə olardım, bəlkə elə, Dəli Nəzər kimi Təbrizin küçələrini dolaşar, nakam sevgimə şeirlər söyləyərdim. Amma hər şey bu cür oldu, *İlahi Eşq* könlümdəki bütün eşqləri söndürdü, onun ucundan yollara düşdüm, iyirmi il Təbrizdə, öz içimdə yol getdim, iyirmi il də Təbrizdən Ərzurumacan yol keçdim, amma hələ o *İlahi Eşq* məni vüsala çatdırmayıb, nə vaxt çatdıracağı, ümumiyyətlə, çatdırıb-çatdırmayacağısa, bir Allaha ayandı...

***

...Ərzurumun qışı özünü yetirib, şaxta düşəndən sonra iztirablarım daha da dözülməz oldu. Bəzən qar yolları tutur, mədrəsədən çıxıb məliyin imarətinə gedə bilmirdim, heç tələbələrimiz də dərsə gəlmirdilər. Belə vaxtlarda böyük tikilidə Şərafəddin Xoca, bir də aşpaz-buyruqçulardan başqa kimsə qalmırdı. Memar Qütbəddin Zəncani, dəftərdarın dediyinə görə, sultanımızın buyruğuyla dər-üs-səltənəyə getmişdi, nə vaxt qayıdacağı hökmdarın hökmündən asılıydı. Yolun-rizin bağlı olduğu günlərdə hücrədə, ya da buyruqçuların canlarına cəfa basıb təmizlədikləri həyətdə qəfəsə salınmış pələng kimi vurnuxur, sanki ağır, heybətli bir şeyin yaxınlaşdığını duyurdum. Asta-asta içimə çökən, dünyamı qaraldan, amanımı kəsən o kəsafət gündoğan səmtindən gəlirdi. Halətimi Şərafəddin Xoca da duymuşdu, səbəbini soruşdu, daha saxlamayıb qəlbimə çökənləri söylədim. Xeyli susdu, elə bil, gözlərinin işığı bir qədər də azaldı, dedi, Allah xeyirliyə yozsun, amma o qorxu məndə də var, Qaraqorumda, Muğanda hökm sahibləri dəyişəndən sonra, şübhəsiz, yeni xəyallara düşənlər var, indi məmləkətimizi də, qonşu məmləkətləri də gözləyən başlıca təhdid ancaq tatarlarla bağlıdı, yəqin, Məlik Həzrətləri bunu bilir, tədbirlər görür. Şərafəddin Xocayla söhbətdən sonra əndişəm bir qədər səngisə də, tamam çəkilib getmədi, bütün qış boyu sürdü.

Məlik Mübarizəddin sultanların etimadına layiqmiş, həqiqətən, tədbir görüb Muğana yaxın obalarda çuğullarını yerləşdiribmiş. Yazın ortalarında o çuğullardan biri gəlib Baycu Noyonun ordugahında səfər hazırlığı əlamətləri sezildiyi, hələ hansı tərəfə üz tutacağı bəlli olmasa da, sərvaxt davranmaq lazım gəldiyi barədə xəbər gətirmişdi. Bunu bizə sirr kimi açan dəftərdar İzzəddinin dediyinə görə, Allah eləməmiş, təhlükə artsa, Məlik Həzrətlərinin buyruğuyla bizi Ərzincana, Sivasa, ya da Qeysəriyyəyə yola salacaqdı. Onda beynimdən keçirmişdim ki, növbəti qapıya doğru yola çıxmaq vədəm yaxınlaşır,

amma Allahın bu fürsətinə Baycu Noyonun səbəb olmasını heç istəməzdim. Artıq marığa yatmış ovçularsayaq intizarla gündoğandan xəbər gözləyirdik. Fikirləşdim, təhlükə yaxınlaşanda biz – Şərafəddin Xoca, mən, Siracəddin – çıxıb gedəcəkdik, bəs, qalanların taleyi olacaqdı? Minbir zəhmətlə özünə güzəran qurmuş Əcəm Əli neyləyəcəkdi, hər şeyi atıb gedəcəkdi, yoxsa düşmən atlarının dırnaqları altında çığnanacaqdı? Düzü, belə fəthlərin mahiyyəti mənə çatmırdı: insanın könlünü fəth eləmək mümkünsə, qoşun yığıb, basqın eləyib, tutub, yağmalayıb, öldürüb, tapdalamaq insan övladına yaraşan hərəkət deyildi. Bu qədər gözyaşı, ah-nalə, nifrin üzərində qurulan səltənət də uzun müddət yaşaya bilməzdi, mütləq günlərin birində tar-mar olacaqdı.

Kim demişdi, necə xəbər tutmuşdu, bilmirəm, amma yazın axırlarında, bir gün Əcəm Əliylə söhbətdən sonra Zeynal məscidində axşam namazımı qılıb mədərəsənin yolunu tutmuşdum ki, dalda bir küçədə tanış *kölgə* böyrümü kəsdirdi, dedi, Kamili-Təbrizinin salam-duası var, mənə buyurub gündoğandan təhlükə duyulduğu məqamda daim qulluğunuzda olum. Özünü nişan verməsə də, nəfəs-səsindən o qardaşı tanıyıb təhlükənin nə qədər gerçək olduğunu soruşdum. Dediyinə görə, lap Bərdəyəcən gedib çıxan qardaşlardan səhih xəbər var, Baycu Noyonun ordugahı ayaq üstdədi, bu gün-sabah qoşun yola çıxacaq, artıq itaət altına alınmış məmləkətləri xəraca bağladıqlarına görə, ya Bağdada, ya da Diyari-Ruma üz tutacaqları güman olunur. Bu Övhədi müridi, yəqin, Surətimdən təhlükə məqamında canı bahasına da olsa, məni qorumaq, buralardan uzaqlaşdırmaq buyruğu almışdı. Əlbəttə, ona demədim ki, düşmən əliyalın, ancaq canı bahasına savaşan bir kəsin müqabilində qılınc çəkəcək qədər acizdisə, səltənətinin ömrü uzun çəkməz. Amma o vaxt Sürətimin söylədiklərində də həqiqət vardı: fəth ehtirasından alışıb-yanan adamların gözləri dünyanı seçmir, özünü tanıdanacan atların dırnaqları altında tapdanıb toza dönərsən. Yadıma

cənnətməkan Fəridəddin Əttar düşdü. O yaşda adamın boynunu vuran zalımlar qələmdən çıxanları, hafizələrdə qalanları məhv eləmək iqtidarında olmadıqlarını qanmazlar. *Kölgə* vidalaşanda dedi, daim yaxınlığımda dolaşacaq, sonra bir göz qırpımında da qaranlığa qarışdı, sanki buxarlanıb havaya hopdu. Həmin məqamda da duyğumun məni aldatmadığını dərk elədim: *Ərzurumdan getmək vaxtı yaxınlaşırdı, uzaqbaşı, bir neçə həftəyə yola çıxacaqdıq.*

O günlərdə subaşı Sunqur Lələnin gəlişi ətrafdakı adamlarda qəribə əndişə doğurmuşdu, simalarda narahatlıq, bir qədər də təşviş vardı. Səbəbini Əcəm Əlidən soruşdum, sifəti tutuldu, bir qədər susdu, sonra dedi, Sunqur Lələ hər dəfə Ərzuruma üz tutanda bir fəlakət baş verir, yəqin, bu dəfə də pis xəbər çıxacaq, ya rumlularla, ya tatarlarla toqquşma olacaq, ya da yenə türkmanların üstünə gedəcəklər; dedi, Sunqur Lələ fəlakət baş verəndə gəlir, məlik Mübarizəddinsə fəlakət baş verəndə gedir: məlik Mübarizəddin Ərzurumdan çıxanda uzaq diyarlarda savaş olacağını bilirik, Sunqur Lələ Ərzuruma üz tutandasa, kiminsə üstümüzə gələcəyini başa düşürük; dedi, çoxdandı Sunqur Lələ bu tərəflərdə görünmürdü, camaat rahatca öz dərd-azarıyla əlləşirdi, indi o, Ərzurumdan getməmiş kimsə dinclik tapa bilməyəcək. Əcəm Əlinin sözləri mənim də müvazinətimi pozdu, fikirləşdim, ən qüvvətli ehtimal Muğanda bac-xərac, qənimət hesabına yaşayan, indi yeni yürüşə hazırlaşan tatarlarla bağlıdı. Əlbəttə, Baycu Noyon yaxın ətrafla kifayətlənə bilməzdi, Çormoğon Noyondan heç də zəif olmadığını sübuta yetirmək üçün səfərə çıxmalı, məmləkətlər fəth eləməli, qənimət ələ keçirməliydi. Ola bilsin, o tərəflərdəki çuğullarından aldığı xəbər subaşını yerindən oynatmış, məlik Mübarizəddinlə məşvərətə ehtiyac duymuşdu.

Cəmi dörd gün sonra dəftərdar İzzəddin payız buludu kimi dolmuş halda mədrəsədə peyda oldu, məni də Şərafəddin Xocanın hücrəsinə çağırtdırıb Baycu Noyonun ordugahdan tərpə-

nib gürcü torpağına girdiyini, sonra, güman ki, Diyari-Ruma üz tutacağını söylədi. Çuğulların hamısının gətirdikləri xəbərləri saf-çürük eləyəndən sonra Məlik Mübarizəddin hazırlıq barədə buyruq veribmiş: qocaları, qadınları, uşaqları hələlik Ərzincana, Sivasa göndərmək, qalanı möhkəmləndirmək, ərzaq ehtiyatı görmək gərək idi. Yaşına görə Şərafəddin Xocaya araba, bir də buyruqçu ayrılacaqdı, qalanlar öz bacardıqları kimi getməliydilər, indiki halda hər bir atın, qatırın, əli silah tutan adamın dəyəri vardı. Əlbəttə, dəftərdar məliyin yanında qalacaq, lazım gəlsə, döyüşə-döyüşə həlak olacaqdı, amma külfətlərini artıq yola hazırlamışdılar, onlar da bizim qəfilədə olacaqdılar. Dəftərdarı heç belə görməmişdim: səsi tez-tez titrəyir, qırılır, gözləri yaşarırdı. O məqamda beynimdən keçirdim ki, insan oğlu yalnız itirdiyini anlayanda, yaxud itirmək təhlükəsi duyanda sarsılır, sınır, adi məxluqa çevrilir, nə vaxtsa qılıncımın dalı da, qabağı da kəsən, təkəbbürüylə dünyaya meydan oxuyan, yerlə-göylə əlləşən, Allah bəndəsindən geriyə heç nə qalmır. Dəftərdar Ərzurumda məlikdən sonra ikinci hökmü-fərma olan şəxs indi, idi Şərafəddin Xocanın hücrəsindəsə dünyanın ən aciz məxluqlarından biriydi, əllərini ovuşdura-ovuşdura gəzinir, arabir ayaq saxlayıb imdad diləyən nəzərlərini üzümüzdə gəzdirir, hönkürməkdən özünü zorla saxlayırdı. Şərafəddin Xoca dedi, yəqin, Məlik Həzrətləri sultanımızın hüzuruna çapar göndərib, onu yaxınlaşan fəlakətdən xəbərdar eləyib, dəftərdar da var-gələ ara vermədən çaparın səhər erkəndən yola düşdüyünü söylədi. İzzəddin çıxıb gedəndən sonra Şərafəddin Xocayla üzbəüz oturub xeyli susduq, fikirləşdim, sabah Əcəm Əliyə baş çəkib vəziyyətiylə maraqlanmalıyam; mən Məlik Mübarizəddinin sayəsində qurtulacaqdım, amma o biçarələr tatar atlarının dırnaqları altında tapdana bilərdilər.

O gecə yuxum ərşə çəkildi, dan yeri ağaranacan kürəyimi divardan aralamayıb dağı arana, aranı dağa daşıdım, amma ucunu bir tərəfə çıxara bilmədim. Validim deyərdi, insanın bütün bəd-

bəxtliklərinin kökündə acgözlüyü, tamahkarlığı durur, acgözlük üzündən evlər dağılıb, ocaqlar sönüb, obalar, şəhərlər, məmləkətlər xaraba qalıb, zülm görənlərin nifrinləri ərşə dayanıb, gözyaşları ümmana dönüb. İndi gündoğandan sel kimi Ərzurumun üstünə gələnlərin gözləri nə vaxt doyacaqdı? Türküstan, Xorasan, Azərbaycan, Arran, Şirvan, gürcü məmləkəti onların itaəti altındaydı, indi də elə gündoğandan gəlib Diyari-Rumu canları bahasına özlərinə məmləkət eləmiş qövmün əlindəkilərini də almaq istəyirdilər. Yaxşı, tutaq ki, Diyari-Rumu da, Trapezundu da, Bizansı da aldılar, ordan da o tərəfə keçdilər, bu böyüklükdə səltənəti necə itaət altında saxlaya bilərdilər axı? Zülm altında olanlar, əlbəttə, orda-burda baş qaldıracaq, qəskarlara dinclik verməyəcəkdilər. Tamahın həddi-hüdudu olmalıdı, tamahkar ucalmaz, qənaət eləyən alçalmaz; hürr adam tamahla əsirə, köləyə çevrilir, köləsə qənaət və səbirlə hürr olur. Bəlkə, Baycu Noyon, həqiqətən, Ərzuruma üz tutub, gəlib bu yerləri itaət altına alacaq, amma günlərin birində də özü öz qanında boğulacaq, cəsədi qurda-quş yem olacaq. Bur ucu gündoğanda, bir ucu da günbatanda olan səltənətlər belə, sonsuzluğacan yaşamayıb, günlərin birində dağılıb. Allah adildi, tatar xanədanının da, Çormoğon Noyonun da, Baycu Noyonun da tifağını tar-mar eləyəcək.

Səhər azanı veriləndə qalxdım, dəstəmaz alıb namazımı qıldım, sonra ağlıma gəldi ki, hələ dərslərini tamamlamamış tələbələrin sarsıntılarını da nəzərə almaq lazımdı. Dəftərdar İzzəddin o biçarələrə xəbər veriləcəyini demişdi, hər halda, gözlənən təhlükədən xəbərdar olmaları məsləhətiydi. Yemək-filan barədə düşünmədən Əcəm Əlinin karvansarayına üz tutdum. Biçarə dərin fikrə cummuş halda həyətin bir küncündəki taxtın üstündə oturmuşdu, həmin məqamda xatırladım ki, dəftərdarla simsardı, yəqin, qızı vasitəsiylə çoxdan vəziyyətdən hali olub, dərdə-qəmə də bu səbəbdən batıb. Məni görəndə, həmişəki kimi, ayağa durub bağır basmadı, yüngülcə başını tərpədib yer

göstərdi, bir müddət heç birimizdən səs çıxmadı, sonra dedi, ey Şəms, bəd xəbər yüyrək olar, yəqin, üstümüzə gələn fəlakəti eşitmisən dedi, mən bütün gecəni götür-qoy elədim, belə qənaətə gəldim ki, bu sinnimdə ömrüm boyu qurduğum ocağı atıb gedə bilmərəm; dedi, düzdü, əlimə qılınc götürüb düşmən qabağına çıxmağa da heyim yoxdu, amma heç olmasa, qılınc çalanlara şorba bişirə bilərəm; dedi, nə illah elədimsə, övrətimi getməyə razı sala bilmədim, boyun qaçırdı ki, ölsək, bir yerdə ölək, qalsaq, bir yerdə ömür sürək; dedi, Vəhidin qalmasına könlüm razı olmadı, tifilin canı hələ bərkiməyib, əlinə yar-yaraq götürəcək halda da deyil, fikri dəftər-kitabdadı; dedi, axşam çox götür-qoy elədim, ağlıma oğlumu əmnanət vermək üçün İzzəddinin külfətindən, bir də səndən başqa bir kəs gəlmədi, ondan arxayın olsam, canımın dərdini çəkmərəm, Allah-Taala alnıma nə yazıbsa, o da baş verəcək.

Gözlənən fəlakəti söyləmək əzabından xilas olduğuma sevinib dedim, Vəhid, əlbət ki, bizim qəfiləylə gedə bilər, ondan muğayat olaram, amma mənim narahatlığıma səbəb sənsən: Məlik Mübarizəddinin qoşunu qalanı qoruya bilməsə, başınıza gələcəkləri xəyalına gətirirsənsə, deməli, hər şeyi gözünün altına almısan; dedim, fikrindən döndərmyə çalışmayacağam, çünki Haqq sənin tərəfindədi, axıracan da yanında olsun, zalımın zülmü varsa, məsumun da səbri var, səbirlə qisas məqamının yetişməsini gözləyər; dedim, amma riyakarlıq eləmək mənə yaraşmaz, Ərzurumda qalmaqla kimsəyə bir fayda verəcəyimə inanmıram, indi camaata söz söyləyən dildən çox, qılınc vuran bilək gərəkdi; üstəlik, Şərafəddin Xoca mənə əmanətdi, onu kimsənin öhdəsinə buraxa bilmərəm, bu səbəbdən, əlbət ki, Ərzurumdan getməliyəm; dedim, bəlkə, görüşmədik, haqqını halal elə, mənim də zərrə qədər haqqım varsa, halalın olsun, Vəhiddən də arxayın ol, canımda can qaldıqca, başından bir tük əskik olmasına izin vermərəm. Bura çatanda səsim titrədi, boğazım qovuşdu, durub qucaqlaşdıq, Ərzuruma ayaq basandan mehrini

hiss elədiyim adamı ordaca Allahın ümidinə qoyub çıxdım, karvansaraydan bir qədər aralananda *kölgəm*in nəfəsini üstümdə hiss elədim, fikirləşdim ki, bəlkə, elə qəfiləmizə arabaçı, ya da dəftərdarın adamı kimi qoşulanlardan biri də, yəqin, bu Övhədi müridi olacaq, yol boyu kölgəsini üstümdən əskik eləməyəcək.

Axşam namazından sonra Siracəddin gəldi. Simasında əndişəyə yanaşı, məmnunluğa oxşar bir şey də sezdim: yəqin, zövcəsiylə Ərzincana, bəlkə də Sivasa gedəcəyimizdən qəlbən razıydı, amma bunun fəlakətə sevinmək kimi başa düşüləcəyini sezib gizlətməyə çalışırdı. Dedi, dəftərdar çağırtdırmışdı, erkəndən yoxa çıxmağımızı buyurdu, qəfilə Şərafəddin Xocaya ayrılmış araba sübh namazından sonra mədrəsənin qabağında olacaq, – Ərzincan qapısında yığışacaq, Allahın izniylə yola çıxacağıq. O çıxıb gedəndən sonra fikirləşdim, onsuz da yığıb-yığışdırmalı bir şeyim yoxdu, olub-qalanım heç bir dağarcığı da doldurmaz. Amma Şərafəddin Xocanın kitablarını, yazı dəstini, Əmir Cəlaləddin Karatayın bağışladığı əntiq şamdanını, qəndilini, bir neçə dəst paltarını, güman ki, buyruqçu çoxdan nizama salmışdı. Hər halda, durub hücrəsinə baş çəkdim, artıq yatdığına, buyruqçunun da öz işini səliqə-sahmanla gördüyünə əmin olub bir qədər rahatlandım. Sabah qarşımda daha bir qapıya doğru yol dururdu, o yolu getmək üçün özümdə təpər tapmalıydım. Amma nə illah elədimsə, uzun müddət gözümə yuxu getmədi ki, getmədi...

...Sonra hansı şəhərinsə küçəsiylə gedirdim, amma ətrafda mənə Təbrizi, Ərbili, Bağdadı, Şamı, Hələbi, Qeysəriyyəni, Ərzurumu xatırladan heç nə yoxudu; bir qədər əvvəl qapısından çıxdığım karvansaray da indiyəcən qaldığım karvansarayların heç birinə oxşamırdı; qəfildən üzbəüz səmtdən gələn dəstəylə qarşılaşırdım; qatırın belində cavan bir zat oturmuşdu, nə sifətini ayırd eləyə bildim, nə səsini eşitdim, yalnız *nəfəsini* duydum; *o nəfəs* çox məhrəmdi, məni ahənrübatək özünə çəkirdi, heç düşünüb-daşınmadan dəstənin qabağını kəsdim; üzlərini görə bil-

mədiyim adamlar heyrətləndilər, nəsə dedilər, ancaq səsləri gəlib mənə çatmadı; gözlərimi qatırın belindəki zatın görünməyən simasına dikib durdum, sonra ona nəsə dedim, öz səsimi də, onun verdiyi cavabı da eşitmədim. Amma mükaliməmiz bitən kimi, o Allah bəndəsi qatırdan endi, dinib-danışmadan əlimdən yapışdı, o məqamda da məhrəm *nəfəsini*, üstəlik, canımdan can alan *təmasını* duydum; məni küçələrdən keçirib bir hücrəyə saldı; diz-dizə oturub xeyli baxışdıq, sonra o Allah bəndəsi nəsə söylədi, sözləri ayırd eləyə bilməsəm də, çox axıcıydı, lap şeirə oxşayırdı; axşam düşdü, gecə oldu, səhər açıldı, günorta düşdü, həmin şeir bitmədi ki, bitmədi; o məqamda da bayırda qarmaqarışıq donqultular, deyintilər, mırıltılar eşidirdim, hücrənin qapısını əvvəlcə cırmaqlayır, döyür, taqqıldadırdılar, sonra təpikləməyə başladılar, amma müsahibim olub-keçənlərə fikir vermədi, öz şeirini oxudu; qəfildən də qapı sındı, adamlar içəri doluşub məni qamarladılar, darta-darta aparıb quyuya atdılar, həmin Allah bəndəsinin o quyuya gəlib çatan fəryadını eşitdim; ardınca hər şey qaranlığa gömüldü, quyunun başına yığışanların donqultusu, deyintisi, mırıltısı uzun müddət kəsilmədi.

Səhər əzanına oyananda gördüm, elə geyimli-keçimli həsirin üstündəcə yuxuya getmişəmmiş. Gecəki röyanı xatırlayıb qatır belindəki o zatn axtardığım *Dost* olduğunu qət elədim. Amma o *Dost* kimiydi, hardaydı, Rəbbim bizim qovuşmağımızı niyə bu qədər uzadırdı? Altıncı qapıdan artıq keçmişdim, bir azdan yola çıxacaq, yeddinci qapıya doğru yol başlayacaqdım, deyilən düz idisə, o qapını açmaq qismət olanda *Dost*u görəcək, həm də *O*-na yetişəcəkdim. Subaşına çıxdım, dəstəmaz açıb namaz qıldım, yeddinci qapıya tez yetişməyimi Allahdan sidq-ürəklə istəyib həsirimi də dağarcığıma qoydum, ömrümün üç ilini keçirdiyim hücrəmlə vidalaşıb çıxdım. Buyruqçu artıq Şərafəddin Xocanın sandıqlarını arabaya yığıb rahat yer düzəltmişdi, indi də özünü oturdub yan-yörəsini sahmana salırdı. Siracəddinlə övrəti əllərində bağlama bir-iki addım aralıda

dayanmışdılar, elə bil, bağlamaları arabaya qoymaqdan çəkinirdilər, məni görəndə bir qədər ürəkləndilər. Buyruqçuya dedim, onların bağlamalarını alıb sandıqların üstünə qoydu. Həmin məqamda gözlərim arabaçını axtardı, onun *kölgəm* olub-olmadığına əminlik hasil eləmək istərdim. Yox, o deyildi, amma başqa bir qardaş da ola bilərdi. Hər halda, getdiyimiz yerlərdə o qardaşlardan birinə rast gəlsəydim, təəccüblənməyəcəkdim. Şərafəddin Xocadan izin alıb işarə verdim, kiçik qəfiləmiz yola çıxdı...



YEDDİNCİ MƏQAM

Sivas

QAPIMIZI YOX, QƏLBİMİZİ DÖYƏN BUYURSUN...

Qalx, silkələn, özünə gəl,
umudsuzluğa qapılma;
umudsuzluq şeytandan,
umud eləməksə Allahdandı...





...Qəfiləmizin böyük bir qismi Ərzincan qapısında gözləyirdi: Məlik Mübarizəddinin külfəti, iki oğlu, dəftərdar İzzəddinin külfəti, buyruqçuları, mühafizləri, başqa tanımadığım zatlar vardı. Gözlərim biçarə Əcəm Əliylə Vəhidi axtarırdı, onlar da boyunlarını büküb kənarda dayanmışdılar. Əcəm Əli məni görəndə, deyəsən, kövrəldi, göz yaşlarını gizlətmək üçün üzünü çevirdi. Yaxınlaşıb sözsüz-sovsuz qucaqladım, başını çiynimə qoyub bir müddət eləcə dayandı. Demək istədim, şükrünü kəsmə, istədiyinə çatanda şükr eləmək asandı, diləyin yerinə yetməyəndə şükründən qalma, unutma ki, mıxı mismara döndərən Allah var, bəlkə, Baycu Noyan bu tərəflərə üz çevirməyəcək, dəryayacan gedib Tiflisə, yaxud Muğana qayıdacaq, Şirvana üz tutacaq. Amma demədim, çünki artıq bu cür təsəllinin yeri deyildi, Məlik Mübarizəddin də külfətini şəhərdən çıxarırdısa, deməli, belə sözlərin bir dirhəmlik də dəyəri yoxudu. Məliyin öhdəsində olan on min nəfər, bir də şəhərdə qalanlar döyüşəcək, Allahın möcüzəsinə, Sultan Qiyasəddinin yardımına bel bağlayacaqdılar. Məlik Mübarizəddin Konyaya, ya Qeysəriyyəyə çapar göndərib fəlakətin yaxınlaşdığını xəbər vermişdi, yəqin, sarayda təhlükənin ciddiliyini anlayardılar. Bu məqamda dəftərdar İzzəddin də gəlib çıxdı, dedi, mühafizlər sizi İlicəyəcən ötürüb qayıdacaqlar, indi şəhərdə hər bir silah tutan əl hesabdandı; dedi, Ərzincanda ləngiyər, məndən xəbər

gözləyərsiniz, Sivasa getməli olub-olmayacağınızı burdakı vəziyyət məlum eləyəcək.

Halallaşmaq məqamı başa çatdı, qəfiləmiz gözüyaşlı adamları geridə qoyub Ərzincan yoluna düzəldi. Vəhid bağlamasını mənim işarəmlə arabanın cağına bənd eləyib yanımca yortmağa başladı. Hələ on altı yaşı vardı, getdiyi ən uzaq yer yaylaq idi, mənsə iyirmi ildən artığıydı, yollardaydım, yolların tozunu udmuş, istisini-soyuğunu, bürküsünü, şaxtasını, yağışını-qarını, dumanını-çənini görmüşdüm, yol adamlarının dərvişi, sərgərdanı, oğrusu-əyrisi, xeyirxahı, müdriki, səfehiylə rastlaşmışdım, ağacların altında, çəpərlərin dibində, quyuların başında, oyuqlarda, karvansaraylarda, müsafirxanalarda gecələmişdim, vahimə keçirmiş, gözləmədiyim təhlükələrdən qurtulmuşdum. İndi bildiyim bir həqiqət vardı: işimiz Allaha qalmışdısa, deməli, axırı yaxşı olacaqdı, çünki günahlardan uzaqlaşmaqdan gözəl dua yoxdu; bir də ki, taledən qaçmaq özünüaldatmadan başqa bir şey deyildi, alnına yazılanın səni harda yaxalayacağı ancaq Allaha ayandı. Əlbət ki, bütün bunları Vəhidə söyləmədim, bir əlim arabanın cağında Şərafəddin Xocanın Seyyid Bürhanəddin barədə sorğusuna *(hardansa yadına düşüb onun hələ sağ olub-olmadığını soruşmuşdu)* cavab verdim, dedim, ümidvaram, hələ bu dünyadadı, çünki, axirət evinə köçsəydi, sorağı Ərzuruma da gəlib çatardı. Sonra beynimdən keçirdim ki, belə bir şey olsaydı, Ərzurumdakı qardaşlar, yəqin, xəbər tutab mənə də yetirərdilər, hələlik səs-soraq yoxdusa, deməli, Allahın pənahındadı.

Qardaşlarla bağlı fikir beynimdən keçəndə istər-istəməz dönüb arabaçıya baxdım: ola bilsin, hələ bizdən həya eləyirdi, çıxıb qozlada oturmamışdı, atın yüyənindən yapışıb qabağınca gedirdi. Qırx yaşlarında qaraşın, qıvraq, arğaz adamıydı, hələ səsini belə eşitməmişdim. Onun qardaşlardan olub-olmadığı burda bir özünə, bir də Allaha ayanıydı, yəqin, ehtiyac yaranmadıqca mən də bilməyəcəkdim. Şeyx Övhədəddin Ərbildə ol-

duğumuz vaxtlarda batinilər, Həsən Səbbah, Əlamut fədailəri barədə çox danışmış, sakit, nəzərə çarpmayan, dinib-danışmayan bir Allah bəndəsinin qəfildən qəzəb şimşəyinə çevrildiyini, qarşısına çıxanları yandırıb-yaxdığını, düşməninə ölüm saçdığını çox bəlağətlə söyləmişdi. Əxi Evrənin müridləri də fədakarlıqda heç də batinilərdən geri qalmazdılar. Əlbət ki, düşmən vardısa, həmişə ona qarşı çıxanlar tapılacaqdı. Baycu Noyon düz Diyari-Rumun göbəyinəcən gəlsə belə, heç vaxt rahat yuxu yata bilməyəcək, bu yerləri artıq özlərinə yurd sayan qövmlər onu şirin yuxu yatmağa qoymayacaqdılar. Şübhəsiz, türkmanlarla tatarlar arasındakı başlıca fərq fəth elədikləri torpaqlara münasibətlərindəydi: Oğuz boyları da, türkmanlar da bu yerləri vətənə çevirmək niyyətilə gəlmişdilər, tatarların vətənisə, at beliydi, harda qənimət vardısa, ora üz tutacaq, şübhəsiz, Diyari-Rumda da qalmayacaqdılar. Amma özlərinə yurd salmaq, ocaq yandırmaq, vətən qurmaq sevdasıyla alışıb-yananlar hər cür faciələrin öhdəsindən gəlib niyyətlərini gerçəkləşdirəcəklər.

Dəftərdar İzzəddin demişdi, çalışın, yolda çox ləngiməyin, hava qaralanacan İlicəyə çatın, gecəni orda keçirin. Qəfilənin başçısı Məlik Mübarizəddinin mühafizlərindən biriydi, gün günorta yerinə əyiləndə işarə verdi, çeşmənin yanında dayandıq, Şərafəddin Xocanı arabadan endirib ağacın altında yerini rahatladıq, abdəst alıb namazımızı qıldıq, Siracəddinin zövcəsi dəstərxan açdı, Allahın nemətindən nəyimiz vardısa, ortaya qoydu, dincimizi ala-ala qarnımızı doyurduq. Siracəddin dedi, Ərzuruma gələndə bir gün İlicədə qalıb, yerdən qaynayan, qayalardan süzülən, yay-qış isti olan şəfalı suda çimib, camaatdan da o suyun faydası barədə çox şeylər eşidib. Şərafəddin Xoca Diyari-Rumun sirlərlə dolu olduğunu, hər daşında-qayasında hikmət yaşadığını söylədi. Yadıma Surətimin danışdığı əhvalat düşdü: bir dəfə yolu Ərciyəz dağlarına düşübmüş, qəfildən qabaqlarına xaraba rum şəhəri çıxıb; həm də onu heyrətləndirən tikililərin qalıqları yox, adamların surətləriymiş. Bunu Nəsirəd-

din Xocaya danışanda deyib, rum allahlarının surətləridi, onlar allahlarını daşa köçürməyi sənət sayırlar. Deyirdi, onda gözlərimə inana bilməmişdim: uca dinimiz nəinki Allahın, hətta onun yaratdığı insanın surətini daşa, torpağa, kağıza, ağaca, dəmirə köçürməyi qadağan eləyir. Gizlicə bu əməllə məşğul olanların tapılıb qazilərin fitvasıyla dar ağacından asıldıqları, şaqqalandıqları, gözlərinə mil çəkildiyi, boyunlarının vurulduğu barədə çoxlu hekayət var. Amma məndən ötrü bir məsələ hələ də qaranlığıydı: Allahın rəsmini çəkməyin caiz olmadığını başa düşürəm, bəs, onun yaratdıqlarının surətini çəkmək də Rəbbimizə şərik çıxmaq sayılırdı?

İlicəyə axşam azanına az qalmış çatdıq. Daşlı-qayalı təpələrin ətəyinə sığınmış obaydı. Qəfiləbaşı işarə elədi, dedi, dayanırıq, bu obada cəmi altı hücrəsi olan kiçik müsafirxana var, ora da qocalar, qadınlar, uşaqlar yerləşdiriləcək, qalan hər kəs öz başına çarə qılsın. Allah üzümüzə baxmışdı, hələ yay idi, üstəlik, iyirmi ildən artıqdı yollarda olduğumdan, məndən ötrü ağac altıyla müsafirxana hücrəsinin fərqi yoxudu. Amma fikrim günorta Siracəddinin söylədiyi isti su çeşmələrinin yanındaydı, beynimdən keçənləri oxuyan kimi, dedi, qəfiləbaşı bir günlük dincəlməyə izin verib, o çeşmələrə sabah baş çəkərik. Axşam namazından, qarnımızı Allah verənlə bərkidəndən sonra Şərafəddin Xocanı müsafirxananın bir hücrəsində rahatlayıb arabaçıya tapşırdıq, sonra yaxınlıqda kürəyimizi qayaya söykəyib dincimizi aldıq. Fikirləşdim, mənim halım məşuqunun qovduğu aşiqin halından fərqlənmir: aşiq məşuqun qapısını döyür, məşuq içəridən səslənib kim olduğunu soruşur; aşiq özünü nişan verir, məşuq deyir, çıx get, içəri girmə məqamın hələ yetişməyib, belə bir mənəvi nemətlər süfrəsində xam adamın nə işi var, xam adamı fəraq atəşindən başqa heç nə bişirə bilməz; zavallı aşiq qapıdan dönür, yollara düşür, məşuqunun ayrılığından alışıb-yanır. Mən iyirmi il əvvəl xamıydım, amma artıq bişib yetişmiş, altı qapıdan keçmişdim, yeddinci qapıdan keçəndə də

tam yetkin olacaqdım. Şeyx Övhədəddin deyirdi, dünyanın işləri üçün yanıb-yaxılma, Allahın məqamını gözlə, bir şey qismətində varsa, Allah vaxtında qarşına çıxaracaq, yoxdusa, illərlə Məqriblə Məşriq arasında dolaşsan da, yetişə bilməyəcəksən. Onda da elə səhəri gün Xəlifə Nasirdən çapar gəlib şeyxi Bağdada çağırdığını söyləmişdi. Şeyxin dediyinə görə, o dəvəti illərlə gözləyibmiş, deməli, qismətində varmış.

Axşam yolun yorğunluğundanmı, fikir-xəyaldanmı, yuxuya nə vaxt getdiyimi hiss eləməmişdim, oyananda gördüm, namaz vaxtına az qalır. Namazdan, yeməkdən sonra Siracəddin dedi, burdan o tərəfdəki Aşxanaya azı, bir günlük yolumuz var, bugünümüzü istisu çeşmələrində keçirmək bizə güc-qüvvət verər. Şübhəsiz, Şərafəddin Xocanı da aparmaq istərdim, amma artıq o yaşda deyildi, bizim də onu belimizdə aparmağa gücümüz yoxudu, bu səbəbdən, Siracəddinin külfətini Şərafəddin Xocaya, Şərafəddin Xocanı da arabaçıya tapşırıb özümüzlə ancaq Vəlidi götürdük, "ya Allah" deyib yuxarılara qalxdıq. Yerdən qaynayan, qayalardan çıxan isti su gölməçələr yaratmışdı, o gölməçələrdən buxar qalxırdı, bəzilərini də kimlərsə təmizləmiş, yan-yörəsini bir qədər abıra salmışdı. Dərgahda yaşayanda əlimə təbabət kitabları keçdiyindən, bu cür suların faydalı, yoxsa faydasız olduğunu bilirdim. Bəzzdə, Ərdəbildə də qoturluğu, keçəlliyi, qızdırmanı, Səlmasda qoturluğu, həm də cüzamı müalicə eləyən isti bulaqlar vardı. Bir dəfə validim oynaqlarındakı ağrı üzündən Zəravənd bulağına getmişdi, deyirdi, üstü örtülmüş, yaxud bitişmiş yarası olan adamı da, heyvanı da həmin bulağın suyuna salırlar, altında zəifləmiş sümüklər, gizlənmiş şüşə qırıqları, dərinə batmış tikan olan yaraların ağzı açılır, içindən irin, çirk axmağa başlayır, sonra təmizlənmiş yaralar tezliklə sağalır; zəif görən adam gözlərini o bulağın suyuyla isladanda yaxşı görür, lilini iyləyən adamın gözlərisə qar korluğundan qurtulur.

Bir dəfə də məni Təbrizin yaxınlığında kükürd hamamlarına aparmışdı, orda rastlaşdığımız fəqih o hamamların suyunun

heyrətamiz faydalı xassələrindən danışmış, üstəlik, yaxın kəndlərdən birindəki bulaqdan soraq vermişdi: o bulağın suyunda bir şey bişirib həlimini içənlər mədələrindəki rahatsızlıqdan qurtulurmuş. Bunları Siracəddinlə Vəlidə danışa-danışa həya eləmədən üst paltarımı soyunub buxarlı gölməçəyə girdim. Siracəddin də izin-filan gözləmədi, Vəhidsə ani tərəddüddən sonra bizə qoşuldu. İsti su asta-asta canıma hopur, illərin yorğunluğunu çıxarır, artıq kövrəlməyə üz qoyan sümüklərimi bərkidir, oynaqlarımın sızıltısını, ayaqlarımın göynərtisini dindirirdi. Asta-asta, həm də arasıkəsilmədən dərinə, həddən artıq cəlbedici, qarşısıalınmaz aləmə dalırdım. O məqamda da fikirləşirdim, yəqin, Şeyx Övhədəddinin danışdığı, Əlamutda qurulmuş cənnət də bu cür yermiş, ora düşənlər, beləcə, aləmdən aralanır, yalnız xoş duyğuların mövcud olduğu məkana düşürlərmiş.

Aşxanaya yağışlı gündə yetişdik. Kaftanımı soyunub Şərafəddin Xocanın üstünə salmışdım ki, çox islanıb üşütməsin. Müsafirxanaya yetişən kimi, əvvəlcə onun yerinin rahatlanması üçün çalışdım. Allaha şükür, hələ yay yağışı yağırdı, Xocanın canına da su keçməmişdi, ocaq hənirlənənədək bir qab isti şorba içdi, halı xeyli yaxşılaşdı. Amma uzaq səfərlərə, əziyyətə hələ alışmamış Vəhid ayaqlarının sızıltısından, yorğunluqdan şikayətlənirdi – bunları Siracəddinə söyləyəndə eşitdim. Arada ürək-dirək vermək məqsədiylə söhbəti hərlədib-fırladıb onun üstünə gətirdim, dedim, bir hindli usta şəyirdinin elə hey hər şeydən şikayətlənməsindən bezibmiş, bu səbəbdən, ona dərs vermək üçün duz almağa göndərir; şəyird yenə deyinə-deyinə gedib ustanın buyurduğunu yerinə yetirir, usta da bir ovuc duzu piyaləyə töküb deyir, iç; şəyird suyu içib, yerə tüpürməyə başlayır, usta suyun dadı barədə soruşur, şəyird acıqla duzlu olduğunu deyir; usta gülümsəyir, şəyirdin qolundan tutub bayıra çıxarır, bir az aralıdakı gölün qırağına aparır, gölə bir ovuc duz atıb deyir, iç, şəyird də çökür, ağzını dayayıb sudan xeyli içir, dikələndə usta suyun necə olduğunu soruşur, oğlan çox gözəl

olduğunu, adamın yanğısını söndürdüyünü söyləyir; usta duzun dadını hiss eləyib-eləmədiyini soruşur, şəyird deyir, yox, ancaq suyun dadını hiss elədim; onda usta deyir, oğlum, həyatda kədər də, dərd də, nə az, nə çox, elə duz qədərdi, dərdin olanda o dərdi verənlə bağlı hisslərini artırmalısan, ona görə də dərdinin öhdəsindən gəlməyə çalışanda piyalə kimi yox, göl kimi olmağa çalış. Vəhid, deyəsən, nəyə işarə vurduğumu başa düşdü, günahkar-günahkar susub bir daha şikayət eləmədi.

Müsafirxana İlicədəkindən xeyli böyük olsa da, hamı yerləşmədi. Siracəddin övrətini qadınlara ayrılan hücrəyə göndərdi, arabaçı da aramızda olmaqla dörd nəfər Şərafəddin Xocanın hücrəsində kürəyimizi divara söykəyib yatmalı olduq. Biçarə Vəhidə qarşı, görünür, insafsızlıq eləmişdim, hələ bərkə-boşa düşməmiş oğlan, həqiqətən, çox yorulubmuş, başı asta-asta divardan sürüşüb dizimin üstünə düşdü. O məqamda da Ayın pəncərədən süzülən ziyası simasını nurlandırmışdı, binəva bu halında elə gözəliydi ki, ürəyim atdandı. Şeyx Övhədəddinin səma gecələrinə hədsiz həvəsini, şahidbaziliyini heç vaxt bəyənməmişdim, aramızdakı ancaq özümüzə məlum olan pərdə də bu səbəbdən yaranmışdı, amma o duyğusunda şəhvanilik olmadığı Xəlifə Müstənsirin oğlu səma gecələrinə gələndən sonra üzə çıxmışdı, oğlan da söylənənləri eşidib, söz veribmiş, səma məqamında Şeyx ona toxunsa, öldürəcək. Amma hər şey tərsinə olur, Xəlifə oğlu Şeyx Övhədəddində ahənrübasayaq kəramətlər görür, o gündən də sadiq müridinə çevrilir. Şam vaqeəsindən sonra üstümdə haqqı-sayı olan şeyxdən mənə də bir damcı şahidbazilik keçib-keçmədiyi barədə çox düşünmüşdüm. Amma yox, mənim *Dost eşqim* ruhani sevgiydi, *O*-na *Dost*umun könlündən keçib getməliydim. İndi də başını dizimin üstünə qoyub uyumuş məsum, həm də gözəl Vəhid məndən ötrü hələ həyatdan bixəbər olan, yaşamağın hansı məşəqqətlərdən keçdiyini bilməyən zavallı məxluq idi.

Qəfiləmiz Tərcana çatanda Ərzurumdan çapar gəlib dəftərdardan xəbər gətirdi ki, Ərzincanda dayanıb xəbər gözləyək, hələ təhlükə sovuşmasa da, Baycu Noyonın hara üz tutacağı bəlli deyil. Əlbəttə, Ərzurumun üzərinə gəlməsəydi, yaxşı olardı, amma artıq ox yaydan çıxmışdı, hansısa hədəfə dəyməli, Ərzurum olmasa da, Bağdad, Amid, Qeysəriyyə, Malatya, Konya, yaxud Hələb, ya da Şam yağmalanmalıydı. O yerlərdə də tanıdığım-tanımadığım, amma yaşamağa haqqı olan adamlar vardı. Allah Baycu Noyon kimilərin nahaq qan axıtmalarına niyə izin verirdi, nədən belələrini öz qırmancı kimi binəsib qövmlərin üzərinə göndərirdi. Bir il qabaq sultanın türkmanlara tutduğu divanın yarası hələ də qəlbimdə qövr eləyirdi. Onda Qiyasəddin özlərinə yurd tapmaq istəyən türkmanlarla qismətlərinə tatarlardan qaçmaq düşmüş xarəzmlilərin özgə yurdlarına göz dikmiş əyyubilərlə toqquşmasında ikincilərin yanında oldu, Malatya subaşısı Tərcüman Zahirəddin Mənsuru qoşunuyla köməyə göndərib savaşın taleyini həll elədi, Hərranı o binəsiblərdən təmizləyib əyyubi Bədrəddin Luluya verdi. Bu xəbəri Şərafəddin Xocanın Konyadan gələn qonağı gətirmişdi, indiyəcən də Türküstandan, Xorasandan tərpənib gələn, özlərinə yurd axtaran qövmlərin ağrısını içimdə keçirirdim. Ərzurum, Ərzincan, Sivas yörələrinə səpələnmiş Oğuz boylarının halı necə olacaqdı, sultanın, Bizans təkfurlarının, üstəlik, Baycu Noyonun basqınlarına tab gətirə biləcəkdilərmi – bu, hələ ancaq Allaha ayan idi.

Tərcanda mühafizbaşının lütfüylə iki gün qalıb yolun yorğunluğunu canımızdan çıxardıq. Birinci gün günorta namazından sonra Şərafəddin Xocanı Siracəddinlə övrətinə tapşırıb Vəlidlə o yöräni gəzməyə çıxdım. Əvvəlcə yolumu camedən saldım, Ərzincanda mədrəsə bitirmiş cavan molla ismimi eşidəndə əl-ayağa düşdü: sən demə, ad-sanım buralara da gəlib yetişib, mədrəsədə oxuyanda müdərrisi Mühyiddin əl-Ərəbiylə vəhdəti-vücud məsələsində mübahisələrimizdən söz açıbmış. Xoşsima cavanla söhbətimizi gəzintidə də davam etdirdik, kiçik

bir məkanda yerləşən, Mama Xatunun adıyla bağlı olan karvansarayı, hamamı, türbəni gördüm. Molla dedi, Saltukların vaxtında Tarcanın hökmdarı Mama Xatun ağlı, zəkası, gözəlliyiylə ad çıxarıbmış, Şam hakimi Məlik Adil dəfələrlə ona izdivac təklif eləyib, amma razı olmayıb, axırda da Tərcan hakimliyindən də əl çəkib, ömrünü inzivada keçirib, var-dövlətini bütün bunları tikdirməyə sərf eləyib. Türbənin üstündəki kitabəni oxudum, əhlətli Əbülnüma bin Müfəddəl-ül-Əhvalın tikdiyi yazılmışdı. Bu tikililər Baycu Noyon kimilərin basqınları zamanı dağıdılmasa, neçə yüzillər sonra da adamlara Mama Xatun barədə hekayəti nağıl eləyəcəkdi. Molla da, elə bil, beynimdən keçənləri oxumuşdu, dedi, şeyxim, bu tikililərə baxanda insanoğlunun fani, amma əməllərinin əbədi olduğunu xatırlayıram: Mama Xatun da, memar Əbülnüma da artıq axirətdədilər, amma əməlləri o cənnətməkanları yadımıza salır. Dedim, həyatda yetə biləcəyiniz ən gözəl şey duada anılmaqdı, çünki insan dünyanı axirətə aparmayacağına görə, elə yaşamalıdı ki, dünya onu axirətə aparsın.

Xoşsima cavanın mənə *"şeyxim"* deməsi, axşam, Mama Xatunun tikdirdiyi karvansarayda ruhuna dua oxuya-oxuya dincələndə yadıma düşdü. Sinnim altmışa yaxınlaşırdı, bu qədər mədrəsələr, dərgahlar, şeyxlər görmüş, o şeyxlərdən özümə lazım olanı əxz eləmiş, amma heç birinə bağlanmamış, özümü onların müridi saymamış, məqamın yox, könlün mərtəbəsinə ucalmağa çalışmışdım. Yəqin, bundan sonra da yolum düşən yerlərdə böyük şeyxlərlə qarşılaşacaqdım. Artıq müridlik yaşım çoxdan ötmüşdü, mürşidlik mərtəbəsindəydim, amma kimsəni də özümə mürid eləməyə zərrə qədər belə, niyyətim yoxudu. Mən *İlahi Eşq yolçusu*ydum, *O*-na çatmaq üçün *Dost*a ehtiyacım vardı, o *Dost*u da tapıb durula-durula, aydınlana-aydınlana, bütünləşə-bütünləşə *O*-na yetməliydim, çünki *Aşiq* – Allahdan aldığı *Eşq əmanəti*ni Allaha yetirəndi, onun məzhəbində hər şey *Uca Eşq*ə qurbandı. Məni məna aləminin sərrafı sayan, intiza-

rımı çəkən, fəraqdan alışıb-yanan, *O*-na yetməkdə vasitəçi olan *Dost* indi hardaydı? *"Məni axtar, tap"* demişdisə *(düzdü, hələ də o kəlmələrin qeybdən gəldiyini, yoxsa qarşımı kəsib əlimdən yapışmış Allah bəndəsinin ağzından çıxdığını dürüstləşdirə bilməmişdim),* deməli, hardasa yolumu gözləyir, amma hardan, nə vaxt peyda olacağımı bilmir. Bəlkə, elə indi eynilə mənim kimi, gözlərini pəncərədən süzülən Ay işığına dikib gözlədiyi kəslə fikrən danışır, ya da evinin həyətində dinclik tapmadan vurnuxur, tez-tez qapıya baxıb bir kimsənin gəlib-gəlmədiyini yoxlayır, hətta nagəhan ayaq səsləri eşidir, tanış nəfəs duyur, məhrəm əlin təmasını hiss eləyir, amma sonra bütün bunların xəyal olduğunu anlayıb səssiz fəryad qoparır; bəlkə, qəfildən çıxıb şəhərin küçələrini dolaşır, hər tinə, hər ağac altına, hər hasar dibinə baxır, ümidinin suya düşdüyünü dərk eləyəndə kor-peşman geri qayıdır.

Tərcandakı dayanacağımızın ikinci gününü, demək olar, Şərafəddin Xocaya sərf elədim. Nədənsə halı dəyişmişdi, elə bilirdi, onu atıb gedəcək, bir daha qayıtmayacağam. Səhər namazından sonra hücrəsinə baş çəkəndə əlimdən yapışıb yanında oturtdu, həyat, ölüm, axirət, alın yazısı, qədər barədə uzun-uzadı danışdı, mürşidini, dərs aldığı şeyxləri, Haqqa qovuşan övrətini, uzaqlarda olan övladlarını xatırladı, bütün dediklərindən də vəsiyyətə oxşar bir şey quraşdırmağa çalışdığını hiss elədim, əslində isə vəsiyyət eləməli bir şeyi olmadığını duyub titrədim, biçarə qocaya yazığım gəldi: olan-qalanı pal-paltarını, kitablarını yığdığı iki sandığıydı, bir də barmağında qiymətli üzük vardı, dediyinə görə, Atabəy Şəmsəddinin bağışladığı o üzük validindən yadigar qalmışdı. Belə başa düşdüm, başına bir iş gəlsə, paltarını ehtiyacı olana, kitablarını mədrəsələrdən birinə verməli, üzüyü özüm götürməli, Allah məsləhət bilib tərəmələrindən kimisə tapsam, ona verməli, tapmasam, ürək qızdırdığım kəsə etibar eləməliyəm. Bu halında ürək-dirək versəm, sabahla bağlı boğazdanyuxarı sözlər söyləsəm, riyakarlığa yol verər-

dim, ona görə də dediklərini yerinə yetirəcəyimə söz verdim. Yeganə istəyim Allahın ona Ərzincanadək möhlət verməsiydi, sonra özü bilən məsləhətiydi, vədəsi çatmışdısa, dərgahına apara bilərdi. Şərafəddin Xocanın qeydsiz-şərtsiz cənnətə düşəcəyinə inanırdım, çünki bütün ömrünü abırla yaşamış, kimsəni haqqını tapdamamış, ən qəvi düşmənlərinin arxasınca artıq-əskik danışmağı belə özünə rəva görməmişdi, əməllərilə Allahın qarşısında alnıaçıq, üzüağıydı. O məqamda əmindim ki, Rəbbim Şərafəddin Xocanın fəzilətlərini nəzərə alıb Ərzincanadək ömür möhləti verəcək...

***

...Şərafəddin Xoca Quzucanda huşunu itirdi, heç arabadan endirməyi də məsləhət bilmədik. Gözləri yumulu olsa da, hələ canı üstündəydi, soğulub balacalaşmış sifətində dünyadan narazılıq-filan duyulmurdu. Ərzincana girəndə, bu yörəni yaxşı tanıyan mühafizbaşının buyruğuyla yerləşəcəyimiz karvansaraya üz tutanda da canı üstündəydi. Məngücüklərin Mama Xatunu Ərzincanın da qeydinə qalıbmış, ondan nişanə olan karvansaray, came, hamam, bir də iman sahibinin türbəsi bütöv külliyyəydi. Ərzuruma gedəndə burda gecələmiş Siracəddinin dediyinə görə, Böyük Sultan Əlaəddin bu məmləkəti son məngücüklü hökmdarı Fəxrəddin Bəhramşahın əlindən alandan sonra külliyyəni təmir etdirib, sahmana saldırmışdı. Karvansarayın sarımtıl əhəng daşından tikilmiş onaltıqülləli binasının gündoğan səmtində sivri kəmərli tac qapısı vardı. Tac qapının hər iki tərəfində də böyüklü-kiçikli hücrələr sıralanmışdı. Ortadakı üstüaçıq həyətdə kiçik hovuz, saxsı boruyla suyu dağlardan gələn çeşmə düzəldilmişdi. Gündoğan-quzey səmtində heyvanlar üçün axurlar, mehtərlər, arabaçılar, buyruqçuların qaldıqları hücrələr vardı. Mühafizbaşının dediyinə görə, dəftərdardan çapar gələnəcən burda qalacaq, Allahın izniylə ya Ərzuruma qayıdacaq, ya da Sivasa gedəcəkdik. Siracəddin övrətinin hayına qalmış, Vəhid

də çaşmışdı, onlara bir söz demədim, Şərafəddin Xocanı arabaçının, bir də karvansaray buyruqçusunun yardımıyla endirib hücrəsinə apardıq.

Arabaçını da Şərafəddin Xocanın hücrəsində yerləşdirdim: nə qədər ki, canı üstündəydi, ona həyan lazımıydı, Əcəm Əlinin əmanətini – Vəhidisə öz hücrəmə apardım. Mühafizbaşı gecəni burda keçirəcək, səhər adamlarıyla Ərzuruma yollanacaqdı – Məlik Mübarizəddinin əmri beləydi. Şərafəddin Xocanın yerini rahatlayandan sonra çeşmədə yuyunub hücrəmə qayıdanda Vəhidi elə pal-paltarlıca yatmış gördüm. Yolda danışdığım rəvayətdən sonra şikayətlənməsə də, hələ dünyanın bərkinə-boşuna düşməmiş tifil yorulmuşdu. İndi yadıma düşdü ki, bu sinnimdə ilk dəfədi, hücrəmə başqa bir Allah bəndəsini buraxıram. Bu dəfə qapını bağlamadım, həsirimi dağarcığımdan çıxarıb yerə saldım, oturub kürəyimi divara söykədim. Fikirləşdim, Allah üzümüzə baxıb Baycu Noyon başqa səmtə üz tutsaydı, Ərzuruma qayıtmalı olsaydıq, geri dönərdim, ya yox? Özümə də cavab verdim: dönməzdim, mən Rəbbimin əmrindəydim, Onun buyruğuyla yeddinci qapıya doğru gedirdim; o yeddinci qapı da, çox güman, Ərzincanda açılmayacaqdı, çünki, burda yolüstü dayanmışdıq, bəlkə, elə sabah, ya da üç-beş gündən sonra Ərzurumdan çapar gələcək, yola düzəlməyimiz barədə buyruq gətirəcəkdi. Qəfiləmiz Ərzuruma qayıtmalı olsaydı, Vəhidi gedənlərdən birinə tapşırıb Sivasa, Malatyaya, ya da Konyaya üz tutar, Rəbbimin yeddinci qapıyla bağlı təlqinini gözləyirdim. Bu sinnimdə, uzun-uzun yollan keçəndən sonra D*ost*a və *O*-na gedən yoldan dönmək mənə yaraşmazdı.

Mən də beləcə yuxuya getmişəmmiş, hücrənin qapısı döyüləndə durub açdım. Arabaçıydı, dedi, Şərafəddin Xoca çağırır. Hələ axşam namazının vaxtı deyildi, getdim ki, gözləri açıq, huşu yerindədi, yatağının içində kürəyini divara söykəyib oturub, simasında Allahın möcüzəli nuru var. Salavat çevirdiyimi görəndə gülümsədi, gəl, dedi, ey Şəms, otur, bəlkə, bir

daha söhbət eləmək mənə qismət olmayacaq. Sonra sağ əlini açdı, barmağındakı üzüyü ovcunda gördüm, dedi, mərhəmətli Rəbbim son sözlərimi söyləməyə izin verib, bu fürsəti ötürmək istəmirəm, sənə məsləhət bildiklərimi demişəm; dedi, Urmiyədə doğuldum, Bağdadda, Şamda, Konyada, Ərzurumda yaşadım, Ərzincanda canımı Allaha tapşırır, beş arşın ağdan başqa da bir şey aparmıram; dedi, mənə qismət olmadı, Yaradandan təmənnam budu ki, sənin yolun Təbrizə düşə, gözlərini yummamış yurdunu görə, havasını sinənə çəkəsən; dedi, istəyimə əməl eləsən, bəlkə də bu üzük məni bu dünyada xatırladan yeganə əşya olacaq; dedi, huşa gedəndə Allahın mələyini gördüm, əliəl üstdə dayanıb ömür möhlətimin nə vaxt bitəcəyini gözləyir ki, məni götürüb axirətə, ruhumusa Allahın dərgahına aparsın; dedi, yaşadığım ömürlə bir parça torpağı haqq eləmişəmsə, bundan böyük qazancım yoxdu, amma səndən son bir təmənnam var: yuyulub kəfənlənməmiş qulağıma üç kəlmə söz de: *"Gəldi, yaşadı, getdi",* onda narahat ruhum, az da olsa, təskinlik tapacaq. Sonra simasının nuru get-gedə azalmağa başladı, gülümsəyib başını tərpətdi, elə bil, bütün aləmlə vidalaşdı, qəfildən içini çəkib azca dartındı və... sakitləşdi.

Əvvəlcə Fatihə oxudum, sonra arabaçını mühafizbaşının yanına göndərib xəbəri çatdırmasını tapşırdım. Əlbəttə, bu gün artıq geciydi, bir azdan axşam azanı veriləcəkdi, yay gününün ömrü uzun olsa da, şəri zərurətimizi yerinə yetirənəcən qaranlıq qarışacaqdı. Bu gecəni rəhmətlə yola verib səhər tezdən mərhumun nəşini məscidə aparacaq, yudurdub, kəfənlədib, namazını qıldırıb qismətinə düşən bir parça torpağa tapşıracaqdıq. Bu vaxt yanımda kiminsə içini çəkdiyini eşidib döndüm: binəva Siracəddiniydi, Şeyx Əsədəddindən sonra mehrini Şərafəddin Xocaya salmış, aramıza daim məsafə qoymağım onları daha da yaxınlaşdırmışdı. Gecəni Şərafəddin Xocanın yatağı yanında keçirmək istəyirdi, qoymadım, dedim, sən övrətinin yanında ol, mən burdayam. Hələ ki, qardaşlardan olub-olmadığını çözə bil-

mədiyim arabaçını Vəhidin yanına göndərib Şərafəddin Xocanın nəşiylə tək qaldım. Əvvəlcə onun son istəyi olan o üç kəlmə söz barədə düşündüm, sonra fikirləşdim, yəqin, artıq yükünü mənzilbaşına çatdıran arabaçı da mühafizlərlə Ərzuruma qayıdacaq – dəftərdarın buyruğu beləydi, – yolumuza davam eləməli olsaydıq, Şərafəddin Xocanı Sivasacan aparacaqdı. Sonra məni əcəlin harda – Ərzincanda, Sivasda, Malatyada, Niğdədə, Ağsarayda, Konyada... – yaxalayacağı barədə düşündüm: beləcə, Şərafəddin Xoca kimi, son sözlərimi bir Allah bəndəsinə söyləyib bu aləmlə vidalaşacaqdım. Amma özümdən nişanə çatdırmağı arzuladığım kimsəm də yoxudu, yalnız hafizələrdə qalanlar ağızdan-ağıza keçəcək, az qismi də olsa, yaşayacaqdı. Lap elə Siracəddin, ya da tifil Vəhid barəmdə bildiklərini danışacaqdılar, onların tələbələri də öz tələbələrinə nağıl eləyəcəkdilər, beləcə, tamam unudulanacan yaddaşlarda yaşayacaqdım.

Səhəri gün Mama Xatun məscidinin mollasıyla Şərafəddin Xocanı urvatlayıb torpağa tapşıranda payızın ilk yağışı yağdı, içimdəki ağırlığı yuyub aparmaq əvəzinə bir qədər də ağırlaşdırdı. Qəbirstandan qayıdandan sonra hücrədən çıxmadım, nəzərlərimi Şərafəddin Xocanın boş qalmış yerindən çəkmədən beynimin künc-bucağını əriş-arğac elədim, o məqamda da yadıma mərhumun üzüyü düşdü. Üzüyü dəsmala büküb qoynuma qoymuşdum, çıxarıb bir də diqqətlə baxdım, bir vaxtlar qılıncının qabağı da, dalı da kəsən Atabəy Şəmsəddinin yadigarıyla Ərzincandakı karvansarayın hücrəsində tapışmaq məndən ötrü Allahın lütflərindən biriydi, bəlkə də Şərafəddin Xocaya verdiyim söz nə vaxtsa məni Təbrizə dönməyə təhrik eləyəcəkdi. İndiyəcən üzük taxmamışdım, amma indi itməsin deyə, Xocanın yadigarını barmağıma keçirib xeyli tamaşa elədim, həmin məqamda da kitablarını elə Mama Xatun məscidinin mədrəsəsinə, sovxasını da mollanın əliylə ehtiyacı olanlara vermək qərarına gəldim. Sonra sandığı açdım, kitabları bir-bir nəzərdən keçirdim: nücüm, təbabət, fiqhlə bağlıydı, Şərafəddin Xoca

Bağdad, Şam, Konya kitabçılarından almışdı, ya da kimlərsə bağışlamışdı. Bəzilərinin ilk vərəqində xocanın əl yazısı vardı, bəzisi dönə-dönə oxunduğundan, vərəqləri sürtülmüşdü. Güman ki, Şərafəddin Xoca tənha gecələrini bu kitablarla keçirmiş, başqalarının düşüncələrini oxuya-oxuya ömrünü şam kimi əritmişdi. Yadıma düşdü ki, axırıncı dəfə iyirmi il qabaq, Bağdadda Şeyx Şəhabəddinin kitabını oxumuşam, sonra düşüncələri ətrafında toqquşmalı söhbətimiz olmuşdu, ona, bəlkə, elə bu səbəbdən bağlana bilməmiş, əl-Ərəbinin hücrəsində üst-üstə qalanan kitabları görəndə də şeyxlə ünsiyyətimizin çətin keçəcəyini düşünmüşdüm, elə ağlıma gələn kimi də olmuşdu.

Yağış səhəri gün də ara vermədi, bu səbəbdən, başımızı bayıra çıxara bilmədik. Qıfılımı qapıdan asdım, açarla bağlayıb öyrəşdiyim həyata qayıtdım: belbağı hörə-hörə yaddaşımı əriş-arğac elədim. Arabir Siracəddin, ya da Vəhid gəlir, qapını döyür, səs çıxarmadığımı görüb yatdığımı güman eləyir, öz hücrələrinə qayıdırdılar. Qapını ancaq günorta, buyruqçu bir qab şorba gətirəndə açdım, axşam da yeməyə heç həvəsim olmadı. Sonra mühafizbaşı gəldi, dedi, buyruq quluyuq, qəfiləni Ərzincana sağ-salamat çatdırdıq, Şərafəddin Xocanın məkanı cənnət olsun, şübhəsiz, Məlik Həzrətləri də, möhtərəm dəftərdar da onun Haqqa qovuşduğunu eşidib kədərlənəcəklər, neynəyəsən, dünyanın işi belədi; sonra dedi, yağış kəsməsə də, erkəndən yola çıxmalıyıq, buyruq bu cürdü, arabanı da, arabaçını da aparırıq, Ərzurumdan xəbər gələnəcən karvansaraydan tərpənməyin; dedi, dua eləyək ki, Ərzuruma dönməklə bağlı xəbər eşidəsiniz, ancaq şər deməsən, xeyir gəlməz, xoşagəlməz xəbər alsanız, ləngimədən qəfiləylə Sivasa doğru yola çıxın. Hər halda, mən daha Ərzuruma qayıtmayacaqdım, ancaq bunu mühafizbaşıya demədim. Bir neçə yüz nəfərlik qəfilədə bircə mühafiz qalırdı, onunla əl-ələ verib köçkünlərin qeydinə qalmalıydıq. Allah üzümüzə baxıb qəfilə Ərzuruma qayıtmalı

olsaydı, mən halallaşıb ayrılacaq, dağarcığımı çiynimə keçirib yolun ağına düşəcəkdim. Yəqin, hansı məqamdasa İlahi tələqin Sivasa, yoxsa başqa səmtə gedəcəyimi söyləyəcəkdi. Fikrimcə, Şərafəddin Xocanın ölümündən sonra Siracəddin də Ərzuruma qayıtmağa meyilli olamyacaqdı...

Payızın boz, yağışlı, intizarla dolu günləri, elə bil, qəsdimizə durmuşdu, hey uzandıqca uzanırdı. Fikir-xəyaldan rəngi saralan biçarə Vəhidə tez-tez karvansaraya gəlib-gedəndən xəbər tutmağı, Ərzurum əhlindən bura üz tutan olub-olmadığını öyrənməyi tapşırmışdım, amma hələ ki, gündoğandan səhih bir şey öyrənə bilməmişdik. Siracəddin övrətinin göz yaşını kəsə bilmir, biçarə gəlin bütün günü geridə qalan doğmalarını yadına salıb ağlayırdı. Günün çox hissəsini hücrəmdə oturub kürəyimi divara söykəyir, olanları-olacaqları çək-çevir eləyir, arabir həyətdə vurnuxur, ya da karvansaraydan çıxıb gözlərimi gündoğana zilləyirdim. Arabir Siracəddin gəlirdi, sıxıntı içində oturub susurduq, hərdən kimsə bir kəlmə söz deyirdi, ardınca yenə ortalığa ağır sükut çökürdü. Tək olanda Baycu Noyonun Diyari-Ruma üz tutması barədə xəbəri alan vaxt Sultan Qiyasəddinin nə halət keçirdiyi barədə düşünürdüm. Dəftərdar İzzəddinin söylədiyinə görə, Sadəddin Köpəyi aradan götürəndən sonra Sahib Şəmsəddin sarayın, az qala, birinci şəxsi olmuşdu, əmirül-ümərа qismindəydi; bir də Gürcü Xatunun dəli-divanəsi olan sultanın başına eyş-işrəti, şərabı, qadınları sevən tay-tuşları yığışmışdı, hüzuruna ancaq Nizaməddin Söhrabın iznini alandan sonra düşmək olurdu, məsləhət yeri də Seyyid Bürhanəddinin müridi Molla Cəlaləddinlə əl-Ərəbinin ögey oğlu Sədrəddin Konəviydi, çətinə düşəndə onlara üz tuturdu; dediyinə görə, xəbəri almışdısa, sultan, yəqin, artıq taxt-tacını təhdid eləyən düşməniylə üz-üzə gəlməyə hazırlaşırdı, üstəlik, cavan, təkəbbürlü, şöhrət düşgünüydü, güman ki, düşmənini o qədər də saya almırdı, bircə zərbədə çökdürəcəyinə əminiydi, amma Baycu

Noyon da xırsda, təkəbbürdə ondan geri qalmır, üstəlik, cəsarəti, acgözlüyü, zalımlığı dillərdə söylənirdi.

Hərdən, hava aman verəndə özümü şəhərin küçələrinə atır, çarşı-bazara, meydanlara, meyxanalara, dükanlara baş çəkir, itiyini axtaran kimi vurnuxur, ancaq namaz vaxtı çatanda geri qayıdırdım. Yaxınlaşan fəlakətdən hələ xəbərləri olmayan camaat öz işindəydi, alıb-satır, ora-bura qaçır, ruzisini qazanmaq üçün dəridən-qabıqdan çıxırdı. Belə günlərin birində, meyxanada şərbət içdiyim məqamda kürəyimə sancılan baxışları İlahi təlqinlə duydum, canıma vic-vicə düşdü. Dönüb baxanda tanış kimsə görmədim, o səmtdə cəmi-cümlətanı iki şəxs – təhər-töhüründən rumluya oxşayan, şərab içən gavur, bir də dərviş görkəmli, mənim kimi şərbət içən qərib vardı. Qərib ona sarı çöndüyümü görəndə sifətini başlığının içinə çəkdi, heç üzümə də baxmadan ovcundakı pulu masanın üstünə atdı, durub meyxanadan çıxdı. Yəqin, bir müddət düşünə-düşünə qalmışammış, çünki mən bayıra çıxanda dərvişin izi-tozu da görünmürdü. Dərhal yadıma Hələbdə, Qeysəriyyədə *kölgəm*ə çevrilmiş, Ərzurumda rastıma çıxan adamlar, Surətimin söylədikləri düşdü. Bəs, bu qardaşlar ayrı-ayrı şəhərlərdə bir-birlərini necə tapır, xəbərləri hansı yollarla çatdırırdılar? Bu məqamda da susqun, altdan-altdan hər şeyə göz qoyan, elə dinməzcə də mühafizbaşıyla Ərzuruma qayıdan arabaçını xatırladım. Kim bilir, bəlkə, özlərinə xas əlamətlər, yollarla tapışıb görüşmüş, arabaçı kimdənsə aldığı buyruğu ona yetirmişdi, o buyruqsa, şübhəsiz, Qeysəriyyədən, Surətimdən gəlmişdi. Belə çıxırdı, o *kölgə* Ərzincanda da yan-yörəmdə olacaq, sabah Sivasa, Malatyaya, Ağsaraya, Konyaya... getsəm, arxamca düşəcəkdi. Şübhəsiz, ancaq karvansaraydan çıxanda sezdiyim *kölgə* Ərzurumdan gələnlərdən deyildi, üstəlik, bu şəhərə yaxşı bələdiydi.

Sıxıntı, səksəkələrlə keçən ikinci həftənin ortasında Vəhid Ərzurumdan qəfilə gəldiyini xəbər verdi, tələm-tələsik özümü bayıra salıb xəbər tutmaq istədim. Qəfilə Nəqşivandan çıxmış-

dı, Ərzurumda dayanmağa qoymamışdılar, deyilənə görə, Baycu Noyonun gürcü, həm də ermənilərin qoşulduğu otuz, ya qırx minlik qoşunu şəhərin iki ağaclığındadı, bu gün-sabah qalanı mühasirəyə alıb mancanaqlarını işə salacaq. Belə çıxırdı, gözlənilən təhdid təsdiqini tapmışdı, Baycu Noyonun Diyari-Rumu çökdürmək ehtirasının qarşısını daha heç nə kəsə bilməzdi, az sonra Sultan Qiyasəddinlə toqquşması da baş verəcəkdi. Siracəddin haqlıydı, başlıcası, o toqquşmada yenilməmək idi, sultan yenilsəydi, səltənətin sonu çatardı. Rəhmətlik Şərafəddin Xocayla da bir məsələdə şərikdim: Sultan Qiyasəddinin qoşununda türkmanların, Baba İshaq dərvişlərinin əzmi olsaydı, elə ilk toqquşmadaca düşməni çəyirtkə kimi əzərdilər, muzdla yığılan firənglər, yardıma gələn əyyubilər, candərdi döyüşən ermənilər, Gürcü Xatunla birgə sarayın göz bəbəyinə çevrilmiş gürcülərsə, elə ilk zərbədən yaraq-əsləhələrini atıb qaçacaqlar. Amma Siracəddinin fikrincə, artıq bu barədə düşünmək geciydi, Baycu Noyonu Ərzurumda, Tərcanda, Ərzincanda, Sivasda dayandırmaq lazımıydı, yoxsa Qeysəriyyəyə, lap elə Konyayacan gedib çıxacaqdı; deyilənə görə, indi hökmündə yetmiş min nəfərlik qoşun olan sultan Məlik Mübarizəddinin ismarışını alan kimi, eyş-işrətdən ayılıb, Gürcü Xatunun qoynundan çıxıb özünü Ərzuruma çatdırsaydı, bəlkə, düşmənin gözünü qırardı, amma Ərzurum basılsa, Baycu Noyonun əsgərləri üstün gəlib, qənimət ələ keçirsələr, qabaqlarında durmaq çətin olacaqdı. Əlbəttə, Siracəddinin fikirləriylə razıydım, bundan sonra hər şey alın yazısındakı kimi olacaqdı, alnımıza düşmən atlarının dırnaqalrı altında tapdanmaq yazılmışdısa, qismətimizdən qaça bilməzdik...

***

...Sonralar bunu çox götür-qoy elədim: o günlərdə məni Ərzincada nə saxladı, niyə qəfilədən ayrılıb Sivasa, ordan da güneyə üz tutmadım, ən azı, Qeysəriyyəyə, Surətimin yanına

qayıtmadım? Buna Əcəm Əlinin əmanəti – Vəhidin himayədarı olmağımı maneə törətdi? Yox, tifil Vəhidi bacısına, yeznəsinə, lap elə Siracəddinə tapşıra, ya da özümlə apara, ara səngiyəndən sonra – bu fəlakətdən sağ-salamat qurtulacaqdısa, – Əcəm Əliyə çatdıra bilərdim. Bəlkə, səbəb Məlik Mübarizəddinin bir cüt oğlunun dərsini yarımçıq qoymaq istəməməyim idi? Yox, onsuz da Ərzurumdan çıxandan sonra elə Vəhidsayaq vəsvəsə içində olan uşaqlar heç dərs qavrayacaq halda da deyildilər. Yoxsa Ərzurumun taleyinin necə olacağını gözləyirdim? Ola bilsin, bu, səbəblərdən biriydi, hər halda, ömrümün üç ilini keçirdiyim şəhəri ən ağır fəlakət məqamında tələm-tələsik atıb qaçmağı özümə sığışdıra bilmirdim. Bununla belə, fikrimcə, başlıca səbəb hələ hara üz tutacağımı bilməməyimlə bağlıydi: İlahi tələqinlə Ərzincanda qalacaq, gözləyəcək, sonra işarət alacağım səmtə üz tutacaqdım. Karvansaray, məscid, hamam, türbə, çarşı-bazar, dükan, meyxana arasında vurnuxa-vurnuxa qalmışdım, Mama Xatun külliyyəsindən çıxan kimi, yan-yörəmdəki kölgəni duyur, rahatlıq tapa bilmirdim. İki dəfə də Şərafəddin Xocanın qəbrinə baş çəkdim, Urmiyədə doğulan, Bağdadda, Şamda, Konyada, Ərzurumda... ömür sürən xocanın Ərzincanda kimsəsiz qəribsayaq torpağa tapşırılmasından yanıb-yaxıldım, qismət olub, vəsiyyətinə əməl eləyə bilib-bilməyəcəyim barədə uzun-uzadı düşündüm, özündən qalan on iki ağçanı mollaya verib münasib vaxtda binəsib xocaya başdaşı yondurmağı təvəqqe elədim. İndiki məqamda əlimdən başqa bir iş gəlmirdi, hisslərim gündoğandan gələcək xəbərin əsarətindəydi, taleyimizi o xəbər bəlirləyəcəkdi.

Xəbər əvəzinə Məlik Mübarizəddin özü on min nəfərlik qoşunun olub-qalanıyla, daha doğrusu, Baycu Noyonun amansız basqınından sağ qurtulanlarla, bir də əsabələri, o sıradan, dəftərdar İzzəddinlə gəlib çıxdı. Fəlakətin mənzərəsi də az sonra məlum oldu: qoşunu cəmi üç gün dirənə bilmiş, o üç gündə üç min nəfər itirəndən sonra subaşı Sunqur Lələnin əmriylə qa-

ladan çıxmalı olmuşdu. Guya, cahan padşahı Qiyasəddinin əmriymiş, düşməni özü qarşılayıb dərsini verəcəkmiş. Qaladan da, şəhərdən də bacaran çıxıb, bacarmayanlar Allahın ümidinə, bir də Baycu Noyonun insafına qalıblar. Dediyinə görə, günü sabah Sivasa doğru çəkiləcək, sultanın gəlib yetişməsini, düşmənin qarşısına çıxmasını gözləyəcəkdik. Əlbəttə, Vəhid gələnlərin qəfiləsində valideynlərini görməyib varından yox oldu, qardaş-bacı qucaqlaşıb zülüm-zülüm ağladılar. Amma dəftərdarın dediyinə görə, hələ Allahdan ümidi üzmək olmazdı, Baycu Noyon nə qədər zalım olsaydı, hamının bir nəfər kimi, qılıncdan keçirilməsini əmr eləməzdi. Bir də ki, zəfər qazananlar həmişə xidmətçilərə ehtiyac duyurlar, Əcəm Əli də yaxşı xidmətçiydi, şübhəsiz, karvansarayında yerləşəcək döyüşçülərin qulluğunda dayana bilərdi. Tifilin başını sinəmə sıxıb təskinlik verə-verə heç şəxsən də inanmadığım bu ehtimalı dilimə gətirəndə, əlbət ki, özümdən belə, utandım. Amma başqa çarə yoxudu, hələ bərkiməmiş tifil bir ümiddən yapışıb yaşamalıydı. Sabah Ərzincandan çıxıb Sivasa yola düşəcəkdik, Allah üzümüzə baxsa, cahan padşahı Qiyasəddin Baycu Noyonun qabağını kəsib burnunu ovacaq, kimin qismətində hara vardısa, ora üz tutacaqdı. Hələlik Sivasa getməyimizdən təkcə Siracəddin məmnun görünürdü, doğulduğu, ömrünün otuz ilini yaşadığı məmləkətə qayıdırdı, üstəlik, artıq tək deyildi. Doğmalarının taleyindən duyduğu əndişəylə hələ də ağlayan övrətinə təskinlik vermək üçün nələr söylədiyini bilmirəm, yəqin, dilindən mənim bəhanələrimə oxşar bir şey çıxmışdı.

Bir gecə ərzində şəhəri əli bağlamalı, gözləri yaşlı, dilləri nifrinli binəvalar dəstəsi doldurmuşdu. Məlik Mübarizəddin Ərzincan məliyiylə güclərini birləşdirib qalanı qorumağa hazırlaşacaq, cahan padşahı Qiyasəddinin gəlib çıxmasını gözləyəcəkdi. Yəqin, subaşı Sunqur Lələ artıq özünü sultanın hüzuruna çatdırıb Ərzurum qalasındakı vəhşəti nağıl eləmişdi. Səhər erkəndən dəftərdar İzzəddinin başçılığı altında Sivasa

üz tutanda yolların da atlı, qatırlı, arabalı, piyada qaçqınlarla dolduğunu gördük. Payız yağışından sonra palçığı dizə çıxan yollarla üzü günbatana doğru sürünən məzlum dəstə, Siracəddinin dediyi kimi, Sultan Qiyasəddinin şah əsəriydi, tarixin səhifələrinə yazılırdı. Ərzurumda indi nə baş verdiyini xəyala gətirmək çətin deyildi: öldürülən öldürülmüş, möcüzə sayəsində sağ qalanlar canlarını qurtarmaq üçün yollara düşmüşdülər; Baycu Noyonun əsgərləri yandırmaq, dağıtmaq mümkün olan heç şeyə rəhm göstərməmiş, hətta əsir götürmək, səfər vaxtı özlərinə yük eləmək belə istəməmişdilər, bu hesabla heç bir həftə keçməzdi ki, Ərzincan qalası da eyni müsibətlə üzləşəcəkdi. Siracəddinin danışdırdığı binəvalardan biri ağacdan nə vardısa, yandırıldığını, adamların diri-diri qala divarı üstündən aşağı atıldığını, İlicədə dəstə-dəstə isti gölməçələrə doldurulub boğulduğunu söyləyirdi. Bunları eşidəndə tifil Vəhidin naləsi ərşə qalxdı, binəvanı sakitləşdirmək üçün tutarlı bir kəlmə də tapa bilmirdim.

Qəfiləmiz ilanın ağzından qurtulmağa çalışan qurbağasayaq var gücüylə günbatana doğru sürünürdü. Gündə cəmi bir dəfə – günorta nəfəs dərmək, namaz qılmaq, bir tikə çörək yemək üçün dayanır, gecələr qayaların dibində, ağacların altında – tapdığımız quru yerdə yatmağa can atır, ordan-burdan eşidilən ağılara, oxşamalara, yanıqlı manilərə için-için sızıldayırdıq. Obaşdan, sübh əzanı vaxtı əzabdan üzülmüş, kölgəni xatırladan adamlar namazlarını qılır, başlarının üstünü alan bəladan qurtulmaq üçün dua eləyir, olan-qalandan dadar-doymaz yeyir, yenidən yola çıxırdılar. Dördüncü gün – biz Gərcanisə çatanda Ərzincan məliyinin göndərdiyi çaparın Sivasa getdiyini gördük. Dəftərdar İzzəddinin dediyinə görə, Baycu Noyonun qoşunu artıq Ərzincan civarında çadır qururmuş, güman ki, dünəndən qalanın mühasirəsi başlanıb; on-on iki min nəfərlik Ərzurum-Ərzincan qoşunu basqınçıların hücumuna üç gün belə tap gətirə bilməzdi, hamı Sultan Qiyasəddinin özünü yetirmə-

sinə, düşmənin əsas qüvvəsini öz üzərinə çəkməsinə ümid bəsləyirdi. Amma sultanın vaxtında gəlib çatması ağlabatan deyildi, çünki yolu uzağıydı, üstəlik, dəftərdar İzzəddinin gümanına görə, Baycu Noyonun Ərzincan qalasını almağa güc sərf eləyib, bir qədər zəifləyəcəyinə ümid bəsləyə bilərdi. Ərzurumu cəmi bir neçə yüz nəfərlik itkiylə ələ keçirən Noyonunsa çox qurban verəcəyi inandırıcı görünmürdü, Ərzincandan sonra qarşısına Sultan Qiyasəddin çıxmasaydı, güman ki, sonrakı hədəfi Sivas olacaqdı...

***

...Sivasa çatdığımız yağmurlu, tutqun axşamüstü dəftərdar İzzəddin qəfiləni yerləşdirmək qayğılarını öz üzərinə götürdüyündən, mən ancaq tifil Vəhid barədə düşündüm. Amma Siracəddin hər şeyi əvvəlcədən götür-qoy eləyibmiş – bizi düz Şəfaiyyə mədrəsəsinə apardı. Bir vaxt Şeyx Əsədəddin Mütəkəllimin himayəsində olan həmin mədrəsəni bitirmiş, xeyli müddət də dərs demişdi, halımıza aydınlıq gələnəcən başımızı soxmağa bir hücrə tapılardı. Bədbəxtlikdən belə bir vaxtda izahat-filana da ehtiyac duyulmurdu, artıq Sivas əhli faciədən xəbər tutmuşdu, əndişə içində gözlərini gündoğana dikib yaxınlaşan fəlakəti gözləyirdi. Siracəddinin səyiylə mədrəsədə həm özüylə zövcəsinə, həm də Vəhidlə mənə hücrə ayrıldı, sonra zövcəsini tələm-tələsik öz hücrəsində yerləşdirib Şeyx Əsədəddindən xəbər tutmağa getdi. Bir hovur dincimizi aldıq, Siracəddin də axşam namazına az qalmış qayıdıb dedi, şükür Allaha, Şeyx sağ-salamatdı, gəlişiniz fəlakətlə bağlı olsa da, Şəms Həzrətləriylə görüşdən şad olacağını söylədi, sabah hüzuruna çıxmağımızı gözləyəcək, indisə dincəlmək, dirçəlmək vaxtıdı. Onun sayəsində də mədrəsənin mətbəxindən lütf eləyib göndərdikləri bir kasa isti şorbanı içib yatmaq ümidiylə uzandım. Biçarə Vəhidin hələ bərkə-boşa düşməmiş cismi də, duyğuları kimi çox yorulmuşdu, dərhal yuxuya getdi, mənsə gecəyarıdan keçənəcən yatammadım.

Zavallı Vəhid o qədər üzülmüşdü, sübh əzanına belə dura bilmədi, mən də oyatmadım – sonra qəza namazı qılardı. Hər dəfə nəfəs alanda sinəsindən ağlartıyamı, hönkürtüyəmi oxşayan səs qopur, ardınca uzun-uzadı inildəyirdi, yəqin, yuxusunda düşmənlərin əlində qalmış doğmalarını görürdü. Elmalca çıxdım, dəstəmaz aldım, mədrəsənin ibadət otağında namazımı qıldım, camaatı bu bəladan qurtarmaq üçün dua elədim, namazdan sonra Siracəddinlə bir neçə kəlmə kəsib hücrəmizə qayıtdım. Onsuz da ondan xəbər gözləməkdən başqa işim yoxudu, bayırda da boz hava vardı, xırda yağış çisələyirdi. Tifil Vəhidin qısıq fəryadına qulaq asa-asa xeyli oturdum, nədənsə Surətimi yada salıb, bir də görüşüb-görüşməyəcəyimiz barədə düşündüm. Xeyli keçmişdi, deyəsən, hücrənin qapısı bərk-bərk döyüldü, durub açmağa macal tapmamış Siracəddin gözüyaşlı içəri girdi, tanıdığım üç il ərzində aramızda məsafə saxladığından, bu dəfə içini çəkə-çəkə məni qucaqladığına heyrətləndim, daha doğrusu, çaşdım. Deyəsən, özü də dillənməyə çətinlik çəkirdi, sonrasa elə içini çəkə-çəkə dedi, bəlanın yarısından qurtulduq, şeyxim, gecə Ərzurumdan çapar gəlib, Baycu Noyonun qala divarlarını uçurdandan, şəhəri yağmaladandan, xeyli adamı qılıncdan keçirəndən, Ərzincana yaxınlaşandan sonra qəfildən çadırlarını sökdürüb gündoğana sarı üz tutduğu barədə xəbər gətirib, Ərzincan da, Sivas da basqından qurtulub. Olub-keçən müsibətdən sonra onun söylədikləri ağlabatan deyildi, amma inanmamağa da əsasım yoxudu. Əlbət ki, düzünü dəftərdar İzzəddin bilərdi, bu səbəbdən, düşünüb-daşınmadan karvansaraya sarı üz qoydum.

Dəftərdar İzzəddini karvansarayın iç həyətində bir dəstə adamla ağlar-gülər söhbət eləyən gördüm. Gəldiyimi sezib, ey Şəms, dedi, mıxı mismara döndərən Allaha həmd olsun, Ərzurum ziyan çəkdisə, bu yörələrin camaatı fəlakətdən qurtuldu, deyəsən. “Deyəsən” kəlməsini eşidəndə təəccübləndim, Baycu Noyonun geri dönmək ehtimalının olub-olmadığını soruşdum,

dedi, dünyanın işlərini bilmək olmaz, qəvi düşmənin hiylə işlədib-işlətmədiyini kimsə bilmir, bu səbəbdən, Məlik Həzrətləri Ərzuruma ən mahir çuğullarını göndərdi, Ərzurum əhlinə də üç gün səbir eləməyi məsləhət gördü, Baycu Noyonun Muğana sarı üz tutduğu təsdiqlənsə, qəfiləmiz geri dönəcək; dedi, güman ki, gələn xəbər səhihdi, çünki, tatarlar isti düzənliklərdə böyüyüblər, qışda səfərə çıxmaq da, döyüşmək də onlardan ötrü məşəqqətdi, Baycu Noyon, yəqin, Ərzurum yolunun çətinliyini, sərt qışın yaxınlaşdığını görüb geri qayıdıb, apardığı qənimətlə yazbaşınacan dolanacaq, yazbaşında da bu tərəflərə üz tutub-tutmayacağını bir Allah bilir; dedi, əlbət ki, bu üç gün bizdən ötrü ağır olacaq, amma Rəbbimiz səbir eləyənləri sevir, bol-bol mükafatlandırır, Məlik Həzrətlərinin izni olmamış kimsə öz ocağına dönməyə cəhd göstərməsin, məsləhətimiz belədi; sonra dedi, ey Şəms, Ərzincanda elə darmacaldaydıq, fürsət tapıb mərhum Şərafəddin Xocanı yada sala bilmədim, çox kədərləndim, ruhu şad olsun, tanıdığım ən bilikli, ən ləyaqətli adamlardanıydı, bizim kisəmizdən getdi; dedi, Məlik Həzrətləri də xocanın ölümünə çox heyifsiləndi, mərhumun başsağlığımızı yetirmək üçün səndən yaxın adamı yoxudu, məkanı cənnət olsun, inşallah, başımız açılanda qəbrini ziyarət eləyərik; dedi, indi mən Məlik Həzrətlərinin hüzuruna tələsirəm, kimsənin izinsiz geri dönməsinə imkan verməyin, səbirlə səhih xəbər gözləyin.

Mədrəsəyə qayıdanda bir müddətə də olsa, sıxıntılardan qurtarmasq üçün Siracəddinlə külliyyəni gəzməyə çıxdıq. Adətim üzrə tikililərin inşasıyla maraqlandım, Siracəddin dedi, şeyximin söylədiyinə görə, mədrəsəni Böyük Sulltan İzzəddinin zamanında məngücəkli bəyi Əhmədşah tikdirib, zövcəsi, Ərzincan məliyi Fəxrəddin Bəhramşahın qızı Turan Mələk Xatunun inşa etdirdiyi, məscidin quzey divarına bitişik Dər-üş-Şəfanin bir parçasıdı, memarı da əhlətli Müğdis oğlu Xürrəmşah olub, Keykavusun türbəsinisə Əhməd Mərəndi ərsəyə gətirib. Dər-üş-şəfa açıq həyətli, dörd eyvanlı, birqatlı tikilidən ibarətiydi, türbə güney eyvanın quzey tərəfdəki divarına bitişdirilmişdi,

içində də müxtəlif boylu beş sənduqə vardı. Türbənin girişində, qapı və pəncərələrin üzərində sülüs xəttiylə yazılmış kəlamı oxudim: *"Bu daracaq məzarlara girmək üçn geniş saraylardan çıxarıldıq. Təəssüf ki (bu ölüm hadisəsində) zənginliyimin mənə bir faydadı olmadı, səltənətim məhv oldu, ...axirətə hazırlaşma və köçmə hadisəsi 617 sənəsi şəvval ayının dördüncü günü gerçəkləşdi".* Fikirləşdim, bu kəlamı söyləyən kəs haqlıdı, taledən qaçmaq mümkün deyilsə, bütün bu müharibələrın, basqınların, qaçışların mənası varmı? Bəlkə, elə bütün bunlar da taleyin gərdişini dəyişmək cəhdidi?

Sonra Qütbəddin Məlikşah zamanında memar Qızıl Arslan bin İbrahimin tikdiyi, Böyük Sultan İzzəddinin təmir etdirdiyi Ulu Cameni, iç qaladakı yerləşən, Böyük Sultan Əlaəddin Keyqubadın haqqa qovuşması ərəfəsində inşasını Atabəy Ayaza buyurduğu Əlaəddin Camesini, cənnətməkan Sultanın yarımçıq türbəsini gəzdik. Gəzinti vaxtı söhbətimizin canı, işdi, şayəd, qəfilə Ərzuruma dönməli olsa, bizim də qoşulub-qoşulmayacağımız barədəydi. Siracəddin tərəddüd içindəydi: özü dönməyə meyilli deyildi, Baycu Noyonun basqınından sonra dağıdılmış şəhərdə neyləyəcəyini bilmirdi, güman ki, mədrəsəni də yağmalamışdılar, yaxın müddətdə orda dərs keçmək ağlagəlməz görünürdü, üstəlik, camaatın başı öz yaralarını sarımağa, qarnını doyurmağa, yıxılmış evləri dirçəltməyə qarışacaq, yeni basqın olmasa, bir müddət elm-filan barədə düşünməyəcəkdi; amma binəva zövcəsinin doğmalarını görmək istəyinin qarşısında dayanmaq iqtidarında olub-olmadığını hələ bilmirdi. Mənimsə ixtiyarım öz əlimdə deyildi: Şərafəddin Xocanın ölümü boynuma boynuma yük qoysa, Məlik Həzrətlərinin övladlarına verdiyi təhsili başa çatmasa da, Ərzuruma dönmək məsələsində yalnız *İlahi işarə*dən asılıydım: bu üç gün ərzində Qadir Allah qarşımda *yeddinci qapı*nın açılıb-açılmadığını bir işarəylə bildirəcək, nəticədə düşünüb-daşınmadan taleyimə boyun əyəcəkdim. Artıq məni Ərzuruma bağlayan ancaq Vəhidlə bağlı Əcəm

Əliyə verdiyim söz idi, gələn xəbərin çin çıxmasıyla o maneə də aradan qalxacaqdı: bacısı külfətiylə burdaydı, dəftərdar İzzəddin də simsarını Ərzuruma sağ-salamat çatdırardı. Əcəm Əlinin də, övrətinin də o qətliamdan qurtulub-qulrtulmamasısa, bir Allaha agahıydı, qismətlərində qurtulmaq vardısa, övladlarına qovuşacaqdılar. Ərzuruma qayıtsaydı, Siracəddin bununla bağlı bir xəbər göndərə, yaxud gətirə bilərdi.

Biz mədrəsəyə çatanda tifil Vəhid əlləri qoynunda vurnuxurdu: yəqin, ayılıb məni hücrədə görməyəndə narahat olmuş, duruş gətirə bilməyib axtarmışdı, Siracəddinlə birgə gəldiyimi görəndə də qənşərimizə yeridi, gecəki halından xəcalət çəkə-çəkə nə baş verdiyini soruşdu. Dedim, övladım, əndişəni duyuram, amma səbirli ol, səbirdə fayda var: Baycu Noyonun Ərzurumdan çıxdığını, gündoğana döndüyünü söyləyirlər, qismətində varsa, tezliklə ata-anana qovuşacaqsan, amma Məlik Həzrətləri xəbəri dəqiqləşdirib, izin verəndən sonra yola çıxacaqsınız. Son kəlmələrimdən mənim dönmək niyyətində olmadığımı sezdi, əndişəsinə təəccüb, çaşqınlıq, heyrət də qarışdı, amma özümü o yerə qoymadım, qolundan tutub, dedim, indi gedək, Allah verəndən bir şey yeyək, səbirlə gözləyək, sonda, inşallah, səbrimizin mükafatını alarıq. Dinib-danışmadan itaət elədi, Siracəddin də mətbəxdən buyruqçuyla yemək göndərəcəyini deyib aralandı. Tifil Vəhidin hələ həddi-buluğa çatmamış cisminin uçunduğunu, hayqırmaqdan özünü güclə saxladığını duydum. Valideynlərinə belə bağlılığı xoşuma gəldi, həm də qəfil xəcalət hissi duydum: məni bu dünyaya gətirənlərə bağlılığımı heç vaxt üzə vurmamış, başqa cür olduğumdan qəmlənib əzab çəkdiklərini sezəndə də könüllərini xoş eləmək xətrinə bir kəlmə söyləməmişdim; Təbrizdən çıxdığım illər ərzində bir dəfə də olsun, o zavallılara halımla bağlı xəbər göndərməmişdim. İndi beynimdən keçirdim ki, dünyaya gəlişimin məqsədi valideynlərim qarşısındakı borcumu unutmağıma haqq qazandırmır. Şübhəsiz, o binəvalar da yatağa düşəndə yanlarında ol-

mağımı, tabutlarını çiynimdə aparmağımı, qəbirlərinin üstündə dua oxumağımı arzulayıb, elə bu arzularla da axirət evinə köçüblər. Göz yaşım içimə axdı, qəlbimi sel bürüdü, hönkürməkdən özümü güclə saxladım...

***

...Üç intizar dolu günün birincisində Siracəddinin təklifiylə Şeyx Əsədəddinə baş çəkdik. Evi Şəfaiyyə mədrəsəsinin quzey tərəfində, çarşıdan bir qədər aşağıdaydı. Günorta namazından sonra gecəni yağışdan küçənin ora-burasında qalmış gölməçələri dolana-dolana gedib göy rəngli taxta alaqapının qabağında dayandıq, Siracəddin taqqülbabı vurub içəri boylandı, deyəsən, yaxınlaşan buyruqçunu tanıyıb, mənəm, dedi, aç, şeyximin əlini öpməyə gəlmişəm. Alaqapı açıldı, elə Siracəddin yaşlarında olan buyruqçu *(müridlərindən biri olduğunu sonra sezdim)* alaqapını açıb, hayqırdı, Allahım, səni görmək nə böyük səadətdi, bu xəbərlər çıxandan şeyximizin gözünə yuxu getmir, gecə də, gündüz də dilində sən bitmisən. Siracəddinlə qucaqlaşandan sonra maraqla məni süzdü, dedi, xoş gəlmisiniz, buyurun içəri, şeyxim çox sevinəcək. Alaqapıdan girib artırmanın yeddi pilləsini qalxdıq, başmaqlarımı çıxarmağa macal tapmamış evin qapısı aralandı, aşağı-yuxarı mən yaşlarında olan Şeyx Əsədəddin Mütəkəllim göründü, yanaqları boyu axan göz yaşlarını silmədən Siracəddinin boynunu qucaqladı, səsi titrəyə-titrəyə dedi, övladım, gözüm yollarda qaldı, hər Ərzuruma basqın xəbərini alandan bəri yuxum ərşə çəkilib, Allahıma çox şükürlər olsun ki, mənə bir daha səni sağ-salamat görməyi nəsib elədi. Siracəddini doya-doya qoxulayandan sonra özündən aralayıb mənə "xoş-gəldin" elədi. Geniş, orta ocağı çırta-çırtla yanan, divar boyu döşəkcələr düzülmüş, taxçada qəndil, bir də kitablar olan hücrəyə girdik, Şeyx Əsədəddin üzünü qibləyə çevirib şükür duası oxudu, mənə baş tərəfdə yer göstərib qurşağından çıxardığı dəsmalla gözlərini, yanaqlarını sildi, deyəsən, bir qədər toxdadı, dedi, uzaqlardan gələn fəlakət daha qorxunc olur,

üstünə çatanacan güc toplayır, həm də qəddarlıqda həddi-hüdud tanımır. Sonra hələ də işığı adamın canına yerikləyən gözlərini üzümə dikdi, bu məqamda Siracəddin bağır basıb dedi, təbrizli Şeyx Şəmsəddin Muhammməd Həzrətləri təşrif buyurub.

Onun məni belə təm-təraqla təqdim eləməyinə gülməyim tutdu, dərgahsız, müridsiz, bu aləmdə ancaq *Dost* tapmaq, bir də *O*-na yetmək məramıyla yaşayan, bu niyyətlə də Parəndə olub diyarbadiyar dolaşan bir Allah bəndəsinin sayğın-seçkin şeyxlər qəfiləsində yer tutması məndən ötrü qəribəydi. Amma Şeyx Əsədəddin heç təəccüblənmədi, hörmətlə bağır basıb, dedi, sorağını aldım, ey Şəmsi ötən yaz Qeysəriyyədə Seyyid Bürhanəddinə baş çəkəndə haqqında çox danışdı, Şeyx Əbu Bəkrdən, Şeyx Övhədəddindən, Şeyx Şəhabəddindən dərs aldığını, Şeyx Mühyiddinlə fikir qovğasına çıxdığını, inşallah, tezliklə axtardığına qovuşacağını söylədi, amma səni Sivasda görmək heç ağlımdan keçməzdi. Dedim, Allahın yanında əziz olasınız, onun göstərdiyi *yolu* gedirəm, hara aparıb çatdıracağı ancaq özünə ayandı; dedim, Siracəddin Şeyxinə də, dərgahına da çox bağlıdı, mənə sənin barədə çox danışıb, həmişə də darıxıb, əlini öpməyin intizarını çəkib. Şeyx Əsədəddin müridini ata nəvazişiylə süzüb dedi, Siracəddin tifil vaxtından evimin də, dərgahımın da məhrəmidi, Məlik Mübarizəddin məndən müdərris istəyəndə onu Ərzuruma göndərmək fikrində deyil, uzun müddətə gözümdən irağa buraxmaq niyyətim yoxudu, amma özünün könlündə varmış, izin istədi, mən də xətrinə dəymədim, elm əhli ancaq oxumaqla yetişmir, gərək həm də gəzsin, görsün, üləmalarla həmsöhbət olsun; dedi, sorağı Bağdaddan, Şamdan, Qeysəriyyədən belə yayılmış Təbrizli Şəmsəddinlə həmsöhbət olmağı, əminəm ki, Siracəddin övladıma Allahın ərmağanıdı, bundan sonra da Rəbbim qarşısına çox belə fürsətlər çıxarar, inşallah; dedi, İlahinin təqdirilə Ərzurum fəlakətindən sağ-salamat qurtarmısınız, elə bu da qənimətdi.

Şərafəddin Xocanın Haqqa qovuşduğunu eşidəndə Şeyx Əsədəddinin gözləri yenidən doldu, dedi, ah, Şərafəddin, belə

binəsibliyin məni yaman ağrıtdı; dedi, Konyadakı söhbətlərimizdə elə hey ömrünü qələbəlikdən uzaq, sakit bir yerdə başa vurmaq istəyirdi, qismətinə bax ki, Ərzincanda torpağın qoynuna köçdü; dedi, ey Şəmsəddin, Şərafəddin Xocanı da Məlik Mübarizəddinə mən məsləhət gördüm, həm Konyadan uzaqlaşmaq arzusu yerinə yetdi, həm də Ərzurum mədrəsəsi kamil müdərris qazandı; dedi, bu üç il ərzində elə hey Ərzuruma gedib Şərafəddin Xocaya, Siracəddin övladıma baş çəkmək istəyirdim, amma dərgahın da, mədrəsənin də qayğıları aman vermədi, üstəlik, ötən qış, üstünüzə sağlıq, azarladım, səfərim bu aydan o aya qaldı, axırda da gündoğandan gələn fəlakəti eşitdim; dedi, o gündən özümə yer tapmadım, Hüsnəddini *(belə başa düşdüm ki, Hüsnəddin bizə alaqapını açan müriddi)* hər gün karvansaraya göndərirdim ki, Ərzurumdan soraq gətirsin; dedi, dua eləyək, o Allahın qəzəbinə gəlmiş tatarın Muğana qayıtması xəbəri doğru çıxsın, Ərzincan, Sivas, Qeysəriyyə fəlakət yaşamasın.

Bu vaxt məcməyidə üç şərbət piyaləsi gətirən Hüsnəddin çıxandan sonra nəzərlərini pəncərəyə çevirdi, mən də gözlərimi məcməyinin naxışlarına zillədim, bir müddət beləcə susduq. Öküzün belində şəstlə əyləşib – əlində siyirmə qılınc, qabaqda kəniz, arxada nökər, başı üstündə quşlar, suda balıq vardı – dəryа kənarıyla harasa üz tutmuş şahzadənin hekayətini ipə-sapa düzməyə çalışdım, bu məqamda Hüsnəddin geri qayıdıb Məlik Mübarizəddinin adam göndərdiyini, sabah günorta namazından sonra şeyxin hüzuruna gəlmək istədiyini söylədi, razılıq cavabını alıb çıxandan sonra Şeyx Əsədəddin sulanan gözlərini dəsmalla silə-silə dedi, ey Şəmsəddin, o basqınçıları belə cəsarətləndirən səbəb səltənətdə türkmanlara münasibət üzündən baş vermiş Baba İlyas qiyamı, o toqquşmalarda sultan qoşununun zəif düşməsidi; dedi, onda Konyaya getdim, Əmir Cəlaləddinlə, Şeyx Sədrəddinlə görüşdüm, Baba İlyasla sultanımız arasında vasitəçi olub ziddiyyətə son qoymağı iltimas elədim, amma araya hansı şeytanlar girdisə, Qiyasəddin geri çəkilmədi, üstəlik,

Baba İlyasın üstünə qoşun çəkib aradan götürmək istədi; dedi, onda hər dəfə türkmanlarla sultanın qoşunu üz-üzə gələndə, elə bil, canımdan can gedirdi, sultanımız Baba İlyasla dil tapsaydı, qoşunu xeyli güclənər, firənglərə, rumlara, cəmi gavurlara möhtac qalmazdı.

Bir qədər də ordan-burdan söhbət eləyəndən sonra şeyx Əsədəddin Şəfaiyyə mədrəsəsində gecələdiyimizdən xəbər tutduğunu söyləyib, Siracəddinə ata şəfqətiylə narazılığını bildirdi, dedi, övladım, bu səhvini cavanlığına keçirəm, amma sən bu evin adamısan, gərək bu cür hərəkət eləməyəydin, nə qədər ki, acığım qəzəbə çevrilməyib, köçüb bu evdə yerləşin. Mən sözümü bu başdan söylədim, dedim, ey Şeyx Əsədəddin, mənim Sivasda nə qədər qalacağım İlahidən başqa kimsəyə bəlli deyil, ola bilsin, qəfildən çıxıb gedim, ola da bilsin, illərlə qalım, bir də ki, Təbrizdən çıxandan məskənim karvansaray hücrələridi, özümlə tək qalmağa alışmışam, bu səbəbdən, karvansaraylar Ərzurum, Ərzincan qaçqınlarıyla dolu olduğuna görə, mədərəsədə bir künc tapdıq, izninlə yer tapanadək mədrəsədə qalmaq məndən ötrü daha münasibdi. Siracəddin bu müddətdə pörtmüş, tərləmişdi, görünür, evləndiyini şeyxə daha hörmətli tərzdə çatdırmaq üçün bəhanə axtarırdı, axır ki, o bəhanəni tapdı, dedi, şeyxim, mənə də izin verin, Ərzurumdan səhih xəbər gələnəcən Şeyx Şəmsəddinin yaxınlığında olum, sonra məsləhət sizindi. Şeyx Əsədəddin ona təfərinclə baxdı, dillənmədi, bu məqamda da getmək vaxtının çatdığını deyib izin istədim. Qalxdıq, Sivasda olduğum müddətdə görüşəcəyimizi söyləyib, bağır basıb çıxandan, Hüsnəddin alaqapını bağlayandan sonra Siracəddinin soyuq payız günü puçur-puçur tər tökdüyünü gördüm. Utana-utana dedi, izdivacımı şeyximə hələ söyləmək istəmədim, yəqin, bunun əziyyəti sizin üstünüzə düşəcək, Allahın təqdiriylə evləndiyimi, övrətimlə əlini öpmək istədiyimizi söyləsəniz, minnətdar olaram. Dedim, fikir eləmə, günü sabah söylərəm, sən də Şeyxinin evinə köçüb, ona həyan olarsan. Si-

racəddin Şeyx Əsədəddinin övrətini, bir oğlunu, bir qızını tif xəstəliyi ucbatından itirdiyini, sonra evlənmədiyini Ərzurumda söyləmişdi, bu səbəbdən, ona oğul mehri salması başadüşüləniydi. Amma Ərzuruma qayıdıb-qayıtmamaq məsələsində o da tərəddüddəydi: ən azı, övrətinin öz doğmalarının taleyindən xəbər tutmaq istəyi vəziyyətini qəlizləşdirirdi.

Səhəri gün yenə günorta namazından sonra Şeyx Əsədəddinin evinə tək getdim: daha doğrusu, Siracəddin döngəyəcən yanımdaydı, sonra ayaq saxladı, məzlum-məzlum üzümə baxdı, dedim, fikir eləmə, şad xəbərlə dönərəm, inşallah. Alaqapının çaxçaxını vurdum, özünü yetirib açan Hüsnəddin də, məni ayaq üstdə qarşılayan Şeyx Əsədəddin də tək gəlişimə xeyli təəccübləndilər, dedim, əndişəyə düşməyin, məramım xeyirli niyyətlə bağlıdı. Mindərlərin üstündə yerimizi rahatlayandan sonra ev yiyəsi sorğu dolu baxışlarını üzümə dikdi, mən də daha sözü uzaqdan gətirmədim, dedim, ey Əsədəddin, tanıdığım üç ildə mənə ayan oldu ki, Siracəddinə yaxşı tərbiyə vermisən, yol-ərkan biləndi, ancaq könül məsələlərində bəzən insan hər şeyin əksinə getməli olur, qəlbə ki, sevgi atəşi düşdü, gözləri ayağının altını görmür, düşünüb-daşınmaq duyğusu korşalır. Bu məqamda Şeyx Əsədəddinin bayaqkı əndişəsinin daha da artdığını, yerində qurcalanmağa başladığını gördüm, sözü daha da uzadıb ürəyini üzmək istəmədim, dedim, sözün qısası, sizin Siracəddin Ərzurumda bir Allah bəndəsinə vuruldu, əli sənə çatmadığına görə, qızı Şərafəddin Xocayla mən istəməli oldum, nikahlarını kəsdirdik, indi səndən zövcəsiylə birgə əlini öpməyə izin verməyini təvəqqe eləyirlər; dedim, bir Allah şahiddi ki, Siracəddin səni ata yerində görür, nəfsinə yenildiyinə görə, çox xəcalət çəkir, günahının bağışlanmasını diləyir. Mən danışdığım müddətdə Şeyx Əsədəddinin gözləri dolmuşdu, qurşağından dəsmalını çıxardı, gözlərini sildi, dedi, Rəbbim mənə övladlarımın xoşbəxtliyini görməyi nəsib eləmədi, belə məsləhətmiş, bu səbəbdən, Siracəddini də, Hüsnəddini də övladım saydım, üz-

ləri ağ olsun, başımı aşağı eləmədilər; dedi, Siracəddinin özünə yuva qurması məni ancaq sevindirir, gərək məni atalıq borcundan məhrum eləməyəydi, amma yenə övladımdı, izin verirəm.

Arxayınlaşıb dedim, Allah səndən razı olsun, iki könül arasındakı körpünü möhkəmlətmək İlahinin də xoşuna gedən işdi, savabların ən böyüyündəndi. Bu məqamda hiss elədim ki, həmsöhbətim mənim könül məsələlərimlə də maraqlanmaq istəyir, aman vermədim, söhbətin yönünü, neçə gündən bəri ara verməyən yağışa, gündoğandan gözlənilən xəbərə, Məlik Mübarizəddinin hüzuruna gəlib-gəlmədiyinə dəyişdim, sonra biçarə Siracəddinin bu havada məni gözlədiyini xatırlayıb getmək üçün izin istədim, dedim, Allahın təqdiri beləymiş, öz böyüklüyünü göstərdiyinə görə, yerin Rəbbimin yanında uca olacaq; dedim, Ərzurumdan şad xəbər gəlsə, güman ki, Siracəddin zövcəsinin doğmalarından soraq almaq üçün gedəcək, amma mən Allahın məsləhət bildiyi məqamacan burdayam, inşallah, çox söhbətlərimiz olacaq. Bağır basıb çıxdım, hələ də çisəkləyən yağışdan qorunmaq üçün başlığımı gözlərimin üstünəcən çəkdim, iltifatla alaqapını açan Hüsnəddinlə sağollaşıb yola düzəldim. Binəva Siracəddin cəmi iyirmi addımlıqda, tindəki söyüd ağacının altında gözləyirmiş, qəfil qabağıma çıxdı, qırımımdan təhlükənin sovuşduğunu duyub boynuma sarıldı, dedi, şeyximin üstümdə haqqı-sayı böyükdü, ən çox qorxduğum da aramızdakı ata-oğul münasibətinə ləkə düşməsiydi, Allahıma şükürlər olsun ki, məni bu sınaqla üzləşdirmədi. Dedim, sən qəbahətli iş tutmamısan, övladım, sevginə yenilmisən, Rəbbimiz də sevgiyə yenilənləri bağışlayandı; dedim, halalını da götür get, Şeyx Əsədəddinin əlini öp, ömrünün son gününəcən də dizinin dibindən ayrılma; dedim, inşallah, Ərzurumdan da xoş xəbər alarıq, beş-üç günlüyünə gedib zövcənin ailəsindən xəbər tutarsan, Allah yolunu açıq eləsin. Siracəddinin gözləri yaşarmış halda əlimi öpdü, sonra mədrəsəyə doğru addımladıq.

Siracəddin zövcəsiylə gedib Şeyx Əsədəddinin əlini öpdü, səhəri gün də dünyanın qaş-qabağı da açıldı, ikindi namazından sonra baş çəkdiyim dəftərdar İzzəddin, inşallah, Ərzurumdan yaxşı xəbər gələcəyiylə bağlı ürək-dirək verdi, amma içimi gəmirən əndişə azalmadı ki, azalmadı. Tifil Vəhidin intizardan lap üzüldüyünü, gözlərinin dolub-boşaldığını görəndə varımdan yox olurdum. Gözlənən xəbər də o gecə, daha doğrusu, artıq səhəri gün, sübh namazına az qalmış gəldi: hücrənin qapısı bərk-bərk döyüldü, durub açanda Siracəddini gördüm, salam-kəlamsız dedi, dəftərdar İzzəddin adam göndərmişdi, Allaha şükürlər olsun, deyilənlər doğru çıxıb, basqınçılar Muğana qayıdıblar, gedənlər sübh namazından az sonra yola düşəcəklər, mən də getməliyəm, yoxsa halalımın çəkdiyi işgəncələr dinməyəcək, on gün- iki həftə çəkməz ki, dönərəm; dedi, Şeyx Əsədəddinin evində yerləşməyəcəyinizi bilirdim, ona görə də bu hücrədə istədiyin qədər qala bilərsən, ümidvaram, Ərzurumdan qəlbinə təskinlik verən xəbərlərlə qayıdacağam. Dedim, Vəhid də bacısıyla gedəcək, mənə Əcəm Əlidən səhih xəbər gətir, üstümdə haqqı-sayı var. Siracəddin tələsik gedəndən sonra tifil Vəhidi oyatdım, dedim, qalx, övladım, Ərzuruma dönmək vaxtın yetişdi, Rəbbim sənə ata-ananı sağ-salamat görməyi nəsib eləsin. Vəhid hələ yuxudan tamam oyanmamışdı, dediklərimi handan-hana qavradı, bilmədi ağlasın, yoxsa gülsün. Bundan sonra dəftərdar İzzəddinlə görüşüb halallaşmalı, hamının dərdi başından aşdığı bir vaxtda kimsəyə yük olmamaqdan ötrü hələ Allahın məsləhət bildiyi qədər Sivasda qalacağımı, Əcəm Əli sağ-salamat olsa, çox sevinəcəyimi söyləməliydim. Onun qəfiləsi, Məlik Mübarizəddinin qoşunu, Ərzincandan qaçanlar qayıdandan sonra Sivas da keçmiş günlərinə dönəcəkdi...

Vəhidi Siracəddinə də, dəftərdar İzzədinə də bərk-bərk tapşırdım, üstəlik, dəftərdardan Sivasda qalmaq niyyətimi Məlik Mübarizəddinə çatdırmağı təvəqqe elədim, Siracəddinə də çox ləngiməməyi, şeyxini də, məni də intizarda qoymamağı xa-

tırladıb, gözüyaşlı tifili bağrıma basıb gedənlərlə vidalaşdım, qəfilə gözdən itənəcən arxalarınca baxdım, beləcə, hələ alışa bilmədiyim şəhərdə tək-tənha qaldım. Düzdü, Şeyx Əsədəddin iki həftə ərzində günaşırı, üç gündən bir Hüsnəddini göndərib evinə çağırtdırır, dünyanın işlərindən, Qeysəriyyədə, Konyada, Əlaiyyədə olub-keçənlərdən danışırdı, qalan vaxtlarımı da yağışsız günlərdə çarşı-bazarı gəzib dolaşmaqla, tutqun havalı günlərdəsə, iri qıfılımı hücrəmin qapısından asıb, həsirimin üstündə oturub, kürəyimi divara söykəyib fikrimdə dünyanın yollarını əriş-arğac eləyə-eləyə belbağı hörməklə yola verirdim. Mədrəsədən aldığım məvacibdən, Məlik Mübarizəddinin verdiyi haqdan hələ bir az qalmış, axır vaxtlar Qeysəriyyəyə yardım göndərməyə də imkan olmamışdı, Şeyx Əsədəddinin iltifatı sayəsində yeməyim mədrəsənin mətbəxindən gəlirdi, amma yenə də həm əlim işdən soyumur, fikirlərin ağır yükündən az da olsa, qurtulur, həm də çarşı-bazara çıxmağa bəhanə tapırdım. *Dosta gedən yol* hələ görünmürdü, *O*-nu nə xəyallarımda, nə də yuxumda görə bilirdim, gözlərimin qabağına gətirməyə çalışanda işıq topasına dönür, rəngsizləşir, yayılırdı, ancaq pərqu kimi təmasını, bir də hərarətini duyurdum, elə bil, cismimi meh yalayırdı. Bununla belə, bir şeyi qəti bilirdim: *O gec-tez mənə gedəcəyim səmti göstərəcək, illərdən bəri gəldiyim yolu son mənzilə çatdıracaqdı...*

***

...O günlərin birində də çarşıya girər-girməz tanış *kölgə*ni hiss elədim. Günəşsiz gündə o *kölgə* lap yaxında, qaynaşan adamların arasında, daş sütunlardan birinin arxasında, çeşid-çeşid mallara baxan müştərilərin arasındaydı. Sivasa çatandan bəri gözümə dəyməyən, gedənlərin arasında da görmədiyim arabaçını xatırladım: imanımı yandıra, o *kölgə*nin həmin arabaçı olduğunu söyləyə bilməzdim, amma özü deyildisə, şübhəsiz, tanıdığı, təmasda olduğu bir Allah bəndəsiydi. Qəribə burasıydı ki, o *kölgə* artıq məni qorxutmurdu, Hələbdə duyduğum səksəkə Qeysəriyyədə ötüb-keçmiş, Ərzurumda əminliyə çevrilmiş, in-

disə məhrəmliklə əvəz olunmuşdu. Əvvəlcə gözaltı diqqət yetirib o *kölgə*ni qəfil yaxalamaq, varlığından xəbərdar olduğumu, üstəlik, onu məhrəm saydığımı söyləmək istədim, amma Surətim dönə-dönə tapşırmışdı ki, ciddi ehtiyac duymayınca belə hərəkətə yol verməyim, yoxsa o kimsənin həyatını təhlükəyə atmış olaram. Əlbət ki, bununla məni sözün müstəqim mənasında qorumurdu: nə sultanların əyan-əşrəfi, nə varlı-hallı tacir, nə dərgah başçısıydım, kimsəylə də düşmənliyim yoxudu, orda-burda söz davasına çıxdığım Allah bəndələrini belə canıma qəsd eləyəcəkləri qədər incitməmişdim; Surətim sağ-salamat olduğumdan əminlik duymaq istəyirdi, güman ki, mənimlə bağlı görüb-bildikləri yalnız özlərinə məlum olan yollarla bir neçə gündən sonra Qeysəriyyəyə yetişəcəkdi. Bütün bunları beynimdən keçirəndə hətta fəxarət hissi də duydum.

Siracəddin zövcəsiylə iki həftədən sonra gəlib çıxdı, gətirdiyi xəbərlərlə də ürəyimi dağladı: basqınçılar Ərzurumu, az qala, xarabaya çeviriblərmiş: qala divarları mancanaqlarla dağıdılıb, yanan nə varsa, yandırılıb, hələ Məlik Mübarizəddinin qoşunundan tələf olanların meyitləri belə basdırılmayıb, mədrəsə-filan da yağmalanıb, çoxlu kişi-qadın, uşaq-qoca öldürülübmüş. Siracəddin bütün bunları sadalayanda göz yaşları axıdırdım, üstəlik, ürəyim çəkilirdi: tez Əcəm Əlinin taleyindən xəbər tutmaq istəyirdim. Amma zalım Siracəddin əvvəlcə Məlik Mübarizəddinin imarətinin viran qoyulmasından danışdı, sonra zövcəsinin doğmalarına keçdi, validinin qılıncla ikiyə bölündüyünü, validəsinin, bacısının üç gün zirzəmidə qalmaq sayəsində qurtulduqlarını, Məlik Mübarizəddinin qoşununda olan qardaşının yaralandığını söylədi, ardınca bayaqdan gözlədiyim xəbəri verdi: Əcəm Əlinin də, külfətinin də izi-tozu belə tapılmayıb. Basqınçılar karvansarayı tövləyə çeviriblərmiş, görünür, şəhərdə qaldıqları müddətdə bir dəstə də orda yerləşib, özlərindən sonra üfunətli xarabalıq qoyubmuş, amma Əcəm Əlinin də, övrətinin da nə dirisi, nə də ölüsü tapılıb. Biçarə Vəhid də, bacısı

da sorub-soraqlaşıb, sağ qalanlardan soruşublar, yenə bir nəticə hasil olmayıb ki, olmayıb. Siracəddinin başı qaynatasının dəfninə, zərərdidələr üçün koma tapmağa qarışıb, axırda dəftərdar İzzəddinin izniylə elə mədrəsədə də yerləşdirib, yaralı az-çox dirçələndən sonra qayıtmaq qərarına gəlib. Tifil Vəlhid nə qədər Sivasa dönmək istəsə də, nə bacısı, nə də dəftərdar buraxıb. Bəs zavallı Əcəm Əlinin başına hansı vaqeə gəlib? Öldürülübsə, nəşi hanı? Sağdısa, niyə üzə çıxmadı? Bütün bu suallar hələ cavabsız qalır, Siracəddinin də, mənim də beynimi gəmirirdi.

Siracəddin zövcəsiylə Şeyx Əsədəddinin evinə köçdü, Hüsnəddin kimi onun qulluğunda dayandı, mənsə mədrəsədəki hücrəmə, tənhalığıma, intizara alışdım, uzun qış günlərini-gecələrini düşüncələrimlə təkbətək yaşadım. Yenə Şeyx Əsədəddin həftədə azı iki dəfə, həm də günorta namazından sonra Hüsnəddini göndərib məni çağırtdırırdı, qarlı küçədə addımlarımızı ehtiyatla ata-ata yeriyirdik, həmin məqamlarda da Təbrizin qarını, məhəllə uşaqlarıyla qartopu oynamağımı, ya da pəncərə qabağında oturub yağan qara baxmağımı, yaxud Şeyx Əbu Bəkrin qolundan tutub asta-asta evinə apardığımı, bir də Mehmanə Xatunun soyuqdan allanmış yanaqlarını, nəsə söyləyən gözlərini xatırlayırdım. Beynimdən keçirirdim ki, görəsən, o gözlərin söylədiklərini niyə vaxtında oxuya bilmədim, oxuya bilsəydim, yəqin, indi başqa adam olardım, Siracəddin kimi evlənib gündəlik qayğılarla yaşayar, ailəmə yuva qurmaq barədə düşünər, yolların ağına düşüb taleyin apardığı səmtə getməzdim. Şeyx Əsədəddin də hər dəfə söhbəti sultanın üzərinə gətirir, onun meyə, eyş-işrətə, bir də Gürcü Xatuna hədsiz aludəliyindən danışır, qulağına gəlib çatan xəbərlərdən söz açırdı: cahan padşahı Baycu Noyonun Ərzurumdan Muğana dönməsini düşməninin qorxmasına yozurmuş: bəs deməzsənmi, sultanın Qeysəriyyədən yola çıxmaq niyyətində olduğundan xəbər tutanda tələm-tələsik dabanına tüpürüb qaçıbmış, bir daha Diyari-Ruma ayaq basmağa cəsarət eləməzmiş. Şeyx Əsədəddinin fikrincə isə buna ancaq yaz-yay ötəndən sonra inanmaq olardı, Noyon buralara üz tutmasa,

deməli, cahan padşahının dediklərində həqiqət var, ən azı, qoşunun sayca çoxluğundan ehtiyat eləyir.

Amma yaz heç başa çatmamışdı ki, mənə qəfil *yol* göründü, üstəlik, bu, gözlənilmədən baş verdi, heç düşünüb-daşınmağa macal belə tapmadım. O günlərin birində günorta namazından sonra Şeyx Əsədəddinə baş çəkdim, bir qədər ordan-burdan söhbət elədik. Sonra həmsöhbətim qalxıb dolabdan bir bağlama götürdü, qayıdıb yerində oturdu, açanda gördüm, kitabdı. Onu Quran kimi üç dəfə öpüb gözlərinin üstünə qoydu, dedi, Arran və Şirvan tərəflərdə çox tanınan Əxi Fərruxdan dərs almış, dərgah adı Nizaməddin olan Şeyx Əbu Muhammməd İlyas ibn Yusifin, yəni xacə imam Nizamiye Gəncəyinin "Məhzən-ül-əsrar"ıdı; dedi, cənnətməkan böyük Sultan Rüknəddin Arslanşah İbn Toğrul Abxazlarda baş verən üsyanı yatırmaq niyyətiylə Mücisəddin Toğrulşahı Məngücək nəslindən olan, Ərzincanda hakimlik eləyən Fəxrəddin Bəhramşah İbn Davudla birgə ora göndəribmiş; dedi, Bəhramşah ibn Davud Gəncədə şairlər sultanı Şeyx Nizaminin yaşadığını eşidibmiş, günlərin birində də qasid onun Hümayun badigahı adına nəzmə çəkdiyi iki min iki yüz əlli beytlik, iyirmi hekayətlik dürr kimi dastanını Həzrətə hədiyyə və töfhə gətirib, məlik də Allahın və peyğəmbərin şəninə yazılmış tovhid, minacat, nətlərdən, öz şəninə söylənmiş mədhdən çox bəxtiyar olub, deyib, mümkün olsaydı, şeirlə mirvari kimi düzülmüş bu kitaba mükafat və bəxşiş kimi, böyük xəzinə göndərərdim, çünki sayəsində adım dünyada daim yaşayacaq. Məlik Şeyx Nizaminin *"Yox əlimdən tutanım, ayağımı açanım,// Kölgənəm, üstümdə bəs, hüma qanadın hanı?"* beytindən hədsiz təsirlənib, ona beş min qızıl, beş yəhər-yüyənli at, beş qatır yükü çəkidə ağır, vəzndə yüngül bəxşişlər, zinətlə işlənmiş əlbisələr göndərib, üstəlik, Gəncə ətrafında torpaq da bağışlayıb.

Dedi, rəhmətlik validim cənnətməkan Bəhramşahın vaxtında qazıydı, dediyinə görə, can qurban elənəcək qədər bənzərsiz, xoşniyyətli Allah bəndəsi olan əmir həm də bacarıqlı qoşun başçısı, ədalətli, müzəffər, xoş iqbal, çox ağıllı, gözəl

xasiyyətli, xalqa, əsgərlərə qarşı şəfqətli zat idi; deyirdi, əmir şair-üləmaları çox sevir, düzlüyüylə seçilir, şərəfli, gözəl əxlaq sahibi, ədalətli, səxavətli hökmdar kimi tanınırdı; dedi, o, Süleyman Şahın damadıydı, altmış sənəlik məlikliyi müddətində Nasirül-islam, Məlikül-aləmara, Qazi ünvanları qazanmışdı, Abxazlardakı döyüşdə də canını fədar eləmiş, sədaqətli bəndə kimi döyüşmüşdü; dedi, Şeyx Nizami əvvəlcə bu tayı-bərabəri olmayan məsnəvini Ərzincana, Bəhramşahın hüzuruna özü gətirmək istəyirmiş, lakin ətrafa halqadan çənbər çəkildiyini, qırağa çıxan yolun bağlandığını, şahın ali hüzuruna gəlmək üçün öz dərisindən belə çıxmaq istədiyini, yolların şirlərlə, önünün də, arxasının da qılınc-xəncərlə dolu olduğunu yazıb, fürsət tapan kimi, bir qasidlə göndərib, *"Sən öz quluna geydir cahanın cübbəsini,//Nizamiyə bəxş elə qəbul rayihəsini"* ricasını çatdırıb; dedi, Böyük Sultan Əlaəddin Keyqubad taxta çıxanda məlik Bəhramşah çox qocalmışdı, beş il sonra da Haqqın rəhmətinə qovuşdu, ölüm yatağında olanda taxt-tacından da qiymətli saydığı bu kitabı validimə vəsiyyət eləmişdi, ondan da mənə miras qaldı.

Sultan Alaəddinin əmisi, Ərzurum məliyi Mücissəddin Toğrulla gürcü taxtında oturan Rusudanın əhvalatınısa hələ Şamda olanda eşitmişdim. Məlik Mücisəddin niyə oğlu Qiyasəddin Davudun gavur qızıyla evlənməsində o qədər israrlı olmuşdu? Nəyə görə, elçiləri birinci kərə rədd cavabı alanda geri çəkilməmiş, oğlunun onun dininə keçəcəyinə, üstəlik, sarayında yaşayacağına zəmanət verəndən sonra o izdivac baş tutmuşdu? Deyilənə görə, Qiyasəddin boylu-buxunlu, yaraşıqlı cavanmış, Diyari-Rumun hansı məliyinin qızını ustəsəymiş, yox cavabı almazmış. Bəlkə, Məlik Mücisəddini gürcü taxt-tacının kişi varisinin olmaması şirnikləndirmiş, Qiyasəddin vasitəsiylə o məmləkəti hokmü altına alacağını güman eləmişdi. Eləydisə, bu məsələdə Böyük Sultan Əlaəddinin barmağı olmuşdumu – bunlar indi ancaq Allaha ayanıydı. Deyilənə görə, Rusudan Qiyasəddinin gözəlliyi qarşısında duruş gətirə bilməyib razı olmuş, amma biçarəni taxt-taca yaxın buraxmamış, hətta validə-

sinin adını verdiyi qızı doğulandan sonra da bəxtikəm Qiyasəddin övrətinin nəzərində layiq olduğu mərtəbəyə ucalmamışdı. Bilmirəm, nə qədər doğruydu, deyilənlərə görə, Rusudanın öz təbəələrindən bir məşuqu da varmış, bunu zavallı Qiyasəddin də bilirmiş, zövcəsi hətta onun gözləri qarşısında sevişməyi belə özünə rəva görürmüş. Hökmdar, bəlkə, elə buna görə oğlu David doğulandan sonra ərini zindana saldırmışdı? Xarəzmşah Cəlaləddin Tiflisi tutanda biçarə Qiyasəddini zindandan çıxartdırıb hüzuruna gətirtmiş, məzlum halını görəndə də rəhmi gəlib buraxmışdı. Amma sultan səfərə çıxan kimi, o məzlum Kütaisə qaçıb xarəzmlilərin Tiflisdəki qoşunlarının az olduğunu xəbər vermiş, gürcülər də qoşun toplayıb dəstəni qaçmağa məcbur eləmiş, şəhəri talayıb yandırmış, sultanın geri döndüyünü eşidəndə də dabanlarına tüpürüb qaçmışdılar. Sonralar o bədbəxtin başına nə gəldiyini bilən yoxudu. İndi səltənətə yiyələnmiş adaşı Qiyasəddin də belə bir zillətli izdivacdan dünyaya gələn qızın gözəlliyinə üzünü görmədən vurulmuş, Rusudana dönədönə yalvarış dolu məktub yazmış, axır ki, istəyinə çatmışdı.

Arada Siracəddin xoşbəxt görkəmlə qulağıma ata olmağa hazırlaşdığını söylədi, amma utana-utana bu müjdəni də şeyxə mənim çatdırmağımı təvəqqe elədi, mən də istəyinə əməl eləyib onun da, şeyxin də könlünü sevindirdim. Gün əyiləndə ordan çıxıb yolumu səbəbsiz-filansız çarşıdan saldım, cürbəcür qiyafəli adamların arasından keçib gedirdim ki, qəfildən lap yaxınlığımda *kölgəmi* hiss eləyib həyacanlandım, az qaldı, ürəyim ağzımdan çıxsın, amma heç ora-bura döyünməyə macal tapmadım, bir əl qolumdan dəmirçi tutğacı kimi yapışdı, məni dartıb qoşa sütunun arxasındakı xəlvətə çəkdi. Qəribəydi ki, o əllərdən qurtulmağa can atmadım, elə bil, məramını, məqsədini bilirdim. Gözlərimin qarşısında üzü niqablı baş peyda oldu, sağ yanağımı odlu nəfəs qarsaladı, etiraza-filana yer qoymayan səs qulağımı deşdi: "*Ey Şəms, əndişəyə düşmə, dost yanındasan. Vaxt itirmədən Qeysəriyyəyə yola çıx, orda yolunu gözləyən, sənə ehtiyac duyan kəslər var. Allah yolunu açıq eləsin! Amin!*" Sonra da qəfil çıxan Günəşin yox elədiyi kölgətək qeyb oldu.

Xeyli durduğum yerdən tərpənmədim, *kölgə*nin təsiri bir qədər ötüşəndən sonra fikirləşdim, yəqin, Surətim dardadı, mənə çox ehtiyacı var, bu səbəbdən, gəlməyimi istəyib. Parəndəlik siqlətim cismimə qayıtdı, özümü mədrəsəyə yel kimi saldım, olan-qalanımı yığışdırdım, həsirimi büküb dağarcığıma təpdim, dağarcığı da çiynimdən asıb qeyb oldum.

Qeyb olduğumu, güman ki, yoxluğumdan xəbər tutanda Şeyx Əsədəddin, bir də hələ xoşbəxtlik dəryasının qəvvası olan Siracəddin fikirləşəcəkdi. Mənsə Parəndə Şəmsə dönmüşdüm, gündüzlər dayanmadan yol gedir, ancaq namaz qılmaq, bir tikə çörək yemək üçün dayanır, axşamlar Allahın rast gətirdiyi çala-çökəkdə, oyuqda, arx qırağında, ağac altında, hasar dibində, bəxtim gətirəndə də karvansarayda, yaxud müsafirxanada gecələyirdim. Atlı, qatırlı, dəvəli yolçular yanlarından yel kimi ötdüyümü görüb arxamca təəccüb dolu nəzərlərlə baxırdılar. Onların çaşqınlığı da mənə güc verir, yazın ətrini ciyərlərimə çəkə-çəkə güneyə doğru gedir, Sürətimin belə qəfil ismarışının səbəbini anlamağa çalışırdım. Ola bilsin, Nəsirəddin Xocanın başına nəsə gəlmişdi, yardımım lazımıydı; yaxud əsnaflar ocağıyla bağlı çətinlikləri ortaya çıxmışdı, bu səbəbdən, mənə ehtiyac duymuşdu; başqa bir səbəb də ola bilərdi, amma hələ ağlıma doğru-dürüst bir şey gəlmirdi. Hər halda, artıq yoldaydım, fəlakətə uğramış Ərzurum, əlli-ayaqlı itkin düşmüş Əcəm Əli, gözləri yaşlı tifil Vəhid, həmişə hörmət-izzət, yaxşılıq gördüyüm dəftərdar İzzəddin, başı dövlət işlərindən açılmayan Məlik Mübarizəddin, onun dərs dediyim üç ildə xeyli yetkinləşmiş övladları, artıq bəzilərinin adlarını unutmağa başladığım tələbələrim, talesiz Şərafəddin Xocanın Ərzincandakı qərib məzarı, bu yaxınlarda ata olub gündəlik qayğılardan başı açılmayacaq Siracəddin, dərgahın işlərindən çox dövlət məsləhətləriylə maraqlanan Şeyx Əsədəddin, əlinin təması hələ də qolumda qalmış *kölgəm* – bu yerlərdə ömrümdən keçənlərin hamısı *(təkcə kölgədən əmin deyildim, bəlkə də qarabaqara arxamca gəlirdi)* geridə qalmışdı.

Sərqışlanı ötdüm, Sarıoğlandakı karvansarayda nəfəsimi yarım günlüyə də olsa, dərmək üçün dayandım. Mən ora çatanda gün qüruba əyilmişdi, fikirləşdim, gecələyib obaşdan yola çıxaram. Gözdən iraq səmtdə hücrə aldım, buyruqçu istədiyim bir kasa şorbanı gətirəndən sonra qıfılımı qapıdan asdım, qıfıllayıb açarını boynumdakı kisəmə qoydum, kiçik tasda abdəst alıb namazımı qıldım, oturub şorbanı əl boyda çörəklə yedim, həsirimin üstündə yerimi rahatlayıb kürəyimi divara söykədim, yorğunluqdanmı, nəydi, hiss eləmədən məni huş apardı. Nə qədər keçmişdi, bilmirəm, yerimdən qalxdım, ayaqlarım həsirdən üzüldü, asta-asta qalxıb açıq nəfəslikdən çölə çıxdım, qatılaşmağa başlayan qaranlığa hopdum, eləcə, asta-asta ucalmağa başladım. Qatları keçdiyimi duyurdum, keçid məqamında canımı anlaşılmaz, xoş gizilti bürüyürdü. Beləcə, altı qatı ötdüm, yeddinci qatın hüdudunda vücudlarını görmədiyim, ancaq nəfəslərini duyub, səslərini eşitdiyim kəslər yolumu kəsdilər, qulağıma hansınınsa səsi gəldi: *"Ey Şəms, Dosta yetişmək üçün çox tələsdiyin, gecə-gündüz bu haqda düşündüyün bizə məlumdu, amma tələsmə, hər şeyin öz məqamı var. Son sınağa da tab gətirsən, illərlə intizarını çəkdiyin, həm də sənin intizarında olan Dostuna qovuşacaqsan! İndi qayıt hücrənə, yorğunluğunu çıxar, səndən imdad istəyən kəsin harayına yetiş!"* Sonra asta-asta endiyimi hiss elədim, qatları keçdikcə yaz havasını daha yaxşı duydum, axırda bihuş oldum, karvansarayın nəfəsliyindən süzülüb hücrəmə düşdüm. Ayılanda gördüm, elə kürəyimi divara söykəmiş vəziyyətdəcə huşa getmişəm. Amma *o nəfəs* də, *o sözlər* də yadımdaydı: deməli, Qeysəriyyəyə ikinci gəlişim mənə *Dost*a gedən qapını açacaqdı. İçimin dərinliklərindən qopan hayqırtını zorla boğub inildədim: *"Kimsən, ey Dost? Hardasan? Bil ki, mən əyninə Eşq geyindirdiyim bu könülə söz verdim, heç bir hərfi sənsiz bir cümləyə qurban vermədim. Allah səni mənə yazıbsa, heç yerə qaça bilməzsən, lakin qədər məndən alıbsa, ağlamağa lüzum yoxdu"...*

SƏKKİZİNCİ MƏQAM

Qeysəriyyə

YEDDİNCİ QAPININ KİLİDİ

Qəmzələndi könül, yenə dəvası ahdı,
Könlü məhzun olanın dostu Allahdı.





...Axır ki, obaşdan Sarıoğlan karvansarayından çıxıb yola düzələndə Sivasdan bəri nəfəsini böyür-başımda duyduğum *kölgəm* bəni-Adəm qılığına düşüb yanımca addımlamağa başladı. Məndən xeyli cavan, qırx yaşlarında, başlığının altında sifəti zorla seçilən kişiydi, sağ əli qurşağının altındaydı, sol əlində qısa əsa vardı. Dedi, Allahın salamı olsun, yolun uğurla bitsin. Salamını aldım, dedim, yolun uğurla bitməyi Rəbbimə bağlıdı. Başını tərpədib dedi, yol yoldaşla gedəndə daha maraqlı olur, yolçu yolun ağırlığını yoldaşıyla bölüşəndə daha az yorulur, mənzilbaşına daha asan çatır; dedi, dan yerinin nuru köməyimiz olsun, Qeysəriyyəyə sağ-salamat yetişək, yolumuzu intizarla gözləyənlərə qovuşaq. Bildim ki, onun barəsində mənə heç nə məlum olmasa da, barəmdə çox şeyi, kiminlə görüşəcəyimi bilir, vəzifəsi də tapşırılan kəsi sağ-salamat Qeysəriyyəyə çatdırıb o zata – Surətimə təslim eləməkdi. Əslində, bu, Xəlifə Nasirin, Şeyx Övhədəddinin, Nəsirəddin Mahmudun, Surətimin zəkasından doğulan qardaşlığın vəzifələrindən biriydi. Görünür, o zəka sahibləri Həsən Sabbahın, Əlamut fədailərinin əməllərinə çox yaxşı bələdiydilər, qardaşları mənə məlum olmayan yerlərdə mümkün qədər yaxşı yetişdirirdilər ki, aradan götürülməli kəslərin işini bitirəndə göz açmağa belə macal tapmasın, qorunmalı kəsləri də canları bahasına belə, mənzil başına sağ-salamat çatdırsınlar. Güman ki, təkcə Diyari-Rum şəhərlərində yox, Tiflisdə, Muğanda, Təbrizdə, Bağdadda, Şamda,

Hələbdə... ancaq özlərinə məlum olan yollarla vəzifələrini yerinə yetirən bu qardaşlardan vardı.

O, adımı çəkmədən danışırdı, elə bil, məni Təbrizli Şəms kimi yox, yolda təsadüf üzündən rastlaşdığı bir Allah bəndəsi, yolu gödəltmək üçün söhbət yoldaşa ehtiyacı olan yolçu sayırdı – görünür, bu da onların vəzifə tələblərindən biriydi: qorunan kimsə qorunduğunu bilməməlidi ki, izafi hərəkətləriylə onun işinə maneə törətməsin. O da havadan, sudan danışdı, yağış yağmamasından yanıxdı, dediyinə görə, dünən mən çatmazdan əvvəl Sarıoğlan camaatı yağış duasına çıxıbmış, duadan sonra gözləri göydə xeyli gözləyib, bir parça dümağ, sərgərdan buluddan başqa bir şey görməyib çar-naçar geri qayıdıblar. Sonra dedi, Qeysəriyyədə şəhər əhli susuzluqdan Dördquyulardan çəkilən su xətti sayəsində qurtulub, o vəqfi quranlar da çeşmələrin yanına xüsusi adamlar qoyublar ki, israfın qabağını alsınlar, çünki hələ irəlidə uzun yay var, yağış yağmasa, Dördquyulardakı mənbə də soğula bilər; ardınca dedi, çeşmənin birini sultanın saray bağında, birini də Sahib Şəmsəddinin imarətinin həyətində qurublar. Az qaldım, Seyyid Bürhanəddinin hələ sağ olub-olmadığını, Nəsirəddin Xocanın zindandan buraxılıb-buraxılmadığını soruşum, özümü güclə saxladım; bununla onun, əslində, kimliyini unadığımı büruzə verər, oyunun qaydalarını pozardım, məsləhət bildiyi şeyləri özü onsuz da danışacaqdı, mənim borcum onun öz vəzifəsini yerinə yetirməsinə şərait yaratmağıydı. Əvvəlcə gülməyim tutdu: mənim qorunası nəyim vardı, uzaqbaşı, qoynumdakı beş-üç ağcanı alardılar, dağarcağımdakılar kimsəyə lazım deyildi, beynimdəkilərə də əlləri çatmazdı; bununla belə, *kölgəm*i qova da bilməzdim – Günəşin saldığı kölgəni qovmağa çalışmaq səfehlik olardı, məqamında özü yoxa çıxacaqdı.

Günorta namazına dayananda *kölgəm* heybəsindən qumqumasını çıxardı, hörmətlə su töküb abdəst almağıma kömək elədi, amma əlinə su tökməyimə razı olmasa da, israrımdan son-

ra boyun qaçıra bilmədi. Oturanda heybədən bir parça çörək, iki tikə qaxac ət çıxardı, çörəyi yarı böldü, tikənin birini mənə verdi, bismillah eləyib yeməyə başladıq. Yemək müddətində dinib-danışmaması xoşuma gəldi, ağzını silib "ələhimdülillah" söyləyəndən, üstündən bir qurtum su içəndən sonra dedi, Allahın lənətinə gəlmiş tatarların təhlükəsi də quraqlıq azarından betər olub, buralara gəlib çatan xəbərlərə görə, öz qanında boğulan Baycu Noyon yenə Muğandan tərpənib, hara üz tutacağını, hara basqın eləyəcəyini, haranı viran qoyacağını hələ kimsə bilmir; dedi, Ərzuruma elədiyini eləyib, hələ bir neçə il özünə gəlməz, ordan günbatana – Ərzincana, Tərcana, Sivasa keçmək fikrinə düşsə, sultanımızla üz-üzə gəlməli olacaq; dedi, qış ərzində yeyib-yatıblar, taladıqlarının axırına çıxıblar, qoşun qənimət istəyir, bu səbəbdən, bir neçə şəhərə soxulmalıdı ki, o qəniməti təmin eləyə bilsin; dedi, üstəlik, yəqin, sultanımızın digər iqamətgahları olan Qeysəriyyə də, Konya da talan eləmək istədiyi şəhərlər sırasındadı, onda Sivasın qorunması vacibdi, belə çıxır, Baycu Noyon üzünü bu səmtə tutsa, sultanımız onu Sivas tərəfdə qarşılayacaq, Sunqur Lələnin də Qeysəriyyədə olması bundan xəbər verir. Ona qulaq asa-asa beynimdən bu xəbəri Məlik Mübarizəddinin alıb-almadığını, Əcəm Əlinin tapılıb-tapılmadığını, tifil Vəhidin necə yaşadığını keçirdim, içimi ağrı hissi bürüdü...

***

...Şəhərə Sivas qapısından, günün son saçaqları Yer üzündən çəkiləndə girdik. *Kölgəm* də, elə bil, Günəşin o saçaqlarından biriydi, səssiz-səmirsiz peyda olduğu kimi, hissedilmədən də yoxa çıxdı – yəqin, bağlı olduğu kəsin yanına gedib buyruğu yerinə yetirdiyini söyləyəcəkdi. Mənsə, adətim üzrə karvansarayda yox, Dabbaqlar çarşısına, Xeyrəddinin dükanına üz tutdum – Surətimi orda tapmasaydım, evinə gedəcəkdim. Üç ildən sonra tanış yerləri, heç birinin adını bilməsəm də, tanış adamları

görmək, tanış qoxuları duymaq, elə bil, beynimi bir qədər dumanlandırmışdı, özümə gəlmək niyyətiylə çarşının qarşısındakı çeşmənin yanında ayaq saxladım, əl-üzümə su vurub toxtadım, taleyin gərdişiylə Qeysəriyyə bu ikinci gəlişimdə hər hansı hikmət olub-olmadığı barədə düşündüm. Amma bir şeyə əmindim: *Dost* Qeysəriyyədə deyildi, belə olsaydı, onu canımla-qanımla duyar, qovuşmaq üçün bütün maneələri aradan qaldırardım. Görünür, bura gəlməyim Rəbbimin məndən ötrü son sınağıydı, ya *Dost*un surətini göstərən qapını açacaq, ya da elə burdaca canımı alacaqdı. Surətimin də sağ-salamat olduğuna arxayındım, başına bir iş gəldəydi, *kölgəm* söyləməsə belə, dərhal mənə ayan olardı. Dər-ül-mülkə çağırılmağım hələ bilmədiyim vacib məsələylə bağlıydı.

Dabbaqbaşı Xeyrəddin məni görəndə sevindi, əl-ayağa düşdü, dərhal buyruqçunu Surətimin ardınca göndərdi, sonra əndişəmə son qoymaq üçün dedi, sağ-salamatlıqdı, Seyyid Bürhanəddin tamam əldən düşsə də, hələ canı üstündədi, Sahib Şəmsəddinin də məqamı ucalib, indi sultanın ən yaxın adamları arasındadı, hətta güvəndiyi iki cüt, bir tək əyan-əşrəfdən birdi; dedi, Dördquyulardan çəkilmiş su xətti də üzlərini ağardıb, camaatın arasında hörmətlərinin birə beş qat artmasına səbəb olub; dedi, Nəsirəddin Xoca hələ zindandan buraxılmayıb, Surətimin bütün həmlələri daşa dəyib, geri qayıdıb, hətta Sahib Şəmsəddinin səyləri belə, boşa çıxıb, amma Sahib Şəmsəddinin bu məsələdə yetərincə səy göstərdiyi şübhəlidi, çünki o hökmün sahibi cani-dildən istəsəydi, bu illər ərzində cahan padşahının qəlbinə yol tapa, nəşəli vaxtlarında günahsız xocasının əfvini təvəqqe eləyə bilərdi; dedi, ola bilsin, Nəsirəddin Xocanın zindanda qalmasının səbəbkarlarından biri, bəlkə, birincisi elə Sahib Şəmsəddinin özüdü, onun hörmət-izzətindən çəkinir, sabah dər-üs-səltənənin, eləcə də səltənətin hüzurunu qaçıracağından qorxur; dedi, indi, Baycu Noyonın qorxunc qoşununun sel kimi gəldiyi vaxtda Nəsirəddin Xocanın hürriyyətə qovuşmasının

xeyirdən başqa bir ziyanı ola bilməzdi; dedi, hələ Gücrü Xatunun ağuşundan çıxmayan, eyş-işrətdən başı açılmayan sultan məmləkəti fəlakətdən qorumaq üçün düşünmür, düşünsəydi, indi qoşunla Ərzurum qapısını kəsdirmişdi. Xeyrəddin bütün bunları Surətim gəlib çıxanacan, qayğılı görkəmlə, həm də sultanla bağlı məqamlarda səsini qısa-qısa, ağzını qulağıma yaxınlaşdıra-yaxınlaşdıra danışdı, arada çıxıb kiminləsə xısın-xısın danışdı, başa düşdüm ki, üzə vurmasa da, narahatdı, üstəlik, ortada hələ söyləmədiyi çox şeylər var. Amma soruşmadım, susdum, çünki Xeyrəddin məsləhət bildiyi qədər danışmışdı, bundan oyanası Surətimin haqqıydı.

Surətim qapıdan girəndə məni, elə bil, əllə qaldırdılar, dikəldim, üz-üzə, göz-gözə dayanıb xeyli baxışdıq, bir-birimizi sözsüz-sovsuz başa düşdük, sonra dinib-danışmadan da qucaqlaşıb xeyli beləcə qaldıq. Surətimin qoxusu çox doğmaydı, valideynlərimin qoxusundan sonra belə doğma, məhrəm qoxu duymamışdım, amma *Dost*un qoxusu qədər də başgicəlləndirici deyildi. Az qala, başımı onun çiyninə qoyub gözyaşı axıda-axıda illərlə içimdə yığılanları dilimə gətirəcək, ürəyimi boşaldıb rahatlanacaqdım. Onun da beynindən eyni fikrin keçdiyinə əmindim. Amma Xeyrəddinin içəridə olmsı bizi özümüzə gətirdi, aralandıq, döşəkcələrin üstündə əyləşib uzun-uzadı susduq, daha doğrusu, sözsüz-sovsuz danışdıq. O, dedi, sən gedəli gözlərim yollarda qaldı, bir soraq alanacan dinclik tapmadım; dedi, yəqin, uzaqdan-uzağa səni qorumağımdan da darılmısan, neynim, dünyanın yolları oğru-əyriylə, naxələf, anasının əmcəyini kəsənlərlə doludu, istəmirəm, ucuz ölümün qurbanı olasan, hələ gediləsi uzun yolun, çatılası böyük hədəfin var; dedi, Qeysəriyyə qayıtmağın da səni o hədəfindən yayındırmayacaq, bəlkə də xeyli yaxınlaşdıracaq. Mən dedim, bilirsən ki, həyatım öz əlimdə deyil, Rəbbimin buyurduğu kimi yaşayır, *O*-nun məsləhət bildiyi yerə gedirəm, indi də Qeysəriyyəyə dönməyi məsləhət bilibsə, deməli, bunda hikmət var; dedim, məni uzaqdan-uzağa

qorumağından da darılmamışam, çünki qorunmalı bir şey yiyəsi deyiləm, qoynumdakı beş-üç ağcanın məndən ötrü böyük dəyəri yoxdu, beynimdəkilərə də Rəbbimdən başqa kimsənin əli çatmaz; dedim, Qeysəriyyəyə dönməyimdə hikmət varsa, məni *Dost*a yaxınlaşdıracaqsa, *O*-na şükürlər olsun.

Axırda sükutu mən pozdum, əvvəlcə Seyyid Bürhanəddinin halını soruşdum. Surətim dedi, Allaha ağır getməsin, hələ yaşayır, amma o cür yaşamaqdansa, ölüm yaxşıdı: yataqdan qalxa bilmir, gecəsini-gündüzünü qarışdırır, günün çox vaxtını huşsuz olur, ehtiyaclarını buyruqçunun tutduğu qaba ödəyir, gündə boğazından iki-üç qaşıq şorba zorla keçir; dedi, sən gedəndən bir həftə sonra Konyadan müridi Molla Cəlaləddin ziyarətinə gəldi, çox yalvarıb-yaxardı, özüylə aparıb orda həyan durmaq istədi, amma pir olmuş getmədi ki, getmədi, Molla Cəlaləddin də Konyaya kor-peşman, əli ətəyindən uzun qayıtdı; dedi, amma Seyyid Bürhanəddin ona sənin haqqında nə deyibmişsə, harda olduğunu soruşdu, Ərzuruma üz tutduğunu biləndəsə pərişanlıq girdabına cumdu, dedi, yolu Konyadan düşsə, özümü dünyanın bəxtəvər adamı sayaram; dedi, Seyyid Bürhanəddin də huşa gələndə səni soruşur, nə vaxt qayıdacağınla maraqlanır, fikirləşdim, bəlkə, biçarəni huşu özündəykən görə bildin, həm də aləmin qarışdığı vaxtda Qeysəriyyədə olub, bizə mənən yardım eləməyin Allahın da xoşuna gedər. Sonra Nəsirəddin Mahmudun halını soruşdum, dedi, bütün yollarımız bağlandı, Sultan pirimizə hürriyyət vermədi ki, vermədi; dedi, Sahib Şəmsəddinin kandarını yağır elədim, Molla Cəlaləddinə, Sədrəddin Konəviyə, hətta Cəlaləddin Karataya ağız açdım, amma oxum daşa dəydi, hər dəfə müəmmalı cavablar aldım, görünür, onun zindanda qalması təkcə sultanın yox, ətrafındakı bəzi zatların da istəyidi, pirimizdən qorxub-çəkindikləri var; dedi, onun adı çəkiləndə Sahib Şəmsəddinin sifətinin nə hala düşdüyüni gördüm, dərk elədim ki, pirimizin indiyəcən dar ağacından asılmamasına da şükür eləmək lazımdı, qalanısa Allahın əlindədi,

necə məsləhət bilirsə, elə də olacaq, mıxı mismara döndərən o hikmət sahibidi.

Sonra Sürətim məsələnin məğzinə – məni, əslində, Qeysəriyyə nəyə görə çağırdığına keçdi, dedi, Bərdə bazarında çərçilik eləyən qardaşımız gəlib, Baycu Noyonun Muğan düşərgəsindən qalxıb, Diyari-Ruma sarı üzü tutduğu barədə xəbər gətirib, görünür, payızda yarımçıq qoyduğu işini başa çatdırmaq, Ərzincanı quzeydəki dər-üs-səltənəni – Sivası tutmaq, sonra da bu tərəfə üz çevirmək istəyir; dedi, dərhal Sahib Şəmsəddinlə görüşdüm, bu xəbəri sultanımıza çatdırmağı, məmləkətimizi böyük fəlakət gözlədiyini, qarşısı alınmasa, torpaqlarımızın tapdaq altında qalacağını başa salmağı təvəqqe elədim; dedi, belə mühüm xəbəri ondan əvvəl bilməyim xoşuna gəlməsə də, yarıkönül razılaşdı, amma saraydakı qardaşımızın məlumatından başa düşdüm ki, cahan padşahı bu xəbəri ciddi qarşılamayıb, daha doğrusu, Baycu Noyonu ciddi düşmən kimi qəbul eləməyib, deyib, keçən dəfə qorxusundan Ərzincanı bəri keçə bilmədi, indi gələcəyi varsa, görəcəyi də var, ona elə zərbə vurum ki, axirətəcən dadı damağından getməsin; dedi, bilirəm, bu, sultanın yox, ətrafındakı özü ağılda, özü yaşda olan süfrədaşlarının fikridi, elə bilirlər, muzdla tutduqları firənglər, rumlular, ruslar, ermənilər, yardım gözlədiyi əyyubilər cani-dildən döyüşüb torpaq qoruyacaqlar, amma canı, qanı, ruhuyla bu torpağa bağlı olmayanlar məmləkəti də, səltənəti də xilas eləyə bilməzlər; dedi, Baycu Noyonun ermənilər, gürcülər də qatılmış qoşununun qarşısını gərək Baba İlyasın dərvişləri, torpaq sevgisi gözlərindən oxunan türkmanlar kimi şəhidliyə hazır Allah bəndələriylə çıxasan; dedi, gələn fəlakətin qabağı Nəqşivanda, Ərzurumda, Ərzincanda, ən azı, Sivasda alınmasa, səltənət çökəcək, belə halda, bizim kənarda qalmağımız, fəlakətin gəlib çatmasını gözləməyimiz xəyanətə bərabər olar.

Şübhəsiz, Surətimi ən çox rahatsız eləyən sultanın halı, daha doğrusu, ətrafı sayəsində düşdüyü girdabıydı; deyirdi, düşmən

gəlib qapısına dirəndiyi vaxtda belə, Gürcü Xatunun qoynundan çıxmır, eyş-işrətinə ara vermir, qoşununu sərf-nəzər eləmir; deyirdi, sultan indi gərək gecə-gündüz yatmaya, Şama – Əyyubi sarayına, Bağdada – Xəlifə Mötəsimbillahın yanına, lap elə Konstantiniyyəyə – Bizans hökmdarının hüzuruna, Trapezund kralının üstünə elçi göndərə, tatar bəlasından birgə qurtulmaq üçün yollar araya, amma o, kefindən qalmır, ağlını itirənəcən içir, günün çox vaxtını məst olur, ayılanda da əməllərindən xəcalət çəkmək əvəzinə növbəti məclisi qurdurur; deyirdi, Konyada olanda məmləkətin halından rahatsızlıq duyanlar hökmdarın ən çox hörmət elədiyi kəslərlə – Sədrəddin Konəviylə, Molla Cəlaləddinlə görüşüb əndişələrini dilə gətiriblər, amma cəhdləri nəticəsiz qalıb, eyni hal Qeysəriyyədə, Əlaiyyədə də davam eləyir; deyirdi, sabah günçıxandan sel kimi axışıb gələn tatarların qabağında duruş gətirə bilməsə, cənnətməkan Böyük Sultan Əlaəddinin də, bu torpaqları vətən eləmiş cənnətməkan Sultan Alparslanın da məzarda sümükləri sızıldayacaq; deyirdi, ta Türküstandan, Mavəraünnəhrdən, Xorasandan qovula-qovula gəlib bu torpaqlarda sığınacaq tapan türkmanların tatar əsarəti altına düşməsi Allahın da, bəndənin də xoşuna getməz; deyirdi, pirimiz hürriyyətinə qovuşsaydı, özümüzü daha güclü hiss eləyərdik, amma onun yolunun yolçusu olduğumuzdan, indi də boynumuza düşəni yerinə yetirəcəyik, artıq getməli yerimiz yoxdu, vətənimiz də, məzarımız da bu torpaqlar olacaq.

Sonra çox şeylərdən – Dördquyulardan çəkilmiş su xəttindən, Nəsirəddin Xocanın, onun yolunu gözləyən Fatma Bacının halından, əsnafın işindən, yayın istisindən, yağmur duasına çıxan adamların umudundan danışdı, amma fikrim beynimin bir küncündə ilişib-qalmış sualın yanındaydı: *Seyyid Bürhanəddin mənimlə bağlı Molla Cəlaləddinə nə deyib, Molla Cəlaləddin məni niyə soruşub?* Surətimə bununla bağlı nəsə məlum olsaydı, yəqin, gizlətməzdi, çünki ortada gizlədiləsi mətləb də yoxudu: Molla Cəlaləddinlə üz-üzə gəlməmişdik, bir-birimizi

elə uzaqdan-uzağa tanıyırdıq, Bəhaəddin Vələd kimi şeyxin tərbiyəsini görmüş, Seyyid Bürhanəddintək tərbiyəçisi olmuş, məmləkətin də, səltənətin də ağırçəkili zatlarıyla oturub-duran, artıq cahan padşahının sayıb-seçdiyi şəxs olan Molla Cəlaləddin məni nə səbəblə arzulaya bilərdi? Axşam namazımızı qılıb Xeyrəddinin hazırlatdığı süfrədə qarnımızı doyuranda da bu barədə fikirləşirdim. Sonra Surətim razılaşmayacağımı bilsə də, evində qalmağımı təklif elədi, dedim, rahat olmağımı istəyirsə, elə ötən dəfə düşdüyüm karvansarayda, elə həmin hücrədə yerləşməyimə izin versin, çünki uzun illərin adətkarıyam, karvansaray hücrələrində daha rahat oluram, o da sözümü çevirmədi. Buyruqçunun gətirdiyi şərbəti içdik, Xeyrəddinlə sağollaşdıq, çarşıdan çıxıb axşamın yenicə enən toranlığında Dabbaqlar karvansarayına doğru endik. Aralananda Surətim dedi, səni sabah günorta namazından sonra Seyyid Bürhanəddinə baş çəkmək üçün gözləyəcəyəm...

***

...Tanış karvansarayçı məni doğma adamı kimi qarşıladı, üstəlik, sevinə-sevinə ötən dəfə qaldığım hücrənin Allahdan boş olduğunu söylədi, qapıdan içəri girənəcən dalımca gəldi, sonra taxçadakı qəndili yandırıb, başqa bir arzum olub-olmadığını soruşub, xeyirli gecə arzulayıb getdi, mən də qıfılımı qapıdan asdım, başmaqlarımı, xirqəmi soyundum, külahımı başımdan götürdüm, həsirimi heybədən çıxarıb yerə saldım, oturub kürəyimi divara söykədim, gözlərimi Ayın nəfəslikdən sızan ziyasına zilləyib xatirələrim, suallarım, düşüncələrimlə tək qaldım. Az qala, dörd il sürən Ərzurum, Ərzincan, Sivas yolçuluğundan yaddaşımda qalanları irdələdim, Əcəm Əlini, tifil Vəhidi, dəftərdar İzzəddini, Məlik Mübarizəddini, onun bir cüt oğlunu, memar Qütbəddini, rəhmətlik Şərafəddin Xocanı, Siracəddini, Şeyx Əsədəddini, hətta dərviş Hüsnəddini belə xatırladım. Əlbət ki, məni yandıran Əcəm Əlinin izsiz-tozsuz yoxa çıxmasıy-

dı, öldürülsəydi, bir nişanəsi qalardı, tanıyan-bilən salıq verərdi, sağ qalsaydı, ocağına qayıdardı, amma yoxudu, yağlı əppəyə dönüb göyə çıxmışdı. Gümanım yenə Sivasda ağlıma gələnlə bağlıydı: Baycu Noyon, yaxud onun adamlarından biri Əcəm Əlinin yaxşı aşbaz olduğundan xəbər tutub zor-xoş öz xidmətinə götürə bilərdi – hələ ki, bundan ağlabatan bir şey düşünə bilmirdim. Sonra fikirləşdim, Siracəddin də, Şeyx Əsədəddin də Sivasdan qeyb olduğumdan xəbər tutanda eyni hala düşəcək, cürbəcür gümanlar içində çırpınacaqlar, amma mən artıq Qeysəriyyədəydim, tanış karvansarayın tanış hücrəsində, həsirimin üstündə kürəyimi divara söykəyib oturmuşdum, olub-keçənlər, daha çox da Seyyid Bürhanəddinlə Molla Cəlaləddin arasındakı mükalimə barədə düşünürdüm, bu müəmmaya sabah, az da olsa, aydınlıq gətirmək ümidindəydim...

Bununla belə, ümidim boşa çıxdı: səhəri gün günortayacan hücrədə tasalananda, sonra karvansarayın ətrafında, çarşının yaxınlığında vurnuxanda, günorta buyruqçunun gətirdiyi şorbaya gözucu belə baxmayıb vədələşdiyimiz vaxt Surətimin evinə gedəndə, birgə Seyyid Bürhanəddinin yanına yollananda hələ suallarıma cavab kimi, ipucu da olsa, alacağıma gümanım vardı. Onu huşsuz halda görəndəsə ümidimi itirdim: buyruqçunun dediyinə görə, son günlər huşu özünə qayıdanda bir neçə kəlmə deyə bilirdisə, indi onu da bacarmır, ancaq sönmüş, dibində bircə çınqı işıq qalmış gözləri danışır, onun da dilindən Allahdan qeyri baş açan olmaz. Zavallının yatağının yanında oturdum, tamam soğulmuş, az qala, yumruğum boyda olmuş sifətinə baxdım, quruyub taxtaya dönmüş əlindən yapışdım. Allah üzümə baxdı, deyəsən, təması duydu, bir qədər canlandı, göz qapaqları səyridi, aralandı, yarıqdan bomboş, sönmüş ocaq yerini xatırladan giləsi göründü, zorla duyulan nəfəsi sinəsində çırpındı, bürüşmüş dodaqları tərpəndi, amma qulağımı ağzına nə qədər yaxınlaşdırdımsa, dediyini, daha doğrusu, demək istədiyini ayırd eləyə bilmədim. Yatağın yanında axşam azanı yaxınla-

şanacan oturduq, sonra ümidimizi kəsib namaza gecikməmək üçün qalxmalı olduq. Surətim yolda dedi, dərd eləmə, Allah bilən məsləhətdi, səni Qeysəriyyəyə belə məqamda gətirib çıxarıbsa, deməli, Seyyid Bürhanəddinin o sözlərini eşitməməyin məsləhətdi, ya da söyləməsə belə, o mətləb bir gün heç gözləmədiyin halda ortaya çıxacaq. Hələ ki, onun gümanıyla barışmaqdan başqa bir çarəm yoxudu. Məsciddə namazımızı qılıb Sürətimin könlünə dəyməmək üçün evinə yollananda, süfrəsinin təamını dadanda, şərbət içib ordan-burdan söhbət eləyəndə də fikrim elə hey hərlənib-fırlanıb mənhus sualın üstünə qayıdırdı: *"Seyyid Bürhanəddin Molla Cəlaləddinə nə deyib, Molla Cəlaləddin məni niyə axtarıb?"*

Amma elə səhəri gün baş verənlər sualları müvəqqəti də olsa unutdurdu. Səhər namazından az sonra buyruqçusu gəlib Surətimin məni dabbaqbaşı Xeyrəddinin xanəsində gözlədiyini söylədi. Buyruqçunun səsindəki tələşdən hövllənib, az qala, yüyürə-yüyürə özümü çarşıya çatdırdım. Surətim əndişəliydi, hücrəni dörd dolanırdı, dedi, gecə Ərzurumdan qardaşımız gəlib, Baycu Noyonun qoşunu hüdudlara çatıb, bəlkə, elə indi Ərzuruma girib, qənimətə susamış otuz min nəfərlik basqınçı qoşunun qabağında Sunqur Lələ və Məlik Mübarizəddinin yedi-səkkiz, uzaqbaşı, on minlik qoşunu heç yarım gün də tab gətirə bilməz; dedi, güman ki, indi dər-ül-mülkdə olan sultan artıq Baycu Noyonla döyüşməli olacaq, o döyüş də səltənətin qədərini müəyyən eləyəcək: ya Qiyasəddin Baycunu yenib cahan padşahı olduğunu sübuta yetirəcək, ya da Gürcü Xatuna yenildiyi kimi, tatar basqınçısına da yenilib ikinci bir zənənin – Ögedeyin dul zövcəsi Töregenenin əsarətinə düşəcək, bu da onun səltənətinin sonunu gətirəcək; dedi, sultanın xəzinə hesabına yığdığı yetmiş minlik qoşunun Baycu Noyonun döyüşlərdə bərkimiş əsgərləri qarşısında duruş gətirəcəyinə inanmaq istərdim, amma firəngdən, rumdan, rusdan, əyyubidən, ermənidən... imdad diləmək, onlara arxalanmaq Qiyasəddinin faciəsi-

di, bu məmləkəti sahibləri – bu torpaqları vətən eləmiş adamlar qorumalıdı; dedi, güman ki, qoşun elə günü sabah ordugahdan qalxıb quzeyə yollansın, amma biz Qiyasəddinə bel bağlayıb əli qoynumuzda otura bilmərik, sultan yenilsə, Baycu Noyon, yəqin, dər-ül-mülkün üstünə gələcək, bu səbəbdən, bacardığımızı eləməli, fəlakətdən az itkiylə qurtulmaq üçün tədbirlər görməliyik; dedi, ətraf yerlərdəki sınanmış, etibarlı adamların yanına çapar göndərib məşvərətə yığışmaq gərəkdi...

Bu məqamda dabbaqbaşı Xeyrəddinin xəbər bilmək üçün Keyqubadiyyə tərəfə göndərdiyi buyruqçu gəlib çıxdı, saraydakı adamı gördüyünü, sultanın günorta namazından sonra səfərə çıxmaq üçün hazırlaşdığını söylədi. Dediyinə görə, cahan padşahı həddən ziyadə nikbinmiş, Baycu Noyonun öhdəsindəki qoşunun sayını öyrənəndən bəri kefi daha da kökəlibmiş, əyan-əşrəfi, eyş-işrət yoldaşları da padşahı tərifləyə-tərifləyə asimana qaldırırlarmış, onların fikrincə, Böyük Sultan Əlaəddin Keyqubadın varisi zənənin göndərdiyi basqınçının qabağından qaçmayacaq, onu elə Diyari-Rumun quzeyindəcə darmadağın eləyəcək, Qeysəriyyəyə yaxın gəlməyə qoymayacaq. Cənnətməkan validi taxtda oturanda bir dəfə olsun belə, onunla səfərlərə çıxmamış, özünün altıillik səltənəti müddətində döyüş meydanlarına əmirləri, məlikləri, subaşıları göndərmiş, başqaları canlarını fəda elədiyi məqamda eyş-işrətdə, ovda, qadınların yatağında gün keçirmiş adamın qəfildən qeyrətə gəlməsi Surətimin fikrincə, heç xeyirli əlamət deyildi, Baycu Noyonla toqquşmanı təcrübəli əmirlərindən birinə tapşırsaydı, daha yaxşı olardı; dedi, şübhəsiz, bu, özünün qərarı deyil, ətrafındakılar beyninə salıblar, sayca ikiqat az olan düşmənə qarşı döyüşüb zəfər qazanmaq fürsətini, fikirlərincə, qazanılacaq zəfərin şöhrətini kimsəyə güzəştə getmək istəmirlər; saraydakı adamın çatdırdığına, buyruqçunun dediyinə görə, Ərzurum subaşısı Sunqur Lələ cəsarət eləyib, onun döyüş meydanına çıxmasının səltənət üçün təhlükəli olduğunu söyləyibmiş, amma cahan padşahından elə

sərt cavab alıb ki, daha cınqırını çıxarmayıb; buruqçunun şəhadətinə görə, sarayın ətrafı indi qələbəlikdi, səfər hazırlığı tamamlanmaq üzrədi, Sivas qapısı tərəfdəki ordugah da az sonra qalxacaq.

Sürətimin siması bu yay günündə payız səması kimi tutulmuşdu, əlləri belində hücrəni dörd dolandı, sonra pəncərənin ağzında dayanıb bayıra, öz dərd-sərinin ardınca ora-bura gedən adamlara baxdı, var gücüylə sıxdığı əllərinin ağardığını, sağ yanağının səyridiyini, dodaqlarının titrədiyini sezdim – dara düşəndə mən də bu cür hal keçirirdim. Sonra dönüb gözlərimin içinə uzun-uzadı baxdı, dilinə gətirməsə də, bildim ki, deyir, bizi irəlidə qara günlər gözləyir, ey Şəms, həm də, ola bilsin, o qara günlər məmləkətin, səltənətin qədərinə çevrilsin; deyir, cənnətməkan Böyük Sultan Əlaəddinin möhkəmlətdiyi, Hələbdən Ərzuruma, Sivasdan Amidəcən böyütdüyü, gorbagor Sadəddin Köpəyinsə öz çirkin oyunları sayəsində səfeh, əyyaş, arvadbaza yem elədiyi səltənət indi fəlakətlə üz-üzədi; deyir, həm də bu fəlakətin təməli təkcə Qiyasəddinin taxta çıxmasıyla yox, üstəlik, Şeyx Övhədəddinin ölümü, Nəsirəddin Mahmudun zindana atılması, Xəlifə Nasirin başlatdığı fütuhatın boğulması, fitnəçilərin Sultanı türkmanlara qarşı qaldırması, döyüş meydanlarında on minlərlə türkman dərvişin qət edilməsiylə qoyuldu; deyir, indi Baycu Noyon qoşununun sayca ikiqat az olduğunu bilsə də, Qiyasəddinin oturduğu taxtın laxlamış dayaqlarının əsdiyini, hökmdarın məmləkəti də, taxt-tacı da qorumağa təpəri olmadığını, yığılan muzdlu qoşunun bircə zərbədən qaçıb dağılacağını yaxşı bilir, bu səbəbdən, qorxub çəkinmədən üstünə gəlir; deyir, artıq vəziyyəti xilas eləmək barədə düşünməyə dəyməz, ağzından müxalif söz çıxaran başından olar, üstəlik, bir ağıllı adamın belə, sultana yaxınlaşmasına izin verməzlər, ey Şəms, müvazinətini, başlıcası da inamını itirmiş məmləkəti gözgörəti aslanın qabağına atırlar!

Ortaya çökmüş çarəsizlik havası taqətimizi tükətdi, oturduq, dərin düşüncələrə daldıq. Buyruqçu arabir çıxır, yeni xəbərlər gətirir, bizi şəhərdə baş verənlərdən agah eləyirdi. Deyirdi, küçələrdə zirehli döyüş paltarı geyinmiş yadellilər dolaşır, çarşı-bazardan gözləri tutanı dəyər-dəyməzinə alır, kimsə də səsini çıxara bilmir; deyirdi, əsnafın çoxu bəladan sivişmək niyyətiylə dükanlarını bağlayıb ilim-ilim itib, macal tapmayanlarsa, canlarının qorxusundan yadellilərin istədiklərini havayı belə verirlər; deyirdi, aşağı məhəllədə o yadellilərdən biri çarşıdan dönən zənənə əl atmaq istəyib, amma gavurun niyyətini duyan bir dəliqanlı qılıncını siyirib qarşısını kəsib, həmin məqamda Sahib Şəmsəddinin mühafizləri təsadüf üzündən yaxındaymış, özlərini yetirib toqquşmaya son qoyublar; deyirdi, sultan qoşunun nəfinə qırx araba alınmasını əmr eləyib, indi evbəev gəzib araba axtarır, dəyərindən xeyli ucuz qiymətə alır, etiraz eləyəni, ya satmayanı qırmanclayırlar; deyirdi, camaat padşahın günortadan sonra yola çıxmaq qərarından xəbər tutub, həm təəccüblənib *(səfərə, adətən, obaşdan çıxarlar axı),* həm də tamaşa eləmək üçün Sivas qapısı tərəfə axışmağa başlayıb; deyirdi, artıq şəhərin qapılarından hərb bayraqları asılıb, tacir-tüccar cahan padşahının zəfərlə qayıtması üçün qurban kəsdirir, ətini fəqir-füqəraya paylayır, günorta namazında da məscidlərdə dua oxunacaq.

Əlbəttə, cahan padşahını yola salmaq üçün Sivas qapısına getmədik, buna nə Surətimin, nə də mənim tabım vardı. Surətim Xeyrəddini məscidə, buyruqçunu da Sivas qapısına göndərdi, azan oxunanacan da dinib-danışmadan oturduq. Namazdan sonra minarədən cahan padşahı Sultan Qiyasəddin ibn Keyqubadın məmləkəti düşməndən qorumaq üçün şanlı qoşununun başında səfərə çıxdığı, Allahın yardımıyla səltənətinə göz dikən yağıları diz çökdürüb zəfərlə qayıdacağı, zəfərin bütün cahana yayılacağı, düşmənlərin canına qorxu salacağı vəd edildi, salavat çevrildi, ardınca kərənaylar səsləndi, təbillər gurulda-

dı, carçıların bağırtısı eşidildi, bütün bu qarmaqarışıqlıq Sivas qapısına doğru uzaqlaşanda Xeyrəddin qayıdıb gəldi, dedi, camaat padşahın səfərqabağı məsciddə namaz qılacağını söyləsə də, Qiyasəddin gəlməyib; dedi, padşaha güvənmək özünü aldatmaq olardı, hətta saraydan çıxanda belə, xumar olduğunu, eyş-işrət məclisləri üçün lazımi şeyləri, hətta qəfəsdə saxladığı vəhşi heyvanları, xəzinəsini arabalara yüklətdiyini, cariyələri də unutmadığını, Gürcü Xatunusa Əlaiyyəyə göndərdiyini söyləyirlər. Bazdan da buyruqçu Sivas qapısından qayıdıb gəldi, dedi, cahan padşahı heç qoşunun əhvalıyla da maraqlanmayıb, dərhal yola çıxmağı əmr eləyib, söylənənə görə, Sahib Şəmsəddinin gətirəcəyi əyyubi, sultanın çağırdığı erməni dəstələri də qoşuna Sivasda qatılacaqlar. Surətim söylənənlərə dinməzcə qulaq asdı, sonra səhərki fikrini bir də təkrarladı: havadan fəlakət qoxusu gəlir, məşvərət eləyib, şəhərin qorunması üçün çarə qılmaq, Malatyaya, Ağsaraya, Konyaya adam göndərib qardaşlara xəbər çatdırmaq zəruridi. Belə görünürdü ki, bu yay güman elədiyimizdən də isti keçəcək...

Sadəddin Köpəyin qətlindən sonra səltənət məqamında baş verən dəyişiklikləri, Cəlaləddin Karatayın saxlanc, həm də xas xəzinə vəziri, Sahib Şəmsəddinin naib, Sahib Müəzzəbidəddinin vəzir, Vəliyyəddin Tərcümanın pərvanəçi, Məcidəddin əl-Şərəfinin tərcüman olduqlarını bilirdim, Sahib Şəmsəddinin şəhərdə, sultanın əyan-əşrəfi arasında olmamasının səbəbinisə Surətim söylədi: ötən payız Baycu Noyan Ərzurumu dağıdıb yağmalayanda cahan padşahı bərk tələşə qapılıb, vəzirləri, əmirləri, qoşun başçılarını məşvərətə toplayıbmış. Çox danışıblar, axırda belə qərara gəliblər ki, qonşu məmləkətləri yaxşı tanıyan, məqam sahiblərilə dil tapmaqda mahir olan, şirin diliylə ilanı yuvasından çıxaran Sahib Şəmsəddini Sisə, həm də Şama göndərsinlər, o, Əyyubi məliklərini muzd müqabilində qoşun göndərmək üçün dilə tutsun. Sahib Şəmsəddin də yüz min dir-

həm, çoxlu qiymətli hədiyyə götürüb yola çıxıbmış, amma hələ səs-soraq yoxmuş. Surətim onun barəsində danışa vaxt səsində soyuqluq duydum, sorğulu-sorğulu üzünə baxdım, başını aşağı saldı, sonra dedi, Sahib Şəmsəddinin naiblik məqamına çatandan sonra çox dəyişdi, təkəbbür, əzəmət pərdəsinə büründü, qapısını açmaq belə müşkülə çevrildi, üstəlik, Seyyid Bürhanəddini də bilmərrə unutdu, himayəsini üzərindən çəkdi, o vaxtdan da bir kərə üz-üzə gəlməmişik; dedi, naib məqamına çatandan sonra pirimizin zindandan buraxdıra bilərdi, amma bununla bağlı dil tərpətmədi, deməli, onun hürr olmasını istəməyənlərdən biri, bəlkə də birincisidi.

Dabbaqbaşı Xeyrəddinin hücrəsindən çıxanda qəlbimizdə ağırlıq vardı, üstəlik, sultanın qoşunu şəhərdən uzaqlaşsa belə, camaatın üz-gözündə təlaş, daha çox çaşqınlıq duyulurdu. Surətim içinin ağrısını səsinə qatıb dedi, görünür, kimsə Sultan Qiyasəddinin Baycu Noyonu yenəcəyinə inanmır, çoxları əlaltından hazırlıq görür, quzeydən yenilgi xəbəri gəlsə, şələ-külələrini yığışdırıb Malatyaya, Konyaya, Hələbə, Şama qaçacaq, şəhər yalnız qara camaatın ümidinə qalacaq; dedi, sultanın yenilgidən sonra Qeysəriyyəyə qayıdıb sarayını da, hərəmini də qoruyacağına belə ümid bəsləyən çox azdı, çarəsizliyin səbəbi də budu; dedi, Sadəddin Köpək öz nəfsi ucabatından səltənəti elə çıxılmaza salıb ki, xilas yolu görünmür, indi onun yolunu Sahib Şəmsəddin gedir, saraydakı qardaşımızın dediyinə görə, sultanı ovcunda saxlamaq üçün bütün ağlından, bacarığından, qüdrətindən istifadə eləyir; dedi, amma indi Qiyasəddinin yanında olsaydı, döyüş meydanlarındakı təcrübəsi, həm də sözünün kəsəriylə daha çox faydası dəyər, Sahib Mühəzzəbəddinlə çiyin-çiyinə verib Nizaməddin Söhrab kimilərin əl-qolunu yığışdırardı; dedi, Allah axırını xeyir eləsin, sultanın xidmətində olan qardaşımızın Qeysəriyyəyə zəfər xəbəriylə dönəcəyinə ümid bəsləməkdən başqa çarəmiz yoxdu. Surətim son kəlmələri

söyləyəndə səsi inamsız-inamsız titrədi, qırıldı, bunu gizlətmək üçün də köks ötürdü, əyilib yanından ötdüyümüz çeşmənin suyundan bir ovuc götürdü, üzünə vurdu, əlini boyun-boğazına çəkdi, dedi, ey Şəms, Allahın bu əvəzsiz nemətində sənin də payın var, gündə nə qədər adam ölənlərinə rəhmət oxuyur, bunun savabı ömrünün axırınacan bəsdi; sonra axşam azanınacan evə yetişməli olduğunu, sabah erkəndən çaparlar göndərmək üçün dabbaqbaşı Xeyrəddinin hücrəsində görüşəcəyimizi xatırladıb aralandı.

O gecəni yuxum uzun müddət ərşə çəkildi, çəlpəşik fikirlər girdabında çevrikdim, amma ucunu bir yana çıxara bilmədim. Az qala, bir il olurdu, *Dost*a yetişmək əvəzinə şəhərdən-şəhərə qaçırdım, can qorxusu bütün istəklərimi üstələməyə başlamışdı, bunun da axırı hələ görünmürdü. Belə çıxırdı, Rəbbim qarşımdakı son qapını açmaq istəmir, ha dartıram, ha güc verirəm, aralanmır ki, aralanmır. Əlbət ki, qeybdən gələn səs sahibinin dediyi kimi, hər şeyin öz vaxtı var, amma ömür möhlətim azalır, günlərin birində ya təsadüf üzündən, ya da əcəlin diqtəsiylə dünyadan köçə, beləliklə, axirət evinə nakam yollana bilərəm. Sonra beynimdən keçdi ki, elə bu gecə yenə karvansarayın Ay işığı süzülən nəfəsliyindən Göyə ucalıb altı qapını keçsəm, *İlahi işarə* yeddinci qapını da açıb gedəcəyim şəhəri, vüsalına çatacağım *Dost*u nişan versə, hər şeyi geridə qoyub gedərəm, ya yox? Çətin, bəlkə də həyatımın ən çətin sualıydı: hamisindən əli üzülmüş, piri zindanda olan, bütöv bir şəhərin binəsib əhlilə naəlac qalan Surətimi tək qoyub vüsal arxasınca getsəydim, bir qiymətim qalardımı, Rəbbimin verdiklərini könül xoşluğuyla qəbul eləyə bilərdimmi? İlk dəfə Allahdan o qapının bu məqamda açılmamasını, məni belə çətin sınağa çəkməməsini dilədim; düzdü, bu məqam bir daha təkrar olunmaya, ömrümün sonunacan *Dost* üzü görməyə bilərdim, amma hansının ağrısının daha şiddətli olacağını müqayisə eləsəm, birinciyə üstünlük

verərdim: indi insanlıq sınağıydı, insanlığım da mənə Sürətimin yanında olmağımı, taleyin acısını-şirinini Qeysəriyyə əhliylə birgə dadmağımı tələb eləyirdi, yəqin, Rəbbim də mənə qarşı ədalətli olacaqdı: bu yay günlərində təkcə bir döyüşün yox, səltənətin, məmləkətin taleyi də həll olunacaqdı, mənimsə bu məqamda Allaha dua eləməkdən başqa əlacım yoxudu. Bu fikirlər içində asta-asta yuxuya daldığımı hiss elədim.

Səhər Surətimlə Xeyrəddinin hücrəsində üz-üzə gələndə gözlərinin qızarmasından onun da eyni hal keçirdiyini sezdim, həmişəkitək sözsüz-sovsuz bir-birimizi başa düşdük. Dabbaqbaşı Malatyaya, Konyaya, Ağsaraya, Niğdəyə gedəcək dörd çaparı tapmışdı, Surətim də ələ keçməmək üçün yazılı xəbər göndərmyi məsləhət bilmədiyindən, hər bir çapara hara gedəcəyini, kiminlə görüşəcəyini, nə çatdıracağını yerli-yataqlı başa salır, Xeyrəddin çaparın yol xərcini verib, sərvaxt olmasını, ləngiməməsini dönə-dönə tapşırıb yola salırdı. Surətim Konyaya gedəcək çapara Nəsirəddin Mahmudun halından xəbər tutmaq üçün əlavə tapşırıqlarını da verdi, hər şeyi yerbəyer eləyəndən sonra elə bu gün Qeysəriyyənin hökm sahiblərilə görüşmək, bel bağlaya biləcəkləri adamları bir yerə yığmaq çabasına başladı. Axşam namazından sonra o adamlarla sultan yenildiyi təqdirdə hansı addımları atacaqlarını götür-qoy eləyəcəkdi. Qiyasəddinin öz sarayını, həm də hərəmini mühafizə üçün şəhərdə saxladığı iki min nəfərlik qoşun, əlbəttə, heç şəhər qapılarını belə, qoruya bilməzdi. Bu səbəbdən, döyüşmək məcburiyyətində qalsaydıq, canlarını əsirgəməyən fədailərin olması vacibiydi. Əlbət ki, Fatma Bacıya da baş çəkəcək, zənənləri hər cür çətinliyə hazırlamaq üçün bəzi məsələləri götür-qoy eləyəcəkdi. Cümə günü vəzələrində cahan padşahının zəfəri üçün dua oxunmasıyla yanaşı, çətin günlərdə əli silah tutanlara öz ailələrini, doğmalarını, ocaqlarını qorumağa hazır dayanmalarının tələqin edilməsi lazım gələcəkdi. Sürətimin fikrincə, indi baş-

lıcası təlaşa yol verməmək, soyuqqanlı olmaq, şəhəri qorumaq üçün yaraq-əsləhə tapmaq lazımıydı...

***

...Bir qulağımız quzeydə, digəri güneydə üç gərgin həftə keçirdik, rahat yataq, şirin yuxu bilmədən şəhəri məhəllə-məhəllə dolaşdıq, əsnafla görüşdük, ehtimal olunan fəlakətə qarşı hazır dayanmağın vacibliyini başa saldıq. Surətimin fikrincə, Əmir və İbasiyyə məhəllələrinin camaatı çəkidə ağır, vəzndə yüngül nə vardısa, götürüb qala içindəki məhəllələrə köçməyə hazır dayanmalı, Dabbaqlar, Külahdüzlər, Münşi Nəcməddin məhəllələrinin camaatısa, ağır günlərdə onları geniş ürəklə qəbul eləməliydilər; Meydan, Sivas, Ayavasil, Boyaçı, Yeniqapı girişlərini qorumaq, qala divarlarının bürclərindən düşmənə nizə, ox, daş atmaq, başına qaynar su, qızmar qətran əndərmək üçün dəstələr yerləşdirilməliydi; ən çox Ayvasil və Sivas qapıları arasındakı səmtə diqqət yetirmək lazım gələcəkdi, çünki orda gavurlar yaşayırdılar, mallarını da, canlarını da qurtarmaq üçün hər yola əl ata bilərdilər; şübhəsiz, bunun üçün yetərli adam hazırlamağa vaxt yoxudu, fəlakət başımızın üstünü kəsdirənəcən mümkün olan qüvvəni toplamalıydıq; Sahib Şəmsəddin uzaqlardaydı, burda olsaydı, çox məsələləri yoluna qoya bilərdi, indi Allahın mərhəmətinə, bir də özümüzün gücümüzə arxalanmaqdan başqa çarəmiz yoxudu: *qismətimizdə nə vardısa, o da olacaqdı.*

Sonra Battal Qazi, Məhməd Qazi, Kölük camelərinə, Cameyi-Kəbirə baş çəkib imamlarla söhbət elədik, namaz qılmağa gələn möminlərə fəlakətin hər an üstümüzü kəsdirə biləcəyini, bu səbəbdən, döyüşə hazır dayanmalarını başa salmaq üçün Ziyaiyyə, Xoca Həsən, Xuand Xatun, Siracəddin mədrəsələrinin müdərrislərindən də, tələbələrindən də yardım umduq, axırda camedar Camaləddin Kaymazın hüzuruna çıxdıq. Camedar çox qayğılıydı, belə bir məqamda sultanın dar-ül-mülkü qorumaq

üçün, ən azı, on min nəfərlik qoşun saxlamalı olduğunu, amma şəhərdə Keyqubadiyyənin mühafizəsini tapşırdığı iki min nəfərdən başqa bir qüvvə qalmadığını söylədi. Camaləddin Kaymaz öz tərəfindən bacardığını eləyəcəyini, sözü keçən şəxsləri yığıb şəhərin qorunması üçün kömək istəyəcəyini vəd elədi; üstəlik, o da gözlənilən fəlakətin qabağını almaq üçün mümkün qüvvəylə dər-ül-mülkün yardımına gəlməyin vacibliyini çatdırmaq məqsədiylə Malatyaya, Konyaya, Ağsaraya, tanıdığı məqam sahiblərinin yanına çapar göndərəcəkdi; həm də kömək sultan döyüşə girməzdən əvvəl yetişməliydi, çünki Allah eləməsin, yenilgidən sonra hökmdar, güman ki, Qeysəriyyəyə qədəm basmayacaq, şəhər yırtıcı düşmənlə təkbətək qalacaqdı. Camedar Camaləddin ehtimal olunan uzunmüddətli mühasirəyə hazırlığın vacibliyini də dilinə gətirdi: söylədiyinə görə, şər deməsən, xeyir gəlməzdi, mühasirə uzun sürsəydi, camaatın ərzaqdan, həm də sudan korluq çəkməməsi üçün bütün tədbirlər görülməliydi, bunun qayğısına da Qazı Əhmədlə birgə qalmağı öz üzərinə götürdü; şübhəsiz, əminlik üçün Qazı Əhmədin də hüzuruna çıxmalı olacaqdıq.

Qazı Əhmədin yanına yollananda Surətim onun əslən Marağadan, künyəsinin Şeyx Zahirəddin olduğunu söylədi. Qazının dəruni təlaş keçirdiyi simasından bəlliydi, bizim kimi yuxusuzluqdan gözlərinin altı torbalanmış, rəngi avazımışdı, görünür, sarayda baş verənlərdən yaxşı xəbərdarıydı, bu əndişəsi də ordan qaynaqlanırdı, əllərinin əsməsini gizlətmək üçün çox çalışdığını da açıq-aydın sezdim. Surətimlə əvvəlcədən ünsiyyətləri olduğuna görə, müqəddiməsiz-filansız mətləbə keçdi, sultanın Baycu Noyonla üz-üzə gəlmək qərarının fəlakətlə nəticələnmə ehtimalının da olduğunu, bu səbəbdən, dər-ül-mülkün amansız düşmənin hədəfinə çevriləcəyini nəzərə alıb neyləmək lazım gəldiyindən söz açdı, elə Camedar Camaləddinin söylədiklərini təkrarladı: Keyqubadiyyənin mühafizəsi üçün qalan

iki min nəfər, şübhəsiz, çox azdı, Malatya, Ağsaray, Konyaya çapar göndərib, yardım istəmək lazımdı, amma bir həqiqət də vardı ki, yardıma gələcək üç yüz, beş yüz, uzaqbaşı, min, iki min nəfərlə Baycu Noyonun yırtıcı nökərləri qarşısında duruş gətirmək ağlabatan deyildi, üstəlik, şəhər əhli arasında sultana müxalif kəslər vardı, fürsətdən yaralanıb heyif çıxa bilərdilər; əlbət ki, o, Camedar Camaləddinlə əl-ələ verib mühasirə məqamında camaatın korluq çəkməməsinə çalışacaqdı, amma ərzaq ehtiyatının nə qədər bəs eləyəcəyini bilmirdi, bunu da mustovfiylə görüşəndən sonra dəqiqləşdirə bilərdi. Surətim nə qədər nikbin danışsa, qazının inamını artırmağa cəhd eləsə də, vəziyyətin fəlakətli olduğunu üçümüz də gözəl anlayırdıq: səltənətin də, məmləkətin də dər-ül-mülkün də, bizim də taleyimiz Qiyasəddinin aqibətindən asılıydı.

Surətim nə qədər üz vurdusa, Fatma Bacı Malatyaya, Ağsaraya, yaxud Konyaya getməyə razı olmadı, dedi, bunu nə Şeyx Övhədəddinin qızı, nə Nəsirəddin Mahmudun zövcəsi, nə də bacıların ümid yeri kimi qəbul eləyə bilər; dedi, bacılar da şəhər əhlinin taleyini bölüşməyə, onlarla çiyin-çiyinə döyüşməyə, yemək bişirməyə, yara sarımağa hazırıdılar, dörd yüz nəfər artıq səfərbər olunub, dedi, ətraf yerlərdən də yardım gözləyirlər, qismət olsa, sayları daha da arta bilər; dedi, yaraq-əsləhə tədarüküylə yanaşı, Külahdüzlər çarşısının bir çox anbarlarını boşaldıb şəfaxanaya çevirir, dava-dərman tədarükü görür, üstəlik, bacarmayanları öyrədirlər. Şübhəsiz, Qazi Əhmədin və Camedar Camaləddinin ərzaq məsələləri üçün təhkim elədikləri adamlarla Fatma Bacının arasında əlaqə yaratmaq lazımıydı ki, sonra işlər axsamasın. Külahdüzlər çarşısından çıxanda Surətimdən bir də Əminəni xəbər almaq istədim, amma dərhal da indi heç məqamı olmadığını dərk eləyib sualımı dilimin ucundan qaytardım. Əminəylə bağlı sirr, yəqin, ancaq ikisinə – Surətimlə Fatma Bacıya, əlbət ki, bir də Nəsirəddin Mahmuda agahıydı,

amma bu bəladan sağ qurtulsaq, Surətimdən mütləq soruşacaqdım. Çarşının havası da, adamları da sanki dəyişmişdi, havada sinirlərə işləyən əndişə, adamların simasında tələşqarışıq qorxu vardı. Dabbaqlar çarşısına yaxınlaşanda qarabəniz, gözlərinin dibi bulanıq, dodaqlarında saxta təbəssüm olan orta yaşlı kişi Surətimin üstünə cumub əlini öpmək istədi, amma o, əlini çəkdi, elə bil, xoşagəlməz bir şeydən çiyrəndi, sifətini turşudub, get, dedi, bədbəxt, sən də zəhərlənməyə vaxt tapmısan. Sonra yaltaqcasına irişə-irişə, bağır basa-basa uzaqlaşan adamın ardınca maraqla baxdığımı görüb, dedi, Gavur məhəlləsindən Xacik oğlu Hüsaməddindi, guya, adını dəyişib müsəlman olub, Allahın hər günü meyxanalardadı.

O qarğaşalı günlərdə Seyyid Bürhanəddinin huşa gəlib dirçəldi, yeməyi qaydasına düşdü, sonra qalxıb oturdu, buyruqçusunun köməyilə yavaş-yavaş gəzməyə başladı, həftənin tamamındasa, hətta buyruaqçunun köməyiylə evdən çıxıb Xuand Xatun mədrəsəsinə də baş çəkdi. Əlbət ki, ilk günlər Molla Cəlaləddinlə aralarındakı söhbəti yadına salmadım, çünki məni görəndə görkəmində çoxdan unutduğunu, indi xatırlamağa çalışdığını bürüzə verən ifadə peyda olur, bu da içimdə xoşagəlməz hiss doğururdu. Amma Seyyid Bürhanəddin, həqiqətən, çox şeyləri və çox adamları unutmuşdu: buyruqçusunun adını belə xatırlamırdı, Surətimi, elə bil, uzaqdan-uzağa tanıyırdı, bir kəlmə də kəsməmişdi; yanında kiminsə adı çəkiləndə fikrə gedir, üz-gözündə əzab peyda olur, həmin adamı xatırlamağa çalışırdı. Çox vaxt danışdıqları qırıq-qırıq, fikirləri bir-birinə əks, anlaşılmaz olurdu. Ortadakı gərgin işdən, qaçhaqaçdan vaxt tapıb günaşırı da olsa, baş çəkirdik, sözlərində, fikirlərində əvvəlki Seyyid Bürhanəddindən əsər-əlamət qalmamış, tatarları bu məmləkətə İlahinin göndərdiyini, onlara qarşı döyüşməyin əbəsliyini, təslimiyyətin vacibliyini iddia eləməyə, üstəlik, bunu mədrəsədə müdərrislərə, tələbələrinə, hətta onu yoluxma-

ğa gələnlərə də söyləməyə başlamışdı. Bu da bizi təbdən çıxarırdı, söz davasına qalxırdıq, amma Seyyid Bürhanəddin dediyindən əl çəkmirdi ki, çəkmirdi. Bu səbəbdən, həm ovqatımızı korlamamaq üçün, həm də qayğıların çoxluğundan axır bir neçə gündə ona baş çəkmirdik, sonra da... fəlakət özünü yetirdi.

Sultanın xidmətindəki adam qoşun Qeysəriyyədən çıxandan üç həftə sonra, axşam namazı bitər-bitməz gəldi. Biz onda Battal Qazi məscidində namazımızı qılıb çıxırdıq, fikrimiz Nəsirəddin Mahmudun məscidə bitişik dərgahına, həm də yaxınlıqdakı evinə baş çəkib qardaşların, Fatma Bacının, həm də bacıların əyər-əskiklərini öyrənmək idi. Amma dabbaqbaşı Xeyrəddinin buyruqçusu bizi məscidin girişində haqlayıb çapar gəldiyini söylədi, az qala, qaça-qaça, ürəyimiz ağzımızdan çıxa-çıxa özümüzü Dabbaqlar çarşısına yetirdik. Hər şey çaparın görkəmindən bəlliydi, soruşmağa hacət yoxudu. Başını aşağı salıb mindərin üstündə oturmuşdu, güman ki, Xeyrəddinin sakitləşdirmək üçün verdiyi suyu içməyə belə taqəti qalmamışdı. Bizi görəndə qalxmaq istədi, amma Surətim onun çiynindən basıb qoymadı, özü də tələş içində üzbəüzündə yerə çökdü. Çapar əlinin əsintisini zorla saxlayıb sudan bir qurtum içdi, sonra gözlərində yaş gilələnə-gilələnə, dedi, kaş, öləydim, belə qara xəbəri gətirməyəydim, elə ilk döyüş başa çatmamış Sultan Qiyasəddin qaçdı, qoşun dağıldı, daha fəlakətin qabağında duruş gətirmək müşküldü. Sürətimin rəngi bayaqdan avazımışdı, indi daha da ağardı, dabbaqbaşı Xeyrəddinin sifətində bir damcı can qalmamışdı, görünür, mənim görkəmim də fərqli deyildi, biçarə buyruqçusa əlləri qoynunda divara söykənib göz yaşı axıdırdı. Sürətim əlini çaparın dizinə vurdu, toxta, dedi, hər şeyi yerli-yataqlı danış, o zavallı da sudan bir qurtum alıb parçı kənara qoydu, sonra göz yaşı içində qorxunc hekayətinə başladı.

Cahan padşahı Sultan Qiyasəddinin yetmiş minlik əzəmətli qoşunu Sivasa dörd günə çatıb, hər dəfə dincəlmək üçün ordu-

gah qurulanda da Sultan eyş-işrət məclisi düzəldilib, qəfəslərdəki vəhşi heyvanlarla əylənib, gecələr cariyələrə kefə baxıbmış; axır ki, Sivasa yetişəndə məlum olub ki, Baycu Noyon artıq Ərzurumu ötüb, Ərzincanın şəhər və oymaqlarını oda qalayır, camaatını qılıncdan keçirir. Hələb məliyi Nəsihəddin Farisinin iki min nəfərlik dəstəylə gəlib çıxması hökmdarın kefini lap açıbmış; çapar Şəmsəddinin də daha bir dəstəylə Malatyadan çıxdığını çatdıranda gecikdiyindən ona qəzəbi tutsa da, tez unudub, səhəri gün əyan-əşrəfi, əmirləri yığıb qarşıdakı döyüşlə bağlı məşvərət keçiribmiş; o yerlərə yaxşı bələd olan Məlik Mübarizəddin deyibmiş, Sultanım, arxamızı ərzaq, həm də silahla dolu Sivasa söykəyib düşməni burda qarşılamaq, keçidlərdə dəstələr yerləşdirib qəfil basqınlarla tələşa salmaq, inamını qırmaq, gücünü azaltmaq, sonra qəfil zərbə endirmək məsləhətdi; Mühafizbaşı Qərib ona istehza eləyib ki, sultanım, Sivasda əbəs yerə vaxt keçiririk, bu məqamda da Ərzincanın, ətraf yerlərin camaatı tatarların öldürücü qılınclarına yem olur, gərək onları Təbriz, ya Nəqşivanda yaxalayaydıq ki, Diyari-Ruma ayaq basmağa macal tapmayaydılar, bu qorxu və dəhşət halı davam eləsə, Sivasdan bir mənzil qırağa çıxa bilmərik; Danişməndi Müzəffərəddin Məhəmmədin oğlu Nizaməddin Söhrab da onun səsinə səs verib, sultanı düşmənin üstünə getməyə təhrik eləyib, sultan da eyş-işrət yoldaşlarının dediklərinə qulaq asıb, səhəri gün qoşun ordugahdan qalxıb, iki mənzil irəli gedib, Kösədağın gündoğan səmtində yeni ordugah qurubmuş.

Sultanın da, qoşunun da, səltənətin də, məmləkətin də fəlakət sürükləndiyini görən Mübarüzəddin Cavlı, Mühəzzəbəddin Əli, Gürcüoğlu Zahirəddövlə o gecə kəfənlərini boyunlarına dolayıb hökmdarın hüzuruna çıxıblar, Məlik Mübarizəddin tələsməməyi, düşünüb-daşınmağı, kiçik dəstələrin qəfil basqınlarıyla düşməni heydən salıb sonra son zərbəni endirməyi məsləhət görüb, vəzir Mühəzzəbəddin Əli, Gürcüoğlu Zahirəddövlə

də onun söylədiklərinə şərik çıxıblarmış; amma sultanı bir an belə tək qoymayan Nizaməddin Söhrab gürcüdən dönmə olan Zahirəddövləni ələ salıb, deyibmiş, şübhəsiz, gavur qorxaq olar, sənin könlündən düşmənin qoşunundakı həmtayfalarınla yaxınlıq eləmək keçir, cahan padşahının bu qədər qoşunu ola-ola nəyə görə iki-üç minlik erməni dəstəsini gözləməlidi, Sultanımız qoşunun bir hissəsini – iyirmicə min nəfəri mənim ixtiyarıma versin, düşməni pərən-pərən salım; Zahirüddövlə cavab veribmiş ki, mən gavur olsam da, ancaq Allahdan qorxuram, indi məntiqli olan fikrə etibar edilməsə, məmləkətin süqutu da, əhalinin fəlakəti də qaçılmazdı, belə bir yaramazlığa səbəb olan adamsa qiyamət gününəcən pis ad, həm də lənətlə anılacaq; o məqamda da sultan xumarmış, deyib əmir Nizaməddin, qoşunun iyirmi min nəfərlik hissəsi sənin ixtiyarındadı, sabah düşmənin üstünə get, hünərini göstər, sonra da eyş-işrət məclisini davam etdirməyə yollanıbmış; neçə-neçə döyüşdən çıxan Məlik Mübarüzəddin, Mühəzzəbəddin Əli, Gürcüoğlu Zahirəddövlə kor-peşman öz çadırlarına qayıdıb, gecə səhərəcən əlacsızlıq içində göz yaşı axıdıblarmış, sultansa həmin müddətdə dadlı təamlardan, meydən, musiqidən, cariyələrdən məst olubmuş.

Səhər Nizaməddin Söhrab yarıyuxulu, üstəlik, xumar halda qoşundan iyirmi min nəfəri ayırıb, döyüşə hazırlaşmağı əmr eləyib, bir azdan da kərənaylar çalınıb, təbillər vurulub, qoşun ovaya enib, düşmənin üstünə yeriyibmiş; Gürcüoğlu Zahirəddövlə, Vəliyəddin Pərvanə, Nəsirəddin Farisi də hərəsi min nəfərlik firəng dəstəsiylə yardıma gediblərmiş; Baycu Noyon da elə bunu gözləyirmiş, hər şeyi əvvəlcədən götür-qoy eləyibmiş: Nizaməddin Söhrabın qoşununun irəli şığıdığını görəndə əsgərləri üz çevirib qaçmağa başlayıb, təqibçiləri münasib yerə çəkəndən sonra qəfildən dayanıb, geri dönüb ox yağdırıblar, tələyə düşdüyünü görən qoşun da çaşıb, amma yenə də döyüşü davam etdiribmiş; nə qədər itki olduğu hələ bilinmir, amma

Nəsihəddin Farisi o qırğından canını birtəhər salamat qurtarıb, özünü ordugaha çatdırıb, izinsiz-filansız sultanın otağına soxulub, hələ də məst olan hökmdara deyibmş, ey Qiyasəddin? belə qabiliyyətsiz, uğursuz döyüş yoldaşlarıyla necə cahangirlikdən dəm vurub düşmək qabağına çıxırsan; deyibmiş, bu əməlinlə ölkəni də, dövləti də yox, bütün müsəlmanları, müsəlman ölkələrin əhalisini fəlakətə düçar elədin; sonra əsgərlərini də götürüb Hələbə doğru yola düşübmüş, axşam düşən kimi, sultan da təğyir-libas olub, mühafizbaşı Qəribin dəstəsiylə Tokata sarı üz qoyubmuş, vəziyyətdən hali olan əmirlər aradan çıxıblarmış, hətta sancaqdar Fəxrəddin Arslan Doğmuş belə sancağı atıb qaçıbmış. Biçarə çapar da Mühəzzəbəddin Əlinin dəstəsindəymiş, vəzir "Ya Allah!" deyib Amasyaya üz tutubmuş, yolda gecə qaranlığını fürsət bilən qardaş atın başını Qeysəriyyəyə sarı çeviribmiş, onda artıq güneyə uzanan yollar sultanın ordan-burdan yığdığı dəstələrlə dolubmuş...

Çaparın səsi qırıldı, susdu, ortalığa ağır, üzücü sükut çökdü. Axır ki, Sürətim başını qaldırıb nəzərlərini mənim üstümdə saxladı, ey Şəms, dedi, sənə Malatya yolu göründü, dişlərini artıq Diyari-Ruma batırmış, qanın qoxusunu almış Baycu Noyon Sivasdan, Tokatdan sonra üzünü Qeysəriyyəyə çevirəcək, bu şəhəri də qorumaq qazının, camedarın, əsnafın işi deyil, döyüş aparmağı bacaran şəxs lazımdı – o da Şəmsəddin İsfahanidi; dedi, Şəmsəddin Sivasa yetişməyibsə, Qeysəriyyəyə gəlməyibsə, deməli, hardasa Malatya tərəflərdədi, yelə dön, quşa çevril, gecəni-gündüzə qat, onu tap, de ki, başını orda islatsın, burda qırxdırsın, sultanın qoşununa yığdığı dəstəni Sivasa yox, bura gətirsin, özü də şəhər əhlinə başçılıq eləsin; dedi, Şəmsəddin İsfahani ixtiyarındakı qüvvəylə gəlsə, yardıma qoşan qardaşlarımız, bacılarımız yetişsə, sayımız on beş minə çatar, müqavimətimiz artar, o vaxtacan da, yəqin, Sultan Qiyasəddin qeyrətə gəlib qüvvələri toplayar, arxadan zərbə endirər; dedi, di, durma,

Şəms, Allah amanında, Şəmsəddin İsfahani sənin sözünə etibar eləyər, vəziyyətin ciddiyyətini anlayar, bu səbəbdən, sənə üz tuturam, həm də üzrlü say, verməyə nə atım var, nə qatırım var, özün yolda öz başına bir çarə qılarsan. Buyruq o qədər gözlənilməz, üstəlik, o qədər məntiqli və zəruriydi ki, cınqırığımı belə çıxara bilmədim, qalxdım, bağır basdım, hər halda, dönəcəyim ümidiylə, heç vidalaşmadım, ordan karvansaraya döndüm, dağarcığımı götürdüm, tələm-tələsik Malatya yoluna çıxdım. Onda bir müddət Qeysəriyyəyə dönə bilməyəcəyim, Malatyada ağrı-acılarla dolu günlər keçirəcəyim heç ağlıma da gəlmirdi...

DOQQUZUNCU MƏQAM

Malatya

BU DƏFƏ MƏN KÖLGƏMİN DALINCA DÜŞDÜM...

Qızıl pərdədi bəzilərinin gözəlliyi,
Zahıri parlaq, amma qatı dumandı içi.





...Xoşbəxtlikdən, yayın ortalarıydı, açıq havada, ağac altında, kol dibində, arx içində, qaya oyuğunda yatmaq olurdu. O gecə havalı-havalı nə qədər getdiyimi bilmirəm, heyim kəsiləndə rastıma çıxan dibindən çeşmə sızan söyüd ağacının altıənda ayaq saxladım. Başımın üstündə ziyası çeşmənin suyunda əks olunan on dörd gecəlik Ay vardı. Aylı sudan boyun-boğazıma vurdum, iki qoşa ovuc dolusu da içdim, bir az toxdayanda günorta dabbaqbaşı Xeyrəddinin gətirdiyi bir qab şorbanın üstündə olduğumu xatırladım, o tələsiklikdə də dağarcığıma bir parça çörək qoymaq heç ağlıma gəlməmişdi. Qismətimə qail olub dan yeri ağaranacan elə burdaca yorğunluğumu almaq, obaşdan yola çıxmaq qərarına gəldim, yolda da Rəbbim, yəqin, rastıma karvansaray, ya müsafirxana çıxaracaqdı. İndi gecənin qaranlığında harda olduğumu ayırd eləyə bilmədiyimdən, yaxınlıqda gecələmə yeri axtarmaq fikrindən də daşındım. Ötən dəfə Ərzuruma üz tutanda bu söyüdə də, çeşməyə də rast gəlməmişdim. Bəlkə də balaca olmuş, diqqətimi çəkməmişdi, söyüd barsız olduğundan, çox tez böyüyür, illah da, sulu yerdə bitdimi, gözünü yumub-açınca qollu-budaqlı ağaca çevrilir, dörd ildə də bu qədər böyüməsi heç də təəccüblü deyil. Beynimdə bu fikirləri dolandıra-dolandıra həsirimi söyüdün dibinə saldım, uzanıb gözlərimi yarpaqların arasından süzülən Ay ziyasına zillədim. O ziya məni uyutdu, çəkib apardı, nə vaxt

yuxuya getdiyimi hiss eləmədim, ancaq səhərə yaxın hardasa yaxında ötən süsərinin səsinə oyandım.

Dan yerinin həzinliyi qəlbimi elə ağrılı hisslərlə doldurdu ki, özümü Allahın altında tək-tənha, kimsəsiz, torpaqdakı cücü qədər aciz saydım, üzümü aləmin o aydınlaşmaqda olan yerinə tutub qurd kimi ulamaq istədim. Bu gen dünyada hamıya yer tapıldığı halda adamlar niyə dəstə bağlayıb bir-birinin torpaqlarına basqın eləyir, ömürlərində üz-üzə gəlmədikləri, pislik görmədikləri, dərdinə-sərinə yetmədikləri adamları qanına qəltan eləyir, minbir əziyyətlə tikdikləri komalarını uçurur, ocaqlarını söndürür, külfətini qılıncdan keçirirlər? Tatarlara Mavəraünnəhr, Xarəzm, Xorasan, Əcəm torpaqları bəs eləmədimi? Diyari-Rumu tutsa belə, bu genişlikdə əraziləri hökm altında saxlamağa gücləri yetərmi? Tutaq ki, beş il müvəffəq oldular, on il bacardı, sonra itaətdən, zülmdən cana doymuş adamlar birləşib onların tifağını dağıtmayacaqlarmı? Yenə Əcəm Əlidən tutmuş Şeyx Əsədəddinəcən tanıdığım o biçarələr yadıma düşdü: hansı yağı qılıncının qurbanı oldu, hansı qaçıb qurtuldu, görəsən? Şübhəsiz, Ərzurum yenə tapdaq altında qalıb, Ərzincan diz çöküb, Kösədağ zəfərindən sonra Sivas da yağıların əlinə keçəcək, sonra ağzıqanlı vəhşi üzünü Qeysəriyyəyə çevirəcək, Sultan Qiyasəddini dizə gətirməmiş durub-dincəlməyəcək. Yetmiş minlik qoşunla belə miskincəsinə yenilmək səltənətin adına düşən silinməz ləkədi, yəqin, indi Böyük Sultan Əlaəddin Keyqubad məzarında o yan-bu yana çevrilir. O cür ağıllı, tədbirli, cəsur atadan bu cür yolsuz, həm də fərsiz oğulun törəməsi Allahın cəzasıydımı? Taxt-taca haqqı çatan İzzəddin sahib olsaydı, yəqin, məmləkətin başına bu cür müsibətlər gəlməzdi.

Durdum, çeşmədə dəstəmaz aldım, namazımı qıldım, bu müsibətləri biçarə camaatın başından uzaqlaşdırmağı Rəbbimdən iltimas eləyib yola çıxdım. Artıq aclığı da unutmuşdum, üzü gündoğana gedir, yolda qarşıma çıxanlardan o tərəflərdə qoşun görüb-görmədiklərini, Şəmsəddin İsfahanidən bir xəbər

bilib-bilmədiklərini soruşurdum. Hər kəsin öz dərdi vardı, o dərdinin dalınca düşüb gedirdi, mənə fikir verən yoxudu. Gün günorta yerinə yaxınlaşanda ötüb-keçdiyim, günbatandan gün-çıxana üz tutmuş, at, araba, qatırla gedən adamların sayı artdı. Günorta arx qırağında nəfəsimi dərməyə, namazımı qılmağa dayananda o yolçuların biri arabasında qoca validəsi, zövcəsi, üç tifili olan Allah bəndəsiylə kəlmə kəsdim, dedi, Sultan Qiyasəddinin Kösədağdan qaçan muzdluları yolüstü obalara cəyirtkə sürüsü kimi daraşıblar, camaatın əlindən yeməli nə varsa alırlar, bir dəstə keçib getməmiş, o biri dəstə gəlir, bu səbəbdən, külfətimi yığıb Malatyaya, simsarımın yanına getməkdən başqa əlacım qalmayıb; dedi, sabah da yağılar başımızın üstünü kəsdirəcək, itaət eləməyəni qılıncdan keçirəcəklər, bu fəlakətinsə nə vaxt başa çatacağını kimsə bilmir. Özü Pərcanda mirabmış, o yörənin su işlərinə baxır, külfətini dolandırırmış, Allah verəndən babat evi-eşiyi, dolanışığı varmış, indi hər şeyi geridə qoyub bəxtəbəxt gedir, bundan sonra başına nə gələcəyini, necə yaşayacağını bilmir. Sonra Allahın o dərdli bəndəsi məni süfrəsinə dəvət elədi, oturub bir qismət çörəyini kəsdim, qalxanda da onun köçünə qoşuldum, Pınarbaşınacan birgə getdik.

Yolçu dedi, söylənənlərə görə, sultanın qoşunu xeyli itki versə də yenilməyibmiş, düşmənin birinci həmləsindən sonra özünə gəlib döyüşürmüş, amma bəzilərinin meydandan qaçması sultanı qorxuya salıb, ordugahdakı əmirlərin aradan çıxmaları da lap ovqatını korlayıbmış, bu səbəbdən, elə başılovlu qaçıbmış ki, nə xəzinəsi, nə cariyələri, nə vəhşi heyvanları, nə ərzaq anbarları, nə də yaraq-əsləhə yadına düşübmüş, tələm-tələsik paltarını dəyişib, mühafizləriylə Tokata sarı üz tutubmuş; hava qaralanda döyüş ara verəndə Nizaməddin Söhrab qoşunuyla ordugaha qayıdıb görübmüş, lələ köçüb, yurdu qalıb, əlli minlik qoşundan əsər-əlamət belə yoxdu, o da heç nəfəsini dərməyib başının dəstəsiylə güneyə qaçıbmış; səhəri gün düşmən görübmüş sultanın ordugahında tərpəniş yoxdu, bir qədər yaxın gəlsə

də, bunun hiylə olduğunu sanıb gözləməyə başlayıbmış, amma iki gün ərzində bir ins-cins gözə dəyməyəndə, axır ki, ürəklənib ordugaha giribmiş; deyilənə görə, tatar nökərləri ömürlərində bu cür qənimətə rast gəlməyiblərmiş: sultanın bərli-bəzəkli otağı, sandıqlar dolu xəzinəsi, qəfəslərdəki cürbəcür nadir vəhşi heyvanları, yaraq-əsləhələr, zirehli geyimlər görənlərin ağıllarını başlarından çıxarırmış; deyilənə görə, əllərinə üç min qatır yükü qızıl-gümüş şeylər, qırx araba zirehli geyim keçibmiş, iki gün də o varidatı daşımaqla məşğul olublar; dedi, bunları eşidəndə fikirləşdim, öz varidatını qoruya bilməyən sultan məni heç qoruya bilməyəcək, yağı qılıncına yem olmamış külfətimi bir tərəfə çıxarmağım məsləhətdi...

Yolçunun söylədiyi qorxunc yuxuya oxşayırdı, hələ də düz-əməlli dərk eləməkdə çətinlik çəkirdim: altı ildən bəri oturduğu taxtın, qoyduğu tacın dəyərini bilməyən, şərəfini-izzətini Gürcü Xatunun ayaqları altına atan, eyş-işrət məclislərində yox eləyən, ovdan başqa döyüş meydanı görməyən bir məxluq ağciyərliyinin, əyyaşlığının səltənətə də, məmləkətə də nəyin bahasına başa gələcəyini başa düşmürmü? Bu cür rüsvayi-cahan olandan sonra onun taxtda oturmağa heç haqqı yoxdu, gərək Şəmsəddin İsfahani, Mühəzzəbəddin Əli, Məlik Mübarizəddin kimi canını səltənət yolunda fəda eləmiş əmirlər yığışıb onu taxtdan salsınlar, dağılmaqda olan tifağın sabahını düşünsünlər. Yoxsa məmləkətin itaət altına düşməyində o zatların öz marağı vardı? Amma yox, Surətimin döyüş meydanından gələn adamının söylədiyinə görə, vəzir Mühəzzəbəddin Əli də, Məlik Mübarizəddin də, hətta Gürcü oğlu Zahirədövlə, əyyubi Nəsihəddin Farisi də fərasətsiz, təkəbbürlü, yolsuz Qiyasəddinin əməlinin nəticələrini gözəl başa düşürlər. Elə Şəmsəddin İsfahani də bu xəbəri eşidibsə, güman ki, göz yaşları axıdır. Amma indiki məqamda göz yaşı axıtmaq yox, dəyanətli olmaq, pərən-pərən düşənləri yığıb düşmənlərin qarşısına sipər çəkmək lazımdı. Ərzurumda, Ərzincanda, Tərcanda qətlə yetirilənlərin,

sabah da Sivasda, Tokatda, Qeysəriyyədə, Agsarayda qanına qəltan ediləcək binəvaların nə təqsiri var axı. Bu binəva yolçu bayaqdan danışır, səsindəki əlacsızlığı, ağrı-acını, qəm-qüssəni duyub varımdan yox oluram. İndi quzeyin yolları bu cür çarəsiz, gözləri yaşlı didərginlərlə doludu.

O gecəni yolda keçirib, səhəri gün axşama yaxın Kürünə yetişdik. İki gün mənə çörək vermiş yolçunu dilə tutub karvansarayda yerləşməyə, yarım gün də olsa, dincəlməyə razı saldım, haqqını da zor-xoş mən ödədim. Hücrəmə girməzdən əvvəl karvansarayçıdan əmiri-mətbəx, inşayi-xas Şəmsəddin İsfahaninin bu yerlərdə olub-olmadığını soruşdum, kişi tez özünü yığışdırdı, əli əl üstdə dayanıb dedi, böyük əmir bu yerlərdə olmayıb, amma gündoğandan gələnlər onu qoşunla Darəndədə görüblər, Sivasa, sultanın ordugahına getmək istəyirmiş. Biçarə karvansarayçının hələ olub-bitənlərdən xəbəri yoxudu, mən də söyləmədim, hücrəmdə yerləşib, dincimi aldım, namazımı qılıb onun göndərdiyi bir kasa şorbayla aclığımı öldürdüm, sonra kürəyimi divara söykəyib düşüncələrə daldım. Əlbəttə, Şəmsəddin İsfahani Darəndədəydisə, tələsməliydim, obaşdan, yolçunu da oyatmadan yel olmalı, üzü gündoğana əsməli, çıxıb getməmiş onu haqlamalıydım. Güman ki, indi sultanın yenilgisindən xəbər tutub, çünki onun kimi dünyagörmüş adamlar özləri qırağa çıxanda hər şeydən vaxtında xəbər tutmaq üçün mütləq sarayda "göz-qulaq" qoyub gedirlər. Şübhəsiz, Şəmsəddin İsfahanini sarayda istəməyənlər də var, döyüş vaxtı ordugaha yetişə bilmədiyini qəsdə yozub sultanın qulağını dolduracaq, quyusunu qazacaqlar. Yəqin, bunu özü də gözəl başa düşür, çıxış yolları arayır: həm yüz min dirhəmin haqq-hesabını verməli, həm etibarını qorumalı, həm də dəyişən zəmanəyə uyğunlaşıb yenə səltənətdə söz sahibi olmalıdı. Onun ağlına şübhəm yoxudu, düşdüyü çətinlikdən çıxış yolu tapacağına, üstəlik, daha böyük qazancla çıxacağına əmindim.

Çox yorğun olsam da obaşdan qalxdım, səhər namazından sonra karvansarayçını oyadıb gedər olduğumu söylədim, dedim, heç adını da soruşmadığım o tərcanlı yolçuya çatdır ki, haqqını halal eləsin, onu gözləyə bilmədim, sonra "Ya Allah" deyib yola düşdüm. Gün qalxanda da dayanmadım, ancaq günorta namaz vaxtı bir çeşmənin yanında ayaq saxladım. Günəş qüruba əyiləndə Darəndəyə varid oldum... amma Şəmsəddin İsfahaninin nə özünü, nə də qoşununu tapdım. Üz tutduğum Qatırçılar karvansarayında onu soruşdum, karvansarayçı dedi, böyük əmir dünənəcən onun bu məqamını şərəfləndirirmiş, daha doğrusu, Sivasa, ordugaha qoşun aparanda burda dincini almaq, Kabur hamamının səfasını sürmək üçün dayanıbmış, amma Kösədağdan gələn çaparın söylədiklərindən sonra, deyilənə görə, qoşuna irəlicədən payladığı altı aylıq ərzağın, həm də məvacibin yarısını geri alıb, məmləkətlərinə yola salıb, özü də adamlarıyla Malatyaya getdi. Bu xəbəri eşidəndə, elə bil, dünya uçub başıma töküldü, qübbənin altında qaldım: gözlərim qaraldı, nəfəsim tıncıxdı, dizlərim taqətdən düşdü, xəyalımda Surətimi, Qeysəriyyədə imdad gözləyən adamları canlandırdım. İndi qarşımda iki yol vardı: ya geri qayıdıb onların ümidsizliyini daha da artıracaq, ya da Malatyaya gedib Şəmsəddin İsfahanini yardım üçün dilə tutacaqdım. Tərəddüd eləmədən ikinci yolu seçdim: hər halda, çatdığı məqama görə, əldən gedən səltənətə borcluydu, üstəlik, dər-ül-mülkdə malı-mülkü, imarəti vardı, ən azı, o var-dövlətin taleyinə biganə qala bilməzdi. Mənim də qismətimdə Kavur hamamının səfasını sürmək, Qoxma nəhrinin gümültüsünü dinləmək yoxmuş – obaşdan Malatyaya doğru yola çıxmalıydım...

***

...Hava işıqlaşar-işıqlaşmaz Darəndədən tərpənib bir qədər güneyə meyillənən yolun damarını qırdım, gecəni axar-baxarını görə bilmədiyim Akçadağda keçirdim, səhəri gün axşamüstü də

Alacaqapıdan Malatyaya girdim. Şəmsəddin İsfahani səltənətin adlı-sanlı adamlarından olduğuna görə, iqamət elədiyi yeri elə ilk qarşıma çıxan aşxanada qarnımı doyuran vaxt buyruqçudan soruşdum, dedi, dünən böyük qəfiləylə gəldiyini, Daş Karvansarayda yerləşdiyini söyləyirlər. Az sonra Daş Karvansaraya gedə-gedə Şəmsəddin İsfahaniyə söyləyəcəyim sözləri beynimdən keçirirdim. Əvvəla deyəcəkdim, Əmir Həzrətləri, əsl dövlət adamının dəyanəti belə fəlakətli günlərdə üzə çıxır, düşmənin birinci zərbəsindən sonra yıxılmaq, təslim olmaq, bir güşəyə çəkilib aqibətinin sonunu gözləmək sənin kimi dünyagörmüş, səltənət naibliyi məqamına ucalmış adama yaraşmaz, indi güvəndiyiniz dövlət adamlarıyla yığışıb bundan sonra neyləyəcəyiniz barədə qərar verməlisiniz; deyəcəkdim, bu yandan da dər-ül-mülk sizdən imdad diləyir: əvvəlini-axırını düşünmədən yığdığınız qoşunu buraxmaq, karvansaray hücrəsində gün keçirib məmləkətin yağmalanmasına tamaşa eləmək nə Allaha, nə də bəndəyə xoş gedər; deyəcəkdim, Baycu Noyon Sivasdan sonra üzünü Qeysəriyyəyə çevirməmiş dər-ül-mülkə yetişin. Amma Daş Karvansaraya çatıb özümü onun mühafizlərinə nişan verəndən az sonra hüzuruna girəndə düşündüklərimin heç birini dilimə gətirmədim.

Şəmsəddin İsfahani karvansarayın hörmətli qonaqlar üçün ayrılan iri, yaxşı döşənmiş hücrəsində Məlik Mübarizəddinlə üz-üzə oturmuşdu, məni görəndə dedi, gəl, ey Şəms, gəl, qəm ortağımız ol; dedi, kimin göndərdiyini, nəyə görə gəldiyini də soruşmağa hacət yoxdu, əyləş, halətindən görünür ki, durub-dincəlmədən yola gəlmisən. Ona da, Məlik Mübarizəddinə də bağır basıb mindərin üstündə oturdum, sorğu-sual gözləmədən Qeysəriyyə əhlinin halının pərişan olduğunu, Baycu Noyon üzünü dər-ül-mülkə çevirsə, böyük fəlakətlə üzləşəcəklərini, şəhərin qazı, camadar, əsnaf ümidinə qaldığını, hamının bir vaxt şahnəsi olduğu dər-ül-mülkü qorumaqda Şəmsəddin İsfahaniyə ümid bağladığını, Məlik Mübarizəddin kimi təcrübəli dövlət

adamıyla çiyin-çiyinə verib düşmənin qabağını ala biləcəklərini söylədim. Araya ağır sükut çökdü, görmədiyim, az qala, bir il ərzində xeyli qocalmış Məlik Mübarizəddin dedi, Şəmsəddin Xoca, biz də elə bu haqda danışırdıq, amma Allaha ayandı ki, hamı pərən-pərən düşüb, indi Baycu Noyonun qabağında duruş gətirəcək qoşunumuz yoxdu, bir neçə min nəfərlə onun qarşısına çıxıb, olan-qalanı güdaza verməklə heç nə qazanmırıq. Şəmsəddin İsfahani dedi, Məlik Mübarizəddin Tokatda sultanın hüzuruna çıxıb, bəylərbəyi məqamı alıb, bura da düşdüyümüz bu bəladan qurtulmağımızla bağlı məşvərət eləmək üçün buyurub; dedi, çaparın gəlişindən vaxtında xəbər tutsaydım, sultanımızın əmrini gözləyərdim, amma bir Allah şahiddi ki, məndən asılı olmayan səbəblər üzündən ordugaha gecikdiyimə, o məlum məqamda cahan padşahının yanında ola bilmədiyimə görə çox xəcalətliyəm, əfv diləmək üçün hüzuruna getməyə məqam gözləyirəm, dövlətin nəfinə olan işlərdə də başımı belə verməyə hazıram.

Məlik Mübarizəddin dedi, Ərzincana böyük xərac müqabilində bir elə ziyan vurmayan Baycu Noyon, o məşum gündən sonra ordugahımızdakı qənimətləri öz ordugahına daşıyıb yerbəyer eləyib, ardınca da Sivasa üz tutub, şəhərə müqavimətsiz-filansız girib, yağmaya izin versə də, qırğın olmayıb; dedi, indi Sivasdadı, Tokata – sultanımızın üstünə gedəcəyi, yoxsa dər-ül-mülkün üzərinə gələcəyi hələ məlum deyil, adamlarımızdan xəbər gözləyirik; dedi, aldığım xəbərə görə, Qeysəriyyə subaşısı Topal Fəxrəddin Ayaz bir neçə min nəfərlə Kösədağdan dər-ül mülkə qayıdıb, yəqin, indi şəhəri yağıdan qorumaq üçün tədbirlər görür. Onun ürək-dirək verənsayaq söylədiklərindən, Şəmsəddin İsfahaninin pərişan, mütərəddid görkəmindən anladım ki, Kösədağ fəlakətinəcən səltənətin dirəkləri sayılan bu binəvalar neyləyəcəklərini bilmirlər, çətin ki Qeysəriyyə əhlinin imdadına gedələr, indi Nizaməddin Söhrabın şəhərinə, danişməndilərin qoltuğuna sığınıb sultanın qəzəbindən necə qurtu-

lacaqlarını götür-qoy eləyirlər. Yurdun, od-ocağın, doğmaların nə demək olduğunu Məlik Mübarizəddinin yadına salmaq üçün oğullarını, dəftərdarı soruşdum, sağ-salamat Əlbistanda iqamət elədiklərini söylədi. Sonra Şəmsəddin İsfahani mürşidi Seyyid Bürhanəddinlə maraqlandı, dirçəldiyini, ayağa qalxdığını, hətta mədrəsəyə belə gedib-gəldiyini eşidəndə sevindi, amma dilimi saxlamayıb möhtərəm şeyxinin tatar yanlısı olduğunu, camaata onlara qarşı döyüşməməyi təlqin elədiyini söyləyəndə sifətindən mənasını anlaya bilmədiyim kölgə keçdi – bəlkə də qəlbimdə onun barəsində də şübhə yaranacağını düşünmüşdü. Axırda bir neçə gün gözləməyi, düşmənin niyyətini öyrənəndən sonra qəti qərara gələcəklərini söylədi, hara düşdüyümü soruşdu, cənnətməkan Sultan İzzəddinin tikdirdiyi, hələ inşası zamanı dönə-dönə baş çəkdiyi bu karvansarayda mənə hücrə tapılacağını dedi, amma səltənət adamlarından mümkün qədər uzaq durmaq xasiyyətim özünü dərhal büruzə verdi, dedim, üzürlü saysın, belə rahat məqamlarda hüzur tapa bilmirəm, Misgərlər çarşısı yaxınlığındakı müsafirxanada gecələmək fikrindəyəm.

O müsafirxananın yerinisə aşxanada soruşub öyrənmişdim. Az sonra yerləşdiyim Misgərlər müsafirxanasının dar, boğanaq, üstəlik, kir-pas qoxusu verən ucuz hücrəsi mənə zindanı xatırlatdı. O üz-bu üzə çevrikdim, qara-qura fikirləri beynimdən qovmağa çalışdım, amma gözlərimi yuman kimi, Surətimin əzablı görkəmi iç dünyamda peyda olur, göz yaşı axıtmır, aman diləmir, yalnız töhmət dolu nəzərlərini üzümə dikirdi. Naib Şəmsəddin İsfahaninin də, artıq bəylərbəyi məqamına ucalmış Mübarizəddinin də qırımından belə görünürdü ki, dərül-mülkün zəbti onları az maraqlandırır, indi canlarının, bir də məqamlarının hayındadılar. Quzey dər-üs-səltənəsi Sivas yağmalananda necə əllərini tərpətmədilərsə, güney dər-üs-səltənəsi dağılanda da yardıma getməyəcəklər, indi səltənətin son istinadgahı olan Konyanı necə xilas eləmək barədə düşünürlər. Qəfildən özümü elə aciz, kimsəsiz, tənha hiss elədim ki, hətta,

həqiqətən, var olduğuma, yaşadığıma şübhələndim, dar bacadan düşən Ay ziyasına, taxçadan korun-korun yanan qəndilə, divarın dibində qaralan dağarcığıma baxdım, sonra əlimi üzümə çəkdim: yox, məndim, hələ yaşayırdım, miskin müsafirxananın daracaq hücrəsində uzanmışdım, bu məqamda Dostu belə arzulamağa heyim qalmamışdı. Özümü tanıyandan bəri ilk dəfə ölüm istədim: bu səfərimdən imdad gözləyənlərin ümidlərini boşa çıxarmaqdansa, ölüb heçliyə qarışmaq daha abırlı olardı...

Amma ölmədim, Əzrayıl gəlmədi, dərddən inildəyə-inildəyə yarıyuxulu, yarıbayğınlıq içində səhəri açdım, namazımda Qeysəriyyə əhlinin yağı qılıncına yem olmaması üçün Allahdan uzun-uzadı, həm də göz yaşı içində iltimas elədim, sonra müsafirxanadan kölgə kimi çıxıb Malatyanın yeni oyanan, isti yay gününə hazırlaşan küçələrini dolaşdım. Əvvəllər ilk dəfə qədəm qoyduğum şəhəri açılmamış sirr sandığı, özümü də o sandığın qapağını açmağa çalışan səyyah hesab eləyirdim, indi doğmaqda olan Günəşin şəfəqlərinə bürünmüş Ulu Came də, rastıma çıxan günbəzlər, mədrəsələr, imarətlər də, beşkünclü qalanın qalın divarları da mənə o sirri-sehri qaytara bilmirdi. Böyük Sultan Əlaəddin Keyqubad binəva Adilə Xatunla bu şəhərdə nikah kəsdirmiş, Xəlifənin elçisini burda qəbul eləmişdi, onun tikdirdiyi Ulu Camenin memar Yaqut əl-Malatinin əlindən çıxmış görkəminə tamaşa eləyəndə ruhuna bir də rəhmət oxudum. Yorulanda çeşmə üstündə nəfəsimi dərdim, sonra yenə küçələri dolaşdım, açıq havadakı şirəçilərin, qaysıçıların, misgərlərin, dabbaqların səs-səsə verdikləri, köhnə-kürüş satılan bazarlardan keçdim, günorta namazımı Meydanbaşıda Əmir Kəmaləddin Kamyarın adına yenicə tikilmiş, yeddipilləli minbəri olan namazgahda qıldım, gün əyilənəcən də köhnə məhəllələri dolaşdım. Müsafirxanaya dönəndə kölgəlikdə dayanmış cavan bir adam irəli yeriyib qabağımı kəsdi, ədəblə bağır basıb salam verdi. Salamını aldım, amma onu tanıya bilmədiyimi, deyəsən, açıq-büruzə verdim, dedi, Şeyxim, mən ərzurumlu dəftərdar

İzzəddinin oğlu Nemətəddinəm, Məlik Mübarizəddinin qulluğundayam, gəlişinizi təsadüfən eşitdim, görüşməyi özümə borc bildim. Qəfildən elə kövrəldim ki, özümü saxlaya bilməyib onu qucaqladım: Nemətəddin, az qala, bu boşluqda yapışacağım saman çöpüydü, mənə xilas ehtimalını xatırladırdı.

Elə kölgəlikdəki daşların üstündəcə oturduq, dərhal da Əcəm Əlini, övrətini, Vəhidi soruşdum, dedi, səd heyif, Əcəm Əlidən də, övrətindən də bir nişanə tapa bilmədik, o vaxtdan halalımın göz yaşı qurumur, Vəhidsə sağ-salamatdı, külfətimizlə Əlbistandadı, qismət olsa, bu bəladan qurtulsaq, Ərzuruma qayıdacaq; dedi, amma belə görünür, bu xəmir hələ çox su aparacaq, bu gecə Sivasdan adamımız gəldi, dediyinə görə, Baycu Noyon şəhəri üç gün yağmaladandan sonra qoşunundan iki dəstə ayırıb, birini sultanımızın arxasınca Tokata, o birini də Qeysəriyyəni fəth eləməyə göndərib, sultanımız da bu xəbəri alan kimi Konyaya üz tutub; dedi, Mübarizəddin Cavlı Həzrətləri Şəmsəddin İsfahani Həzrətləriylə məsləhətləşdi, belə qərara gəldilər ki, öhdələrindəki üç min nəfərlə düşmənin qabağına çıxmaq intiharsayaq bir şey olardı, bu səbəbdən, artıq Tokatdan Konyaya yola düşmüş sultanımızın hüzuruna çıxmaq üçün ora getməyə hazırlaşırlar; dedi, güman ki, sabah sübh namazından sonra yola düşəcəyik, bəlkə, bir daha da görüşməyəcəyik, amma bilin, agah olun, dara düşsəniz, Əlbistanda sığınacaq yeriniz var, Noyonun əli oralara çatmaz; dedi, indi Mübarizəddin Cavlı Həzrətlərinin dəftərdarı mənəm, nə qədər ki, canımda can var, onun yanında olacağam. Nemətəddinin söylədikləri məni həm kövrəltdi, Əcəm Əlidən bir xəbər çıxmamasına kədərləndim, Vəhidin sağ-salamat, həm də əmin-aman yerə sığınmasına sevindim, yağıların Qeysəriyyəni hədəf almasına qəhr oldum. Nemətəddin yola hazırlaşmaq zərurətini dilə gətirib çox oturmadı, dara düşəndə Əlbistana üz tuta biləcəyimi bir daha xatırladıb getməyə izin istədi. Onu qucaqladım, uğurlu yol dilədim, tələm-tələsik çıxıb getdi, yenə boşluğun içində tək qaldım.

Şəmsəddin İsfahani də, Mübarizüddin Cavlı da Qeysəriyyənin imdadına getməklə bağlı iltimasıma cavab belə verməyib səhəri gün obaşdan Konyaya doğru yola çıxdılar. Əlbəttə, məni Daş Karvansaraya çağırtdırmasalar belə, lap elə dəftərdarı göndərib Konyaya getməli olduqlarını, dər-ül-mülkün halını sultana yetirəcəklərini söyləyib bir cınqı ümid belə verə bilərdilər. Amma yox, onlardan ötrü indi ölüm-dirim məsələsi Qeysəriyyə yox, birtəhər səltənəti, həm də səltənətdə öz məqamlarını qorumağıydı. Mənsə, Rəbbimin daha bir çətin sınağıyla üz-üzə qaldım: ya düşünüb-daşınmadan Qeysəriyyəyə üz tutacaq, Surətimlə, qardaşlarla, bacılarla çiyin-çiyinə dayanıb taleyin töhfəsini gözləyəcək, ya Nemətəddinin təklifini qəbul eləyib Əlbistana gedəcək, dəftərdar İzzəddinə sığınıb bu qasırğanın ötüb-keçməsini gözləyəcək, ya da elə Malatyadaca qalıb günlərimi Qeysəriyyənin halından xəbər tuta-tuta keçirəcəkdim. Götür-qoy eləmədən birinci yolu seçdim: dar ayaqda Surətimi, o binəsib adamları tək buraxsaydım, omrümün axırınacan xəcalət hissindən yaxa qurtara bilməzdim. Ən azı, döyüşənlərə ürəkdirək verə, əlimdən gələn yardımı göstərə bilərdim. Baxdım, axşam namazının vaxtına az qalır, yır-yığış elədim, namazımı qıldım, yenicə çökən toranlığa çıxanda qəfildən böyrümdə *kölgəm* peyda oldu, qolumdan tutub bayaq Nemətəddinlə söhbət elədiyim kölgəliyə çəkdi, mən də itaətkar uşaqtək yanına düşüb getdim, bir göz qırpımında da hər şey dəyişdi.

Kölgəm dedi, şeyxim, Qeysəriyyədən gəlirəm, mürşidim məxsusi göndərib, günortadan bəri karvansarayları ələk-vələk eləmişəm, Allah üzümə baxdı, vaxtında rastıma çıxdınız; dedi, mürşidim söyləmədi, təvəqqe elədi, yalvardı ki, Qeysəriyyəyə qayıtmayıb elə burdaca gözləyəsiniz, çünki Baycu Noyonun on minlik qoşunu Qeysəriyyənin üstünə gəlir, şəhərə girməyə yetişə bilməz, yağıların əlinə keçər, ya da canınızdan olarsınız; dedi, mən şəhərdən çıxandan sonra qapılar bağlanıb, artıq giriş-çıxış yolları tamam tutulub, üstəlik, güman ki, dünəndən üzük qaşı

kimi dövrəyə alınıb; dedi, Əmir Kaymazın əmrindəki iki min nəfər saray mühafizləri, bir də subaşı Topal Fəxrəddin Ayazın əmrində olanlardı, yardımımıza gələn qardaşlarla birgə üç min nəfər də bizik, min nəfər şəhər əhlindən yardıma hazırdı, min nəfər də Fatma Bacının əmrində olan bacılardı, cəmi yeddi min nəfərlik qüvvə var, şəhərin qapılarında, bürclərdə yerləşdirilib; dedi, silah-sürsat yetərincə tədarük olunub, Dabbaqlar məhəlləsində Sivas qapısını gözətləyən mancanaq qurulub, bir aylıq da azuqə var, Allahın köməyiylə düşmənin şəhərə girməsinə izin verməyəcəklər, o vaxtacan da, güman ki, Sultan Qiyasəddin qeyrətə gəlib yardım göndərər; dedi, şeyxim, karvansaraya qayıdın, məndən xəbər gözləyin, mürşidimin xətrinə təvəqqesinə əməl eləyin, Allah böyükdü, adildi, səbir göstərənləri də sevir. Sözlərini bitirib toranlıqda yox oldu, mən də yerimdəcə qaldım: getmək də, getməmək də Allahın sınağıydı, amma hər halda, Sürətimin tövsiyəsinə əməl eləməliydim...

***

...O əzablı, əndişəli, havasız günlər gücümü zəli kimi sorur, canımı taqətdən salırdı. *Dost*a gedən son qapının açılmaması bir yana, belə amansız mənəvi məşəqqətlə üzləşməyim heç ağlıma gəlməzdi. Artıq gecəylə-gündüzümü qarışdırmışdım, gündüzlər vurğun vurmuş kimi, şəhərin küçələrini dolaşır, çarşı-bazarı gəzir, meyxanalara girir, danışılanları dinləyir, Qeysəriyyənin halından bir xəbər tutmağa çalışırdım; gecələr qəfildən oyanıb yerimdən dik atılır, eni-uzunu üç addım olan hücrədə özümü divardan-divara çırpır, sinəmdən qopan iniltimi min zülmlə boğurdum. *Kölgəm* bir həftə sonra, meyxanada şərbət içən vaxt yanımda peyda oldu, hövlnak yerimdən atılanda qolumdan dartıb oturtdu, dedi, şeyxim, səbir eləyin, sonra meyxanaçıya bir piyalə şərbət gətirməyi tapşırıb əlavə elədi ki, Qeysəriyyəyənin lap yaxınlığından, qala divarları görünən yerdən gəlirəm, qardaşlardan biriylə də görüşdüm: şəhər əhli də, mühafizlər də,

qardaşlarımız da, bacılarımız da şir kimi döyüşürlər, Dabbaqlar məhəlləsindəki mancanaqlar səkilərdən, divarlardan sökülmüş daşları düşmənin başına yağdırır; dedi, qapılar bağlanmamış Mahpəri Xatun qızı Səlcuq Xatunla birgə gecənin qaranlığında xəzinə, əşyaları, cariyələriylə şəhərdən çıxıb Hələbə qaçırlarmış, bəxtlərindən Kozanda Sis ermənilərinə rast gəliblər, onlar da qaçanları tutub Baycu Noyonun hüzuruna göndəriblər, Mahpəri Xatunun oğlu Qiyasəddinsə düşmənin Qeysəriyyəyə yaxınlaşdığını eşidəndə sonra Konyaya da üz tutacağından qorxub daha da uzağa – Əlaiyyəyə qaçıb; dedi, bir həftə də tab gətirsələr, güman ki, düşmən geri çəkiləcək, çünki artıq payız girib, soyuq düşməmiş Muğana qayıtmaq istəyəcəklər; dedi, şeyxim, Allah böyükdü, adildi, səbir eləyənləri də sevir, sonra piyaləsindəki şərbətin son qurtumunu içib bağır basdı, masanın üstünə bir dirhəm qoydu, gəldiyi kimi də bir göz qırpımındaca yox oldu.

Əlbət ki, eşitdiklərimdə nikbin çalarlar vardı, amma o çalarlar yarama məlhəm ola bilməzdi, ruhum Qeysəriyyəyə can atırdı. Hətta bir dəfə Qeysəriyyə yoluna çıxdım, "Ya Allah!" deyib getmək istədim, qalanın on bir qapısının da bağlandığını, kimsəni bayıra buraxmadıqlarını, yalnız içəri girmək istəyənlərə izin verdiklərini görəndə niyyətimdən daşınmalı oldum. Alacaqapıda üzübəri gələn köçü görəndə əlim-ayağım yerdən üzüldü: yağıların yaxınlaşdığından əndişəyə düşən camaat ta Darəndədən bəri vəzndə ağır, çəkidə yüngül nələri vardısa, götürüb Malatya qalasına pənah gətirirdi. Belə görünürdü, get-gedə Qeysəriyyənin tablayacağına, tatarların geri çəkiləcəyinə ümid azalır, dər-ül-mülk ələ keçəndən sonra düşmənin bu tərəflərə üz tutacağınasa inam artır. Geri qayıtdım, şəhəri dörd dolandım, artıq subaşı Rəşidəddinin əmriylə Ulu Came, Qanlı Günbəz, Siddi Zeynəb Günbəzi, Şəhabiyyeyi-Kübra mədrəsəsi ətrafında qaçqın çadırları qurulmağa başlamışdı, ara-sıra yar-yasaqlı dəstələrə də rast gəlirdim. Şübhəsiz, şəhər əhlinin

gözü-qulağı Qeysəriyyədəydi, dər-ül-mülk ələ keçsəydi, əli silah tutan döyüşə hazır dayanacaqdı. Çarşı-bazarda da əvvəlki hüzur qalmamışdı, satanın da, alanın da görkəmində əndişə dolaşırdı. Doğmaları hələ də Darəndədən gəlib çıxmayan karvansarayçı əlləri qoynunda gözləyir, hər məni görəndə bəlanın sovuşub-sovuşmayacağını soruşurdu. Ona *kölgəm*in sözləriylə – "Allah böyükdü, adildi, səbir eləyənləri sevir" – cavab verir, yalnız hücrəmə girəndə gün ərzində yemək yeyib-yemədiyimi yadıma salmağa çalışır, çox vaxt da xatırlaya bilmirdim. Yuxum ərşə çəkilmişdi, özümü divardan-divara çırpır, yaralı qurd kimi inildəyir, az qala, ulayırdım.

Kölgəm iki həftə sonra peyda oldu, məni Kamyar namazgahı yanında tapdı. Bu iki həftə ərzində tanınmaz hala düşmüşdü, pal-paltarı tozlu, saç-saqqalı pərişan, gözləri yaşlıydı, sümüyüm sancdı ki, Qeysəriyyənin halı heç də yaxşı deyil. Çeşmənin qırağında, yanımda oturdu, gözlərini gümüldənə-gümüldənə axan suya dikib uzun-uzadı susdu, sonra başını çiynimə qoyub uşaq kimi ağladı, mən də hər şeyi başa düşdüm, göz yaşlarım çeşməyə döndü. Xeyli ağlaşdıq, ürəyimizi boşaldandan sonra *kölgəm* hıçqıra-hıçqıra dedi, şeyxim, dər-ül-mülk düşmən əlinə keçdi, həm də süqutuna xəyanət səbəb oldu: şəhər əhli də, mühafizlər də, qardaş-bacılarımız da on beş gün yağı həmləsinə dirəniblər, tatarlar şəhərə girə bilməyəcəklərini görüb, geri çəkilməyə hazırlaşdıqları məqamda xəyanət baş verib; dedi, gavurlar Xacik oğlu Hüsaməddin adlı soysuzu gecə ifrazat yoluyla qaladan çıxarıblar, o da mühasirənin zəif yerlərini düşmənə yerli-yataqlı xəbər verib, səhəri tatarlar həmin yerlərdən güclü həmlə eləyib, qalaya girə biliblər; dedi, Dabbaqlar məhəlləsi ətrafında ölüm-dirim çarpışması baş verib, əli silah tutanların hamısı qanına qəltan olub, qardaş-bacılarımız ölümü əsirlikdən üstün tutublar, amma Fatma Bacı özünə qıymağa macal tapmayıb, bir neçə bacıyla yağıların əlinə keçib, dabbaqbaşı Xeyrəddinin meyitini tapıblar, mürşidiminsə öldüsü-qaldısı mə-

lum deyil; dedi, indi dər-ül-mülkdə yağmadı, düşmən qənimət toplamaqla, sağ qalanları öldürməklə məşğuldu; dedi, Kürünəcən getmişdim, orda möcüzə sayəsində yaralı qurtarmış, özünü Malatyaya çatdırmağa, tatarların bura üz tutacaqlarını xəbər verməyə çalışan qardaşımıza rast gəldim, yeri behişt olsun, o yaralardan qurtula bilmədi, vəzifəsini mən yerinə yetirdim, təhlükənin yaxınlaşdığını lazımi məqamlara çatdırdım, bu gündən şəhərin qapıları tamam bağlanacaq.

Dabbaqbaşı Xeyrəddinin ölümünə, Fatma Bacının əsir düşməsinə ürəyim parça-parça olsa da, Surətimin düşmən əlinə keçməməsi, meyitinin tapılmaması qəlbimizdə hələ sağ olduğuna kiçicik ümidi körükləyirdi. *Kölgəm*in dediyinə görə, qardaşlar mürşidi dərgahın altındakı saxlancda gizlədə, yaxud yalnız özlərinə məlum yolla şəhərdən çıxara bilərdilər, çünki piri zindanda olan dərgahın mürşidi, necə olur-olsun, sağ qalımalıydı. Beləydisə, onda Fatma Bacını, pirlərinin əmanətini niyə vaxtında aradan çıxarmamış, düşmən əlinə keçməsinə yol vermişdilər – bu ağlıma batmır, səbəbini heç *kölgəm* də bilmirdi. Surətim sağ idisə, görünür, düşmənlə hələ savaş bitməmişdi, başqa yerlərdə, qəfil basqınlarla davam eləyəcəkdi. Seyyid Bürhanəddinin halından heç əndişə duymurdum, yəqin, Xacik oğlu Hüsaməddin kimi satqınlar onun hüsn-rəğbətini düşmənə çatdıracaq, Noyon da adlı-sanlı üləmanı himayəyə götürəcəkdi; qazının, camedarın da fikrini çəkmirdim, uzaqbaşı, yenildiklərini görəndə boyunlarına kəfən dolayıb Baycu Noyonun ayağına gedəcək, əfv diləyəcəkdilər. Ürəyimi dağlayan malsız-mülksüz adamların dər-üs-səltənə yolunda canlarından keçmələri, Qiyasəddininsə məmləkəti, səltənəti, təbəələrini, üstəlik, validəsini, bacısını düşmənin əlində qoyub, bu da azmış kimi, sonuncu dər-üs-səltənə Konyanı da başsız buraxıb Əlaiyyəyə qaçmasıydı. Baycu Noyonsa artıq sultanı bu fəlakətə sürükləyən Nizaməddin Söhrabın məmləkətinə – Danişməndilərin yurduna gəlirdi, Konyaya getsə, güman ki, qarşısına qoşun yox, Seyyid

Bürhanəddin kimi düşünənlər çıxıb səltənəti ayaqları altına atacaqlar. İndi Böyük Sultan Əlaəddinin sümüklərinin qəbirdə sızıldadığına heç şübhəm yoxudu.

Kölgəm bu xəbəri qardaşlarına da çatdırmalı olduğunu söylədi bir göz qırpımındaca əriyib yox oldu, yavaş-yavaş çökməkdə olan axşamın toranlığında tək qaldım. Xeyli müddət yerimdən tərpənməyə özümdə güc tapa bilmədim, sonra qalxıb küçələri, meydanları doldurmuş qaçqınların arasında sərsəri kimi dolaşdım, ağlartı, inilti, fəryad səslərinə qulaq asdım, toranlıq qatılaşanda Misgərlər çarşısına sarı yönəldim, karvansarayçının tanış sualına həminki cavabı verib hücrəmə qapandım. Elə bil, yerdən aralanmışdım, amma göyə də çatmamış, boşluqda, çəkisizlikdə qalmışdım. Ağlıma gəldi ki, bu, görünür, itkilərimin çoxluğundandı: itirdikcə çəkisizləşirəm, məni yerə bağlayan tellər bir-bir qırılır. Təbrizdən bəri Ərbildə, Bağdadda, Şamda, Hələbdə, Qeysəriyyədə, Ərzurumda, Sivasda itirdiklərimi sadalasaydım, axırına çıxa bilməzdim. Amma Surətim kimsəylə müqayisəyə gəlməzdi – özümüydü, tən yarımıydı, başına bir fəlakət gəlsəydi, qalan həyatımı yarımçıq yaşayacaqdım. Doğma bir kimsəmin olmadığı şəhərdə əlacsız halda qapanıb qalmaq dözülməz ağrı verirdi. Artıq şəhərin qapıları bağlanmış, Əlbistana getmək – orda dərdimi, heç olmasa, Vəhidin, dəftərdar İzzəddinin ünsiyyətilə azacıq dağıda bilərdim – fürsəti də əldən çıxmışdı. İndi qarşımda ağır, kədərli, tutqun payız günləri dururdu, içimdəki dözülməz qüssədən, o günlərin ağırlığından sağ qurtulub-qurtulmayacağımı da bilmirdim. Elə pal-paltarlı həsirin üstünə oturmuş, kürəyimi divara söykəmiş halda yuxuya getdiyimi səhər ayılanda dərk elədim...

Sonrakı həftənin günləri bir-birinə oxşadı: boğazımdan su keçib-keçmədiyini belə xatırlamırdım. Şəhabiyyeyi-Kübra mədrəsəsinin müdərrisi Vəliyəddin Xocanın adamlarıyla çiyin-çiyinə verib əlimdən nə gəlirdisə, geri durmurdum: qeyrət yiyələriylə birgə hələ yersiz-yurdsuz qalmış qaçqınlara yer

tapmaq, ümidsizliyə qapılanlarda ümid oyatmaq, güzəranlarını yola vermək üçün lazım olanları tapmaq, vahiməyə düşənlərin qeyrət damarını tapıb faydalı işlərə yönəltmək, ən vacib məsələləri qazıya, darğaya yetirmək... günlərimi tamam doldururdu, yalnız gecələr bir hovurluğa dincəlmək üçün hücrəmə çəkiləndə Qeysəriyyənin aqibəti, Surətim, dabbaqbaşı Xeyrəddin, Fatma Bacı, tanıdığım-tanımadığım binəsiblər yadıma düşür, gecəm çəkilməz əzab-işgəncə içində keçirdi. Arada mürgüləyəndə yuxumda divlərlə, ilan-çayanla, yeddibaşlı əjdahayla üz-üzə gəlir, ayılıb səhərəcən yerimdə çevrikirdim. Elə hey beynimdə üç kəlmə dolaşırdı: "O, ölə bilməz!" Əlbət ki, insan övladı kimi faniydi, amma pirinin zindanda olduğu məqamda ölə, qardaşları taleyin ixtiyarına buraxa bilməzdi; Ərzurumun, Ərzincanın, Sivasın, Qeysəriyyənin düşmən əlinə keçməsi, qoşunun dağılması, neçə-neçə qardaş-bacının canından olması, sultanın qaçması, Malatyanın təhlükədə olmasıyla hələ hər şey bitmirdi. Məmləkətin hər yanında olan, ortaya çıxmaq üçün işarə gözləyən kəslər fürsət tapanda öz sözlərini deyəcəkdilər. Bu səbəbdən, Surətim belə dar məqamda ölməzdi, *ölə bilməzdi...*

Sıxıntıdan can qurtarmaq üçün Vəliyəddin Xocayla dərdimizə müdərrislərlə, tələbələrlə baş vurduğumuz könül söhbətləriylə əlac qılırdıq. Elə o günlərdə müddərrislərdən biri soruşdu ki, şeyxim, sənə necə qovuşa bilərəm, dedim, tənini soyun gəl, çünki Tanrıyla bəndə arasında pərdən təndi, o da dörd şeydən – tənasül alətindən, boğazdan, mal və mənsəbdən ibarətdi; sonra ariflərin əlamətlərini soruşdu, dedim, arifin əlaməti üçdü – qəlbin fikirlə, tənin xidmətlə, gözün yaxınlıqla məşğul olmasıdı, nəzərindəsə dünyanın əhəmiyyəti, axirətin əsəri, Tanrının bədəli olmaz; elm-üləmanın əlamətləri barədə də sual verdi, dedim, elm üç şey – anan dil, şükr eləyən qəlb, səbri bacaran təndi, elmi olmayan vücud da susuz şəhərdi, bu səbəbdən, elmin yararlı, əməlin sağlam, sözün nəsihətamiz olmalıdı, həm də elmi asan-

lıqla tapmaq istəyən çətinliklərlə üzləşər; dedim, bilikli adamda üç xüsusiyyət – mülayimlik, yəni helmli olmaq, başqasının malına göz dikməmək, nəfsini saxlamaq – olmalılıdı, dünyada ən böyük fəzilət də elmli, həm də helmli olmaqdı. Biri də mərifətin nə olduğunu soruşdu, dedim, mərifət könlün tanrıyla diriliyidi: diri olanı öldür – bu, vücudundu, ölü olanı dirilt – bu, qəlbindi, var olanı yox elə – bu, arzundu, yox olanı var elə – bu isə niyyətindi; dedim, mərifət qəlbdə, şəhadət dildədi, Cəhənnəmdən qurtulmaq istəyirsənsə, xidmət elə, Cənnətə düşmək istəyirsənsə niyyət elə, Tanrını istəyirsənsə, üzünü ona çevir, dərhal tapacaqsan, çünki *O*, buyurub ki, məni istəyən – məni axtarar, məni axtaran – məni tapar, həm də məndən başqasının üzünə baxmaz; biri də insanın fəzilətləri barədə soruşdu, dedim, heç vaxt qeybət eləmə, bil ki, dedi-qodu pis gücü ahənrüba kimi özünə çəkir; heç kəsin əleyhinə danışma, uzaqdan asıb-kəsmə, insanları yarı-yarımçıq ittiham eləmə, bil ki, yanılırsan...

***

...Həftənin axırında, günorta namazından sonra qala divarının o tərəfindən düşmən atlarının kişnərtisi, arabaların cırıltısı, vəhşi qiyyələr eşidildi. *Kölgəm* demişdi, bir dəstə atlı qiyyə çəkə-çəkə divarlar boyu çapır, bürclərdəki keşikçiləri ox yağışına tutur, vahimə oyatmağa, yanar ox atıb yanğın salmağa çalışır, beləcə zəif yeri tapıb qəfildən ora basqın eləyir, nərdivanlarla dırmaşıb döyüşənlərin müqavimətini qırırlar. Yəqin, bütün bunları şəhərin başbilənlərinə də söyləmişdi, çünki nə bürclərdəki əsgərlər o vəhşi qiyyələrdən qorxdular, nə də yanar oxlar şəhərə ciddi ziyan vura bildi: bürclərdəki əsgərlər ox məsafəsində olanlara ox yağdırır, şəhərin hər məhəlləsində su tuluqlarıyla hazır dayanmış dəstələr də yanğınları böyümədən söndürür, yaralananları dərhal şəfaxanaya çatdırır, şəhid olanları vay-şivən qoparmadan dəfn eləyirdilər. Düşmən, əlbət ki, şərt irəli sürmüşdü: səhər könüllü təslim olsa, qırğın baş ver-

məyəcəkdi, yalnız qənimət alıb, əhalini töycüyə bağlayıb gedəcəkdi, amma şəhərin başbilənləri məsləhət-məşvərətdən sonra kəfənlərini boyunlarına dolayıb müqaviməti davam etdirmək qərarına gəlmişdilər: görünür, payızın girməsinə, az sonra yağışlar, soyuqlar mövsümünün başlayacağına, Baycu Noyonun Muğandakı ordugahına qayıtmaq məcburiyyətində qalacağına ümid bəsləyirdilər. Qala divarlarının bürclərində keşik çəkənlərin dediklərinə görə, basqınçıların sayı on min nəfərdən artıq olmazdı, qala müdafiəçilərinin sayı da elə o qədər idi, belə çıxırdı, qalanın düşmənə hələm-hələm boyun əyəcəyini düşünməyə dəyməz.

Bir həftə də belə keçdi: düşmən müdafiə olunanları sarsıtmaq, əzmlərini qırmaq, zəif yerini tapmaq üçün qala divarı boyu at çapdı, şəhərə yanar oxlar atdı, gecələr tonqalların ətrafına yığılıb yemək-içməklə, şaman ayinləri keçirməklə zəfərə yol tapmağa çalışdı, ölən nökərlərin meyitlərini yandıqdıqlarını da şəhərə yayılan yanıq iyindən hiss elədik. İki dəfə də elçi göndərib təslim şərtlərini bir daha yetirdilər. O bir həftə ərzində payızın ilk soyuq yağışı da yağıb düşmənin əhvalını əməlli-başlı korladı: atları qala divarı boyu yaranmış gölməçələrdə, qatı palçıqda çətinliklə hərəkət eləyir, atdıqları yanar oxlar yağışdan islanmış evlərə od salmamış sönür, divarlara söykədilən nərdivanlarla dırmaşanların üstünə bürclərdən, mağzallardan ox, qaynar su, daş-kəsək yağırdı. Vəliyyəddin Xocanın hesablamasına görə, həftə ərzində yüz səksən nəfər düşmən oxlarının qurbanı olmuşdu, dörd yüzəcən də yaralı vardı. İndi şəhər əhli havanın xoş keçməsini yox, şaxtanın düşməsini, qarın yağmasını arzulayır, gecə-gündüz üzünü göyə tutub dua eləyirdi. Belə görünürdü ki, Rəbbimiz bu dəfə bizim tərəfimizdədi: həftənin son günü hava lap soyudu, sulu qar başladı, bu da, görünür, düşmənin zəfərə inamını lap sarsıtdı: bütün qəzəblərilə bir daha qalaya həmlə elədilər, nəticəyə varmayıb tələm-tələsik çadırlarını sökdülər, arabalarını qoşdular, atlarını minib yola düzəldilər. O

məqamda şəhərdə misli görünməmiş şadyanalıq başladı: ağrı-acılarını, itkilərini, yaralılarını unudan camaat küçələrə töküldü, qucaqlaşıb ağlaşdı, dadına çatdığına görə Allahına şükür elədi.

Məndən olsa, dərhal Qeysəriyyəyə yola düşərdim, amma o məqamda *kölgəm* peyda oldu, dedi, şeyxim, qəlbinizdən keçənləri bilirəm, mürşidimizin taleyindən nigaransan, amma əvvəla, hələ şəhərin qapıları açılmayıb, ikincisi, düşmənin heç olmasa, bir mənzil uzaqlaşmasını gözləyin, indiyəcən bəd xəbər çıxmayıbsa, deməli, mürşidimizdən ümid üzülməyib, inşallah, sağ-salamat taparıq. Mürşidinə mürid kimi sədaqətli olan o binəvanın mənimlə Sürətim arasındakı ilahi bağı duymağa iqtidarı, əlbət ki, yetməz, qəlbimdəki tələtümləri anlaya bilməzdi. Amma öz tərəfindən haqlıydı, tələsib düşmən əlinə keçmək indi məndən ötrü ölümdən betər olardı: ən azı, Qeysəriyyəni on beş gün qoruyanlardan biri – Kamili-Təbrizi sayıb başımı bədənimdən ayırardılar. *Kölgəm* deyirdi, düşmən, adətən, səfərdə olanda irəlidə də, geridə də, yanlarda da kiçik dəstələr qoyur ki, qoşunu qəfil basqınlardan qorusun, indi o dəstələrdən birinin girinə keçməyin heç vaxtı deyildi. Məsləhətinə qulaq asdım, o yarım günü də, gecəni də ağlagəlməz həyəcan içində keçirdim. Böyük ümidlə gəldiyim, vəzifəmi yerinə yetirə bilmədiyim, üstəlik, əsir qaldığım bu şəhərdə vidalaşmalı olduğum, ağır günləri bölüşdüyüm iki adamım vardı: Vəliyəddin Xoca, bir də karvansarayçı. Xocayla mədrəsədə vidalaşdım, bu şəhərə bir də gəlib-gəlməyəcəyim təkcə Allaha agahıydı, haqqımızı bir-birimizə halal eləməklə yetindik; karvansarayçı ümid verdiyimə, gümanım düz çıxdığına görə, özünü mənə borclu sayır, haqqını almaq istəmirdi, dedim, mən dərviş babayam, pul-paraya o qədər də ehtiyacım yoxdu, sənsə pulsuz iş görə bilməz, tezliklə müflis olarsan. Haqqını ancaq bundan sonra qəbul elədi, ardınca birgə səfər duası oxuduq, beləcə yola çıxdım...

ONUNCU MƏQAM

Qeysəriyyə

ÜZÜMƏ AÇILAN YEDDİNCİ QAPI

Ya ürəyini tamam açmalısan,
ya da heç cəhd eləməməlisən;
eşqin boz rənglisi yoxdu,
ya qaranı, ya da ağı seçməlisən.





...Dördgünlük yolu sanki yuxu, yaxud duman içində gəlmişdim, nə rastıma çıxanlar düz-əməlli yadımdaydı, nə də aclıq-susuzluq duymuşdum. *Kölgəm* olmasaydı, yəqin, hisslərimin dumanı içində də itib-batardım, hərdən özümdən uzaqlaşdığımı görəndə qolumdan tutmuş, söz-söhbətiylə gerçəkliyə qaytarmış, hələ bu aləmdə yaşadığımı, irəlidə hədəflərim olduğunu andırmışdı. Heç yuxu gördüyüm də yadımda deyildi, görünür, ya görməmişdim, ya da gördüklərim yaddaqalan olmamışdı. Amma Küründəki karvansarayçının qorxudan əyilmiş sifəti, az qala, hədəqəsindən çıxmış gözləri yadımdadı. Düşmənin bir dəstəsi on gün ərzində karvansarayında qalmış, əllərinə keçəni almış, yeyiləni yemiş, zülmə baş qaldırmaq istəyən neçə nəfəri qanına qəltan eləmişdi. Deyirdi, neçə illərdi insanların yaşadıqları hücrələri tövləyə çevirdilər, bu payız vaxtı üç gündü havalandırırıq, qoxuları çəkilmir ki, çəkilmir. Atını vermək istəməyən bir binəvanın dilini kəsdiklərini, sonra boynunu vurub, başını nizənin ucuna keçirdiklərini, başqa birini atın quyruğuna bağlayıb sürütlədiklərini öz gözləriylə görmüşdü. Özü fəlakətdən sağ qurtulduğuna inanmır, bunu xidmət göstərməsi, sonra da nökərlərin Malatyadan qayıdan qoşuna qatılmaq üçün tələsdiklərinə görə, işini bitirməyə macal tapmamalarıyla bağlayırdı. Hər nəydisə, belə çıxırdı, məmləkətin üzərinə çökmüş ağır hava Baycu Noyonun öz ordugahına qayıtmasıyla tamam çəkilib getməyəcək, uzun müddət qalacaqdı.

Qeysəriyyəni dağılmış, şəhər əhlini gözüyaşlı gördüm. Qala divarının bəzi yerləri uçmuş, bayırdakı çarşı-bazarlar viran edilmiş, evlərin çoxu yandırılmışdı. Qala içindəki camelərə, məscidlərə, mədrəsələrə o qədər ziyan dəyməsə də, Dabbaqlar çarşısı da daxil olmaqla, bütün çarşılar şiddətli müqavimətin izlərini saxlayırdı. Şəhərin süqutundan keçən iki həftə ərzində meyitlər yığışdırılıb dəfn edilsə də, hələ həyat öz axarına dönməmişdi. Hərdənbir yarıuçmuş evlərdən birindən qadın, ya kişi çıxır, qorxa-qorxa ətrafa boylanıb tələm-tələsik harasa üz tuturdu. *Kölgəm*lə Dabbaqlar çarşısının yanında dayanıb hara gedəcəyimizi bilmirdik. Əvvəla vəziyyətdən baş açmalı, Surətimin sağ olub-olmadığın müəyyənləşdirməli, onu harda tapacağımızı öyrənməliydik. Əlbət ki, burdakı qardaşlardan biri rastımıza çıxsaydı, bəzi məsələlərə aydınlıq gətirə bilərdik. Bir tərəfi çökmüş, talan edilmiş Dabbaqlar çarşısında kimsəni tapmadıq, camenin imamı harasa getmişdi, dərgahın qapısı bağlı, karvansaray bomboş idi, karvansarayçıdan da xəbər-ötər yoxudu, Surətimin evində də kimsəylə rastlaşmadıq, camedarın başına nə gəldiyi hələ bəlli deyildi, hətta əsir aparıldığını söyləyənlər də vardı. Beləcə, axtarışlarımız nəticəsiz qaldı, o gecəni karvansarayın soyuq hücrəsində keçirdik, *kölgəm*in qoltuğunda saxladığı bir parça quru çörəyi gəvələyib üstündən su içdik, yarımürgülü halda səhərin açılmasını gözlədik.

Hava işıqlaşar-işıqlaşmaz sığınacağımızdan çıxıb ümid içində xarabalıqlar arasında dolaşmağa başladıq. Şəhər əhli kimsədən imdad gözləməyib öz yaralarını sarımağa, həyatdan yapışmağa çalışırdı. Zirzəmilərdən, sığınacaqlardan, daldanacaqlardan çıxan, aləmə hürkək-hürkək baxan adamların halәti ürəyimi ağrıtdı. İkinci kərə Dabbaqlar məhəlləsindən keçəndə qəfildən yanımızda bir nəfər peyda oldu, *kölgəm*in qolundan yapışıb dalda yerə çəkdi, qulağına nəsə pıçıldadı. *Kölgəm*in simasının azca işıqlanmasından son günlərin bəd xəbərlərindən

sonra xoş xəbər ola biləcəyini duydum: ürəyim quş kimi çırpındı, nəfəsim tıncıxdı, toxtamağa macal tapmamış da *kölgəm* qolumdan yapışıb məni ardınca dartdı. *Kölgəmin kölgə tanışı* bizi dərgahın arxa tərəfinə apardı, ətrafda kimsənin olmadığına əminlik hasil eləyəndən sonra divarın dibindəki iri, yastı daşı kənara çəkdi, altında pilləli oyuq göründü, əvvəlcə *kölgəm* endi, arxasınca mən düşdüm, bələdçimiz də daşı yerinə çəkməmiş *kölgəm*ə məşəli yandırmağı tapşırdı, ardınca məşəli alıb irəli düşdü, belimizi azca əyib irəlilədik, axır ki, bir qapının önündə dayandıq. Onda sümüyümə damdı ki, o qapının arxasında nə vaxtdan bəri həsrətində olduğum kəs var.

Surətimlə o görüşümün təfərrüatlarını sonralar ha xatırlamağa çalışdım, amma yadıma *doğma qoxu, doğma nəfəs, doğma təmas*dan başqa bir şey düşmədi. Bir-birimizə sarılıb nə qədər eləcə qaldığımı da xatırlamıram. Bəlkə də heç təsəvvür elədiyim qədər uzun çəkməmişdi, intizarını çox çəkdiyimdən, mənə elə gəlmişdi. Amma o məqamda validəmin ağuşunu xatırladığım yadımdadı. Axır ki, Surətimin tək olmadığının fərqinə vardım: kürəklərini divara söykəyib oturmuş qardaşlar kədərli, həm də yorğunuydular, gözlərini ortadakı ocağın zəif alovuna dikib susurdular. Surətim həsirin üstündə yer göstərəndən sonra dedi, səni Malatyaya göndərdiyimə peşman oldum, Şəmsəddin İsfahaninin yardıma gələcəyinə o qədər də inanmırdım, amma dər-ül-mülkü başlı-başına buraxdıqlarına əmin olmalıydım; dedi, Sivasın düşmən əlinə keçməsinin günahkarı sultandısa, Qeysəriyyənin talan olunmasının baiskarı da naibidi, düşməni sarsıtmışdıq, artıq geri çəkilməyə hazırlaşırdı, Şəmsəddinin arxadan ötəri bir zərbəsi hər şeyi həll eləyərdi, amma o, yardım əvəzinə yığdığı qoşunu buraxıb sultanının yanına üz tutdu; dedi, bu tərəfdən də aramızda bəslədiyimiz gavurların xəyanətilə üzləşdik, yoxsa qardaşlarımız-bacılarımız son nəfərləri qalanacan bu şəhəri düşmənə təslim eləməzdilər; dedi, Fatma

Bacının düşmən əlində olması məni sultanın qorxaqlığı, naibin biganəliyi qədər yandırır, indən sonra onun xilası üçün yollar aramaq lazımdı...

Görmədiyim müddətdə Surətimin saç-saqqalının daha da ağardığının, simasındakı hüznün artdığının, amma gözlərindəki odun daha da şiddətləndiyinin fərqinə vardım. Görünür, öz görkəmimdə də eyni dəyişikliklər baş vermişdi – bunu onun kədər, həm də şəfqət dolu baxışlarından duydum. Sürətim dedi, Baycu Noyon şəhərdə özünə sadiq adamlardan ibarət dəstə qoyduğuna görə, hələ gün işığına çıxa bilmirik, indi qardaş-bacılarımızın hər biri bizdən ötrü qızıl dəyərindədi, heç birini güdaza verə bilmərik, düşmənin uzaqlaşmasını, yaralarımızın, az da olsa, sağalmasını gözləyəcəyik; dedi, Seyyid Bürhanəddinin fitvasıyla tatarlara itaət göstərməyi təşviq eləyənlər hələ ki, şəhərdə at oynadırlar, elə bilirlər, beş-üç tatarı müsəlman eləməklə bu məmləkət üzərindəki haqlarını da isbata varırlar; dedi, Sultan Alparslanın ardınca bu torpaqları yurd yeri seçənlər, onların haqqını dilə gətirənlər zindandadılar, sultanın ətrafınısa soyu-kökü dolaşıq, niyyəti naməlum olanlar bürüyüb; dedi, səltənəti düşdüyü bu qaranlıq quyudan çıxarmaq üçün yollar aranmalıdı, özümüzə gələn kimi, olan-qalan həyatımızı da bu mərama qurban verməliyik, məmləkətin hər tərəfinə qardaşlarımızı göndərmişik, yardım eləyəcəklər, Sivasın, Ərzincanın, Ərzurumun yaralarını da sağaldacağıq; dedi, sağ qalmaq mənim yox, Rəbbimizin, bir də qardaşlarımın seçimi oldu, pirimizin zindanda olduğu bir vaxtda şəhadətimi məsləhət görmədilər, mən də çiyinlərimə qoyulmuş bu yükü çəkməliyəm. Sonra ortaya ağır, üzücü sükut çöktü.

Zirzəmi həyatına mən də alışdım: divarlar boyu atılmış həsirlərin üstündə açılan mitillərə bürünüb yatır, yan tərəfdəki kiçik otaqda yuyunub-rahatlanır, bədənimizin uyuşuğunu açmaq üçün on-on iki addımlıq dəhlizdə var-gəl eləyir, Kəbə

tərəfi işarə eləyən küncə sarı üz tutub namazımızı qılır, qardaşların tapdıqları isti-soyuq yeməklərlə az-çox aclığımızı öldürür, kürəyimizi soyuq divara söykəyib söhbətləşirdik. Zirzəmidəkilərin sayı da, tərkibi də, fasiləsiz dəyişirdi: kimlərsə gəlir, xəbərlər gətirir, kimlərsə Surətimdən tapşırıq alıb gedirdi, həm də bu gəliş-gediş diqqət çəkməsin deyə, əsasən, gecələr baş verirdi: gedənlər öz dava yoldaşlarının taleyindən xəbər tutmağa, onlardan birinin külfətindən sağ qalanların güzəran qayğılarını yoluna qoymağa, şəhərlər arasındakı qırılmış bağları yenidən düyünləməyə, fəlakətzadələri bu qışdan çıxarmaq üçün yardım toplamağa yollanır, gələnlər aldıqları tapşırıqları yerinə yetirib-yetirmədikləri, məhəllələrdəki, ailələrdəki vəziyyət barədə məlumat çatdırır, yardım gətirənlər ağça kisələrini xəzinədar qardaşa verir, uzaq şəhərlərdən gələnlər məmləkətin halı barədə ürəkgöynədən xəbərlər yetirirdilər. Belə çıxırdı, yük olmasın deyə, ağır yaralı əsirlərin öldürülməsinin əmr eləyən cəllad Baycu Noyonun Muğan ordugahına qayıtmasıyla hər şey başa çatmayacaq, hüzur, əmin-amanlıq bərqərar olmayacaq, səltənət qovğaları bitməyəcək. Məmləkətin də, səltənətin də böyük təhlükəylə üz-üzə qaldığı məqamda sultanın sinəsini irəli verməməsi, canını qurtarıb xalqı Allahın ümidinə buraxması ürəklərimizi göynədirdi.

O günlərdə, axır ki, Surətim indiyəcən mənə qaranlıq gəlmiş bəzi məqalmara aydınlıq gətrdi. Şeyx Övhədəddinin də, Nəsirəddin Mahmudun da niyyəti düz, yolu sadəydi: *Allah insanı yemək, içmək, geyinmək, evlənmək, ev-eşik qurmaq kimi bir çox şeylərə möhtac olaraq yaradıb, heç kəs də bu ehtiyacları təkbaşına ödəyə bilməz, bu səbəbdən, hamı bir-birinə möhtac, həm də öz aralarındakı ixtilafları aradan qaldırmağa məcburdu;* beləcə, onun fikirlərini çatdıran əsnaf kəndxudaları, nizam, həm də yardım məsələlərində şeyxə yardım eləyən igidbaşılar, əldən çıxan malları saf-çürük eləyən işçibaşılar, əsnafla üst qu-

rum arasındakı ixtilafları yoluna qoyan əhli-hibrələr yetişmişdi; guya, Nəsirəddin Mahmudun Əxi Evrən kimi tanınması Qeysəriyyədəki dabbaqxanasında ilan saxlamasıyla bağlıydı, bəziləri də deyirlərmiş, əxi Nəsirəddin Kırşehirə gedəndə şəhərə bir ilan dadandığı, onun qorxusundan kimsənin işə çıxa bilmədiyi barədə şukayətləniblər, o da ilanı ovsunlayıb, müti quluna çevirib, şəhər əhli də adını Əxi Evrən çağırıblar. Onun əjdaha cildinə girdiyi barədə rəvayətəoxşar əhvalatlar da danışırdılar, amma Surətim mürşidinin bu adı doğulduğu Xoydakı üçbaşlı əjdahaya oxşayan Evrin dağından götürdüyünü söyləyirdi, mən də Qeysəriyyə dabbaqxanasında ilan görmədiyimdən, hələ Kırşehirə getmədiyindən bunu daha ağlabatan sayırdım. Əlbət ki, qurduqları bu nizam olmasaydı, Qeysəriyyə indi ölü şəhərə çevrilər, bəlkə də boşalardı.

Sürətimin dediyinə görə, Qeysəriyyənin on dörd gün duruş gətirməsi, qardaşların, bacıların, mühafizlərin, şəhər əhlinin dəyanəti düşmənin inadını sındırıbmış, artıq mühasirəyə vaxt itirməyin mənasızlığını sezib çadırlarını da sökməyə başlayıblarmış; o gecə də dinimizi qəbul eləmiş, kimi-kimsəsi olmayan, hamının Xacik oğlu Hüsaməddin, Allahın yazıq, fağır bəndəsi kimi tanıdığı, sədəqə verdiyi, buyurub-çağırdığı Xacik oğlu Hovanesin içindən yırtıcı canavar peyda olacağı, gavurlardan tapşırıq alıb ifrazat yoluyla bayıra çıxacağı, qalanın zəif yerlərini düşmənə nişan verəcəyi kimsənin ağlına gəlməzdi; dan yeri ağaranda tatarların həmlələri o qədər güclü olub ki, artıq qarşısını saxlaya bilməyiblər, gün ərzində də hər şey olub-bitib: qırılan qırılıb, qalan qalıb, canını qurtara bilməyənlər də ya cəlladların oxuna, nizəsinə, qılıncına qurban olub, ya da əsir götürülüblər. Surətim o məqamda Fatma Bacıya xəbər çatdıra, onu qoruya bilməməsi üçün xəcalət çəkirdi: göndərdiyi qardaşlar dərgahla çarşı arasındakı bir neçə yüz addımlıq yeri vaxtında keçə bilməmiş, hava qaralanda özlərini yetirsələr də artıq iş-işdən keçdiyi

barədə xəbər gətirmişdilər: təskinliyi də bir məqamda tapırdı ki, çox güman, düşmənlər əsir götürdükləri xatunun pirimizin zövcəsi olduğundan xəbər tutublar, Baycu Noyan da sultanın zindanında olan hörmət-izzətli şəxsin, dərgah pirinin külfətinə əl qaldırmaz, Fatma Bacını əsirlikdən qurtarmaq üçün də Şəmsəddin İsfahaniyə, sultanın özünə belə üz tutacaq...

***

...Amma iki həftə keçməmişdi, Surətim başqa bir yola əl atdı: qardaşlardan biri vəziri-əzəm Mühəzzəbəddin Əlinin taxt-tac dərdini çəkən sultanın əmrini gözləməyib Amasyaya qazısı Fəxrəddinlə yola çıxdığı, Ərzincanı yağmalayıb Muğana üz tutan Baycu Noyonun ordugahına gedib, barışıq əldə eləmək niyyətində olduğu barədə xəbər gətirdi, Surətim də dərhal ona özünü vəziri-əzəmə çatdırmağı, Fatma Bacını da əsirlikdən qurtarmaq üçün saqqal tərpətməsi barədə təvəqqelərini yetirməyi tapşırdı: Mühəzzəbəddin Əliylə Nəsirəddin Xoca arasında xoş münasibət olmuşdu, yəqin, vəziri-əzəm bunu unutmayacaqdı. Sonra Surətim intizarlı günləri adi qayğılarla doldurmaq üçün çırpındı, fikrincə, indi ən vacibi tatarlardan qisas almaq niyyətiylə fürsət axtaranların ehtiraslarını cilovlamaq, Baycu Noyonun qəzəbinə tuş gəlməmək üçün şəhərdə saxlanan bir neçə yüz nəfərlik dəstəyə basqın edilməsinə hər vəchlə mane olmaq, basqınçını Ərzurumda haqlayıb onunla Çormoğon Noyonın hüzuruna gedən vəziri-əzəmin Muğandan qayıtmasını gözləmək lazımıydı; Baycu Noyonun qış ordugahına dönməsindən xəbər tutan Sultan Qiyasəddin də, axır ki, dər-üs-səltənə Konyaya dönər, dağılmış dövlət nizamını yenidən qurmağa başlayar – hər halda, buna ümid bəsləyirdik. Amma Surətimin fikrincə, məmləkətdə Seyyid Bürhanəddin kimi tatar tərəfdarı olan zatların sayca artması hürküdücü gerçəklik idi: Konyadan gələn qardaşın söylədiyinə görə, Baycu Noyan Ərzuruma basqın eləyəndən

Molla Cəlaləddin vəəzlərində əvvəllər üstüörtülü, axır vaxtlarsa açıq-aşkar tərzdə məmləkət rifahının qüdrətli tatar xanına itaətə bağlı olduğunu bildirirmiş, bu da indiki vaxtda daha qorxuluymuş: beyinlərə işləyən, könüllərdə közəran, sonra dillərdə səslənən o fikirlər məmləkətin də, səltənətin də məhvinə səbəb ola bilərdi.

Qış yarı olmamışdı ki, qardaşlardan biri Seyyid Bürhanəddinin vəziyyətinin ağırlaşdığı barədə xəbər gətirdi. Kimsənin pis gününə sevinməyi caiz saymasa da, Surətimin simasında gizlətməyə çalışdığı rahatlıq sezdim. Axır vaxtlar evindən də, yatağından da çıxa bilmədiyi barədə xəbərlər alırdıq, ona baş çəkənlər, söylədiklərini eşidənlər, tərəddüdə düşənlər vardı, bu da get-gedə beyinləri dumanlandıra bilərdi. Əlbət ki, Surətim bəzi qardaşlar kimi, onu da, Şeyx Bəhaəddini də tatarların Diyari-Ruma göndərdikləri çuğul saymırdı, ən azı, əlində bunu sübuta yetirəcək dəlil-filan yoxudu, amma əməli, tatarlara rəğbəti gün kimi göz qabağındaydı, belə bir rəğbətin əhali arasında yayılmasına yol vermək sonralar fəlakətə səbəb ola bilərdi. Ona baş çəkmək barədə də düşünmürdü, yəqin, ətrafına yığılanlar arasında, əsasən, özü kimi düşünənlər vardı, bircə ehtiyatsız söz əsəbləri gərərdi. Amma təğyiri-libas olub gedən qardaşlardan birinin söylədiyinə görə, mürşidinin dediklərində həqiqət varmış, qulağına dəyən söz-söhbətdə sultanın eyş-işrətdən başının açılmadığı, artıq xanədana ümid qalmadığı, camaata gərək olan hüzur-rifahın qüdrətli tatar xanına itaətlə bağlı olduğu barədə açıq-örtülü fikirlər varmış. Şübhəsiz, Mühəzzəbəddin Əli Muğandan əliboş qayıtsaydı, bu fikirlər aşkar çıxışlara çevriləcək, ola bilsin, ağlagəlməz fəlakətlərlə nəticələnəcəkdi. Qardaşların gətirdikləri xəbərlərdə artıq məmləkətin başqa yerlərində, elə dər-üs-səltənə Konyada da söhbətlərində, vəəzlərində itaət fikri səsləndirənlərin olduğu söylənirdi.

Mühəzzəbəddin Əlinin geri dönməyi çox uzun çəkdi, səbrimiz lap daraldı. Surətimin fikrincə, Amasyadan Muğana ay

yarıma rahatca gedib-gəlmək olardı, amma artıq üçüncü ay yarıdan keçmişdi, yazın sonuna az qalırdı, elçilərdən bir xəbər yoxudu – qayıtsaydı, Amasyadakı, ya Sivasdakı qardaşlar uzağı iki günə xəbər çatdırardılar. Düzdü, artıq əvvəlki qorxu-hürkü azalmışdı, təğyiri-libas olub, ehtiyatı əldən verməyib daldalanacaqdan çıxa, yazın xoş havasını ciyərlərimizə çəkə, hürriyyəti az müddətə də olsa, yaşaya bilərdik. Amma hər addımda tatar çuğullarına, yaxud onlara yarınmağa çalışanlara rast gəlmək, ələ keçmək, ya da vuruşub ölmək təhlükəsi vardı. Əmir Kaymazın, subaşı Ayazın əmrində olanlardan sağ qalanların bir neçəsinə belə tale qismət olduğundan xəbər tutmuşduq. Qardaşların uzun illər ərzində öyrəşdikləri gizlilik həyatı hələ ki, bu cür bəlalardan yan keçmələrinə imkan verirdi. Yazın axırında da Muğandan xəbər çıxmayanda Surətimin əndişəsi lap artdı, üstəlik, Konyadan qayıdan qardaşlardan birinin gətirdiyi xəbər – sultan vəzirlik məqamını Şəmsəddin İsfahaniyə verdiyi barədə fərman göndərmişdi – hökmdarın da vəzirindən birdəfəlik əl üzdüyünə dəlalət eləyirdi. Amma Şəmsəddin İsfahani kimsənin ondan gözləmədiyi fəzilət göstəribmiş: fərmanı oxuyandan sonra deyibmiş, bu, hər nə qədər qula dəyər vermə, xidmətkarı şərəfləndirmə davranışı olsa da, Sahib Mühəzzəbəddinin sadə, həm də seçkin adamların işlərini düzəltmək, onların əmin-amanlığını təmin eləmək üçün başını qoltuğuna alıb özünü bəla dənizinə, fəlakət uçurumuna atdığı, hələ qılıncını qınına qoymayan tatar ordusunun içinə girdiyi, qurtuluş gəmilərindən yardım gözləmədən özünü hərb dənizinin girdabına atıb barış məqsədiylə getdiyi bir vaxtda onun məqamından uzaqlaşdırılması, və ya məqamının dəyişdirilməsilə bağlı fərman vermək nə sultanlıq taxtına yaraşır, nə hökmdarlıq əxlaqına sığır. Onun Mühəzzəbəddin Əlinin yüksək məqamına, dostluğuna ləkə gətirəcək hərəkətə yol verməməsini hamı təqdirlə qarşılamışdı, bu davranış elə bizim də ürəyimizcə oldu.

Surətim Mühəzzəbəddin Əlini yaxşı tanıyırdı, Konyada yaşayan oğlu Müinəddin Süleymanla da xoş münasibətləri vardı. Mərvdə həddi-buluğa çatan, mədrəsə bitirən, Böyük Sultan Əlaəddin zamanında Konyaya gəlib mustovfiliyə irəli çəkilən, vəzirliyəcən ucalan o zatın cəsarətindən çox məni Şəmsəddin İsfahaninin məqamdan imtinası maraqlandırırdı. Qiyasəddin taxtda oturanda Amid savaşında uğursuzluğu üzündən Şəmsəddini vəzirlikdən uzaqlaşdırıb məqamını Mühəzzəbüddinə vermiş, onda o cəsarətli adam boyun qaçırmamışdı. Surətimin fikrincə, görünür, Şəmsəddinin daha uzaq gedən niyyəti vardı, o niyyətini indi həyatı tükdən asılı olan adamın hesabına gerçəkləşdirmək, özünü hörmətdən salmaq istəmirdi. Məmləkətin də, səltənətin də taleyi vəzirin bu səfərinin nəticəsindən asılıydı: razılıq əldə olunmasa, Muğanda dincələn Baycu Noyon yenidən Diyari-Ruma üz çevirəcək, şəhərləri tutub, yağma etdirib, yetərincə qənimət toplamayınca dincəlməyəcəkdi. Bu müddətdəsə sultan pozulmuş dövlət nizamını yenidən qurmaq, qoşun toplamaq, gözlənilən basqınlara hazırlaşmaq əvəzinə eyş-işrətlə, ova çıxmaqla, məqam paylamaqla vaxt keçirmiş, ona bel bağlamaq üçün ümid yeri belə qoymamışdı. Qardaşlarını öldürtmüşdü, oğulları körpəydi, belə çıxırdı, bu qabiliyyətlə tatarların etibarını qazanmış vəzirlərindən birinin əlində oyuncağa çevriləcəkdi, o vəzir də Muğandan sağ-salamat, həm də xoş xəbərlə dönəcək Mühəzzəbüddin Əli, ya da qayıtmadığı təqdirdə onun məqamına sultanın ən münasib adam saydığı Şəmsəddin İsfahani olacaqdı. Hər ikisini də yaxşı tanıyan Surətim Şəmsəddinin xırsının məmləkətə çox ziyan gətirəcəyini düşünür, Mühəzzəbəddin Əliyə üstünlük verirdi.

Axır ki, gözlənilən xəbər yayın əvvəlində Sivasdan gəldi. Mühəzzəbəddin Əli Muğanda xəstə Çormoğon Noyonla da görüşüb, gətirdiyi hədiyyələri verib, demişdi, Allahın yardımıyla qazandığınız zəfərdən qururlanmayın, bir neçə şəhər alıb yağ-

malatsanız da, bu səfərdə qoşununuz daha çox nökər itirib, bizimsə silahlı, təchizatlı, atlı yüz minlərlə qulamımız var; demişdi, Diyari-Rumun nizamını ancaq Səlcuqlu xanədanına mənsub sultanlar təmin eləyə bilərlər, sizin zəfəriniz müvəqqətidi, ölkəni ələ keçirsəniz də, idarə eləyə bilməzsiniz, buna görə də sülh təklifimizdən boyun qaçırmağınız böyük qəflət, həm də xəta olar. Onun bu üstüörtülü təhdidi Baycu Noyonun bərk qəzəbləndiribmiş, yəqin, Çormoğon Noyon olmasaymış, elçinin başını kəsib qoltuğuna verərmiş; axırda elçiləri bir neçə həftə intizarda saxlayıb, məsləhətləşib, şərtləri qəbul elədiklərini bildiriblər: hər il verəcəkləri üç milyon altı yüz min dirhəm, on min qoyun, min cöngə, min dəvə, üstəlik, geyim, ləl-cövhər, ov itləri, qul-qaravaş müqabilində Diyari-Ruma basqın eləməyəcəkdilər. Ordunun pərən-pərən olduğu, Trapezundun rum, Çuxurovanın erməni hakimlərinin tatarlara itaəti qəbul elədikləri, dövlət və səltənət nizamının dağıldığı vaxtda bu razılaşmanın əldə edilməsi, Surətimin fikrincə, zəfər sayıla bilməzdi, əksinə, belə asılılıq səltənət üçün çox təhlükəliydi: şübhəsiz, itaət tərəfdarlarının da əl-qolu açılacaq, özlərini daha arxayın hiss eləyəcəkdilər, bu da səltənətin çöküşüylə nəticələnəcəkdi.

Amma Surətimin də, qardaşaların da, elə mənim də dərin təəssüfümə səbəb olan bir məsələ də vardı: Mühəzzəbəddin Əlinin saqqal tərpətməsinə baxmayaraq, Baycu Noyon Mahpəri Xatunu, Səlcuq Xatunu, üstəlik, cariyələrini geri verməyə etiraz eləməsə də, nə Fatma Bacının, nə bacıların, nə də qardaşların qaytarılmasına razılıq vermiş, elçi də arada gərginlik yaranmaması üçün isrardan əl çəkmişdi. Yəqin, Noyon Diyari-Rumda hələ də sağ qalmış qardaş-bacıların yenidən güc toplayıb tatarlara qarşı çıxacaqlarını təxmin eləyir, zənnində də yanılmırdı. Çox güman, Sultan Qiyasəddin də hətta yenilgidən sonra belə, Nəsirəddin Mahmudu – qardaşların piri Əxi Evrəni indi artıq Baycu Noyonı qəzəbləndirməmək üçün buraxmır, o

da zənnində yanılmırdı. Ərzurumun, Ərzincanın, Sivasın, Tokatın, Qeysəriyyənin yağı əlinə keçməməsi üçün canlarını qurban verən qardaş-bacıların sayı sultan qoşununun itkilərindən qat-qat artıq, məmləkətin hələ düşmən atlarının ayağı dəyməmiş güşələrində on minlərlə qardaş-bacı da bu yolda baş qoymağa hazırıydı. Əlbəttə, Mühəzzəbəddin Əlinin əmin-amanlıq razılaşmasıyla geri dönməsi səltənət ərkanının ürəyincə olsa da, Malazgirt savaşından bəri bu yerləri özlərinə vətən eləmiş türkmanlar da, qardaş-bacılar da dövlətlərinin yaşaması üçün əllərindən gələni əsirgəməyəcəkdilər.

Barış xəbəri hər yana yayıldığına, təhlükə aradan qalxdığına görə, zirzəmidən arın-arxayın çıxmaq olardı, qardaşlar da artıq dərgahın hücrələrinə əl gəzdirməyə başlamışdılar. Amma Surətim ehtiyatı əldən vermədi, şəhərin hər tərəfinə adam göndərəndən, ab-havanı öyrənəndən sonra qəti fikrə gəldi: əlbət ki, yalnız bir-birini tanıyan, başqalarına məlum olmayan qardaş-bacılar əvvəlki həyatlarına qayıda bilərdilər, ancaq Surətimin də, mənim də ehtiyatlı davranmağımız zəruriydi, yarınmaq, yararlanmaq, gözə girmək eşqinə düşənlər asanlıqla sata, nəticədə kiminsə nəfsinin qurbanına çevrilə bilərdik. O yay günlərinin birində görkəmimizi mümkün qədər dəyişdik, zirzəmidən çıxıb küçələri dolaşdıq. Neçə aydan bəri ilk dəfə hürriyyət havası duysaq da, yağıyla amansız çarpışmanın izlərinə rast gələndə ürəyimiz qan ağlayırdı. Ən çox ziyan çəkən Sivas qapısı ətrafındakı tikililər, Dabbaqlar məhəlləsi, Dabbaqlar çarşısıydı. Çarşıda az-çox tərpəniş duyulur, dabbaqlar əvvəlki ab-havanı qaytarmağa can atırdılar. Dərgaha üz tutanda Külahdüzlər məhəlləsində Surətim Ziaiyyə mədrəsəsinin tanış müdərisinin gəldiyini görüb məni yaxın döngəyə çəkdi: onu Seyyid Bürhanəddinin yanında görübmüş, suyunun sıçramasından qorxurmuş. Gümanında da haqlı ola bilərdi, çünki dünya haqlının yox, güclünün tərəfində olmağı seçən Allah bəndələriylə dolu, kimin

kisəsindən nə çıxacağını kəsdirmək çətiniydi. Dönər Günbəzin yanında ayaq saxlayıb bir müddət ətrafa göz qoyduq, təlükə gözlənmədiyinə olandan sonra dərgaha girdik.

Heç bir ay keçməmiş Malatyadan aldığımız xəbər barışın Baycu Noyon üçün kağız parçasından başqa bir şey olmadığını göstərdi: ötən payız Malatyanın mühasirəsindəki uğursuzluğunu, deyəsən, sinirə bilməmiş, Yasavur Noyonu on min nəfərlik qoşunla şəhərin üzərinə göndərmişdi. Şəhər müdafiəçiləri, görünür, barışıq havasında olduqlarına görə, qəfil basqına hazır deyilmişlər, bir neçə günlük döyüşdən sonra basqınçılar şəhərə girmiş, əllərində silah olanları öldürmüş, aman diləyənləri əsir almışdılar. Yasavur Noyon üçgünlük talandan sonra şəhərdə bir neçə yüz nəfərlik dəstə qoyub quzeyə doğru üz tutmuşdu. Ola bilsin, bu, Baycu Noyonın xəbərdarlığıydı, itaət göstərməyənlərə qarşı amansız olacağını sübuta yetirmək istəyirdi, hər halda, o basqında canlarından keçən, ya da əsir düşən qardaşların ağrısı Surətimin də, mənim də qəlbimizə xəncər kimi saplandı, göz yaşlarımızı saxlaya bilmədik, dərgah hücrəsində bir-birimizi qucaqlayıb ağladıq. Xəlifə Nasirin, Şeyx Övhədəddinin xeyir-dua verdikləri, Nəsirəddin Mahmudun ətə-qana gətirdiyi, Kamili-Təbrizi, Fatma Bacı kimi on minlərlə fədakarın can qoyduqları bu amal məmləkətin ən çətin məqamında heçliyəmi çevriləcəkdi? Mühəzzəbəddin Əlinin həyatı bahasına əldə elədiyi barışdan sonra Əlaiyyədən Konyaya dönən, ona yenidən qızıl işləməli qılıncla birgə vəzirlik möhrünü də verən Sultan eyş-işrətdən, ovdan, saray oyunlarından əl çəkib məmləkətin halıyla maraqlanacaqdı, yoxsa yenə səltənətin idarəsini vəzirinə tapşıracaq, əllərdə oyuncağa çevriləcəkdi? Axır ki, dövlət ərkanı səltənətin məhvə sürüklədiyini dərk eləyib şəxsi mənfəətlərini bir kənara qoyacaq, dövləti yaşatmağa çalışacaqdılar, yoxsa taxt-taca sahib olmaq eşqinə düşüb səltənətin məhvini tezləşdirəcəkdilər? Bu suallar qarşımızda keçilməz dağ kimi durmuşdu.

Mühəzzəbəddin Əlinin xəstələnməsi Surətimin bədbinliyinin daha da artmasına səbəb oldu. Əlbəttə, vəzir yaşlıydı, əziyyətli yol da səhhətinə pis təsir eləmişdi, xəstələnməsində, hətta ölməsində belə təəccüblü heç nə yoxudu. Amma Surətim onun indiki məqamda – dövlətin də, səltənətin də taleyinin həll olunduğu vaxtda – dünyadan köçməsini pis əlamət sayırdı, bu qənaətində də haqsız deyildi. Çox güman, başına bir iş gəlsəydi, sultan onun məqamını yenə, deyilənə görə, validəsi Mahpəri Xatunla arası saz olan Şəmsəddin İsfahaniyə təklif eləyəcəkdi, o da bu dəfə başına qonan şahlıq quşunu ikiəlli tutub dövlətdə də, səltənətdə də əsas simaya çevriləcəkdi. Surətim deyirdi, sultanın yanında Mühəzzəbəddin Əli kimi məmləkətin taleyini düşünən zatların olmaması qarşıda böyük faciələrin baş verəcəyinə işarədi; deyirdi, indi sağ qalanların dərdini çəkməli, güzəranlarını təmin eləmələri, yaralarını sağaltmaları, dərin bədbinliyə qapılmamaları üçün əlimizdən gələni əsirgəməməliyik; deyirdi, indiki məqamda pirimizə, onun məsləhət və göstərişlərinə daha çox ehtiyacımız var, bu səbəbdən, bütün işıq ucu gələn məqamlara baş vurmalıyıq; deyirdi, Şəmsəddin İsfahani yüksək məqama çatsa da, pirimizin zindandan buraxılması üçün sultana saqqal tərpətməyəcək, çünki artıq özü də onun məhbəsdən qurtulub tatarlara qarşı çıxmasını istəmir: tatarların himayəsi altında olub iradəsiz sultanın ipini əlində tutmaq, görünür, dövlətin də, səltənətin də qəhrini çəkməkdən sərfəlidi.

O günlərin birində Seyyid Bürhanəddin Mühəqqiq Tirmizinin Haqqa qovuşduğu barədə xəbər aldıq. Onun ölümünə sevinsək, Allaha ağır gedərdi, amma Surətimin bir qədər yüngülləşdiyini sezdim. Yasa təğyiri-libas olub getdik, nəzərə çarpmamağa çalışdıq, borcumuzu verdik, amma əndişəm sovulub getmədi: *Seyyid Bürhanəddin tələbəsi Molla Cəlaləddinə nə demişdi, Molla Cəlaləddin nəyə görə mənim Konyaya getməyimi istəyirdi* – bu mətləbləri aydınlaşdıra bilmədim, Malatyadan

dönəndən sonra tatarlara münasibəti üzündən nə özüm gedib öyrənməyə cəhd göstərdim, nə də o çağırtdırıb söylədi, Surətimin də məsələdən hali olub-olmadığını kəsdirə bilmirdim. Öz-özümə dedim, ey Şəms, səbir elə, səbir də, tikana baxıb gülü, gecəyə baxıb gündüzü təxəyyül eləməkdi, belə adamlar göydəki Ayın ayparadan bədirlənmiş Aya çevrilməsi üçün zaman tələb olunduğunu bilirlər. Şübhəsiz, mən də səbir eləyəcək, *İlahi işarəti*, Allahın qarşımda *yeddinci qapı*nı açmasını gözləyəcəkdim, qismətimdə vardısa, Seyyid Bürhanəddinlə Molla Cəlaləddin arasındakı o sirli söhbət faş olacaq, qismətimə yazılandan xəbər tutacaqdım. Bəzən yuxumda biri yaşlı, biri cavan *(əlbət ki, heç birinin üzünü görə bilmirdim, amma Seyyid Bürhanəddinlə Molla Cəlaləddin olduqlarına əmindim)* iki zat məni göstərə-göstərə nəsə deyirdilər, həmin məqamda diksinir, təpədən-dırnağacan tər içində oyanırdım...

***

...Payızın ortalarında Konyadan gələn qardaş Surətimi, az qala, yerindən oynatdı, bir daha Nasirəddin Mahmudu zindandan qurtarmaq istəyini körüklədi: sultan Cəlaləddin Karatayı, axır ki, güşənişin həyat sürdüyü günbatan əyalətindən çağırıb davatdarlıq məqamını tapşırmışdı. Surətimin dediyinə görə, onun Şeyx Nəsirəddinlə münasibəti həmişə yaxşı olmuşdu, bir vaxtlar sultanın qulluğunda eyni vaxtda dayanmış, həm də təkcə həsbi-hal eləməmiş, könül dostu da olmuşdular. Şeyx Nəsirəddinin zindana salınmasına etirazını dilə gətirənlərdən biri də Cəlaləddin Xoca olmuşdu, bəlkə, elə sultandan küskünlüyünün səbəblərindən biri də buydu. İndi məqamına qayıtmışdısa, kefinin kök vaxtında sultana yenidən saqqal tərpədə, zindandakıların günahsızlığını bir daha dilə gətirə bilərdi. Güman ki, Şeyx Nəsirəddin dərgahının dövlətə, səltənətə yox, yadellilərə

qarşı olduğunu sultan da bilirdi, amma kiminsə onun qulluğunda artıq-əskik danışıb qəlbinə şübhə toxumu səpməsi yəqin idi. Cəlaləddin Karatay o toxumları təmizləyə, zindandakıları buraxdırmaqla sultanın yerlərdə sürünən nüfuzunu bir qədər də olsa, qaldıra bilərdi. Bu səbəbdən də Konyaya gedib onunla görüşmək, bütün bu həqiqətləri bir daha xatırlatmaq qaçılmaz olmuşdu: illah da tatarlara itaət tərəfdarlarının meydan suladığı məqamda səltənətin qardaşların da, tükmanların da yardımına çox ehtiyacı vardı.

İkinci xəbər də elə bunu təsdiq eləyirdi: Mühəzzəbəddin Əlinin Muğanda Çormoğon Noyonla möhür basdığı razılaşma Batı xanın təsdiqindən keçməyənəcən adi kağız parçasından başqa bir şey deyildi, bu səbəbdən, sultan onun yanına heyət göndərməyə məcburuydu. Qoca, yorğun, xəstə Mühəzzəbüddin Əli belə uzun səfərə tab gətirə bilməzdi, bu səbəbdən, sultan elçiliyi Şəmsəddin İsfahaniyə etibar eləmiş, Qazı Fəxrəddinlə Mücirəddin Tərcümanı da heyətinə qatıb hazırlığa başlamaq barədə buyruq vermişdi. Şəmsəddin İsfahaninin təcrübəsi də, məharəti də bu vəzifənin öhdəsindən layiqincə gələcəyinə şübhə yeri qoymurdu. O yola düşməmiş hüzuruna çıxmaq, Batı xana əsir Fatma Bacının, həm də qardaş-bacıların buraxılması barədə diləyi çatdırmaq lazımıydı: şübhəsiz, Çormoğon Noyonun yetkisi çatmayan bir işi Batı xan yoluna qoya, əsirləri, ən azı, Fatma Bacını qaytara bilərdi. Surətim yenə Şəmsəddin İsfahaninin insafına möhtac olduğuna görə, özü özündən belə xəcalət çəkirdi, amma başqa əlac da yoxudu, indi əsirlərin taleyi açıq-aşkar ondan asılıydı, o binəsibləri yağıların caynağından qopara bilməsəydi, Allah bilir, taleləri necə olacaqdı. Bu səbəbdən, ləngimədən Konyaya getmək, naibi görmək lazımıydı.

Surətimin fikrincə, Konyaya getməyin üçüncü bir mühüm səbəbi də son vaxtlar dər-üs-səltənənin camelərindəki vəzlərdə

səslənən güclüyə itaət eləmək, Allahın təqdirinə qarşı çıxmamaq, dövlətin nizamına boyun əymək kimi fikirlər idi. Üstəlik, bu cür fikirləri səsləndirənlər arasında Konya əhlinin çox sevdiyi, Seyyid Bürhanəddinin yetirməsi Molla Cəlaləddin, Şeyx Mühyiddinin ögey oğlu Qazı Sədrəddin Konəvi də vardı. Onları bu qəflətdən oyatmaq, məmləkətdə əmin-amanlığı təmin eləmək xətrinə dövlətin də, səltənətin də çökməsinə yol vermələrinin qarşısını almaq zəruriydi. O iman, elm, ürfan əhli olan Allah bəndələrinin hər biriylə görüşüb gözlərini ortadakı acı həqiqətə acmaq, türkmanların da, qardaş-bacıların da gücünü dövlətin gücüylə birləşdirib yağıların qarşısında dik durmağı tələqin eləmək lazımıydı. Sayı ikiqat artıq da olsa, yad məmləkətlərdən muzdla yığılmış qulamların bu ölkəni yağı tapdağından qurtaracağına inanmaq əbləhlikdən başqa bir şey deyildi. Qəlbində yurd sevgisi, torpaq eşqi, doğmalarını qoruma duyğusu olmayanlar biçarə məmləkətin dərdinə dəva eləyə bilməzdilər. Molla Cəlaləddin də, Qazi Sədrəddin də sultanın sayıb-seçdiyi, sözlərinə, məsləhətlərinə qulaq asdığı iman-irfan əhliydilər, dediklərinin mütləq təsiri olacaqdı. Belə görünürdü, Surətim bütün bu çətin vəzifələri yerinə yetirmək üçün dər-üs-səltənəyə özü getmək istəyir, amma qəfildən sorğulu nəzərlərini mənə dikəndə məramını dərk elədim.

Sürətim bir qədər kədərli, əndişəli, amma doğma səsiylə dedi, ey Şəms, Konya səfəri sənin taleyinə yazılıb, içimdən gələn səsə görə, bu yükü səndən yaxşı çəkən tapılmaz; dedi, Qeysəriyyəni iki səbəbdən tərk eləyə bilmərəm: əvvəla, pirimizin dərgahını uzun müddətə başsız qoymaq olmaz, ikincisi, pirimiz zindana atılandan sonra yarıgizli ömür sürmüş, hər an onun taleyini yaşayacağımı gözləmişəm, indiki məqamda mənim də həbsə alınmağım dərgahımızın sonu olar; dedi, bu səbəbdən, Konyaya sənin getməyin məsləhətdi: hürr iman-ir-

fan əhlisən, dərgahımızla bağlılığın kimsəyə bəlli deyil, özünü görməsələr də, ad-sanını eşidiblər, üstəlik, səndəki təlqin gücü Allah vergisidi, baxışların da, nəfəsin də, sözlərin də insanın qəlbinin dərinliklərinə işləyir; dedi, əvvəla, Şəmsəddin İsfahaninin hüzuruna çıx, təvəqqemizi çatdır, bəlkə, Kösədağa gecikməsindən, Qeysəriyyənin yardımına gəlməməsindən xəcalət duyub bu məsələyə ürəklə yanaşdı, binəva əsirləri yağının çəngindən qurtardı; dedi, sonra Cəlaləddin Karatayla görüş, onsuz da ona təvəqqe-filana ehtiyac yoxdu, dərgahımız adından məqamına qayıtması səbəbindən xoş diləklərimizi çatdır, arada da Nəsirəddin Mahmudun hələ zindanda olduğunu xatırlat, bəs elər; dedi, tatar meyillilərlə görüşlərini də, Konyada nə qədər qalacağını da Allahın təqdiriylə özün müəyyənləşdir, nə vaxt Qeysəriyyəyə dönsən, könlümüzdə də, gözümüzün üstündə də yerin var; dedi, etirazın yoxdusa, səhər erkəndən yola çıxmağın məsləhətdi, Allah yar və yardımçın olsun.

Sürətim bunları söyləyəndə dərgahın arxa həyətindəydik, hüznlü axşamüstüydü, üzümüzə də payız günəşinin solğun işığı düşmüşdü. Xeyli baxışdıq, gözlərimizdən bir-birimizin taleyini oxuduq, agah olanlarla bağlı bir-birimizə bir söz demədik. Sonra qucaqlaşdıq, uzun müddət beləcə dayandıq, bir-birimizin qoxusunu doyunca içimizə çəkdik. Tən yarımı Qeysəriyyədə qoyub gedəcəkdim, öz ağrım, acım, kədərim, sevincim, uğurum-uğursuzluğumla üzləşəndə Surətimin də eyni yaşantıları barədə düşünəcəkdim. Əlim hər şeydən üzüləndə Surətimi xatırlayacaq, onun xəyalından yardım istəyəcəkdim. Görünür, səhər məni yola salmağa özündə taqət tapmamışdı, əslində, bu məndən ötrü də ağır olardı. Surətimin son gecə məni özümlə təkbətək qoyması çıxacağım yolun dərki sarıdan məqsədəuyğunuydu. Aralananda qəfildən yadına nəsə düşmüş kimi ayaq saxladı, geri dönüb qurşağından bükülü, bükülüdən iri qaşlı,

üzərində Qurani-Kərimin Şəms sürəsindən *"And olsun Günəşi üzə çıxaran gündüzə!"* ayəsi yazılmış üzük çıxardı, dedi, hələ üzünü görmədiyim vaxtda sənin üçün düzəltdirmişdim, gələcəyini bilirdim, getdiyinin şahidiyəm, dönəcəyin Allahın təqdirindən asılıdı, di Allaha əmanət ol, tez də üzünü tez çevirdi, yəqin, gözlərinin dolduğunu görməyimi istəmirdi. Elə mən də istəmirdim, yadında toxtaq Surəti kimi qalmağım daha yaxşı olardı...



ON BİRİNCİ MƏQAM

Konya

ÜMMANIM ÜMMANA QOVUŞDU

Sevməyənə qarışqa yük, sevənə fillər qarışqa,
Dağı belə aşar insan aşiq olub inanınca.





...Sükutun da səsi var, gərək dinləməyə qəlbin ola. Kiçik hücrəyə girib qapını örtəndən sonra qatı sükutun içinə düşdüm, həsirin üstündə oturub kürəyimi divara söykədim, qəlbimin qapısını sükuta açdım. Sükut deyirdi, su axmasa, lillənər, bir müddət sonra da iylənər, külək əsməsə, düz-dünya təzələnməz, zaman keçməsə, dünya-aləm dəyişməz; deyirdi, ömür də belədi, dəyişiklik olmasa, mahiyyətini də, dəyərini də itirər, durğun bataqlığa çevrilər; deyirdi, Günəş doğanda yola çıxacaq, dəyişən aləmi görəcək, heç tanımadığın adamlarla qarşılacaqsan, o gördüyün yerlərin, qarşılaşdığın kəslərin bəziləri yaddaşının xəlbirindən tökülüb gedəcək, , bəzilərisə, əksinə, elə aydın həkk olunacaq ki, uzun illər unuda bilməyəcəksən; deyirdi, ömrün altmışını haqlamısan, Dost axtara-axtara uzun-uzun yollar keçmisən, hələ *Dost*a gedən qapı açılmasa da, Rəbbin səni Surətinlə - ikinci məninlə - rastlaşdırıb; deyirdi, insan bu həyatda təkbaşına guşənişin yaşamaqla, yalnız öz səsinin əks-sədasını duymaqla həqiqətə çata bilməz, özünü ancaq başqa bir insanın aynasında aydın görə bilər, sən də aynaya baxan kimi, onun zahirində də, batinində də özünün əyər-əskiklərini görmüsən, bir çox həqiqətlərə yetmisən; deyirdi, bəlkə də Sürətin səni o vaxt Malatyaya, Şəmsəddin İsfahanidən yardım istəməyə göndərəndə bu sevdanın baş tutmayacağını bilirdi, niyyəti yalnız səni Qeysəriyyədən, şəhərin başının üstünü almış fəlakətdən uzaqlaşdırmaq idi; deyirdi, indi yarı canını Konyaya

göndərməyində də gərək ki, hikmət var, amma o hikməti nə özü söyləyəcək, nə də Allahın izni yetənəcən sən biləcəksən.

O axşam uzun müddətdən bəri ilk dəfə *Dost*la bağlı dərin düşüncələrə daldım. Axtardığım *Dost* kim idi, harda ömür sürürdü, işi-gücü nəydi - bunları bilmirdim. Bəzən insan görkəmində mövcud olduğuna belə şübhə eləyirdim: ola bilsin, uca Rəbbimin hikmətiylə o *Dost*u qəlbimdə yaratmış, ancaq özümə məlum olan görkəm vermiş, onu bağban ağacları böyüdən kimi, böyütmüşdüm. Bəzən bu düşüncələrə elə inanırdım ki, şəhər-şəhər gəzməkdən əl çəkib bir yerdə – əlbət ki, Surətim üzündən Qeysəriyyədə – ömürlük məskən salmaq istəyirdim, illah da, yaşımın bu vaxtında o fikir beynimdən əl çəkmirdi. Amma taleyimizi biz müəyyənləşdirmirik, hər şey Rəbbimizin iradəsindən aslıdı, indi Konyaya yol görünübsə, deməli, alın yazımda belə bir səfər varmış. Düzü, indiyəcən baş dər-üs-səltənəyə getmək istəyib-istəmədiyim barədə düşündüyümü xatırlamıram, amma sultan, Şəmsəddin İsfahani, zindandakı Nəsirəddin Mahmud, Seyyid Bürhanəddinin yetirməsi Molla Cəlaləddinlə bağlı beynimdən Konya barədə fikirlər keçirmişdim. İndi saray çəkişmələrinin, fikir toqquşmalarının, məmləkətin taleyiylə bağlı baş verən hadisələrin mərkəzi olan şəhərə müəyyən niyyətlə gedirdim, yəqin, uzun müddət qalmayıb geri qayıdacaq, ya da alın yazımda olan başqa şəhərə üz tutacaqdım. Hələ ki, Surətimin pirini, Fatma Bacını, qardaş-bacıları dardan qurtarmaq naminə cəhd göstərməli, beyinlərdəki təhlükəli fikirləri aradan götürmək üçün əlimdən gələni əsirgəməməliydim.

O gecə də uzun müddətdən sonra Göyə ucaldım: eynilə Rəsulillahımız kimi, yerdən qopdum, amma məni Buraq yox, əlimdəki əsa aparırdı; hücrənin döşəməsindən aralandım, dərgahın bacasından çıxdım, bir anlıq havada dayanıb hələ də amansız çarpışmanın izlər qalmış, yorğun görkəmlə yatan şəhərə baxdım, sonra soyuq-soyuq parıldayan payız ulduzlarına sarı ucalmağa başladım; Göyün qapılarından keçdim, qatların-

dan ötdüm, hər qapının ağzında da günahının ağırlığı nisbətində dayanan, simalarını aydın seçə bilmədiyim, amma mənə kimlərisə xatırladan adamlar gördüm; hər bir qapıda mələklər məni saxladılar, adımı soruşdular, savab-günah dəftərlərində yazılanları diqqətlə oxudular, fərq tərəzisində çəkdilər, sonra o biri qata buraxdılar; altıncı qatda mələyə "Mənə hüzurun qapısını açın!" qışqırdım, bir qərara gələ bilməyib Cəbrayılla Mikayıla üz tutdu, onlar məsləhətləşdikləri məqamda da Əzrayılın yaxınlıqda fırlandığını gördüm, arada ağır nəfəsini açıq-aşkar hiss elədim; məşvərətdən sonra Cəbrayıl bildirdi ki, olmaz, dedim, Allahın hüzuruna onda olmayan şeylərlə gəlmişəm, Mikayıl təkrar söylədi, ey şeyx, bilirik, bir qədər fərqlisən, amma sən də bilirsən ki, Allahda olmayan heç nə yoxdu; yenə dedim, hüzurun qapısını açın, məndə olan Allahda yoxdu, Cəbrayıl soruşdu ki, ey şeyx, hüzura nəylə gəlmisən, dedim, dua-niyazla gəlmişəm, bunlar Allahda yoxdu, *O* istəkdən xalidi; mələklər əlacsız qalıb qapını açmağa başlayanda qəlbimi çox şiddətli sevinc bürüdü, nəfəsim tıncıxdı, həmin məqamda da yuxudan ayıldım. Son qata keçib-keçmədiyimdən xəbər tutmamağım mənə elə ağır təsir elədi ki, göz yaşlarım axıb yanağımı, saqqalımı, sonra sinəmi islatdı. Belə görünürdü, yola nigaran çıxacaqdım, başıma gələnlər də Rəbbimdən asılı olacaqdı.

Səhər namazından sonra olan-qalanımı dağarcığıma yığdım, hücrədən çıxmazdan əvvəl bir qədər oturub gedəcəyim yolu dərk eləməyə çalışdım. Dərgahdan aralanda gün işığı olmasa da, yaxınlıqda *kölgə*ni hiss elədim, bildim ki, Surətimin buyruğudu, o *kölgə* yolda da, Konyada da yanımdan əl çəkməyəcək, məni sağ-salamat qaytarıb ona çatdıranacan arxamca gəzəcək. Payız səhərinin toranlığını yara-yara küçələrdən keçdim, Dabbaqlar məhəlləsindəki çeşmədən mataramı doldurdum, Sivas qapısına yaxın fırnıdan iki çörək, baqqaldan bir iri tikə qaxac ət aldım. Şəhərdən çıxıb artıq dirçəlməyə başlayan mal bazarının yanından ötdüm, bir qədər güneyə meyillənib

üzümü günbatana çevirdim, Ağsaray-Konya yoluna çıxdım. Minəkdən uzaq durduğumu bilən Surətimin dediyinə görə, uzaqbaşı, bir həftəyə mənzilbaşına çatardım, ən çətini Ürgüpü, sonra Görəməni sağ-salamat keçmək idi: ordakı pəribacalarında hələ də dövlətdən, ya da öz düşmənlərindən qaçmış, yolçuları soymaq hesabına yaşayan quldurlar varmış. Əlbət ki, belə şeydən qorxmurdum, quldurun alacağı yatırım yoxudu, beynimdəkiləri, qəlbimdəkiləri ələ keçirməyə də nəinki quldurun, heç bütöv bir qoşunun belə iqtidarı çatmazdı. Dönüb Qeysəriyyəyə uzun-uzadı, gözdolusu baxdım, surətini yaddaşıma həkk elədim. Bu şəhərə bir daha dönüb-dönməyəcəyim Rəbbimin iradəsindən asılıydı, yalnız bir şeyi dəqiq bilirdim: *O* Surətimi qarşıma çıxarmışdısa, ömrümdən belə asanlıqla çıxa bilməzdi. Bir də ki, ən azı, piri zindandan qurtulanacan Surətim dərgahı başsız qoymaz, Qeysəriyyədən bir yana getməzdi - buna şübhəm yoxudu.

Altmış illik ömrümün Təbrizdən sonrakı qismi yollarda keçmişdi, yollarda yetkinləşib, bir çox həqiqətlərə çatmışdım. İndi bitib-tükənməyən *yolun* o ucunda hələ ki, Konya vardı, ordan da hara uzanacağı bircə Allaha ayanıydı. Qeysəriyyədən bir mənzil uzaqda yağışa düşüb gecəni rum ailənin müsafirxanasında keçirdim, səhəri gün Kappadokiyanın tilsiminə düşüb bütün günümü pəribacalarının sehrində keçirdim. Böyük Sultan Əlaəddin zamanınacan öz hökmdarlarının zülmündən qaçan gavurların sığındıqları o bacalar, yeraltı sığınacaqlar, məbədlər insan qüdrətinin nişanəsiydi. Görəmədəsə Bağdadda təhsillərini başa vurub Sivasa dönən, pəribacalarını görmək üçün məxsusi yoldan kənara çıxmış iki cavana rast gəldim. Toqqalı kilsəni birgə gəzdik, o gecə də çörəyimizi-suyumuzu bölüşdük, pəribacalarının birində ocaq qalayıb doyunca söhbət elədik, Həllac Mənsurdan, Qəzalidən, Bistamidən, İbn Ərəbidən, Şeyx Övhədəddindən danışdıq. Biri mərifətin nə olduğunu soruşdu, cavab verdim, bir könül ki, Allah-taalanın eşqilə alışıb-yanır, onunla

həyat tapırsa, bu, mərifətdi; dedi, bəs o mərifətə çatmaq üçün neyləmək lazımdı, cavab verdim, cismini tərk eləməlisən, çünki insanın bədəni Allah-taalayla bəndə arasındakı pərdədi, bir də *O*-na çatmaq üçün sənə maneə olan dörd şeydən – şəhvətdən; çox yeməkdən, mal və məqamdan, təkəbbürdən - əl çəkməlisən, dedim, vəlilər Allah-taalanı zikr eləməkdən yorulmur, *O*-nunla söhbətdən doymur, dünyaya bağlanmır, daim günlərini şükürlə, ibadətlə keçirirlər; dedim, bütün arzu-istəklərin çıxdığı qəlbdə Allah-taalanın sevgisindən başqa bir şey qalmaz, saf könüldən kirli su axmaz, gözəl ruhdan pis söz çıxmaz.

Biri də həmədanlı Fəxrəddin İraqiylə maraqlandı, dedim, Şəhabəddin Sührəvərdinin tələbəsi olan o mərifət yiyəsinin səsi də, qiraəti də çox gözəlmiş, hamı qiraətini dinləməyə can atırmış; dedim, şeyxi onun nəfsinin istəklərinə arxa çevirməkdə çətinlik çəkdiyini duyub, məsləhət görüb ki, hind ölkəsinə get, bir müddət orda riyazətlə, nəfslə çarpış - gümüş təmizlənmək üçün bir müddət qaranlıqda, qara rəngli bir şeyin içində qalmalıdı; Fəxrəddin İraqi də Hindistanda, xocası Bəhaəddin Zəkəriyyənin yanında az yeməyi, az içməyi, az yatmağı, çox ibadət eləməyi, çilə çəkməyi öyrənib, qəlbi dünyayla bağlılıqdan qurtulub, Allah-taalanın zikriylə məşğul olub, üstəlik, şeyxinin qızıyla evlənib, bir müddət sonra Bəhaəddin Zəkəriyyə onun vətəni, həm də şeyxi üçün həsrət çəkdiyini görüb, deyib, di, vaxtdı, vətəninə get, bizim də salam-niyazımızı həqiqətlər sığnağı olan şeyximizə çatdır; o da gələndə mürşidinin Haqqa qovuşduğundan xəbər tutub, şeyxinin məzarını ziyarət eləyəndən sonra kədər içində Multana qayıdıb, xocasının xəlifəsi olub, Hicaz səfərindən qayıdanda da dər-üs-səltənəyə gəlib, Sədrəddin Konəvinin mülkündə qalıb. Axırda da cavanlara Sivasa yetişəndə Seyx Əsədəddinin əlini öpməyi, salamlarımı çatdırmağı, hələ sağ-salamat olduğum, Konyaya getdiyim barədə xəbər yetirməyi söyləməyi buyurdum, məlum oldu ki, cavanları Bağdada elə Şeyx Əsədəddin göndəribmiş. Əlbət ki, taxt-tac, hökm-iqtidar sahibləri dəyişəcək, amma xalqın elm-ürfana olan ehtiyacı

əbədidi: indi Bağdadda oxuyub dönən bu fidanlar böyüyüb qollu-budaqlı ağaclar olacaq, onlar da öz fidanlarını yetişdirəcəklər – məmləkətin gələcəyi bununla bağlıdı. Səhər cavanlardan da, Görəmədən də ayrılıb günbatana, bir az da güneyə üz tutanda, o gecəni kiçik bir karvansarayda keçirib, sonrakı gün günorta namazından xeyli keçmiş Ağsaraya yetişəndə də həmin fidanlar yadımdan çıxmadı.

Ağsaraya Dəmirqapıdan girdim, Uluirmağın üstündən salınmış Əlaəddin körpüsündən keçdim, bu şəhəri belə gözəlləşdirmiş Qılınc Arslanın ruhuna dua oxuya-oxuya küçələrindən ötdüm, həmin məqamda da səhər obaşdan bu şəhəri atıb gedə bilməyəcəyimi, ən azı, bir günümü də Ağsaraya qurban verəcəyimi dərk elədim. Surətim İlancıq mədrəsəsindəki simsarının adını vermiş, onun yanında gecələyə biləcəyimi söyləmişdi, amma karvansarayların birində hücrə alıb isti şorba içmək, tez də yatmaq istəyirdim ki, səhər namazından sonra şəhəri doyunca gəzim. Qılınc Arslan ömrünün çox hissəsini bu şəhərdə keçirmiş, səfərlərə burdan çıxmış, bu səbəbdən, Dər-üz-zəfər, Dər-ür-ribat, Dər-ül-cihad ünvanları vermişdi. Üstəlik, bu şəhərin Dər-ül-ərvah ünvanı da vardı, ululaın, müqəddəslərin ruhuyla bağlıydı, ziyarət eləməsəydim, günaha batmış olardım. Şorba içdiyim aşxananın buyruqçusu dildən pərgar cavanıydı, bir göz qırpımında xeyli bilgi verdi, üstəlik, dedi, cənnətməkan sultanımız böyük Qılınc Arslan bu şəhəri yenidən quranda Azərbaycandan çoxlu alim-üləmalar, sənətkarlar, tacirlər köçürüb gətirib, indi Ağsarayın çox qismi onların törəmələridi, elə mənim babalarım Meşkindən gətirilib, qonşularımızdan biri zəncanlı, o biri bərdəlidi. Bunları eşidəndə ürəyim titrədi, səltənətin əksər əli qələm tutanlarının, dövlət adamlarının, alim-üləmalarının Mərv, Bəlx, Xorasan, İsfahan, Həmədan, Təbriz, Marağa, Xoy, Urmiyə, Ərdəbil, Nəqşivan, Şamaxı, Bərdə, Gəncədə... yetişdiyi ruhun eyniliyindən, doğmalığından xəbər vermirdimi?

Dabbaqlar məscidində ikindi namazımı qılıb üzərində *"Minnət yalnız Allahadır"* kəlamı həkk olunmuş Sultan Karvansarayına getdim, amma oranın da, sonra baş çəkdiyim bütün müsafirxanaların da dolu olduğunu görəndə nədənsə İlancıq mədrəsəsinə getməyib, gecəni Allahın evlərinin birində keçirmək qərarına gəldim. Məscidə girib axşam namazını camaatla birgə qıldım, dua eləyə-eləyə hamının dağılışmasını gözlədim. Duamı bitirəndə gördüm, içəridə məndən başqa bir kimsə qalmayıb. Divarın dibinə çəkildim, dağarcığımı başımın altına qoydum, soyunduğum cübbəmi də üstümə çəkdim, çox yorulduğumdan az sonra yuxuya getdim. Amma qapını bağlayan imam köməkçisi, yəqin, başmaqlarımı görüb içəridə adam olduğunu başa düşübmüş, qəfildən qışqırdı ki, ey, burda yatmaq olmaz, qalx görək. Diksinib oyandım, qəddimi düzəldib dedim, qərib adamam, uzaq yoldan gəlirəm, müsafirxanalarda yatmağa hücrə tapmadım, qalmağa başqa yerim də yoxdu, izin ver, gecəni burda qalım, kimsəyə zərərim dəyməz. Amma o söylədiklərimi heç vecinə almadı, qışqırdı ki, başımı ağrıtma, sənə dedim, qalx, bayıra çıx, yoxsa özüm götürüb ataram. İçimdə nəsə qırıldı, dinməzcə qalxdım, cübbəmi, dağarcığımı götürüb qapıdan çıxdım. Arxamca baxan adam qəfildən təngnəfəs olmağa başladı, qışqırıb imdad dilədi. Səsinə imam qaçıb gəldi, köməkçisi başına gələni danışanda dərhal məsciddən çıxıb dalımca cumdu, çatıb yalvar-yaxar elədi ki, şeyxim, cahil adamdı, tərbiyəsizliyə yol verib, nolar, bağışlayın. Üzünə baxdım, təəssüflə dedim, onun məsələsi artıq mənlik deyil, əlimdən heç nə gəlməz, ancaq iman əhli kimi ölməsi üçün dua eləyə bilərəm.

O gecəni ağac altında keçirdim, səhər də Rəbbim mənim tərəfimdəydi, payızın son ayı olsa da, hava yağışlı, dumanlı-çiskinli deyildi, şəhəri gözdolusu görə, ayaqlarım heydən düşənəcən gəzə bildim. Şübhəsiz, Diyarı-Rumun ən gözəl şəhəri ünvanına layiqiydi, hər tərəfdə bağlar, bağçalar, üzümlüklər, dirriklər vardı, bəzən su arxları evlərin içindən belə keçirdi. Rumlular-

dan, Kutalmışoğullarından miras qalan, Qılınc Arslanın tikdirdiyi şəhərin rəmzi olan, üstəlik, adı şəhərə verilmiş ağ saraya heyran-heyran baxdım. Giriş qapılarının hər iki tərəfində heybətli şir heykəli qoyulmuşdu, deyilənə görə, o şirlərin ağzından saçılan qığılcımlar saraya qarşı bəd niyyət bəsləyən kəsləri yandırırmış. Dördkünc qalanın divarları gördüyüm digər qalalarda olduğu qədər hündür deyildi, amma möhkəmiydi, bürcləri, dişləri, mazqalları bir-birinə baxırdı. Mənim girdiyim Dəmirqapıdan başqa daha dörd – günbatanda Kiçikqapı, Konya, qibləyə baxan Keçiqapısı, güneydə Eregli qapısı vardı. İlancıq, Sulu, Zənciriyyə mədrəsələrinin ehtişamını görməyə göz lazımıydı. Günorta namazımı Dabbaqlar camesində qılandan sonra elə o addakı məhəlləni, Dabbaqlar çarşısını, zərif xalı-kilimlərin satıldığı Xalıçılar çarşısını dolaşdım. Elə onda da boynumun ardında artıq öyrəşdiyim nəfəsi, böyrümdə tanış *kölgə*ni sezdim. Görünür, Qeysəriyyədən gələn qardaş məni yerli qardaşa təhvil verib geri dönmüşdü, Ağsaraydan Konyayacan onun öhdəsində olacaqdım. Surətimin bu himayəsi məni elə kövrəltdi ki, yəqin, bundan sonra da kimsəyə şəxsi düşmənlik bəsləməyəcəkdim. Daş bazarından keçib Dar-ül-ərvahı ziyarət eləyəndən sonra bir qədər yüngülləşdiyimi duydum.

Ağsaraydan üzü günbatana, bir qədər də güneyə çıxanda Konyaya iki günlük yolum qaldığını güman eləmişdim. Amma görünür, yaş özünü bildirirdi, daha əvvəlki qədər dözümlü deyildim. Bəlkə, elə bu səbəbdən, Qızörən oyruqlarına çatanda meşkinli buyruqçunun salıq verdiyi Obruk karvansarayında gecələmək fikrinə düşdüm. Əczaxanası, baytarxanası, meyxanası, dükanlarıyla kiçik şəhəri xatırladan karvansaray da, lap yaxınlıqdakı, Allahın bir möcüzəsi olan Qızörən gölü də hafizəmə yazıldı. Səfərimin Konyadan əvvəlki son dayanacağı da Töməkdəki Zazadin karvansarayı oldu. Sadəddin Köpəyin son yadigarı olan, qətlindən cəmi iki il qabaq başa çatdırılan, nədənsə camaat arasında "Zazaddin" adlandırılan karvansarayın

orta həyətindəki çardağın altında oturub payız yağışının səsini dinləyirdim. O məqamda da sanki qulağıma səs gəldi: *"Ey məna aləminin sərrafı, məni axtar, tap!"* Döyükdüm, ətrafda kimsə yox idi, *Dost*la belə bir yerdə – kiçik bir kəndin yaxınlığındakı karvansarayda - qarşılaşa bilməzdik. Səs isə yaxından, o qədər yaxından gəlirdi ki, durub arxasınca getmək istədim. Amma hansı səmtə gedəcəyimi bilmirdim, buna görə də səhəri gözləyib Konyaya üz tutmaqdan, Surətimin buyruğunu yerinə yetirib o səsi bir daha eşitməyi gözləməkdən başqa əlacım qalmırdı...

***

...Konyaya payızın son günlərinin birində, şənbə günü, şəhər artıq yuxudan oyanıb, dükanlar, bazarlar, çarşılar qaynamağa başlayanda çatdım. Ağsarayın nizamlı gözəlliyindən sonra, əlbəttə, dər-üs-səltənətin qarışıqlığında bir qədər sıxıldım. Əvvəlcə, karvansarayda hücrə alıb nəfəsimi dərmək, sonra işlərimin dalınca düşmək istədim. Bir Allah bəndəsindən münasib müsafirxana tanıyıb-tanımadığını soruşdum. Sən demə, Məram səmtinə gəlib çıxmışammış, dedi, elə bu yaxınlıqda Şəkərçilər karvansarayı var, yanında da Şəkərçilər məscidi yerləşir, münasib yerdi, narazı qalmazsan, yeməkləri də dadlı olur. Razılığımı bildirib göstərdiyi səmtə getdim, məscidi də, karvansarayı da tapdım. Əvvəlcə, Xoca Əhməd Yasəvinin müridi, şəkərçi Həsənoğlu Şabanın tikdirdiyi məscidə girib namazımı qıldım, sağ-salamat gəlib Konyaya çatdığıma görə şükür-səna elədim, Surətimin diləyini yerinə yetirmək üçün güc-qüvvət, heç olmasa, bu şəhərdə *Dost*a yetişmək üçün bəxt istədim. Şəmsəddin Altunbaba mədrəsəsinin yanından ötüb elə Həsənoğlu Şabanın da yadigarı olan Şəkərçilər karvansarayının həyətinə girəndə bayaqkı Allah bəndəsinin haqlı olduğunu öz-özümə təsdiqlədim: hər yerdə sakitlik, rahatlıq duyulurdu, üstəlik, yenicə yağmaya başlayan payız yağışının altında mənə dünyanın ən doğma məkanı kimi göründü.

Türkman olduğu geyimindən də, danışığından da dərhal bilinən karvansarayçı məni diqqətlə süzdü, deyəsən, ağırçəkili tacirə oxşadıb əl-ayağa düşdü, ən yaxşı hücrələrindən birinin qulluğumda olduğunu bildirdi, irəli düşüb sağ tərəfdəki dəhlizlə bir qədər getdi, axır ki, məsləhət bildiyi hücrənin qapısını açdı. Bütün şəhərlərdə qaldığım karvansaray hücrələrindən fərqlənməyən hücrənin xüsusi rahatlığının nədən ibarət olduğunu, əlbət ki, soruşmadım, bir həftənin haqqını irəlicədən ödəyib günorta namazından sonra şorba göndərməsini tapşırdım, qapını örtüb bağladım, dağarcığımdakı həsiri çıxarıb yerə sərdim, sınıq piyaləmi taxçaya, yatanda başımın altına qoyduğum kərpicimi böyrümə atdım, sonra ötürüb kürəyimi divara söykədim, bundan sonra neyləyəcəyim barədə düşündüm. Əlbət ki, elə bu gün naib Şəmsəddin İsfahaninin səfərə nə vaxt gedəcəyini öyrənməli, hüzuruna çıxıb Surətimin Fatma Bacıyla bağlı təvəqqesini çatdırmalı, Nəsirəddin Mahmudla əlaqədar təvəqqesini Cəlaləddin Karataya yetirməyi də sonrakı günlərin birinə saxlamalıydım; bu iki yükdən qurtulandan sonra Molla Cəlaləddinə, Sədrəddin Konəviyə, onların ətrafına yığışanların arasına yol tapmalı, hürkütmədən, şübhələndirmədən, amma inadla qəsbkarlara qarşı çıxmağın yolunu göstərməliydim. Bu şəhərdə qalacağım müddət də son işimi nə vaxt başa vuracağımla bağlıydı. Sonra Qeysəriyyəyə qayıdıb ömrümü Surətimin yanında başa vurmaq da, dünyayla Konyada, ya da Hələbdə, Şamda, Bağdadda vidalaşmaq da vardı: uzun illər əvvəl çıxdığım, qayıtmağa özümdə güc tapmadığım Təbrizi dilimə gətirmək məndən ötrü əzablıydı.

Günorta namazından sonra şorbamı içdim, dağarcığımdan qıfılımı çıxarıb qapıdan asdım, səliqə-sahmanla bağladım, görən elə bilərdi, həqiqətən, tacirəm, hücrəmdə də bir-birindən qiymətli mallarım var. Açarı dəstarın ucuna bağlayıb boynumdan asdım, karvansasarydan çıxanda yağışın kəsdiyini görüb xeyli rahat oldum. Əvvəlcə şəhəri tanımalı, naib Şəmsəddinin,

Cəlaləddin Karatayın, Molla Cəlaləddinin yaşadıqları, olduqları məkanları bəlləməliydim. Şübhəsiz, naib Şəmsəddin də, Cəlaləddin Karatay da Sultan sarayında – camaatın Əlaəddin Köşkü adlandırdığı sarayda - ya da ora yaxın bir yerdə iqamət eləmiş olardılar. Molla Cəlaləddini tapmaq çox asanıydı, Surətimin dediyinə görə, hər cümə günü İplikçilər məscidində vəəz verir, üstəlik, elə iqamətgahı olan, Şəmsəddin Altunəbanın tikdirdiyi İplikçilər mədrəsəsində də dərs deyirdi. Bütün bunları beynimdən kleçirə-keçirə bir də baxdım, Əlaəddin təpəsinin yaxınlığındayam. Saraya da, Qılınc Arslan köşkünə də, Böyük sultanın adına tikilmiş Əlaəddin məscidinə də uzaqdan-uzağa tamaşa elədim, İplikçilər məscidinin yanından enib İplikçilər çarşısına girəndə boynumun ardında nəfəs duyub yeni *kölgəm*in peyda olduğunu başa düşdüm: şübhəsiz, məni Qeysəriyyədən bəri təqib eləyən qardaş sağ-salamat yerli qardaşa təhvil verəndən sonra vəzifəsini başa vurmuşdu, bundan belə, Surətimin yanına dönənəcən yeni *kölgəm*in kölgəsi altında olacaqdım. Artıq alışdığımdan, ciddi narahatlıq hissi keçirmədim, çarşıda xeyli dolaşdım, şərbətçidən bir piyalə şərbət alıb içdim, karvansaraya axşam namazımı yolüstü Hacı Fərrux məscidində qılandan sonra qayıtdım.

O gecə *Dost*u elə şiddətlə arzuladım ki, az qala, nəfəsim kəsiləcəkdi. Amma onun qeyb aləmində yox, fani dünyada olmasından heç vaxt bu qədər əminlik hasil eləməmişdim. Allah yalvarıb məni öz vəlilərinə yetirməsini istəyəndə, bir vəliylə yoldaş olacağımı vəd eləmiş, qeybdən gələn səs o vəlinin Diyari-Rumda yaşadığını demişdi. Diyari-Rumu, az qala, başdan-başa dolaşmış, Qeysəriyyədə, Ərzurumda, Ərzincanda, Sivasda, Malatyada, Ağsarayda olmuşdum, hələ ki, o vəli rastıma çıxmamışdı. Hər dəfə röyamda o *Dost*un harda olduğunu soruşanda eyni cavabı almışdım: *"Hələ vaxtı çatmayıb, hər şeyin öz zamanı var".* Şeyx, mürşid, üləma görkəmində rastlaşdığım elm-ürfan sahiblərinin heç birində o *Dost*un vəsflərini – qüsur-

suz möminliyi, səhabələr kimi ləkəsizliyi, tər-təmiz şeyx ruhunu görməmişdim. Özlərini şeyx, mürşid, üləma kimi qələmə verənlərə, əlimi qamarlayanlara könül verə bilmirdim, bu səbəbdən, aramızda könül bağları qurulmurdu. Dünən anasının qarnından çıxanların bu gün "Mən Haqqam" demələri ürəyimi bulandırırdı. Hamının tanıdığı qadının dünyaya gətirdiyi, doğumu bir damcı su, ölümü bir ovuc torpaq olan adam necə belə bir iddiaya düşə bilərdi? Şübhəsiz, onların çoxu Muhəmməd dininin quldurları, yolkəsənləridi. Əlbət ki, Şeyx Əbu Bəkri, Şeyx Övhədəddini, Şeyx Şəhabəddini onlardan saymırdım, hər birində Allahdan gələn məstlik vardı, amma *Dost* kimi aradığım kəslər deyildilər. Mənim Dostum Şamda əlimdən yapışıb *"Ey məna aləminin sərrafı, məni anla, məni axtar, tap!"* - deyən, nəfəsi, sözləriylə huşumu başımdan alıb bayıldan kimsəydi. Neçə illərdi ki, *o səs* qulaqlarımdan çəkilmirdi.

O gecə yuxumda *Dost*a bir nəfəs qədər yaxın olduğumu duyub yerimdən dik sıçradım. Konyanın küçələrindən biriylə gedirdim, qəfildən qarşıma ağ qatırın belində ağ paltarlı bir Allah bəndəsi çıxdı. Dodaqları tərpənmədi, amma səsini eşitdim: *"Ey məna aləminin sərrafı, mən sənin axtardığın Dostam, ötüb keçmə"*. Ayaq saxladım, amma üzündə o qədər nur vardı ki, aydın görə bilmədim, əlimi uzatdım, barmaqlarımız bir-birinə toxundu, nəfəsimiz bir-birinə qarışdı, başım fırlandı, gözlərim qaraldı, eynilə Şamdakı kimi bayılıb yıxıldım, elə həmin məqamda da oyandım. Nəfəsim ağzımdan güclə çıxırdı, təpədən-dırnağacan soyuq tərə batmışdım. Gecənin bu vaxtı Konyanın küçələrinə düşüb axtarmayacaqdım, bu, güman ki, bir nəfəs qədər yaxın olduğum o *Dost*a da ayan idi. Buna görə də Allahın səbrindən başqa çıxış yolum qalmamışdı. Vüsalımız İlahinin təqdiriydisə, deməli, yaxın günlərdə görüşümüz baş tutacaqdı. Canımdakı atəşli vicvicəni ovutmaq üçün hücrəmdə xeyli gəzişdim, yoru-

landa həsirin üstündə oturub kürəyimi divara söykədim, səhəri də, beləcə, dirigözlü açdım.

Əlaəddin Köşkünə getmək niyyətində olmadığıma görə, naib Şəmsəddinin evini tapmaq, hüzuruna evində çıxmaq fikrindəydim. Bu səbəbdən, səhəri gün soruşub mülkünün yerini bəllədim, sonrakı gün də elə köşk səmtdəki ikiqatlı imarətin qapısı ağzındakı mühafizlərinə özümü nişan verdim, niyyətimi söylədim, cavab gələnədək kənara çəkilib gözlədim. Əlbət ki, öz nəfimə kiminsə hüzuruna çıxmaq üçün gözləməzdim, amma darda olan bir Allah bəndəsi, üstəlik, iman-qeyrət yiyəsi olan zənən xeylağının yolunda hər əzaba qatlaşardım. Handan-hana buyruqçu gəlib naib Həzrətlərinin məni gözlədiyini söyləyəndə özümə ağzımdan artıq-əskik söz çıxarmamağa söz verib arxasınca tərpəndim. Ötən il Malatyadakı görüşümüz, əlbət ki, Şəmsəddin İsfahaninin da yaxşı yadında qalmışdı, çarəsiz, hətta qorxmuş halının şahidi olduğumu, yəqin, unutmazdı, bəlkə, buna görə qəlbində mənə qarşı kin-küdurət də qaynayırdı. Şübhəsiz, hələ bu fikirdəydim ki, o vaxt qorxaqlıq göstəməsə, heç olmasa, öhdəsində olanlarla özünü Qeysəriyyəyə çatdırıb Baycu Noyona qarşı döyüşənlərə başçılıq eləsəydi, dər-üs-səltənə yağı əlinə keçib tar-mar olmaz, kişilər, qadınlar əsir aparılmazdı. Sultansa öz günahının böyüklüyü müqabilində naibinin də günahını bağışlamış, hətta vəzirlik məqamına irəli çəkmək istəmişdi. Amma naib Şəmsəddinin, az qala, gedər-gəlməz səfərinə çıxmış Mühəzzəbəddin Əlini ayaqlamağı özünə rəva görməməsi ona qarşı qəzəbimi xeyli soyutmuş, arada müvazinət yaratmışdı.

Surətimin dediyinə görə, Şəmsəddən İsfahani dövrün nüfuzlu üləmalarından olan, Alimzadə kimi tanınan Tacəddin Təbriziylə müxtəlif mövzularda söhbətlər aparmış, Xoca Vəliyəddin Əlidən hüsn-xət dərsləri almışdı. Əvvəlcə Böyük Sultan İzzəddin Keykavusun əşrəfi-mətbəxiymiş, hökmdarın məclisində söylədiyi bir rübai üzündən inşayi-xas məqamına irəli çəkilmiş,

sonra vəzirliyəcən yüksəlmişdi. Şairləri, ədibləri, üləmaları himayəyə alması, məclislərində ətraf ölkələrdən gəlmiş alimlərlə fars, həm də ərəbcə qələmə alınmış əsərlər barədə mübahisələrə girişməsi, musiqiyə meyl eləməsi hamıya məlumuydu. Seyyid Bürhanəddinin söhbətlərindən təsirləndiyini, onu özünə mürşid qəbul elədiyini, Molla Cəlaləddin, Sədrəddin Konəviylə dost münasibətində olduğunu da Surətimdən eşitmişdim. Dediyinə görə, Amasya vaizi Məlik-ül-kəlam Cəlaləddin Vərqani ona on yeddi beytlik qəsidə, bir neçə tay da üzüm göndəribmiş, naib də bunun cavabını ədibanə məktub, üstəlik, qəsidəylə vermişdi. Amma bu qədər sanballı mövqeyi, yetərincə var-dövləti olan Şəmsəddinin indiyəcən evlənməməsi, oğul-uşaq sahibi olmaması çoxlarını maraqlandırırdı. İndi Mahpəri Xatunla yaxınlıqları, bəlkə, bu səbəbdən söz-söhbətə rəvac vermişdi, deyilənə görə, Böyük Sultan Əlaəddin Haqqa qovuşandan, Qiyasəddin taxta çıxandan, Sadəddin Köpəyə qarşı durmaq ehtiyacı yaranandan sonra aralarından su keçmirdi. Surətimin şəhadətinə görə, onu Amid uğursuzluğundan sonra zindana salınmaqdan Mahpəri Xatun qurtarmışdı, naiblik məqaqmını da, yəqin, məlikənin sayəsində qazanmışdı, səfərdən dönəndən sonra, güman ki, vəziri-əzəmliyə yüksələcəkdi.

Naib Şəmsəddin məni birinci qatdakı iri, yaxşı döşənmiş, buxarısı gurhagur yanan, cah-calallı qəndillərin işığında bərq vuran otaqda qəbul elədi. Payızın palçığına bulaşmış başmaqlarımı soyunub geyindiyim bər-bəzəkli nəleyinlər əynimdəki qara cübbəyə, başımdakı sərpuşa heç uyuşmurdu, güman ki, məqam sahibi buna için-için gülümsədü, amma özünü ağır aparıb üzə vurmadı. İki-üç addımlığında ayaq saxlayıb bağır basdım, başının bu qədər qarışıq olduğu vaxtda lütf göstərib məni hüzuruna qəbul elədiyinə görə razılığımı bildirdim. Naib Malatyadakı görüşümüzdən bəri sanki yaşlanmış, saç-saqqalının dəni daha da artmış, gözlərindəki kədər bir qədər də qatılaşmışdı. Qeysəriyyədəki ilk ünsiyyətimizdə mənə daha qətiyyətli, zabitəli, sərt

görünmüşdü, onda bu cür məqam aludəsinin necə irfan sahibi olduğuna, üstəlik, Sürətimin dediyinə görə, aşiqanə şeirlər yazdığına heyrət eləmişdim. İndi üzbəüzdəki mindərin üstündə yer göstərdi, özü də oturdu, əli əl üstdə dayanmış buyruqçuya şərbət-çərəz gətirməyi söyləyib aradakı maneəni ustalıqla keçdi, bu il yağışların tez başladığını, havadan artıq qar qoxusu gəldiyini, bu səbəbdən, yazın əvvələrinəcən yola çıxmağın mümkün olmayacağını dilə gətirdi, sonra Batı xanın İdil nəhri boyundakı ordugahına quzey, yoxsa güney yoluyla getməyin daha münasib olacağını soruşdu. Dedim, yazbaşı yola çıxmaq fikrindədirsə, Ərzurumdan, Nəqşivandan, Zəngəzurdan keçib Muğana, ordan Şirvana, Dərbənddən ötüb mənzilbaşına daha rahat çata bilər. Məsləhətim naibin xoşuna gəldi, çünki payız girməmiş qayıtmaq, özünü dər-üs-səltənəyə yetirmək niyyətindəydi.

Yalnız bundan sonra Qeysəriyyənin halını soruşdu, orda baş verənlərdən xəbər tutduğunu söylədi, şəhərin yağı əlinə keçdiyinə, xeyli tələfat olduğuna çox kədərləndiyini dilinə gətirdi. Məqamın yetişdiyini duyub, tələf olanlarla yanaşı, Qeysəriyyəni qoruyan yüzlərlə qardaş-bacının əsir götürülüb aparıldığını, Muğanda Çormoğon Noyonun vəzir Mühəzzəbəddin Əliyə o əsirlərin taleyini ancaq Batı xanın həll eləyə biləcəyi barədə dediklərini xatırlatdım, onunla görüşəndə o binəvaların, üstəlik, Nəsirəddin Mahmudun zövcəsi Fatma Bacının qaytarılmasını Sürətimin də, Qeysəriyyə əhlinin də təvəqqe elədiklərini çatdırdım. Nasirəddin Mahmudun adı gələndə naibin sifətinə gözgörəti kögə endiyini, yerində qurcalandığını sezdim, sözümə də dərhal cavab vermədi, gözlərini qıyıb fikirli-fikirli saqqalını tumarladı, o məqamda da barmağındakı iri üzüyün yaqut qaşı qəndil işığında bərq vurdu. Handan-hana dedi, vəzir Mühəzzəbəddin Əli yaşlı, yorğun, həm də xəstə olduğuna görə, sultan bu vəzifəni ona etibar eləyib, əlbət ki, böyük xanın hüzurunda əsirlərimizlə bağlı təvəqqesini çatdıracaq, amma nəticəsinin necə olacağını irəlicədən söyləyə bilməz, hər şey Allahın, bir də

böyük xanın iradəsindən asılıdı. Sonra, güman ki, söhbətin bir daha Nəsirəddin Mahmudun üzərinə gəlməməsi üçün Seyyid Bürhanəddinin ölümündən çox kədərləndiyini, dəfnində son borcunu verə bilmədiyini, Molla Cəlaləddinin onun əvəzinə də dua oxuduğunu, səfərdən qayıdandan sonra Qeysəriyyəyə gedib məzarının üstündə türbə tikdirəcəyini söylədi. Həmin məqamda mənə elə gəldi, naib Şəmsəddin məmləkətin taleyinin Batı xanın əlinə keçməsinə sevinir, ondan alacağı fərmanla sultandan da uca məqama çatacağını düşünür. Qəfildən dik qalxdım, getməli olduğumu söylədim, naibin özünə gəlməsinə fürsət verməyib kandarda başmaqlarımı tələm-tələsik geyindim, az qala, qaça-qaça çıxdım.

Birbaşa karvansaraya qayıtmadım, harasa tələsən, kimisə axtaran adamtək yeyin addımlarla küçələri gəzdim, İplikçilər çarşısını dolaşdım, özümə gələndəsə artıq Sırcalı mədrəsəsinin üzbəüzündəki bağda yığışmış bir dəstə tələbənin yanından keçirdim. Qəfildən qulağıma Molla Cəlaləddinin adı dəydi, addımlarımı yavaşıdıb dinşədim. Söylənənlərdən anladım ki, ötən cümə namazında, mən Konyaya varid olandan bir gün əvvəl İplikçilər məscidində vəəz veribmiş, ətraf kəndlərdən də çoxlu adam gəldiyindən, o qədər qələbəlikmiş, iynə atsan, yerə düşməzmiş; deyirdilər, Seyyid Bürhanəddinin tələbəsi olduğunu, ondan çox şeylər öyrəndiyini, amma hələ də kamillik yoluyla irəlilədiyini, Allahın təqdirini qazansa, o məqama çatacağını söyləyirmiş; deyirdilər, axırda insanın hüzurunun məmləkətin hüzurundan asılı, o hüzuru təmin eləyənlərin cənabi-Allahın ən sevimli bəndələri olduğunu dilə gətiribmiş. Arğaz, uzunboy gözləri qaynayan tələbə israrla deyirdi, Molla Cəlaləddin məmləkətin asılılığı bahasına olsa belə, tatarlara qarşı çıxmamağı təlqin eləyir, Ərzurumda, Ərzincanda, Sivasda, Qeysəriyyədə öldürülən minlərlə adamın qanını heçə sayır. Gödəkboy, kök, əlini tez-tez çalmasına atan tələbəsə əl-qolunu ölçə-ölçə etiraz eləyirdi ki, Molla Cəlaləddin Həzrətləri haqlıdı, çünki hər

şeydən əvvəl, insanı, insanın əmin-amalığını düşünür; deyirdi, bir kəsin özündən güclüylə nəticəsiz çarpışması gülüncdü, Allah-təala itaəti, hüzuru, əmin-amanlığı sevir. Sonra mübahisə eləyə-eləyə də mədrəsəyə girdilər. Şübhəsiz, gələn cümə vəzində Molla Cəlaləddini İplikçilər məscidində dinləyənlər arasında olacaq, onun könlünə hansı məqamda girə biləcəyimi götür-qoy eləyəcəkdim. O vaxtacan da daha bir məqam sahibinin - Cəlaləddin Karatayın hüzuruna çıxıb Surətimin təvəqqesini çatdırmalıydım.

Karatayın hüzuruna sarayda çıxmamaq üçün yollar arayanda Allahın təsadüfü üzümə güldü. Axşam namazından sonra həyətdə gəzinəndə karvansarayçı kaşanlı Müslüməddinlə rastlaşıb bir neçə kəlmə kəsdik, qonağı olan adlı-sanlı adamların, o cümlədən, Cəlaləddin Karatayın də adını çəkdi: dər-üs-səltənəyə qayıdanda münasib mülk tapanacan burda, tutduğum hücrənin qonşuluğundaki iri, iç-içə ikigözlü olan hücrədə qalıbmış. Dediyinə görə, elə bir münasibətləri olmasa da, katibi xorasanlı Kərimeddinlə əməlli-başlı dostlaşıblar, indi də bir-birinin evinə gediş-gəlişləri var. Fürsəti fövtə verməyib dərdimi karvansarayçıya söylədim, Allah xətrinə Karatayla saraydankənar məkanların birində görüşüb sözlərimi yetirməyə yardım göstərməsini təvəqqe elədim. Ayıq adammış, tacir görkəmimə inanmayıbmış, təbrizli Şəmsəddin olduğumu söyləyəndə adımı İplikçilər mədrəsəsində oxuyan, Molla Cəlaləddindən dərs alan oğlundan eşitdiyini, məni mürşid, hətta şeyx saydıqlarını, amma bəzi fikirlərimin, həm də hərəkətlərimin qızğın söz-söhbətə rəvac verdiyini söylədi. Əlbət ki, əvvəlcə Bağdad bazarında, guya, müridim olmaq istəyən Şeyx Övhədəddinlə bağlı əhvalatı dilə gətirirlərmiş. Məsələnin əslini karvansarayçıya başa salmağa həvəsim olmadığına görə, dedim, mən nə mürşid, nə mürid axtarmışam, gözlədiyim *Dost*du, onu da Rəbbimin köməyiylə, münasib bildiyi vaxtda tapacağam. Müslüməddin,

deyəsən, sözlərimin altındakı mənanı anlamadı, ancaq Karatayla görüşümə yardım göstərəcəyinə söz verdi.

Səhəri gün hava yağışlı olduğundan günorta namazınacan hücrəmdən çıxmadım, üç addım o başa-üç addım bu başa gəzindim, kürəyimi divara söykəyib dərin düşüncələrə daldım. Günorta namazından sonra yağışın ara verdiyini görüb Kürkçülər məhəlləsini dolaşdım, İplikçilər məscidinin görkəminə tamaşa elədim, kitabəsini oxudum. Məscidi təbrizli iplik taciri Əbülfəzl Əbdülcabbar tikdiribmiş. Əlbət ki, dər-üs-səltənədə həmşəhərlimin yadigarıyla üzləşməyim izzəti-nəfsimi oxşadı. Sürətimin dediyinə görə, Molla Cəlaləddin hələ də camaatın bir qisminin "Əbülfəzl məscidi" adlandırdığı bu Allah evində vəəz verirmiş. Vəəzini dinləmək, könlünün-ruhunun açarını tapmaq, sonra qəlbinə girib nizam yaratmaq, üstəlik, o nizamı ətrafındakılara təlqin eləməsinə çalışmaq, Surətimin təbirincə desəm, güclünün yox, haqlının yanında olması üçün yol göstərmək boynumun borcuydu. Məscidin həyətindən çıxıb çarşıya doğru enəndə İplikçilər mədrəsəsindən çıxan bir dəstə tələbəylə rastlaşdım, Təbrizdəki günlərim yadıma düşdü. O günlər aradan keçən uzun-uzun illərin o tərəfində qalmışdı, nə əlim çatır, nə ünüm yetirdi. Deyəsən, qəfil kövrəlməyim çarşını dolaşmaq həvəsimi də söndürmüşdü, yolumu dəyişib karvansaraya üz tutdum. Karvansarayçı da sanki yolumu gözləyirmiş, dedi, Cəlaləddin Karatay Həzrətləri sabah günorta namazından sonra Xoca Fəqih türbəsinə baş çəkəcək, özünüzü katib Kəriməddinə nişan verərsiniz, ərzinizi məqamına çatdırar.

Dediyi vaxtda Xoca Fəqih türbəsinin yanında gözləyəndə rum əsilli Cəlaləddin Karatayın, hər halda, zəkalı zat olduğu qənaətinə varmışdım. Böyük Əlaəddinin ölümündən, Qiyasəddinin taxta çıxmasından sonra Sadəddin Köpəyin çox başlar yeyəcəyini duyub meydandan çəkilmiş, dər-ül-səltənədən uzaqlaşmış, xəlvət güşədə rəqiblərinin bir-birini boğazlamasını, sultanın ona ehtiyac duymasını gözləmiş, o məqam yetişəndə də

ortaya çıxıb hökmdarın lap yaxınlığında yer tutmuşdu. Vəzir Mühəzzəbəddin qoca, həm də və xəstə olduğuna görə, indi iqtidar yolunda yalnız naib Şəmsəddin İsafahani vardı, o da, ən azı, altı ay məmləkətdən uzaq qalacağına görə, Cəlaləddinin mövqeyinin əməlli-başlı möhkəmlənəcəyini gözləmək olar. Əlbəttə, arada vəzir Mühəzzəbəddinin oğlu Müinəddin də var, Surətimin fikrincə, o, zəkası, fərasətiylə çox-çox uzağa gedəcək. Cəlaləddin Karatay binəva Nəsirəddin Mahmudun zindandan buraxılmasını istəyəcəkdimi, onun üçün sultana saqqal tərpədəcəkdimi – bunu hələ yəqin eləməmişdim. Hər halda, bu da cəhd idi, baş tutmasa, güman ki, Şəmsəddin İsfahaninin səfərdən dönməsini gözləyəcək, bir daha cəhd göstərəcəkdi. Dərd burasındaydı ki, hər keçən günlə onların illər boyu qurduqları gözəgörünməz nizam dağılır, nəticədə yalnız qardaşlara-bacılara yox, cəmi məmləkətə ziyan dəyirdi.

Karatayla görüş o qədər də çətin olmadı: bir tərəfə çəkildim, onun başının dəstəsiylə türbəyə girib dua oxumasını gözlədim, çıxanda karvansarayçının təsvir elədiyi katib Kərimməddinə yanaşıb özümü nişan verdim. Təvəqqemi eşidəndə Cəlaləddin Karatay dərhal ayaq saxladı, dönüb mənə sarı gəldi, bir-birimizə bağır basdıq, namımı çox eşitdiyini, məni dər-üs-səltənədə görməkdən məmnun olduğunu, elm-ürfan əhliylə gözəl görüşlər arzuladığını bildirdi, sonra sorğu dolu nəzərlərini üzümə dikib susdu. Bəzək-düzəyə ehtiyac duymadan Şeyx Övhədəddinin yadigarı Nəsirəddin Mahmudun nə vaxtdı zindanda saxlandığını, kişilərlə çiyin-çiyinə Qeysəriyyəni qoruyan zövcəsi Fatma Bacının düşmən əlində olduğunu xatırlatdım, Surətimin salamını, indiki vaxtda şeyxin buraxılmasının məmləkətin xeyrinə olacağıyla bağlı təvəqqesini çatdırdım. Karatay bir qədər düşündü, ardınca Nəsirəddin Mahmudu yaxşı tanıdığını, Böyük Sultan Əlaəddinin zamanında tez-tez sarayda görüşdüklərini, onu həmişə səltənətə də, dövlətə də sədaqətli elm-irfan əhli saydığını, fürsət düşən kimi sultana ağız açacağını söylədi. Amma

ya sözləri boğazdanyuxarı olduğuna, ya da təvəqqesini sultanın yerinə yetirməyəcəyini yaxşı bildiyinə görə, səsində ümidsizlik duydum, qəfildən də hər şeyi dərk elədim: naib Şəmsəddinin Batı xanla çətin görüşə getdiyi bir vaxtda tatarlara qarşı olduqları açıq-aşkar bilinən əxilərin başçısını zindandan buraxdırmaq vəziri-əzəmlik məqamında gözü olan zata meydan oxumaq kimi başa düşülə bilərdi – bunu nə Surətim nəzərə almışdı, nə də mənim ağlıma gəlmişdi. Yenə də vəzifəmi yerinə yetirdiyimə görə özümdə bir qədər yüngüllük duya-duya karvansaraya qayıtdım, yolda qeybdən peyda olan *kölgəmə* vəziyyəti yerli-yataqlı danışdım, Molla Cəlaləddinlə ünsiyyət qurmağa hazırlaşdığımı söyləyib xeyli rahatlandım...

***

...Amma Molla Cəlaləddinin məsciddə vəəzinə qulaq asmalı olmadım. Çünki axşam namazından sonra halım dəyişməyə başladı, cəmi vücudumda vəcd dolu qazdırma duydum. Yavaş-yavaş sol qolum yuxarı qalxdı, ovcunun içi göyə açıldı, sonra sağ qolum dikəldi, ovcumun içi yerə baxdı, ardınca ayaqlarımın ucunda asta-asta fırlanmağa başladım. Fırlana-fırlana çəkisizləşdim, öz içimdə yerdən qopdum, qov kimi yuxarı qalxdım, qatlardan keçdim, hər qatdan ötdükcə də təmizləndiyimi, saflaşdığımı duydum. Axırda gözqamaşdırıcı, hər şeyi bürüyən nura rast gəldim, o nurun içində əriyib yox oldum, yalnız səslər qaldı. Mənim səsimdə yalvarış vardı: *"Ey Rəbbim, mənə vəlilərdən birini yoldaş eləməklə vəd vermişdin, vaxtı çatmadımı?"* Qeybdən gələn səsdə mərhəmət sezildi: *"Ey Şəms, vaxt gəldi, sənə Bəhaəddin Vələdin oğlu Molla Cəlaləddin Bəlxini yoldaş elədik".* Bu dəfə səsim həyəcandan səsim titrədi: *"Onun vüsalına yetişə bilərəmmi?"* Səs sahibi sanki məni sınağa çəkmək istəyirdi: *"Şükranlıq borcu kimi nə verə bilərsən, ey Şəms?"* Cavabımda qətiyyət vardı: *"Başımı; onsuz da bu dünyada başımdan qeyri qiymətli bir şeyim yoxdu".* Səsdə də məmnunluq

duydum: *"Vüsalın mübarək olsun!"* Sonra çəkisiz vücudum nurun içindən çıxdı, qatlardan keçib asta-asta yerə enməyə başladı. Ayılanda hücrənin ortasında yerə yıxıldığımı gördüm. Xeyli tərpənmədim, sanki hərəkət eləmək, dillənmək qabiliyyətimi itirmişdim. Rəbbimin mənə verdiyi yoldaşımın Surətimin təvəqqesiylə görüşmək istədiyim kəs - Molla Cəlaləddin Bəlxi olduğu iqtidarımı əlimdən almışdı. Şükranlıqdan doğan göz yaşlarımın yanaqlarımı islatdığını sezəndə bir qədər ayıldım.

Səhər karvansarayçı Müslüməddinə dedim, oğlundan Molla Cəlaləddinin bu gün dərs dediyi dörd mədrəsədən hansında olacağını öyrənsin, o da dərhal buyruqçunu oğlanın arxasınca göndərdi. Buyruqçunun qayıtmasını gözləyə-gözləyə karvansarayın həyətində ayaqlarım yorulanacan var-gəl elədim. Rəbbim bizi bir-birimizə yoldaş vermişdisə, yəqin, rastlaşacağımız artıq *ona* da ayan idi, yolumu gözləyirdi. Şaiyələr doğruydusa, Molla Cəlaləddinin düşüncəsində Seyyid Bürhanədinin təslimçiliklə bağlı fikirləri kök salmışdısa, yoldaşımı açıq-aşkar söhbətlərlə yox, qəlbindəki Allah sevgisini tamamlamaqla, dünyəvi təsirlərdən arındırmaqla Haqq yoluna çəkəcəkdim. Onsuz da bu dünyayla çox bağlıydı: iki dəfə evlənmişdi, iki oğlu dünyaya gəlmişdi, bir qızı övladlığa götürmüşdü, qulluqçuları, müridləri, tələbələri, dostları vardı, sultanın yanında da, sarayda da hörmət-izzəti hamıya bəlliydi, dörd mədrəsədə dərs deyir, məsciddə vəəz verir, oxuyub-yazırdı – bütün bunlar Haqqa çatmaq qəsdində olan bəndə üçün qədərindən artığıydı, bu qədər yatırla, həm də qələbəliklə Allaha yetmək xəyaldan başqa bir şey deyildi. Molla Cəlaləddin niyyətində qətiydisə, dünya zövqündən də, ətrafındakılardan da təmizlənməliydi, Rəbbimizin izniylə bu məsələdə ona yardım göstərmək də mənim boynumun borcuydu. Axır ki, buyruqçu qayıdıb y*oldaşım*ın bu gün atasından miras aldığı İplikçilər mədrəsəsində olacağını, ikindi namazınacan dərsini tamamlayacağını söylədi. Hələ vaxta çox qalsa da, ürəyim ağzımdan çıxa-çıxa götürüldüm. O məqamda sanki aləmin hüdudları daralmış Allahın altında yalnız ikimiz qalmışdıq.

İkindi namazını İplikçilər məscidində qıldım, dərhal da mədrəsə yoluna çıxıb intizar içində dayandım. Çox keçmədi, uzaqdan Molla Cəlaləddinin dəstəsi göründü: özü ağ qatırın belindəydi, əynində bahalı paltar, başında qiymətli əmmamə vardı, tələbələrindən biri qatırın yüyənindən dartır, digərləri də böyük üləmanın yanında olduqlarından fəxr dolu vəcd duya-duya irəliləyirdilər. Dəstə bir neçə addımlığıma çatanda üləmanın simasını aydın gördüm, sanki, məni ildırım vurdu, ayaqlarım yerdən üzüldü: *Şamda qəfil qarşıma çıxıb əlimi öpən, "Ey məna aləminin sərrafı, məni axtar tap!" deyib özümə gələnəcən qeyb olan, o vaxtdan bəri "Dost" adıyla axtardığım Molla Cəlaləddin Bəlxiymiş!* Bu dəfə dəyanətli çıxdım, özümdən getmədim, var gücümü toplayıb irəli yeridim, qatırın yüyənindən bərk-bərk tutub nəzərlərimi onun gözlərinin içinə dikdim. Molla Cəlaləddinin ranginin əvvəlcə ağardığını, sonra sarıya çaldığını, cüssəsinin sustaldığını, nəyisə xatırlamağa, ayırd eləməyə çalışdığını sezib özünə gəlməyə aman vermədim, *"Ey Rumun mollası,* – dedim, – *səndən müşkül bir sualıma cavab almaq istəyirəm, Allah xətrinə, müşkülümü həll elə"*. Molla Cəlaləddin özünü ələ alıb dilləndi: *"Ey dərviş, söylə görüm müşkülün nədi". "Ey müsəlmanların öndəri,* – sualımı verdim, – *Seyyid-ül Ənbiya Muhammәd Mustafa (s. a. v.) böyükdü, yoxsa Bəyazid Bistami?"* Sualı eşidən Molla Cəlaləddin diksindi, gözləri bərəldi, sanki yeddiqatlı Göy dağılıb başına töküldü, amma yəqin, cismi təpəsindən-dırnağacan od tutduğuna görə, qəddini düzəltdi, səsinə toxtaqlıq verib dilləndi: *"Ey bədhuş, bu nə cür sualdı? Burda müşkül nə var? Həzrəti-Məhbubi-Kibariya Muhammәd Mustafa kainatın yaradılmasının səbəbi, Adəm övladlarının əfəndisidi, "Sən olmasaydın, kainatı yaratmazdım" kəlamı ona deyilib. Aləmlərin ən şərəflisi, insanların ən böyüyü sayıldığı, bütün ənbiya, övliya və əşya onun nurundan yaradıldığı aydın ola-ola, Bəyazid kimdi ki, məxluqatın əşrəfilə müqayisə olunur. Bistami yalnız Onun hümmətindən biridi!"*

Cavabını eşidəndə ixtiyarsız sinəmdən inilti qopdu, ikinci sualımı verdim: *"Bəs onda niyə Rəsullillah "Ey Allahım, səni əməlli-başlı tanıya bilmədik!" dediyi halda, Bistami niyə "Mən özümü bütün qüsurlardan xali sayıram, qanım çox uludu"* söyləyir? Sözümün altında nədən birinin qulluq, digərinin məbudluq məqamından söz açdığını, məbudluq məqamının qulluq məqamından böyük olduğunu nəzərdə tutmağım həmsöhbətimə dərhal ayan oldu. *"Ey dərviş,* – dedi, – *çox qəribə, həm də müşkül bir məsələdən söz açdın. Ariflərə görə, Bəyazid ilahi şərabın – Uca Allahın təcallasından – bir qurtumundan doymuş, susuzluğu yatıb məst olmuşdu. Amma Həzrəti-Fəxri-Aləmin (s.a.v.) susuzluğu ümmanlar qədər təcəllalardan yatmır, get-gedə daha da şiddətlənirdi. Mübarək sinələri hüdudsuz məkana çevrilmişdi. Beləcə, heş vaxt təcəllalardan doymur, hər nəfəs alanda daha da yaxınlaşmasına baxmayaraq, yenə daim "Səni layiqincə tanıya bilmədik" söyləyir, "Ey Rəbbim, mənim elmimi artır!" deyib yalvarırdı, İlahi Eşq odu bir anlığa belə, sönmür, təskinlik tapmırdı. Belə olduğu halda, kim o Şahi-ənbiyanın səviyyəsinə qalxa, Onu Bəyazid Bistamiylə müqayisə eləmək kimin ağlına gələ bilər?"* O, okeanla ümmanın, dəryayla gölün, nəhrlə çeşmənin arasındakı fərqi göstərmək istəyirdi. Axır ki, içimdəki odu, beynimdəki biliyi, düşüncəmdəki hüdudu verə biləcəyim bir Allah bəndəsinə rast gəlməyimdən elə həyəcanlandım ki, ancaq var gücümlə "Allah!" qışqıra bildim. Bir də ayılanda özümü İplikçilər mədrəsəsində, başımı *Dost*umun dizinin üstündə gördüm. *"Ey mənalar aləminin sərrafı, məni axtar, tap!"* arzusunun yerinə yetdiyini, həm də Seyyid Bürhanəddin Həzrətlərinin gəlişini xəbər verdiyi zat olduğumu anladığından bir kəlmə danışmadan, yarıbayğınlıq içində əl-ələ tutub, çaşqın qələbəliyin arasından keçib mədrəsəyə, zərgər Səlahədin Zərkubun hücrəsinə girmişdik. Can Dostum dedi, ey möhtərəm ağam, evimiz sizə layiq olmasa da, zati-alinizə sadiq

qul olmağa çalışacağam, qulun nəyi varsa – ağasınındı, bundan sonra bu ev sizin, balalarım da övladlarınızdı...

***

...Beləcə, üç ay çölə çıxmadıq, diz-dizə, göz-gözə, əl-ələ oturduq. İllər boyu bir-birinə can atan, bir-birini dolduran, daşıran ümmana oxşayırdıq. İndiyəcən nə mən mürid axtarmışdım, nə də onun Seyyid Bürhanəddindən sonra mürşidə ehtiyacı vardı. O, mənim söhbət müridim, mən onun söhbət mürşidiydim, Rəsulillah Əbubəkrsiz, İsa Məsih həvarilərsiz, Musa Xızırsız yaşaya bilmədiyi kimi, bizim də butamız bir-birimizə verilmişdi, bu dostluğun nə dünəni, nə buğunu, nə də sabahı vardı. Axır ki, ruhlarımız qovuşmuşdu, vüsal dənizində üzür, illərin ayrılığını, həsrətini, hicranını, o ayrılığın ağrı-acılarını *Dost*umun gözəl sözləriylə unudur, söylədiyim kəlamlarla onu bu dünyadan tamam ayırıb Haqqa yaxınlaşdırırdım. Deyirdim, dünyanın maddiyatıyla dolu olan könüllə Allaha yetişmək olmaz, əvvəlcə o maddiyyatdan sıyrılmaq, yüngülləşmək, qəlbini yalnız insanı göyə ucaldan *İlahi Eşq*lə doldurmaq şərtdi, buna iqtidarın yoxdusa, mollalıqdan, üləmalıqdan yuxarı qalxa bilməyəcəksən. *Dost*um deyirdi, ey Şəms, sorağını Bağdadda alandan bəri sənin yolunu gözləyirdim, Allahıma min kərələrlə şükürlər olsun ki, iltimasımı eşitdi, mənə *mənalar aləminin sərrafı*yla dizdizə, göz-gözə, əl-ələ oturmağı, ruhuma qida verən sözlərini eşitməyi nəsib elədi. Beləcə, *Məna* və *İlahi Eşq* ümmanında yelkən açıb üzdük, bu səfərin bizi hansı sahilə çıxaracağı barədə düşünmədik.

Deyirdim, sənə iki kəlmə söz söyləyim, ey Mollayi Rumi, bizə Həzrəti-Peyğəmbər *(s)* röyada xirqə verdi, amma bu, iki gündən sonra köhnəlib cırılacaq, zibilliyə atılacaq, yaxud çirki silinəcək xirqələrdən deyil, bəlkə də söhbət, yoldaşlıq xirqəsidi; deyirdim, bu, nagəhan söhbət yox, bəlkə, dünəni, bugünü, sabahı olmayan söhbətdi, çünki *Eşq*in zövqlə, bugün-sabahla

heç bir əlaqəsi yoxdu; deyirdim, mən özümü təkkəyə layiq bilmirəm, çünki təkkə bişmək, yetişmək, kamilləşmək niyyətində olanlar üçün tikilib, mənim o diləklərə yetişmək ehtimalım yoxdu; deyirdim, bəzən mədrəsəyə niyə getmədiyimi də soruşurlar, cavab verirəm ki, mən elmi çəkişmələrə girəcək adam da deyiləm, ləfzə görə məalən cavab versəm, bir söz deyə bilmərəm, öz dilimdə mübahisəyə girişsəm, gülərlər, mən qəribəm, qəribin yeri də karvansaraydı; deyirdim, camaatın nifaq yoluyla danışmaqdan, ikiüzlülük eləməkdən xoşu gəlir, doğru sözdən bezir, birinə desəm ki, sən çağımızın ən böyük adamı, yeganə şərəfli insanısan, şübhəsiz, əllərimdən yapışıb deyəcək, sizdən ötrü yaman darıxmışdım, halbuki, ötən dəfə onunla doğru-düzgün danışmışdım, mənlə düşmən olmuşdu; deyirdim, burda heyrət ediləcək bir şey yoxdu, çünki kütlə ikiüzlülük yoluyla baş girləmək istəyir, qarlı uca dağları aşmağı yox, asan, düz, eniş yollarla getməyi sevir; deyirdim, fəlakətin də, dağıntının da yolu düz, qapısı gen olur, ona görə, həqiqət yolunu tutanda aləm düşməninə çevrilir, dağlara, çöllərə qaçmalı olursan, çünki namünasib yerdə, qabiliyyətsiz adamların arasında danışmaq zülümdü, amma məndən ötrü dürüstlük şəhərdi, mən də o şəhərin sultanıyam...

Can Dostumu uzun-uzadı susurdu, onu yaxşı anlayırdım, elə şeylər var, söyləmək, izah eləmək mümkün deyil, amma söyləməsən, canından çıxarmasan, rahatlana bilməzsən. Könlündə cövlan eləyən sirləri üstüörtülü ibarələrlə çatdırıb yüngülləşmiş, korlar çarşısında ayna, karlar çarşısında qəzəl satan adam ağlagəlməz həzz duyur. Can Dostum deyirdi, mən kamillərin hekayətini danışır, ən gözəl sevgilini örtük altında göstərirəm, onu görmək fəzilətindən məhrum kəslərin gözləri həmin yarı seçməz, bu hekayətləri ancaq filankəslərin başına gəlmiş əhvalatlar hesab eləyər, arif adamlarsa, pərdələrin altında gizlətdiyim mənaları anlayarlar. Can Dostuma dedim, uşaq vaxtı Tanrını da, mələyi də görür, uca-alçaq dünyaların qeyblərini

müşahidə eləyir, elə bilirdim, ətrafımdakıların hamısı mənim gördüklərimi görür, amma məlum oldu ki, görmürlər; deyirdim, bunları Şeyx Əbu Bəkrə söyləyirdim, dilimə gətirdiklərimi başqa bir kəsə açmamağı, dəli yerinə qoyulmaq üçün dəstəvuz verməməyi bərk-bərk tapşırırdı; deyirdim, bu haqda validimlə da söhbət eləmişdi, validim demişdi, səbəbi ibadət, riyazət deyil, söylədikləri tifildə lap körpə yaşlarından var, belə bir hal Həzrəti-İsaya da beşikdə olanda verilibmiş.

Can Dostum çox etimad elədiyi oğlu Sultan Vələdi çağırıb əlimi öpdürdü, Şəkərçilər karvansarayına gedib haqq-hesabı kəsməyi, hücrəmdəki əşyalarımı dağarcığıma yığıb gətirməyi tapşırdı, evdə hüzur olmasını, mənim ailənin fərdi kimi qəbul edilməyimi istədi. Xəlifələrinə, qulluğunda duran müridlərinə, üstəlik, tələbələrinə də yanındakı mərtəbəmi, daim xidmətimdə olmalarını xatırlatdı. Kərra Xatunu, Kimya Xatunu, qulluqçunu məxsusi çağırmadı, amma onları da vəziyyətdən halı elədiyindən əmindim. Yemək-içməyimizi məcməyidə gətirib qapının ağzına qoyurdular, *Dost*um arabir *Eşq dənizi*ndən silkinib çıxır, məcməyini götürür, çox vaxt da bir müddətdən sonra əl dəyməmiş halda qaytarıb yerinə qoyurdu. Arabir bayıra çıxdığımız çox qısa zamanda get-gedə nələrin dəyişdiyini duya bilirdim. Əlbət ki, karvansarayların kiçik, tənha hücrələlərinə öyrəşmişdim, Təbrizdəki evimizdən çıxandan sonra ilk dəfəydi ki, ailə ocağının qoxusunu duyurdum. Sultan Vələdin hörmətkarlığı, Kərra Xatunun narahatlığı, Kimya Xatunun ədəbliliyinin sonra nəyə çevriləcəyi barədə hələ ki, ciddi düşünmür, fikirləşirdim, Can Dostumun könlündə *İlahi Eşq*i körükləyəndən sonra, ən azı Qeysəriyyəyə, Sürətimin yanına qayıdar, ömrümü orda başa vuraram.

Can Dostum deyirdi, ilk dəfə mənim varlığım ona xəlvətdən çıxma ərəfəsində ayan olubmuş: bir müddət özündən gedib, Bağdadda Allaha ibadət eləyən uca boylu, arıq vücudlu, sarışın simalı, ağlayıb-sızıldayan şəxs görüb, onun böyük dərd yiyə-

si olduğunu başa düşübmüş; deyirdi, dərdinin böyüklüyündən Dəclə nəhrinin üstünə səccadə salıb namaz qılır, Allaha nə qədər yaxın olsa, qüdrətindən güc alsa da, əlini göyə açıb, *"Ey Allahım, ey sultanım,* – deyirmiş, *– bu hal-heyrətimdən daha yaxşı hal-heyrət ver, çünki bunların heç bir faydsı yoxdu!"* Deyirdi, həmin məqamda İlahinin təlqinilə qəribin qulağına pıçıldamışdım: *"Mövlana Şəmsəddin Şamdakı qələbəliyin içində dolaşır, ətrafa tamaşa eləyir, elə indi ora get, o Eşq Padşahı da səni bu halda görüb ağlayıb-sızıldamağına gülsün, istəyinə çat, axtardığın hal da dərhal sənin içində peyda olsun".* Deyirdi, o könlü yaralı dərviş məsləhətimə əməl eləyib tez yola düşmüş, Şamda səni tapanda biçarə dərvişin görkəmi də, qiyafəsi də xoşuna gəlmiş, gülümsəmişdin, o məqamda da dərvişin içində qeyb aləmindən nurlu həyəcan baş qaldırmışdı, sol əlinin ovcunu göyə, sağ əlinin ovcunu yerə açıb fırlanmağa başlamış, uca məqamlara yetişmiş, yalnız yetkin ariflərin arzu-niyyətlərinin hədəfi olan mərtəbəyə ucalmışdı. Şamda başıma gələn o hadisəni də, ucaboy, arıq vücudlu, sarışın simalı o dərvişi də xatırladım, bu səbəbdən, Allahın hikmətinə bir daha şükür elədim.

Can Dostumla Şamdakı görüşümüz də xəyal deyilmiş, deyirdi, Hələbin Hələviyyə mədrəsəsində dərslərini tamamlayandan, üləma Kəmaləddin İbn-ül Ədimdən mümkün olanı alandan sonra elə onun məsləhətiylə də Şama gedib, təhsilini Məqdisiyyə mədrəsəsində davam etdirib, Mühyiddin əl-Ərəbi Həzrətlərinin söhbətlərində olub, amma aldığı dərslərdə də, qatıldığı söhbətlərdə də axtardığını tapa bilməyib; deyirdi, bir gecə röyasında pədəri Bəhaəddin Vələd Şamın küçələrindən biriylə gedən ucaboy, arıq vücudlu, qaraşın simalı dərvişi göstərib deyib, o, Allahın sevimli bəndəsi, mənalar aləminin sərrafıdı, əlini öp, özünə söhbət şeyxin qəbul elə; deyirdi, o gündən Şamın küçələrində havalı kimi gəzirdim, axır ki, bəxtim üzümə güldü, validimin nişan verdiyi o dərvişi – səni gördüm, əlini öpüb *"Ey mənalar aləminin sərrafı, mən axtar, tap",* – dedim,

amma qəfil nərə çəkib bayılmağından qorxdum, düşünüb-daşınmadan qaçdım, sonra da izini tapa bilmədim; deyirdi, sənin Konyaya gələcəyini Seyyid Bürhanəddin söyləmişdi: Şamdan qayıdanda yolunu Qeysəriyyədən saldım, müəllimimi özümlə Konyaya gətirdim, könlümün yarımçıq qalan yerlərini onun dərsləriylə doldurdum, dönə-dönə pədərimin "Maarif" kitabını oxudum; deyirdi, vədə çatanda Seyyid Bürhanəddin Qeysəriyyəyə dönmək üçün izin istədi, buna da heç cür razı olmadım, axırda müəllimim məndən izinsiz Konyaya doğru yola çıxdı, amma yolda atdan yıxılıb qıçını sındırdığına görə geri dönməli oldu; deyirdi, onda Seyyid Bürhanəddin nə səbəbə onun getməsinə mane olduğumu soruşdu, cavabında nəyə görə müridini atıb getmək istədiyi barədə israrla sual verdim, axırda müəllimindən heyrətimə səbəb olan cavab aldım: *"Konyaya güclü din aslanı gəlir, mən də din aslanı olduğuma görə, bir şəhərdə iki aslan ola bilməz, yola gedə bilmərik, bu səbəbdən getmək istəyirəm";* deyirdi, onda Allahıma şükürlər oxuyub, şeyximin əlini öpdüm, müridlərimdən bir neçəsini də yanına qoşub Qeysəriyyəyə göndərdim.

Can Dostum bir neçə ay əvvəl, müəllimi Haqqa qovuşanda Qeysəriyyəyə getdiyini də danışdı. Mən Surətimlə Övhədiyyə təkkəsinin zirzəmisində oturanda o, şeyxinin məzarı üstündəymiş. Dedi, rəhmətlik bir gün buyruqçusunu çağırıb su hazırladır, boy abdəsti alandan sonra deyir, get qapını möhkəm ört, bayırda gördüyün adamlara söylə ki, qərib Seyyid dünyadan köçdü, ardınca da səla ver; dedi, buyruqçu gedəndən sonra da əllərini qaldırıb üzünü göyə tutur, dua eləyir, deyir, ey böyük Allahım, ey dost, məni qəbul elə, canımı al, özümdən apar, hər iki dünyadan arala, Sənsiz olan hər şeyi məndən qopar, beləcə də canını tapşırır; dedi, ölüm xəbərini alan kimi, Qeysəriyyəyə getdim, Seyyidi-Sirdanın məzarı üstündə saatlarla göz yaşı tökdüm, onun nişan verdiyi din aslanının yolunu gözləyə-gözləyə səbrimin yeddi qatından keçdim. Əlbət ki, Seyyid Bürhanəd-

dinlə söhbətlər elədiyimi, özünün söylədiyinə görə, sülaləsinin Həzərti-Hüseynəcən uzandığından, kəramət sahibi olduğundan, hamının könlündən keçənləri bildiyindən xəbər tutduğumu söylədim, ürəyimdə mərhumun mənə demək istədiyi, Surətimin səbir göstərib üzə vurmadığı *o sirrin* üstünün açıldığına sevindim, amma İlahinin onunla Qeysəriyyədə rastlaşmağı qismət eləmədiyinəsə təəccübləndim. Görünür, o məqamda görüşümüz vaxtsız, münasib deyilmiş, Can Dostumun böyük itkidən özünə gəlməsi, mənimsə yeddinci qapının açılmağını gözləməyim vacibmiş. Mən dünyada kimsəyə verə bilmədiyim könül sərvətimi səxavətlə ona sərf eləyirdim, o da dünyada kimsədən ala bilmədiyi İlahi Eşqi doya-doya yaşayırdı. Hücrəmizdən kənardakı aləm yoxa çıxmış, ancaq ikimizin aramızdakı, *İlahinin nuruna boyanan aləm* qalmışdı. Bəzən heç sözə də lüzum qalmırdı, bir-birimizə baxa-baxa susur, qəlbimizi dolduran *İlahi Eşq* aşıb-daşanda dinməzcə qalxıb səmaya dururduq...

***

...Amma ətraf aləm bizi heç unutmurdu, Kərra Xatunun susqun tövründən, hər gün qapının ağzına yığışıb müəllimlərinin mədrəsələrdəki dərslərə gəlmədiyinə görə narahat olan tələbələrin israrlarından, məscidlərdə vəəz verməməsi üzündən küçələrdə, çarşı-bazarda, dükanda camaatın narazılıq bildirməsindən, elm-irfan sahiblərinin çaşqınlığından ancaq bizi anlayan Sultan Vələd, bir də mürşidinə könüldən bağlı olan Hüsaməddin Çələbinin araçılığıyla xəbər tuturduq. Sultan Vələdin dediyinə görə, Konya artıq qazan kimi qaynamağa başlamışdı, hətta pədərinin ən yaxın dostları Səlahəddin Zərkub, Sadəddin Konəvi belə, baş verənlərin izahını tapa bilmir, açıq-aşkar qiyama qalxırdılar, *"Molla Cəlaləddini bütün köhnə dostlarından, ən yaxın qohum-əqrəbasından, yüksək mövqeyindən əl çəkib özüylə məşğul eləyən adam kimdi, hardan gəlib çıxıb axı?"* – sualı dillərdən düşmürdü, hətta bəziləri daha da irəli gedib Bə-

haəddin Vələdi rəhmətlə anır, o cür iman əhlinin yadigarı olan oğulun yeri-yurdu bilinməyən qərib dərvişin əlində oyuncağa çevrildiyini söyləyirdilər. Mənə görə, indiyəcən Can Dostumun şahəsəri elm-irfanı, ədəbi, mərifətiylə yanaşı, *İlahi Eşq*in nə olduğunu anlayan Sultan Vələdiydi, pədərinin bütün elmlərə vaqif, uca mövqeyə sahib olmasına baxmayaraq, daha da kamilləşmə istəyini, buna görə də izzət cübbəsi altında gizlənən söhbət şeyxi axtardığını, arzusu yerinə yetəndə mürid kimi başını onun ayağına qoyduğunu, işığında faniyə çevrildiyini yalnız Sultan Vələd dərk eləyirdi. Həzrəti-Musa Allaha daha da yaxın olmaq üçün Həzrəti-Xızıra necə ehtiyac duyurdusa, Molla Cəlaləddinin də mənə o qədər ehtiyacı vardı, buna görə də öz dilək əliylə mənim söhbət ətəyimdən bərk-bərk yapışmışdı, buraxmaq fikrində deyildi, mən də axtardığım Xudavəndigarımı tapmışdım, qüdrətim çatınca yanında olacaqdım.

İlahi Eşqin yolunda hər şeyindən keçməyə hazır olduğunu Can Dostum elə ilk məqamdan duymuşdu. Xəlvətimizin ilk günündəcə demişdim, ey Cəlaləddin, ürəyimə sahib olmaq istəyirsənsə, tənhalığını mənə həsr eləməlisən; demişdim, insanlar məşuq yox, məncil duyğularına kölə axtarır, axırda köləni tapır, eşqisə tapa bilmirlər, dünyada sevginin az olmasının da səbəbi budu; demişdim, mən *Eşq yolunda* bir qayda qoymuşam, xəbərsiz olanlar o yola qədəm basa bilməzlər, sənə də o qaydaları bir-bir izah eləyəcəyəm, fənmini də, səbrini də cəmləşdirib söylədiklərimi qəlbinə yazmalısan; demişdim, Can Dostum, gül qədər gözəl ol, amma tikanı qədər zalım olma, qarşındakına elə söz de ki, ya yaşat, ya da öldür, amma heç vaxt yaralı qoyma; demişdim, sözün qiymətini laldan, çörəyin qiymətini acdan, *Eşq*in qiymətini heçdən öyrən, eynilə torpağın əkinçiyə təslim olduğu kimi, *Eşq*ə tamam təslim ol, çünki *Eşq dəryası*nda təslimiyyət yelkənini açmadan yol getmək olmaz; demişdim, insan şam kimi əriyirsə, "yanıram" deməməlidi, bir kəs yanmaqdan qorxursa, *Eşq qapısı*ndan içəri girməməlidi, insana sev

deyənin qəlb, yoxsa təhrik eləyən yalqızlıq, sevməyin şamın alovu, yoxsa o alova toxunmaq olduğunu ayırd eləmək vacibdi. Dostum söhbətlərimin aynasında özünü görür, əyər-əskiklərinin fərqinə varır, kamilləşməyə səy göstərir, get-gedə təkcə fikirləri yox, sözünün havası da dəyişməyə başlayırdı: əvvəllər mədrəsədə dərs deyən, minbərdə vəəz eləyən, hüzurundakılara nəsihət verən sayaq danışırdısa, artıq sözlərinə şeiriyyət havası çökmüşdü. Bir gün dedim, ey Dost, təki sən ol, istər yar ol, istər yara, lütfün də, qəhrin də başım üstə; dedi, Eşq gəldi, məni hər şeydən, hamıdan ayırdı, kədərləndirdi, amma sonra rəhmi gəldi, lütf elədi, sədəqə verdi, Allaha şükürlər olsun ki, şipşirin vüsal suyunda əritdi, özünə qatdı; dedi, sevgilim, abi-həyat sənin üzündəki tərin bir damcısıdı, gecələr göy üzündə gəzən nur saçan Ay sənin skimanın parıltısından yaranıb; mən də *"Bu uzun gecədə Ay işığı istəyirəm", – düşünmədim ki, o gecə sənin qara saçların, Ay işığısa yanaqlarındı!"* dedim, sonra asta-asta qalxdı, gözlərini gözlərimə zillədi, öz könlümüzün havasına səmaya durduq.

Allaha duyduğumuz arzu-istək atəşi, *İlahi Eşq* vurğunluğu könlümüzü elə bürümüşdü ki, o qış günlərinin necə gəlib keçdiyini hiss eləmədik. Məcnunla oturub-duran Leylidən başqa bir kimsə barədə danışmağı ağlına gətirməzmiş. Qəlbimdə hüdudsuz coşqunluqla yaşatdığım Leylim – Rəbbim - haqqında söz açıb hisslərimi bölüşəcəyim alovlu *İlahi Eşq* vurğunluğunu tərtəmiz *Eşq* intizarında olan, müəllimliyə yetsə də, tələbəlikdən boyun qaçırmayan Can Dostumdan başqa kimsədə tapa bilməzdim. Mən bütün qadağaların fövqündə durmağa alışmışdım, Rəbbimin təlqiniylə ona Haqqın əsl yolunu göstərməkdən başqa niyyətim də yoxudu. Musa peyğəmbər də Xızırla onun həsrətini çəkdiyinə görə yox, Rəbbinə duyduğu hüdudsuz *Eşq* üzündən görüşmüşdü. Mən Can Dostuma *Allahın məşuqu* olmağın sirlərini açdım, onu yerdən qoparıb göyə qaldırdım, heyrətlərlə dolu aləmə apardım. Vardığımız aləmi nə türk gör-

müşdü, nə də ərəb. Rəfiqim aləmdəki ərənlərin mərtəbələrindən də uca olan mərtəbəyə – *Məşuqluq Mərtəbəsi*nə yetdi. Əlbəttə, *məşuqluq vergisi* Molla Cəlaləddinin cismində vardı, o - *Məşuqluq dənizi*nin incisiydi, yəni hər şey əslinə dönmüşdü, mən yalnız Allahın təqdiriylə buna səbəb olmuşdum. Günlərin çox qismini susurduq, ağzımızdan bir kəlmə çıxmırdı, bir saat düşüncəyə dalmağın altmış il ibadət eləməkdən xeyirli olduğunu dərk eləyirdik, dillə-dodaqla yox, könüldən-könülə axan səslə danışırdıq, könüllərimiz bir-birini çağırırdı. Sonra Can Dostum könlümüzdən keçənləri beytlərə düzürdü: *sən sus, qoy könlün danışsın, sən susmadıqca düşüncən bir şey söyləyə bilərmi; səs susanda düşüncə içində həbs olunur, amma könül ağzını açanda dil danışa bilmir, susur.* Amma susqunluğumuz bəzən odun üstünə tökülən suya, bəzən də alovu şiddətləndirən ruzgara çevrilirdi.

O alovu şiddətləndirən, bizi yerdən qoparıb göyə qaldıran məqamların birində hücrənin arxa divarı pərdə kimi aralandı, görkəmlərindən, geyim-keçimlərindən bu yörənin adamlarına oxşamayan altı nəfər heybətli adam içəri girdi, ehtiramla əyilib yeri öpdülər, Can Dostumun qarşısına buralarda bitməyən güllərdən düzəldilmiş dəmət qoydular, ədəblə oturub susdular, günorta namazınacan ortada bir kəlmə eşidilmədi. Namaz vaxtı Can Dostum imamlığı mənə təklif elədi, amma illərlə namaz qıldırdığını nəzərdə tutub dedim, sən olan yerdə başqasının imamlığı düzgün olmaz. Namazımızı qılandan sonra o altı heybətli adam yenə böyük ehtiramla qalxdılar, baş endirib bağır basdılar, həmin məqamda pərdə kimi aralanan divardan keçib getdilər. Ortada gül dəstəsi olmasaydı, bütün bunları mən də yuxu, ya da qarabasma sayardım. Can Dostum həmin dəstəni götürdü, hücrənin qapısını açıb müridlərindən birinə verdi. Sonradan xəbər tutduq ki, mürid heç görmədiyi, adını, harda bitdiyini belə bilmədiyi o güllərdən bir neçə yarpaq qoparıb, sirrinə yetmək üçün əttarlara göndərib, əttarlar da qışın ortasın-

da təzətər qalan, rəngini, ətrini itirməyən güldən heyrətə gəlib, axırda daim Hindistana gedib-gələn, həmişə də nadir mallar gətirən tacir Şərafəddin Hindiyə göstəriblər, tacir deyib, Hindistan gülüdü, məxsusi o diyarda, Sərəndib əyalətində bitir, amma Diyari-Ruma necə gəlib çıxdığını, kimin gətirdiyini heç cür başa düşməyib. Mürid yarpaqları qaytarıb Kərra Xatuna vermiş, biçarə zənən də çıxılmaz çaşqınlıq içində qalmışdı. Sultan Vələd olub-keçəni pədərinə danışanda Can Dostum zövcəsinin hücrəsinə getdi, dedi, o gül dəmətini saxla, naməhrəm adamlara göstərmə, çünki Hindistandakı mübarək İrəm bağçasının bağbanları, kərəm hərəminin mühafizləri onu canımızı-gözümüzü qüvvətləndirmək üçün gətiriblər, yaxşı saxla ki, bəd nəzər dəyməsin. Can Dostumun artıq mənalar aləminin sərrafı olduğunu o məqamda anladım.

Can Dostum söhbətimizdən, həm də susqunluğumuzdan elə doyurdu ki, daha kimsənin ünsiyyətinə ehtiyac duymurdu. Ona bəxş edilən anlama vergisindən çox mütəəssir olurdum. Anlayışın da iki yönü var: boşboğazın biri söhbət üçün üz tutanda sanki sözlər məndən hürküb qaçır, amma bəzən çatdırdığım mənaları zövq içində duyan, məst olan, bayılan, hətta o sözləri təkrarladıqca eyni zövqü alan kimsələrə də rast gəlirəm, Can Dostum da məhz Allahın o sevgili bəndələrindəniydi, bu səbəbdən, onu hamıdan qoruyur, hər kəslə görüşməsinə izin vermirdim. O, söhbətlərimizdən, həm də susqunluğumuzdan duyduqlarını beytlərə düzüb kağıza köçürəndə alıb hücrədən çaxır, mədrəsənin qapısı ağzında oturur, mürşidlərini görmək məqsədiylə gələnləri imtahana çəkir, deyirdim, niyaz, şükranlıq üçün gətirdiklərinizi göstərin, onu görməyinizə izin verim, əlbət ki, kimsə bəxşiş gətirəndə də bəyənmir, qapıdan qaytarırdım. Bir gün qarşısını kəsdiyim əllaf sualımdan hiddətlənib üstümə qışqırdı ki, sən özün nə gətirmisən ki, bizdən bir şey istəyirsən? Əllafın gözlərinin içinə dik-dik baxdım, dedim, mən

özümü gətirmişəm, başımı onun yolunda qurban vermişəm. Əllafın rəngi boğuldu, gözləri bərəldi, dönüb getməkdən başqa çarəsi qalmadı.

Bəzən geri dönəndə Dostumun əlində kitab görür, pədərinin yazdığı olsa belə, alıb kənara qoyur, unudulacaq, ona yük olacaq, mənliyinə mənlik qatacaq biliklərə yox, könül bilgisinə, feyzə, cazibəyə üz tutmasını tövsiyə eləyir, deyirdim, könül bilgisini də kitablardan öyrənmək olmaz, eləcə də, insan altı min il yaşasa belə, o illər ərzində əldə elədiyi bir feyzə də dəyməz; deyirdim, dünyadakı bütün kitablar, bütün hesablar, ağıl oyunları, səhifələr dolu sözlər sevginin yerini verə bilməz, insan oxumaqla öyrənməli, amma sevə-sevə dərk eləməlidi; deyirdim, ey Dost, kaş, sən mən olaydın, səni sevməyin nə qədər çətin olduğunu anlayaydın, kaş, mən sən olaydım, bu qədər sevilməkdən zövq alaydım. Hətta Mütənəbbinin qəsidələr kitabını əlindən alıb gizlətdim ki, yazdıqları ona oxşamasın. Amma Can Dostum qəsdən yox, güman ki, dalğınlığı üzündən yenə Mütənəbbinin divanını tapıb həvəslə oxuyurdu. Bir dəfə içəri girəndə kitab qucağında yuxuya getdiyini gördüm. Oyandı, yuxusunda üləmalarla, fəqihlərlə mübahisəyə girdiyini, hamısına üstün gəldiyini söylədi. Sifətində məmnunluq yox, çaşqınlıq vardı, halını duyub kitabı əlindən aldım, dedim, görürsənmi biçarə fəqihlərin başına hansı oyunu açmısan, hamısı da bu kitabı oxumağının uğursuzluğundandı, bir daha oxuma. Amma bir həftə keçməmiş, yuxusunu danışdı: mən Mütənəbbinin saqqalından yapışıb onun yanına gətirir, soruşurammış, bu adamın sözlərinimi oxuyursan, arıq, sısqa, boğuq səsli biçarə Mütənəbbi də yalvarırmış ki, ey Cəlaləddin, məni bu Mövlana Şəmsəddinin əlindən qurtar, bundan sonra da kitabımı əlinə alma. Ondan sonra o kitabı Can Dostumun əlində görmədim, könlüm də rahatlıq tapdı.

Ona kimsəylə danışmamağı tapşıranda da itaət elədi, dedim, çox danışmaq faydalı olsaydı, Allah iki ağız, bir qulaq

verərdi, bu səbəbdən, çox dinləyib az danışmaq lazımdı; dedim, bu dünyadakı çəkişmə, qərəz, düşmənliklərin çoxu dildən qaynaqlanır, sən deyilənlərə o qədər də fikir vermə, *Eşq diyarı*nda dil onsuz da hökmünü itirir, *Eşq* dilsiz olur; üləmalığının, müdərrisliyinin, vaizliyinin zərurətə çevirdiyi danışma vərdişini nə qədər çətinliklə tərgitdiyini duyur, yardım üçün özüm də susurdum, hətta gündə bir-iki kərə baş çəkən Sultan Vələdə, arabir mürşidini yoluxan Hüsaməddin Çələbiyə də bir-iki kəlmədən artıq söz demirdim. O məqamacan sözlərimiz *Eşqlər*in qidası, səfa əhli ruhlarının şərabı olmuşdu, qəfildən də hər ikisi ac qaldı. Danışmadığı sözlər Molla Cəlaləddinin iç dünyasında qiyama qalxdı, yetkinləşdi, zərif duyğulara büründü, sonra ilahi şeiriyyətə çevrildi. Onun qoşun kimi, ümman dalğasıtək gələn sözlərdən nəfəsinin necə təngidiyini, lələk qələmini Səmərqənd mürəkkəbinə batırıb Çin kağızı üstündə necə gəzdirdiyini, gözlərindən vərəqlərə necə yaş damcıladığını görürdüm. Yazdıqlarının birində buyurmuşdu ki, *xalq üzüm salxımına oxşayar, həmin salxımdakı gilələrin sayı surətlərin təcəssümüdü, amma salxımı kasa içində əzsək, dənələrdən də, sayından da əsər-əlamət qalmaz; o arzular salxımını da heç bir tamaşa könül aləmindəki gözəlliyi görməsi qədər öldürə bilməz; o könül aləmini görüncə, bütün cismi sustalar, o nəfsi-əmarə hamını aciz qoyan padşaha bənzəyər.* Onda mənə bir daha aydın oldu ki, o - məna dənizinin dalğıcı, məna dənizindən incilər çıxarandı, mənsə tacir, yəni həmin incilərin alıcısıyam, malın qiymətini də yalnız mən bilirəm.

Xəlvətimizin, yəni vüsal orucumuzun qırxıncı günü susqunluğumu pozdum, Can Dostumun qolundan yapışıb mindərin üstündə oturtdum, özüm də qabaq-qənşər, diz-dizə əyləşdim, əllərindən tutdum, gözlərinin içinə baxa-baxa dedim, Allah-taalanın təqdiriylə imtina, sorğu-sual, başqalarının yazdıqlarını oxumama, susqunluq hüdudlarını keçib *mövlanalıq həddi*nə çatdın, bununla da Rəbbimin təlqin elədiyi ən böyük vəzifəmi

tamamladım; dedim, bundan sonra mən sirlər içində sirrəm, Rəsulillahın merac vaxtı yetişdiyi tamam başqa bir aləmin sirrinə – Sidrət-ül-Müntəhaya varmışam, artıq mənə kimsə gərək deyil; dedim, sən batinə bağlısansa, mən batinin batiniyəm, sirlərin sirri, nurların nuruyam, övliyalar da sirrimə yetə bilməzlər; dedim, artıq *Eşq* belə, yolumda pərdədi, maneədi, yaşayan *Eşq* mənim mərtəbəmdə ölüdü, amma bu mərtəbəyə çatmaq üçün çox-çox sınaqlardan keçmiş, dünya malından da, zövqü-səfadan da əl çəkmiş, şeyxlərin sorğu-sualına dözmüş, oxumaqdan, başqalarının sözlərini danışmaqdan əl çəkib öz sözlərimi söyləmiş, susmağı, yalnız ehtiyac duyanda danışmağı öyrənmişəm; dedim, sən Haqq əhlisən, Haqqın dərgahına da gözəl sözdən başqa bir şey layiq deyil, üstəlik, sirlərin sirrinə yetməyə can atırsan, amma bu yolun bədəli var, ağlagəlməz çətinliklərə tab gətirməli, fədakarlıqlar eləməlisən; dedim, amma çilənin, çətinliklərin sonunda alacağın mükafatlar var: şanın da, sözün də aləmi fəth eləyəcək, *Allah aşiqi*ndən *Allahın məşuqu*na çevriləcəksən; dedim, Günəş bütün aləmə nur saçır, mənim ağzımdan çıxan sözlər də çox parlaq görünür, amma qara söylədiklərim pərdə altında, Günəşsə o pərdənin arxasındadı; dedim, Günəşin üzü Mövlanaya tərəfdi, çünki Mövlananın da üzü Günəşə tərəfdi. Sonra onu qaldırdım, dedim, sənin kimi, tayı-bərabəri görünməmiş cövhərə ayna olduğuma görə çox xoşbəxtəm, Tanrının lütfü müqabilində şükür eləyə-eləyə səmaya duraq. Sonra da böyük *Eşq*lə, *Allahın məşuqları* kimi səma elədik, ardınca şükür namazı qılıb xəlvətdən çıxdıq.

Biz xəlvətdə olduğumuz müddətdə Mövlana Cəlaləddinin ailəsində, mədrəsədə, şəhərdə baş verənləri Sultan Vələddən, Səlahəddin Zərkubdan, Hüsaməddin Çələbidən eşitdikcə içimə qatı hüzn çökürdü: bilirdim ki, xəlvətə molla kimi girib, çilədən mövlana kimi çıxan Cəlaləddin üçün artıq heç nə əvvəlki kimi asan olmayacaq. Ona az-az, qədərində verdiyim *Eşq dərmanı* içindəki *"mən"*dən qurtulmasına, nemətlərdən əl çəkmə-

sinə, vurğunluğa səbəb olan istəkləri aradan qaldırmasına bəs eləmişdi, amma hər şey bununla bitmirdi, sonrakı sınaqlara da tab gətirməliydi. Ona *Məşuqluq Məqamı*nın çox uca, amma o məqamda qalmağın həddən artıq çətin olduğunu söyləmişdim. Mən daha uca – *Məşuqların Qibləsi* mərtəbəsinə gözümlə od ayaqlaya-ayaqlaya yetişmiş, aşiqin məşuq, məşuqun da aşiq olduğunu dərk eləmişdim, Mövlana Cəlaləddin də özündə dəyanət tapsaydı, *Məşuqluq Məqamı*nda qərar tutacaq, *Eşq*in daha böyüyünə yetəcək, Allahı ancaq Allahın xətrinə, heç bir şey ummadan sevəcəkdi. O, buna əvvəldən, hazırıydı, silinmiş, təmizlənmiş, zeytun yağı tökülmüş, fitili salınmış qəndilə oxşayırdı, mən ancaq çaxmaq çəkib alışdırdım. Amma bir vaxt o qəndilin işığında görünməyə də bilərdim – bu ehtimalı da nəzərdən qaçırmamışdım, həmin işığın pərvanəsi olmağa, canımı verib o işığa qarışmağa hazırıydım. Mən ondan ötrü aynaydım, baxıb cəmi aləmin həqiqətini, həm də özünü görür, özünə aşiq olur, təriflər yağdırırdı. Xəlvətdən çıxanda naxışı bəhanə eləyib Nəqqaşa daha da yaxındığımıza görə, ruhumuz cürbəcür İlahi qoxularla doluydu, zamandan da, məkandan da kənara çıxmış, elə saflaşmışdıq ki, mələklər götürüb səmaya qaldıra bilərdilər. O məqamda Mövlana Cəlaləddinin üzünə baxmaq məndən ötrü xoşbəxtlik idi, sanki Rəsilillahın mübarək simasını görürdüm, bundan sonra onun heç vəchlə əvvəlki zat olmayacağına, artıq məqsədimə çatdığıma da inamım artmışdı...

***

...Xəlvətdən çıxanda camaat elə bildi, Molla Cəlaləddin yenidən mədrəsədəki dərslərinə, məsciddəki vəəzlərinə, namaz vaxtı imamlığına, üləma məclislərinə qayıdacaq, üstünə gələnlərin müşkülünü çözəcək, amma yenə birgə olduğumuzu, söhbətlərimizin bitib-tükənmədiyini, hərdən Məram bağlarına gəzintiyə çıxdığımızı, qalan vaxtlarda da onun öz hücrəsinə çəkilib duyğularını kağza köçürdüyünü görəndə daha da hiddət-

ləndilər, qapı ağzından eşidilən donqultuları qəzəb dolu qışqırtılara çevrildi. Deyirdilər, şeyximiz bizdən niyə üz çevirdi, axı hamımız əsil-nəsillikcə adlı-sanlıyıq, uşaqlıq çağlarından safıq, Rəbbimizə diləklərimiz dilimizdədi, şeyximizin quluyuq, pirimizin getdiyi yolun aşıqlәriyik, hamımız ondan kəramətlər görmüşük; deyirdilər, ondan dərs almışıq, onun sayəsində bilik sahibi olmuşuq, səxavətindən pay götürmüşük, yolumuz anlayışdan da, ağıldan da o tərəfə keçib; deyirdilər, o - padşahımız, bütün padşahların padşahıdı, bizim gördüklərimizi az adam görüb, eşitdiklərimizi az adam eşidib, o, sözləriylə gözlərimizi açıb, könüllərimizi Turi-Sinaya sarı çevirib, hamımızı öz vəəzlәriylə yetkinləşdirib, biz də başqalarının könlündə onun *Eşq*ini əkmiş, şahin kimi ova çıxmış, tapdıqlarımızı padşahımıza gətirmişik; deyirdilər, el-aləmdən onun əvvəllər də müridləri vardı, amma səyimizlə hamı öz ixtiyarını şeyximizə verdi, o, bizim sayəmizdə ad-san qazandı, dostları sevindi, düşmənləri qəhr oldu; deyirdilər, indi bu adam kimdi ki, şeyximizi irmaq saman çöpünü götürüb aparan kimi, əlimizdən alır, bizdən ayırır, həm də kimsənin yerini-yurdunu bilmədiyi necə irmaqdı ki, dağı yerindən oynatdı, şeyximizi el-aləmdən gizlətdi, artıq əvvəlki kimi üzünü görə, yanına gedə, hüzurunda otura bilmirik; deyirdilər, o adam, yəqin, ovsunuyla şeyximizi özünə bağlamış ovsunçudu, yoxsa kimdi, hansı kəramət sahibidi ki, bu cür sirlə dolu ömür sürür.

Donqultular bununla bitmirdi, deyirdilər, o kimsə Konyaya gələndən bəri şeyximiz bizi atıb, gecə-gündüz elə hey söhbət eləyir, yanlarına heç kəsi buraxmırlar, şeyximiz bizə heç iltifat göstərmir; deyirdilər, necə ola bilər ki, Sultan-ül-üləmanın oğlu olan kəs Təbrizdən gələn, kimliyi bilinməyən kimsəyə könül versin, ona görə bizə arxa çevirsin, Heç Xorasan torpağıyla Təbriz torpağı bir olarmı, əlbət ki, Xorasan torpağı daha qiymətlidi. Amma daha da irəli gedənlər, Molla Cəlaləddinlə görüşən zatın, əslində, Şəmsəddin Təbrizi, yəni, mən deyil, görkəmini

dəyişmiş Xarəzmşah Cəlaləddin olduğunu iddia eləyənlər, bunu bəzən qorxu, bəzən heyrət, bəzən də sirr havasıyla söyləyənlər də vardı. Bu rəvayətə inansaq, o yay günündə tək qalmış bahadır, yəni mən atımın başını çəkib dayanmış, üzümü arxamca sel kimi şığıyan tatarlara döndərmiş, iti qılıncımı sıyırmışdım, axırda ovçudan ova çevrilən düşmən ölülərini də qoyub qaçmışdı. Sonra nabələd olduğum Amid dağlarının ətəyində dayanmış, sonuncu zirvəmi fəth eləmək niyyətiylə atımı dəhmərləyib yola düzəlmiş, Larəndədə Bəhaəddin Vələdin oğlu Molla Cəlaləddin cildində peyda olmuş, arxasınca da dər-üs-səltənədə məskən salmışam. Həmin yol da məni, - yəni, əslində, Sultan Cəlaləddin olan Təbrizli Şəmsi, yaxud Molla Cəlaləddini - şahlıqdan, qılıncdan, qandan, dünyanın ötəri işlərindən ayırıb mənəviyyat aləminə aparıb, əbədi səadətə qovuşdurub. Fikirləşdim ki, dünyadan belə bir gözəl rəvayətlə köçmək hər Allah bəndəsinin qismətinə düşmür, bu səbəbdən, Rəbbimin seçilmişlərindən olduğuma şübhəm-filanım qalmadı.

Cahillərlə söz davasına girmək ancaq cahillərin işidi, *Haqq yoluyla* getmək də ağıl yox, ürək məsələsidi, bələdçin daim çiyinlərinin üstündəki basin yox, qəlbin olmalıdı. Bu donqultulara, qışqırtılara, təhdidlərə nə mən cavab verdim, nə də Mövlana ürəyinə saldı. Hərdən Sultan Vələd, ya da Hüsaməddin Çələbi təşviş, qorxu içində gəlir, bayırda baş verənləri çatdırırdılar: tələbələrin də qoşulduqları bir dəstə mürid biçarə Hüsaməddini Qəssablar çarşısında yaxalayıb, yaxasından yapışıb, divara dirəyib, dişlərinin dibindən çıxanı qabırğasına döşəyiblər, deyiblər, get, o soyunu-boyunu tanımadığımız, haralı olduğunu, hardan gəldiyini bilmədiyimiz şəxsə çatdır ki, özündən böyük kimsənin olmadığını güman eləyir, amma bizim ən əsil-nəsilsizimiz belə, ondan yaxşıdı; deyiblər, axı bu nə bəladı ki, onun üzündən qurduğumuz nizam dağılıb getdi, xalq Şeyximizin vəəzindən məhrum oldu, xoşbəxt taleyimiz qaraldı. Sonra Hüsaməddinə xəncər-qılınc göstərib, belə getsə, ortalığa qan düşəcəyini başa

salıblar. Bunları eşidəndə Can Dostumun sifəti kölgələndi, gözləri yaşardı, dodaqlarından *Eşq*lə dolu misralar süzüldü, dedi, ey Şəms, o cahillər *Eşq*in nə olduğunu bilmirlər, *Eşq*dən yoxsul kəslərin də əlindən hər cür pislik gələr; dedi, *Eşq məzhəbi*nin başqa məzhəblərlə oxşamadığını, *Eşq*in məhz Xudanın sirlərini açan vasitə olduğunu o zavallılar hardan bilsinlər axı; dedi, ey könlümün padşahı, bir müddət bayıra çıxma, cahillər əlindən ziyan görməyinə tab gətirə bilmərəm. Sonra Hüsaməddinə etibarlı müridlərdən seçib qapılara qoymağı, Sultan Vələdə gəlib-gedənlərə fikir verməyi tapşırdı. Məndən ötrü ölüm çox qorxulu şey deyildi, onsuz da bu yolda başımı qoymuşdum, amma hərdənbir rastlaşdığım Kərra Xatunun simasındakı əndişəni, Kimya Xatunun gözlərindəki narahatlığı sezəndə özümə yer tapa bilmirdim.

Mövlana günlərlə təşviş içində qalandan sonra dedi, ey *Məhbublar Sultanı*, bir yol göstər. Əllərindən tutdum, gözlərinin içinə baxdım, dedim, *Allah Məşuqu*nun öz *Eşq*i yolunda ölməsi – şəhadətdi, bu uca məqam mənə nəsib olsa, deməli, həqiqətən, Allahın sevimli bəndələrindənəm; dedim, könlünü bürümüş əndişələrdən qurtulmaq üçün səma eləyək, istədiyin hər şeyi səmada tapacaqsan; dedim, rübab quru dəridən, quru teldən başqa bir şey deyil, amma çıxardığı səs – *Sevgili*nin səsidi; dedim, mən Bağdadda, Şamda, Hələbdə, Qeysəriyyədə, Ərzurumda, Ərzincanda, Sivasda, ...olduğum hər yerdə aləmin pisliklərindən qurtulmaq üçün səmaya üz tutmuşam, bəzən küçələrdə zərgər çəkiclərinin taqqıltısını, dəyirman çarxını fırladan suyun şırıltısını, araba təkərlərinin cırıltısını, at ayaqlarının tappıltısını öz içimdə rübabdan qopan musiqiyə çevirib səmaya durmuşam; dedim, Allah səma məqamında öz məhbublarının gözləri qarşısında daha çox təcəlla eləyir, onlar öz varlıq aləmlərindən sıyrılır, səma da digər aləmlərdən çıxarır, beləcə, *Haqqın mərtəbəsi*nə qaldırır. Sonra səmanın şərtlərini açdım, dedim, başlıcası vəcddi, vəcdsiz hərəkət eləyən qol-qıçlar cəhənnəmdə əzab

çəkər, vəcdlə oynayan qol-qıçlarsa, mütləq cənnətə düşər; dedim, riyazət və zühd əhlinin səması mübarəkdi, gözlərini yaşardır, qəlblərini riqqətə gətirir, amma hal əhlinin səması, beş rükət namaz, ramazanda oruc tutmaq, acanda çörək yemək, susayanda su içmək kimi zəruridi, çünki onların həyatı bunun üzərində qurulub; dedim, bir səma əhli məğribdə, digəri məşriqdə səmaya dursa, bir-birinin halından xəbər tutarlar.

Səhəri gün Mövlana oğlu Sultan Vələdi çağırdı, hindivari parçadan fəracə, bal rəngli külah istədi, üstündən dümağ sarıq bağladı, rübabının tellərini dörddən altıya çatdırmağı tapşırdı, Səlahəddin Zərkubdan səma məclisi qurmasını istədi. O məqamda Səlahəddinin rənginin necə dəyişdiyini sezdi, yəqin, Mövlanaya qarşı incikliyin, mənə qarşı isə kin-küdurətin artıq qaynayıb-daşdığı məqamda camaatın arasında yan-yana, çiyin-çiyinə, əl-ələ görünməyimizin hansı çalxantılara səbəb olacağını təsəvvür eləyirdi. Amma sadiq müridi boyun qaçırmadı, yazın son günlərinin birində onun mülkünün geniş bağçasında Konyanı, həqiqətən, çalxalayan səma məclisi quruldu. Bəzilərinin indiyəcən özlərindən belə gizlətməyə çalışdıqları istək, bəzilərinin maraq, bəzilərinin də qalmaqal görmək, *"yolunu azmış, cadugər, kafir, dərviş və şeyx cildinə girmiş Şəms Təbrizi"*yə Konya seçkinlərinin necə münasibət göstərəcəyinin şahidi olmaq üçün yığışdığı o məclisdə kinlə qıyılan gözlər, qəzəblə çeynənən dodaqlar, nifrətdən qızaran yanaqlar, xəncər çəkmək üçün titrəyən əllər gördüm. Kimsəyə fikir vermədən keçib məclisin ayaq tərəfində oturdum. Hələ də Mövlananı əvvəlki mərtəbəsinə qaytarmaq istəyənlərdən biri onu məclisin başında oturtmaq, bununla mənə gözdağı vermək ümidiylə baş tərəfin hara olduğunu soruşdu. Mövlana dedi, alimlərin yeri süfrənin ortası, ariflərin yeri evin küncü, sufilərin yeri sofanın qırağı, aşiqlərin yeri dostun yanıdı, sonra gəlib yanımda oturdu. Həmin məqamda dostlarının gözgörəti darılmasının Can Dostumun *Eşq atəşi*ni necə körüklədiyini, qəlbindəki coşqunluğu nə

qədər artırdığını sezdim. Ney səslənəndə də qəfildən ayağa durdu, əllərini bir-birinə vurdu, sonra müridlərdən biriylə üzbəüz dayanıb əllərini yenə bir-birinə çırpdı, ardınca qollarını açıb çüzməyə başladı, get-gedə daha sürətlə fırlandı, axırda tamam özündən keçdi. Bütün bunlardan sonra da dişlərin qıcandığını, yumruqların düyünləndiyini, gözlərin nifrətlə qıyıldığını görüb artıq vəziyyətin təhlükə cizgisini keçdiyini dərk elədim.

Bir gün Hüsaməddinin təvəqqesiylə mədrəsənin məscidində qəzəbli dəstəyə qoşulmayan tələbələrə kərpiclə təmizlənməyin yolunu göstərirdim. Can Dostumun hüzuruna gələn fəlsəfəçilər içəri girdilər, şeyxin məsləhətiylə sual vermək istədiklərini söylədilər. İzin verəndən sonra birini o sualları ifadə eləmək üçün irəli verdilər, dedi, şeyxim, söyləyirsiniz, Allah var, amma gözə görünmür, indi siz göstərin, biz də inanaq; dedim, o biri sualını da ver, dedi, şeytanın oddan yaradıldığını, sonra da ona odla işgəncə veriləcəyini söyləyirsiniz, heç oda odla işgəncə vermək olarmı; dedim, üçüncü sualını da ver, dedi, axirətdə hər kəsin haqqını alacağını, əməllərinin cəzasını çəkəcəyini söyləyirsiniz, onda qarışmayın, qoyun hər kəs istədiyini eləsin. Cavab vermək məqamı çatmışdı, dinməz-söyləməz əlimdəki kərpici sual verənin kəlləsinə ilişdirdim, o, haray-həşir sala-sala özünü qazıya yetirdi, şikayət elədi, qazı da məni hüzuruna çağırıb cavab istədi. Dedim, məndən inanmaq üçün Allah-taalanı göstərməyimi istədi, indi də özü başının ağrısını göstərsin, biz də inanaq. Zavallı tələbənin gözləri bərəldi, çaşqın halda dedi, ağrıyır, amma göstərə bilmərəm, mən də arxayınca dilləndim ki, elə Allah-taala da var, ancaq gözə görünmür; onu torpaqla vurdum, torpaq başını ağrıtdı, halbuki, özü də torpaqdan yaradılıb; mənim kefim kərpici sənin başına vurmağı istədi, vurdum, haqqını axtarmağa ehtiyac yoxdu, çünki bu dünyada kiçicik bir məsələ üçün haqq aramaq varsa, o sonsuz axirət aləmində də olmalıdı. Nə qazı, nə də o binəva tələbə bir söz tapıb söyləyə bildi, məsələ beləcə də bitdi, durub mədrəsəyə qayıtdım.

Elə o ərəfədə də naib Şəmsəddin İsfahaninin böyük heyətlə Muğan-İdil səfərinə çıxdığını eşidib Surətimi xatırladım. Daha doğrusu, Can Dostumla xəlvətdə olduğum məqamda da, dedi-qodular, təhdidlərlə üz-üzə qaldığım günlərdə də onu heç unutmamışdım, amma o anda nədənsə lap həsrətini çəkdim, üz-üzə, diz-dizə oturmaq üçün burnumun ucu göynədi. Yəqin, *kölgəml*ə göndərdiyim xəbərləri çoxdan almışdı, aradan keçən müddətdə bir ismarışı yox idisə, deməli, məndən yenə xəbər gözləyirdi. Naib Şəmsəddinin biçarə Fatma Bacını, digər əsir bacıları Batı xanın əsarətindən qurtarıb-qurtarmayacağı bircə Allaha ayanıydı, hər halda, borcumu yerinə yetirdiyimə görə, qəlbim bir qədər rahatlanmışdı. Hətta arada vəziyyətini xəbər vermək üçün Nəsirəddin Mahmudun ziyarətinə getməyə də cəhd eləmişdim, amma xəlvətdən çıxandan nə Cəlaləddin Karatayın üzünü görə bilmiş, nə də istəyimə çatmışdım. Əlbət ki, xahişimi Can Dostuma desəydim, mənim xətrimə sultana belə ağız açacağına inamım vardı, sultanın qulluğunda olan kiçik oğlu Muhammməd Əlaəddin barədə qulağıma dəyən, üstəlik, Sultan Vələdin danışdıqları tərəddüdümə səbəb olurdu. Belə çıxırdı, Əlaəddin xidmət yerində qardaşlarla əlaqə qurub, onların sıralarına qoşulub, bundan xəbər tutan pədəri də oğlunu əməlli-başlı töhmətləyib, nəticədə aralarında dərin çatlar yaranıb. İndiki məqamda Nəsirəddin Mahmudun zindandan buraxılması üçün Mövlanaya saqqal tərpətmək düzgün çıxmazdı, beləcə, Karatayın öz vədində nə qədər dürüst olub-olmadığını gözləməyə məcburuydum. Görünür, bu məsələ naib Şəmsəddin səfərdən dönməyincə, vəziyyət aydınlaşmadıqca çözülməyəcəkdi.

Payızda Mövlananın daha dərs verməməkdə, vəəz eləməməkdə, namazlarda imamlığı öz üzərinə götürməməkdə, üstünə məsləhətə gələnləri yaxına buraxmamaqda israrlı olduğunu görən tələbələri, müridləri, üstəlik, vəəzlərinə alışmış möminlər səslərini daha da ucaltmağa, təhdidlərini sərtləşdirməyə başladılar. Hamısı açıq-aşkar qanıma susamış, məni öldürmək

üçün xəncər götürmüş, qılınc qurşanmışdı, səhərdən-axşamacan qılınc itiləyir, gecə-gündüz intiqam hissindən alışıb-yanırdı. İki dəfə yağışlı-dumanlı küçədə tək yaxalayıb dişləri qıcırdatmış, söymüş, Surətimin bağışladığı, üstünə qəhvəyi sapla kəlmeyi-tövhid və Allah kəlmələri işlənmiş sərpuşumu yerə atıb tapdalamış, bu şəhərdən rədd olub getməyimi tələb eləmişdilər. Qərarlarında qətiydilər: ya gedəcəkdim, ya da günlərin birində qaranlıq güşələrin hansındasa xəncərlə doğranmış meyitim tapılacaqdı. Kin qaynayan gözlərə, qəzəbdən od tutub yanan yanaqlara, hiddətdən büzülən dodaqlara, çılğıncasına qıcanan dişlərə, hövldən əsən əllərə baxır, zərrə qədər də qorxu hissi duymurdum, əksinə, o zavallılara yazığım gəlirdi. Çığır-bağır salanlar, coşub-daşanlar, az qala, öz qanlarını içənlər elə bilirdilər, mən Konyadan çıxıb getsəm Mövlana onlara qalacaq, əvvəlki Molla Cəlaləddin olacaq, mədrəsəyə gedəcək, minbərə çıxacaq, üləmalar məclisinin başında oturacaq, cahillərin suallarına cavab verib, müşküllərini çözəcək. Amma onun qəlbindəki *Eşq qəndili*ni elə gur yandırmışdım, bir daha öz ucalığından enmək fikrinə düşməzdi. Elə o qış günlərinin birində də beynimdəki Konyadan çıxıb getmək niyyətim qətiləşdi. Əlbət ki, bu, birdəfəlik vidalaşma olmayacaq, üstəlik, üç həqiqəti gün kimi aşkara çıxaracaqdı: əvvəla, ayrılığımız *Allah Məşuqu*nun könlündəki *Eşq alovu*nu daha da körükləyəcək, yanmış ruhunu bişirəcək, kamilliyini tamamlayacaqdı; ikincisi, tələbələri də, müridləri də, möminlər də artıq yanında olmamağımın Mövlanaya faydası dəyməyəcəyini, əksinə, onu hamıdan daha da uzaqlaşdıracağını anlayacaqdılar; üçüncüsü, uzaqdan Allahın köməyiylə yaratdığım əsərə baxacaq, əyər-əskiyini daha aydın görəcək, məqamı çatanda Konyaya qayıtmağa ehtiyac olub-olmadığını aydınlaşdıracaqdım.

Yaz başı niyyətimi Mövlanaya söylədim, dedim, bu, sənin-lə mənim aramdakı ayrılıqdı, ikimiz də *Allahın Məhbubu*yuq, *O*-nun qatında heç vaxt ayrılmayacağıq. Qərarımı eşidəndə rən-

gi dümağ ağardı, sonra saraldı, əlimdən yapışıb getməməyim üçün yalvardı, israrımı görəndə qəlbimi canyandıran qəzəllərlə yumşaltmağa çalışdı. Yazdı ki, *eşitmişəm, səfərə gedəcəksən, getmə, bir başqasının dostluğunu, sevgisini qazanacaqsan, eləmə;* yazdı ki, *bizə cəfa çəkdirəcəyini görürəm, bunu rəva bilmə, bizdən əlini üzəcəyini sezirəm, buna yol vermə;* yazdı ki, *bu evin işığı sənsən, evi işıqsız qoyma, işlərimiz yaxşı getdiyi bir vaxtda zövqü-səfamıza kədər qatma.* Göz yaşlarının izləri aydınca görünən o qəzəlləri oxuduqca yoxluğumda sonsuz əzab çəkəcəyini, əzabını yüngülləşdirmək üçün də qələmdən möhkəm yapışacağını, qəlbinin bütün hərarətini də, gizlinlərini də kağıza tökəcəyini dərk eləyirdim. Yandırdığım *Eşq odu*nu *Ayrılıq küləyi* daha da qızışdıracaq, *Həsrət atəşi* qidalandıracaq, yanan ruhunu bişirib kamilləşdirəcəkdi. Bu, Allahın təqdiriylə çıxdığım yolda Mövlananı son sınağım olacaqdı. Sınaqdan üzüağ çıxsaydı, bir müddət sonra geri dönəcək, həsrətini dindirəcək, tələbələrinin, müridlərinin, möminlərin təzyiqlərinə davam gətirməyib mollalığa dönsəydi, son mənzilimə üz tutacaqdım. Bu qərarıma Mövlanadan başqa cəmi iki şəxsi - Sultan Vələdlə Hüsaməddin Çələbi çox kədərləndi. Kərra Xatunun simasındakı məmnunluğu, Kimya Xatunun görkəmindəki rahatlığı sezib onları bir müddət xoşbəxt eləyəcəyimə görə, Allahıma şükürlər oxudum...

ON İKİCİ MƏQAM



GƏL, EY ŞƏMS!

Varlığın mənə bəs eləmədiyi halda,
yoxluğunla ovunmağa məcburam,
Ya gəl apar qalanımı,
ya da tamamla yarımçığımı.





...Yaz başının ilk gecələrinin birində, Can Dostumla həsbi-halımızı bitirib, bir-birimizə xeyirli gecə diləyib hücrələrimizə çəkiləndən sonra dərviş paltarımı geyindim, sərpuşumu başıma qoydum, başmaqlarımı ayağıma keçirdim, çoxdan hazır olan dağarcığımı çiynimə aşırıb əsamı götürdüm, səssizcə çıxdım, qapıda mürgüləyən müridlərin yanından sivişib küçənin qaranlığına qarışdım. O məqamda üzbəüz ağaclardan birinin arxasında qaraltı tərpəndi, Konayada güman olunandan çox qalsam da, Sürətimin məni unutmadığını, *kölgəm*in arxamca gələcəyini, hara getdiyimi ayırd eləyəcəyini, öz vəzifəsini dürüstcə yerinə yetirmək üçün əlindən gələni əsirgəməyəcəyini bildim. Əvvəlcə Qeysəriyyəyə üz tutmaq niyyətindəydim, sonra fikirləşdim, Mövlana sübh namazında, şübhəsiz, məni axtaracaq, qeyb olduğumu görüb müridlərini Konyanın küçələrinə, müsafirxanalarına, karvansaraylarına, təkkələrinə, şəhərdən çıxan yollara göndərəcək, Qeysəriyyəyə getdiyimdən xəbər tutub ya özü gələcək, ya da, ən azı, Sultan Vələdi, ya da Hüsaməddin Çələbini göndərəcək. Güman ki, Konayda bir qərib şeyxin peyda olduğunu, molla, müdərris, vaiz, hamının məsləhət yeri, sultanın da, Gürcü Xatunun da yaxını olan Molla Cəlaləddin Bəlxini yolundan sapdırdığını, tələbələrindən, müridlərindən, mömin bəndələrindən ayırıb, dərslərdən, vəəzlərdən, hədis məclislərindən uzaqlaşdırıb səma süzməyə alışdırdığını, tələbələrin, müridlərin, həm də Konya əhlinin nifrətini qazan-

dığını, üstəlik, təhdid hədəfinə çevrildiyini Surətim də eşidib, mənə görə əndişəyə qapılsa da, üzərimə düşən vəzifəni yerinə yetirdiyimi dərk eləyib. Bundan sonra ora getsəydim, o kütlənin kin-qəzəbini Qeysəriyyəyə yönəldər, Sürətimin üzərinə çəkərdim, böyük sıxıntıların olduğu bir vaxtdasa, bu, heç də münasib deyildi.

Küçələr geridə qalanda şəhərdən aralandığımı anladım, amma hələ hansı səmtə üz tutduğumu bilmirdim, məramım sübh namazınacan şəhərdən mümkün qədər uzaqlaşmağıydı, yolumusa Rəbbim göstərəcəkdi. Təbrizdən çıxdığım iyirmi beş il ərzində saysız-hesabsız yollar keçmişdim, könlümdəki *Allah sevgisi*ndən başqa yaraq-yasağım olmamışdı, kimsəyə əl açıb sədəqə istəməmişdim, ya əlimin, ya da beynimin əməyiylə güzəranımı yola vermişdim. İndi də qurşağımdakı kisədə bir neçə ağçam qalmışdı, məni xeyli müddət yola verərdi, dağarcığımdasa ip yumaqları vardı, bərkə düşəndə, əvvəllər olduğu kimi, belbağı hörüb çarşı-bazarda satar, çörəkpulumu qazanardım. İndi Can Dostum barədə düşünürdüm: Bəhaəddin Vələd onu bolluq içində, tox böyütmüşdü, Cənnətməkan Sultan Əlaəddin dər-üs-səltənəyə dəvət eləyənəcən Larəndədə də pis yaşamamışdılar, üstəlik, qızı Gövhər Xatunla evləndiyi Lələ Şərafəddin Səmərqəndi də Allahın səxavətlə bəxş elədiyi imkan sahibiydi. Sultan dər-üs-səltənəyə gələn Sultan-ül-Üləmanı şəhərdən bir mənzil uzaqda qarşılamış, Şəmsəddin Altunəba mədrəsəsində qəbul eləmiş, müridi olmuş, o öləndə bir həftə taxtında oturmamış, qırx gün ehsan vermişdi. Pədərindən sonra Cəlaləddinə ağıl-kamalla yanaşı, hörmət-izzət, rahat güzəran, təkkə, müridlər, mədrəsələr, tələbələr, ətəyindən yapışan möminlər dəstəsi qalmışdı. İndi Sultan Vələd çağırılan Muhammməd Bəhaəddin də validinin mirasına sahib çıxıb, yolunu davam etdirəcəkdi. Molla Cəlaləddin Gövhər Xatunu itirəndən sonra da dünyadan əlini üzməmiş, İzzəddin Əlinin dul qızı, Şəmsəddin Yəhya adlı oğul validəsi olan Kərra Xatunla evlənmişdi, bu gün-sabah daha bir

övladı doğulacaqdı. Belə həyata alışmış ailənin məni sevməməsi heç də təəccüblü deyildi. Kərra Xatunun ədəblə susması, Sultan Vələdin pədərinə sayğı göstərməsi, neçə illərdi, ailənin fərdinə çevrilmiş Kimya Xatunun duyğularını büruzə verməməsi hər şeyin öz yoluyla gedəcəyini bildirmirdi. Hələ məmləkətin günbatanında, sultanın xidmətində olan, deyilənə görə, xasiyyətdə qardaşına heç oxşamayan Əlaəddin Çələbinin baş verənləri necə qəbul eləyəcəyi məlum deyildi.

Sübh namazımı yolda, ağac altında qıldım, Günəş bir adam boyu qalxıb, ilk yolçu rast gələndə məlum oldu ki, Karapınara doğru gedirəm, ordan o tərəfə Eregli, Uluqışla, Antakyadı, Hələbə, Şama uzanan karvan yolu keçir. Fikirləşdim, Antakyayacan gedim, Hələbə, yoxsa Şama üz tutacağıma orda qərar verərəm. Bəxtimdən yaz yeni girirdi, hava ağac altında da, qaya oyuğunda da, çəpər dibində də yatmağa əl verirdi, müsafirxanalara, karvansaraylara çatmayanda fikir-xəyal eləməyəcək, rastlaşdığım münasib bir yerdə başımı atıb yatacaqdım. İndi Can Dostum, yəqin, artıq qeyb olduğumdan xəbərdar olmuşdu, heç yerdə qərar tuta bilmir, Sultan Vələdə, Hüsaməddin Çələbiyə, Səlahəddin Zərkuba, sadiq müridlərinə məni axtarıb tapmaq üçün yalvarır, kimsənin təsəlli sözlərinə qulaq asmır. Çox güman, artıq *"Molla Cəlaləddini yolundan azdıran, xalqdan aralayan, hardan gəldiyi bəlli olmayan, şəriətin qanunlarını saya almayan dərviş"*in qeybə çəkilməsi indi bütün Konyaya yayılıb, çoxları dərindən nəfəs alıb, xısın-xısın gülüb, ürəyində, ya da açıq-aşkar Allaha dua oxuyub, bəlkə də öz zəfərlərindən məmnun halda mürşidlərinin daha özünə – mədrəsəyə, məscidə, hədis məclislərinə - qayıtmasını gözləyirilər; güman ki, Kərra Xatun da qəlbində rahatlıq duyub, dünyaya gətirməyə hazırlaşdığı övladının hüzurlu şəraitdə yaşayacağından sevinib, Kimya Xatun müəlliminin ona daha çox vaxt ayıracağından məmnun olub. Amma bundan sonra nələr baş verəcəyini, Can Dostumun hansı sarsıntılarla üzləşəcəyini yalnız Sultan Vələd

açıq-aşkar dərk eləyir: *Allahın Məşuqu* məqamına çatmış zatın kütlə arasına enməsi heç ağlabatan deyildi.

Saxyatanda, İsmildə, Karapınarda rastıma çıxan münasib yerlərdə gecələdim, Ereglidə karvansaraya düşdüm, bir gün də dincəlib Uluqışlaya üz tutdum, Kösədağ uğursuzluğundan sonra təzədən baş qaldırmış ermənilərin şərindən uzaq olmaq üçün Tarsusa yaxın getmədim, ara yolla İslahiyyəyə keçdim, Diyari-Rumun hüdudlarından adladım, Kırıkxanadan ötüb bir gün də Antakyada qaldım. Ərəblərin, firənglərin, rumların gözümə çox dəydiyi, kilsələrinin çox olduğu şəhərdə rumlu karvansarayında qaldım, özümü karvansarayçıya Şama gedən tüccar kimi nişan verdim. Namazımı hücrəmdə qılıb şəhəri başmaq seyrinə çıxdım, çarşını dolaşdım, Əski körpüyə doğru sıralanmış dükanlara baxdım, Asi irmağının üstündən rumluların saldığı körpünü keçib Altun kilsəyə tamaşa elədim. Şübhəsiz, Böyük Sultan Əlaəddin dünyadan vaxtsız köçməsəydi, nə Tarsusu ermənilərin, nə də Antakyanı rumluların ələ keçirmələrinə göz yumardı. Yəqin, Sultan Qiyasəddin hey xəracdan boyun qaçıran erməni hakimin üstünə Şəmsəddin İsfahanini göndərəcək, naib asiləri dizə gətirmək üçün tədbirlər görəcəkdi. O yaz axşamı gəzintidən sonra Asi irmağının qırağında dincimi alanda Konyadan çıxdığım iki həftə ərzində Can Dostumun hansı sarsıntılar keçirdiyini təsəvvürümə gətirib qəfildən darıxdım, amma yoluma da, sınağıma da davam eləməyi qərara aldım...

***

...Hələbdən yan keçib gün yarım da Hamada qaldığımı nəzərə almasam, bir həftənin tamamında Babi-Şərqdən Şama girdim, iyirmi il əvvəl gördüklərimin izlərini axtara-axtara küçələrdən keçdim, aləmin ən qədim şəhəri sayılan, görkəmində də, havasında da anlaşılmaz cazibə olan bu məkanın anbaan içimə hopduğunu duydum. Məni Hələbdə yox, Şamda əylənməyə sövq eləyən də elə o anlaşılmaz cazibəydi, amma

indiyəcən həmin cazibənin nədən ibarət olduğunu anışdıra bilməmişdim. Əlbət ki, aradan keçən illər ərzində Şamda çox şey dəyişmişdi, tanıdıqlarımdan kimisə sağ tapacağıma gümanım yoxudu. Şeyx Mühyiddinin ölümünü Qeysəriyyədə Surətim xəbər vermişdi, onda o hikmət sahibiylə fikri çəkişmələrimizi yada salıb aramızdakı ayrılığı bir daha xatırlasam da, ruhuna dua oxumuşdum. Neçə illərdi Əyyubi məliklərinin taxt-tac naminə fasiləsiz davalarının hədəfi olan şəhər bir il əvvəl Məlik Salih İsmayılı Qəzzada yenən Məlik Salih Əyyubun əlinə keçmişdi, əmin-amanlığın nə vaxtacan davam eləyəcəyinisə, güman ki, kimsə bilmirdi. Əlbət ki, məscidlər, mədrəsələr, karvansaraylar, təkkələr, türbələr şəhəri Şamda yaşamağım çətin olmazdı, Adiliyyə, Nasiriyyə, Nəcmiyyə, Dükniyyə, Mürşidiyyə, Maqdisiyyə mədrəsələrinin birində dərs deyib güzəranımı təmin eləyə bilərdim, amma Şamda ömürlük qalacağımı heç ağlıma gətirməmişdim: hər şey Can Dostumun ayrılıq sınağına dözüb-dözməyəcəyindən asılıydı: ya Konyaya qayıdar, ya da ömrümü başa vurmaq üçün Təbrizə gedərdim. Sonra fikirləşdim, Konyaya dönsəm belə, Allahın mənə verdiyi ömrün son dayanacağı Təbrizdi, Konya yalnız İlahidən gələn borcumu yerinə yetirdiyim məkandı.

Maqdisiyyə mədrəsəsinə yaxın olan Cəbəlisalihiyyədəki İpəkçilər karvansarayında hücrə aldım, həsirimi çıxarıb sərdim, oturub kürəyimi divara söykədim, Konya-Şam yolunu dərk eləmək üçün fikrimi cəmləşdirdim. Şübhəsiz, Can Dostum məni əvvəlcə Qeysəriyyədə, Surətimin yanında axtaracaq, sonra müridlərini yaxın-uzaq şəhərlərin müsafirxanalarına, karvansaraylarına, mədrəsələrinə göndərəcək, izimi tapmağa çalışacaq, əli əlimə çatanacan da dincəlməyəcəkdi. Mənim Şama – Rəbbimizin bizi ilk dəfə üz-üzə gətirdiyi bu şəhərə qayıtmağımın səbəbi də özümə elə o məqamda ayan oldu: məhz burda qarşımı kəsib *"Ey mənalar aləminin sərrafı, məni axtar, tap!"* demiş, əlimi öpmüşdü. O ilahi məqam illər boyu mənə yuxu kimi

gəlsə də, Rəbbimiz bizi Konyaya üz-üzə gətirəndə bu aləmdə heç nəyin təsadüf olmadığına bir daha inanmışdım. İndi səbr eləyəcək, qaynayan Mövlananın bişib-bişmədiyini yəqinləşdirəcək, hər şeyi taleyin axarına buraxacaqdım. Şübhəsiz, Şama gəlməyim mənə İlahidən necə təlqin edilmişdisə, Can Dostuma da yerim elə ayan olacaq, günlərin birində Rəbbimiz bizi yenə qarşılaşdıracaqdı. Getmə dedi, əllərimdən yapışıb yalvardı, dərdini beytlərə tökdü, amma Konyada qalmağımın hər ikimizdən ötrü ölümə bərabər olduğunu da anlayırdı: göz bərəldənlərin, diş qıcayanların, söyüb-yamanlayanların, əlini xəncər-qılınca atanların qabağında uzun müddət tab gətirmək ağlabatan deyildi, üstəlik, onun gözləri qarşısında öldürülsəydim, yəqin, sarsıntıya tab gətirməzdi. Ölüm məndən ötrü qorxulu deyildi, az qala, Rəsulillahın Haqqa qovuşduğu yaşdaydım, *O*ndan uzun yaşamağımın bundan sonra heç özümə də xeyri olmayacağını bilirdim, amma Can Dostum hələ *O*na peyğəmbərlik verilən yaşdadı, yaşamalı, *Eşq yolumuzu* kağıza köçürməliydi. Bütün bunları beynimdən keçirəndə ağlıma gələnlərin gerçək olacağına zərrə qədər də şübhə eləmədim.

Artıq cismim Şamda, ruhum Konyadaydı, cismimlə ruhum bir-birinə qovuşana, bütövləşənəcən də beləcə yaşayacaqdım. Sübh namazından sonra özümü Şam küçələrinə atacaq, çarşı-bazarı dolaşacaq, məscidlərin sərinliyində, irmağın qırağında, ağacların kölgəsində dinclik tapmağa çalışacaq, axşamlar içimdəki ağırlıqdan qurtulmaq üçün hördüyüm belbağıları dəyər-dəyməzə satacaq, bir tikə çörəkpulumu çıxarıb Allahım şükür eləyəcəkdim. Neçə illər əvvəl Can Dostumun dərs aldığı Maqdisiyyə mədrəsəsinə niyə bu qədər yaxın olduğumu da bir neçə gün sonra dərk elədim: kimsə bunu İlahinin təsadüfü adlandıra bilərdi, amma mən artıq *Allahın təqdiri* sayırdım. Axşamlar kürəyimi divara söykəyib belbağı hörəndə Təbrizdən Şamadək keçən ömrümü xəyal aynamdan keçirir, saysız-hesabsız tanışlar, tələbələr, müdərrislər, yolçular, müridlər, mürşidlər, şeyxlər,

qazılar, dövlət adamları arasından könlümə yaxın olanları seçib ayırır, yaddaşımın bir güşəsində saxlayırdım. Əlbət ki, onların arasında Şeyx Əbu Bəkrin, Şeyx Övhədəddinin, Şeyx Şəhabəddinin ayrıca yeri vardı – şeyxim olmasalar da, birinin sayəsində oxumaqdan çox düşünməli, digərinin sayəsindəsə oxuduqlarıma yox, düşündüklərimə inanmalı, üçüncüsünün sayəsində *Eşq yolu* getməli olduğumu dərk eləmişdim; şübhəsiz, taleyimdə Surətimin də, Can Dostumun da yerini yəqinləşdirməkdə çətinlik çəkəcəkdim – biri məni mənə göstərmişdi, digərisə məndə özünü görmüşdü. Qalanlar – Şeyx Mühiyyiddin, Şeyx Əsədəddin, naib Şəmsəddin İsfahani kimi irfan və məqam sahibləri belə, onların dərəcəsinə yüksələ bilməmişdilər. Surətim də, Can Dostum da, yəqin, Şamda olacağımdan tezliklə xəbər tutacaqdılar – əvvəl-axır birinin *kölgə*si, digərinin *elçi*si gəlib hüzuruma yetişəcəkdi.

İki həftə sonra Can Dostuma məktub yolladım, yazdım ki, gedişimlə qəlbini yaraladımsa, qəm eləmə, ayağında tikan yarası olmayan, sinəsində gül yarası görə bilməz, günlərin birində yolları yorub mənim yanıma gəlsən, ürəyində rəngbərəng güllər açan *Eşq*lə gəl. Zənnimdə də yanılmadım: o yayın axırlarında, cümə namazından qayıdanda karvansarayın qapısında məni gözləyən sadiq müridlərindən birini gördüm. İrəli yeriyib hörmətlə bağır basdı, qeybə çəkildiyim gündən mürşidinin yeddi şəhərə yeddi mürid göndərdiyini, Ərzurumdan Bağdada, Sivasdan Hələbə, Qeysəriyyədən Malatyayacan məni axtardığını söylədi; dediyinə görə, mürşidi cismən də, ruhən də sarsılıb, nəşəsi qaçıb, içinə qapılıb, kimsəylə nə görüşür, nə də danışır, hücrəsinə çəkilib adıma namələr yazır, üzünü Rəbbinə tutub məndən bir nişanə axtarır: *"Həsəd aparan adamlar nə qədər incisələr də, sən mənə o böyük varlığın əlamətlərindən söz aç, onun üstünlüyü barədə çəkinmədən danış, onsuz da bu göy qübbəsinin altında əvvəldən bəri həsəd hissi azalmayıb. O gecə qalxdım, baxdım ki, "könül" yoxdu. Nə olduğunu, hara getdiyini, soruş-*

dum, evin hər tərəfində axtardım, amma tapa bilmədim. Sonra öz evimdən çıxdım, onu ev-ev axtarmağa başladım, nəhayət, biçarəni "Ya Rəbb! Ya Rəbi!" deyə-deyə səcdə eləyən yerdə tapdım. Dedim, görüm kimə qovuşmaq istəyir, kimə yalvarır, yalvarışına qulaq asdım, deyirdi, gizli şeylər də, aşkar şeylər də sənin qarşındadı, hər şeyi bildiyin kimi, əlbət ki, bunları da bilirsən. Mənim gizlinim içimdəki sevgi atəşim, açıq olanım ahlarım, dualarım, yalvarışlarımdı. Könül o padşahın əlamətlərini, nişanlarını hey sadalayırdı. O gecənin qaranlığımda hamının yuxuda olduğu bir vaxtda yalvar-yaxarından qalmırdı. Deyirdi, adını çəkə bilmirəm, amma o ad öd ağacından daha gözəl qoxu verir, qoxusu hər yana yayılır..." Müridin dilindən eşitdiklərim könlümü tərpətdi, gözlərimi yaşartdı, adımı çəkməklə bağlı Can Dostumun əndişələrini eşidəndəsə, varımdan yox oldum: *"Yalnız "Təbrizi" deyə bilir, ağlı başından gedib yıxılır, əfəndilər əfəndisi, comərdlik dənizi olan Şəmsəddinin adı göy üzünə nəqş olunur"*.

Başına yığışanlar Can Dostumdan təvəqqe eləmişdilər ki, özünə bu qədər zülüm eləmə, izin versən, səndən bir şey soruşmaq istəyirik. İzin alandan sonra da demişdilər, Şəms gəlməmişdən əvvəl kimsənin şübhə duymadığı kamil mömindin, xocaydın, müdərrisdin, hər şeyi bilirdin, üstəlik, Şamdakı xocan da bunu söyləmişdi, dünyada bilmədiyin bir şey qalmamışdı. Can Dostum "bəli, düz buyurursunuz" cavabı verəndə ibadətlərində əskiklik olub-olmadığını soruşmuşdular, demişdi, heç bir əskiklik yox idi. Axırda Şəmsdən nə öyrənib bu hala düşdüyü barədə sual vermişdilər. Can Dostum bir müddət susmuş, sonra köks ötürüb demişdi, bəli, dediklərinizin hamısı doğrudu, amma mən Şəmsə rast gəlməzdən əvvəl üşüyəndə isinirdim, indisə isinə bilmirəm, çünki Şəms mənə bir şey öyətdi: Yer üzündə bircə mömin belə üşüyürsə, sənin isinməyə haqqın yoxdu, mən də Yer üzündə üşüyən möminlərin olduğunu bildiyimə görə, artıq isinə bilmirəm; demişdi, əvvəllər ac olanda bir qab şorba içib

doyurdum, amma indi dünyada aclar olduğunu bildiyimə görə, yeməyin dadını da hiss eləmirəm; demişdi, Şəms mənə, bax, bunları - Kainatın fəxri olan Həzrəti Peyğəmbərimizin əxlaqını öyrətdi.

"Yüzlərlə məktub göndərdim, yüzlərlə yol göstərdim, ya yolu tanımırsan, ya məktubları oxumursan", – yazıb mənə tənə vuran, *Eşq* könlünə dolandan sonra nəyi vardısa, əl çəkən, ağlı, dərsi, kitabı bir kənara atan, amma şeirlər, qəzəllər, rübailər yazan, səmaya durub kənd uşaqları kimi oynamağı öyrənən, səbri ayrılığın hərarətindən qar kimi əriyən Can Dostumun məktubunu qasid müridin yanındaca su kimi içdim. Sevinc və həsrət qoxusu gələn, görünməz aləmdən görünən aləmə düşmüş inci dənələrini xatırladan məktubdan bildim ki, Can Dostum *Eşq yolu*ndan dönməyib, bundan sonra da itaətlə xidmətə razıdı, *"Ey Təbrizi Şəms,* – yazırdı, – *sən varlıq cahanında aşıqlərə rahatlıq verən cansan".* Məktubun axırında da bir qəzəl vardı, mənə üz tutub, *"ey könüldə nur olan zat, gəl, ey vəcdin, muradın sonu olan zat, gəl; sən bilirsən ki, bizim həyatımız sənin əlindədi, qullarını incitmə, həyatı daraltma, gəl",* – deyirdi. Axırda yazırdı, *"sən Günəş kimisən, yaxın olsan da, uzaq olsan da, birdi, ey bəndələrə yaxın olan Günəş, gəl!"* Can Dostumun misralarındakı həsrətin siqləti məni silkələdi, amma məktubdan sonra müridin yanına düşüb Konayaya qayıtmaq fikrindən çox uzaqdım, ən azı, *Yanan Aşiqin bişməyini* gözləməliydim.

Qasid gedəndən sonra payızın, sonra da qışın nəfəsini duya-duya karvansarayları dolaşdım, Konyadan gələn karvanlardan bir xəbər öyrənməyə çalışdım. Deyilənlərə görə, naib Şəmsəddin İsfahani Muğan-Şirvan, Dərbənd yoluyla İdilə, Batı xanın hüzuruna yetişmiş, əhdnaməni möhürlətmişdi. Batı xan Qiyasəddin Keyxosrova ox-yay, qılınc, börk göndərib hökmdarlığını tanımış, üstəlik, Şəmsəddin İsfahaniyə Diyari-Rumu idarə eləmək üçün öz naibi məqamı, Nizam-ül Mülk və Salah-ül Aləm ünvanları əta eləmiş, sultanı da, səltənəti də onun ixtiya-

rına vermişdi. Getdiyi yolla da geri qayıdan naib Mühəzzəbəddin Əlinin ölümüylə vəziri-əzəmlik məqamına da yiyələnmiş, çoxdan könlünü çaldığı Mahpəri Xatunla hökmü-fərma olmuş, biçarə Qiyasəddinə də Əlaiyyədəki eyş-işrət, əyləncə, ovdan qeyri bir şey qalmamışdı. Sonra vəziri-əzəm səltənətə baş qaldıran, vaxtilə Mahpəri Xatunu da, Səlcuq Xatunu da tutub Baycu Noyona təslim eləyən Çuxurova hakimi Hetumu dizə gətirmək üçün səfərə çıxımış Tarsusu mühasirəyə almış, amma mühasirə uzandığına, güclü qar yağdığına görə qalanı ələ keçirə bilməmişdi. Həmin məqamda da Əlaiyyədın binəva Qiyasəddinin ölüm xəbəri gəlmiş, Şəmsəddin İsfahani Hetumdan itaət, illik vergi, Berqama qalasını təslim eləməklə bağlı vəd alıb dər-üssəltənəyə yola düşmüşdü. Sultanın ölümünün səbəbi barədə fərqli şayiələr vardı, çoxlu içki içdiyinə görə yıxılıb başını daşa vurduğunu, saxladığı qaplanın qəfil açıq qəfəsdən çıxıb parçaladığını, Baycu Noyonun çuğullarından birinin öldürdüyünü... söyləyirdilər.

Qiyasəddinin nəşini Əlaiyyədən Konyaya gətirib əcdadlarının yanında torpağa tapşırandan sonra taxt-tac qovğaları başlamışdı. Çox sevdiyi Gürcü Xatunla yanaşı, ikisi rum qızı olan altı zövcəsi, ikisi rumlu xatunlardan, birisə Gürcü Xatundan doğulmuş üç oğlu, Böyük Sultan Əlaəddindən miras aldığı, fərasətsizliyi sayəsində tatarlardan asılı vəziyyətə saldığı, indi rumlulardan, əyyubilərdən, ermənilərdən belə, təhlükə gözləyən səltənət qalmışdı. Bəziləri Gürcü Xatundan olan yeddi yaşı vəliəhd Əlaəddin Keykubadın taxta çıxmasını məqbul saymırdılar, onlara görə, taxta çıxmaq Konyalı rum keşişinin qızı Bərdiyyə Xatundan doğulmuş on yaşlı İzzəddin Keykavusun haqqıydı. Rum əsilli cariyənin dünyaya gətirdiyi Rüknəddin Qılınc Arslanın adı bu qovğada çəkilmirdi, görünür, səbəb validəsinin əsil-nəcabətsiz olmasıydı. İzzəddinin taxta çıxacağına, Bərdiyyə Xatun sayəsində rumların nüfuzunun artacağını söyləyənlər də vardı, onlara görə, Gürcü Xatun olmasaydı, elə

Qiyasəddinin zamanında da pis münasibət görməz, səltənətdə əcəmlilərin öz yerlərini möhkəmlətmələrinə yol verməzdilər. Vəziri-əzəm də Mahpəri Xatun, Cəlaləddin Karatay, Şəmsəddin Xasoğuzla məsləhət-məşvərət eləyib İzzəddini taxta çıxarmağı daha məqbul saymışdı. Bu, ya rum əsilli Mahpəri Xatunun, ya onunla eyni qandan olan Cəlaləddin Karatayın niyyəti, həm də Əlaəddin taxta çıxanda Gürcü Xatun tərəfdarlarının güclənəcəyiylə bağlı qorxunun nəticəsiydi. Vəziri-əzəm dərhal İzzəddinin məlik olduğu Uluborluya çapar göndərib atabəy Ustaddar Mübarizəddin Ərməğanşaha onu Ağşehir tərəfə, Altıntaşa gətirilməsini əmr eləmiş, özü də başının dəstəsiylə yola çıxıb elə o kənddəcə İzzəddini taxta çıxarmış, sağında Rüknəddini, solunda da Əlaəddini oturdub adına xütbə oxutmuşdu.

Ardınca vəziri-əzəm məliklərə, subaşılara, hakimlərə fərman göndərib İzzəddin Keykavusun hökmdarlığını elan eləmişdi. Üç gündən sonra yeni sultanın qəfiləsi Konyaya dönmüş, culus bayramı başlamış, Mahpəri Xatunla əl-ələ verən Şəmsəddin İsfahani hökmdarın adından fərmanlar çıxarıb, səltənətdəki ən vacib məqamlara sədaqətli adamlarını yerləşdirmişdi. O günlərdə mürşidinin daha bir məktubunu gətirən qasid mürid Can Dostumun səltəntdə baş verənlərə maraq göstərmədiyini, günlərlə hücrəsindən çıxmayıb könül çırpıntılarını vərəqlərə töküdüyünü söyləyəndə artıq geri dönüş təhlükəsinin qalmadığına əmin oldum: daha *Xamuş* yox, *Allahın məhbubu Mövlana*ydı, az sonra bunu hamı anlayacaqdı. Konyada dünyayla bağlarını qoparmaq üçün Can Dostumu cürbəcür sınaqlardan keçirdiyim barədə gözəl rəvayətlər də dolaşırmış. Guya, günlərin birində onun mədrəsənin həyətində, hovuzun kənarında kitab oxuduğunu görüb pədərinin "Maarif"i, Əttarın "Əsrarnamə"si də aralarında olmaqla bütün kitabları hovuza atdığımı, Can Dostum təlaşa düşəndə əl atıb hər ikisini suyun içindən çıxardığımı, silkələyib qupquru halda geri verdiyimi, hətta onu meyxanaya göndərdiyimi, hamının gözləri qarşısında şərab aldırdığımı da

söyləyirlərmiş. Amma onun artıq bu cür sınaqlara ehtiyacı olmadığını o qafillər bilmirdilər.

O günlərdə də dər-üs-səltənəyə tatar xanından elçi gəldiyi, Sultan İzzəddini Quyuk xanın taxta çıxma mərasiminə dəvət elədiyi barədə xəbərlər dolaşırmış. Bunun Qiyasəddinin sayəsində dəvətdən çox tələb, hətta məcburiyyət olduğunu hamı dərk eləyirmiş. Amma vəzir-əzəm Şəmsəddin İsfahani ağıllı adamıydı, sultanı uzaq, uzunmüddətli, təhlükəli, həm də sonu bəlli olmayan səfərə göndərməzdi, bu, səltənətin məhvinə gətirib çıxarar, pusquya yatıb fürsət gözləyən rumların, ermənilərin, əyyubilərin iştahını artırardı. Elə elçiylə razılaşıb Quyuq xanın hüzuruna atabəyi Bəhaəddin Tərcümanla şahzadə Rüknəddinin göndəriləcəyini eşidəndə hamı vəzirin həm səltənəti, həm də səltənətin nüfuzunu qoruma bacarığına əhsən deyib. Hətta Mahpəri Xatunla da aralarında çox məhrəm bağ olduğu artıq aşıq-aşkar söylənirmiş. Deməli, vəzir Şəmsəddin İsfahani çağının başlandığını söyləmək olardı, bundan sonra, güman ki, səltənət məqamlarında olanların bir çoxu öləcək, öldürüləcək, zindanlara atılacaqdı. Səltənət – özü sağ qalmaq üçün daim başqalarını göz altında saxlamaq, məqamı çatanda aradan götürməkdi, belə ortamda könlü təmiz saxlamaq ağlasığmazdı. Əlbət ki, Qiyasəddinlə aralarında böyük *Eşq* olduğu söylənən Gürcü Xatun da sağ qalmaq üçün kiməsə arxalanacaq, kimdəsə dayaq tapacaqdı – bu, yasamın qanunuydu.

Daha bir qasid müridi cavab məktubuyla Konyaya yola salandan sonra hücrəmə çəkilib düşüncələrin pəncəsində çırpındım. Dər-üs-səltənədən uzaqlaşıb, qəsdimə duran müridlərdən, kütbeyin *"möminlər"*dən ibarət o imansız dəstədən qurtulduğuma görə, Allahıma şükür elədim, amma müridin söylədiyinə görə, düşmənlərimin də oxu daşa dəymişdi: mürşidləri hamıdan uzaqlaşmış, həbiblərilə dostluğu kəsmiş, beləcə, sevgi quşu yuvalarından uçmuş, istəkləri hasil olmamışdı. Elə bilirdilər, mən Konyadan çıxsam, mürşidləri onlara qalacaq, əvvəl-

lki kimi, barını dərəcək, şəkərini dodaqsız-damaqsız soracaq, gözəl nəsihətlərini eşidəcəklər. Fikirləşirdilər, quştək qəfəsdən uçacaq, onun yardımıyla pərdələri yırtacaqlar, amma hesablarında yanıldılar, nə əvvəlllər duyduqları yaxınlıqları, nə könüllərinin hörüb-toxuduğu parçanın ölçü-biçisi qaldı. Müridin söylədiyinə görə, günahlarını anlayıb təəssüf eləmiş, tövbəyə durmuş, demişdilər, ey Allah, bizi bağışla, kor olduq, onun qədrini bilmədik, o, yol göstərən, biz yolçu imişik, təqsirimizdən keç, ya Rəbb, o pirin könlünə rəhm gətir, qoy günahımızdan keçsin; demişdilər, İlahi, çəkdiymiz qəhrdən əlif kimi dümdüz qəddimiz dala döndü, ah-fəğan eləyirik, gözlərimizdən yaş sel kimi axır. Əlbəttə, dilcavabı da, məktubumla da Konyaya dönəcəyimlə bağlı Can Dostuma bir cınqı ümid belə verməmiş, əksinə, qayıdışımın mümkün olmadığını, canının da, ailəsinin də, ətrafının da əmin-amanlığı üçün dönmək barədə düşünmədiyimi də dilcavabı söyləmişdim. Şübhəsiz, bütün bunlar onun *Eşq atəşini* daha da alovlandıracaq, israrlarını artıracaqdı...

***

...Təxmin elədiyim kimi, Can Dostum təskinlik tapmamışdı, qəzəllərlə süslənən məktubları hər ay gəlib mənə yetişir, könül simimi ehtizaza gətirdi. Onun atəş, eşq, dua, yalvarış dolu sətirlərindən ruhundakı sarsıntıları duyurdum. Xəstəliyinin də, sağlığının da əlimdə olduğunu, məndən mədəd istədiyini, ancaq məni arzuladığını yazırdı. Payızın axırlarında aldığım dördüncü məktubusa, qəlbimi yerindən oynatdı. Mənim tilsimlərimdə Rəbbimizin qəribə xəzinələrinin gizləndiyini, qeyb olduğum gün mum baldan ayrılan kimi, zövqdən ayrıldığını, gecələr şamtək yandığını, oduyla dostlaşdığını, balındansa məhrum olduğunu, camalımızın ayrılığıyla cisminin viran qaldığını, canının da bayquş kimi uladığını yazır, üzümü ona sarı çevirməyimi iltimas eləyirdi. Mən qeybə çəkiləndən Can Dostum səmaya durmamış, zövqü də, əyləncəni də şeytan kimi daşa

tutmuşdu, məktubum əlinə çatanacan da dilinə qəzəl gətirmir, yalnız oxuyub xəbərdar olandan sonra beytləri bir-birinin ardınca düzürmüş. Qasid müridin dediyinə görə, onun get-gedə daha da adamayovuşmaz olduğundan əndişəyə düşən dostları, müridləri, tələbələri, məsləhətlərinə ehtiyac duyanlar qapısında tövbə üçün növbəyə durmuşdular, Can Dostum da mənim qayıtmağım şərtilə hamısını bağışlamışdı. Güman ki, qayıtsam, onlarla ülfətini kəsməyəcəyini, mədrəsəyə, məscidə, məclislərə dönəcəyini düşünürdülər, amma artıq o *Allahın Məhbubu*nun bişdiyinə əmindim, daha yetdiyi *Eşq Məqamı*ndan enə, başqalarının qələmə aldığı kitabları oxuya, ömrünü dərslər, söhbətlər, vəəzlərlə keçirə, məclislərdə hədislərdən feyz almaqla özünü bəxtiyar saya bilməzdi. Cavab məktubumda Can Dostumun iztirablarından təsirləndiyimi, Allah nəsib eləsə, bir də görüşəcəyimizi yazıb az da olsa, ümid vermişdim.

Şamda olduğum o günlərdə ayaq tutub yeriyən şayiələrdən biri də buymuş ki, guya, mənim Konyadan getməyimi Can Dostum istəyib, deyib, dörd qanadları olsa belə, iki quş birgə uşa bilməz, məni burax, qoy tək uçum, mən də ona haqq verib Konyadan çıxmışammış, Can Dostumsa zorən inzivaya çəkilib, günlərin birindəsə bazarda huşu başından çıxıb, huşsuzluq içində səma süzübmüş. Başqa bir şayiə də tatarların adamı kimi Qaraqoruma, Taliqanda keçirilən gənəşə getməyim idi. Hətta deyirdilər, məni Konya tərəflərə Ögedey xan göndəribmiş, indi də onun taxtında oturan Quyuk xanın əmrlərini yerinə yetirəcəyəm. Amma o gənəşə Bəhaəddin Tərcümanın şahanə xələtlər, atlar, bəxşişlər aparıb şahzadə Rüknəddin Qılınc Arslanla getdiyi, üstəlik, vəziri-əzəm Şəmsəddin İsfahaninin məlikə Mahpəri Xatunla evlənib məqamını daha da möhkəmlətdiyi barədə xəbərlər gəlib Şama da çatmışdı. Deyilənlərə görə, Gürcü Xatun da Cəlaləddin Bəlxi, Sədrəddin Konəvi, Müinəddin Pərvanəylə gizli ünsiyyət saxlayırdı, güman ki, niyyəti İzzəddini taxtdan salıb yerinə oğlu Əlaəddini çıxarmağıydı.

O ərəfədə də rastıma Maqdisiyyə mədrəsəsinin tələbəsi Müslihiddin Bağdadi çıxmışdı. Günlərin birində elə Can Dostumun ilk dəfə rast gəldiyi meydanda qarşımı kəsmiş, əlimi öpüb özünü nişan vermişdi: Şeyx Övhədəddinin sadiq müridinin oğluymuş, məni Bağdadda görübmüş. Onda yeddi-səkkiz yaşında olduğunu nəzərə alsaq, cəmi-cümlətanı bir neçə kərə gördüyü kəsi, az qala, iyirmi ildən sonra necə tanıdığına heyrət eləyə-eləyə boy-buxununa, ədəb yağan simasına, ağıl fışqıran gözlərinə baxdım, ruhi sarsıntılarımın ərşə qalxdığı vaxtda onu Allahın lütfü sayıb könlümün qapısını araladım. Müslihiddin məni daha çox gözləriylə yox, qəlbiylə tanıdığını, görəndə ürəyinin sinəsindən çıxmaq istədiyini, qəbul eləyərəmsə, ömrü boyu müridim olacağını söylədi, dedim, ey Allahın sevimli bəndəsi, mən bu vaxtacan nə şeyx axtarmışam, nə mürid olmuşam, bundan sonra da nə şeyxlik iddiasına düşəcək, nə mürid qazanmağa çalışacağam; dedim, mənim təriqətim *İlahi Eşq,* şeyxlərim *Allahın məhbubları*, müridlərim *Eşq yolçuları*dı, sən də o yolun yolçusu olmağa meyillisənsə, yol göstərmək Allahın təqdiriylə boynumun borcudu; dedim, amma xəbərin olsun, bu yolda dünyanın nemətlərindən uzaq durmaq, *İlahi Eşqə* kitablarda oxuduğun kəlamlarla yox, Allahın təlqin elədiyi düşüncələrlə çatmaq, çətin sınaqlarla üzləşmək var, bütün bunlara dəyanətin çatacaqsa, buyur. Müslihiddin gümanımı yanıltmadı, o gündən *İlahi eşq yolu*na ürəklə qədəm qoydu, mədrəsədən karvansaray hücrəsinə köçdü, yanımdan aralanmadı. Can Dostumun qasid müridi son məktubunu gətirəndə də Müslihəddin yanımdaydı, yazılanı oxuyub üzümü Konyaya sarı çevirdiyimi duyanda varından yox oldu.

O payız Şama təkcə boz havaları, küləkləri, yağışlarıyla yox, həm də Can Dostumun dözülməz intizarıyla gəlmişdi. Hava küçələri, çarşı-bazarı, meydanları dolaşmaq üçün əl verməyəndə ya hücrəmdə oturur, ya da Müslihiddinlə karvansarayın iç həyətində var-gəl eləyə-eləyə söhbətə dalırdıq. Müs-

lihiddin birinci həddi keçmişdi – dünya malından əl çəkmişdi: onsuz da validinin ölümündən sonra Bağdaddan quru canını götürüb çıxmış, neçə il Şam küçələrində ehtiyacı olanlara ərzi-hal yazmaqla güzəranını təmin eləmiş, sonra mədrəsəyə üz tutmuşdu. İndi başqalarının sözlərini oxumamağa səy göstərirdi, bu səyində nə qədər müvəffəq olacağı Allahdan başqa kimsəyə ayan deyildi. O günlərin birində karvansarayın buyruqçusu qapını döyüb müsafirimin olduğunu xəbər verdi, yenə Can Dostumun qasid müridinin gəldiyini düşünüb hövllu-hövllü özümü bayıra atdım, qarşımdan Sultan Vələdi görəndəsə iqtidarımın əldən getdiyini duydum. O, irəli yeridi, ədəblə baş əydi, dedi, ey Mövlana Şəmsəddin, pədərim buyurdu ki, tez özünü Şama yetirib filan karvansaraya gedərsən, o karvansarayda Şəms Təbrizi Həzrətlərinin bir gənclə söhbət elədiyini görəcəksən, o gəncə yuxarıdan-aşağı baxma, Allah-Taalanın sevdiyi övliyanın yadigarlarından biridi, salam-duamı Can Dostuma çatdır, düşdüyüm bu vəziyyətimi, həsrətimi təsvir elə, tez özünü mənə yetirməsi üçün dilə tut. Sultan Vələd Konyadan getməyimə səbəb olanların tövbə elədiklərini, mürşidlərindən üzr dilədiklərini söylədi, üstəlik, həsrət, sevgi, şeiriyyət qoxulu məktubunu da verdi. Məktubu oxuyanda iqtidarım tamam əldən getdi, dedim, Rəsulillah tövrlü və əxlaqlı Mövlananın arzusu kafidi, onun sözündən, istəyindən çıxa bilmərəm, çünki bizim məqamımız Eşq, üsulumuz ədəbdi, qapımızı yox, qəlbimizi döyənlərin quluyuq.

Böyük dəstəylə gəlmiş Sultan Vələdi karvansarayda yerləşdirmək o qədər də asan olmadı, müridlərin xeyli qismi mürşidlərinin xətrinə axurlarda belə yatmağa razı oldular. Biçarə Müslihiddin ümidsizliyə qapılmış, Konyaya qayıtmaq qərarım onu varından yox eləmişdi. Sultan Vələdlə doyunca söhbətləşib, səhər erkəndən yola çıxmaq niyyətiylə hücrəsinə yola salandan sonra gəldi, əllərimdən yapışıb göz yaşı tökdü, onu da özümlə aparmağım üçün israr elədi, dedim, ey Allahın sevimli

bəndəsi, səni Konyaya apara bilmərəm, çünki Can Dostumun yanında olanda diqqətimdən uzaq qalarsan, bunu da özümdən ötrü ayıb sayaram, ya da başıma bir iş gəlsə, sərgərdanlıq yoluna düşərsən, bu səbəbdən, Şamda qal, istəsən, Bağdada qayıt, oxumamaq, ancaq düşünmək hüdudunu keçəndə susmağı, sükutla çox şeyi söyləməyi, könlünlə İlahi dərgahına ucalmağı öyrən; dedim, bunun da öhdəsindən gələndə *Allahın Məhbubu*na çevriləcəksən. Biçarə Müslihiddin məni yalvar-yaxarla yola gətirə bilməyəcəyini anlayıb, göz yaşları içində hücrəsinə üz tutdu, o gecəni yuxuya gedə bilməyib Konyaya dönməkdə nə qədər düzgün addım atdığımı götür-qoy elədim. Əlbət ki, qəsdimə duranlarının hamısının peşman olduğuna inanmırdım, pusquya yatıb məqamlarını gözləyənlər, Can Dostumun öz yolundan dönmədiyini görəndə nifrət oxlarını mənə çevirənlər tapılacaqdı. Amma onun həsrəti mümkün təhlükədən daha böyük idi – bunu gözardı eləyə bilməzdim...

***

...Səhər namazından sonra qəfiləmiz karvansaraydan çıxdı, Şamın küçələrindən keçib üzü quzeyə doğru yol başladı. Biçarə Müslihiddin darvazadan uzaqlaşıb yola düzələnəcən yanımca gəldi, ona ürək-dirək verib geri qaytarmaq o qədər də asan olmadı. Şamdan çıxanacan Sultan Vələdə yanaşı yerimişdik, biçarə Müslihiddinlə vidalaşandan sonra məni zor-xoş ata mindirdi, özü də yanımca ayaqla getdi. Amma ən böyük çətinliyim qabaqdaydı: Sultan Vələdin iyirmi nəfərlik qəfiləsinin içində özümü rahat hiss eləmir, darılırdım, bu səbəbdən, dedim, siz bir mənzil irəli gedin, mən də arxanızca gələrəm. Can Dostumun müridləri bu sözlərimdən başqa məna çıxarıb dedilər, yoxsa yanınızda olmağımız sizi narahat eləyir? Demək istədim ki, daim özünüzlə cəngə girirsiniz, nəfsləriniz dipdiridi, amma narazılıq yaranacağını fikirləşib onların rahatlığını düşündüyümü söylədim. Müridlərsə əl çəkmədilər, dedilər, "onu eləmə, bunu eləmə,

onu danışma, bunu danışma" söyləmək niyyətindəsinizsə, belə çıxır, niyazlarımızı da boş söhbət sayırsınız. İsrarla dedim, bir mənzil arxanızca gəlsəm, naşı heyvan sahibiləriylə istədiyim kimi bazarlıq eləyə, istədiyimi yeridə bilərəm, könlümə düşəndə də bir güşədə enib dincələrəm. Bununla da razılaşmadılar, dedilər, necə ola bilər ki, biz bir mənzil irəli gedək, siz on mənzil geri qalasınız. Vəziyyəti belə görüb gözümün ağrıdığını bəhanə gətirdim, dedim, bu, məndən asılı deyil, qeyb aləmindən gələn şikəstlikdi, siz gedin, məndən ötrü Mövlananın məktubu kifayətdi. Bundan sonra da Sultan Vələd daş atıb, başını tutdu, dedi, onda pədərim qəzəblənib deməzmi, ay axmaq, ay eşşək, ay ağılsız, mən sənə o zatı gətirməyə göndərdim, bir halda ki, getdin, tapdın, o gözünün ağrıdığını söylədi, sən də orda gözləməli, qulluğunda durmalı, əhvalı yaxşılaşanacan yanında qalmalıydın. Sözlərindən bu gözəl bəhanələri yenə qeyb olmamağım üçün pədərinin öyrətdiyini başa düşdüm.

Bir mənzil qət eləyəndən sonra Sultan Vələdə dedim, ata minsin, amma qulaq asmadı, iki mənzil getdik, yenə razı olmadı, üç mənzil ötdük, daş atıb başını tutdu ki, sultanın yanında xidmətçinin ata minməsi, bizcə, yaxşı çıxmaz. Beləcə, məni ədəbi, biliyi, sevgisiylə ilk gündən heyrətləndirən Sultan Vələd atımın yüyənindən tutub piyada yeridi. Karvansaylarda, müsafirxanalarda, aşxanalarda nəzərlərinin üzərimdə olduğunu, beynində şübhələr dolaşdığını, arabir mənə olan inamının sarsıldığını duyurdum. Adımı eşidən şeyx yanıma gəlib salam verirdi, kamal aləmində sorağını almadığıma görə, etina göstərmirdim, amma sonra rastımıza çıxan iddiasız gəncin salamını könül rahatlığıyla alır, iltifatımı əsirgəmirdim, Sultan Vələd də bundan şübhələnir, mənə olan inamı sarsılır, güman ki, gözümdən oğurlanıb öz-özünü dara çəkir, tövbə eləyir, təzədən atımın yüyənindən yapışırdı. O məqamlarda fikrimdən dönə, hər an atımın başını döndərib Şama qayıda biləcəyim ehtimalı onu əməlli-başlı əndişələndirir, beləcə, yoluna bir müddət müsəlman, bir müddətsə

kafir kimi davam eləyirdi. Əlbəttə, Sultan Vələdin şübhələrindəki haqlı məqam hələ Can Dostumun müridlərinin, Konya əhlini tam tövbə eləmələrinə inamımın olmamasıydı.


Sultan Vələd dincəlmək üçün dayandığımız məqamlarda şübhələrimi aradan qaldırmaq üçün hamının tövbə eləyib, günahları müqabilində üzr istədiklərini, könül gözləri kor olduğuna görə qədrimi bilmədikləri, yolgöstərən olduğumu anlamadıqları üçün tövbəyə durduqlarını söyləyirdi. Deyiblər, indi göz yaşlarımız selə döndüyündən, gözlərimiz belə sizi görmür, biz cisimdən ibarətik, ruhumuz sizsiniz, ey ruhumuz, bu dənizlərdə əlimizdən tutun; deyiblər, sizi öldürən qılıncsız-filansız bizə də hücum elədi, qəflətdə olduq, səfehliyimiz ucbatından *Allah aşiqi*nə çox pisliklər elədik, söydük, qeybətini qırdıq, diş qıcadıq, əl qaldırdıq, xəncər-qılınc çəkdik, indi əməllərimizdən peşmanıq, artıq bizi bağışlayın, ayrılığa son qoyun; deyiblər, dönə-dönə tövbə eləyirik, bundan sonra bir daha bu cür qəflətə yol versək, dərhal cəzamızı verin, indisə qanmazlığımız üzündən günah işlədiyimizi nəzərə alıb tövbəmizi qəbul eləyin. Gecə-gündüz fəryad eləyə-eləyə bu cür sözlər söyləyiblər, Can Dostum da axırda yalvar-yaxara tab gətirməyib, bel bağladığı oğlunu Şama göndərib. Sultan Vələdin ağzından incilər tökməsi, danışdığı məqamda aləmin sirlərinə baş vurması, göylərdə qolsuz-qanadsız süzməsi, cisimsiz ərşin ətrafında dolaşması qəlbimi riqqətə gətirir, qayıdışımın düzgün olub-olmamasıyla bağlı şübhələrimə son qoyurdu. Bu məqamdan sonra geri dönüşdən söz gedə bilməzdi, Can Dostumun qəhrinə "baş üstə" demiş, başımı da Rəbbimə eşqimin yolunda qoymuşdum, bundan sonrası da Allahın təqdirindən aslıydı. Konyaya yaxınlaşanda öz-özümə dedim, gəldim, ey sevgili, səndən başqa nə varsa, sahilsiz dənizlərə töküb gəldim, dilimdə dua kəfənimi vüsalına cehiz sayıb gəldim, Eşqin dəmgahında odu alovlandırmaq üçün nəyim varsa, yox sayıb gəldim.

ON ÜÇÜNCÜ MƏQAM

Konya

QEYBDƏN ƏVVƏL

Gəncliyimdə axtardığımı
qocalığımda tapdım, neyləyim,
Ya mən erkən gəldim,
ya sən vüsala gecikdin, neyləyim.





...Qarapınarda Sultan Vələd pədərinin hüzuruna qasid göndərdi ki, şəhərə varid olacağımız vaxtı xəbər versin. Üç həftəlik yolumuzdan sonra təkcə mən və Can Dostum yox, bütün Konya əhli sonsuz intizarla gözlədiyi bu vüsaldan öz nəsibini alacaqdı. Səhəri gün günorta namazından sonra qəfiləmiz şəhərə çatmamış hər tərəfin dolu olduğunu, hamının yolumuzu gözlədiyini gördüm. Can Dostum camaatdan ayrıldı, qaça-qaça qabağıma gəldi, atımın yüyənindən tutdu, nəzərlərimiz bir-birinə sataşanda onun bişdiyini, amma bu vüsalın sonunda yenə də təhlükələr qaldığını sezdim. Can Dostum atdan enməyimə yardım elədi, gözlərindən yaş axıda-axıda əllərimdən doyunca öpdü. O məqamda hafizlər şükür duası oxudular, sonra müridlər, tələbələr, cürbəcür zümrələrdən olan möminlər əlimi öpüb, alınlarına qoydular. İplikçilər mədrəsəsindəki hücrəmdə şükür namazı qılandan sonra yenə könül qapılarımızı açıb, məna ümmanına baş vurduq. Can Dostum həsrətdə keçən günlərindən danışdı, mən Sultan Vələdin ədəbini, hörmət-izzətini, yol boyu göstərdiyi qulluğu öydüm, dedim, bir sərim, bir də sirrim var, sərimi sənə fəda elədim, sirrimi də Sultan Vələdə verdim; dedim, Sultan Vələdin min il ömrü olsa, hamısını da ibadətdə keçirsə, ona verdiyim sirrə, yəni övliyalıqda ucalmasına səbəb olduğum səviyyəyə çata bilməz. Can Dostum da

Sultan Vələdə çox ümid bəslədiyini, məmləkətin günbatanında, sultanın xidmətində olan oğlu Əlaəddin Çələbinin qayıtdığını, Kərra Xatunun da dünyaya qız övladı gətirdiyini söylədi.

Dər-üs-səltənədə müəyyən məqamlarını hələ Şamda eşitdiyim xeyli hadisələr baş vermişdi. Vəzir Şəmsəddin Fatma Bacını da, əsirləri də Batı xanın cəngindən qurtara bilməmişdi, görünür, xan hələ sultana tamam bel bağlamırdı. Əlbət ki, Fatma Bacının, digər bacıların əsirlikdən qurtulmadığına bir daha çox kədərləndim, vəziri-əzəm Şəmsəddinin bundan sonra Nəsirəddin Mahmudu zindandan buraxmaq niyyətinə düşüb-düşməyəcəyi müəmmalıydı. Ola bilsin, Cəlaləddin Karatayın bacarmadığını Şəmsəddin İsfahani bacaracaqdı, sultanın əvəzindən məmləkəti idarə eləyəcək zat istəsəydi, onu günü sabah buraxardı, amma görünür, ortada mənim xəbərdar olmadığım mətləblər vardı. Can Dostumun dediyinə görə, Cəlaləddin Karatay əvvəl sultandan, sonra da vəziri-əzəm Şəmsəddindən xeyir-dua alıb mədrəsə tikdirməyə başlayıb, könlündən Mövlananın da o mədrəsədə dərs deməsi keçir, bilmir ki, *Allahın Məhbubu* daha o məqamdan çox uzaqdı.

Camaat elə bilirdi, mən Mövlananın yanına qayıtdığım kimi, Mövlana da onların sırasına dönəcək, günlərini kitab oxumaqla keçirəcək, yenə dərs deyəcək, vəəz eləyəcək, məsləhət, öyüd-nəsihət verməklə məşğul olacaq, amma hücrəmizə çəkildiyimizi, yanımıza Sultan Vələddən, Səlahəddin Zərkubdan, arabir də Hüsaməddin Çələbidən başqa kimsəni buraxmadığımızı görəndə donqultular, qeybətlər, dişqıcırtmalar təzədən başladı. Sultan Vələdlə çatdırmışdılar ki, mürşidimizin sarsıntılarına dözə bilmədik, Can Dostunun qayıtması üçün əlimizdən gələni elədik, ayağına yıxıldıq, dönə-dönə üzr dilədik, gərək şeyximiz də bizim könül çırpıntılarımızı eşitsin, onun söhbətlərinə, vəəzlərinə, öyüd-nəsihətlərinə nə qədər ehtiyac duyduğumuzu bilsin. Bir dəfə də Səlahəddin Zərkubla Sədrəddin Konə-

vi gəlmişdi, mən Şamda olduğum müddətdə Can Dostumun keçirdiyi iztirabları, Sultan Vələdin Qarapınardan göndərdiyi qasid müridə necə bəxşişlər verdiyini, sevincdən özünü itirib ağzından incilər səpələdiyini nağıl elədilər. O, məni hətta payızın sonunda bahar qoxusuna oxşatmış, göyün yerə endiyini, cahanda vəlvələ qopduğunu, bir anda bağların cana gəldiyini, könlündə dərd-kədər qalmadığını misralara düzmüşdü, demişdi, sən tezliklə yanımıza gəlirsən, ey Şəms, bizsə ancaq susmağı bacarmışıq, canım gözəl gözlərin üçün pusqudadı, rahatlığım pozulmuş, yuxum gözlərimdən iraq düşmüşdü, indisə o gözəl gözlərin sahibi yola çıxıb, gəlir. Bu vəsfi eşidəndə istər-istəməz gözlərimdən riqqət yaşı axdı.

Beləcə, Can Dostum müridlərin, tələbələrin, möminlərin arasına qayıtmadı, dərs otağına girmədi, minbərə çıxmadı, hədis məclislərinə getmədi, əksinə, mədrəsənin ən böyük hücrəsində gəlişim şərəfinə səma məclisi düzəltdi. Onsuz da mən qeyb olanda əvvəllər geyindiyi əbasını hindbari parçadan tikdirdiyi fəracəylə əvəz eləmiş, başına bal rəngli külah qoyub, üstündən dümağ sarıq dolamış, dördtelli rübabını dünyanın altı qütbünə oxşadıb altıtelli eləmişdi, mən dönəndən sonra da nə görkəmini dəyişdi, nə də səmadan əl çəkdi. Onun istəyinə qarşı çıxmadım, məclisdən sonra nifrət oxlarının təzədən üzərinə tuşlanacağını bilsəm də, daha taleyin çarxını nə Can Dostum geri döndərmək fikrindəydi, nə də mənim belə bir istəyim vardı. Səlahəddin Zərkub irəli durdu, Sultan Vələdin, bir də Hüsaməddin Çələbinin köməyiylə səma məclisinin baş tutması üçün əlindən gələni elədi. Can Dostum da məclis əhlinə dedi, səma - könüldəki gizli ərlərdən salamdı, onları salamı yetişəndə qərib könül dincəlir, rahat olur, ağlın budaqları görünməmiş yellə tərpənir, bədən genişlənir, rahatlanır, hüzur tapır, cismdə qəribə, ağlagəlməz həzz peyda olur; dedi, neydən çalğıçının dilinə, dodaqlarına şəkər kimi şirinlik süzülür, canımız ruhumuzdan üfürülən

ruhla dirilir, o şərabı içən bədən, o şərabdan məst olan könül ayrılıq atəşində yanıb-qovrulur, tamam bişir; dedi, səmaya girdinmi, iki dünyadan da kənara çıxırsan, çünki səma aləmi mövcud olan ikidən də kənardadı, göyün yeddinci qatısa çox ucadadı, amma səma nərdivanı o damdan da yuxarı qalxır, səma sizin malınız-mülkünüz, siz də səmanın malı-mülkü olursunuz.

Sonra əlimdən yapışdı, dedi, dinlə, gör bu ney necə şikayət eləyir, ayrılıqlardan necə söz açır, bəs, *Eşq* qollarını boynuma dolasa, mən biçarə onu səma rəhnində qucaqlayıb bağrıma basmaqdan başqa neyləyə bilərəm; dedi, zərrələrin ağuşu Günəş işığıyla doldumu, hamısı neyin səsiylə ortaya çıxır, oyuna başlayır, deyir, ey *Eşq,* öz evinə gəlmisən, xoş gəlib, səfa gətirmisən, gir içəri, könlün qapısından keçib can qapısınacan get; dedi, bədənimin hər zərrəsi Günəşə aşiqdi, zərrələrin Günəşlə işi çox uzundu, pəncərənin qabağındakı zərrələrə bax, gör nə gözəl oynayırlar, kimin qibləsi Günəşdisə, namazı da belə olur; dedi, o zərrələr Günəş işığında sufilər kimi daim səma eləyir, amma hansı nəğməyə oynadıqlarını heç kəs bilmir, hər könüldə başqa nəğmə, başqa ahəng var, oynayan ortada, çalğıçılarsa sirr kimi gizlidi; dedi, hamısından vacibi iç səmamız, bütün zərrələrimizin böyük vəcdlə, naz-qəmzəylə *O*-nun işığında hey oynamasıdı.

Sonra ortalığa çıxdıq, neyin can yandıran nələsiylə səmaya başladıq, bir də onda ayıldıq ki, *İlahi Səs* məclisdəkiləri bir-bir yerlərindən qaldırıb sıralarımıza qatır. Oruca, namaza bağlı olan, üç gündən birini iftarla açan, gecələr səhərəcən namaz qılan, təqvada, ibadətdə kamala çatmış, ilahi təcəllilərdən bərxudar olan mömin bəndənin *O*-na bu qədər yaxınlığı Allahın təqdiriylə mənim əsərimiydi, əvvəllər zühddə, pəhrizdə tapdıqlarını indi səmada tapırdı. Mən çox şey eləməmişdim, *Həqiqət Günəşim*in onun *Dan Yerində* doğmasına nail olmuş, demişdim, Tanrının xas bəndələri üçün səma halaldı, çünki qəlbləri təmiz-

di, Allah xətrinə sevir, Allahın istəyiylə kin bəsləyirlər, könülləri dözümlüdü; demişdim, adamlar öz nəfsləriylə məşğul olduqlarına görə, səma onlara haram buyrulub, səmaya dursalar, pis əməlləri daha da artar, çünki Haqdan, həqiqətdən azdıqları üçün səma belələrinə haram sayılır; demişdim, əksinə, səma məqamında *Haqq aşiqi* olanların *Eşq*i daha da artır, gözlərinə Allahdan başqa kimsə görünmür, çünki səma cismin yemək-içməyidi, azuqəsi də nəfsidi.

Bir dəfə Can Dostuma Şeyx Övhədəddindən eşitdiyim belə bir qissə danışmışdım: bir vaxtlar Xəlifə səmanı yasaq eləyibmiş. Yasaq bir biçarə dərvişin qəlbində düyünə çevrilir, xəstələnib yatağa düşməsinə səbəb olur; xəstəni zəmanənin adlı-sanlı təbiblərindən birinin yanına aparırlar, təbib nəbzini yoxlayır, xəstəliyin səbəbini anlamağa çalışır, amma o mərəzin oxuduqlarından və bildiklərindən heç birinə oxşamadığını anlayıb yardım göstərə bilmir; dərviş ölür, dəfn olunur, bir müddət sonra sirri çözməyə can atan təbib məzarı açır, meyidin sinəsini yarır, ordakı əqiq daşına çevrilən sərt düyünü çıxarır; zaman ötür, təbib kasıblayanda daşı satır, daş əldən-ələ keçir, axırda da Xəlifəyə çatır, Xəlifə daşı yondurub üzüyünə qaş qoydurur; günlərin birində səma süzən vaxt paltarının qana batdığını görür, özünü yoxlayır, heç bir tərəfində yara izi tapmır, barmağına baxanda üzüyün əqiq qaşının əriyib axdığını görür; Xəlifə bu sirrə vaqif olmaq üçün daşı satanları tapmağı buyurur, hamını bir-bir tapır, axırda gedib təbibə çıxırlar, təbib də başına gələn əhvalatı danışır. Sonra demişdim, səma sinədə o əqiqə oxşar düyünün yaranmasına yol vermir, mən də ömrüm boyu çəkdiyim qəhrlərdən ancaq səma sayəsində sağ qurtulmuş, həyat əzaba çevriləndə öz içimin havasında səmaya durub O-na can atmış, yaşamaq üçün bəhanə tapmışam. İndi Can Dostum səmanın səfasını cana şəfa, ruha qida sayırdısa, deməli, artıq *Allahın Məhbubları* sırasındaydı...

Nəsirəddin Mahmudun zindandan Cəlaləddin Karatayın təvəqqesiylə buraxılması o günlərin ən gözəl xəbərlərindən biriydi. Görünür, Fatma Bacını Batı xanın əsarətindən qurtara bilməyən vəziri-əzəm Şəmsəddin İsfahani vicdanını bununla təskin eləmək fikrinə düşmüşdü, ya da məramlarından xəbərdar olduğuna görə, onun təkkəsini də, tərəfdarlarını da səltənətə təhlükə saymırdı. Dərhal Sultan Vələdə tapşırdım, şəhərin müsafirxanalarına, karvansaraylarına adam göndərib onu, axır ki, elə Şəkərçilər karvansarayında tapdım, vaxt itirmədən də hüzuruna getdim. Qırx ildən sonra gördüyüm Nəsirəddin Mahmudun sınqın halı, çarəsizliyi ürəyimi ağrıtdı: uzun illər ərzində qurduğu tifaq, bir tərəfdən Sultan Qiyasəddinin, səltənətdə söz sahibi olmaq istəyənlərin, o biri tərəfdən də tatarların zərbələri sayəsində dağılmışdı, minbir əziyyətlə yetişdirdiyi, camaatı qorumaq üçün öz canlarını əsirgəməyən qardaşların bir çoxu qara torpaq altında, bir qismi də zalımların zindanlarında, can yoldaşısa düşmən əlindəydi. Qeysəriyyədə olub-keçənləri nağıl elədim, ora qayıdıb-qayıtmayacağını soruşdum, dedi, qayıtmayacaq, dər-ül-mülkdə əliylə qurduğu tifağın dağıldığını görməyə tab gətirə, dər-üs-səltənədə də yaşaya bilməz, məmləkətin günbatanındakı şəhərlərdən birinə üz tutub Alın yazısının bundan sonra necə olacağını gözləyəcək. Səkkiz illik zindan həyatından sonra səhhəti də pozulmuşdu, hüzura, qayğıya, sevgiyə ehtiyacı vardı, onları tapıb-tapmayacağını da bir Allah bilirdi. Olub-keçəni qardaşlardan birinin Surətimə çatdıracağına əminlik duyduğuma görə, bununla bağlı əl-ayağa düşmədim...

***

...Səma məclisinin səhəri gün, axşam namazından sonra Mövlana Kimya Xatunu mənimlə evləndirmək niyyətində olduğunu söyləyəndə eşitdiyim xəbər çox gözlənilməz olsa da, zərrə qədər təəccüblənmədim: Can Dostum bir daha qeyb ol-

mamağım, daimi Konyada qalmağım naminə övladları qədər sevdiyi, tərbiyə elədiyi, qayğısını çəkdiyi Kimya Xatunu qurban verirdisə, mənim o qurbanı qəbul eləməyə haqqım olub-olmadığını kəsdirə bilmədim. Amma bir həqiqəti də dərk elədim: Can Dostum bu son çarəyə əl atırdısa, deməli, məni Konyada saxlamaq üçün bütün çarələrin tükəndiyiylə bağlı qəti qənaət hasil eləmişdi: sabah dərs otağına girməyəndə, minbərə çıxmayanda, müridlərinə öyüd-nəsihət verməyəndə, hədis məclislərinə getməyəndə tələbələrinin, müridlərinin, öyüdlərinə ehtiyac duyan möminlərin yenidən qiyam qaldıracağını, təkcə şəhəri yox, bütün məmləkəti, hətta islam aləmini dedi-qoduların yenidən bürüyəcəyini yaxşı dərk eləyirdi. Bəlkə, ona ürəyim yandığındandı, dərhal cavab vermədim, bunu da tərəddüdümə, düşünüb-daşınmaq istəyimə yozub ümidini üzmədi, mənsə iki gün hücrəmdə özümü divardan-divara vurdum, kimsəyə qapı açmadım, hətta Sultan Vələdin israrlarını belə qulaqardına vurdum, gətirilən yeməyə gözümün ucuyla belə baxmadım, boğazımdan bir qurtum suyu güclə keçirdim. Daha çox Təbrizi, yaddaşımda hələ də dipdiri qalan Mehmanə Xatunu xatırladım. Bəlkə də Kimya Xatun Allahın mənə Molla Cəlaləddini *Mövlana məqamı*na ucaltmağım müqabilində lütfüydü, o lütfü qəbul eləməməksə, Can Dostumun ruhunda sağalmaz yaralar açа bilərdi.

Buvaxtacan Kimya Xatuna kişi nəzərilə baxmamışdım. Bəzən müəlliminin yanına gəlib nəsə soruşanda, bəzən də həyət-bağçada görmüşdüm, ədəblə salam verib qədərindən artıq diqqət göstərməmişdi, amma həddi-buluğa çatmış qızlara xas məlahətini, ağıl-dərrakəsini, zərifliyini duymaq üçün bunlar da bəs eləmişdi. Can Dostumun ruhundakı tələtümləri dindirmək, qəlbinə təskinlik vermək, qeyb olacağımla bağlı əndişələrinə son qoymaq naminə son çarəsindən yararlanmağa, məsum Allah bəndəsinin həyatını oğurlamağa haqqım vardımı?

Saç-saqqalıma çoxdan dən düşmüşdü, artıq Rəsulillahın cənnətə köçdüyü yaşdaydım, nə qədər ömür möhlətimin qaldığı ancaq Rəbbimizə agahıydı, bu halımla ömrünün qönçə vaxtını yaşayan Kimya Xatuna layiqdimmi? Mən sərgərdan, yalnız *O*-na yetmək hədəfi olan həyatımla bu dünyanın zövqlərini yaşamaq haqqına sahib Kimya Xatuna nə verə bilərdim? Şübhəsiz, Can Dostumun tərbiyəsini görmüş, cismini də, ruhunu da ona borclu sayan Kimya Xatun atalığının sözündən çıxmayacaq, mənimlə izdivaca razı olacaqdı, bəs, mənim o Tanrı sədəqəsini qəbul eləməyə haqqım vardımı? Bu dünyaya sığmayan ruhum izdivacdan sonra Konyada nə qədər duruş gətirə biləcək, Kimya Xatunun onu burda saxlamağa iqtidarı çatacaqdımı? Suallar o qədər çoxudu ki, əlbəttə, mən – neçə illərdi suallar qarşısında aciz qalmayan adam belə, iki gündə cavabını tapa bilmədim. Üçüncü gün Can Dostum hücrəmə gəlib ümidlə üzümə baxanda, bütün ruhu titrəyə-titrəyə cavab istəyəndə razılıq verdim, elə o məqamda da ruhumu atəş bürüdüyünü duyub həyatımın ən böyük günahını işlədiyimi dərk elədim. Amma bir Rəbbim şahiddi ki, bu günahı *Allah Məhbubu*nun xətrinə eləmişdim, yeganə bəraətim də bundan ibarətdi.

Can Dostum sevincdən çaşdı, gözləri yaşardı, əllərimdən yapışıb dönə-dönə öpdü, sonra Kimya Xatuna xəbər, Kərra Xatuna nikah hazırlığıyla bağlı buyruqlar vermək üçün getdi. Sanki Rəbbim məni sağlam düşünüb-daşınmaq qbiliyyətindən məhrum eləmişdi, son məqamda belə, o izdivacın qarşısını ala bilmədim. Kaş, Kərra Xatun daş atıb başını tutaydı, illərlə zəhmətinə qatlaşdığı qızı ahıl, gəzərgi, sərtxasiyyət dərvişə verməyəcəyini söyləyəydi; kaş, Kimya Xatun könlünün başqasında olduğunu deyib, taleyimizin zorla birləşdirilməsinə qarşı çıxaydı; kaş, müridlərdən biri Kimya Xatunun könlünə girmiş olaydı, bu səbəbdən, Can Dostum günaha batmaqdan qorxub bu sevdadan əl çəkəydi. Amma bütün bunların heç biri olmadı,

görünür, Kərra Xatun çox hörmət elədiyi ərini, Kimya Xatun həyatını borclu saydığı müəllimini, Sultan Vələd səcdə elədiyi pədərini, üstəlik, ustadı saydığı kəsi – məni – itirmək istəmirdi. Belə çıxırdı, əslində, mən də, Kimya Xatun da qurbanıq, hamının öz istəyinə çatması, könül rahatlığı tapması üçün özümüzü bıçağın altına verməliyik. Bu izdivacdan xəbər tutanda həyatımın dəyişəcəyini, ehtiyac duyduqları kəsdən əl çəkəcəyimi, onu mövlanalıqdan mollalıq mərtəbəsinə endirib öz nəfslərini doyuracaqlarını, daha xəlvətin, çilənin, səma məclislərinin olmayacağını düşünüb bayram eləyəcəkdilər, fikirlərincə, ziyanın yarısından dönən Molla Cəlaləddin yenidən möminlərin xidmətinə qayıdacaq, öz borcunu yerinə yetirəcəkdi.

O günün axşamı Sultan Vələdin söylədiyinə görə, Kərra Xatun izdivaca qarşı çıxmamış, hətta əri sarıdan xeyli rahatlanmışdı; Kimya Xatun ədəblə susmuş, hər şeyi böyüklərin öhdəsinə buraxmış, bununla da itaətini ifadə eləmişdi; Sultan Vələd özü baş verənlərdən razıydı, çünki həm pədərinin könül sarsıntıları dinəcək, həm də Ustadı yanında olacaqdı; təkcə Əlaəddin xəbəri eşidəndə hiddətindən qıpqırmızı qızarmış, gözlərini bərəltmiş, anlaşılmaz, dolaşıq sözlər söyləmiş, sonra da qapını çırpıb evdən getmişdi. Sultan Vələd qardaşının hərəkətini Can Dostumun mənə, böyük oğluna, hətta övladlığa götürdüyü qıza izafi sevgisiylə, ədəbdənkənar əməlləri üzündən daim onu tənbeh eləməsiylə bağlayırdı. Sultanın xidmətində olanda Əlaəddinin ağıllanacağına ümid bəsləmişdilər, amma Qiyasəddinin vəfatından sonra yeni sultana xidmət eləyənlər - bəlkə, elə vəziri-əzəm Şəmsəddin - dərhal Əlaəddinin qulluq elədiyi birliyi buraxmışdılar, o da Konyaya qayıdıb pədərinin könlünə yatan işlərlə məşğul olmamış, üstəlik, şübhəli adamlarla oturub-durmağa başlamışdı. Can Dostumun tənbehləri, qardaşının tənələri Əlaəddin Çələbiyə kar eləməmiş, Kərra Xatunun öyüdlərini eşitməmiş, Kimya Xatun da daim oğlandan qaçmağa

çalışmışdı. Güman ki, indi Kimya Xatunun ondan xəbərsiz yeri-yurdu bəlli olmayan, yaşlı, pədərinin həyatını dəyişən qərib dərvişə verilməsini bəhanə eləyib hamının qanını qaraldacaqdı. O məqamda ağlıma gəldi ki, bəlkə, elə Rəbbim Kimya Xatunu Əlaəddin kimi qaba ruhlu məxluqlardan qorumaq üçün mənim bəxtimə çıxarıb: yasamım, dərvişliyim müqabilində Allaha və bəndəyə sevginin nə olduğunu çox yaxşı bilməyimi bu məsələdə günahımı azaldacaq yeganə bəraətim sayırdım.

O gün Kimya Xatuna ilk dəfə başqa gözlə baxdım: hücrəmdə darıxıb həyətə çıxırdım, o da olacağın qadınlar qismindən Can Dostumun hücrəsinə doğru gedirdi, görünür, aralarında mənimlə, daha doğrusu, nikahımızla bağlı söhbət baş verəcəkdi. Artıq taleyindən xəbərdar olub-olmadığını bilmirəm, amma məni görəndə bir qədər çaşdı, qızardı, gözlərini yerə dikib yüngülcə baş əydi, həmin məqamda da içimdə qarşısıalınmaz yanğın başladı, o yanğının ikimizi də qarsalayacağını, bəlkə də yandırıb külə döndərəcəyini dərk elədim. Kimya Xatun artıq iki il əvvəlki yeniyetmə, ədəbi gözləsə də, münasibətdə qadağa-qaytaq tanımayan qız deyildi, dolub-toxtamış, ağırlaşmış, gözəlləşmişdi. Başlığının altından lalə yanağına sallanan birçəyi, boyasız, amma yetişmiş gilası xatırladan dodaqları, dar nimtənəsinin belə gizlədə bilmədiyi dik döşləri, məni görəndə qeyri-adi yaxasına qalxan əli, illah da, bircə anlığa gördüyüm gözləri iqtidarımı əlimdən aldı, təpədən-dırnağacan tərə batdım, həyətdə düz qaş qaralanacan var-gəl eləyib hücrəmə tamam günaha batmağa hazır halda qayıtdım, axşam namazınacan da diz qatlayıb oturmadım. Hücrəsində namazdan, axşam yeməyindən, şükür duasından sonra Can Dostum dedi, ey Şəms, Rəbbimizin də təqdir elədiyi bu nikah üçün manea qalmadı, Kərra Xatun xeyir-duasını verdi, Bəhaəddin ürəkdən məqbul saydı, Kimya qızım hər şeyi böyüklərin öhdəsinə buraxdı, Əlaəddindən də soruşmağa gərək yoxudu, onun ruhuna şeytan girib;

dedi, daha gecikdirməyə hacət qalmayıb, günü sabah Sadəddin Konəvi nikahınızı qıyar, Allahın izni, şəriət qaydasınca dünya evinə girər, xoşbəxt, hüzurlu ömür sürərsiniz; dedi, mənim hüzurum sənin hüzuruna bağlıdı, inşallah, Rəbbimizin köməyiylə o hüzura qovuşacağıq. Əlbət ki, onun istəyinə qarşı çıxmadım, buna heç taqətim də yoxudu, amma o gecəni də səhərəcən gözlərimə yuxu getmədi.

Səhəri gün günorta namazından sonra Səlahəddin Zərkub, Sədrəddin Konəvi, Məcidəddin Sipəhsalar gəldilər, görkəmlərində açıq-aşkar çaşqınlıq sezilsə də, mübarəkabadlıq eləyib xeyir-dua verdilər, şərbət içə-içə nikahın kəramətləri barədə bildiklərini danışıb, hədislər söylədilər. Sonra Can Dostum hamının böyük hücrəyə yığışmasını buyurdu, istəyi yerinə yetəndə durub əlimdən yapışdı, biz də böyük hücrəyə getdik. Sultan Vələdlə Hüsaməddin Çələbi əl-əl üstündə dayanmışdılar, Əlaəddin Çələbi, zənn elədiyim kimi, yoxudu, Kimya gəlin duvağında bir neçə qadının arasında, Kərra Xatunun yanında durmuşdu, nədənsə onu görəndə son nəğməsini oxumağa hazırlaşmış qu quşunu xatırladım. Can Dostum qızlığının da əlindən yapışdı, sonra əllərimizi birləşdirdi, o məqamda artıq geriyə yolların bağlandığını, günah qapısından keçdiyimi dərk elədim, bir anda olub-keçənlər gerçəklikdən uzaqlaşıb xəyalata oxşadı. Xəyalın içindən tanış səsi eşidirdim, deyirdi, bir-birinizə o qədər layiqsiniz ki, sizi sizdən başqası üçün təsəvvürümə gətirə bilmirəm; deyirdi, bir-birinizin, təkcə cisminə yox, canına da hopun, güllə çiçək qoxusu, südlə şəkər dadı kimi birləşin, bütövləşin, bir-birinizə məna və dəyər qatın; deyirdi, bu nikah o qədər möhkəm, o qədər həmahəng olsun ki, heç kəs sizi bir-biriniz olmadan ağlına gətirə bilməsin; deyirdi, Allah mənə bu xoşbəxtliyi nəsib elədi, ruhumun iki parçasının – Həzrəti-Şəmslə Kimya qızımın bir canda birləşmələrinə şahid oldum. Sonra Sədrəddin nikahımızı qıydı, Allahın izni, Peyğəmbərimizin şəriətiylə bizi birləşdirdi, xeyir-duaları qəbul eləyəndən sonra gə-

lini məxsusi hazırlanmış hücrəyə apardılar, biz də nikah süfrəsi arxasında oturduq.

Həmin məqamda hər şey o qədər gözəliydi ki, gerçək kimi qəbul eləməyim özümə də ağlabatan görünmürdü. Süfrə arxasında nədən danışıldığına diqqət vermirdim, heç yadımda da qalmazdı, yalnız qıyılan gözlər, tərpənən cəhənglər, enib-qalxan əllər görür, boğuq, anlaşılmaz səslər eşidirdim. Sonra hamı bir daha mübarəkabadlıq eləyib getdi, Sultan Vələd hər an xidmətimizdə olduğunu ədəblə xatırladıb otağına çəkildi, hücrədə Can Dostumla tək qaldıq. O, həmişəki kimi, mənimlə diz-dizə oturdu, əlimdən yapışdı, gözlərimin içinə baxa-baxa dedi, ey Şəms, Rəbbimiz bizi seçib, bir-birimizə buta verib, illərin sınağından keçirib, sənin könül aynanda özümü görmüşəm, ayrılığımızın nə qədər dözülməz olduğunu sezmişəm; dedi, biz zahirən ikiyik, amma Rəbbimin nəzərində birik, eyni canıq, *O-nun məhbubuyuq*, arxamızdakı məhrəmlik bir rübabın iki telinin çıxardığı səs qədər ilahidi; dedi, tək telin avazı daim yarımçıq, iki telin avazısa, canayatan olur, eynilə, bir adamı yarı kəssən, varlığının bir faydası qalmaz, amma bütöv halında bir cür fayda ala bilərsən; dedi, başlıcası, bədən yox, candı, birlik dünyasında çadır quranda cismində yox, könlündə hüzur yarat; dedi, dur, taleyini birləşdirdiyin o gözəl bəndənin intizarına son qoy, Rəbbim də daim sizinlə olsun, amin!

Can Dostum hücrəsinə çəkiləndən sonra xeyli müddət yerimdən tərpənmədim, fikirlərimi cəmləşdirməyə, iqtidarımı toplamağa çalışdım. Bu məqamda Əlaəddin hardansa, yəqin, özü kimi ipə-sapa yatmayan cavanların məclisindən qayıdırdı, başını açıq qapıdan içəri uzatdı, sir-sifətini bürüşdürüb nəsə donquldandı. Dinmədim, qardaşını belə qısqanan məxluqun mənə bu cür üz göstərməsində heyrət ediləcək heç nə yoxudu, amma ortaya qanıqaralıq düşməməsi üçün durub yanından keçdim, hiddət, kin dolu fısıltısına fikir vermədən bayıra çıxdım, göyün

ortasında soyuq-soyuq parıldayan Aya baxdım, Məram bağları tərəfdən əsən sazaq canımı buza döndərsə də, Əlaəddin hücrəsinə çəkilənə, pəncərəsindəki işıq sönənəcən içəri girmədim. Can Dostum böyük oğlu kimi ədəb, kamal, elm əhli olmadığını görüb onu sultanın xidmətinə göndərdiyinə peşmanlıq duyurdu, gözündən iraq keçirdiyi iki il yarımda yolunu tamam çaşmış, şübhəli adamlarla oturub-durmağa başlamışdı, bütün bunları eşidəndə də onun əxi qardaşlara qoşulduğu barədə qulağıma çatanlara inanmamışdım: yalnız şəriət, təriqət, həqiqət, mərifət qapılarından keçən, alnı, qəlbi, qapısı açıq olan, əlinə, belinə, dilinə yiyəlik eləyən kəslər əxi ola bilər, o məqam belələrinin yeri deyildi. Şübhəsiz, mənimlə, Can Dostumla, məhrəmliyimizlə bağlı ona yalan-doğru şeylər danışmış, beynini əməlli-başlı doldurmuşdular, bu səbəbdən, Şamdan qayıdanda bizi qarşılayanlar arasında deyildi, üstəlik, ilk dəfə üz-üzə gələndə heç Allahın salamını da vermədi, üzünü çevirib keçdi. Pədəri hörmətsizliyindən xəbər tutanda çağırıb tənbeh eləmiş, bir daha ədəbsizlik eləməməyi tapşırmışdı, amma Əlaəddin nə pədərinin tənbehinə, nə də qardaşının nəsihətinə qulaq asır, üstəlik, eşitdiyimə görə, Kərra Xatuna, elə Kimyaya da xoş üz göstərmirdi.

Mən içəri girəndə Kimya taxtın üstündə, yatağın içində oturmuşdu, sanki qapının cırıltısına diksindi, azca titrədi, amma duvaqlı başını qaldırmadı. Kandarda ayaq saxladım, içimdən dalğa-dalğa qalxıb boğazımı kilidləyən hiddətin yatmasını gözlədim. Bu məqamda məni Konyaya bağlamaq üçün Allahın günahsız bəndəsini qurban verən Can Dostumdan, ədəbsizliyini belə bir gündə də üzə vurmaqdan çəkinməyən Əlaəddindən çox özümə, bir də Kimya Xatuna qarşı qəzəbliydim: mən – iyirmi beş ildən artıqdı sərgərdan ömür sürən, *O-na gedən yol*dan başqa bir yol tanımayan, Rəbbimin təqdiriylə də həyatımın ən böyük vəzifəsini yerinə yetirən Şəmsəddin Təbrizi zorən razılıq verdiyim nikahla bu şəhərdə qalmaq üçün özümdə iqtidar tapa-

caqdımmı? İndi üzündə duvaq taxtın üstündə oturmuş, ədəbinə, əxlaqına, tərbiyəsinə qısılıb ona atalıq eləyən, böyüdən, tərbiyə, üstəlik, dərs verən adamın istəyinə qarşı getməyib, yaşlı, adamayovuşmaz, sərtxasiyyət Allah bəndəsiylə nikaha girməyə razı olan biçarə də həmişəlik Konyada qalacağıma ümid bəsləyirdimi? Mənim razılığım *bişən zatın* xətrinəydi, onun yalvarışları, yanıqlı çağırışları, yandırıcı qəzəlləri tab-tavanımı əlimdən almışdı, bəs, Kimya ömrünün çiçək çağını niyə ədəbinə, əxlaqına, tərbiyəsinə qurban verirdi? Axır ki, yerimdən tərpənib taxta yaxınlaşıdım, ona doğru uzatdığım əlim bir anlığa havada donanda Kimyanın zərif cisminin necə gərildiyini, nəfəsinin təngidiyini hiss elədim. Duvağı qaldırdım, altında məsum qız siması, dah çox da dibindən əndişə fışqıran bir cüt göz görüb ruhən titrədim. Amma artıq qapı örtülmüşdü, geri yolum, daha doğrusu, yolumuz yoxudu. Bunu beynimdən keçirə-keçirə taxçadakı qəndili söndürdüm, pəncərədən süzülən Ay işığında günah ümmanına daldım...

...Xırda-para ehtiyacları nəzərə almasaq, üç gün hücrədən çıxmadıq: Kərra Xatun gündə üç dəfə yeməyimizi kandardakı dolabın üstünə qoyur, Kimya kimsənin olmadığına əminlik hasil eləyəndən sonra qapını aralayıb götürür, qabları eyni cür də yerinə qoyurdu. Daha çox Əlaəddinlə qarşılaşmaqdan, köntöy söz eşitməkdən, araya qanıqaralıq düşəcəyindən qorxduğunu duyurdum, bu da məni, az qala, təbdən çıxarırdı. Duvağını qaldırıb məsum simasına, gözlərinin dibindəki əndişəyə baxa-baxa fikrən demişdim, sevmək bu qədər gözəldisə, kim bilir, sevgini yaradan nə qədər gözəldi; demişdim, ey *Eşq,* səni illərlə yad əllərdə, yad dillərdə axtardım, sən demə, məndə imişsən, bilməmişəm, vürnuxa-vurnuxa qalmışam; dilcavabı demişdim, ömrümə xoş gəldin, ikimiz də nəsibimizin quluyuq, *O*-na baş əyməkdən başqa əlimizdən heç nə gəlmir, bu səbəbdən, başqa bir söz söyləməyə gərək yoxdu; demişdim, əndişə eləmə ki, ni-

zamım pozulacaq, həyatım alt-üst olacaq, həyatın altının üstündən yaxşı olduğunu kimsə bilmir, nikahımızla da qeylü-qalın başımdan sovuşacağını güman eləmə, sən də onlardan biri olma, Haqqı da, haqlını da dərk eləməyə çalış; demişdim, bilirəm, mən sənin gözlədiyin kəs deyiləm, amma hələ bu dünyada öz qədərini seçən kimsəyə rast gəlməmişəm, hamı alın yazısında olanı yaşayır, nə vaxtsa başıma bir iş gəlsə, qeybə çəkilsəm, hər şeyi qismət kimi qəbul elə. Kimya dillənməmiş, ola bilsin, o məqamda tamam-kamal dərk eləmədiyi sözlərə uçuntulu halda, başını tərpətməklə cavab vermiş, bu da məni təbdən çıxarmış, ruhumun ağrısını dindirə bilməyəcəyimi bir daha anlayıb əlimi onun paltarının yaxasına atmışdım. Kimyanın sustalmış bədəni heç müqavimət göstərməmiş, məni ümmana dalan dalğıc kimi qəbul eləmiş, bununla da hər şey olub-bitmişdi.

Can Dostum hər şeydən məmnun görünürdü – bunu üçüncü gün, Sultan Vələdlə axşam namazını birgə qılmaq istədiyini çatdırandan sonra hücrəsinə gedəndə duydum. Sultan Vələdin ucundan-qulağından çatdırdığı əndişələr – tələbələrinin, müridlərinin, Konya əhlinin onu dərsxanada, minbərdə, hədis məclislərində görməyib yenidən narahatlıq keçirmələri – heç tükünə də toxunmamışdı, məni vəcdlə qarşıladı, əlimdən yapışıb nikahın kəramətləri, könül hüzurunun faydası haqqında xeyli danışdı, sonra axır üç gündə yazdığı qəzəlləri oxudu. Can Dostumun tam bişdiyini, daha geriyə dönüşün olmadığını, bunun da məramıma çatmağımla yanaşı, fəlakətlər doğuracağını dərk eləyib ruhən titrədim: artıq nəfəsim, söhbətlərim üçün darıxdığından, qələmə alacaqlarından, səmanın sehrindən, *O-na gedən yol*un gözəlliyindən, *O-nun məhbubu* olmağın şərafətindən danışırdı, bu mərtəbəylə dərsxanaya, minbərə, hədis məclislərinə qayıda bilməzdi. Hüsaməddin Çələbi nikah ərəfəsində camaatın Molla Cəlaləddin Bəlxini növbəti cümə günü İplikçilər məscidinin minbərində görmək istədiyini söyləmişdi, o müddət də başa çat-

maq üzrəydi. Ümidlərinin doğrulmadığını görən kütlənin nələrə qadir olduğu barədə, güman ki, Can Dostum düşünməmişdi, Sələhəddin Zərkubla yeni səma məclisinin qurulmasıyla bağlı danışdığından, Niğdə tərəflərdən tayı-bərabəri olmayan ney ustası gəldiyindən, səmazənlər dəstəsi yaradıldığından elə şövqlə söz açırdı ki, bir anlığa təhlükənin yoxluğuna özüm də inandım. Sonra yaz aylarında Məram bağlarının gözəlliyini tərifləməyə keçdi, bu yay orda olacaq tikdirmək niyyətini dilə gətirdi. Arada Sultan Vələd müridlərin qapıya yığışıb mürşidlərini görmək intizarında olduqlarını çatdırdı, amma Can Dostum kimsəni görmək istəmədiyini söyləyib, sanki qəndilin fitilini daha da yuxarı qaldırdı.

Əlaəddinlə səhəri gün axşam namazına yaxın üz-üzə gəldik. Yəqin, yenə hansı əməlinə görəsə tənbeh olunmaq üçün pədərinin yanına gedirdi. Yetik-yetik hücrəmizə sarı boylanması heç xoşuma gəlmədi, qeyzlə çıxıb arxasından çatdım, qolundan yapışıb, dedim, Əlaəddin Çələbi, gözümün nuru, zahiri-batini ədəblərə sahib ola bilərsən, amma bundan sonra burdan ədəblə, hörmət-izzətlə keçməlisən. Qolunu hirslə çəkdi, dibində kin qaynayan gözlərini üzümə dikib çımxırdı ki, bir buna bax, yeri-yurdu bəlli olmayan bir adam ev sahibinin göz bəbəyini öz ocağına buraxmır, sonra, görünür, pədərini gözləri qabağına gətirib davamını söyləmədi, arxasını çevirib getdi. Başa düşdüm ki, artıq gecdi: vaxtında oxumayıb, ədəbdən nəsibini almayıb, sonra da pədərinin gözündən iraqda olub, yolunu lap azıb, indi də nə nəsihət eləsən, acığına gəlir, inciyir. Belələri Haqqı özünə düşmən sayır, sərf eləməyən düz sözü eşitmək belə istəmir, qar qoxusundan da hürkürlər, amma qaranlıqda yol gedən kəsin gec-tez azacağını bilmirlər. Bütün vücudu dil-dil ötən, söz-söhbətdə ədəb gözləməyən, Haqq aləmindən xəbəri olmayan Əlaəddinin Konyaya bu məqamda gəlib çıxması, görünür, səbəbsiz deyildi. Hüsaməddin Çələbi səhər ayaqüstü söhbəti-

mizdə Kimya Xatunda onun da könlü olduğu barədə yayılan şayiələri xatırlatmış, amma buna inanmamışdım: belə bir şey olsaydı, nə Əlaəddin indiyəcən gizli saxlayar, nə də Can Dostum övladının qismətini mənə yedirərdi – buna tam əmindim, bir an belə şübhə duymurdum.

Kimya Xatunla aramıza tez kölgə düşdü: qadın duyğuları onun təmkinli olmasına imkan vermədi, *Allaha Eşqim*dən öz payını qoparmaq, ruhumu göydən çəkib salmaq, məni Yer adamı eləmək istədi, bunu bacarmayanda da qadın hiylələrinə əl atdı. Əlbət ki, onun çox məsələlərdə haqlı olduğunu dərk eləyirdim: bir dam altında yaşayırdıqsa, yerinə yetirilməyə borclu olduğum nəsnələr vardı, amma Kimya bu dünyanın adamı olmadığımı əvvəldən bilirdi, haqqımda söylənənləri eşitmiş, üstəlik, burda yaşadığım müddətdə bəzi şeyləri gözləriylə görmüşdü - gərək bunları unutmayaydı. Onun da bütün qadınlar kimi, xoş sözlər, diqqət, nəvaziş gözlədiyini, sevgimi hiss eləmək, nazlanmaq, ağuşumda məst olmaq istədiyini bilirdim, amma mən dünyəvi hiss-həyəcanlarımı çoxdan yadırğamışdım, yalnız ruhum Yerdən aralanıb Göyə ucalanda, *O*-nun nurunu, nəfəsini, rəhmini duyanda, səmaya duranda, gözəl insan əməlilə rastlaşanda vəcdə gəlirdim – gərək bunu da heç vaxt unutmayaydı. Can Dostumla həsbi-halımız gecənin bir vədəsinəcən uzanırdı, hücrəmizə dönəndə Kimyanın gözlədiyini görür, intizardan yorulmuş ruhunun da, heydən düşmüş cisminin də məndən aralandığını sezirdim, bu isə, şübhəsiz, soyuqluğa çevrilirdi.

Əlaəddin Çələbiylə bağlı şayiələr də, istər-istəməz, o soyuqluğu körükləyirdi. Hələ ki, onun Kimyaya vurulduğunu isbatlayacaq bir dəlil tapmamışdım: nə özü söyləmiş, nə Kimya dilinə gətirmiş, nə də aralarındakı xüsusi münasibətlə bağlı əsər-əlamətə rast gəlmişdim. Zənnimcə, Əlaəddinin mənə qarşı kini pədərinin, üstəlik, onun doğma adamlarının izafi diqqəti, hörmət-izzətiylə bağlıydı, Kimyaya da taleyiylə razılaşdığına,

pədərinin qərarı müqabilində dillənib bir kəlmə söz demədiyinə görə acığı tutmuşdu. İki gün sonra həyətdə üz-üzə gələndə, yenə üzünü çevirib donquldana-donquldana yanımdan ötəndə qolundan yapışdım, dartınmasına fikir verməyib dedim, övladım, səbəbsiz kinin insana faydası yoxdu, əksinə, həddən ziyadə ziyanı var, sən aramızda baş verən xoşagəlməz xatirələri unutsan, ya da üzə vurmasan, mən də olub-keçənləri yaddan çıxararam; dedim, hey düşünüb-daşınıram, mənimlə Cəlaləddinin oğlu arasında heç nə yoxudu, niyə hələ də qovğa niyyətindən əl çəkmir; dedim, səninlə elə ilk görüşümüzdən aramızda anlaşılmazlıq oldu, fikir vermədim, bu səhvim ucbatından da anlaşılmazlıq gün-gündən artdı, səni də, məni də od kimi yandırdı, qovurdu, xoşagəlməz hadisələrə səbəb odlu; dedim, artıq olan olub, mən hər şeyi unutmuşam, sən də unut, həyatının kinlə zəhərlənməsinə imkan vermə. Amma Əlaəddin kinindən-hiddətindən boğula-boğula nəsə söylədi, qolunu əlimdən çıxarıb aralandı.

Səlahəddin Zərkubun evindəki səma məclisindən sonra həsəd-hiddət dalğası bizi yenidən qoynuna aldı. Mürşidlərini dərsxanada, minbərdə, hədis məclislərində görə bilməyənlər üzərimizə təzədən fitnə oxları yağdırmağa başladılar: yenə gözlər qıyılır, ağızla büzülür, dişlər xırçıldayır, saqqallar əsir, əllər xəncər-qılıncın qəbzəsinə gedirdi. Sultan Vələdin dediyinə görə, artıq məni cadugər, dərsxananı, minbəri, hədis məclisini səma məclisinə, fəqih paltarını hind alacasından xirqəyə, əmmaməni üstündən dümağ sarğı doladığı balrəngi külaha dəyişdiyi üçün, Can Dostumu divanə adlandırırdılar. Beynimdən yenə bu şəhərdən heç qayıtmamaq şərtiylə çıxıb getmək keçirdi. İlk gedişimdə çox əziyyət çəkmişdim, yollar məni yormuşdu, elə bilirdim, yorğunluğum iki ilə də çıxmaz. Konyanı qızılla doldursalar belə, nəzərimdə qiyməti yoxudu, amma Can Dostumun sevgisi üstün gəlmiş, dağlar, dərələr aşmış, bütün çətinliklərə dözmüşdüm, istəyinə çatmayan Konya əhli də, elə bil, məni

gəldiyimə peşman eləmək barədə söz vermiş, fitnə körüyünü aramsız basmağa başlamışdı. Gözügötürməzliyin ədavətə çevrilməsi təhlükəliydi, bunu dilimə gətirməsəm də, bütün canımla duyurdum. Can Dostum da səksəkədəydi, Sultan Vələdin, Səlahəddin Zərkubun, Hüsaməddin Çələbinin gətirdikləri xoşagəlməz xəbərləri eşidəndə bulud kimi tutulur, cahilliyə görə yanıb-yaxılırdım, bununla yanaşı, ruhundakı tələtüm get-gedə artırdı. Könül dostunu Konyada saxlamaq üçün ən böyük qurbanı – Kimyanı vermiş kəs özünü növbəti sarsıntı qarşısında tamam aciz sayırdı. Mənim ruhumdasa qorxudan əsər-əlamət yoxudu, taleyin hər cür təcəllasına hazırdım, həyatımın ən böyük səhvi olan Kimya Xatunla nikah belə, məqamımı kütlənin ayağına endirə bilməzdi.

Amma Kimya həyatıma gözlənilməz nəsim kimi gəlmişdi, qəfildən nəsim kimi də getdi. Evliliyimizin ilk ayı başa çatmamış halsızlaşdı, bunu ötüb-keçəri naxoşluğna yozdum, yatağa düşəndə də əlacı Kərra Xatundan umdum. Kərra Xatun təbib çağırdı, təbib Kimyanı müayinə eləyib elə bir ciddi azar tapmadı, cismini möhkəmlədən məlhəmlər içirməyi məsləhət gördü. O məlhəmlər təsir eləməyəndə Can Dostum saraydan təbibbaşını gətirtdi, ancaq zavallıya onun məsləhətləri, dava-dərmanları da kömək eləmədi. Saatlarla yanında oturur, əlindən tutub üzünə baxır, söz-söhbətlə ruhuna dayaq olmağa çalışırdım, amma Kimyam gün-gündən zəifləyir, solur, aləmlə bağlarını bir-bir qoparırdı. O günlərdə də dərvişin sinəsində yaranan düyünlə bağlı qissəni xatırladım. Bəs, Kimyanın sinəsindəki düyün nədən əmələ gəlmişdi? Hamıdan gizlədiyi sevgisimi vardı, yoxsa məndən gözlədiyini verə bilmədiyimə görəmi könlü qubar bağlamışdı? Bu suallara cavab ala bilmir, özümü həyətə atıb uzun-uzadı var-gəl eləyir, Can Dostumun təskinlik verən sözlərini dinləməli olurdum. Naxoşluğunun ikinci ayı başa çatanda, artıq əlimiz hər şeydən üzülməyə başlayandasa, Cəlaləddin

təmkinini itirib çaşqınlığa qapıldı – görünür, Kimyayla birgə məni də itirəcəyini dərk eləmişdi. Kərra Xatunun Antakyadan gətirtdiyi rum təbib də naxoşun dərdinə dərman tapmaqda aciz qalanda Can Dostum tamam sarsıldı, hücrəsinə qapılıb yanıqlı qəzəllər yazdı, göz yaşları, içində oxuyub Allahdan rəhm dilədi. Amma Rəbbimiz, deyəsən, ikimizdən də – ondan günahsız bəndəni qurban verdiyinə, məndən də o qurbanı qəbul elədiyimə görə – qisas alırdı, ikimiz də yanlışımızın cəzasını çəkməliydik, çünki hər şeyin bir haqq-hesabı var: *insan dərd verdiyin qədər də dərd çəkər.*

Kimya yazbaşının son gecələrinin birində Haqqa qovuşdu. Kərra Xatunu arxayın salıb xəstənin yanında oturmuş, əlindən yapışmışıb solmuş simasına, yarıyuxulu gözlərinə baxa-baxa, zəif nəfəsinə qulaq asa-asa yaddaşımda olub-keçənləri əriş-arğac eləyirdim, özümə də, ona da içimdə qaynayan öfkəsə get-gedə qabarırdı. Özümə öfkəmin səbəbi canını mənə qurban vermiş Allah bəndəsini həyatda saxlamaq iqtidarında olmamağımıydı: birini ucaltmağım, *Allahın Məhbubu* məqamına çatdırmağım başqa birinin həyatını əlindən almağıma haqq qazandırmırdı, bu günahın əvəzini gec-tez ödəməliydim. Kimyaya layiq olmadığı qədərə səssiz-səmirsiz, övladlıq borcu, ədəbi, əxlaqı, tərbiyəsi xətrinə baş əydiyinə, həyatının hüzurunu məndə axtardığına görə hiddət duyurdum: *O*-na *Eşq*imə şərik çıxmaq, özünə yetəcək qədər qoparmaq cəhdi qadın kimi haqqıydı, bu sarıdan zavallını günahlandırmaq haqsızlıq olardı. Pəncərədən süzülən Ay işığına baxa-baxa bunları beynimdən keçirəndə Kimyanın nəfəsinin daraldığını duydum: elə bil, nəsə söyləmək istəyir, amma səsini eşitdirə bilmədiyinə görə əzab çəkirdi. Sonra cismi nədənsə qurtulmaq üçün dartındı, bir müddət titrədi, ardınca son kərə çırpınıb sustaldı. Hər şeyin bitdiyini, Kimyanın bu dünyadan ayrılıb Haqqın dərgahına yollandığını dərk elədim, əyilib solğun, get-gedə soyuyan alnından öpdüm, bəlalı başımı sinəsinə qoyub dan yeri ağaranacan eləcə qaldım, sübh

namazımı qılandan sonra da Sultan Vələdin hücrəsinə gedib olub-keçəni xəbər verdim...

Kimyanı Məram məzarlığında torpağa tapşırdıq. Can Dostumun nə qədər sarsıldığını, çaşdığını, əl-ayağının yerdən üzüldüyünü söyləməyə hacət yoxdu, elə bil, xəbəri eşidəndən bəri on il qocalmışdı. Məzarlığa gedib-gələndə Sultan Vələdlə Hüsaməddin Çələbi qollarından yapışmışdılar, yoxsa ayaq üstdə dayana bilməzdi. Güman ki, məni Konyaya bağlayan son bağın qonduğunu başa düşür, bu yolda verdiyi qurbana görə günaha batdığını anlayırdı. Mən də Əlaəddinin qanlı-qanlı baxdığını, pədərindən çəkinməsə, xəncərini siyirib üstümə gələcəyini sezir, indi içində qaynayan hiddətin gec-tez üzə vuracağını dərk eləyirdim. Mürşidlərinin kədərinə şərik olmaq üçün özlərini çatdıran müridlərin, Əlaəddinin böyür-başında fırlanan, Konyada şübhəli əməlləriylə ad çıxarmış İmadla Hümamın arabir mən tərəfə kinli-kinli baxdıqlarını duyur, bundan sonra o kinin qarşısıalınmaz nifrətə çevriləcəyini bilirdim. Onları zahiri sakitliyim, hər şeyi Allahın qədəri kimi qəbul eləməyim, fikirlərincə, Kimyanın ölümündə özümü günahkar saymamağım hiddətləndirirdi. Elə bu gündən vaqeəylə bağlı cürbəcür şayiələrin yaranacağına, ayaq tutub yeriyəcəyinə, gözlərin daha hiddətlə qıyılacağına, ağızların daha çox əyiləcəyinə, dişlərin daha şiddətlə qıcırdayacağına, əllərin xəncər-qılınc qəbzəsindən daha qəzəblə yapışacağına əmindim. Onsuz da Şamdan Konyaya qayıtdığıma, Qeysəriyyəyə, ya Təbrizə getmədiyimə peşmandım, bu peşmanlıq bir məsum Allah bəndəsinin həyatı bahasına başa gəlmişdi, vəbalı da mənim boynumdaydı. Səlahəddin Zərkub, görünür, ab-havanı vaxtında hiss eləmişdi, qanıqaralıq olmaması üçün tabutu qaldırandan, İplikçilər məscidində dua oxunandan ta Məram məzarlığında torpağa tapşırıb qayıdanacan yanımdan çəkilmədi, sonra da Sultan Vələdlə Hüsaməddin Çələbini çağırıb uzun-uzadı nəsə danışdı...

***

...Təxmin elədiyim kimi, şayiələr elə həmin andan ayaq tutub-yeridi. Bir neçə gün sonra axşam Can Dostumla namazımızı qılıb iki günahkar bəndə kimi oturmuşduq, ortalıqda ağır, üzücü sükut vardı, o sükutu pozmağa heç birimizin heyimiz qalmamışdı. Sultan Vələd gəldi, ədəblə izin istəyib üzbəüzdə diz çökdü, açıq-aşkar əzab çəkə-çəkə bir neçə həftə bayıra çıxmamağın daha düzgün olacağını söylədi, etibarlı müridlərin eşitdiklərini çatdırdı: deyilənlərə görə, Kimyaya mən müştəri düşmüşəmmiş, onu hər görəndə səbəbli-səbəbsiz söhbətə tutur, üz-gözünə şəhvani nəzərlərlə baxırammış, Şama da Molla Cəlaləddin onunla nikahıma razı olmadığına görə getmişəmmiş; deyilənlərə görə, Kimyanın könlü Əlaəddindəymiş, Əlaəddin də ona qarşı biganə deyilmiş, məsələni böyüklərinə açmağa hazırlaşırlarmış, amma yeri-yurdu bilinməyən bir dərvişin peyda olub mürşidlərini başdan çıxarması qədərlərini dəyişib, Molla Cəlaləddinin də onun tələbinə qarşı getməyib, oğlunun qismətini qərib dərvişə verib; deyilənlərə görə, mən Kimyaya sahib olandan sonra ona qadınım yox, kənizim kimi baxır, üstünə qışqırır, təhnizli sözlər deyir, hətta əl qaldırır, işgəncə verirəmmiş, belə məqamların birində də zavallının boynunu sındırmışammış, bu da ölümünə səbəb olubmuş. Sultan Vələdin ağzından çıxan son şayiənin vahiməsi o qədər ağırıydı ki, Can Dostum daha otura bilməyib yerindən dik atıldı, mən də əllərimi dizlərimə çırpıb çarəsizlikdən ilan kimi qıvrıldım. Sultan Vələdin dediyinə görə, mədrəsənin darvazası qabağında da, yaşadığım qismində də etibarlı müridlər gecə-gündüz keşik çəkəcəklər, çünki bu şayiələrin böyüyüb nəyə çevriləcəyini kimsə təxmin eləyə bilməz.

Kimyanın qırx mərasiminəcən şayiələrdən çalxanan şəhərə çıxmadıq, olub-keçənlərdən Sultan Vələd, Səlahəddin Zərkub, Hüsaməddin Çələbi vasitəsiylə xəbər tutur, dualarımızı oxuyur, uzun-uzadı susurduq, ya da Can Dostum yeni yazdığı hüzn dolu

beytlərini, qəzəllərini oxuyurdu. Qırx mərasimindən sonra onun yalvar-yaxarına məhəl qoymayıb Konya əhlinin ovqatını duymaq üçün çarşı-bazara çıxdım. Məni görəndə yollarını dəyişənləri, donquldananları, göz bərəldib, diş qıcayıb, bığ çeynəyənləri, dalımca düşüb xətər yetirmək istəyənləri, kafir, mürtəd, mütrüb, cadugər kimi cürbəcür atmacalara layiq sayanları sezib qəzəblənməkdən çox kədərləndim. Qayıdanda da mədrəsənin həyətində Əlaəddinlə üz-üzə gəldim, beynimdən keçdi ki, bu binəva anasının qarnından çıxmayıb, burnundan düşüb, canında bütün yaramazlıqlar var. Dişlərini qıcırdada-qıcırdada əvvəlcə pədərini əlindən aldığımı, sonra Kimyanı qamarlayıb öldürdüyümü söylədi, həmin məqamda onu vurmaqdan özümü güclə saxlayıb dedim, Əlaəddin Çələbi, övladım, kor qəzəbinə yenik düşmə, sənin adamları dilə tutub ətrafına yığdığını, İmadla, Hümamla neyləmək istədiyinizi, əməl yoldaşınız Şərəfin evinə gedib onu öz tərəfinizə çəkməyə çalışdığınızı bilirəm, bütün bunlar xətadı; dedim, bil, agah ol, biz əmrə də, nəhyə də boyun əyənlərdən deyilik, sənin də nə dostluğuna, nə də düşmənliyinə ehtiyacımız var, ədəbli olmağın, pədərinin əzablarını daha da artırmamağın bəs elər; dedim, hamımız qədərin quluyuq, nə pədərin belə olmasını istərdi, nə mənim könlüm məsum bir bəndənin dünyadan köçməsiylə razılaşardı. Əlaəddin sözümü bitirməyimə aman verməyib donquldana-donquldana aralandı, dərk elədim ki, daha onunla ağız-ağıza verməyin xeyri yoxdu, o da qədərin quludu, alın yazısında nə varsa, yerinə yetirəcək, hətta o yazıda məni öldürmək olsa belə, geri durmayacaq – *qismətin əlindən kim qaça bilib axı...*

O yazın son ayında Can Dostumun Məramda yeni tikilmiş ikigözlü bağ evinə köçüb payızın ortalarına, bağlardan əl-ayaq çəkilənəcən orda qaldıq. Hərdənbir Sultan Vələd tək, ya da Hüsaməddin Çələbiylə gəlir, Kimyanın ölümündən sonra daha da qaradinməz olan Kərra Xatun yemək hazırlayır, biz də sərin

vaxtlarda bağların arasında gəzir, gün qızandasa hücrəmizə, ya da kölgəliyə çəkilib söhbət eləyir, yaxud susurduq. Gələnlərin söylədiklərinə görə, hamının başı öz qayğılarına qarışdığından, söz-söhbət bir qədər səngiyibmiş, amma payızda, evlərinə çəkilib aradakı boşluğu doldurmaq vaxtı gələndə dedi-qoduların, hiddətin, kin-küdurətin daha şiddətlə ortaya çıxacağını bilirdim. Əlaəddinin üzünü o beş ayda bir kərə də görmədik, Sultan Vələd onun oturub-durduğu kəslərin məramını üzə çıxarmağa çalışmış, hələ ki, bir nəticə əldə eləyə bilməmişdi. İki dəfə də dərgahın qayğılarıyla məşğul olan Səlahəddin Zərkub gəldi, indi bir qədər səngimiş şayiələrdən hələ də əndişə duyduğunu bildirdi, gündüzlər gəzəndə, gecələr yatanda sərvaxt olmağın vacibliyini dönə-dönə dilinə gətirdi. Dedim, bəlkə də nəfəsimi kəsəcək, ağzımı yumacaq, ya da bir gecə aralarında danışıb öldürəcəklər, amma bütün bunlar *O-nun məhbubluğu*yla duyduğum hüzurun müqabilində o qədər kiçik vaqeələrdi ki, heç dilə gətirməyə dəyməz. O məqamlarda Can Dostum da yanıb-yıxıla insanların cahilliyindən, Rəbbə sevgini şeir-səma diliylə söyləməyin gözəlliyindən söz açır, səsində də, nəfəsində də mənim getmək ehtimalımdan şiddətli qorxu keçirdiyini duyurdum. Üstəlik, mənə Əlaəddinin əlindən xata dəyəcəyiylə bağlı əndişəsi onu daha dərindən sarsıdır, bu səbəbdən, Sultan Vələdə elə hey nəzərlərini qardaşının üstündən çəkməməyi tapşırırdı.

Hər cümə axşamı günü Can Dostumla Kimyanın məzarı üstünə gedir, hər dəfə də Kərra Xatunun ora bizdən əvvəl baş çəkdiyini, ot-əncərdən təmizləyib əlimlə əkdiyim yasəmənə su verdiyini sezirdik. İki suçlu bəndə kimi, o məsumun ruhuna üz tutub dua oxuyur, dilimizə gətirməsək də günahımızın bağışlanmasını diləyirdik. İkimizin aramızda qalmasaydı belə, Kimyanın o xəstəliklə üzləşib-üzləşməyəcəyi başqa məsələydi, təbiblərin biri qismi, daha çox etibar elədiyimiz təbibbaşı zavallının, güman ki, uşaq yaşlarından o mərəzə tutulduğunu, müalicə

olunmadığına görə gizli-gizli ağırlaşdığını, ölümünün bu vaxta tuş gəlməsinin təsadüf ola biləcəyini söyləyirdi, Kərra Xatun da əvvəllər, bir neçə dəfə təbib çağırdıqlarını xatırlatmışdı, amma məhz biçarə Kimyanın ikimizin niyyətimizlə baş tutan nikahın qurbanı olması bizə ağır gəlirdi. Üstəlik, Konyadan getməyimlə bağlı ehtimalın Əlaəddinin ədəbsiz hərəkətləri üzündən qüvvətlənməsi Can Dostumun ruhundkı çalxantıları daha da artırırdı, ondan olsaydı, insan qələbəliyinin, dedi-qoduların, səs-küyün içinə qayıtmaz, payızın yağışlı günlərini, elə qışı da Məramda keçirərdik, amma bu da, şübhəsiz, başqa şayiələrin körüklənməsinə təkan verəcəkdi. Ona görə də ismarış göndərdi, Sultan Vələdlə Hüsaməddin Çələbi iki öküz arabasıyla gəldilər, Kərra Xatunun bağ nemətlərindən tədarük elədiklərini yükləyib özünü arabaya oturtdular, biz də arxalarınca düşüb fitnələrin baş alıb getdiyi yerə yollandıq.

Ötən aylar ərzində eyhamların da, dedi-qoduların da, fitnələrin də korun-korun qaynadığına, üzə çıxmağa məqam gözlədiyinə əmin olmaq üçün cəmi bir neçə həftə bəs elədi, bu da çıxıb getməklə bağlı qərarımı qətiləşdirirdi. Anladım ki, insanlar susanı qorxaq, görməzliyə vuranı axmaq, əfv eləməyi bacaranı hərif sayırlar, amma biz istədiyimiz qədər həyatımızdadılar, göz yumduğumuz qədər dürüst, susduğumuz qədər də insandılar. Əlbət ki, Can Dostum getməyim barədə söz salmağımı belə istəmirdi, amma dedim, ey Cəlaləddin, qədərdən qaçmaq olmaz, ayrılıq bu gün olmasa da, sabah baş verəcək, o səbəbdən, vaxtında getməyim, məsləhətdi; dedim, dost acı söz söyləyər, hər acı söz deyənisə dost saymaq olmaz, səni sevməyən kəs də acı söz söyləyə bilər, amma dostun acı da olsa, sözünü elə şirin dillə deyər ki, heç ağrı duymazsan; dedim, indi dostun kimi söyləyirəm, doğma oğlun Əlaəddinə belə söz keçirə bilmədiyin halda, o cahil, qorxunc kütlənin öhdəsindən gəlməyinə güman yoxdu; dedim, özümü yox, səni qorumaq üçün getməliyəm,

düzdü, bu səfər məndən ötrü çox ağırdı, bacarsaydım, zahid kimi, bir güşəyə çəkilib ömür möhlətimin nə vaxt bitəcəyini gözləyirdim, çünki səfərlərdən, çəkdiyim iztirablardan yorulmuşam, amma eyhamlı sözlər, bitib-tükənməyən dedi-qodular, arasıkəsilməyən fitnələr başqa çıxış yolu qoymayıb; dedim, sən elə bir bulaqsan, Can Dostum, içdikcə daha çox susadım, amma bu dəfə yola çıxanda ötəndəfəki kimi eləmə, yolumu kəsməyə çalışma, çünki hər şey həddini aşıb, ikimizi də təhlükə qarşısında qoyur. Əlbət ki, nə vaxt, hara gedəcəyimi Can Dostuma söyləmədim, bundan kimsənin xəbəri olmayacaqdı, kimsə görüb izimi tapmayacaq, axırda əllərini üzüb öldüyümü güman eləyəcəkdilər, bununla da həm Can Dostum təhdidlərdən, fitnələrdən, dedi-qodulardan qurtaracaq, həm də Konya əhli rahatlıq tapacaqdı, daha doğrusu, mən qeybə çəkiləndən sonra Konya əhli sahib çıxmaq istədiyi bəndənin daha Bəhaəddin Vələdin oğlu Molla Cəlaləddin Bəlxi olmadığını, mən gedişimlə artıq heç nəyin dəyişməyəcəyini dərk eləyib sarsılacaq, bundan sonra cismən yanında olmasam da, ruhən daim düşüncəsində yaşayacağımla barışmaq zorunda qalıb səhvini başa düşəcəkdi.

Bir dəfə məni tək qoymamağa çalışan Sultan Vələddən xəbərsiz çarşıya enmişdim. Çiskinli günüydü, başlığımın altında sifətim zorla seçilirdi, amma görünür, mədrəsənin qapısına da göz qoyanlar varmış, çarşının girişində gözlərində cinlər oynaşan bir məxluq yolumu kəsdi, çürük dişli ağzından selik sıçrada-sıçrada, çirkli partlaşıq saqqalını əsdirə-əsdirə Konyanın mömin əhlinin ən dəyərli neməti – Molla Cəlaləddini əllərindən aldığımı, Allahın yolundan sapdırdığımı, özüm kimi zındıqlığa sürüklədiyimi, mütrüfə çevirib ortada oynatdığımı, bu cür əməllərin də bədəlinin çox ağır olduğunu, tezliklə cəzamı alacağımı söylədi. Səsinə bir neçə nəfər də ayaq saxladı, məsələnin nə yerdə olduğunu anlayıb məni tanıyanda gözləri bərəldi, ağızları əyildi, çənələri əsdi, əlləri xəncərin dəstəyinə uzandı.

O məqamda zərrə qədər də olsun, qorxu hissi keçirmədim, hiddətdən, qəzəbdən, kindən dəyişən simalarına kədərlə baxdım, dedim, ey fanilər, necə möminsiniz ki, cismimizin də, Ruhumuzun da uca Rəbbimizə məxsusluğundan xəbəriniz yoxdu; dedim, sizin olmayana iddia eləyəcək qədər qafilsinizsə, *Allah Məhbubu*nun adını çəkib ləkələməyin, daha ağır günaha batmayın; dedim, Cəlaləddin Bəlxi İlahinin seçilmişlərindəndi, Rəbbim bir müddət sizin aranızda olmağına, yanmasına izin verdi, sonra məqamı çatanda bişmək üçün araladı, sınaqlardan keçirdi; dedim, siz Allahın işinə qarışacaq qədər cahilsinizsə, Rəbbimin məsləhət gördüyünün hesabını məndən soruşursunuzsa, əlinizdən gələni beş qaba çəkin. Dərhal sinələrindən hayqırtılar çıxdı, cisimləri gərildi, elə bu məqamda da Sultan Vələd ortada peyda oldu: zavallı məni axtarıb tapmayanda tələşə düşüb arxamca yüyürübmüş.

Onlar aralananda dedim, ey Sultan Vələd, övladım, görürsənmi, yenə quldursayaq necə birləşiblər, məni elm-irfanda tayı-bərabəri olmayan, aşiqləri düz yola çəkən o zatın hüzurundan ayırmaq istəyirlər; dedim, bil, agah ol, bu dəfə elə gedəcəyəm ki, harda olduğumu kimsə bilməyəcək, məni axtarıb tapmaqda aciz qalacaq, öldürüldüyümü güman eləyəcəklər. Məni ustadı sayan binəva Sultan Vələd baş verənlərdən əməlli-başlı sarsılmışdı, dedi, Ustadım, tövbə eləyəndən, bağışlanmalarını diləyəndən sonra müridlərin yenə abırsızlıq, paxıllıq girdabına yuvarlanmaları cahillikdən başqa bir şey deyil; dedi, görünür, Şeytan onları yenə namazdan-niyazdan bezdirib, bütün qulluq həvəslərini öldürüb, hamısı inancından dönüb, əvvəlki halına qayıdıb, necə deyərlər, nə şərab var, nə sərxoşluq, ancaq başağrısı, bir də yarısərxoşluq qalıb. Dedim, gözümün işığı, o zavallıların ruhuma tuşlanan qısqanclıq oxlarını duyuram, amma məni validin də qısqanır, günlərin birində çıxıb gedəcəyimi düşünür, validən də qısqanır, baş yoldaşını əlindən aldığımı güman eləyir; dedim,

mən Rəbbimin buyurduğunu yerinə yetirirəm, qısqananlar, ondan əl çəkməyimi, geri durmağımı, uzaqlaşmağımı istəyənlər gərək cəhənnəm qorxusunu unutmasınlar; dedim, ustadını sizi yerinizdən yurdunuzdan eləməkdə günahlandırırlar, amma mən gedəcək, sizə Qaf dağı boyda təşəkkürlərimi bildirəcək, Can Dostumun ruhunusa özümlə aparacağam. Sultan Vələd məni dilə tutdu, Allahın lütfünü cahillərin istəyinə qurban verməyin düzgün olmayacağı barədə danışdı, amma həmin məqamda artıq oxun yaydan çıxdığını bütün canımla hiss eləyirdim: bəxtsiz Kimyanın məzarına baş çəkəndən sonra dağarcığımı Şəkərçilər karvansarayından götürüb yola düzələcəkdim...

***

...O qış gecəsi Sultan Vələd gün ərzində olub-keçənləri pədərinə danışmış, əndişəsini dilə gətirmiş, sonra öz hücrəsinə çəkilmişdi. Can Dostumla diz-dizə oturub susurduq, beynimdən dan yeri sökülməmiş şəhərdən azalanmağı, *Allahın yolu*ndan çıxmadan yollardan birinə düşüb getməyi, izsiz-tozsuz qeyb olmağı, o da, məndən ötrü əndişəyə düşənlər də, qanıma susayanlar da xəbər tutanacan çox-çox uzaqlarda olmağı keçirirdim, amma hələ hara üz tutacağımla bağlı məqama çatmamışdım. O sükut içində bayırdan məni səslədiklərini aydınca eşitdim, düşünüb-daşınmadan, elə bil, nagəhan bir əlin köməyiylə yerimdən qalxdım, dedim, əlvida, ey Movlana, məni öldürməyə çağırırlar. Can Dostum dinməyib üzümə uzun-uzadı baxdı, sonra Qurani-Kərimdən bir ayə söylədi: *"Yaxşı bilin ki, yaratmaq da, əmr də O-nundur. Aləmlərin Rəbbi olan Allah çox böyükdür!"* Qeyb məqamının səhər yox, elə indi baş verəcəyini, Allahın hökmüylə ikimizin də bunu qəbul elədiyimizi başa düşdüm. Qapını açıb aylı gecənin qoynuna qədəm basdım, özümü hər şeydən arınmış, qov kimi yüngülləşmiş hiss elədim. Bir an sonra eşitdiyim bağırtılar da, cimimə işləyənn xəncər-bıçaq

tiyələri də sanki boşluğa sancılırdı. Ağzımdan çıxan "Allah!" nərəsindən sonra çəkisizliyi daha aydın duydum, ayaqlarım yerdən üzüldü, asta-asta yuxarı qalxdım, o ucalıqdan mədrəsənin, məhəllənin, sonra bütün Konyanın mənzərəsini gördüm. Canım sərgərdanlıqdan, əndişələrdən, ağrı-acılardan qurtulmuşdu, *O*-nun dərgahında hüzur tapacaqdı. Rəsulillah Əleyhisalamın Haqqa qovuşduğu yaşda *O*-nun hüzuruna yetişmək mənə sonsuz lütfüydü. Asta-asta Göyün qatlarından keçdim, lap axırda dərk edilməyəcək qədər böyük sonsuzluq duydum, beynimdən keçirdim ki, yəqin, *Qeyb Aləmi* elə buradı. Sonra get-gedə o sonsuzluğa qarışdığımı bütün canımla hiss eləyib İlahi rahatlığa daldım!

Ey Rəbbim, mən Səni sevmək üçün yox, Səni sevməyin nə demək olduğunu dərk eləmək üçün sevdim. Ömrünü sənə fəda eləmiş, Məhbubun olmuş Təbrizli Şəmsi – Şəmsəddin Muhammməd Təbrizini qəbul elə!

Amin!

HEKAYƏTƏ SON SÖZ

QEYB,
YAXUD YEDDİ ÖLÜM

Elə bilməyin ki, eşq ağıl işidi,
Gül ki, hər könlün, mürşididi.
Kimini qoxusuyla şad eləyər,
Kimini tikanıyla irşad eləyər.





I
Sultan Vələd:

Ustadım Şəms Təbrizi həyatımıza qasırğa kimi girdi, hamını, hər şeyi silkələdi, yandırıb-yaxdı, dəyişdi, başqalaşdırdı, sonra da qəfildən qeybə çəkildi. Pədərimin kölgəsi Dostunun işığında yox oldu, ona *Eşq aləmi* ardından dəfsiz-sazsız avazı çatdırdı, məşuqun halını başa saldı, beləliklə, sirri göyləri də aşdı. Pədərim ustadlıqdan, şeyxlikdən onun hüzurunda yenicə oxumağa başlayan tifilə, hər şeyi öyrəndiyi halda, bilik aləminə yenicə qədəm qoyan kəsə çevrildi, hamının itaət göstərdiyi zat ola-ola özü Şəms Həzrətlərinə itaət elədi. O vaxtacan qarşısı kəsilib lillənmiş nəhrə oxşayırdı, zahirən sakit, rahat düzənli həyatı vardı, arabaçıdan sultanacan hamı hörmətini saxlayırdı, mədrəsə, dərgah, məscid əhli, cəmi konyalılar sözlərinin əsiriydilər, amma Şamda təhsilini başa vurub qayıdandan sonra ruhunda qəribə sarsıntılar baş verirdi, sanki daim kimi, nəyisə gözləyirdi. Mənə orda dərviş görkəmli bir şeyx gördüyünü, İlahinin təlqiniylə əlindən öpüb, *"Ey məna aləminin sərrafı, məni axtar, tap",* – dediyini, sonra o vaqeənin aşkarda, yoxsa yuxuda baş verməsini ayırd eləyə bilmədiyini danışmış, korun-korun yanmışdı. Müəllimi Seyyid Bürhanəddini israrla çağıranda mürşidi boyun qaçırıb Konyaya Təbrizli Şəmsin

gələcəyini söyləmişdi, pədərim də hey Təbrizli Şəmsin Şamda gördüyü o dərvişmisal şeyx olub-olmadığı barədə düşünürdü. Axır ki, Təbrizli Şəms gəldi, *İlahi vaqeə* çin oldu, o gündən də lillənmiş nəhrin qabağı açıldı, nəinki bəndi-bərəni uçurdu, həm də axarını dəyişdi, nəticədə tələbələri, müridləri, üstəlik, pədərimi Allahla öz aralarında araçı sayanlar hardan gəldiyi bilinməyən qərib dərvişə düşmən kəsildilər, zavallı Kimyanın ölümündən sonra da düşmənlik qarşısıalınmaz selə çevrildi. Ustadımın ölümündə qardaşım Əlaəddinin əli olub-olmadığını qəti söyləyə bilmərəm, amma nifrəti aşikarıydı, gizlətmirdi. O nifrətin Kimyaya sevgisindən qaynaqlandığı şayiədən başqa bir şey deyil, belə fikri olsaydı, gizlədə bilməzdi, duyardıq. Əlaəddin pədərimizin Təbrizlı Şəmsə düşgünlüyündən, mənə sevgisindən həsəd hissinə qapılmışdı, o hiss gec-tez fəsad çıxaracaqdı, axırda da öz həyatı bahasına başa gəldi.

Ustadımın kəramətləri məni ahənrüba kimi ona sarı çəkirdi. Bir gün Hüsaməddin Çələbi də yanımızda mədrəsədən çıxıb küşə aşağı getdik. Qarşıdan Əmir Müinəddinin məiyətiylə birgə gəldiyini gördük. Əmir Ustadımı görəndə atının başını çəkib dayandı, nəzərlərini uzun-uzadı ondan çəkmədi, sonra gözlərindən yaş axdı, ağlaya-ağlaya yoluna davam elədi. Ustadım başını bulayıb köks ötürdü, ardınca salavat çevirib, dedi, bəndələrini nemətə çatdıran Uca Allaha şükürlər olsun!" Təəccübümüzdən Hüsaməddinlə yerimizdə donub qalmışdıq, handan-hana Ustadımdan əmirin ağlamasının səbəbini soruşdum, dedi, övladım, o əmir gizli vəlilər zümrəsindəndi, vəlayətini bu qiyafə içində gizlədib, məni görəndə, dedi, ibadət-təriqət yolunu əmirlik məqamımla yaxşı uzlaşdıra bilmirəm, sonra o məqamdan ayrılıb rahatca qulluq eləməsi üçün ona dua eləməyimi istədi, mən də Allaha üz tutdum, amma vəlayət nurunun əmirliklə birgə olması zərurətiylə bağlı işarə aldım, o isə bunu başa düşəndə ağlaya-ağlaya yoluna davam elədi. Həmin anda pədərimin nəyə

görə Ustadımın hücrəsinin qapısına öz əliylə *"Xızır məşuqunun məqamı"* yazdığını başa düşdüm. Şəms Həzrətləri deyirdi, mən sirrimi elə adama söyləyərəm ki, onu öz mənliyimdə yox, özümü həmin zatın mənliyində görüm, beləcə, öz sirrimi özümə söyləmiş oluram – o zat da sənsən, Can Dostum. Şəms Həzrətləri pədərimi elə heyrətamiz aləmə çağırdı ki, o aləmi, özünün dediyi kimi, röyasında nə türk, nə ərəb görmüşdü.

Təbrizli Şəms təkcə pədərimin yox, mənim də həyatımı dəyişdi, çilə çıxaranda da, xəlvətlərində də etibar elədikləri, hücrələrinə buraxdıqları yeganə Allah bəndəsi oldum. Çox vaxt diz-dizə oturub susduqlarını görür, amma o məqamda könülləriylə danışdıqlarını duyurdum, bəzən də Şəms Həzrətlərinin *Allahın Məhbubu* məqamına ucalmağın dərsxanalarda, minbərlərdə, hədis məclislərində ömür çürütməkdən daha böyük savab olduğu barədə söylədiklərini eşidirdim. Çilə-xəlvətdən çıxandan sonra da onun zəkasına sonsuz heyranlıq duydum. Bir dəfə aylı gecəydi, pədərim Ustadımla mədrəsənin damında oturub söhbətə dalmışdı. Söhbət əsnasında Ustadım ətrafa göz gəzdirib deyir, pəncərələrin heç birindən işıq gəlmir, hamı ölü kimi yatır, təki oyaq ola, bir qədər axirət üçün çalışalar ki, Qiyamət günündə çətin vəziyyətə düşməyələr, amma bu halda ölülərdən fərqləri yoxdu. Bunu eşidəndə pədərim əllərini göyə qaldırıb dua eləyir, deyir, ey Rəbbim, Şəms Təbrizi Həzrətlərinin hörmətinə ölü kimi yuxuya getmiş bəndələrini oyat. Duanı bitirir, bir anda göyün üzünü qara buludlar bürüyür, guruldamağa, şimşək çaxmağa başlayır, şiddətli gurultudan da hamı oyanır, yaxındakı evlərdən "Allah! Allah!" qışqırtıları eşidilir. Bir müddət o səsləri dinləyirlər, Ustadım deyir, insanların Rəbbimizin hifzi-əmanında olmaları üçün üləmaya, kamil rəhbərə ehtiyacı var, yalnız belə bir rəhbərləri olanlar yer-göy fəlakətlərindən, maddi-mənəvi zərərlərdən qoruna bilərlər; deyir, görürsənmi, bu insanlar yuxudan göyün guruldaması sayəsində oyanıb "Al-

lah! Allah" qışqırırlar, onun kimi, həqiqi yuxudan oyanmaları üçün cənabi-Haqqın sevdiyi üləması, yaxud övliyası olmalıdı. Pədərim bu əhvalatı danışandan, Şəms Həzrətlərinin üstünlüklərini, bəzi kəramətlərini mədh eləyəndən sonra dərhal onun hüzuruna getdim, müridi olmaq istədiyimi söylədim.

Ustadım dedi, övladım, vəlidinin söylədikləri doğrudu, amma o irfan sahibinin yanında min Şəms belə zərrələr kimi qalır, buna görə də onu atıb mənim xidmətimə girməyin münasib deyil. Həmin məqamda Ustadımın alçaqkönüllülüyü, genişürəkliliyi, müdrukliyi gözlərimi yaşartdı, təkkəsiz mürşidin müridliyini qəbul eləyib, şeyxim saydım, Hüsaməddin Çələbiylə çiyin-çiyinə verib *Allahın məhbubunu* nifrət oxlarından mümkün qədər qorumağa çalışdım. Birinci kərə qeyb olanda pədərim səbrü-qərarını itirdi, naləsi asimana büləndoldu, ah-fəğan, yalvarış, dua dolu beytləri, rübailəri, qəzəlləri dodaqlarından nəhr kimi axdı, Diyari-Rum şəhərlərinə, Hələbə, Şama, Bağdada göndərdiyi müridləri əliboş dönəndə könül taqətini daha da itirdi, sorağını Şamdan alanda, yazdığı namələr cavabsız qalanda, Can Dostu gəlməkdən boyun qaçıranda da məni çağırıb dedi, övladım, bir neçə yoldaşınla get, Şəmsi tap, özünlə də iki ovuc qızıl-gümüş dinar götür, o pulları Təbriz Sultanının mübarək başmaqlarının içinə tök, yönlərini Diyari-Ruma sarı çevir, mənim salamımı ona çatdır, aşiqlərə yaraşan hörmətimi ərz elə. Mədrəsənin tələbələrindən, müridlərdən, pədərimi sevənlərdən iyirmi nəfərlik qəfilə düzəltdik, soyuqda, istidə, dağda, düzdə yolların damarını qırıb Şama yetişdik. Şəms Həzrətlərini tapdım, pədərimizin - ayrılıq həsrətindən yaxıb-yaxılan *Aşiq*in istəyini ona böyük nəzakətlə çatdırdım, həqiqət, mərifət, hörmət inciləri saçdım. Bilirdim ki, Ustadımla pədərim eynilə Həzrəti-Muhammədlə Əli kimidilər, aralarındakı könül bağı çox möhkəmdi, ona görə də qayıtmağa razılıq verəndə çox sevindim, o gecə gözlərimə yuxu getmədi.

Səhər yola çıxanda ədəb göstərib atının yüyənindən yapışdım, yanınca piyada yola çıxdım. Şəms Həzrətləri dönə-dönə ata minməyimi istəsə də, dedim, ey cahan padşahı, sənin də mən kölənin də at belində getməsi münasib deyil, bəndələrə padşahın üzəngisi yanında yerimək yaraşır. O bir aylıq yol ərzində Şəms Həzrətlərinin övliyalara xas kəramətlərinin şahidi oldum. Zəncirli karvansarayına çatanda gəlişimizi pədərimə çatdırmaq üçün qasid göndərdim, o da başında üləmalar, dərvişlər, əmirlər, sufilər, ətrafında çoşğub-daşan insan dəryası qəfiləmizi qarşıladı. İki könül dostu atlarından enib qucaqlaşdılar, iki sevgi dəryası yenə bir-birinə qovuşdu. Pədərim göz yaşları tökə-tökə dua elədi, Şəms Həzrətləri təskinlik verdi, xeyli də beləcə qaldılar. Ustadımın *"Cismən ondan ayrıyam, amma cismsiz-cansız da hər ikimiz nuruq; ey bizi axtaran kəs, istər onu gör, istər məni, mən – oyam, o – məndi"* deməsinin səbəbi mənə bir daha gün kimi aydın oldu. Sonra əsgərlər sancaqları qaldırdılar, nağaralar vuruldu, söz əhli qəzəllər, rübailər söylədi, müridlər səmaya durdular. Pədərim həsrət qəmindən qurtulmuş, gözlərimizin qabağındaca dirçəlmişdi. Müridləri Şəms Həzrətlərinin hüzuruna gəlib üzrzxahlıq istəyir, hörmət göstərir, könlünü ələ almaq üçün səma məclisləri qururdular.

Əlbət ki, pədərim Şəmsi belə israrla çağıranda Əlaəddin Çələbini düşünməmişdi. Sultanın xidmətindən dönən Əlaəddinin qulağını yoldaşları əməlli-başlı doldurmuş, demişdilər, Təbrizdən Şəms Təbrizi adlı naməlum bir dərviş gəlib, sehir yoluyla pədərini yolundan azdırıb, dərslərindən soyudub, secə-gündüz eyş-işrətlə məşğuldular; demişdilər, pədərinin özü meyxanadan qablar dolu şərab alır, hərəmində barədəri, həm də validənlə mey məclisi qurur, ağla gəlməyən rüsvayçılıqlara yol verir; demişdilər, pədərini qorumaq üçün o əyyaş qələndəri qətlə yetirmək istəmişdik, amma niyyətimizdən xəbər tutan kimi, qaçıb Şama getdi, indi də mürşidimiz qardaşını göndərib

onu geri gətirdir; biz yetişəndən sonra da demişdilər, pədərin yenə o adamla gizli əməllərini davam etdirir, eyş-işrət məclisi qurub rəqs eləyir. Onsuz da ipə-sapa yatmayan Əlaəddinsə eşitdikləri müqabilində Şəms Həzrətlərinə kin bəsləməyə başlamışdı. Kimyanın nikah məsələsi ortaya çıxanda da vəziyyət lap qəlizləşdi. Ustadımın Kimyayla nikaha girməsi xətaydı, amma o xətanın səbəbkarı Can Dostunu nəyin bahasına olur-olsun, yanında saxlamağa çalışan pədərimiydi, Şəms Həzrətləri də onun israrlarına tab gətirməyib razılıq vermişdi. Ustadımın qəlbində Allaha da, bəndəyə də elə böyük sevgi vardı ki, Kimyaya nəinki işgəncə verməsinə, heç güldən ağır söz deməsinə belə inanmıram. Ola bilsin, zavallı qız sevgisinin qarşılığını gerçəklikdə tapmayıb sarsılmışdı, amma ölümünün səbəbi heyranlıq duyduğu, şeyxi saydığı əri yox, əvvəllər mübtəla olduğu, təbiblərin də baş açmadığı mərəziydi, məqam tapıb ağırlaşmağa başlamışdı. O itki Ustadımı elə sarsıtmışdı ki, artıq nifrət, kin, böhtan oxları qarşısında tab gətirmək iqtidarında deyildi, mənə çıxıb gedəcəyini, *qeyb olacağını* dönə-dönə söyləmişdi, amma *qeyb*inin bu cür baş verəcəyi ağlıma belə gəlməzdi.

Şəms Həzrətlərini qətlə yetirməyə gələn o yeddi nəfərin arasında qardaşımın da olduğunu söyləyirdilər, Əlaəddin o günlər evdə gecələmədiyinə görə, bunu doğru, yaxud uydurma saya bilmərəm. Həmin axşam gecənin bir vədəsinəcən yanlarında oturdum, hikmət-məna dolu söhbətlərinə qulaq kəsildim, sonra xeyirli gecə arzulayıb hücrəmə üz tutdum, Ustadım gedəndən sonra pədərimin keçirəcəyi sarsıntılar barədə düşünə-düşünə yuxuya getdim. Aradan nə qədər keçdiyini xatırlamıram, bayırdan gələn boğuq qışqırtılardan oyanıb nə baş verdiyini unamağa çalışdım, sonra Ustadımın "Allah!" nərəsini eşitdim, düşünüb-daşınmaq iqtidarımı itirib yatağımdan belə dikələ bilmədim. O məqamda da pədərim qasırğa kimi hücrəmə cumdu, demişdi, Bəhaəddin, nə yatırsan, qalx, şeyximi axtar, canım

onun qoxusunu ala bilmir. Ancaq bundan sonra özümə gəldim, tələş içində yatağımdan sıçrayıb geyindim, özümü bayıra atdım. Ay işığında kandara yaxın yerdəki qanı gördüm, amma ətrafa ölüm səssizliyi çökmüşdü. Beynimdən keçdi ki, Ustadım yaralanıb, hardasa yıxılıb, cəld yaxındakı qəndili qapdım həyətin künc-bucağını axtarmağa başladım. Əlaəddin həmişəkitək gözə dəymirdi, onu gündüz də görməmişdim, yəqin, yenə əməl yoldaşlarının yanındaydı. Kimyanın ölümündən sonra daha qaradinməz olmuş Kərra Xatun bir yerdə qərar tuta bilməyən, özünü divara çırpan pədərimə təskinlik verməyə çalışırdı. Bütün gümanım gələn yerlərə baş çəkdim, hətta bayıra çıxıb yaxın ətrafı ələk-vələk elədim, amma Ustadımdan əsər-əlamət tapa bilmədim. Kandara yaxın yerdəki qan ləkələrindən də bir səmtə iz düşməmişdi, elə bil, Şəms Həzrətləri göyə ucalıb sonsuzluqda *qeyb olmuşdu...*

Mən gedəndən sonra bir nəfər üzüniqablı şəxs Ustadımı hücrənin kandarından bayıra çağırıbmış, o da qalxıb pədərimə sevgiylə nəzər salıb, deyibmiş, əlvida, ey Mövlana, məni öldürməyə çağırırlar, sonra bayıra çıxıbmış. O məqamda pədərim donub qalıbmış, az sonra heyrət və çaşqınlıq içində Əraf surəsindən "Yaxşı yadda saxlayın, yaratmaq və əmr eləmək O-na məxsusdu" ayəsini oxuyub, sonra da Can Dostunun "Allah!" nərəsini eşidib bayıra çıxanda yerdəki bir neçə damcı qandan başqa bir şey görməyibmiş. O gecə nə pədərimin gözlərinə yuxu getdi, nə də mən yatdım, səhərəcən bu müəmmanın üzərində baş sındırdıq: Şəms Həzrətlərinə qəsd eləyənlər kimlərdi, Onu Cəlaləddin Bəlxinin məkanında qətlə yetirmək cəsarətini hardan alıblar? Şeyx yaralanıbsa, indi hardadı, yaralayanlar qaçıblar, yoxsa özü əllərindən qurtara bilib, hardasa gizlənib? Ortada meyit olmadığına görə, sağ qalmaq ehtimalı hələ də qalan Təbrizli Şəms yoxsa nə vaxtdan bəri dilindən düşməyən *qeybə* çəkildi? Bu suallara nə o gecə, nə axtarışlarla keçən səhə-

ri gün, nə də ümidsizlik, ah-fəqan içində başa çatan sonrakı günlər cavab tapa bildik. Axtarışa Hüsaməddin Çələbi, pədərimin bir neçə sədaqətli müridi, Səlahəddin Zərkub, Sadəddin Konəvi, Məcidəddin Sipəhsalar qoşuldular, az qala, Konyanın altını üstünə çevirdik, amma bir nəticə hasil olmadı ki, olmadı. Hər keçən gün pədərim səbrü-qərarını daha da itirir, yuxunu, rahatlığı unudur, üzünü göyə tutub yalvarır, vəhy kimi gələn sözlər söyləyir, deyirdi, ey Təbrizli Şəms, bəlkə, Həzrəti-Yusif kimi quyuya düşüb gizlənibsən; deyirdi, ey abı-həyat, ey bizi əbbdiyyətə qovuşduracaq bəngisu, səni çıxarmaq üçün quyuya salladığımız ipdən belə gizlənibsən, bəs necə tapacağıq; deyirdi, ey Təbriz şəhərinin fəxr elədiyi Şəmsəddin, bu səfərdən bir də dön, Allah xətrinə gəl, çünki biz yalnız sənin eşqinə mübtəla olmuşuq, o eşqlə ovunuruq! Sonra hücrəsinə qapanır, qələmini qəlbinin qanına batırıb ürəkdağlayan beytlərini, can yandıran qəzəllərini kağıza köçürürdü.

Qəlbindəki eşq atəşi alovlanan, hiss dəryaları coşan, gecə-gündüz rahatlıq bilməyən pədərim Yusifi axtaran Həzrəti-Yaqub misalındaydı, təsəllimiz halına zərrəcə xeyir eləmirdi, mədrəsənin damına çıxır, üzünü boşluğa tutub, deyirdi, ey Şəms, qar idim, sənin hərarətinlə əridim, torpaq məni canına çəkdi, ruhum buğ kimi qalxdı, indi Günəşə ucalıram; deyirdi, ey könül yarı, təəssüflər olsun, bizi çəkilməz dərd, həsrət içində qoyub getdin, bilirəm, ayrılmaq istəmirdin, sızıldadın, şikayətləndin, amma faydası olmadı, insafsız, amansız hökmə boyun əydin, çıxıb getdin; deyirdi, özünü ora-bura çırpdın, yanımızda qalmaq üçün çarələr axtardın, bəhanələr düşündün, heyf, bir əlac tapa bilmədin, çarəsiz halda aralandın, dostların məclisindən ayrıldın, sənlə oturub-duranların cərgəsindən qopdun, qarışqaların, ilanların yanına üz tutdun; deyirdi, güllərlə dolu olan qulağın, Ay kimi nurlu siman, əlimizdən tutan mübarək əllərin, Məram bağlarına, o gül bağçalarına gedən ayaqların

necə oldu; deyirdi, nəzakətliydin, məlahətliydin, insanların könlünə girməyi, onları sevməyi bacarırdın, amma məxluqatı sevməyən, bir-bir yeyən torpağın altına getdin, sən ağlaya-ağlaya yola düşəndə də Göyüzü göz yaşı tökdü, Ay üzünü cırıq-cırıq elədi; deyirdi, bir halda ki, bizi atıb getdin, heç olmasa, Haqq aşiqlərinin, ərmişlərin söhbətinimi seçdin, yoxsa Eşqdən məhrummu qaldın; deyirdi, bu nə cür atəşdi, nə cür həsrətdi, qəfil yola düşən müsafir kimi, xəbər də vermədən çıxıb getdin, heç izin-tozun da qalmadı, bu dəfə getdiyin yol necə qanlı yoldu ki, kinini gizləyə bilməyib qeyb oldun. Sonra nəzərlərini boşluğa dikib durur, elə bil, qeybdən xəbər gözləyirdi...

Bir dəfə məni çağırıb Can Dostuna yazdığı iki rübaisini oxudu. Birində deyirdi, sənin eşqindən gözlərimdə yuxusuzluq var, gecə sənin zülfünün ənbər qoxusunu saçır, ey Təbrizli Şəms, Əcəl nəqqaşı könlümün sakitləşməsi üçün hər tərəfə sənin rəsmini nəqş eləyir; deyirdi, o əbədi dirinin öldüyünü kim söylədi, ümid Günəşinin öldüyünü kim dedi, o Günəşin düşməni damın üstünə gəldi, iki gözünü yumub öldüyünü xəbər verdi; ikincisindəsə deyirdi, Eşq oyadan zatın öldüyünü kim söylədi, Cibril Eminin iti xəncər zərbələrindən öldüyünü kim dedi, iblis kimi inad içində ölən kəs Təbrizli Şəmsin də öldüyünü güman elədi. Hamıdan Şəmsin xəbərini gözləyir, deyirdi, ey qissə söyləyənlər, bir az da Təbrizli Şəmsin hekayətini danışın, qan tökən insafsızın əhvalatını söyləyin. Düşmənləri də bu fürsəti fövtə vermir, Şəmsin sağ olduğu, yaxud öldüyü barədə cürbəcür yalanlar uydurur, dərhal ona yetirir, zavallının ümidlə ümidsizlik arasında çabalamasına səbəb olurdular. Ucsuz-bucaqsız dənizin qorxunc dalğaları qoynunda ləngər vuran qayıq kimi, qəm tufanına düşmüş pədərim ancaq o xəbərləri gətirənlərin sözləriylə təskinlik tapırdı, "Şəmsi filan yerdə gördüm" deyən adamın nəfəsindəki yalanı ayırd eləməyə çalışmadan, dərhal əynindəki xirqəsini, başındakı sarığını, belindəki qurşağını verir, şükür

duası oxuyur, uşaq kimi sevinirdi. Bir gün o cür xəbər gətirənə xirqəsini, çalmasını, başmağını verəndə Səlahəddin Zərkub dedi, şeyxim, belə yalançılara inanma, Şəmsi görməyib, pədərimin də simasına işıqlı məhzunluq qondu, cavab verdi ki, onun yalan söylədiyini bilirəm, amma yalan xəbərinə xirqəmi, sarığımı verdim, doğru olsaydı, əlbisə əvəzinə canımı verərdim.

Təbrizli Şəmsin *qeybindən* sonra Molla Cəlaləddin Bəlxinin aralarına qayıdacağını zənn eləyənlər yanıldılar, o, *Eşq aləmi*ni tərk eləmədi, gecə-gündüz səma süzüb şeirlər oxudu, qırx gündən sonra da hind parçasından xirqə geyindi, başındakı ağ sarığı boz sarıqla əvəzlədi, səma məclisləri düzəltməyi tapşırdı, Quran hafizlərini şeir oxumağa, çalıb-çağırmağa, xalqdan gizlin künc-bucaqda oturanları səma məclislərində süzməyə təhrik elədi, bu səbəbdən, özlərini mömin sayanlar pədərimə küfr saydıqları əməldən əl çəkməsi üçün dönə-dönə sərt ismarış göndərdilər, sonra bir dəstəsi yığışıb Qazı Siracəddin Urməvinin hüzuruna getdi, şəriət məsələsində Allahın buyruğundan çıxmayan Molla Cəlaləddin Bəlxinin bidət yoluna düşdüyü barədə şikayət elədi. Amma Qazı Siracəddin ağıllı adamıydı, bu fitnələrə uymadı, dedi, Molla Cəlaləddin öz Xudasını yaxşı tanıyır, *O*-nun buyruğuna zidd əmələ yol verməz. Fəqihlərin də, möminlərin də avam camaata qoşulub əleyhdarları sırasına qoşulmaları pədərimin könlünü incidirdi, onların hisslərini axara salmaq, könüllərinə sevinc gətirmək üçün qoxu, rəng, gül bağçaları haqqında şeirlər, qəzəllər deyir, can gülüstanında,Eşq çəmənində ilahi mizrabıyla könül tellərini tərpətməyə çalışırdı, amma bunların faydası olmadığını görəndə cəmi Konyadan soyuyub öz hücrəsinə çəkildi, Şəmsli aləmə daldı, ora məndən qeyrisinin girməsinə izin vermədi. Hətta Səlahəddin Zərkub, Məcidəddin Sipəhsalar, Hüsaməddin Çələbi belə üzünü doyunca görə bilmədiklərindən yanıb-yaxılmağa başladılar.

Pədərim *Eşq Günəşi*nin Şamda göründüyündən xəbər tutub yenidən dünyaya gələn adam kimi sevindi, hətta onun Tanrı ərlərinin sığınacağında, gündüzlər belə işığı görə bilməyən Günəş düşmənlərinin tənələrindən, qısqanclıqlarından, kinlərindən uzaqda olduğuna sevindi, Allahın onları ilk dəfə rastlaşdırdığı şəhərə getməsini xeyirli əlamət hesab elədi, dərhal da yola hazırlaşdı. Əlbət ki, bu xəbərin səhihliyinə inanmırdım, amma yenə də pədərimin gönül tufanını ovutması üçün fürsət saydım. Konyada artıq Ustadımın ölümüylə bağlı cürbəcür şayiələr dolaşmağa başlamışdı: deyirdilər, həmin gecə yeddi dərviş Şəmsi çağırıb, o da pədərimin yanından çıxıb dərgaha, həmin dərvişlərlə görüşə gedib, hətta yolda dua eləyib, "Rəbbim, bu quyu məzarım olsun" deyib, hər bir dərvişlə öz hücrəsində təkbətək görüşüb, hamısını da söhbətiylə bayıldıb; deyirdilər, axırıncı dərviş ən cüssəlisi, ən biliklisiymiş, onun öhdəsindən gələ bilməyəcəyini görüb namaz qıldığı məqamda öldürülməsini təvəqqe eləyib, namazdan sonra da, üstəlik, Şəms surəsini oxuyub; başqaları da deyirdilər, ölümü ərəfəsində pədərimə yaylıq göndərib, yaylığın üstündə *"Ölümümün gözlərinin qabağında olmasını istərdim ki, Eşq üçün ölməyin nə olduğunu görəsən"* yazılıbmış, o da bunu oxuyan kimi huşunu itirib, çünki Qadir Allah ona yuxusunda istəyinin yerinə yetirilməsi müqabilində nə verə biləcəyini soruşub, Həzrəti-Şəms də düşünüb-daşınmadan *"Qana boyanacaq başımı"* söyləyibmiş.

İkinci qeybində yenə Ustadımın Şamda olduğu barədə xəbər çıxanda mən əliuşaqlı Kərra Xatunu, yeni evləndiyim Fatma Xatunu tək qoya bilmədiyimdən, pədərimlə Səlahəddin Zərkub getdi. Elə həmin günün gecəsi də yuxuma Şəms Həzrətləri girdi. Çox məhzun görkəmi vardı, dərhal Can Dostunun ayrılığından necə həsrət çəkdiyini duydum. Dedi, ey Bəhaəddin, mərhəmətsiz adamların öldürüb atdıqları quyudayam, məni burdan çıxarıb dəfn eləyin. Sehirlənmiş kimi, səssiz-səmirsiz

qalxdım, sədaqətli müridlərdən bir neçəsini oyatdım, mədrəsədən çıxdıq, bir neçə küçə getdik, bir neçə tin burulduq, nəhayət, Şəms Həzrətlərinin nişan verdiyi, gözdən iraqda, kollar arasındakı quyunu tapdıq. Dörd qəndilin işığında müridlərdən ən ürəklisinin belinə kəndir bağlayıb quyuya salladıq, həqiqətən, Ustadımın cansız bədənini yuxarı çəkəndə Şama gedən pədərimi gözlərimin qarşısına gətirib sarsıldım. Yazbaşı olduğundan, hələ torpaq isinmədiyindən meyit iylənməmişdi, necə vardısa, elə qalmışdı, yalnız mübarək siması bir qədər dəyişmişdi, yaxşı tanınmırdı. Səhəri gözləməyib, müridlərin ayaqdan yeyin olanını dərgaha, Hüsaməddin Çələbinin yanına göndərdim ki, gizlincə özünü yetirsin. Hüsaməddinin mürşidini Şəms Həzrətlərinə qısqandığını, onun yerini tutmaq üçün alışıb-yandığını bilirdim, bu səbəbdən, sirri faş eləməyəcəkdi. Elə gecəykən Ustadımın meyitini mədrəsəyə apardıq, yudurtduq, kəfənlətdik, duasını oxuduq, binanı inşa etdirən Əmir Bəhaəddin Gövhərtaşın məzarı yanında torpağa tapşırdıq, üstünü də hamarladıq ki, kimsə duyuq düşməsin, mürşidimiz həyatda olduğumu müddətdə də sirrin açılmayacağına and içdik.

Pədərim Şamdan yayın axırında, əliboş qayıtdı. Orda mədrəsədən tanıdığı dostlarına hay salıb şəhəri axtartmış, amma bir iz tapa bilməyib çar-naçar geri dönməli olmuşdu. Könlündəki həsrət şəlaləsi daim çağlayır, mirsralara, beytlərə, rübailərə çevrilib dodaqlarından süzülür, ürəyimizi dağlayırdı. Deyirdi, ey Təbrizli Şəms, sənin ayrılığın məni əzdi, öldürdü, amma yüz dəfələrlə əzsən, tapdalasan, öldürsən belə, yenə sənin eşqindən ayrı düşmərəm. Bununla belə, get-gedə Can Dostunun cismani yoxluğuyla barışdığını, onu öz-özlüyündə ruhi varlığa çevirdiyini hiss eləyirdim. Günlərin birində ürəyini dağlamaq istəyənlərin göndərdikləri bir Allah bəndəsi gəlib Şəmsəddini gördüyünü deyəndə də nə sarığını, nə xirqəsini verdi, məhzun-məhzun gülümsəyib dedi, get, ondan Səmaya yolun hardan ucaldığını

soruş, zavallı adam da çaşdı, nə söyləyəcəyini bilməyib cəld aradan çıxdı. Amma pədərim Can Dostunu axtarmaqdan da əl çəkmədi, sonrakı il yollar açılar-açılmaz yenə Şama getdi, aylarla qalıb ruhunun bir parşçasını o şəhərin künc-bucağında axtardı. Dönəndən sonra həmsöhbəti Səlahəddin Zərkub oldu, Şəms Həzrətlərininsə bu dəfə öz içində Ay kimi nur saçdığını duydu, onun *qeybə çəkilməsi Eşq*lə aralarındakı maneəni yoxa çıxardı, pədərim yenidən *Eşq*lə doğuldu. Onda yazmışdı, *doğuş başa çatdı, indi Eşqdə doğulmuşam, mən özümdən daha böyüyəm, çünki iki dəfə – bir dəfə Şəmsdə, bir dəfə də Eşqdə doğulmuşam.* Amma ömrünün sonunacan Can Dostunun qeybə çəkilməsində Əlaəddinin əli olduğu şübhəsindən qurtulmadı, zavallı qardaşım on beş il sonra öldürüləndə də dəfninə getmədi, heç məzarı üstündə dua belə oxumadı.

Balıqçı Yağıbasan oğlu Firudina – Beyşehirin bir kəndindən gəlib Konyada zərgərlik, həm də bağçılıq öyrənən, qırx yaşında zərgərlərin piri seçilən, Sincaniyyə məscidində Seyyid Bürhanəddinin müridi olan Səlahəddin Zərkuba bu qədər dəyər verməsi həbibim Hüsaməddin Çələbinin heç xoşuna gəlmirdi. Səlahəddin Həzrəti-Şəmslə təxminən eyni yaşdaydı, gec evlənmişdi, Seyyid Bürhanəddinə tapınandan sonra kəndinə qayıdıb ailə qurmuş, bir cümə günü Konyaya dönəndə Əbülfəzl məscidində namazdan sonra vəəz eləyən validimi dinləyib cəzb olmuş, kürsüyə qaçıb ona tapınmışdı. Guya, pədərimin bir gün Zərgərlər çarşısından keçəndə Səlahəddinin məkanından gələn çəkic taqqıltılarının təsiriylə rəqs eləməsi barədə ağızdan-ağıza dolaşanlar uydurmadan başqa bir şey deyil. Can Dostuyla xəlvətxanada qalan vaxt qapıda Səlahəddinlə mənim dayanmağım, Həzrəti-Şəms gələndən sonra validimin yalnız Zərkubun təvəqqesiylə bir dəfə vəəz verməsi, söhbətlərində Şəmsi Günəşə, Zərkubu Aya, onusa ulduza oxşatması, üstəlik, Səlahəddinin Quran dərsi alan qızı Fatma Xatunu mənimlə ni-

kahlaması, Fatmanı sağ gözü, bacısı, sarayda yazı xocası olan Nizaməddin Xəttatın zövcəsi Hədiyyə Xatunusa sol gözü adlandırması barədərim Hüsaməddin Çələbinin heç döşünə yatmırdı.

Pədərimin axtarışlardan sonra ən böyük tapıntısı Şəms Həzrətlərinin ruhani surətini öz könlündə üzə çıxarmasıydı. Bununla bağlı deyirdi, *ey istəkli, tən sarıdan bir-birimizdən uzaq olsaq da, ikimiz də tənsiz, ruhsuz nuruq, ya onu gördün, ya məni, fərqi yoxdu, mən – oyam, o – məndi;* deyirdi, *soruşsan, bir halda ki, sən – osan, onda niyə axtarırsan, buna da cavabım var: onun haqqında ağızdolusu danışdığım gözəllikləri də mənimdi, eynilə küpün içində qaynayan şıra kimi, mən də qaynaya-qaynaya özümü axtarıram, çünki şıra kimsə üçün yox, yalnız özü üçün qaynayır.* Amma bəzən özünə belə şübhə eləyir, deyirdi, *nə mən – mənəm, nə sən – sənsən, nə də sən – mənsən, həm mən – mənəm, həm sən – mənsən, həm mən – sənəm;* deyirdi, *sənin-lə elə haldayam ki, dərk eləyə bilmirəm, mənmi sənəm, sənmi mənsən?* Əlbət ki, Ustadımın yoxluğundan mən də öz nəsibimi aldım, onun müdrik söhbətlərindən, həyat dərslərindən məhrum oldum, bununla belə o gələnəcən oğrun-oğrun yazdığım zəif şeirlərimin get-gedə məna qazandığını hiss elədim. Arabir üstü dümdüz olan məzarına baş çəkir, ruhuna dua oxuyur, bəzən özümü yerdə bir nişanəsi olmadığına görə, həqiqətən, qeybə çəkildiyinə inandırıram. Pədərim Haqqa qovuşandan sonra həqiqəti yalnız barədərim Əhməd Əflakiyə danışdım, özüm bu barədə susmağa üstünlük verdim. Beləcə, Şəms Həzrətləri günlərin birində qəfil Günəş kimi doğub Molla Cəlaləddin Bəlxini yenidən dünyaya gətirdi, onun *Eşq*dən bir daha doğuluşu üçün zəmin hazırladı, sonra da mələk kimi *qeyb oldu. "Ey Təbrizli Şəms, sən elə böyük varlıqsan ki, saysız-hesabsız lütflərin müqabilində aləm lap kiçilib, öz dəyərini itirib..."* – deyən Can Dostunun sözlərindəki mənanı məndən yaxşı anlayan yoxudu...

II
Hüsaməddin Çələbi:

Molla Cəlaləddin Bəlxinin adını ilk dəfə on üç-on dörd yaşlarında eşitdim, zəkasını, mərifətini elmini öyənsə doğmaca dayım Firudin ibn Əhməd Sipəhsalar idi. Əslimizin Urmiyədən çıxdığını, babalarımın Şeyx Əbül Vəfaya bağlı olduqlarını, Muhammməd bin Əxi Türk künyəli validimin Konya və ətraf obalardakı əxilərin şeyxi olduğunu, hörmət-izzət, mal-mülk sahibi kimi tanındığını da mənə o, söyləmişdi. Dayım Böyük Sultan Əlaəddinin qoşun başçılarından biriydi, səfərlərə getmiş, zəfərlər qazanmışdı, günlərin birindəsə Molla Cəlaləddin qarşısına çıxıb demişdi, ey Firudin, bir müddət cihadi-əsgərin sərkərdəsi oldun, bundan sonra xeyirxahlar sancağını götür, öz nəfsləriylə savaşanların sərkərdəsi ol. O da bəxtinə düşən səadətin qədrini bilmiş, hələ canında güc, qollarında qüvvət olsa da, dava paltarını soyunub, yaraq-əsləhəsini divardan asıb xirqə geyinmiş, külah qoyub sarıq sarımış, özündən on iki yaş cavan olan Molla Cəlaləddin Bəlxinin müridliyini qəbul eləmiş, dərgah ünvanıyla Məcidəddin Sipəhsalar kimi tanınmağa başlamışdı. O məqamda da validim Haqqa qovuşduğuna görə, yarənləri məni Konya əxilərinin başçısı seçmək istəmişdilər, amma dayım razı olmamış üstəlik, mədrəsəsinə göndərib öz yoluyla getməyə təhrik eləmişdi. Mürşidimin oğlu Bəhaəddinlə yaşıdıydıq, xasiyyətimiz də tuturdu, bu səbəbdən, tez yaxınlaşdıq, get-gedə Molla Cəlaləddinin etibar elədiyi üç-beş müridindən biri oldum, üstəlik, ondan Hüsaməddin – Dinin Qılıncı dərgah adı aldım. Bəhaəddini nəzərə almasaq, dayımla məndən irəlidə yalnız Səlahəddin Zərkub vardı, Firudin Yağıbasan adıyla Beyşehirdən gəlib Konyada zərgərlik eləmiş, sonra Cəlaləddin Bəlxinin sehrinə düşüb Səlahəddin ləqəbiylə müridinə çevrilmiş, var-yoxunu onun yolunda səpələmişdi. Mürşidimin oxuyub-yazmaq

bilməyən, məncə, cahilliyi ucbatından daha ədəbli görünməyə çalışan o adamda nə tapdığını nə dayım, başa düşdü, nə də mən ayırd eləyə bildim: onu həmsöhbəti, bu da azmış kimi, ilk xəlifəsi seçdi, qızı Fatma Xatunu oğlu Bəhaəddinə nikahladı, ailə fərdlərindən biri saydı, bu hal da ta ki Şəms Təbrizi gəlib Konyaya çıxana, hamını Cəlaləddin Bəlxinin həyatından sıxışdırıb çıxaranacan davam elədi.

Onda Böyük Sultan Əlaəddin Keyqubadın lələsi Bədrəddin Müslihin yenicə inşa etdirdiyi açıq həyətli, ikieyvanlı, ikiqatlı Sırcalı mədrəsəsində yenicə müdərrisliyə başlamışdım, dərslərdən qalan vaxtımı İplikçilər mədrəsəsində, mürşidimin xidmətində keçirirdim. Onun Şəmslə ilk görüşündə mən də vardım, qatırının yüyənindən tutmuşdum, qəfildən qarşımızda qara xirqəli, başında sərpuş, əlində əsa olan dərviş peyda odlu, simasını görəndə içimdən anlaşılmaz əsinti keçdi, dərk elədim ki, əlini atıb yüyəndən yapışan, ilahidən gələn hökmlə dayanmağımızı əmr eləyən şəxs coşub-daşan ümmandı, qabağına çıxan hər şeyi, hətta Bəhaəddini, pədərinin xas adamı Səlahəddin Zərkubu, dayımı, elə məni də silib-süpürəcək, mürşdimizi müridə çevirəcək. Onların mükaliməsindən hamı kimi, mən də heyrətə düşmüşdüm, qərib dərviş özündən gedib yıxılanda, Molla Cəlaləddin atdan enib fəryad qoparanda, mədrəsəyə aparmağı buyurub ayılanacan başını dizinin üstündə saxlayanda, ağlaya-ağlaya Rəbbin göndərdiyi Can Dostunu tapdığını söyləyəndəsə, hələ baş verənləri tamam dərk eləməmişdim, amma o gündən kimsəyə bir söz deməyib xəlvət çəkiləndə, yanlarına ancaq Bəhaəddini buraxanda, mürşidim dərsxananı, vəəzi, hədis məclislərini unudanda, tələbələr, müridlər, möminlər küncdə-bucaqda yox, açıq-aşkar narazılıqlarını dilə gətirəndə narahatlıq məni də bürüdü. Molla Cəlaləddinin can dostu olmağı arzulayan Səlahəddin Zərkubun çarəsizliyini görəndə gizli-gizli zövq aldığımı da söyləməyə bilmərəm, bəlkə, elə bu səbəbdən, Bəhaəddin-

lə çiyin-çiyinə verib mürşidimi də, Təbrizli Şəmsi də qorumağa, nahaq söz söyləyənləri susdurmağa çalışdım, sonacan da bu yoldan dönmədim.

Şəms Həzrətləri o vaxtacan eşitdiyim-gördüyüm ən böyük elm-irfan əhliydi: Mühyiddin əl-Ərəbinin, Seyyid Bürhanəddinin irşad söhbətlərində olub söylədiklərini eşitmişdim, amma heç biri düşüncələrimə onun fikirləri qədər təsir eləməmişdi. Mürşidimlə xəlvətə girmələrindən az sonra sədaqətli mürid kimi, mənim də xidmətimə ehtiyac duydular, hərdən şəhər əhlinin, tələbələrin, müridlərin, möminlərin halından xəbər tutmaq üçün hücrələrinə girməli olur, çox vaxt dinməzcə üz-üzə, dizdizə oturub bir-birinin camalına tamaşa elədiklərini, könüllə-riylə danışdıqlarını görürdüm. Bir dəfə də sanki mənim hücrədə olduğunu unudub xəyalattək, asta-asta yerlərindən qalxdılar, üz-üzə durub sağ əllərini sol, sol əllərini sağ çiyinlərinə qoydular, başlarını aşağı salıb bir anlığa susdular, sonra könüllərinin havasında asta-asta fırlanmağa başladılar, sağ əllərinin ovcu göyə, sol əllirinin ovcusa yerə açıldı, sürətləri get-gedə artdı, ta ki cəzb olunub yıxılanacan eləcə fırlandılar. Bunu heyrət içində Bəhaəddinə danışanda təəccüblənmədi, səmaya durduqlarını söylədi, xəlvətdən çıxandan sonra Səlahəddinin evində neyin müşaiyətiylə səma məclisi qurulanda da düşdüyüm sehirdən uzun müddət qurtula bilmədim. Dayım da mürşidimizlə Zər-kubun arasına o qərib dərvişin girməsindən məmnun olmuşdu, fikrincə, gec-tez Şəms Təbrizi çıxıb gedəcək, yeri bizə qalacaqdı, o vaxtacan da səy göstərib buna haqqımız çatdığını sübut eləməliydik.

Şəms Həzrətlərinin söhbətlərini eşidəndə tüklərim biz-biz olur, indiyəcən gördüyüm həlim, itaətkar, müti elm-irfan adamlarıyla müqayisə belə eləyə bilmirdim. Deyirdi, mən sadə, qorxu-hürkü bilməyən adamam, nə Mövlananın ayrılığından əzab, nə də onunla qovuşmağımızdan sevinc duyuram, bir şey-

dən xoşlanmağım da, incimiəyim də yaradılışımın gərəyidi; deyirdi, mənimlə yaşamaq çətindi, eynilə Musa Peyğəmbərin diləyi Xızırla görüşmək xətrinə yox, Allaha qarşı duyduğu istək atəşindəydi; deyirdi, əsl şeyxin heç başmağının tozunu belə bu zəmanə şeyxlərinin də, aşiqlərinin də cəminə dəyişmərəm, kölgə oyunçuları kimi, pərdə arxasında xəyallar göstərənlər o saxtakarlardan daha yaxşıdılar, çünki hamısı hoqqabazlıq elədiyini deyir, oyunlarının yalan olduqlarını gizlətmir, bu işi çörək qazanmaq üçün gördüklərini açıq söyləyirlər, ona görə də o hoqqabazlar şeyxlərdən üstündülər; deyirdi, görürsən, danışdıqları daim ondan-bundan iqtibasdı, kiminsə ya hədis, ya hekayət, ya da şeirini söyləyir, özlərindən bir şey danışmırlar, deyirəm, öz tapıntılarından, varidatından bir şey danış görək, nə vaxtadək ondan-bundan rəvayət söyləyib öyünəcək, atsız yəhərdə oturub ərlərin meydanında çapacaqsan; deyirdi, belələrindən aralarında Rəbbinin ona filan xəbəri verdiyini söyləyəcək bir kəs olub-olmadığını, nə vaxtacan kor topal kimi başqalarının əsasıyla yeriyəcəklərini soruşuram; deyirdi, hədis, hikmət, şeir nağıl eləməklə söylədiyiniz o sözlər həmin zamanda yaşamış, hər biri də öz vaxtında ərlik məqamına çatmış kəslərin sözləridi, onlar özlərinin keçirdikləri hallardan söz açırdılar, bir halda ki, o danışanlar bu dövrün ərləridilər, onda öz sirləri, öz sözləri olmalıdı.

Düzü, Şəms Həzrətlərinin Şama getməsini də Konya əhlindən inciməsi, yaxud qorxması kimi qəbul eləmədim, çünki elə cəsarətli, elə qorxmaz zatıydı ki, ölümdən belə çəkinməzdi. Bəhaəddinin izahına görə, *Allaha gedən yol* nəfsi öldürmək, susmağı öyrənmək və yanmaq mərhələlərindən keçir, mürşdimiz birinci iki mərhələdən keçmişdi, indi bu ayrılıqla Şəms Həzrətlərinin simasında Rəbbimizə olan *Eşq*i daha da alovlanmalı, özü də yanıb bişməliydi. Gecə-gündüz dinclik bilmədi, arayıb axtardı, səslədi, yalvardı, dua elədi, Şama məktublar göndərdi,

Konya əhli də onun halını, bu yolla minbərə qaytara bilməyəcəyini görüb ayağına gəldi, üzrxahlıq elədi, Can Dostunu qaytarsa, bir daha incitməyəcəyinə söz verdi, yalnız dinclik tapandan sonra istəklərinə çatacaqlarına ümid bəslədi. Bəhaəddin Şəms Həzrətləriylə Konyaya dönəndə də pişvazına çıxmış mürşdimin atının yüyənindən mən tutmuşdum, onun necə can hövlüylə endiyini, qaça-qaça Can Dostuna doğru yüyürdüyünü görəndə qarşıda bizi daha çətin günlərin gözlədiyini dərk elədim. Sələhəddin Zərkubun qızı Fatma Xatunu Bəhaəddinə, öz qızlığı Kimya xatunu da Şəms Həzrətlərinə nikahlayanda da yolumuzun hər iki tərəfdən kəsildiyini duyub bir müddət ümidsizliyə qapıldım. Üstəlik, Can Dostu dönsə də, dərsxanaya, minbərə, hədis məclislərinə qayıtmadığına görə, Konya əhlinin daşan səbri, Əlaəddinin hirsi-hikkəsi ortada gec-tez tufan qopacağından xəbər verirdi.

Səms Təbrizi *qeyb olandan* sonra mürşidimin Can Dostunu Sələhəddin Zərkubda tapması, daim onunla uzun-uzadı söhbətlər eləyib südlə şəkər qarışan tək bütövləşməsi, həmsöhbətini xəlifə seçib sükunətə qapılması məni əməlli-başlı rəncidə eləmişdi. Mürşidim Səmsi tapmaq ümidiylə Şama gedəndə məni Konyada vəkil qoyması da heç könlümü açmadı. Şamdan dönəndən sonra Sələhəddin Zərkub xəlifə kimi dərgahın bütün işlərini əlinə aldı. Müridlərin bir qismi onu cahil sayır, şeyxlik məqamına layiq olmadığını aşkar-gizli dilə gətirirdi, hətta bəziləri xəlifəni öldürüb basdırmaq fikrinə düşmüşdü, amma Sultan Vələdlə bundan vaxtında xəbər tutub qəsdin qarşısını ala bildik. Sultan Vələdin dediyinə görə, Sələhəddin vaqeəni eşidəndə gülmüş, mürşidinin istəyiylə xəlifə seçildiyini, onun həqiqətinə ayna olduğunu, buna görə də qəsdlərdən qorxmadığını söyləmişdi. Zahiri batinindən üstün olan, oxuyub-yazmaq bilməyən, danışanda kəlmələri səhv tələffüz eləyən Sələhəddini mürşidim dərin mərifət sahibi, qeyb aləmindən xəbər verən, za-

hirdə avam görünüb, batində ariflər zümrəsinə mənsub sufi sayırdı, hətta müridlərdən biri arif adamı vəsf eləməsini istəyəndə "Arif – sən susanda sirrindən söz açan kimsədi, o da Şeyx Səlahəddindi" demişdi.

Şəms Təbriziylə Cəlaləddin Bəlxinin arasındakı mürid-mürşid əlaqəsi deyildi, onu da ötüb başqa məqama yetişmişdilər, Şəms Həzrətləri də o məqamı *Allahın Məhbubluğu* adlandırırdı. Gərək nəfsini öldürəydin, susmağı bacaraydın ki, o məqama gedən yolun açılaydı. Bəhaəddindən sonra mən də Şəms Həzrətlərinin ətəyindən yapışmaq istədim, günlərin birində cəsarətimi toplayıb istəyimi söylədim, bir müddət susub, dedi, ey Hüsaməddin, bu yol çətin yoldu, gərək bütün məşəqqətlərə dözməyə hazır olasan, əvvəlcə var-yoxundan keçəsən, dedim, sizə qurbandı, səhəri gün də nəyim vardısa gətirib qarşısına qoydum; Şəms Həzrətləri o sərvətdən bircə dirhəm götürdü, qalanını geri qaytardı, dedi, ey Hüsaməddin, malından-mülkündən keçməyə könül ucalığıyla hazır olmaq tamahını öldürdüyünün nişanəsidi, deməli, *Allahın Məhbubu* olmağa doğru ilk addımı atmısan. Həmin gündən özümü təkkəsiz-filansız olan ilahi dərgahının müridi hesab elədim, ondan çoxlu iltifat gördüm, mürşidimin yanında olduğu müddətdə Səlahəddin Zərkubdan daha irəli getdiyimi hiss elədim. Amma bu lütf Şəms Həzrətləri Şama gedənəcən süzdü, onun yoxluğunda Zərkub yenə mürşidimin yanında boş qalan yeri tutdu, Bəhaəddinlə Fatma Xatun nikahlarından sonra da aralarından su keçmədi, daha doğrusu, aralarında Şəms Həzrətlərinin nurundan başqa bir şey qalmadı. Yəqin, bu səbəbdəndi ki, Zərkub mürşidimin könül dostunun tapılmasında, illah da, Konyaya dönməsində heç maraqlı deyildi, qayıdandan sonra hal-tövrü şirnisi əlindən alınmış uşağı xatırladırdı, amma Molla Cəlaləddindən başqa gedəcək yeri olmadığına görə, dözür, fikrimcə, öz vaxt-vədəsini gözləyirdi.

Görünür, xəlifəlik məqamı onu təmin eləmirdi, gözü Şəmsin yerindəydi.

Şəms Həzrətlərinə basqına gələnlər arasında Əlaəddin Çələbi vardımı, onları Səahəddin Zərkub təhrik eləmişdimi, quyudan tapdığımız meyit Ustadımızın idimi, yoxsa *Allahın Məhbubu*, həqiqətən, *qeybə* çəkilmişdi – bu suallar məni çox düşündürdü, amma heç birinə doğru-düzgün cavab tapa bilmədim. Bəhaəddin deyirdi, basqınçılar yeddi nəfər olublar, Şəms Həzrətlərinə bircə xəncər zərbəsi vura bilib, onun "Allah!" nərəsini eşidəndə, az qala, özlərindən gedib, sonra pərən-pərən olublar, mürşidim bayıra çıxanda yerdəki qan damcılarından başqa bir şey görməyib. O gecə quyudan çıxardığımız meyitin də Şəms Həzrətlərinə məxsus olduğuna tam əmin deyiləm, çünki üstündən, azı iki ay keçmişdi, iylənməsə də, rəngi dəyişmişdi, təxmini yaşı, xirqəsi, saç-saqqalı onu xatırlatsa da, imanımı yandırıb, qəti bir söz deyə bilmərəm. Əlaəddin Çələbinin Şəms Həzrətlərindən xoşu gəlmədiyi kimsəyə sirr deyildi, bir neçə kərə də onunla hörmətsiz davrandığının şahidi olmuşdum, Şamdan dönəndən, Kimya Xatunla nikahlanandan, xüsusilə, Kimya Xatun dünyasını dəyişəndən sonra da mürşidimin nakam oğlu açıq-aşkar təhdidə keçmişdi, amma o gecə yeddi nəfərdən birinin, hətta şayiələrə inansaq, qatilin Əlaəddin Çələbi olduğunu da qəti söyləyə bilmərəm. Düzdü, o qətldə adları çəkilənlər bir-birinin ardınca müəmmalı tərzdə öldülər, amma heç vaxt Bəhaəddin də, mən də Əlaəddinin adını dilimizə gətirmədik. Sonralar hətta Şəms Həzrətlərinin məhz mədrəsənin mürşidim yaşayan qismində yox, İplikçilər karvansarayında öldürüldüyü, qatillərin də Əlamut fədailəri olduğu, müridlərin meyitini gecəykən tələm-tələsik daş sənduqəyə qoyub yaxınlıqda basdırdıqları barədə şaiyə də eşitdim.

Mürşidim Şəms Həzrətlərini Əlaəddin Çələbinin öldürdüyünə inanırdımı – bunu da heç vaxt ayırd eləmə bilmədim, çünki

Can Dostunun cismani məhvinə inanmayan, daim onu axtaran adam, məncə, belə fikri beynindən keçirməzdi. Amma yolsuzluğuna, şübhəli kəslərlə oturub-durduğuna, Can Dostuna hörmətsizlik göstərdiyinə görə, mürşidim oğlunu bağışlamadı, cavanca yaşında ağır xəstəliyə düçar olub Haqqa qovuşanda da övladına sarı üz çevirmədi. Neçə illər sonra pədəri Sultan-ül-Üləmanın qəbrini ziyarət eləyəndəsə tab gətirmədi, Əlaəddin Çələbinin də qəbrinə baş çəkdi, yanında olan müridi Fəxrəddin Müəllimdən mürəkkəb-qələm istəyib, günbəzinin üstünə *"Sənin mərhəmətinə yalnız yaxşılar ümid eləyə bilərsə, bəs biçarə gedib kimə sığınsın, // Ey kərim olan Allah, yalnız yaxşını qəbul eləyirsənsə, bəs yaman kimə yalvarıb-yaxırsan?"* beytini yazdı, sonra bizə dedi, qeyb aləmində şeyxim Şəms Təbrizinin onunla barışdığının, qəbahətini əfv elədiyinin, şəfahət buyurduğunun, onun da, axır ki, rəhmət oxunanlara qarışdığının şahidi oldum, köhnəliyinə görə kimsənin üzünə baxmadığı qumaşı uca Rəbbim kərəmi sayəsində satın aldı. Onda mürşidimin Can Dostunu Əlaəddin Çələbinin öldürmədiyinə, onun, həqiqətən, *qeybə çəkildiyinə* inandığını hiss elədim. Əlbət ki, hər şeyin düzünü yalnız Allah bilir.

Amma bir həqiqət var: mürşidim Şəms Həzrətləriylə rastlaşandan sonra heç vaxt əvvəlki zat olmadı, dərsxanadan, minbərdən, məclislərdən uzaq düşdü, səma süzməyə, şeir deməyə başladı, dərgahın işlərini də xəlifəsi Səlahəddin Zərkuba tapşırdı, onunla Şama, inciyib gedən Can Dostunu axtarmağa yollandı. Sədaqətli müridlərinin söylədiyinə görə, Maqdisiyyə mədrəsəsindən tanıdığı dostlarını töküb Şamın küçələrini, məhəllələrini, dərgahlarını, karvansaraylarını, məscidlərini, mədrəsələrini axtarmış, demişdi, ey Şəms Təbrizi, səni nə vaxtacan ev-ev, qapı-qapı axtaracağam, nə vaxtacan məndən qaçıb gizlənəcəksən? Sonra dərdinin ağırlığından, az da olsa, qurtulmaq üçün həmsöhbətə ehtiyac duyduğu məqamda Səlahəddin Zərkubun

arxayınca keçib Şəms Həzrətlərinin yerində oturması, əlbət ki, məndən ötrü çox da asan deyildi, mürşidimin Şəmsi onun simasında tapmasından əməlli-başlı kədərlənmişdim. Düzdü, məndən də iltifatını əsirgəmirdi, amma mədrəsə üzü görməmiş, oxuyub-yazmağı bacarmayan, təkcə abrıyla tanınan Zərkubu mürşidimizin gözündə ucaldan nəsnənin nə olduğunu sonralar dərk elədim: o Allah bəndəsi susmağı bacarırdı, bu da həmin məqamda Mövlananın çox dəyərləndirdiyi cəhətiydi. Amma bir daha deyirəm: mürşidim Şəms Həzrətlərinə rast gələndən, illah da, o, *qeybə çəkiləndən* sonra heç vaxt əvvəlki zat olmadı...

III
Niğdəli Cəfər:

Səhər əzanından sonra əllərimdə iki kisə hücrəmdən çıxanda karvansarayçı Möhbəddin dedi, ah, Qarabasan, övladım, bir az gözləyəydin, hava ağaraydı, hara tələsirsən, Niğdədə ocaq üstündə yağın ha daşmır. Dedim, yolçu yolda gərək, mən Qeysəriyyə yoluna çıxanacan səhər açılar, bəxtim gətirib, gün də işıldasa, Konyadan xeyli aralanmış olaram. Karvasarayçı buyruqçusuna qatırımı gətirməyi tapşırıb, yarızarafat-yarıciddi dedi, belə alatoran vaxtda gözünə bu dəfə hansı məxluqat görünəcək, Allah bilir, ötən səfər üçdöşlü zənəni aparıb Niğdəyə çıxara bilməməyindən yanıb-yaxılırdın, bu səfər, Allah eləməmiş, kəsikbaş dərvişə-filana gələrsən, ehtiyatlı ol. Soruşdum ki, kəsikbaş dərviş ağlına hardan gəldi, ey Möhbəddin, yoxsa qulağına bir səs-səda dəyib. Karvansarayçı həmişəki kimi, verdiyim dirhəmləri qarşağındakı kisəyə qoya-qoya dedi, bu gecə aşağı tərəfdə səs-küy vardı, qulağıma çatanlara görə, yeddi mömin bir kafir təbrizlini öldürüb, amma nə gövdəsini, nə də başını qətl yerində görən olub, indi Molla Hünkarın adamları şəhərdə onu axtarırlar. Məndən çıxmayan iş, eyməndim, cismimdən keçən

titrəyişi boğmaq üçün dedim, mənim bağlamamı da unutma, Möhbəddin də axşamdan hazırladığı, bir mənzilə bəs eləyəcək yemək bağlamasını gətirdi, növbəti dəfə gələndə Niğdə pendiri gətirmək barədə axşamkı xahişini bir də xatırladıb öz işinin dalınca getdi. Bu məqamda buyruqçu palanlanıb, ifçinlənmiş qatırı tövlədən çölə çəkdi, kisələri belinə çatmağa kömək elədi, saman kisəsini də üstünə qoydu, haqqını aldı, uğurlu yol arzulaya-arzulaya çölə çıxarıb darvazanı bağladı, beləcə, "ya Allah!" deyib Qeysəriyyə səmtinə üz tutdum.

Mən Niğdəli Cəfərəm, bir çətən külfətim-övrətim, altı balam var, onları ayda bir dəfə Konyaya gəlib çarşı-bazardan xırda-para şeylər – iynə, sap, ip, düymə, təsbeh, gözmuncuğu, belbağı, ucuz üzük, qolbaq, sırğa, sinəbənd... - alır, Niğdədə küçəbəküçə, məhəlləbəməhəllə düşüb yarınisyə-yarınağd satır, külfətin dolanacağını yoluna qoyur, nisyələrimi yığandan sonra təzədən Konyaya üz tuturam. Beləcə, iyirmi ildi, yollardayam, bu müddətdə taxta üç sultan çıxıb, qiyamlar, savaşlar, basqınlar olub, iki dəfə soyulmuşam, Böyük Əlaəddinin vaxtında düz saraya gedib şikayət eləmişəm, bir həftəyə soyğunçuları tapıb əlimdən aldıqlarını geri qaytarıblar, Qiyasəddinin vaxtındasa, it də gedib, ip də, şikayətimə baxan tapılmayıb, bu səbəbdən, borc-xərc eləyib işimi təzədən yoluna qoymuşam. Mən hələ bətnində olanda cənnətməkan validəm bərk qorxub, dediyinə görə, nənəmi hal arvadı aparıbmış, həmin məqamda da keçirdiyi qorxu validəmə, ondan da övladlarına, o sıradan mənə keçib, tək qalanda bəzən gözümüzə cürbəcür məxluqlar görünür. Ötən səfər heç bir mənzil getməmişdim, bir də baxdım, yanımda üçdöşlü zənən var, göz-qaş eləyib məni yolumdan çıxarmağa çalışır. Özümü bərkidib onun naz-qəmzəsinə fikir vermədim, dincimi almaq üçün dayananda da yanımdan əl çəkmədi, üçüncü döşünü çıxarıb lıqqalıqla əmdi, doyandan sonra gözləri xumarlana-xumarlana üstümə gəlməyə başladı, amma Allah üzümə

baxdı, o məqamda da yolda karvan göründü, canımı o ləçərin əlindən qurtardı. Dedim, məni Niğdədə Cərçi Cəfər kimi tanıyırlar, üstəlik, bu cür vaqeələrə görə, adıma Qarabasan Cəfər ləqəbi yaraşdırıblar, bunlar azmış kimi, gözəgörünməz məxluqatla məhrəmliyim üzündən Cin Cəfər ayaması da almışam.

Karvansarayçı Möhbəddinin kəsikbaş dərviş barədə dedikləri canıma vicvicə salmışdı, Konyanın hələ toranlıq küçələrindən keçib Qeysəriyyə yoluna çıxanacan o vəsvəsədən qurtula bilmədim, gerçəklikdən uzaqlaşmamaq üçün tez-tez köks ötürdüm, gəyirdim, burnumu çəkdim, arabir şallağımı şaqqıldatdım, hər rastıma çıxan qaraltıya diqqətlə baxdım, külfətimlə, güzəranımla bağlı şeylər barədə düşünməyə başladım: övrətimə şal vəd eləmişdim, lap yaxşısından aldım; bir cüt qızıma qolbağ söz vermişdim, onu da tapdım – elə ustalıqla düzəldiblər heç əslindən seçilmir, görən qızıldan olduğunu sanar; Təpəbaşı məhəlləsindəki dul Mələksə qulağıma gecə köynəyi almağı pıçıldamışdı, övrətimin gözündən iraq, onu da yerinə yetirdim; bircə çölməkçi Munisin ismarışına əməl eləyib ney ala bilmədim – əlini kisəsinə salsaydı, əlbət ki, bir çətinliyi olmazdı, amma nisyə məsələsində tövbəliyəm, alacaqlarımın sayı-hesabı yoxdu, Munisə də deyərəm, üzürlü hesab elə, bu səfər çala bilmədin, inşallah, gələn səfər çalarsan, başa düşsə, pulunu verər, başa düşməsə, çala-çala gedər. Salamatlıq olsa, cümə günü namazacan özümü Niğdəyə yetirərəm, təki yolda yağışa, qara-borana düşüb vaxt itirməyim. Ötən səfər Konyadan çıxmamış yağışa düşdüm, iki gün karvansaray hücrəsində dustaq kimi zülm çəkdim, gözlərimə o qədər məxluqat göründü ki, az qaldım, ağlımı itirim, şükür ki Möhbəddinin sayəsində qurtuldum, inşallah, bu səfər başıma elə vaqeələr gəlməz.

Amma yox, deyəsən, qabaqda kimsə gedir, həm də elə yeyin addımlayır, elə bil, Möhbəddin demiş, ocaq üstündə yağı daşır. Əlbət ki, qulaq yoldaşı olsaydı, gap-gələcə eləsəydi, nə dərdi

vardı, bu qış günü yolu xeyli qısaldardıq. Bunları beynimdən keçirə-keçirə şallağımı şaqqıldatdım, qatırımın noxtasına bağlanmış kəndiri dartıb irəlidə gedən Allah bəndəsinə yetişməyə çalışdım. Ta ki Konyadan çıxıb anayola düzələnəcən beləcə irəlilədik, bu müddətdə də sezdim ki, o məxluqun, elə bil, başı yoxdu, daha doğrusu, başı qoltuğundadı, sağ əliylə bərk-bərk tutub. "Əstəğfurillah!" dedim, salavat çevirdim, əlimi alnıma çəkdim, gözlərimi bərk-bərk ovuşdurdum, amma gördüyüm yuxu-filan deyildi, bunu tam ayırd eləmək üçün ucadan hayxırdım, sonra şallağımı bərkdən şaqqıldatdım, qatır da, deyəsən, təhlükə duyub fınxırdı. Yox, belə yuxu, ya qarabasma olmazdı: o məxluq addımlarını yavaşıtdı, yönünü mənə sarı çevirdi, qoltuqdakı başın həqiqi olduğunu o məqamda qəti dərk elədim, karvansarayçı Möhbəddinin gecə başı kəsilmiş təbrizli dərvişlə bağlı söylədiklərini xatırlayanda da dizlərim boşaldı, az qaldı yıxılam. Hardansa mənə tanış gələn başın gözlərində mərhəmət sezildi, dodaqları tərpəndi, dedi, ey yolçu, yolun uğurlu oşlun, Allahın kölgəsi üzərindən çəkilməsin; o məqamda da gerçəklik-lə xəyal arasındakı divar yıxıldı.

Bu dəfə saqqalımı dartdım, yanağımı çimdiklədim, dilimi ağrıyanacan dişlədim, amma gözlərimin qabağındakı məxluq nəinki yox olmadı, heç dəyişmədi də. Daha özümü əziyyətə salmadım, ta uşaqlıq çağlarımdan belə şeylərə alışmışdım, yəqin, Sakyatanda, İsmildə, Kəsməzdə, ya da Əziziyyədə qeybə çəkiləcək, mənimlə Niğdəyə gedib çıxmayacaqdı. Ötən səfər üçdöşlü arvad Kəsməzdə cinbata çəkildi, heç öldüsü-qaldısa da məlum olmadı, kəsikbaş dərviş də, yəqin, uzaqbaşı, Əziziyyəyədə qeybə çəkilər. Niyə Ağsaray yoluyla getmədiyimi dilimə gətirib özümü töhmətləndirməyə də dəyməz, bu yola həm yaxşı bələdəm, həm də alışmışam, çox vaxt Eregliyə də girmirəm, quzeydən keçən yolla düz Əziziyyəyə gedib çıxıram, ordan da əl uzatsan, Niğdəyə çatar. Fikirləşdim, əslində, ger-

çəklikdə də olsa, xəyalda da olsa, yol yoldaşı tapmaq Allahın lütfüdü, ən azı, adam özünü tək hiss eləmir, söz-sözhbətlə yolu gödəldir, dedim, ey dərviş, sənə də uğurlu yol diləyirəm, sonra da son mənzilinin hara olacağını soruşdum. Biçarə, yəqin, məni oxumaq-yazmaq bilən, dünyanın gərdişindən baş açan Allah bəndəsi saydı, köksünü ötürdü, dedi, hamının son mənzili bəllidi, doğulandan-ölənəcən o mənzilə can atırıq, orda kimin nə vaxt, necə çatacağı ancaq Rəbbimizə məlumdu; dedi, biri elə mən – doğulduğum şəhərdən çıxanda elə bilirdim, bir-iki ildən sonra geri dönəcəyəm, amma yollar məni çəkib apardı, alın yazımın ardınca düşüb şəhərlər dolaşdım, bir də gördüm, Konyaya, dər-üs-səltənəyə gəlib çıxmışam. Bu məqamda bir anlığa susdu, köks ötürdü, nəzərlərini ətrafa gəzdirib sol əlini – sağ əliylə başını qoltuğunda tutmuşdu axı - saqqalına çəkdi, o məqamda ağlımdan keçdi ki, başını qatırımın belindəki saman kisəsinin üstünə də qoya bilər, onda da yol yoldaşımın yeriyən bədən, yoxsa danışan baş olduğunu ayırd eləmək lazım gələcəkdi.

Sonra kəsikbaş dərviş Konyaya gəlib çıxmasının səbəbini üstüörtülü olsa da, söylədi, dedi, inci axtarırdım, amma o incinin necə, harda olduğunu bilmirdim, röyamda görmüş, vurulmuş, axtarmağa başlamışdım, Yusif Peyğəmbər *(s. a.)* də yuxusuna inanmışdı, Ayın, Günəşin, ulduzların ona nəyə görə səcdə elədiyini bildiyi üçün quyuya atıldığı məqamda belə, heç halını pozmurdu; dedi, mən də cəvahir tüccarı kimi, nəhayət, Konyaya yetişdim, sonsuz dəryamdan inci çıxaran dalğıcı tapdım, o inci ikimizin aramızda yola çevrildi, çoxları həmin inciyə yol tapmağa can atdı, qarşılarında *Allah yolu*na gəlmələri şərtini qoydum; dedi, biri də soruşdu, *Allah yolu*nunun hansı yol olduğunu göstərərsənmi, cavab verdim, əlbət ki, göstərərəm: məsələn, Ağsaraya gedəndə körpüdən keçməli olursan, Haqqa gedən yolun körpüsü də Quranın Tövbə sürəsindəki *"Onlar*

nəfsləriylə savaşdılar” ayəsindən keçir: əvvəlcə mal-mülkdən əl çəkməli, olan-qalanını başqalarına paylamalısan. Burda fikir məni götürdü: tutaq ki, mən – Allahın fəqir bəndəsi niğdəli Cəfər Haqqa yetişmək istəyirəm, olan-qalanım da elə qatırın belindəki iki kisə xırım-xırda, bir də qurşağımın altındakı beş-on dirhəmdi, onları da başqalarına paylasam, Haqqa ac-yalavac necə yetişə bilirəm, üstəlik, evdə bir çətən külfətim var, hamısı ağzını açıb yemək gözləyir. Bir daha əmin oldum ki, Haqqa yetmək mənimkimilərin işi deyil, gün-güzəranımın dərdini çəksəm, daha yaxşı olar. Kəsikbaş dərviş halımı duyub kədərlə gülümsədi, deyəsən, fikrimdən keçənlər ona ayan olmuşdu, sonra köks ötürdü, nəzərlərini irəli dikib xeyli müddət dillənmədi.

Sakyatandakı karvansaraydan əvvəl günorta namazını ağac altında qıldıq, daha doğrusu, o məqamda Allah, elə bil, kəsikbaş dərvişlə aramıza pərdə çəkdi, səsini eşitsəm belə, necə namaz qıldığını, yemək yediyini görmədim, - bəlkə, nə namaz qıldı, nə də yemək yedi, - bir də onda özümə gəldim ki, yoldayıq, yenə başı sağ qoltuğundadı, Haqqa yetişməyin fəzilətlərindən danışır. Karvansarayda da necə hücrə aldığını, hansı hücrədə yatdığını, yatanda başını qırağa qoyub-qoymadığını bilmədim, bir də səhər kisələrimi qatıra yükləyib, aldığım saman kisəsini üstündə rahlayıb yola düzələndə gördüm, yenə dünənki kimi, yanımca becid-becid yeriyirdi. Köhnə tanışlarsayaq salamlaşdıq, mərifət əhlinin fəzilətləriylə bağlı danışdıqları İsmiləcən davam elədi. Sonrakı günlərimiz də bir-birinə oxşadı, bir də baxdım, Əziziyyəyə çatmışıq, bir azdan Niğdəyə girəcəyik. O məqamda ağlıma gəldi ki, Niğədədə qalıb-qalmayacağını, dördgünlük yolun xətrinə yardıma ehtiyacı olub-olmadığını soruşum. Cavabında dedi, hər şey Allahın təqdirindən asılıdı, bəlkə, elə Niğdə son mənzilim olacaq, məscid küncündə, karvansaray hücrəsində cismim boyda yer taparam, sonrası Allah bilən məsləhətdi. Gövdəsinin çiynindən dağarcığı, sinəsindən sallanan açarı,

barmağındakı üzüyü indi gördüm, gözlərimi bir neçə kərə yumub-açdım, alt dodağımı dişlədim, şallağın dəstəyini bərk-bərk sıxdım, amma heç nəyin dəyişmədiyini görüb qərarsız qaldım, Niğdəyə çatanda da məscidi o qəribə nişan verib halal-hümbət elədim, qatırı dəhmərləyib evə tez çatmağa çalışdım.

Həmişəki kimi, ikihəftəlik ayrılıqdan sonra külfətimlə qovuşmağım mənə kəsikbaş dərvişi bir müddət unutdurdu, övrətim "xoşgəldin" eləyib, şirin-şirin gülümsədi, üstəlik, mənalı-mənalı gözlərini süzdürdü, başa düşdüm ki, bir azdan çimib yolun yorğunluğunu canımdan çıxarmalı, axşam qopacaq qiyamətə hazır olmalıyam. Övrətim şalını, qızlarım saxta bilərziklərini alıb çiçək kimi açıldılar, oğullarımın hərəsinə Konyaya çatdığım gün İplikçilər çarşısında qara cübbəli, qəribə sərpuşlu dərvişdən ucuz qiymətə aldığım bir belbağı verdim, dul Mələksənin gecə köynəyini də bərk-bərk gizlətdim ki, ələ keçməsin. Sabah səhərdən Niğdəni küçə-küçə, məhəllə-məhəllə dolaşacaq, gətirdiyimi xırıd eləyəcək, arada fürsət tapıb qaş qaralandan sonra Mələksənin *"istəyini"* yerinə yetirəcək, çölməkçi Munisə ismarışının gələn səfərə qaldığını deyəcəkdim. Hər şey elə bu cür də oldu, amma səhər heç bismillah eləyib alverə başlamamışdım ki, dedilər, bir az əvvəl aşağı məhəllədə kəsik baş tapıblar, guya, bir gövdənin o başı yerə atıb uzaqlaşdığını görən də varmış. Başıma gələni – o kəsikbaş dərvişlə Konyadan bəri yol yoldaşı olduğumu, mənim ağlım çatmayan, qəribə söhbətlərini dinlədiyimi – söyləmədim, onsuz da əskim tüstülüdü, adıma əbəs yerə Qarabasan Çəfər demirlər, düşər-düşməzi olar, yenə ağlımın azdığını, gözümə cin-şeytan göründüyünü, bəlkə, elə o dərvişi mənim öldürdüyümü, başını kəsib bədəninin hardasa gizlətdiyimi fikiləşərlər, kim bilir. Axşam qıraq məhəllələrdən dönüb, yolüstü dul Mələksəyə baş çəkib evə qayıdanda bu xəbəri, üstəlik, başın dəfn edildiyini əlüstü yetirən övrətimə də bir söz demədim. Amma iki həftədən sonra Konyaya səfərimdə

karvansarayçı Möhbəddindən o gecə öldürülən kəsin hekayətini eşidib əməlli-başlı təəccübləndim. Ey qadir Allah, gör dünyada nələr olur!

IV
Şərafəddin Məhəmməd əl-Xoyi:

Validim – Şam qazı-ül-qüdatı Şəmsəddin Muhammməd ibn Əhməd əl-Xoyi Haqqa qovuşanda on yaşım yenicə tamam olmuşdu. Ölüm ayağında vəsiyyət eləmişdi ki, həddi-buluğa çatanda nəşinin qalıqlarını doğulub-böyüdüyü Xoya aparıb doğmalarının qəbirləri yanında torpağa tapşırım. Bu səbəbdən, səkkiz il gözləməli oldum, sonra validəmin, həm də Şam məliyinin sarayında xidmət eləyən dayımın icazəsiylə validimin vəsiyyətini yerinə yetirmək üçün yola çıxmağa hazırlaşdım. Yazbaşı mərhumun mübarək qəbrini açdıq, sümüyünü torbaya yığıb sandığa qoyduq, dayım bir araba, üç mühafiz tutdu, haqlarını artıqlamasıyla verdi, validimin Adiliyyə mədrəsəsində tələbəsi olmuş, saray dəftərxanasında qulluq eləyən, şəriətlə yanaşı, şeiriyyətə, həm də səyahətə çox meyil göstərən, üstəlik, Xoyda doğulub-böyümüş Rüknəddini də yanıma qoşdu, Allahın adını çağırıb yola düşdük. On səkkiz yaşındaydım, qanımın yaz havası kimi qaynayan vaxtıydı, üstəlik, Şamdan ilk dəfə kənara çıxdığıma görə, çox həyəcanlıydım, elə hey Rüknəddini söhbətə tutur, keçdiyimiz yerlərlə maraqlanırdım, yəqin, bu səbəbdən, bir araba, beş atlıdan ibarət qəfiləmiz matəmdən çox səyyah dəstəsini xatırladırdı. Dayım payız yağışları başlayanacan Şama dönməyi tapşırdığına görə, mənzillərdə çox yubanmırdıq, yalnız Hələbdə üç gün qaldıq, Ruknəddin iki kərə olduğu şəhəri gəzdirib bol-bol söhbət elədi.

Validim çox yollar keçmişdi, Xoyda oxuduğunu yetərli saymayıb gündoğana üz tutmuş, Təbrizi, İsfahanı dolaşmış,

Nişaburda mədrəsə bitirmiş, Fəxrəddin ər-Razininin tələbəsi olmuşdu, amma bununla da oxumaqdan əl çəkməmiş, Bağdadda, sonra Şamda elm-irfan sahiblərinin yanında kamilləşmişdi. Şamda Məlik Adilin sarayına yol tapmış, özünü dəftərxana işlərində göstərəndən sonra baş qaziliyə layiq görülmüş, böyük hörmət sahibi olmuşdu. Amma bir dəfə də olsun, hörmət-izzəti, məqamı, var-dövlətiylə qürrələndiyinin şahidi olmadım. Başı oxumağa qarışdığına görə, gec, qazı-ül-qüdat məqamına irəli çəkiləndən bir il əvvəl evlənmişdi, üstəlik, ilk iki övladı körpə vaxtı Allahın rəhmətinə qovuşmuş, məni tapanda yaşı artıq əlliyə yaxınlaşmışdı, bu səbəbdən, on il ərzində sevgisini bol-bol gördüm, evdə olanda məni dizinin dibindən aralamadı, doğulduğu Xoydan, gəzdiyi-gördüyü yerlərdən, rastlaşdığı elm-irfan sahiblərindən danışdı. Onun sayəsində yeddi yaşım olanda artıq rəvan oxuyub-yazmaq bilir, on yaşındasa, bir çox üləmaları həm yaxından, həm uzaqdan-uzağa tanıyırdım, Mühyiddin əl-Ərəbini evimizdə dəfələrlə görmüşdüm, validim Şəmsəddin Muhammməd Təbriziylə söhbətlərindən dönə-dönə söz açmışdı, Həcc ziyarətindən dönəndə görüşdüyü Bəhaəddin Vələdin hikmətini, oğlu Molla Cələləddin Bəlxinin zəkasını öymüşdü. Adiliyyə mədrəsəsində validimin hörmət-izzəti, dayımın nüfuzu sayəsində yox, öz səyim sayəsində oxuduğuma görə, açıq-aşkar qürrələnirdim, dayım da, inşallah, çox çəkməz, validimin məqamına çatacağımı söyləyib ürəkləndirirdi.

O qorxunc olduğu qədər də, müəmmalı xəbər bizi Hələb karvasarayında haqladı. Mədrəsədə Rüknəddinlə birgə oxumuş, dostuna baş çəkmək üçün sevinə-sevinə özünü yetirən Nüsrəddin Ərdəbili arada Konyadan gələn xəbəri də çatdırdı: bir neçə ay qabaq Şəms Təbrizi dər-üs-səltənədə öldürülüb, ya *qeybə* çəkilibmiş, hər halda, ortada meyiti yoxmuş, Molla Cəlaləddin Bəlxi də hər yerdə onu axtarırmış. Rüknəddinlə Nüsrəddin Şəms Təbriziylə validimin söhbətlərində olmuşdular, Maqdi-

siyyə mədrəsəsində oxuyandan Cəlaləddin Bəlxiylə ünsiyyətləri vardı, validimin söhbətlərində rastlaşdıqları Şəms Təbrizinin Konyada onu tapdığı, könlünə girib dünya, üstəlik, şəriət işlərindən ayırdığı, xəlvətləri, səma məclisləri, möminlərin narazılığı barədə eşitmişdik. İki il əvvəl də Şəms təhdidlər, yoxsa başqa bir səbəb üzündən Şama üz tutanda Rüknəddin onunla bir neçə kərə görüşüb, validimin Haqqa qovuşduğunu söyləmişdi. Cəlaləddin Bəlxi məktublar göndərib, inadını yumşaldandan sonra dalınca oğlu Sultan Vələdi yollamış, üstəlik, onu şəhərdən bir mənzil məsafədə qarşılayıb, atdan enib, az qala, uşaq kimi qaça-qaça qabağına gedib, əllərindən öpmüşdü. Nüsrəddinin dediyinə görə, Şəms Təbrizinin müəmması hələm-hələm çözüləcək sirr deyil: bəziləri Kimya Xatun məsələsi üstündə Molla Cəlaləddinin oğlu Əlaəddin Çələbinin qisas aldığını, bəziləri mürşidlərini dərsxanadan, dərgahdan, minbərdən soyutduğu bəhanəsiylə müridlərin heyif çıxdıqlarını, bəziləri də tatar çuğulu olması səbəbindən, Nəsirəddin Mahmudun adamlarının ortadan götürdüklərini söyləyirmiş, həqiqətisə yalnız Allah bilir; deyirdi, Şəmsin cismən öldüyünü hələ kimsə təsdiqləyə bilməyib, Cəlaləddin Bəlxi də sadiq müridlərini hər yerə göndərib, Can Dostundan bir nişanə axtarır, onun ölmədiyi, Konyadan çıxdığı doğruydusa, deməli, Hələb, Şam, Bağdad, Qeysəriyyə, Sivas, Ərzurum, Təbrizə... üz tuta bilərdi. Şama gəlsəydi, ən azı, Rüknəddinin xəbəri olardı, hələ ki, qulağına belə söz-söhbət dəyməmişdi.

Hələbdən üzü quzeyə – Antepə, Antepdən üzü günbatana – Urfa, Qızıltəpə, Nusaybinəcən Rüknəddinin söz-söhbətinin əvvəli də, axırı da Şəms Təbriziylə Cəlaləddin Bəlxi oldu, onların Rəbbimizin iradəsiylə bir-birini aramaları, ta ki Konyada, İplikçilər mədrəsəsi yaxınlığında görüşənəcən aradıqlarının kim olduğunu bilmədikləri, aralarındakı *İlahi Eşq*ə bədxah adamların cürbəcür məna vermələri, Konya əhlinin Şəmsə nifrət bəsləmə-

si, Cəlaləddinəsə acığı tutması barədə danışdı, *Allahın Məhbubu* mərtəbəsinə ucalmağın çətinliklərindən söz açdı. Şəms Təbrizinin ağlasığmaz kəramətləri də varmış, istəyəndə Allahın adını çağırıb uzun yolları qısaldır, bədxah adamların dilini lal eləyir, islaq bir şeyi qurudur, yağış yağdırur, külək əsdirirmiş. Elə fikirləri vardı ki, Rüknəddinin ağzından çıxanda belə, tüklərim biz-biz olurdu. Deyirdi, bir müridən ustadını, yoxsa Bəyazid Bistamini yaxşı saydığını soruşublar, mürid ustadının daha yaxşı olduğunu söyləyib, sonra ustadının, yoxsa, əstəğfürullah, Həzrəti-Peyğəmbərimizin yaxşı olduğu barədə sual veriblər, yenə ustadının daha yaxşı olduğunu söyləyib; axırda ustadını, yoxsa, əstəğfürullah, Allahı üstün saydığını soruşublar, gözünü qırpmadan ustadının daha yaxşı olduğunu təkrarlayıb, səbəbini soruşanda da cavab verib ki, mən birliyin, tövhidin sirrini ondan qeyri bir kəsdə tapa bilmirəm. Ustadını Həzrəti-Peyğəmbərdən də, Allahdan da üstün tutan, üstəlik, başqa bir Allah bəndəsini yoldan çıxaran zatı kafir sayıb Həllac Mənsur kimi dərisini soymamaları, ya da Konyanın ortasında daş-qalaq eləmələri ağlasığmazıydı. İndi də Şəms Təbrizinin *qeybə çəkildiyi* söylənir, öldüsü-qaldısı məlum deyil, nə bilmək olar, bir də gördün, Şamda, Hələbdə, Qeysəriyyədə, Bağdadda, Təbrizdə, lap elə Xoyda peyda oldu.

Nusaybində Rüknəddinin daha bir mədrəsə yoldaşı tapıldı. Marağalı Tacəddin Şamdan çıxandan sonra bir il Hələbdə qalmış, ardınca Qeysəriyyədə, Konyada yaşamış, Bəhaəddin Bəlxinin dərgahına üz tutmuş, Seyyid Bürhanəddinin söhbətlərindən feyz almış, nəhayət, taleyi onu gətirib Nusaybinə çıxarmışdı, məscidin imamıydı, həm də evində tifillərə dərs deyir, mədrəsə qurmağı arzulayırdı. Dediyinə görə, mürşidi dərvişlərindən birini də Nusaybinə göndərmişdi ki, Şəms Həzrətlərinin bura gəlib-gəlmədiyindən xəbər aparsın. Tacəddinin fikrincə, onun ötəndəfəki kimi, Şama getməsi, yaxud Qeysəriyyəyə, kö-

nül dostu Kamil-Təbrizinin yanına üz tutması daha ağlabatanıydı, yəqin, elə bu səbəbdən, mürşidi Şama yola düşübmüş, indi, yəqin, Hələbə çatarmış. Rüknəddin Cəlaləddin Bəlxinin yola çıxdığından xəbər tutmadığına, bir neçə gün Hələbdə qalıb onunla görüşə bilmədiyinə görə təəssüfləndi. Ancaq Tacəddin Marağayinin fikrincə, indi o elm-ürfan dəryasıyla üz-üzə gəlmək kimsəyə kədərdən qeyri bir şey gətirməz, çünki gözləri Şəmsdən başqasını görmür, dilində yalnız onun adıdı, gecələr Can Dostunun eşqindən yatmır, cismini zərrələrə dağılmış sayır, şeyxini özünün gözləri hesab eləyir, deyir, hey o *Həqiqət Günəşi*nin ətrafına fırlanıram, bunun səbəbi də Günəşin işığı, qarşısıalınmaz cazibəsidi; deyir, mənim könlüm düşüncələr məskəninə, yaxud şüşələrlə dolu dükana çevrildi, söylə, ey Şəms, sənin könlün daşdı, yoxsa qayadı? Tacəddin Marağayidən bəs, Şəms Həzrətlərini tapmasa, Cəlaləddin Bəlxinin necə təskinlik tapacağını soruşdum, dedi, Şərafəddin, övladım, cism fani, ruhsa əbədidi, Molla Cəlaləddin də zaman keçdikcə əsl Şəmsin öz içində olduğunu dərk eləyib rahatlığa qovuşacaq.

Nusaybindən sonra yolumuz xeyli çətin oldu, isti üzündən Haqqariyə, ordan da Urmiyəyə getmək hesab elədiyimizdən uzun sürdü, çünki gündüzləri kölgəliklərdə, karvansaraylarda, müsafirxanlarda yola verir, yalnız səhər tezdən gün bir adam boyu qalxanacan, ya da axşamüstü, qüruba əyilib hərarətini itirəndən qaranlıq qatılaşanacan yol gedirdik, yalnız Urmiyədən üzü quzeyə – Xoya sarı yola çıxanda çətinliklərin arxada qaldığını hiss elədik. Əlbəttə, Təbrizi çox görmək istərdim, amma Rüknəddinin dediyinə görə, indi yolumuzu uzatmaq, vaxt itirmək sərfəli deyildi, inşallah, geri dönəndə Təbriz-Bağdad yoluyla gedə, hər şəhərdə bir neçə gün qala bilərdik. Validim mənə hər iki şəhər barədə çox danışmış, əlimdən tutub xəyalən küçələrini, çarşı-bazarlarını, məscidlərini, mədrəsələrini gəzdirmiş, elm-irfan əhliylə görüşdürmüşdü. Amma hə-

mişə söhbətinin əvvəli də, sonu da doğulub böyüdüyü, xətayi türkləri çox yaşadığına görə, Xötənə oxşatdığı Xoyla bağlı olur, məhəllələrindən, çeşmələrindən, məscidlərinən, üləmalarından söz açırdı. Dediyinə görə, yayda soyuq, qışda isti olan Gəngələ çeşməsinin dadını, daha çox Teşilər məhəlləsində bitən peyğəmbəri armudunun qoxusunu unuda bilmirdi. Cənnətməkan Alparslan Diyari-Ruma Xoydan keçib, bir müddət də qalıb, dincəlibmiş. Validim Təbrizə, ordan da Nişabura üz tutanda təhsilini tamamlayıb Xoya qayıtmağı, mədrəsədə tifillərlə dərs verməyi arzulayırmış, amma tale əlindən tutub Bağdada, sonra da Şama aparıb, sarayda məqama ucaldıb, bir də baxıb ki, arzuları heşən olub, zamanın yelləri də o heşəni havaya sovurub, bəlkə, heç olmasa, sümüklərinin doğma yurdunda torpağa tapşırılanda ruhunun təskinlik tapacağını fikirləşib, bu səbəbdən, nəşinin Xoya köçürülməsini arzulayıb. Hər halda, mənə onun arzusunu, həm də oğul borcumu yerinə yetirmək qismət olduğuna görə, Allahıma şükür eləyirəm.

Validimgilin Xoyun Şəmişdibi məhəlləsindəki evləri *(əlbət ki, valideynləri çoxdan Haqqa qovuşublar)* indi qalırmı, qardaş-bacılarından sağ olanları varmı, öyəndə dili ağzına sığmayan yaylaqların növrağı yerindədimi – yol boyu bunlar beynimdən çıxmırdı. Uzun illər əvvəl orda – Xoyda doğulmuş bir Allah bəndəsini öz məkanından ayrılmağa, yollara düşməyə, əziyyətlərə qatlaşamağa vadar eləyən nə idi axı? Bəlkə, elə Cəlaləddin Bəlxinin dediyi kimi *(Nusaybində Tacəddin Marağiyi söyləyəndə yaddaşıma yazmışdım),* həqiqətən, insanın gəmiyə oxşayan vücudunun yelkəni etiqaddı, o yelkən rüzgar olanda gəmini uzaqlara aparıb çıxarır, rüzgar əsməyəndə də söz ruzgara çevrilir. Bir də Tacəddinin öz mürşidindən eşitdiyi rəvayəti xatırladım. Bir nəfər dostunun evinə gedib qapını döyür, içəridən gələnin kim olduğu sualına "mənəm" deyir, cavabında dostundan gözləmədiyi sözlər eşidir ki, indi get, vaxtsız gəlmisən, belə

bir süfrə xam adamın yeri deyil; xamı ayrılıq odundan başqa heç nə bişirə, nifaqdan qurtara bilməz, o biçarə də gedir, bir il dostunun ayrılığından yanıb-yaxılır, bişib geri qayıdır, evin ətrafında dolaşmağa başlayır, sonra qapıya yaxınlaşıb ədəb-ərkanla döyür, yenə içəridən eyni sualı eşidəndə deyir, könlünü alan sevgili sənəm; dostu deyir, bir halda ki, mənsən, ey mən, içəri gəl, ev daracaqdı, iki nəfər sığışmır. Fikirləşdim, bir kəsə yalnız bu cür – Şəms Təbriziylə Cəlaləddin Bəlxi kimi, bir canda bütövləşməklə könül vermək olar...

V
Fədai Mehran:

İndi – ömrünün yarıdan çoxunu yanında olduğum, qulluğunda durduğum, həyatımın ağası saydığım, İmam Cəfər Sadiqin böyük oğlu İsmayılın soyundan gələn iyirmi beşinci imam üçüncü Cəlaləddin Həsənin oğlu Şəmsəddin Muhammədi torpağa tapşırandan sonra bildiklərimi söyləməklə təsəlli tapıram. Düzdü, mənə yerim-yurdum, nəslim-soyum, uşaqlıq çağlarımla bağlı adımdan başqa heçnə məlum deyil, onun da həqiqi olduğuna əminlik duya bilmirəm, əsl gerçəyi yalnız Allah, bir də Dər-ül-Hicrənin "Sirr kitabı"na yazdıranlar və yazanlar bilərlər. Mən də Əlamutda cənnət vədiylə böyümüş, günlərin birində özümü yarıbayğınlıq içində uzun, daş döşənmiş yolla irəliləyən görmüşdüm: həddən artıq uzun sürən o yolun hər iki tərəfində ətrafa yayılan, bihuşluğumu daha da qatılaşdıran tüstüdən çıxanda özümü əsl cənnətdə görmüşdüm: rəngbərəng çuçəklər, dünyanın hər tərəfindən gətirilmiş növbənöv heyvanlar, adamı bihuş eləyən müşk qoxusu, huri-pərilər kimi ipək, açıq-saçıq paltar geyinmiş gözəl qızlar o aləmi yuxuya oxşayırdı. Ağlagəlməz cənnət zövqündən sonra bir də gözümü açıb, özümü çılpaq, miskin hücrəmdə görüb dünyanın başıma uçduğunu güman elə-

miş, bütün fədailər kimi, həmin cənnətə bir daha qayıtmaq üçün Dai əl-Duat, Hüccət, Baş Dai kimi vəsfləri olan ağamın hər bir əmrini yerinə yetirməyə hazır olmuşdum.

Amma o cənnət zövqünə bir daha yetişmək üçün əmrlərə, qaydalara, qadağalara itaət eləməliydim. Mən də bütün dailərin oxuduqları "Ümm-ül-kitab"ı, Mənsur əl-Yamaninin "Risalət əl-alim vəl Qulam", "İhvani-Səfa" risalalələrini, Nasir Xosrovun yazdıqlarını, Həsən Səbbahın "Dörd fəsil", həm də "Sərgüzəşt"ini, davamızın qayda, həm də buyruqlarından ibarət "Həft babi Baba Seyyidüna"nı, Nəsirəddin Tusinin "Rövdətül-Təslim"ini oxumuş, dəfələrlə Kuhistanda, Nişaburda, İsfahanda ölümlə üz-üzə gəlmiş, amma Uca İmamın himayəsi sayəsində salamat qalmışdım. Ta ki onun mühafiəsi etibar edilənəcən eyni həyatı yaşamış, sözsüz-sovsuz itaəti, batini düşmənlərini gözümü belə qırpmadan öldürməyi, xidmətində olduğum zata sədaqətdə qüsura yol verməməyi öyrənmişdim. Fərasətimə görə, "Qırğı" ayaması alandan sonra da Mehran adı, az qala, unudulmuşdu, yalnız daim Şəmsəddin Muhammədin dilindən eşidərdim, daha ondan da məhrum olacağam. Ağamın vəsiyyətinə əməl elədiyimə, nəşini tatar atlarının tapdağı altında qoymayıb, elə ömrünün çoxunu keçirdiyi Kuhistanda, Meymundiz qalasında torpağa tapşırdığıma görə, Baş Dai Həzrətlərinin təqdirini alacağıma heç şübhəm yoxdu, çünki nə qədər də olsa, ögey qardaşıdı, onun məqamının salamatlığı üçün ömrünü də, ağlını da, qüvvəsini də əsirgəməyib. Bundan sonra hamı gündoğandan gələn bəlanın qarşısında duruş gətirmək barədə düşünür, daha nə Bağdad, nə Konya, nə Təbriz, nə Əlamut özünü qorumaq iqtidarındadı, nə Nasir Lidinillah, nə Alaəddin Keyqubad, nə Cəlaləddin Xarəzmşah, nə Cəlaləddin Həsən var, onların taxtında oturanlar indi canlarının hayına qalıblar.

Şəms çox gözəl uşaq idi, hətta o qədər gözəl idi ki, kişilər belə, onu görəndə istər-istəməz vurulurdular. Bu səbəbdən, sa-

rayın kişilər yox, qadınlar olan qismində – hərəmdə qalırdı. Elə o vaxtdan da çox yaxşı naxış salmaq öyrənmiş, Altın Naxışçı adı qazanmışdı. İmam Cəlaləddin Həsənin əmriylə Şəmsəddini Əlamutdan təhsil-tərbiyə görmək üçün Təbrizə aparanda cavan oğlandım, belə bir vəzifənin mənə tapşırılmasına qürrələnirdim, onu qorumaq, bu etimadı layiqincə doğrultmaq üçün gözümü qırpmadan ölümə getməyə hazırıydım. Uca Seyyidünanın oğlunu nəyə görə elm-bilik məbədi saydığı Dər-ül-Hicrədə oxudub, təlim vermədiyi barədə əvvəllər düşünməmişdim, gerçəyi də sonralar dərk elədim: validini öldürtdürüb yerinə keçən Cəlaləddin Həsən günlərin birində özünün də xəyanətlə üzləşəcəyini, bəlkə də təhlükənin kiçik oğlu Əlaəddin Muhammədin validəsindən gələcəyini duyur, bu səbəbdən, validəsi Ümeyrə Xatunu itirmiş böyük oğlunu gizlədir, qoruyurmuş. Oğlunun harda, hansı mədrəsədə oxuduğunu, kimdən dərs aldığını, harda yaşadığını məndən, bir də ildə bir-iki dəfə gəlib halımızdan xəbər tutan, xərclik çatdıran, məktub aparan çox sadiq fədaisi Nizamdan qeyri kimsə bilmirdi. Şeyx Əbu Bəkr Səlləbafın belə, dərs verdiyi Ay parçası kimi gözəl, sadə paltarda da, əsil-nəcabəti aşkar sezilən dərrakəli oğlanın kim olduğundan xəbəri yoxudu, ona özümü isfahanlı tacirin yaxın adamı kimi qələmə vermiş, ağamın sorağını eşidib, zəkasını qiymələndirdiyi Şeyxin oğluna təhsil verməsini arzuladığı barədə hekayət uydurmuşdum. O hekayət mədrəsədə də yayılmış, görünür, hamı inanmışdı, çünki Təbrizdə olduğumuz illərdə Şəmsəddinin əsl kimliyinin üzə çıxacağıyla bağlı əndişə keçirməli olmadım.

Yeganə qorxum Əlaəddinin validəsi, həm də ətrafıyla bağlıydı, çünki imamın böyük varisinin sağ qalması, üstəlik, hamının nəzərindən iraqda böyüyüb təhsil görməsi onların xoşuna gəlməyəcəkdi, bunu Uca Seyiddüna Həzrətləri də məktublarında tez-tez xatırladırdı. Amma onda himayəmdəki tifilin taxt-tac qovğalarına girməyəcəyini bilirdim, çünki Allahın məsləhətiylə

bu nəfsini öldürməyi bacarmışdı. Cəlaləddin Həsənin əndişəsi də əsassız deyilmiş: gündoğandan gələn təhlükə azmış kimi, taxt-tac qovğası səngimək bilmirdi. Əlamutdan sədaqətli fədai imamın öldüyü barədə xəbər gətirəndə, az qala, sonsuz boşluğun içinə düşdüm. Fədainin dediyinə görə, onu Əlaəddinin validəsi zəhərləmişdi, güman ki, gözdən iraq bir yerdə hazırlıq görən böyük oğlunu nə vaxtsa ortaya çıxarıb varis elan eləyəcəyindən bərk qorxurlarmış, bu səbəbdən, Uca Seyyidünanı qabaqlamaq fikrinə düşmüş, heç meyiti də soyumadan doqquz yaşlı Əlaəddini imam məqamına oturtmuşdular. İndi qarşımızda iki yol vardı: Şəmsəddin Muhammməd ya o məqama iddiasını ortaya qoyub, narazıları ətrafına toplamalı, ya da qardaşına biət eləyib Əlamuta dönməliydi. Binəva tərəddüdsüz-filansız ikinci yolu seçdi, fədaiylə məktub göndərib qayıtmasına izin istədi, yeni imam da, əlbət ki, qardaşının bu istəyindən məmnun qaldı. Yeddiillik Təbriz həyatından sonra çaxnaşmaların ortasına qayıtmaq heç ürəyimizdən deyildi, amma Əlaəddini taxta çıxaranlar böyük qardaşı uzaqda olduğu müddətdə daim taxt-taca təhlükə sayacaq, aradan götürməyə çalışacaqdılar. İmamın əlindən kimsə qurtula bilməzdi, gecələrin birində qara niqablı fədai hücrəsinin pəncərəsindən səssizcə girib qəməni Şəmsəddinin ürəyinə saplayacaqdı. Bu səbəbdən, çapar fədai izin məktubunu gətirən kimi, Şeyx Əbu Bəkr Səlləbafla vidalaşdıq, haqqını artıqlamasıyla ödəyib Əlamuta yollandıq.

Əlaəddinin arxasında duranlar itaəti müqabilində böyük qardaşı yaxşı qarşıladılar, Qiyamət məqamına döndüklərindən söz açdılar, gündoğandan gələn bəlanı dəf eləmək üçün onun da üzərinə çətin vəzifə düşdüyünü söylədilər. Şəmsəddinin ilk vəzifəsi Bağdada gedib xəlifə Nasir Lidinillahla olan razılaşmanın pozulmadığını, yeni imamın validi Cəlaləddin Həsənin götürdüyü öhdəliyi qüvvədə saydığını çatdırmalı, üstəlik, Xəlifədən bu istəyini Sultan Əlaəddin Keyqubada da yetirməsini

təvəqqe eləməliydi. Elçi cildinə girdik, fədailərin bir dəstəsinin də qəfiləmizi kənardan-kənara izləmələrini tapşırıb Bağdada sarı yola çıxdıq. Xəlifə bizi yaxşı qəbul elədi, Cəlaləddin Həsənin ölümünə xeyli təəssüfləndi, Əlaəddin Muhammədin ricasını bir neçə həftə sonra Konyaya yola düşəcək Şeyx Övhədəddin vasitəsiylə Sultan Əlaəddin Keyqubada çatdıracağını vəd elədi. Düzdü, Bağdadda çox qala bilmədik, Şeyx Övhədəddinlə görüşməyə də fürsətimiz olmadı, çünki mümkün qədər tez geri qayıtmalıydıq, Dai Şəmsəddin Muhammədi növbəti mühüm vəzifə gözləyirdi. Bəlxli Bəhaəddin Vələdin bir müddət əvvəl Bağdada gəlib Xəlifənin hüzurunda olduğunu, sonra Həcc ziyarəti niyyətiylə Məkkəyə üz tutduğunu da orda eşitdik. Bağdaddan Qəzvinə, Qəzvindən Əlamutacan yol ərzində səksəkə içindəydik, Əlaəddini taxta oturdanlar fikirlərini dəyişə, Şəmsəddini aradan götürmək üçün fədailər göndərə bilərdilər, amma çox şükür ki, sağ-salamat iqamətgahımıza çatıb Xəlifənin salam-duasını da, vədlərini çatdıra bildik, elə ertəsi gün də Kuhistana getmək əmri aldıq: Əlaəddinin axrasındakılar böyük qardaşın Əlamutda çox qalmasını məsləhət görməmişdilər.

Onda Cəlaləddin Həsən artıq fədailərini Xəlifə, Xarəzmşah, Səlcuqlu saraylarında yerləşdirmiş, üstəlik, torpaqlarının əmin-amanlığı müqabilində tatarlarla gizli əlaqə qurmuşdu. Sultan Cəlaləddin hələ Sind nəhrinin o tayında olanda haqq verə bilmədiyi əmirlərinə xidmətləri əvəzində Xorasan və İraq torpaqlarını tutanda pay ayıracağını vəd eləmişdi, bəxti gətirəndə də vədini yerinə yetirdi. Naibi Urxana bizim hüdud yerlər düşmüşdü, fürsət tapan kimi, Tun, Kain, Kuhistana basqın eləyirdi, axırda Əlaəddin elçisini o vaxt Xoyda olan vəzir Şərəf-ül Mülkün yanına göndərmişdi ki, basqınlara son qoymaq üçün araçı olsun. Hələ Cəlaləddin Həsənin vaxtından Əlamutla gizli əlaqələri, yaxşı münasibətləri olan vəzir də elçini Urxanla görüşdürmüşdü. Naib imamın ismarışını təhdid kimi qəbul eləmiş,

qurşağındakı xəncər-qəmələri elçinin qabağına atmış, demişdi, bu, bizim xəncər-qəmələrimizdi, qılınclarınızdan da uzun, üstəlik, iti qılıncımız var, amma sizin heç nəyiniz yoxdu. Elçi cavab verməmiş, durub yola çıxmışdı, amma Urxan Xoydan dönəndə Gəncə yaxınlığında üç fədai üstünə atılmış, adamlarını da, özünü də öldürmüş, sonra da Əlaəddinin adını qışqıra-qışqıra şəhərə soxulmuş, vəzirin iqamətgahına girib xidmətçisini yaralamış, özünü tapa bilməmiş, yenə qışqıra-qışqıra bayıra çıxmışdılar. Bu vaxt şəhər əhli damlardan fədailərin üstünə daş yağdırmış, hər üçü də "Canımız İmam Əlaəddinə fəda olsun!" qışqıra-qışqıra cənnətə yollanmışdı.

Həmin vaxt Əlaəddinin başqa bir elçisi Bədrəddin Əhməd Beyləqana gedirmiş, vaqeədən xəbər tutanda Şərəf-ül Mülkə məktub göndərib, o da elçini iqamətgahına çağırıb, hədsiz hörmət-izzət göstərib, şərəfinə ziyafət verib, aranı yatırmağa çalışıb, hətta Təbrizə aparmağı, Sultanla görüşdürməyi vəd eləyibmiş. Ayağı yer alan Bədrəddin Əhməd Sərabda ziyafət vaxtı daha da irəli gedib, vəzirə deyibmiş, hətta qoşununuzda da fədailərimiz var, elə yerləşiblər, qulamlarınızdan seçə bilməzsiniz. Bu xəbərdən sarsılan Şərəf-ül Mülk elçini o fədailəri göstərmək üçün dilə tutub, toxunmayacağını vəd eləyib, hətta zəmanət kimi yaylığını veribmiş. Bədrəddin Əhməd o beş fədaini vəzirin çadırına çağırtdırıb, hindli olan cəsarətli fədai deyimiş, səni filan vaxt, filan evdə öldürə bilərdim, bunun üçün imamdan əmr gözləyirdim. Şərəf-ül Mülk bunu eşidəndə lap qorxub, fəracəsini soyunub elçinin qarşısında diz çöküb, deyibmiş, bunun səbəbi nədi, Əlaəddin məndən nə istəyir, axı Sultanın məmlükü olduğum kimi, onun da məmlüküyəm, indi qarşınızdayam, nə istəsəniz, eləyə bilərsiniz. Bədrəddin Əhməd də Xarəzmşah vəzirini öldürmək üçün İmamdan əmr almadığına görə, ona toxunmayıb, amma öz üstünlüyündən, Şərəf-ül Mülkün alçalmasından əməlli-başlı zövq alıbmış.

Əlbət ki, Sultan Cəlaləddin bu vaqeədən xəbər tutanda qəzəbindən cin atına minmiş, özünü və səltənəti belə rüsvayi-cahan elədiyinə görə, vəzirinə tənəli ismarış yollamış, etibarlı adamlarından ibarət dəstə göndərib həmin fədailəri Şərəf-ül Mülkün çadırının qabağında diri-diri yandırmağı əmr eləmişdi. Adamları o beş nəfərii ələ keçirmiş, vəzirin çadırının qabağında böyük tonqal qalamış, hamısını oda atmış, fədailər də "Canımız İmam Əlaəddinə fəda olsun!" qışqıra-qışqıra cənnətə yollanmışdılar. Sultanın qəzəbi bununla da soyumamış, həmin fədailəri qulluğa götürən çavuşbaşı Kəmaləddinin boynunu da vurdurmuşdu. Amma məsələ bununla bitməmişdi, Sultan İraqa yola düşəndən sonra Bərdəyə dönən Şərəf-ül Mülkün yanına Əlamut elçisi Səlahəddin getmiş, demişdi, beş fədaimizi diri-diri yandırmısan, sağ qalmaq istəyirsənsə, hər birinə görə on min dinar fidyə verməlisən. Can qorxusu yenə vəzirin amanını kəsmiş, divanın adından fərman hazırladıb hər il Xarəzimşah xəzinəsinə ödədiyimiz vergidən otuz min dinar çıxılmasını buyirmuşdu. Sultan Reydə olanda da Uca Seyyidüna onun yanına doqquz fədaisiylə elçisini göndərmiş, öz düşmənlərini aradan götürmək üçün onların xidmətindən istifadə eləməyi məsləhət görmüşdü. Cəlaləddin də əyan-əşrəflə məsləhətləşəndən sonra o fədailərin çuğul ola biləcəyindən şübhələnmiş, Əlaəddinə belə bir xəbər yollamışdı: kimin dost, kimin düşmən olduğunu ikimiz də yaxşı bilirik, iti qılıncımız, cəsur şirlərimiz kifayət qədərdi, fədailərinizin qəməsinə ehtiyacımız yoxdu. Sultan Cəlaləddin öldürüləndən sonra isə, əslində, ölmədiyi, görkəmini dəyişib Molla Cəlaləddin, Molla Cəlaləddinin də tatar çuğulu Şəmsəddin Təbrizi, Şəmsəddin Təbrizinin də Əlamut daisi Şəmsəddin Muhammməd olduğu barədə ağızdan-ağıza keçib Kuhistana çatan ağlagəlməz rəvayətlər eşitdim.

Sultan Cəlaləddin İmam Cəlaləddin Həsənin gizlincə tatar xaqanının yanına elçi göndərib əlbir hərəkət elədiyini, fədailə-

rimizin göndərdikləri xəbərləri ona çadırdığını bilir, bu səbəbdən, Əlaəddinə də etimad bəsləmirdi. İsfahanda olanda vəzirinə məktub göndərib tatar elçisinin ismaili tacirləriylə Şama yollandıqlarını, aldığı xəbərə görə, artıq Bağdadı keçdiklərini, Şamdan qayıdan bütün karvanları diqqətdə saxlamağı, tatar elçini tapıb hüzuruna göndərməyi əmr eləmiş, hətta İmam Əlaəddinin xas adamlarından olan Tacəddin Əlinin adını belə çəkmişdi. Şərəf-ül Mülk də Şam yoluna dəstə göndərib bütün karvanları yoxlatmağa başlamış, axır ki, imamımızın karvanına rast gəlmişdi. Vəzir qəfilədəki yetmiş nəfərin də öldürülməsini, dəvələrin yükünü xəzinəyə daşımağı əmr eləyəndə, ələ keçirdiklərini səxavətlə öz adamlarına paylayanda, yəqin, bu hərəkətinin nəticəsi barədə düşünməmişdi. Az sonra Sultan İsfahandan qayıdanda İmamımızın elçisi Əsədəddin Məudud onun hüzuruna çıxmış, Şərəf-ül Mülkün əməlindən şikayətlənmiş, müsadirə olunan malları geri qaytarmağı tələb eləmişdi. Hökmdar vəzirinin hərəkətinə görə üzrxahlıq eləmiş, malların geri qaytarılması barədə əmr vermişdi. Sultanın hacibi Bədrəddin Tutakın verilən əmrin yerinə yetirilməsi üçün səyindən sonra otuz min dinar, bir də on baş atın tapıldığı, qalan malların xəbərsiz-ətərsiz yoxa çıxdığı məlum olmuşdu. Əlbət ki, həmin vaxt İmamımız Sultanın düşməni Qiyasəddin Pirşahın Əlamutdan Həmədana qaçmasına yardım göstərməsəydi, elçi təzminat tələb eləyə bilərdi...

Qiyasəddin Pirşahın ağlagəlməz vaqəsi də elə o vaxt dildən-dilə yayılmışdı. Cəlaləddin Sind çayının o tayında olanda ögey qardaşı Qiyasəddin Pirşah İraqi-Əcəmə yiyələnmiş, Arranda da, Azərbaycanda da at oynatmışdı, üstəlik, Atabəy Özbək səltənətini onun basqınlarından qorumaq xətrinə yanına bir neçə dəfə elçi göndərib bacısının – Nəqşivan sahibəsi məlikə Cəlaliyyə Xatunun – onunla nikah bağlamasına razılıq vermişdi. Cəlaləddin Sind nəhrini bəri keçib Xorasana girəndəsə,

Qiyasəddin hüdusduz hökmünə son qoyulacağını duymuş, bu səbəbdən, Rey tərəflərə çəkilmişdi. Sultan Azərbaycana və Arrana sahib olandan sonra Xorasandan tatarların Ceyhun çayını keçməyə hazırlaşdıqlarını eşidib dərhal yola çıxmış, Qiyasəddini də səfərə çağırmışdı. İrəlicədən göndərdiyi dəstə tatarların Baycu Noyon, Taynal Noyon, Naku Noyon, Asantuqan Noyon, Yatmas Noyon, Yasaur Noyon kimi qəddar qoşunbaşılarının İsfahanın gündoğanına yetişdiklərini xəbər vermişdi. Münəccimlər sultana üç gün gözləməyi, dördüncü gün döyüşə atılmağı məsləhət görmüşdülər. Döyüş başlanandasa, ona Qiyasəddinin Cahan Pəhləvan Elçinin başçılıq elədiyi qoşunla Əlamuta üz tutduğunu xəbər vermişdilər. O döyüşdə Qiyasəddinin xəyanəti üzündən gözlədiyi zəfəri qazana bilməyən Sultan qoşunun bir qismini onu təqibə göndərib Əlamutu mühasirəyə almışdı, vəziyyətin təhlükəli şəkil aldığını görən Əlaəddin də Qiyasəddini qayıtmaq üçün dilə tutmuş, sonra Sultanın hüzuruna onun bağışlanması xahişiylə elçi göndərmişdi. Onda Sultan alicənablıq göstərib razılıq vermiş, hətta toxunmayacağına and içmişdi, amma vədə yetişəndə Qiyasəddin İmamızın gizli yardımıyla Həmədana qaçmış, bu dəfə də Sultana qarşı qiyam qaldırıb itaətsizliyini bildirmiş hacib Barak Şəraəfəddinə sığınmışdı. Barak onu ağlasığmaz təhqirlərə məruz qoymuş, ana-balanın razılığı olmasa da, Sultanın dul zövcəsinin nikahını özünə kəsdirmiş, az sonra hər ikisini xəyanətdə, onu zəhərləməkdə təqsirləndirib ananı öldürtmüş, bala da səssiz-soraqsız yoxa çıxmışdı, nə öldüsü, nə qaldısı məlumuydu.

Bəxtikəm Məlik Xamuşun Əlamutda öldürülməsini də etibarlı fədailərin birindən eşitdim. Müzəffərəddin Özbəyə Allah bəlkə də eyş-işrət düşgünü olduğuna görə, bircə oğul vermişdi, o da anadangəlmə lal-kar idi, demək istədiklərini ancaq lələsi başa düşürdü. Oğlana əmisi Qızıl Arslanın adı yaraşdırılsa da, helə uşaqlıq çağlarından Xamuş ayamasıyla tanınmışdı, hətta

padşah onu Marağa hakimi, Körpə Arslan kimi tanınan Əlaəddin Ağsunqurun qızı Sülafə Xatunla evləndirsə də, bu ayamadan canını qurtara bilməmiş, Məlik Xamuş ünvanı almışdı. Özbək öləndən sonra köhnə düzəni geri qaytarmaq istəyənlər onu atabəy elan eləmişdilər, Şərəf-ül Mülk də məliyi həbs etdirib Kotur qalasına saldırmış, ancaq onu taxta çıxarmaq istəyənlər aradan götürüləndən sonra azad eləmişdi. Sağ qalan tərəfdarları Xarəzmşahın qüdrəti qarşısında duruş gətirə bilməyəcəklərini başa düşmüş Sultan Cəlaləddin Muğanda olanda Məlik Xamuşun çoxlu hədiyyələrlə onun hüzuruna çıxıb itaətini bildirməsini məsləhət bilmişdilər. Məlik onda Sultana Pers hökmdarı Keykavusun qiymətsiz, üzərində Keykavusla yanaşı, xələflərinin də adı həkk edilmiş ovuc içi iriliyində misilsiz Bədəxşan ləli olan kəmərini hədiyyə aparıbmış. Sultan o daşın hər iki tərəfinə öz xəzinəsindəki qiymətli daşlardan da düzdürdüyü həmin kəməri ancaq bayram günlərində qurşayırmış. Məlik Xamuş adamlarıyla bir müddət Sultanın xidmətində olmuş, amma ondan diqqət görməmiş, səfil hala düşəndən sonra izinsiz ordugahdan çıxıb Əlamuta, İmamımızın yanına üz çevirmiş, az sonra da gizlicə öldürülmüşdü.

Körpəliyindən tanıdığım, uca məqamlı Cəlaləddin Həsənin mənə etibar elədiyi Şəmsəddin ilahidən gözəl çöhrəli, üstəlik, duyğulu, mərhəmətli, həlim xasiyyətli doğulmuşdu, dailərdə, fədailərdə başlıca cəhət sayılan qətiyyət, qəddarlıq, hiyləgərlik onda yoxudu, zənnimcə, validinin ən böyük qayğılarından biri də buydu. Oxuyub-öyrənməyə, düşüncəyə dalmağa, elm-irfan əhliylə mükalimələrə meyilliydi, belə adamlara rast gələndə günlərlə, aylarla ayrılmaq istəmirdi. Kuhistanda da evlənmək fikrinə düşmədi, hər şeyi Nurəddin Möhtəşəmin öhdəsinə buraxdı, Meymundiz qalasının kitabxanasına çəkilib günlərini oxumaqla keçirdi, düşüncələrini bəyəndiyi bir neçə elm-irfan əhliylə söhbət elədi. Xarəzmşah Cəlaləddinin qonşuluqda döv-

lət qurması da, Ögedeyin tufan kimi gündoğana irəliləməsi də onu maraqlandırmırdı. Zənnimdə yanılmıramsa, Xarəzmşahın qətlə yetirildiyi il Nurəddin Möhtəşəmdən Tus şəhərinə adam göndərib ad-sanı aləmi tutmuş Nəsirəddin Muhammədi qalaya gətirtməsini istədi, Nəsirəddin bu dəvəti qəbul eləyib gələndəsə, sevincindən uzun müddət özünə yer tapmadı. Demək olar, hər gün görüşür, gəzintiyə çıxır, ya da hücrələrinə çəkilib bitib-tükənməyən söhbətlərinə dalırdılar. Üç-dörd il sonra Nəsirəddin Muhammməd "Əxlaqi-Nasiri" adlı kitabını ərsəyə gətirəndə Şəmsəddin Muhammməd də uşaq kimi sevinir, özünün yerinə yetirə bilmədiyi bir işi başqa zəka əhlinin görməsiylə təskinlik tapırdı. Sonra üzünü köçürtdürüb qiymətli xəzinə kimi saxladığı o kitabda oxuduğum bir çox oxşar düşüncələri onun ağzından da eşitmişdim.

Amma şeytan dinc durmadı, Şəmsəddin Muhammədin könül dostu Nəsirəddin Muhammədlə bu yaxınlığını başqa yerə yozdular. Rüknəddin Hürşah taxta çıxan kimi, fədailərini göndərib böyük üləmanı Əlamuta apartdırdı. Zənnimcə, bunun səbəbi əmisinin ad-sanı aləmi bürüyən Nəsirəddin Tusinin yardımıyla taxt-taca iddia eləyə biləcəyindən qorxmasıydı. Könül əhli olan iki zatın ayrılığı gözlərimin qarşısında baş verdi: qucaqlaşıb göz yaşı axıtdılar, uzun-uzadı susdular, Şəmsəddin Muhammməd qala darvazasından çıxanacan atlıların dalınca getdi, sonra bütün ümidləri əlindən alınmış kimi, qayıdıb hücrəsinə girdi, günlərlə bayıra çıxmadı. Dəfələrlə Nurəddin Möhtəşəmdən məqamda gözü olmadığı, can dostunun geri qaytarılması, ya da özünün Əlamuta çağrılması barədə qardaşı oğluna xəbər yetirməsini təvəqqe elədi. Əvəzində bir müddət sonra Rüknəddindən gözləmədiyi əmr aldı: Qaraqoruma, tatarların xan seçkisinə İsmaili səltənətinin elçisi sifətiylə getməliydi. Görünür, bu da İmamın sərhesablığının nəticəsiydi, Mancuristandan Bizansacan bütün xanları, şahları, sultanları diz çökdürmüş, amma

batiniləri hələ itaətə gətirə bilməmiş xan qəzəbini elçidən çıxa, onu elə çadırı qarşısındaca edam etdirə bilərdi, həmin elçinin əmisi Şəmsəddin Muhammməd olmasısa, İmamın səltənətindən ötrü böyük itki sayılmayacaqdı. İtaətdən çıxmaq barədə söhbət gedə bilməzdi, məsələ güman edildiyi kimi olsaydı, onu Taliqandan sağ-salamat çıxarmağa ən cəsur fədailərin belə qüdrəti çatmazdı. Buna görə, Allahın rəhminə, yeni xanın mərhəmətinə bel bağlayıb Qaraqoruma yola düşdük, əvvəlcədən tatarlarla dil tapmaq tərəfdarı olan Şəmsəddin Muhammməd Əlamut ismaililəri İmamı Rüknəddinin itaətini Quyuk xana çatdırıb ənamları qəbul elədi.

Qaraqorumdan sağ-salamat dönəndən sonra belə, Şəmsəddin Muhammədi Əlamuta çağırmadılar, Nəsirəddin Muhammədi də Əlamutdan buraxmadılar. Hərdən canlarını risqə qoyub məktub gətirən sədaqətli fədailərin söylədiklərinə görə, Xoca Nəsirəddin ağlagəlməz əzab çəkir, can sıxıntısından oxuyub-yazmaqla qurtulmağa çalışırdı. Şəmsəddin Muhammədin düzdüyü işgəncələrəsə, bir Allah, bir də mən şahidəm. Könlünü nə yaz havası, nə oxuduğu kitablar, nə gözəl söhbətlər açırdı. Heç Hülagü xanın gündoğandan qasırğa kimi gəlib itaət göstərməyənləri silib-sürpürməsi də onun sükunət çökmüş qəlbini tərpədə bilmədi. Təlaş içində qalanı möhkəmləndirməyə can atan fədailərin qayğıları, Əlamutdan dalbadal gələn əmrlər belə onu zərrə qədər maraqlandırmırdı. Tatar qoşunu qalanı mühasirə eləyəndə kölgə kimi dolaşır, ətrafında baş verənlərə laqeyd nəzərlərlə baxırdı. Onu tatar oxundan xilas eləyə bilmədiyimə görə, əlbət ki, özümü günahkar sayıram, amma bir Allah şahiddi, etiqadlı bəndəsi Şəmsəddin Muhammədi mümkün qədər qorudum, Cəlaləddin Həsənə verdiyim vədə şərəflə əməl elədim, gözlərini sığayıb, nəşini yudurdub, kəfənlədib, duasını oxudub torpağa tapşırdım. Əminəm ki, Hülagü xan onu tanısaydı, öldürülməsinə yol verməz, çadırına dəvət eləyər, məclisinin yuxarı

başında oturdardı. Yəqin, bundan sonra Əlamutun üstünə gedəcək, ismaililəri dizə gətirməmiş dincəlməyəcək, onda Nəsirəddin Muhammməd Tusini azad eləyəcək, hörmət-izzət göstərəcək, Xacə də can dostunun taleyindən xəbər tutanda sarsılıb göz yaşları axıdacaq. Ömrümün qırx ilini sərf elədiyim, elm-irfan sahibi olan Şəmsəddin Muhammədin gələcəkdə xatırlanacağına inanıram, bəlkə məni – əsl adı, yeri-yurdu, nəsli-soyu bəlli olmayan, fədai Mehranı da onunla birgə yada saldılar. Bundan başqa bir lütfə iddiam yoxdu...

VI
Dərviş Şəms:

Mürşidim, Ərənlər Şahı Hacı Bəktaş Vəli deyərdi, xəbərləri aləmə çaparlar, tacirlər, bir də dərvişlər yayırlar. Buna Ağsarayda özümü məscidin kölgəliyinə verib dincimi alanda bir daha inandım. Kölgəlikdə iki Allah bəndəsi də vardı, təhər-töhürlərindən qələndəri dərvişlərinə oxşayırdılar, mənə sarı da baxmayıb söhbətlərinə davam elədilər. Biri o birinə deyirdi, hər şey onun gəlməsiylə başlayıb, Molla Hünkar Sulucaqarahöyükdəki, Hacı Bəktaş Vəliyə məktub göndərib ki, bəs, ərən dədələrdən etibar elədiyin bir kəs göndər, bizi irşad eləsin, o da səsi-ünü aləmi bürümüş üləmanın tavəqqesini yerə salmayıb, müridlərindən soruşub, Konyaya kim gedər, bu məqamda Təbrizli Şəms adlı müridi irəli durub deyib, ey ərənlər şahı, mən gedərəm; Hacı Bəktaş Vəli onun bu hərəkətindən bərk alınıb, deyib, indi ki, mən deyirsən, onda başla gedib, başsız qayıdarsan. Təbrizli Şəms də bağır basıb, mürşdinin əlini öpüb, dağarcığını çiyninə salıb, əsasını da götürüb, yola rəvan olub. Bunu eşidəndə məni gülmək tutdu, çünki Sulucaqarahöyükdəki təkkəmizdə Təbrizli Şəms adında mürid yoxudu, Şəmsəddin Muhammməd adlı müridi də mənəm, amma təbrizli yox, səbzəvarlıyam, mürşidimi, nə

az, nə çox, düz iyirmi ildi tanıyıram. Elə indi də onun tapşırığıyla Mavərəünnəhr tərəflərə, bəktaşiliyi yaymağa gedirəm. Mən Bəktaşla Menteşi tanıyanda cavan, mömin Allah bəndələriydilər, Bəktaş Loğman Parəndənin mədrəsəsində dərs alırdı, elə zəka əhliydi ki, ilk söhbətimizdəncə bir könüldən-min könülə ona bağlanmış, elm öyrənmək üçün getdiyim Nişaburdakı bütün arzularımdan əl çəkmiş, kölgəsinə sığınıb yollara düşmüş, Diyari-Ruma, mürşidimin təkkə qurduğu Sulucaqarahöyükəcən gedib çıxmışdım.

Hə, dərvişlərin söhbətinin davamı vardı, sən demə, o Təbrizli Şəms Konyaya gedib, soraqlaşıb Molla Hünkarın mədrəsəsini tapıb, görüb mədrəsənin qapısında bir nəfər oturur, ondan şeyxinin harda olduğunu soruşub, o Allah bəndəsi də deyib, bəs, vəəz üçün İpəkçilər məscidinə gedib; Təbrizli Şəms əmr eləyib ki, dur, get mürşidinin yanına, ona filankəsin gəldiyini yetir, biçarə mürid də yazıq-yazıq deyib, bəs, gedə bilmirəm, gözlərim kor, əllərim şikəst, ayaqlarım topaldı, dərviş də bunu eşitcək, qurşağından əsasını sıyırıb *(elə bu cür də dedi!)* binəvanın gözünə, əllərinə, ayaqlarına sürtüb, dərhal müridin gözləri açılıb, əlləri sağalıb, qıçları tutub, heyrət içində qışqıra-qışqıra özünü İpəkçilər məscidinə salıb, dili dolaşa-dolaşa olub-keçəni Molla Hünkara çatdırıb, o da tez özünü yetirib, kəramət sahibinin əlindən öpüb, ayağına yıxılıb, müridi olub, həmin vaxtdan ta qeyb olanacan sözündən çıxmayıb, dərsxanadan, minbərdən, təkkədən, irfan məclislərindən soyuyub. Dərvişin söylədiyinin ancaq axırı, Molla Hünkarın Təbrizli Şəmslə qarşılaşandan sonra qeydsiz-şərtsiz müridi olması, dərsxananı, minbəri, təkkəni, irfan məclislərini unutması gerçək idi, bunun da səbəbkarı hardan, hansı məqsədlə gəldiyi bəlli olmayan o qərib dərvişiydi. Onun Şeyx Övhədəddin, Şeyx Mühiyddin, Şeyx Əsədəddin, Seyyid Bürhanəddinlə mükalimələri, ağlasığmaz kəramətləri barədə eşitmişdim, amma bizim eyni şəxs olduğumuzu zənn eləyənlərə ilk dəfəydi ki, rast gəlirdim.

Mürşidim deyirdi, insan kiçik bir aləmdi, aləmdə olan hər şey, hətta ondan artığı belə onda var. Təbrizli Şəmsin dildən-dilə dolaşan kəramətlərini eşidəndə ilahidən bəxş olunan qüdrətinə, az qala, mən də inanmağa başlamışdım. Deyilənə görə, Qeysəriyyədən Konyaya gedəndə Ağsarayda, bəlkə, elə mənim yolüstü namaz qıldığım məsciddə namazını qılıb, onda bir küncdə uzanıb ki, yatsın, amma məscidin imamı izin verməyib, deyib, dur get, məscid yatıb dincəlmək üçün yox, ibadət üçündü. Təbrizli Şəms də çar-naçar durub gedəndə imamı qarğıyıb, Allah-taala dərhal səsini eşidib, imamın əli-ayağı tutulub, günah işlədiyini dərk eləyib, yalvarıb ki, bağışlasın. Sulucaqarahöyk təkkəsində onun Molla Hünkarın kitablarını hovuza atması, sonra da suyun içindən qupquru çıxarması, özünü kafirlərin meyxanasına şərab almağa göndərməsi, quş kimi bu şəhərdən o şəhərə bir göz qırpımında çatması barədə o qədər ağlasığmaz rəvayətlər eşitmişdim ki, indi dərvişlərin söylədiklərinə təəccüblənmədim, üstəlik, nə gizlədim, Təbrizli Şəms sayılmağım izzəti-nəfsimi oxşadı. Bir kərə Sivasda mürşidim Hacı Bəktaş Vəlinin də, Şəmsəddin Muhammməd Təbrizinin də İsmaili qalalarında yetişdirilmiş batini daisi olduqları, Diyari-Ruma Əlamutdan göndərildikləri barədə rəvayəti eşitmişdim, bunu murşidimə söyləyəndə o, Molla Hünkarın da tatarlara tərəfdar çıxdığı barədə şaiyələr yayıldığını, zamanın hər şeyi öz yerinə qoyacağını demişdi. İndi də beynimdən keçirdim ki, yəqin, illər ötəndən sonra bir Allah bəndəsi savab iş görüb Təbrizli Şəmslə Səbzəvarlı Şəmsin eyni şəxs olmadığını bir vərəqin küncünə yazacaq.

Təbrizli Şəmslə mənim – Səbzəvarlı Şəmsəddinin eyni adam sayılmağım daha bir rəvayətdən də bəlli olur. Adaşımın Xorasanda, Mavəraünnəhrdə, Türküstanda tacir qılığında dolaşdığını, Nəcməddin Kübranın xəlifələrindən Baba Kamal Cəndinin dərgahına baş çəkdiyini söyləyirlər, əslində, o şərəfə

yetişən mənəm. Həmin məqamda Fəxrəddin İraqi də multanlı Şeyx Zəkəriyyənin tövsiyəsiylə o dərgaha üz tutmuşdu. İkimiz də ayrı-ayrı hücrələrdə xəlvətə girdik, çıxanda Fəxrəddin iraqi çilə vaxtı gözünə görünənləri şeyxinə söylədi, duyğularını rübai, üstəlik, qəzəl şəklində ifadə elədi, amma məndə belə bir Allah vergisi olmadığına görə, bir söz demədim. Bir gün Baba Kamal soruşdu ki, övladım, Şəmsəddin, sən də çilədə hiss elədiyin ilahi sirlərdən Fəxrəddin kimi söz açа bilməzsənmi, dedim, şeyxim, mən ondan daha çox təcəllilərin şahidi oldum, amma Fəxrəddin bu məsələdə gərəkli anlayış, həm də bilik sahibi olduğundan, münasib kəlmələrlə söyləyə, bəzi sirləri açıqca tərənnüm eləyə bilir, mənsə bunu bacarmıram. Baba Kamal cavabımı eşidəndə dedi, darıxma, övladım, Allah ilk və son həqiqətləri sənin adından dilinə gətirəcək söhbət yoldaşı yetirər. Bilmirəm şeyxin müjdə verdiyi o söhbət yoldaşı uğruma harda, nə vaxt çıxacaq, amma Təbrizli Şəmsin başına da belə bir vaqeə gəlmişdisə, deməli, o yoldaşı indi qələmindən çıxan beytləri dillərdə dolaşan, bir çoxunu da Şəmsin adından söyləyən Molla Cəlaləddin Bəlxinin simasında tapıbmış. Molla Cəlaləddinin mürşidimi, üstəlik, Nəsirəddin Mahmudu daim sancması, onları qələmə aldığı hekayətlərində cüha, müxənnəs, dabbaq, ilan, əjdaha adlandırması başqa söhbətin mövzusudu.

Təbrizli Şəmsin *qeybə çəkilməsi* sirri-Xudadı, eşitdiyimə görə, Molla Hünkar Konyanın altını üstünə çevirəndən sonra Şamdan Sivasacan bütün şəhərlərə müridlərini göndərib, özü də iki, ya üç dəfə Şama gedib, amma öldü-qaldısından səhih xəbər ala bilməyib. O müridlərdən biri də Sulucaqarahöyükə, dərgahımıza gəlibmiş, mürşidim Şəms Həzrətlərinin *qeybə çəkilməsini* Allahın təqdiri sayıb, Molla Hünkara təskinlik dolu ismarış göndəribmiş. Onu hətta Molla Hünkarın oğlu Əlaəddin Çələbənin də aralarında olduğu yeddi nəfərin öldürdüyü, məsələnin üstü açılmasın deyə, gizlicə dəfn edildiyi, Əlaəddinin qətl

əmrini əxi Evrəndən aldığını, səbəbin də Şəms Təbrizinin tatar çuğulu olduğunu söyləyənlər də var. Bir kərə mürşidimdən bu şaiyələrdən hansını həqiqət saydığını soruşdum, dedi, övladım, həqiqət ancaq Allah-taalaya ayandı. Şəms Təbrizinin öldürülmədiyini, Konyadan qaçıb Xoya getdiyini, üstəlik, dərvişlərdən birinin onu, guya, Təbrizdə gördüyünü eşidəndə mürşidimə bir daha haqq qazandırdım. Mənim – Şəmsəddin Muhammməd əs-Səbzəvarinin – Xorasan, Mavəraünnəhr, Hind diyarlarına getdiyimdən xəbər tutanlar, yəqin, daha bir şaiyə yaymaq fürsəti qazanacaqlar. Amma əsl həqiqət Quyuk xanın ölüm xəbərinin gəlib Sulucaqarahöyükə çatması, mürşidimin də bundan əməlli-başlı əndişəyə qapılmasıydı. Xorasanı tanıdığıma görə, Bəlxə, Kəraçiyə, Multanacan gedib yeni xanın niyyətindən xəbər tutmalı, həm də o diyarlarda təriqətimizin toxumlarını səpməliyəm. Üç ay əvvəl bir yaz günü Ərənlər Şahının öyüdlərini eşidib, əlini öpüb, bağır basıb çıxanda gündoğandan gözlənən təhlükənin böyüklüyünü, deyəsən, dərk eləməmişdim, hamı nəfəsini udub, qulaqlarını şəkləyib Qaraqorumdan gələcək xəbəri gözləyir. Belə çıxırdı, Quyuk xanın Diyari-Rumdakı vuran əli vəzir Şəmsəddin İsfahani öldürüləndən sonra Səlcuqlu səltənətinin başı üstünü də qara bulud alıb. Allah axırını xeyir eləsin.

Dildən pərgar adamların mürşidim Hacı Bəktaş Vəliylə Şəms Təbrizini *(yəni Təbrizli Şəms güman elədikləri məni də)* qarışdırdıqları daha bir məsələ də batinilikdi. Guya, Bəktaş və Menteş qardaşlar atalarının əmisi oğlu Seyid Həsənlə Xorasandan yola çıxıb Xoyda məskən salıblar, Nizari ismaililərinin Meymundiz qalasında on beş il təlim görüblər, Əlamut imamı Əlaəddin Muhammməd də onları dai kimi Diyari-Ruma göndərib; o vaxtlar da Təbrizli Şəms *(yəni mən)* Əlaəddin Muhammədin qardaşı kimi, Kuhistan valisi olmuşam, deməli, həm Bəktaş və Menteşi, həm də Nəsirəddin Muhammməd Tusini himayə eləmişəm; həmin vaxtlar da Kuhistanın baş daisi olan Nəsirəddin

Əbdürrəhman, yaxud Şəmsəddin Muhəmməd Möhtəşəm ismaili təriqətini yaymaq niyyətiylə Təbrizli Şəmsi *(dai Şəmsəddin Muhammədi, deməli, məni)* Multana, Pəncaba, Qucarata göndərib. Amma mən Təbrizli Şəmsin bu tərəflərdə, o cümlədən, dünən gəlib çatdığım Multanda olduğuyla bağlı nə dərvişlərdən, nə karvansarayda söhbətə çəkdiyim kəslərdən bir kəlmə eşitdim; mürşidimin Kuhistan qalalarında təlim almadığına da adım kimi əminəm, çünki Nişaburdan çıxıb Sulucaqarahöyükə yetişənəcən yanında olmuşam, bir müddət Qəzvində, Xoyda, Sivasda yaşadığımızdan başqa bu rəvayətlərdə doğru bir şey yoxdu. İndi məni – Hacı Bəktaş Vəlinin müridi olan səbzəvarlı Şəmsəddin Muhammədi – sabah ismaili daisi Şəmsəddin Muhamədlə, yaxud Cəlaləddin Bəlxinin şeyxi Şəmsəddin Muhammməd Təbriziylə, ya da bizdən sonra gələcək daha bir Şəmsəddin Muhammədlə qarışdırsalar, kimsə təəccüblənməsin, çünki hər şeyin düzünü yalnız Rəbbimiz bilir, onun hüzurunda hər birimizin yerimiz ayrıdı.

Üstəlik, bu rəvayətlərdə xeyli irəli gedənlər də var. Ay yarım əvvəl Həmədandakı təkkədə mükaliməyə girişdiyim bir məlaməti dərvişi mürşidimin də, Şəms Təbrizinin də məlaməti şeyxləri olduqlarını isbata yetirmək üçün çənəsini yordu, İsfahanda rast gəldiyim başqa biri də Şəmsəddin Muhammədin Əlamut daisi kimi Hacı Bəktaş Vəlinin yanına yollandığını, digər dai Bəktaşı Diyari-Ruma imam Əlaəddin Muhammədin razılığıyla Hücət Şəmsəddin Muhammədin yola saldığını, onun da həmin daini Cəlaləddin Bəlxini irşad eləmək üçün Konyaya göndərdiyini elə şirin-şirin danışırdı ki, az qaldım mən də inanam; guya, mürşidim "Yolun daşını təmizləmək – Kəbəyə gedib Ərəfatda daş atmağa oxşayır, sakit yerimək – Ərəfata çatmaqdı", – deyəndə batiniliyi yayırmış, Quranın batini şərhini, yəni təvil edilən Quranı, dailərin "Umm-ül-kitab"ını, Mənsur əl-Jamainin, Həsən-Səbbahın yazdıqlarını Meymundiz qalası

kitabxanasında oxuyubmuş; guya, Meymindizdə Şəmsəddin Muhammməd *(Şəms Təbrizli, yaxud mən)* onu sünni sistanlılarla döyüşə göndərib, o da *(yəni biz)* Rüstəmi-Zal kimi qılınc çalıb, qəhrəmanlıq göstərib. Mürşidimi əlində qılınc təsəvvür eləyəndə məni gülmək tutur, çünki onun qılıncı sözdü, qəlblərə sözləriylə hakim olmağa çalışır, yoxsa Sulucaqarahöyük kimi bir yerdə təkkə qurub könülləri fəth eləyə bilməzdi. Bizans hüdudlarından Hind diyarınadək uzanan ucsuz-bucaqsız məkanda mürşidimin adını eşitməyən, sözlərinin hikmətinə varmayan inanc əhli görmədim.

Dünən gəlib yetişdiyim Multanda Rükni-Əla təpəsindən şəhərə baxanda inancın bizi haralara gətirib çıxardığı barədə düşündüm. Tatar qasırğasından qurtaran, Diyari-Rumda təkkələr, dərgahlar, mədrəsələr quran Xorasan ərənləri səltənət məqamlarında əyləşmiş Əcəm ərləriylə dil tapsaydılar, günbatandan gələn qasırğanın da, günbatandan gözlənən təhlükənin də qabağında sipər kimi dayanmaq olardı. Amma hələ ki, ərənlərlə ərlərin istəkləri üst-üstə düşmür, nəticədə məmləkət də, səltənət də tapdaq altında qalır, bir taxtda üç şahzadə oturur, hərəsinin arxasında da əlində qılınc olan güc sahibləri dayanır. Gündoğandan əndişəli xəbərlər gəlməyə başlayanda mürşidimin necə hallara düşdüyünü gördüm: Qaraqorumun ağzına baxan, üstəlik, İzzəddinlə Rüknəddinin arasında bölüşdürülən, gündoğandan tatarların, günbatandan xaçlıların, güneydən əyyubilərin, quzeydən rumluların basqınlarını hər an gözləyən məmləkətin qurtuluşunun nədə, kimdə olduğunu hələ mürşidim belə, bilmir. Multanda üç ay, beş ay, yaxud beş il qalacağımı söyləmək istəmirəm, hər şey Allahın iradəsindən asılıdı: qəfildən vəziyyət dəyişə bilər, mən də karvansaraylarda, təkkələrdə, dərgahlarda, mədrəsələrdə dərvişlərdən, yaxud müridlərdən eşitdiyim bir xəbərlə yenə yollara düşməli olaram. Amma bu dəfə Sulucaqarahöyükə – mürşidimin yanına, yoxsa Səbzəvara – doğu-

lub-böyüdüyüm yerə – gedəcəyimi hələ qət eləməmişəm. Çox istərdim, Səbzəvara qayıdım, özümə yuva qurum, oğlum olsun, ona adımı verim, dünyada bir Şəmsəddin Muhammməd də artsın. Amma şübhəsiz, hər şey Rəbbimin əlindədi.

VII
Xamuşanlı Nəzər:

Təbrizdə hamı məni Dəli Nəzər kimi tanıyır. Bəlkə, söylədiklərimi eşidəndən sonra siz də onlardan birinə çevriləcəksiniz. Amma bunu zərrə qədər də eynimə almıram, həmişə düşündüklərimi söyləmişəm, gərəkli saydığım hərəkəti eləmişəm, savab bildiyim əməldən çəkinməmişəm. Uşaq vaxtı böyüklər öz nəfslərini təmin eləmək üçün məndən yalan söyləməyimi istəyəndə boyun qaçırır, bunun üstündə də çox vaxt döyülürdüm; kimsə nahaq əmələ yol verəndə istər-istəməz qarışır, belə hərəkətimin də əvəzini söyüşlə, təhqirlə, şillə-yumruqla alırdım. Mollaxanadan diliylə əməli düz gəlməyən mollanın üzünə qayıtdığıma görə qovulmuşdum. Bir qış gecəsi evimiz, valideynlərim, bir qardaşım, iki bacım da içində yanandan *(o məqamda üzünə qayıtdığına görə, validim məni evdən aralıdakı anbarçaya salmışdı)* sonra əməlli-başlı havalandım, üstəlik, itirdiklərimdən daha çox o fəlakətdə məni günahkar sayanların latayırlarını eşidib Allaha asi oldum. Tək-tük adamların mənə şəfqətlə baxdıqlarını sezirdim, biri də iki küçə o tərəfdə yaşayan Məlikdad oğlu Əlinin gözünün ağı-qarası tək övladı Muhammədiydi. Bir dəfə onu tifili validinin cəngindən qurtarmışdım, sonra aramızda yalnız ikimizin duyacağımız məhrəm könül bağı yaranmışdı. Onun sərrac qonşumuzun qızı Mehmanəyə necə baxdığını da bircə mən duya bilirdim. O da molla yanında ölüm-zülüm tab gətirdi, mədrəsəyə-filana getmədi, şeyx yanında günlərini, illərini yola verdi, düşmənləri çoxaldıqca düz yolda olduğunu dərk

elədi, sonra da Ərbilə getdiyini eşitdim. Xaraba evdə, mərhəmət əhlinin pənahında, qonum-qoşunun ümidinə yaşamaq dünyanın ən ağır işidi, onda Təbrizdən çıxmış, Ərdəbildə, əmimgildə məskən salmışdım, onun buyruqlarını yerinə yetirir, yediyim bir tikə çörəyin əvəzini verirdim, amma Xarəzmşah Təbrizə girməzdən bir neçə ay qabaq dinazına dözməyib geri qayıtdım. Onda Məlikdadın *Eşq yolu*na düşən oğlunun sorağını Şəms Təbrizi ünvanıyla Bağdaddan, Şamdan aldıq, deyilənə görə, artıq böyük üləma olmuş, amma əvvəlki xasiyyətlərini tərgitməmişdi, qarşısındakı zatın məqamına, mərtəbəsinə, nüfuzuna zərrə qədər də fikir vermədən həqiqət saydığını söyləyirdi.

Allahın bildiyi məsləhətdi, amma ömrüm güman elədiyimdən çox uzun çəkdi, axırda özüm də alın yazımdan rəncidə oldum, hətta darıxmağa başladım. Özbək taxtda olanda, Xarəzmşah Əlaəddin Muhammməd Təbrizi tutanda, tatarlar camaatın başı üstünü Əzrayıl kimi kəsdirəndə hamı canın hayına qalırdı, amma o məqamlarda belə, tikəsini mənimlə bölüşənlər tapıldı, onların şəfqəti sayəsində Allah-taala, elə bil, məndən aldıqlarının əvəzini dözümlə verdi. Xarəzmşah Cəlaləddin ölən il Məlikdad oğlu Əli də xəstəliyə əyildi, bəlkə də oğlunun xiffətindən içi çürüdü, o binəvanı torpağa tapşırdıq, övrəti az sonra evi-dükanı satıb qardaşının yanına köçdü, onun da beş-altı il qabaq Haqqın rəhmətinə qovuşduğunu eşitdim. Şəmsin bütün bunlardan xəbər tutub-tutmadığını bilmirəm, deyilənə görə, Hələbə, Qeysəriyyəyə, Ərzuruma, Sivasa... üz tutub, heç kəs də kimi, ya da nəyi axtardığından baş açmayıb. O, elə uşaqlıqdan başqa havayla yaşayırdı, buralarda duruş gətirməyəcəyi həmin vaxtdan bəlliydi. Qalsaydı, uzaqbaşı, mənim kimi, dəli sayacaqdılar, Xamuşan məhəlləsinin Dəli Nəzərlə yanaşı, Dəli Muhammədi də olacaqdı. Axırıncı sorağını Konyadan almışdım, Şeyx Əbu Bəkrin mədrəsəsində birgə oxuduqları, şeyxi öləndən sonra yerinə keçib dərgahın başçısı olan, məndən şəfqətini heç

əsirgəməyən Zeynəddin Kəlusidən eşitmişdim. Dediyinə görə, Şəms Konyaya gedib çıxıb, Sultan-ül-üləma Bəhaəddin Vələdin oğlu Molla Cəlaləddin Bəlxinin şeyxi olub, onu dərsxanadan, minbərdən, məclislərdən uzaq salıb, səmaya alışdırıb, bu səbəbdən, cəmi Konya əhli binəvaya qənim kəsilib, dəfələrlə öldürmək istəyiblər, hətta düşmənlərinin əlindən Şama qaçıb, amma Molla Cəlaləddin ondan əl çəkməyib, yalvar-yaxarla geri qaytarıb. Zeynəddin deyirdi, Şəms Konyadan salamat çıxsa, möcüzə olar, çünki xalq sahib olduğuna şərik çıxmaq istəyənləri heç vaxt bağışlamır.

Bir məhəllənin iki dəlisi olmasıq da asan məsələ deyil. Məndən xeyli cavan olan Dəli Şəhmir çox qəribə zatdı, şirin söhbətləri var, danışdıqlarına qulaq asanda adam nəfəs almaq istəmir, amma öz-özlüyündə saf-çürük eləyəndə eşitdiklərinə inanmaq çətin olur. Ötən ay bərk xəstələndim, bir həftə xarabamdan bayıra çıxmadım, Allah adamı olan qonşumlarım hər gün baş çəkdilər, övrətlərinin bişirdiklərindən gətirdilər, həm də Zeynəddin Kəlusiyə xəbər çatdırdılar, o da dərgahın aşxanasından əlinə keçəni daşıdı, üstəlik, təbib çağırıb yoxlatdırdı, hər gün müridinin birini göndərdi ki, qulluğumda dursun. O bir həftədə özümü-sözümü bilməmişdim, az-çox düzələndə fikirləşirdim, daha ömür möhlətim bitib, hətta Allahın işinə qarışmaq kimi çıxmasın, möhlətdən xeyli çox yaşamışam, bununla da fani dünyayla haqq-hesabı üzərəm. Amma Rəbbim ömür möhlətimi özümdən xəbərsiz yenə uzadıbmış, iki həftədən sonra qalxdım, yavaş-yavaş bayır-bacada dolaşdım. Bir gün də Şəhmir gəlib çıxdı, halımdan hali oldu, ordan-burdan söhbət elədi, məhəllədə, şəhərdə, məmləkətdə dolaşan xəbərləri çatdırdı, qəfildən də söhbəti hərlədib-fırladıb Məlikdad oğlu Əlinin üzünü görmədiyi, ancaq adını eşitdiyi sərgərdan övladı Muhammədin üstünə gətirdi. Ardınca ondan elə ağlagəlməz şeylər eşitdim ki, dərd-azarım belə yadımdan çıxdı.

Guya, Şəmsi Molla Cəlaləddinin yanına Hacı Bəktaş Vəli göndəribmiş, gedəndə də deyibmiş, başlı gedib, başsız gələrsən. Dediyinə görə, Şəms irşadını başa vuranacan müridinin kiçik oğlu qız məsələsi üzündən ona qəlbində kin bəsləyibmiş, qız öləndən sonra da gedib xəlvətxananın qapısını kəsdirib, qılıncını çəkib, dərvişə Şəmsi çağırmağı əmr eləyib, dərviş yazıq da canının qorxusundan içəri girib, deyib, Şeyxim, sizi istəyirlər; Şəms həmin məqamda vədəsinin çatdığını başa düşüb, deyib, gəlirəm, qapıdan çıxanda da yolsuz vələd qılıncla onun mübarək başını kəsib; amma o Allahın əziz bəndəsi başını yerə düşməyə qoymayıb, fəryad eləyib, deyib, ey Hünkar Bəktaş Vəli, məni tut, Xudanın təqdiri, pirimin nəfəsi varlığını sənin əlinlə bildirdi, özünün də, təriqətinin də əbədi olmasını diləyirəm; sonra O-nun yolu, öz dostu, İlahi lütf barədə daha nələrsə söyləyib, başını ikiəlli tutub, səma eləyə-eləyə *qeybə çəkilib*; Şəmsin başına gələn vaqeə də Həzrəti-Hünkara məlum olub, Şəms Təbrizinin başsız qayıtdığını bilib, yerindən qalxıb, dərgahın qapısından çıxıb, həmin məqamda da Şəms yetişib, Həzrəti-Hünkarın ayaqlarına döşənib, niyaz eləyib, üzr diləyib, o da mübarək diliylə deyib, ey Şəms Təbrizi, başını da götür, get, məqamın Təbriz məmləkətində olsun, səni istəyən orda axtarıb tapsın, di, durma, tez yola rəvan ol; Şəms Təbrizi də dərhal ərənlərin şahına "başım üstə" deyib, sonra başı qucağında Təbrizə yollanıb.

Şəhmirin söylədiyinə görə, Molla Hünkar onun "Məni tut, ey Hünkar Bəktaş Vəli!" dediyini eşidəndə sevinc içində, ayağı yalın, başı-sinəsi açıq xəlvətxanadan çıxıb, Şəms Təbrizini axtarıb, tapa bilməyəndə onun ardınca Sulucaqarahöyük yoluna rəvan olub, özünü Həzrəti-Hünkar Hacı Bəktaş Vəlinin astanasına çatdırıb, ərənlər şahıyla görüşüb, dərhal da Şəmsi soruşub; Həzrəti-Hünkar deyib, Şəms Təbrizi bura gəlmişdi, ona dedim, get, məqamın Təbrizdə olsun, səni axtaran orda tap-

sın, indi getsən, Can Dostunu Təbriz məmləkətində, Xamuşan məhəlləsində tapa bilərsən; Molla Hünkar da tez yola düzəlib, özünü Təbrizə çatdırıb, Xamuşan məhəlləsini soraqlayıb tapıb, bir də görüb ki, Can Dostu məhəllə məscidinin yaşıl minarəsi üstündə səma süzür; deyib, Allaha şükür, onu tapdım, sonra minarənin qapısından içəri girib, yuxarı çıxıb, amma baxıb ki, heç kəs yoxdu, aşağı nəzər salanda Can Dostunun indi də yerdə səma süzdüyünü görüb; tələm-tələsik aşağı enib, yenə kimsəni görməyib, yuxarı baxıb, artıq orda səma süzdüyünü sezib, bir daha yuxarı qaçıb, genə kimsə gözlərinə dəyməyib, beləcə, yeddi dəfə minarəyə çıxıb-enib; yeddinci dəfə qalxanda deyib, ey Şəms Təbrizi, məni tut, sonra özünü aşağı atıb, Şəms də sağ əlini uzadıb, Molla Hünkarı tutub, Can Dostunun bir tükünə də zərər dəyməyib; Şəms onu yerə qoyub, deyib, məni burda yuyub, kəfənləyib, namazımı qılıb, dəfn eləyərsən, ardınca da Həzrəti-Hünkar Hacı Bəktaş Vəlinin dərgahına gedərsən, səni irşad eləyib, nəsibini verər.

Şəms vəsiyyətini bitirib, yerə uzanıb, dərhal da canını tapşırıb, Molla Hünkar da onun vəsiyyətini yerinə yetirib, Can Dostunu urvatdayıb Gəcilin üləmalar qəbirstanlığında dəfn eləyəndən sonra Təbrizdən çıxıb, Diyari-Ruma, Hacı Bəktaş Vəlinin dərgahına yollanıb, Ərənlər Şahını vaqeədən hali eləyib, üstəlik, qırx gün aşevində qalıb, qara qışı orda başa vurub, Can Dostunun yadigar məqamında əyləşib, şeyxini yad eləməklə qırx gün çilə çıxarıb; qırx gündən sonra Həzrəti-Hünkar Hacı Bəktaş Vəli Molla Hünkarı hüzuruna çağırıb, xəlifələrindən birinə onu təraş eləməyi buyurub, Allahü-əkbər söyləyib, külahını başına qoyub, kürəyini oxşayıb, yanağını sığallayıb, əlinə sancaq və ələm verib, mövləvi yolunu tutmağı buyurub, başqa bir çox nəsihətləriylə onu irşadlandırıb; Molla Hünkar da Ərənlər Şahının söylədiklərinə “başım üstə” deyib, ordakı ərənlərlə halallaşıb

eləyib, Konyaya doğru yola çıxıb, ora çatanda da öz məqamında Ərənlər Şahının buyruğu üzrə ömür sürməyə başlayıb.

Bilmədim, Şəhmirin söylədiklərini həqiqət, yoxsa, dərvişlərin ağızdan-ağıza ötürdükləri rəvayət sayım. Zeynəddin Kəlusidən eşitdiyimə görə, o biçarə, sərgərdan Şəmsin kəlamıdı, deyib, sözlər – həqiqət deyil, ağızdan çıxan səslərdi, həqiqəti öyrənmək üçün sözə yox, yaşamağa ehtiyac var. Amma mənim bu həqiqəti öyrənmək üçün daha ömür möhlətim qalmayıb, yəqin, fani dünyayla aramdakı son bağ da bu gün-sabah qopar. Yenə Zeynəddinin şəhadətinə görə, Şəms deyib, dərdini sadə sözlərlə danışan adam dərdli, gözəl ibarələrlə danışan söz əhli, halıyla danışan aşiq, təbəssümüylə pərdələyən arifdi – mənim kim olduğumu, yəqin, halımdan xəbərdar olanlar anlayarlar. Şəms həm də buyurub ki, gözəl gülü, gözəl gecəni, gözəl dostu hamı istəyər, vacib olan gülü tikanıyla, gecəni sirriylə, dostu bütün dərdiylə sevməkdi. Onun fəqir Allah bəndəsini Bağdadda, Şamda, Hələbdə, Qeysəriyyədə, Ərzurumda, Sivasda, Konyada – fani dünyanın yollarında – xatırlayıb-xatırlamadığını bilmirəm, amma bir Allah şahiddi ki, mən bu uzun ömrümdə Şəmsi heç unutmadım. Axırıncı görüşümüzdə demişdi, insan gərək niyyət eləsin, yoluyla getsin, qədər niyyətə aşiqdi, bir gün çəkdiyi zəhmətin əvəzini alar. İndi Şəmsin adı da, kəlamları da dildə-ağızda gəzir, arif məclislərində söylənirsə, başına gələnlər həqiqi vaqeələr rəvayətdən seçilmirsə, bu, niyyət eləyib *öz yolu*yla getməsinin nəticəsidi.

Şəmsin asan ömür yaşadığını düşünmürəm, şəhərdən-şəhərə getmək, karvansaray, müsafirxana, dərgah, mədrəsə hücrələrində tək-tənha gün keçirmək, nəfsini öldürüb kimsədən yardım, minnət, ianə gözləmədən öz əlinin əməyiylə keçinmək, Allahın lütflərinə qail olmaq, cahillər, yarımçıqlar, qanmazlarla söz cənginə çıxmaq, üləmalar, ariflər, alimlərlə döş-döşə gəlmək ağır işdi. Amma yenə də xoşbəxtdi, çünki qəlbində təcəlli eləyən

*Allah Eşqi*ni gizlətmədi, *O*-na yetmək üçün rahat həyatdan əl çəkdi, yollara düşüb diyarbadiyar gəzdi, *Eşq*i danışıla-danışıla dillərə düşdü, mən binəva kimi öz içinə gömüb, üstündə ağı demədi. O *Eşq*in çınqısı mənim içimə də düşmüşdü, işığını tutub gedə, *O*-na yetməsəm də, həyatıma məna qata bilərdim, amma qismət olmadı, dərdə yenildim, çahillərlə qovğaya qədərindən çox vaxt sərf elədim, yolum da Ərdəbildən o tərəfə keçmədi. Şəms demiş, ey könül, indi səndən soruşuram, hansı *Eşq* daha böyükdu: danışılıb dilə düşən, yoxsa, danışılmayıb ürək deşən?

MƏQAMLAR

HEKAYƏTİN MƏBƏDİ

DÖRD CANIN YEDDİ ÖLÜMÜ 5

BİRİNCİ MƏQAM: TƏBRİZ

ÖZ GÜNƏŞİMİ AXTARMAĞA GETDİM... 21

İKİNCİ MƏQAM: BAĞDAD

BAĞDADDA QƏRİB BİR DƏRVİŞ..... 51

ÜÇÜNCÜ MƏQAM: ŞAM

“EY MƏNA ALƏMİNİN SAHİBİ, MƏNİ AXTARIB, TAP!”..... 85

DÖRDÜNCÜ MƏQAM: HƏLƏB

ARXAMCA GƏZƏN KÖLGƏ..... 143

BEŞİNCİ MƏQAM: QEYSƏRİYYƏ

ƏVVƏLCƏ SURƏTİMİ TAPDIM... 165

ALTINCI MƏQAM: ƏRZURUM

BELƏ DOSTA CANIM FƏDA..... 219

YEDDİNCİ MƏQAM: SİVAS

QAPIMIZI YOX, QƏLBİMİZİ DÖYƏN BUYURSUN... 281

SƏKKİZİNCİ MƏQAM: QEYSƏRİYYƏ

YEDDİNCİ QAPININ KİLİDİ 323

DOQQUZUNCU MƏQAM: MALATYA

BU DƏFƏ MƏN KÖLGƏMİN DALIMCA DÜŞDÜM..... 351

ONUNCU MƏQAM: QEYSƏRİYYƏ

ÜZÜMƏ AÇILAN YEDDİNCİ QAPI 373

ON BİRİNCİ MƏQAM: KONYA

ÜMMANIM ÜMMANA QOVUŞDU 393

ON İKİNCİ MƏQAM: ŞAM

GƏL, EY ŞƏMS! 439

ON ÜÇÜNCÜ MƏQAM: KONYA

QEYBDƏN ƏVVƏL..... 459

HEKAYƏTƏ SON SÖZ

QEYB, YAXUD YEDDİ ÖLÜM 489

Əbdülrəhmanlı N.
ŞƏMS
(roman-qeybnamə)

Ölçü: 130x200
Cil: yumşaq
Çapa imzalandı:

Qanun nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing